AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ



# AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYATININ DAVAMLI İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU

## RESPUBLİKA ELMİ KONFRANSI

NAXÇIVAN - 2020

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ**

# “AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİYYATININ DAVAMLI İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU”

MÖVZUSUNDA
RESPUBLİKA ELMİ KONFRANSININ
MATERİALLARI

***29 fevral 2020-ci il***

*Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 13 iyul 2020-ci il tarixli 10 saylı qərarı ilə nəşr edilib.*

**NAXÇIVAN - 2020**

*Naxçıvan Dövlət Universiteti. "Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu" mövzusunda respublika elmi konfransının materialları, Naxçıvan, "Qeyrət" nəşriyyatı, 2020, 270 səh.*

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Elbrus İsayev,** *Naxçıvan Dövlət Universitetinin rektoru – sədr*

**Üzvlər:**

**Ağarza Rüstəmov-** *iqtisad elmləri doktoru, professor*

**Zəhmət Şahverdiyev-** *AMEA-nın muxbir üzvü, professor*

**Əşrəf Ələkbərov-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Ceyhun Mahmudov-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Mehdi Bağırov-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Nuriyyə İbrahimova-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Mehriban İmanova-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**Havva Adıgözəlova-** *iqtisad üzrə fəlsəfə doktoru, dosent*

**BURAXILIŞA MƏSUL:** **Teymur Abbasov**
*iqtisad elmləri doktoru, professor*

## PLENAR İCLAS

**ELBRUS İSAYEV**
*Naxçıvan Dövlət Universitetinin rektoru*
*tarix üzrə fəlsəfə doktoru, dosent*

# MÜASİR İNNOVASİYALI İNKİŞAFIN TƏMİN EDİLMƏSİ: ELM-TƏHSİL-İQTİSADİ FƏALİYYƏT ZƏNCİRİ

***Açar sözlər:*** *innovativ inkişaf, innovativ təhsil, innovasiya prosesi, elmi-texniki tərəqqi, innovasiya potensialı, innovasiyayönümlü iqtisadiyyat*

***Ключевые слова:*** *инновационное развитие, инновационное образование, инновационный процесс, научно-технический прогресс, инновационный потенциал, инновационная экономика.*

***Key words:*** *innovative development, innovative education, innovation process, scientific and technical progress, innovation potential, innovation-oriented economy*

XX əsrin sonlarında kifayət qədər mürəkkəb sayılan bir şəraitdə yenidən dövlət müstəqilliyini qazanan Azərbaycan Respublikasının qısa zamanda böyük inkişaf yolu keçməsi, davamlı və dayanıqlı iqtisadi inkişaf dövrünü yaşaması müstəqilliyimizin ən böyük uğurlarındandır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan iqtisadi siyasətin uğurlu davamı kimi Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən islahatların başlıca məqsədlərindən biri də ölkəmizdə innovasiyaların inkişafı üçün zəruri olan bütün şərait və imkanların, son nəticədə rəqabətədavamlı milli innovasiya sisteminin yaradılmasıdır. Bu gün müasir dünya bazarına çıxış üçün həlledici amil rəqabətqabiliyyətli və innovativ sənayenin yaradılması və inkişaf etdirilməsidir.

Müasir tələblərə uyğun olaraq, Azərbaycan Respublikasının iqtisadi inkişaf strategiyası xammala əsaslanan iqtisadiyyatdan yüksək texnologiyalara, innovasiyalara əsaslanan iqtisadiyyata keçidi nəzərdə tutur. Enerji resurslarının ixracından əldə edilən vəsaitlər qeyri-neft sektorunun formalaşmasına, insan kapitalının inkişafına yönəlir. Ölkəmizdə reallaşan "qara qızılı insan kapitalına çevirmək" siyasəti dünyanın müasir inkişaf meyillərinə uyğundur, çünki bu gün hər hansı ölkənin zənginliyi onun insanlarının təhsil səviyyəsi ilə ölçülür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "İnsan kapitalı inkişaf etmiş ölkələrin indiki durumunu müəyyən edən amildir. Həmin ölkələr təbii resurslar hesabına yox, intellektual potensiala, yeni texnologiyaların icad olması, tətbiqinə görə inkişaf edirlər. Biz də bu yolu seçməliyik".

Hazırda innovasiya fəaliyyətinin genişləndirilməsi və tətbiqinin sürətləndirilməsi məqsədilə bütün istiqamətlərdə stimullaşdırıcı mexanizmlərin işlənib-hazırlanmasına start verilmişdir. Azərbaycan iqtisadiyyatı yaxın gələcəkdə səmərəlilik əsaslı modeldən innovasiya əsaslı modelə keçərək, 2025-ci ildən sonrakı dövrdə adambaşına düşən gəlir səviyyəsinə görə Şərqi Avropa ölkələrinin səviyyəsinə yaxınlaşacaqdır. Şübhəsiz ki, bu məqsədlərə nail olmağın yeganə yolu iqtisadiyyatın innovasiya əsaslı inkişaf modelinə keçilməsi ilə bağlıdır. Bunun üçün qlobal miqyasda rəqabətədavamlı milli innovasiya sisteminin, həmçinin ictimai həyatın bütün sahələrində innovasiya fəaliyyətini dəstəkləyən infrastrukturun formalaşdırılması lazımdır ki, bu da iqtisadiyyatın innovasion və texnoloji inkişafı hesabına təmin oluna bilər. Belə ki, elmi-texniki inqilab yeni şəraitdə innovasiyalı inkişaf formasında davam edir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da qeyd edilir ki, sənayenin innovasiyalar əsasında inkişafı elmi texnologiya potensialının gücləndirilməsi və təhsil imkanlarının genişləndirilməsi nəticəsində mümkün olacaqdır.

Beləliklə, dövlətimiz tərəfindən həyata keçirilən innovasiya siyasəti yeni bilik və texnologiyaların istehsalı, yayılması və tətbiq edilməsi üçün lazım olan şəraitin yaradılmasını nəzərdə tutur. Bu siyasət, ölkənin sosial innovasiya potensialının bütün imkanlarının reallaşdırılmasına, eləcə də elm və təhsilin, elmtutumlu cəmiyyətin və mədəniyyətin davamlı inkişafının bərqərar edilməsinə yönəldilmişdir. Davamlı sosial-iqtisadi inkişafın əsasında olan təhsilin və elmi-texniki tərəqqinin rolunu düzgün qiymətləndirərək, regionda elm siyasətinin əsasını qoyan ulu öndər Heydər Əliyevin kursunu uğurla davam etdirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov son illər muxtar respublikada elmin inkişafı, elmi-texniki potensialın modernləşdirilməsi, elm və təhsil

sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstərilməsi, cəmiyyətdə elm və təhsil işçilərinin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul etmişdir. Elm və təhsilin inkişafına dövlət səviyyəsində göstərilən bu qayğı, əslində dövlətçiliyin möhkəmləndirilməsi və xalqın milli-mədəni tərəqqisinə xidmət edən siyasətin tərkib hissəsi kimi qiymətləndirilməlidir. Bu baxımdan hazırda elm və təhsilin əlaqələndirilməsi, bir-biri ilə inteqrasiya olunmuş şəkildə, müasir texnologiya və innovasiyaların tətbiq edilməsi yolu ilə inkişaf etdirilməsi ən prioritet məsələdir. Bu gün Naxçıvanda məhz bu istiqamətləri əhatə edən dövlət siyasəti aparılır - iqtisadi potensialı intellekt kapitalına çevirmək sahəsində mühüm işlər görülür.

Cəmiyyətin innovativ inkişaf ideyası bir çox ölkələrin inkişaf strategiyasının əsasını təşkil edir. Ölkənin innovativ inkişafı sənaye əsaslı iqtisadiyyatın biliyə əsaslanan iqtisadiyyata keçidini təmin edir. Bu səbəblərdən müasir dünyada elm, təhsil, innovasiyalar və bunların əsasında yaradılan elmtutumlu məhsullar iqtisadi inkişafın əsas amilləridir. XXI əsrdə elmi-texniki ideyalar, elmtutumlu məhsullar, yüksək texnologiyalar, kadrların intellektual və təhsil potensialı millətin, dövlətin rəqabətədavamlılığını, onun innovasiya qabiliyyətini, dayanıqlı iqtisadi inkişafın əsasını təşkil edir.

Qloballaşan dünyada cəmiyyətin yüksəliş tendensiyaları, xüsusən də inkişaf etmiş ölkələrin iqtisadi sıçrayışlarının əsasları araşdırılarkən məlum olur ki, bu inkişafın səbəbləri sırasında elmi innovasiyaların tətbiqi ön sırada dayanır. Heç bir təbii resurs, ticarət dövriyyəsi, kənd təsərrüfatı və s. elmi innovasiyaların gətirdiyi iqtisadi gəlirlərlə müqayisə edilə bilməz. İnnovasiyalı inkişafın təmin edilməsində mühüm amil elm-təhsil-iqtisadi fəaliyyət əlaqələrinin təkmilləşdirilməsidir. Azərbaycanda təhsil-elm-istehsalat zəncirinin təkmilləşdirilməsi haqqında müxtəlif prinsipial xarakterli yanaşmalar mövcuddur. Mövcud olan kadr potensialı, maddi-texniki baza, innovasiyalara əsaslanan inkişaf imkanları nəzərə alınaraq ölkəmizin təhsil ocaqlarının elmi mərkəzlər, elmi-tədqiqat institutları ilə inteqrasiya olunmasına real şərait yaradılır.

Bu gün təhsili elmdən ayrı təsəvvür etmək mümkün olmasa da, sovet dövründə elm, əsasən, akademiya sistemində cəmləşirdi və universitetlər daha çox təhsil mərkəzi kimi qəbul edilirdi. Lakin hazırda inkişaf etmiş dünya dövlətlərində universitetlər ilk növbədə elm mərkəzləri kimi formalaşır və təhsil prosesi elmi innovasiyalar əsasında qurulur. Beləliklə, universitetlər cəmiyyətin tələbat və ehtiyaclarını ödəmək üçün elm-təhsil mərkəzləri kimi formalaşır. Qloballaşan dünyaya inteqrasiya etmək üçün bizdə də bu gün universitetlər belə bir missiyanı yerinə yetirməlidir.

Təhsildə modernləşmənin əsas məqsədi bu gün reallaşan kütləvi təhsil şəraitində yüksək keyfiyyətə nail olmaqdır. İnkişaf etmiş ölkələrin təhsil sistemləri qlobal tendensiyalara uyğun inkişaf edir. Qlobal tendensiyalar isə dünyanın yeni inkişaf səviyyəsi ilə müəyyən edilir. İnformasiya cəmiyyəti şəraitində təhsilin statusu daha da yüksəlir. Təhsil sisteminin vəzifəsi iqtisadiyyatın inkişafını stimullaşdırmaq, cəmiyyətin və əmək bazarının sürətlə dəyişən tələblərinə uyğun olaraq, mütəxəssis hazırlığını təmin etməkdir. İqtisadi fəaliyyətin yeni mühiti - qlobal şəbəkə iqtisadiyyatı və elektron kommersiya xidmətləri sürətlə inkişaf edir. Belə şəraitdə bir çox ölkələr texnoloji inkişafı hədəf seçərək, az zaman kəsiyində intensiv sosial-iqtisadi inkişafa nail ola biliblər.

Məlum olduğu kimi, ölkəmizdə elm və təhsilin inkişafı üçün daha əlverişli maliyyə imkanları yaranır. Azərbaycanda elm və texnologiyanın inkişafı, qabaqcıl innovasiya sisteminin yaradılması və tətbiqi dövlət siyasətinin strateji məqsədlərindəndir. Bu məqsədlərə elmi tədqiqatların və innovasiya siyasətinin səmərəsini artırmaq, ölkəni texnoloji cəhətdən modernləşdirmək, insanın bu və ya digər sahədəki fəaliyyət səmərəsinin yüksəldilməsinə yönələn innovasiyalardan geniş istifadə məsələləri daxil edilmişdir. İnformasiya cəmiyyətində mükəmməl bir sistemin tərkib hissələri kimi elm, təhsil və istehsalatın inteqrasiyası biliyə əsaslanmalıdır.

Müasir cəmiyyətdə insan fəaliyyətinin bütün sahələrini transformasiya etdiyi kimi, dünya təhsil sisteminə, xüsusən də ali təhsil sisteminə ciddi təsir göstərməkdədir. İnformasiya məkanında universitetlər elm və innovativ inkişaf mərkəzlərinə çevrilirlər, bu zaman əsas məqsəd təhsil innovasiyalarının yaradılması və yayılmasıdır. Universitetdə innovativ proses yeniliklərin yaradılması, tətbiqi, yayılması istiqamətində kompleks fəaliyyət olub, elmi tədqiqatların, idarəetmə qərarlarının, maddi-texniki infrastrukturun yaradılması və inkişafını nəzərdə tutur. Universitetin innovativ

fəaliyyəti təhsil mühitinə yeni və səmərəli elementlərin daxil edilməsinə imkan verən məqsədyönlü dəyişiklikdir. Bu tip fəaliyyət təhsildə məzmunun, formanın, metodların, texnologiyaların, vasitələrin, idarəetmə sistemlərinin inkişafı və səmərəsinin yüksəldilməsinə xidmət edir. Universitetin innovativ fəaliyyəti nəticəsində rəqabətqabiliyyətli kadrlar hazırlamaq mümkün olur.

Universitetin rəqabətqabiliyyətli müasir təhsil müəssisəsi kimi formalaşması üçün onun fəaliyyəti təlim-tərbiyə və elmi-tədqiqatla yanaşı, innovativ fəaliyyət istiqamətini də əhatə etməlidir. İnnovasiyalar universitetin bütün struktur bölmələrinin fəaliyyətində mühüm amil olmalıdır. Müasir universitetin inkişaf strategiyası innovasiyalara əsaslanmalıdır. Universitetin yeniliklərə, innovasiyalara açıq olması, innovativ inkişaf yolunu tutması onun sürətlə inkişaf edən qlobal tələblərə uyğunlaşması, rəqabətədavamlı olması üçün mühüm şərtdir. Belə universitetlər davamlı olaraq elm-təhsil prosesinin məzmununu, texnologiyasını təkmilləşdirərək inkişaf edirlər. Müasir universitetlərə xas olan geniş muxtariyyət, elm və təhsil proseslərinin vəhdəti, məhsuldar innovativ fəaliyyət, sənaye və bizneslə möhkəm əlaqələrin qurulması XX əsrin sonuna yaxın sürətli elmi-texniki inkişafı təmin etmişdir.

Son zamanlar Naxçıvan Dövlət Universitetində tədris prosesinin elmi tədqiqatla əlaqələndirilməsi, elm və təhsilin istehsalatla inteqrasiyasının gücləndirilməsi, tələbə, magistrant və doktorantlarda tədqiqatçılıq və peşə fəaliyyəti üçün zəruri olan praktiki bilik, bacarıq və vərdişlərin formalaşdırılması, müxtəlif elm sahələrində elmi yeniliklərin və innovasiyaların tədris prosesinə tətbiqi, müvafiq ixtisas sahələri üzrə aparıcı mütəxəssislərin tədris prosesinə cəlb edilməsi və birgə elmi tədqiqatların aparılması məqsədi ilə istehsalat müəssisələri arasında əlaqələr gücləndirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 03 aprel 2019-cu il tarixli Sərəncamının icrası məqsədilə nazirliklər, komitələr və digər qurumlarla birlikdə mütəmadi olaraq, tələbələr və universitet əməkdaşları tərəfindən startap lahiyələrinin hazırlanması və reallaşdırılması istiqamətində işlər diqqət mərkəzində saxlanılır.

Ali təhsil müəssisələri və biznes strukturları arasında tərəfdaşlıq və əməkdaşlıq əlaqələrini qurmaq, tələbələrin biliklərə əsaslanan iqtisadiyyata keçidin təmin edilməsinin prinsiplərini öyrənmək, öz ideyalarını praktikada tətbiq etmək məqsədilə Naxçıvan Dövlət Universitetində "Startap" hərəkatının kütləviliyi diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə universitetdə "İnnovasiya mərkəzi" yaradılmış, tələbələrlə daim bu sahədə iş aparılmış, hazırlanan layihələr mütəxəssislər tərəfindən müzakirə olunmuşdur. Startap layihələrinin dəstəklənməsi və bu sahədə əməli nəticələrin əldə olunması Naxçıvan Dövlət Universitetinin əsas məqsədlərindən biridir. Hazırlanan layihələrin həm tələbələr, həm universitet, həm də sahibkarlıq subyektləri üçün səmərəli olması bu sahədə gələcək fəaliyyətin əsas hədəflərindən biri hesab olunur.

İnkişaf etmiş ölkələrin iqtisadiyyatında bu gün tədqiqat universitetləri aparıcı mövqeyə malikdirlər. Onların gəlirlərinin mühüm hissəsi təhsil xidmətləri hesabına deyil, innovativ fəaliyyət hesabına formalaşır. Qabaqcıl universitetlərdə aparılan tədqiqatlar nəticəsində ənənəvi universitetlərin innovasion universitetlərə transformasiya texnologiyası yaradılmışdır. Bu universitetlər elm, təhsil və istehsalat kompleksi kimi fəaliyyət göstərərək təhsil, istehsalat və biznes strukturlarını özündə üzvi şəkildə birləşdirir. Yüksək elmi potensiala malik belə universitetlər müxtəlif elmi və biznes ideyalar irəli sürür, öz tərkibində olan texnoparklarda və biznes-inkubatorlarda bu ideyaları praktik olaraq reallaşdırırlar. Tanınmış şirkətlər bu universitetlərdə öz elm və istehsalat şöbələrini yaradırlar. Bu universitetlərin mənfəətinin mühüm hissəsi elm və innovasiyalar hesabına formalaşır.

Milli innovasiya sisteminin formalaşmasında, inkişafında, cəmiyyətin innovativ səviyyəsinin yüksəldilməsində, innovasion mədəniyyətin formalaşmasında universitetlər lider olmalıdırlar. Bilik, informasiya dünya təhsil sisteminin inkişafında həlledici amilə çevrilir. İqtisadi inkişaf ölkədə insan potensialının formalaşmasını təmin edən ali təhsilin və öyrənmənin fasiləsizliyini təmin edən əlavə təhsilin innovativ inkişaf sistemi olmadan mümkün deyil.

Bu gün daha çox elmi informasiya istehsal edən ölkələrlə yanaşı, bu informasiyadan səmərəli istifadə, praktikada operativ tətbiq edən ölkələr də intensiv inkişaf edir. İqtisadi inkişaf üçün innovativ biliklərin, informasiyaların hansı regionda yaranmasının əhəmiyyəti yoxdur, əsas bu ideyalardan tez və

səmərəli istifadə bacarığıdır. İnnovasiya yeni informasiyadan, elmi nailiyyətdən, ixtiradan pul qazanmaq, əqli əməyin məhsulunu bazarda sərfəli şəkildə sata bilmək qabiliyyətidir. Ölkəmizdə innovasiya təşkilatlarının, eləcə də innovativ universitetlərin uğurlu fəaliyyəti üçün vacib olan uyğun iqtisadi mühitin yaranması əsas məsələlərdəndir. Bu mənada keçirilən "Azərbaycan Respublikası iqtisadiyyatının davamlı inkişafında innovasiyaların rolu" adlı respublika elmi konfransı böyük əhəmiyyətə malikdir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı
2. Əzizova G. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı, 2012
3. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, 2009
4. Atakişiyev M., Süleymanov Q. İnnovasiya menecmenti. Bakı, 2004


## РЕЗЮМЕ

**Эльбрус Исаев**


### ОБЕСПЕЧЕНИЕ СОВРЕМЕННОГО ИННОВАЦИОННОГО РАЗВИТИЯ: ЦЕПОЧКА НАУЧНО-ОБРАЗОВАТЕЛЬНОЙ И ЭКОНОМИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ

За короткое время Азербайджанская Республика прошла большой путь развития, пережила период продолжительного и устойчивого экономического развития. В целях расширения и ускорения внедрения инновационной деятельности в современный период дан старт разработке стимулирующих механизмов во всех направлениях. Инновационная политика, проводимая государством, предполагает создание необходимых условий для производства, распространения и применения новых знаний и технологий. Эта политика направлена на реализацию всех возможностей социального инновационного потенциала страны, а также на устойчивое развитие науки и образования, наукоемкого общества и культуры.

Важным фактором в обеспечении инновационного развития является совершенствование связей научно-образовательной и экономической деятельности. В Азербайджане существуют различные принципиальные подходы к совершенствованию учебно-научно-производственной цепочки. Учитывая имеющийся кадровый потенциал, материально-техническую базу, возможности инновационного развития, создаются реальные условия для интеграции учебных заведений нашей страны с научными центрами, научно-исследовательскими институтами.


## SUMMARY

**Elbrus Isayev**


### ENSURING MODERN INNOVATIVE DEVELOPMENT: SCIENCE-EDUCATION-ECONOMIC ACTIVITY CHAIN

The great development of the Republic of Azerbaijan in a short period of time, its durable and sustainable economic growth is one of the greatest achievements of our independence. The development of incentive mechanisms in all directions has already begun in order to expand innovation activity and accelerate its implementation in modern times. The innovation policy implemented by the state aims to create the necessary conditions for the production, dissemination and application of new knowledge and technologies. This policy provides for the realization of all the opportunities of the country's social innovation potential, as well as the establishment of sustainable development of science, education, science-based society and culture.

The key factor in ensuring innovative development is the improvement of scientific-educational-economic activity relations. There are various fundamental approaches to improve the education-science-production chain in Azerbaijan. The existing human resources, material and technical base, development opportunities based on innovations create real conditions for the integration of educational institutions of our country with scientific centers and research institutes.

**TEYMUR ABBASOV**
*Naxçıvan Dövlət Universiteti*
*teymurabbasov56@mail.ru*

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNNOVASİYAYÖNÜMLÜ İQTİSADİ İNKİŞAF MODELİNƏ KEÇİDİN ZƏRURİLİYİ VƏ DAVAMLI İQTİSADİ İNKİŞAFIN TƏMİN EDİLMƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

***Açar sözlər:*** *innovasiya, qloballaşma, davamlı inkişaf, inkişaf modeli, innovasiya məhsulları, innovasiya prosesi, elmtutumlu*

***Ключевые слова:*** *инновация, глобализация, длительное развитие, модель развития, инновационная продукция, инновационные процессы, наукоёмкий*

***Key words:*** *innovation, globalization, sustainable development, development model, ınnovation products, ınnovation process, science*

XX əsrin 90-cı illərindən sonra dünya iqtisadiyyatında əsaslı dəyişikliklər baş verdi. Bu dəyişikliklər, əsasən, innovasiya ilə əlaqədardır. İnnovasiyanın tətbiqi elmtutumlu məhsulların yaranmasına səbəb oldu. Belə məhsulların alınmasını təmin edən texnologiyalar elmtutumlu texnologiyalar adlandırıldı.

Elmtutumlu texnologiyalardan istifadə edilməsi iqtisadi inkişafın yeni bir istiqamətinin – "İnnovasiyayönümlü iqtisadi inkişafın" yaranmasına səbəb oldu.

İnnovasiyayönümlü iqtisadi inkişaf modeli öz yüksək səmərəliliyini dünyanın inkişaf etmiş ölkələrinin timsalında sübuta yetirdi.

Odur ki, innovasiyanın sürətləndirilməsi son onilliklərdə bir sıra yeni xüsusiyyətlər kəsb etdi. Bu keyfiyyət dəyişiklikləri elm, təhsil, texnika və istehsalın qarşılıqlı təsiri sferasında yaranmağa başladı.

Qloballaşan dünyamızda dünya ölkələrinin inkişafı göstərir ki, iqtisadi inkişafın ən üstün variantı innovasiyayönümlü inkişafdır. İnkişaf etməkdə olan digər ölkələr kimi, Azərbaycan iqtisadiyyatının da gələcək inkişafı innovasiyayönümlü iqtisadiyyata yönəldilməlidir. İnnovasiyanın ölkədə inkişafı olduqca mürəkkəb texniki proseslərin və intellektual potensialın inkişafı ilə üzvü surətdə bağlıdır.

İnnovasiyanın bu cür təsnifləşdirilməsi sorğu və pasportlaşma yolu ilə innovasiya sahibkarlığı subyektlərinin diaqnostikasını aparmağa, hər bir klasterin əsas xüsusiyyətlərini ayırmağa və innovasiya sahibkarlığı subyektlərinin əsas qrpuplarını müəyyənləşdirməyə imkan verir.

Biznesdə innovasiya proseslərinin inkişafı üçün xarici şərtlər ilk növbədə innovasiya infrastrukturunun formalaşdırılması istiqamətləri ilə bağlıdır. Həmin istiqamətlərə aşağıdakılar aiddir:

1. Elmi-istehsal və tədris mərkəzləri sistemlərinin (texnoparklar, texnopolislər, inkubatorlar və s.) yaradılması;
2. İnnovasiya xidmətləri (texnologiya marketinqi, injinirinq, konsaltinq, texnoloji audit və s.) sferasının inkişafı;
3. İnnovasiya proseslərinin informasiya təminatının avtomatlaşdırılmış sisteminin yaradılması;
4. İnvestisiyanın effektiv sığortalanma mexanizminin formalaşdırılması.

"İnnovasiya" terminінə təkcə innovasiya fəaliyyətinin son nəticəsi (yeni məhsul, yeni texnika və ya texnologiyanın mənimsənilməsi, təşkilati və idarəetmə metodlarının yaxşılaşdırılması) kimi deyil, həm də iqtisadi sistemin dayanıqlı inkişafına kömək edən və yeniliyin rəqabətqabiliyyətli məhsula transformasiyasına əsaslanan ən vacib iqtisadi artım amili kimi yanaşmalıdır (8, s.6).

İnnovasiya potensialına maliyyə-iqtisadi və intellektual resursların mövcudluğu, habelə iqtisadi sistemin uğurlu innovasiya fəaliyyətinə hazırlıq səviyyəsini müəyyən edən hüquqi, təşkilati-idarəetmə, maddi-texniki, sosial və informasiya amillərinin məcmusu daxildir.

İnnovasiya inkişafının monitorinqi innovasiya prosesi üzərində fasiləsiz nəzarət və nəticələrin

növbəti təhlili, iqtisadi sistemin vəziyyətinin dəyişmə dinamikasını verən məlumatların toplanması və innovasiya proseslərinin inkişaf meyllərinin aşkara çıxarılmasıdır. Monitorinqin əsası innovasiya texnologiyaları transferinin ayrı-ayrı həlqələrinin qarşılıqlı təsirinin təhlili planlaşdırılması və koordinasiyası üzrə informasiya təminatı sayılır.

İnnovasiya inkişafını yeni və daha yaxşılaşdırıcı texnologiyaların işlənib hazırlanması və reallaşdırılması əsasında təsərrüfat subyektinin iqtisadi artımı kimi müəyyən etmək olar. İnnovasiya inkişafının səviyyəsi həm innovasiya prosesinin resurs tərkibi (innovasiya potensialı) kimi, həm də innovasiya texnologiyaları transferinin effektivliyi ilə müəyyən edilir.

İqtisadi subyektlərin innovasiya inkişafının monitorinq sistemi özünə məlumatların, yeniliklərin, texnologiyaların, innovasiyayönümlü kadrların, müəssisələrin, potensial investorların və innovasiya prosesinin digər elementlərin çox böyük bankını cəlb etməyə qabildir. O, innovasiyanın inkişafının effektiv idarə edilməsi üçün ilkin zəmin yaradır.

Hesab edirik ki, bu zaman innovasiya prosesinin iki hissəyə bölünməsi məqsədəuyğundur:

1. İnnovasiya tsiklinin hər bir mərhələsində resursların və infrastrukturun mövcudluğu;
2. Yeniliyin bir mərhələdən digərinə hərəkətetmə sürəti.

Qeyd etmək lazımdır ki, innovasiya inkişafına həsr olunmuş işlərin əksəriyyətində əsas nəzərə çarpdırılan məsələ innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün iqtisadi sistemin resurs imkanlarının qiymətləndirilməsi sayılır. Lakin əgər təkcə resurs tərkibi yox, həm də innovasiya fəaliyyəti (texnologiya transferi) çərçivəsində resurs axını prosesinin effektivliyi son həllini tapacaqdır.

İnnovasiya prosesi dedikdə, müəssisənin hər bir həlqəsinin işinin rentabelliyinə nəzarət zamanı onun fəaliyyətinin müxtəlif sferalarının balanslaşdırılmasının təkmilləndirilməsi başa düşülür. Bütün yeniliklər firmanın işinin müxtəlif tərəflərinin sistemli, kompleks təhlili əsasında aparılır ki, burada da ən başlıcası alınmış nəticələrin artıq əldə edilənlərlə deyil, bazarın həmin vaxtda malik odluğu potensiala (tutumluluqla) müqayisə etməkdən ibarətdir (9, s.251).

İnnovasiya prosesi yeni növ məhsulun mənimsənilməsi və buraxılan məhsulun modernləşdirilməsini, yeni maşın, avadanlıq və materialların istehsalata tətbiqini, yeni texnologiyalardan və məhsulun istehsalı üsullarından istifadə edilməsini, habelə istehsalın təşkilinin və mütərəqqi idarəetmə metodlarının, vasitə və qaydalarının tətbiqini nəzərdə tutur.

İnnovasiya prosesi müxtəlif yollarla həyata keçirilə bilər. Hər bir konkret halda daha səmərəli yolun seçilməsi texnologiyanın xarakteri, son məhsul bazarı, firmanın potensialı, iqtisadi iqlim, rəhbərliyin səriştəlilik dərəcəsi kimi şərt və amillərdən asılıdır. İstənilən halda müxtəlif qruplar tərəfindən həyata keçirilən çoxüzlü və çoxmərhələli proseslərin, bir çox insanlar, bölmə və təşkilatlar arasında dinamik qarşılıqlı təsirin rolu böyükdür. Bununla yanaşı, həmişə uğur qazanılması maneə və müqavimətin aradan qaldırılması ilə bağlıdır. Odur ki, innovasiyalar təşəbbüssüz və inadsız, habelə istehsal, insan, təşkilati və sosial amillər sahəsində iri xərclər çəkmədən mümkün deyildir.

İnnovasiya prosesini fundamental, tətbiqi tədqiqat, konstruktor işləmələri, marketinq, istehsal, nəhayət, satış mərhələlərini keçən, ardıcıl olaraq ideyanı əmtəəyə çevirən proses kimi-texnologiyanın kommersiyalaşdırılması prosesi kimi müəyyən etmək olar (10, s.9).

Ümumi şəkildə innovasiya prosesi ixtiraların, yeni texnologiyanın, məhsul və xidmət növlərinin, istehsal, maliyyə inzibati və s. xarakterli qərarların və intellektual fəaliyyətin digər nəticələrinin alınması və kommersiyalaşdırılmasından ibarətdir.

İnnovasiya fəaliyyətinin nəticələrinin praktiki reallaşması bazar mərhələsində həyata keçirilməklə özündə aşağıdakıları birləşdirir: bazara tətbiq, bazarın genişləndirilməsi, məhsulun yetkinliyi və tənəzzülü. Seriyadan əvvəlki istehsal mərhələsində təcrübi, eksperimental işlər yerinə yetirilir. Eksperimental işlər elmi tədqiqatların və işləmələrin həyata keçirilməsi üçün zəruri olan xüsusi avadanlığın hazırlanmasına, təmirinə və ona xidmət göstərilməsinə yönəldilmişdir. Sənaye istehsalının mərhələləri aşağıdakılardan ibarətdir: yeni məhsulun məxsusi istehsalı və onun istehlakçılara reallaşması. İnnovasiya məhsullarının işlənib hazırlanması prosesində çox vaxt daha səmərəli variantların seçilməsi lazım gəlir ki, bu da onların müqayisəsini nəzərdə tutur. Tutuşdurulan variantların müqayisəyə gətirilməsi (texnologiya, avadanlıq və s.) istehsal olunan məhsul və xidmətlərin həcmi,

istehsal resurslarına, məhsul və xidmətlərə qiymət və tariflərin səviyyəsi, vaxt amili üzrə təmin edilir. İnnovasiya məhsulları üzrə müqayisə olunan variantların təhlili imkan verir ki, onlardan hər birinin səmərəlilik səviyyəsi müəyyən olunsun. Belə informasiya təkcə məsələnin yekun həlli üçün deyil, həm də innovasiya məhsulunun bu və ya digər variantının tətbiqi üçün vacibdir.

Dünyada innovasiya məhsullarına tələbat daimi artır. Çünki o, bir tərəfdən mövcud istehsalın texniki səviyyəsini və iqtisadi səmərəliliyini yüksəltmək məqsədilə onun təkmilləşdirilməsi və inkişafına, digər tərəfdən isə 39 buraxılan məhsulların yeniləşdirilməsinə, yeni rəqabət qabiliyyətli məmulatların istehsala daxil olmasına şərait yaradır. İnnovasiya məhsullarının işlənib hazırlanması və yaradılması ən çox istehsal müəssisələri (firmaları) arasında bağlanan müqavilələr çərçivəsində, habelə dövlət sifarişləri çərçivəsində həyata keçirildiyinə baxmayaraq, bu məhsulların daha çox həcmi xarici bazara göndərilir.

İnnovasiya məhsulunu öz xarakterinə görə fərdi istehsalın məhsuluna aid etmək olar. Buna görə də onun satış bazarı xalis inhisarın əlamətlərinə uyğun gəlir və hər şeydən əvvəl satıcılar qiymətə əhəmiyyətli təsir göstərmək qabiliyyətinə malikdirlər (9, s.69).

Dünyada innovasiya məhsullarına tələbat daimi artır. Çünki o, bir tərəfdən, mövcud istehsalın texniki səviyyəsini və iqtisadi səmərəliliyini yüksəltmək məqsədilə onun təkmilləşdirilməsi və inkişafına, digər tərəfdən isə buraxılan məhsulların yeniləşdirilməsinə, yeni rəqabət qabiliyyətli məmulatların istehsala daxil olmasına şərait yaradır. İnnovasiya məhsullarının işlənib hazırlanması və yaradılması ən çox istehsal müəssisələri (firmaları) arasında bağlanan müqavilələr çərçivəsində, habelə dövlət sifarişləri çərçivəsində həyata keçirildiyinə baxmayaraq, bu məhsulların daha çox həcmi xarici bazara göndərilir.

İnnovasiya məhsulunu öz xarakterinə görə fərdi istehsalın məhsuluna aid etmək olar. Buna görə də onun satış bazarı xalis inhisarın əlamətlərinə uyğun gəlir və hər şeydən əvvəl satıcılar qiymətə əhəmiyyətli təsir göstərmək qabiliyyətinə malikdirlər.

İnnovasiya prosesinin idarə edilməsi sahəsində mövcud olan qanunauyğunluqları haqqında danışarkən qeyd etmək lazımdır ki, innovasiyanın işlənib hazırlanması və praktiki reallaşması prosesinin idarə edilməsi elmdə müstəqil istiqamətə çevrilir. İnnovasiya prosesinin daim inkişaf təmayülü müasir müəssisə üçün başlıca obyektiv zərurətə çevrilmişdir. Azərbaycanın istənilən kommersiya strukturunun həyat qabiliyyəti işlərin innovasiya cəhətdən yenidən qurulmasındakı nailiyyətlərin dərəcəsindən birbaşa proporsional asılılıqda yerləşir. Şirkətin fəaliyyətinin bütün funksional sferalarında yeniliklərin yaradılması və səmərəliliyin yüksəldilməsi prosesi planlaşdırmanın, elmi tədqiqatların, layihələrin işlənib hazırlanmasının, məhsul istehsalının, marketinqin, bir sözlə, bazarda bütün salamatqalma prosesinin ayrılmaz sisteminə çevrilmişdir. Müəssisələrin əksəriyyətində innovasiya tədbirlərinin tətbiq sferasının genişlənməsini və səmərəliliyin keyfiyyətinin yüksəldilməsini təmin edən xüsusi bölmələr, xidmətlər yaradılmalıdır. İnnovasiya sisteminə çox tez-tez, yeniliklərin yaradılması prosesinin idarə edilməsi, kollektivin yaradıcılıq potensialının daha yaxşı istifadə edilməsi daxil olunur.

## ƏDƏBİYYAT


1. "Müəssisələr haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 1996
2. Məhsulların (işlərin və xidmətlərin) sertifikatlaşdırılması haqqında "Əsasnamə". Bakı: 1998
3. Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı (14 aprel 2009-cu il)
4. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı" Dövlət Proqramı (2004-2008-ci illər). Bakı: Nurlar, 2004
5. "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının" Dövlət Proqramı (2002-2005-ci illər). Bakı, Nurlar, 2003
6. "Sahibkarlıq fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: 1996
7. Atakişiyev M.C., Süleymanov Q.S. İnnovasiya menecmenti. Bakı: 2004

8. Əliyev M. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı: 2002
9. Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi infrastrukturunun modernizasiyası. Bakı: Elm, 2003, 512 s.
10. Həsənov R.T., Bayramov Ü.Ə. Regional iqtisadi inkişaf siyasətinin əsas prioritetlərinin seçilməsi. "Audit" jurnalı, №4, 2003

**РЕЗЮМЕ**

**Теймур Аббасов**

**НЕОБХОДИМОСТЬ ПЕРЕХОДА В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ К МОДЕЛИ ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ ОРИЕНТИРОВАННОЙ НА ИННОВАЦИЮ И ОСНОВНЫЕ ПРИНЦИПЫ ОБЕСПЕЧЕНИЯ ДЛИТЕЛЬНОГО ЭКОНОМИЧЕСКОГО РАЗВИТИЯ**

В научной статье исследована роль инноваций в длительном экономическом развитии в Азербайджанской Республике.

В то же время в научной статье широко исследована необходимость перехода в Азербайджанской Республике к ориентированной на инновацию модели экономического развития, а также основные принципы обеспечения длительного и устойчивого развития экономики страны.

**SUMMARY**

**Teymur Abbasov**

**NECESSİTY OF TRANSİTİON TO İNNOVATİVE ECONOMİC DEVELOPMENT MODEL İN THE REPUBLİC OF AZERBAİJAN AND MAİN PRİNCİPLES OF SUSTAİNABLE ECONOMİC DEVELOPMENT**

The scientific article investigated the role of innovation in ensuring sustainable economic development in the Republic of Azerbaijan.

At the same time, the scientific article explores the necessity and objective prerequisites for the transition to an innovative economic development model in the Republic of Azerbaijan, the basic principles of ensuring sustainable and sustainable development of the country's economy.

**TƏBRİZ YADİGAROV**
*AMEA-nın İqtisadiyyat İnstitutu*
*ceyranchol@rambler.ru*

# DƏNİZ NƏQLİYYATININ İQTİSADİ ARTIMA TƏSİRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

***Açar sözlər:*** *dəniz ticarəti, yükdaşıma, rentabellik, deydveyt, donanma, elastiklik, əmsal, korrelyasiya, reqressiya, model.*

***Ключевые слова:*** *морская торговля, грузоперевозки, рентабельность, дейдвейт, флот, эластичность, коэффициент, корреляция, регрессия, модель.*

***Key words:*** *maritime trade, cargo transportation, profitability, deadweight, fleet, elasticity, coefficient, correlation, regression, model.*

**Giriş**. Dünya iqtisadiyyatının qloballaşması beynəlxalq əmək bölgüsünü dərinləşdirərək beynəlxalq əlaqələrin 80%-ni təşkil edən beynəlxalq ticarəti daha da artırır. Beynəlxalq ticarət əlaqələrində dəniz nəqliyyatı digər nəqliyyat növləri ilə müqayisədə daha üstün mövqe tutur. İnkişaf etmiş ölkələrdə beynəlxalq ticarətin 90%-i dəniz nəqliyyatının payına düşür (2, s.156). Beynəlxalq ticarətdə strateji rola malik olan dəniz nəqliyyatı qlobal proqramların, o cümlədən Əddis-Əbəbə proqramının gündəlik məsələlərində 2030-cu ilədək ticarətin inkluziv, dayanıqlı artım və inkşafının hərəkətverici qüvvəsi kimi qeyd edilir (6, s.49). Azərbaycan Respublikasının əlverişli coğrafi mövqeyi və ölkədə aparılan uğurlu iqtisadi islahatlar Azərbaycanın logistika və nəqliyyat dəhlizləri layihəsində, Şərq-Qərb, Şimal-Cənub marşurutları üzrə bütün nəqliyyat vasitələrinin qovşağına çevrilən, nəqliyyat xabının yaradılmasında mühüm rol oynayır. Nəqliyyat qovşaqları və xablarının rəqabət qabiliyyətinin yüksəldilməsi mühüm əhəmiyyət kəsb etməklə bərabər, əlavə xidmət sahələrinin inkişaf etdirilməsinə, ölkəyə valyuta axınının cəlb edilməsinin yüksəldilməsinə şərait yaradır. Bütün bunlar Azərbaycan Respublikasında dəniz nəqliyyatının inkişaf etdirilməsi üçün geniş imkanlar açır.

**Əsas hissə.** Dünya iqtisadiyyatının və əmtəə ticarətinin perspektiv inkişafı bilavasitə müxtəlif müsbət və mənfi risk amilləri ilə xarakterizə edilir. 2017-ci ilin iyul ayında Yaponiya ilə Avropa İttifaqının (Aİ) iqtisadi əməkdaşlıq üzrə sazişinin imzalanması dünya ticarətinin həcminin artmasına müsbət təsir edən risk amilləri, Çin iqtisadiyyatının daxili tələbata istiqamətlənməsinin davam etməsi, ABŞ-ın yeni ticarət siyasəti kursu, həmçinin Böyük Britaniya Birləşmiş Krallığının və Şimali İrlandiyanın Avropa İttifaqından çıxması ilə bağlı məsələlərin həllinin müəyyən edilməməsi isə mənfi risk amilləri kimi qiymətləndirilir. Dünya iqtisadiyyatında baş verən risk amilləri beynəlxalq dəniz daşımalarına tələbatın dayanıqlı artımını təmin etmək məqsədi ilə həledici siyasət və hərtərəfli strateji tədbirlərin görülməsini tələb edir.

Aİ ilə Kanadanın iqtisadi və ticarət əlaqələri üzrə razılaşmalarının 2017-2021-ci illər üzrə qüvvəyə minməsi də dünya ticarətinin genişlənməsinə səbəb olmuşdur. Bu baxımdan da gələcəkdə yükdaşımaların bütün sahələrdə artımı ilə bərabər, konteyner və əsas kütləvi quru yüklərin daşınmasının daha dinamik artımla müşahidə edilməsi proqnozlaşdırılır (6, s.29). Bu artım, əsasən, transsərhəd elektron ticarətinin gələcəkdə genişlənməsinin konteyner ticarətinə olan tələbatın artımına səbəb olması ilə də izah edilə bilər. 2017-ci ildə dünya konteyner donanmasında 11250 ədəd 22339798TEU-yə malik (TEU-iyrimi fut ekvivalent olmaqla, yük nəqliyyat vasitələrinin yerləşməsinin şərti vahidi olub, 0,3048 $m^3$-ə bərabərdir) konteyner gəmiləri fəaliyyət göstərmişdir ki, bunun da 871 ədədi Çinə məxsus olmaqla 20 lider ölkə arasında Çinin daha üstün mövqeyə sahib olmasına şərait yaratmışdır (2, s.168). Dünya konteyner donanmasının 39%-i isə Almaniya, Çin və Yunanıstanın üzərinə düşür. Qeyd etmək lazımdır ki, dünya ticarət donanmasının 70%-i xarici bayraq altında qeydiyyatdan keçərək istismar edilir (9, s.96). Əsasən, Panama, Liberiya və Marşal adaları bu baxımdan dünya dövlətləri arasında liderlik edir. Bu ölkələrdə vergi yükünün az olması məhz dünyanın əksər ölkələrinin gəmilərinin həmin ölkələrin bayrağı altında qeydiyyatdan keçərək istismar edilməsinə şərait yaradır.

Dünya əmtəə ticarətinin inkişafı dəniz yükdaşımalarının 1974-2014-cü illər üzrə artım tempini +3%, 2015-ci ildə +1,8%, 2016-cı ildə +2,6%, 2017-ci ildə +2,8%, 2018-2019-ci illərdə isə +3,2%

artırmışdır (8). Dünya dəniz nəqliyyat donanmasının təsərrüfat fəaliyyətinin təhlili göstərir ki, yük dövriyyəsi baxımından dünya donanması gəmilərinin əsas hissəsini dəmir filizi və yaxud kömür daşıyan balkerlər, neft tankerləri və konteyner daşıyan gəmilər təşkil edir. Neft tankerləri ilə müqayisədə konteyner gəmilərinə tələbat son dövrlərdə artmışdır. Bu dəyişiklik, əsasən, vahid nəqliyyat sistemində son dövrlərdə boru kəmərinin inkişafı ilə bağlıdır. Dünya dəniz donanmasında konteyner gəmilərinin dəyəri ümumi gəmilərin dəyərinin 17,2%-ni, ümumi dedveytinin isə 42,3%-ni təşkil edir (6, s.138).

Xəzər dənizindən Volqa-Don kanalı vasitəsi ilə dünya sularına çıxaraq beynəlxalq yükdaşımalarda istismar olunan “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin nəqliyyat gəmiləri ilə bərabər, Azərbaycan Respublikasının dəniz nəqliyyat gəmiləri dövlət sərhədlərinin qorunmasında, sərnişin daşımalarda, dənizdə neft-qaz hasilatı və ixrac-idxal əməliyyatları üzrə yük daşımalarda mühüm rol oynayır. 20 sentyabr 1994-cü ildə Azərbaycan xalqının Ümummilli Lideri H.Əliyev tərəfindən “Əsrin müqaviləsi” Sazişinin imzalanması müstəqillik illərinin əvvəllərində ölkəmizdə iqtisadi tənəzzülün qarşısının alınması ilə nəticələnmiş və həmin dövrdən başlayaraq aparılan uğurlu iqtisadi islahatlar nəticəsində iqtisadiyatın digər sahələrinin neft sektoru hesabına daynıqlı inkişafı təmin edilmişdir. Dünyanın mühüm qlobal problemlərindən olan qədim İpək Yolunun bərpası və Azərbaycanın Şimal-Cənub və Şərq-Qərb kimi iki böyük nəqliyyat dəhlizinin qovşağında yerləşməsi Azərbaycanda dəniz nəqliyyatının inkişafını şərtləndirir. Belə ki, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizinin üç böyük marşrutlarından biri də Transxəzərdir ki, onun fəaliyyəti də birbaşa dəniz nəqliyyatı ilə əlaqədardır. “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Dəniz Nəqliyyat Donanmasının 14 ədəd gəmisi xarici sularda Azərbaycan bayrağı altında, Azərbaycanın ticarət gəmilərindən 4 ədədi isə Malta bayrağı altında qeydiyyatdan keçərək dünya sularında istismar olunur (12). “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-də donanmasında gəmilərin 90%-nin yaşı 25 ildən yüksək olduğundan onların istismarı və təmirində vaxt itkiləri artaraq səmərəli vaxt fondunu azaltmaqla bərabər donanmanın saxlanma xərcini artırır. Bunların aradan qaldırılması məqsədi ilə donanmanın tərkibinin yenilənməsi ilə yanaşı, ən mühüm amillərdən biri də gəmillərini istismarının optimallaşdırılması hesabına istismar xərclərinin azaldılmasıdır. Aşağıdakı cədvəl məlumatlarında “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin Dəniz Nəqliyyat Donanması üzrə yükdaşımaların dinamikası, yükdaşımalardan əldə olunan gəlir, xərc, 1 ton yükdaşımaya sərf edilən xərc və daşımaların rentabellik səviyyəsi göstərilmişdir.

**Cədvəl 1.** ***Dəniz Nəqliyyat Donanmasında yükdaşımalar üzrə əsas göstəricilər***

| İllər | Yük daşıma, mln. ton | Yük dövriy-yəsi, mln.ton-km | Gəlir, mln. man. | Xərc, mln.man | 1 ton yük dövriyyəsinə düşən xərc, man. | 1 ton yükdaşımaya düşən xərc, man. | Daşımaların rentabelliyi, %-lə |
|---|---|---|---|---|---|---|---|
| 2010 | 11,7 | 4859,1 | 107,2 | 92,1 | 18,95 | 7,86 | 16,4 |
| 2011 | 12,5 | 5186,6 | 109,7 | 100,5 | 19,38 | 8,04 | 9,2 |
| 2012 | 12,3 | 5061,5 | 114,6 | 105,1 | 20,76 | 8,49 | 9,1 |
| 2013 | 11,5 | 4632,4 | 97,9 | 107,5 | 23,21 | 9,34 | 0 |
| 2014 | 9,9 | 4123,7 | 102,3 | 119 | 28,86 | 11,98 | 0 |
| 2015 | 6,6 | 2937,4 | 94 | 154,8 | 52,7 | 23,37 | 0 |
| 2016 | 5,8 | 3002 | 160,1 | 174 | 57,96 | 29,96 | 0 |
| 2017 | 8,3 | 4417,9 | 170,7 | 162,4 | 36,76 | 19,46 | 10,7 |

**Mənbə (7)** *məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Cədvəl məlumatlarından göründüyü kimi, yükdaşımaların və yük dövriyyəsinin həcmi 2013-2017-ci illərdə əvvəlki illərlə müqayisədə azalmışdır. Donanmanın təsərrüfat fəaliyyətindən əldə olunan gəlirlə müqayisədə xərclərin 2013-2016-cı illər üzrə artması həmin dövr üzrə təsərrüfat fəaliyyətinin ziyanla nəticələnməsinə səbəb olaraq daşımaların rentabelliyinə mənfi təsir göstərmişdir. 2017-ci ildə isə “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC tərəfindən aparılmış təşkilati tədbirlərə əsasən Dəniz nəqliyyat Donanmasının ximəti-köməkçi gəmilərinin və texniki donanmanın Xəzər

Dəniz Neft Donanmasının balansına verilməsi ilə əlaqədar olaraq, donanmanın istismar xərcləri azalmışdır. Cədvəldən göründüyü kimi, 1 ton yükdaşımaya düşən xərc əvvəlki illərlə müqayisədə xeyli artmışdır. Belə ki, 2017-ci ildə 1 ton yük daşımaya düşən xərc 19,46 manat təşkil etməklə 2010-2014-cü illərlə müqayisədə 7,48-11,6 manat artımışdır.

Hər bir ölkənin iqtisadi inkişaf səviyyəsi innovativ texnologiyaların tətbiqi ilə ayr-ayrı iqtisadi fəaliyyət sahələrinin iqtisadi artımından asılıdır. İqtisadiyyatın digər sahələri kimi dəniz nəqliyyatının son dövrlərdə inkişafı Azərbaycan Respublikasında ÜDM-in artmasına təsir edərək ölkə üzrə iqtisadi artımı stimullaşdırmışdır. Aşağıdakı qrafikdə 2010-2018-ci illər üzrə Azərbaycan Respublikasında ÜDM və dəniz nəqliyyatından əldə olunan gəlirin qrafiki verilmişdir.

**Qrafik 1.** ***Azərbaycan Respublikasında dəniz nəqliyyatı üzrə yükdaşımalardan əldə olunan gəlir və ÜDM***




**Mənbə.** *ARDSK-nin məlumatlarına əsasən müəllif tərəfindən tərtib edilmişdir.*

Qrafikdən göründüyü kimi, 2012-2013-cü illərdə bütün istiqamətlər üzrə Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizində yükdaşımaların həcminin azlması ilə əlaqədar olaraq, dəniz nəqliyyatında yükdaşımalardan əldə olunan gəlir azalmış, 2016-2017-ci illərdə isə artmışdır.

Qeyd etmək lazımdır ki, dəniz nəqliyyatı üzrə yükdaşımalardan əldə olunan gəlirin ölkə üzrə iqtisadi artıma təsirini qiymətləndirmək üçün reressiya təhlili metodundan istifadə etmək olar. Bu məqsədlə ÜDM-lə dəniz nəqliyyatı üzrə yükdaşımalar arasındakı asılılığın reqressiya təhlilinin aparılmasında Eviews proqram paketindən istifadə edərək qrafik 1-də əks olunmuş məlumatlara əsasən aşağıdakı nəticəni alarıq:

**Cədvəl 1.**

Dependent Variable: Y
Method: Least Squares
Date: 02/25/20 Time: 22:07
Sample: 2010 2018
Included observations: 9

| Variable | Coefficient | Std. Error | t-Statistic | Prob. |
|---|---|---|---|---|
| X | 251.0597 | 60.45816 | 4.152620 | 0.0043 |
| C | 27.78567 | 7.871778 | 3.529783 | 0.0096 |

| | | | |
|---|---|---|---|
| R-squared | 0.711272 | Mean dependent var | 59.47778 |
| Adjusted R-squared | 0.670025 | S.D. dependent var | 10.07283 |
| S.E. of regression | 5.786183 | Akaike info criterion | 6.541953 |
| Sum squared resid | 234.3594 | Schwarz criterion | 6.585781 |
| Log likelihood | -27.43879 | Hannan-Quinn criter. | 6.447373 |
| F-statistic | 17.24425 | Durbin-Watson stat | 2.064403 |
| Prob(F-statistic) | 0.004281 | | |

**Mənbə.** *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Eviews tətbiqi proqram paketinə əsasən alınmış nəticəyə əsasən reqressiya tənliyi aşağıdakı kimi olacaqdır:

$$Y = 251.059730671*X + 27.7856711094 \qquad (1)$$

Cədvəl 1-dən göründüyü kimi, modelə daxil olan sərbəst və asılı dəyişənlərin əmsallarının standart səhvləri, əmsalların qiymətindən aşağıdır. Həmçinin F-Fişer kriteriyası,

$F_{cədvəl}(a;\, m;\, n - m - 1) = F_{cədvəl}(0,05;\, 1;\, 7) = 5,59$ (3, s.331) qiyməti ilə müqayisə edildikdə görünür ki, F-Fişer kriteriyası (17,24>5,59). Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətli xarakter daşıyır. Bu isə qurulmuş (1) modelinin adekvatlığı deməkdir.

Darbon-Uotson statistikası DW= 2,0644 oduğundan, $\alpha = 0,05$ əhəmiyyətlilik səviyyəsinə bir izahedici dəyişən (m=1) və n=9 müşahidə üçün Darbon-Uotsonun böhran nöqtələri $d_l = 0,824$ $d_u = 1,320$ olacaqdır (3, səh.336).$d_u = 1,320 < DW < 4 - d_u = 2,68$ olduğundan avtokorrelyasiya yoxdur. Bu isə o deməkdir ki, reqressiya tənliyi bütövlükdə statistik əhəmiyyətlidir və qurulmuş Y=251,06*X+ 27,786 modeli bütövlükdə adekvatdır.

Əlaqə tənliyindəki sərbəst dəyişənlərin əmsalına və tədqiq olunan dövrlər üzrə dəniz nəqliyyatı ilə daşımalardan əldə olunan gəlirlə ÜDM-in hesabi orta qiymətlərinə müvafiq olaraq elastiklik əmsalını hesablasaq, aşağıdakı nəticəni alarıq (15, səh.272).

$$E_{IN} = \frac{\alpha \times \bar{x}}{\bar{Y}} = \frac{0,126233 \times 251,06}{59,478} = 0,53284$$

Alınmış hesabata əsasən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda dəniz nəqliyyatı üzrə yükdaşımalardan əldə olunan gəlirin 1% artması, ÜDM-i 0,53% artırır.

**Qrafik 2.** ***2010-2018-ci illər üzrə Azərbaycan Respublikasında ÜDM-in faktiki, hesabı və reqressiya qalığı***




**Mənbə.** *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Çoxluq korrelyasiya əmsalı 0,67 olduğundan, Çeddok şkalasına əsasən tədqiq olunan göstəricilər arasında əlaqə yüksəkdir. Eviews tətbiqi proqram paketinin nəticəsinə görə determinasiya əmsalının $R^2$=0,711 olması isə o deməkdir ki, müvafiq reqressiya tənliyi 71,1% dispersiya nəticə göstəricisi ilə 19,9%-i isə modelə daxil olmayan digər amillərin təsiri ilə izah edilir.

2010-2018-ci illərdə ÜDM-in faktiki, hesabi və reqresiya qalığı Eviews proqram paketinə əsasən aşağıdakı kimi olacaqdır.

**Qrafik 3.** ***ÜDM-in illər üzrə qiymətləri, standart səhvləri və reqressiya tənliyinin proqnoz məqsədləri üçün xarakteristikaları.***




| | |
|---|---|
| Forecast: YF | |
| Actual: Y | |
| Forecast sample: 2010 2018 | |
| Included observations: 9 | |
| Root Mean Squared Error | 5.102934 |
| Mean Absolute Error | 4.304901 |
| Mean Abs. Percent Error | 7.175929 |
| Theil Inequality Coefficient | 0.042438 |
| Bias Proportion | 0.000000 |
| Variance Proportion | 0.084970 |
| Covariance Proportion | 0.915030 |

**Mənbə.** *Eviews tətbiqi proqram paketinə əsasən müəllif tərəfindən hazırlanmışdır.*

Eviews tətbiqi proqram paketinə əsasən alınmış reqressiya tənliyi ÜDM-in illər üzrə qiymətlərini və standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin bir sıra xarakteristikaları yuxarıdakı qrafikdə göstərilmişdir:

Qrafikdən göründüyü kimi, ÜDM-in illər üzrə qiymətləri, standart səhvləri, habelə tənliyin proqnoz məqsədi üçün istifadə edilməsinin xarakteristikalarına əsasən alınmış reqressiya tənliyi hər iki göstərici arasındakı asılılığı adekvat olaraq ifadə edir.

**Nəticə.** Müəyyən edilmişdir ki, dünya dəniz ticarətinin həcmi ilə dünya əmtəə ticarəti və dünya üzrə ÜDM arasında sıx korrelyasiya əlaqəsi vardır və dünya dəniz ticarətində yükdaşımaların həcminə gəmilərin yaş qrupları əsaslı şəkildə təsir edir. Tədqiqat nəticəsində Dəniz Nəqliyyat Donanmasının 2013-2016-cı illər üzrə rentabelsiz işləməsinin başlıca səbəbi, gəmilərin 90%-nin yaşının 25 ildən yuxarı olması və digər səmərəsiz vaxt itkisi hesabına 1 ton yük dövriyyəsinə düşən istismar xərclərinin artmasının olduğu müəyyən edilmişdir. Bunların aradan qaldırılması məqsədi ilə liman-logistika xidmətlərinin, gəmilərin hərəkət sxemlərinin optimallaşdırılması və gəmilərin tərkibinin dəyişilməsi daha məqsədəuyğundur. Tədqiqat nəticəsində, həmçinin müəyyən edilmişdir ki, Azərbaycanda dəniz nəqliyyatı üzrə yükdaşımalardan əldə olunan gəlirin 1% artması, ÜDM-i 0,53% artıraraq, ölkə üzrə iqtisadi artımı sürətləndirə bilər. Dəniz Nəqliyyat Donanmasının xidməti-köməkçi gəmilərinin Xəzər Dəniz Neft Donanmasının balansına verilməsi donanmanın saxlanma xərclərini artırmaqla dənizdə neft və qaz hasilatında istismar olunan gəmilərin istismar qiymətlərinin artımına səbəb olaraq neft və qaz hasilatının maya dəyərinin artmasını şərtləndirəcəkdir. Bu məqsədlə gəmilərin istismar qiymətləri gəmi saatına görə deyil, yük dövriyyəsinə görə hesablanması daha məqsədəuyğundur. Bu halda gəmilərin istismarı və hərəkət sxemləri gəmi sahibləri tərəfindən optimallaşdırılmaqla istismar xərcləri minimumlaşdırıla bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi"
2. Yadigarov T.A. Azərbaycan iqtisadiyyatında dəniz nəqliyyatı: problemlər və perspektivlər. Bakı: "Avropa" nəşriyyatı, 2018, 350 s.
3. Yadigarov T.A. Əməliyyatlar tədqiqi və ekonometrik məsələlərin MS Excel və EViews tətbiqi proqram paketlərində həlli: nəzəriyyə və praktika. Bakı, "Avropa" nəşriyyatı, 2019, 352 s.
4. SOCAR-ın illik hesabatları, 2016, 2017, 2018
5. Logistics Performance Index, 2007, 2012, 2014, 2016, 2018
6. UNCTAD (2018). Review of Maritime Transport 2018. United Nations publication. Sales No.
7. http://www.stat.gov.az/
8. www/worldbank.az
9. https://unctadstat.unctad.org/wds/ReportFolders/reportFolders.aspx.


## РЕЗЮМЕ

**Табриз Ядигаров**

### ОЦЕНКА ВЛИЯНИЯ МОРСКОГО ТРАНСПОРТА НА ЭКОНОМИЧЕСКИЙ РОСТ

В статье проанализирована роль морского транспорта в международной торговле, показано современное состояние и основные показатели транспортного флота ЗАО "Азербайджанского Каспийского Морского Пароходства", выдвинуты предложения с целью повышения рентабельности флота. В работе оценено в соответствии с программным пакетом Eviews влияние дохода от грузоперевозок по морскому транспорту на ВВП Азербайджана.

## SUMMARY

**Tabriz Yadigarov**

### ASSESSİNG THE İMPACT OF MARİTİME TRANSPORT ON ECONOMİC GROWTH

The article analyzes the role of maritime transport in international trade, the current state and main indicators of the transport fleet of Azerbaijan Caspian shipping company CJSC, and offers proposals to increase the profitability of the fleet. In accordance with the EViews software package, the impact of revenue from maritime transportation on Azerbaijan's GDP was also assessed.

**MEHRİBAN İMANOVA**
*Naxçıvan Dövlət Universiteti*
*marketinq05@mail.ru*

# SƏNAYE 4.0 VƏ ONUN İQTİSADİ İNKİŞAFA TƏSİRİ

***Açar sözlər:*** *big data, bulud texnologiyası, kiber – fiziki sistemlər, 3D, süni intellekt*
***Ключевые слова****: большие данные, облачные технологии, киберфизические системы, 3D, искусственный интеллект*
***Key words:*** *big data, cloud technology, cyber-physical systems, 3D, artificial intelligence*

Müasir dövrdə ümumi sosial-iqtisadi inkişafın mühüm şərtini innovasiyaların tətbiqi və idarə olunması təşkil edir. İnkişaf etmiş ölkələrdə istehsal olunan ÜDM-in 75-80%-ə qədəri inovasiyaların payına düşür və bu ölkələrdə yaranan əlavə dəyərin əsasını elmtutumlu məhsullar təşkil edir (8, 65). Digər ölkələrdə isə bu dəyər daha çox təbii ehtiyatlar hesabına yaranır. Sənaye müəssisələrinin kəskin rəqabət dövründə fəaliyyət göstərə bilməsi, dayanıqlı inkişafının təmin edilməsi üçün innovasiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

Bəşəriyyət daim hərəkətdədir və kainatda hər şey dinamik olaraq inkişaf edir. Daş dövrünün sonu hesab olunan neolit dövründə insanlar kənd təsərrüfatı cəmiyyətinə keçərək ilk sıçrayışı edirlər. Kənd təsərrüfatında yaşamağa başlayan cəmiyyət istehsalını evdə və əl dəzgahlarında həyata keçirdi və beləliklə, "Neolit inqilabı" baş verdi. Bu dövrdə insanların məşğuliyyət sahələri içərisində əsas yeri istehsal təsərrüfatına daxil olan əkinçilik və maldarlıq tuturdu. İnsanların kənd təsərrüfatı cəmiyyətindən sənaye cəmiyyətinə keçməsindən sonra ticarət həyatının və pul dövriyyəsinin artması cəmiyyətə texnologiya, sənaye yenilikləri gətirdi. “Sənaye inqilabı” ilk dəfə İngiltərədə başlamış və 18-ci əsrin son rübündən 19-cu əsrin sonuna qədər olan dövrü əhatə etmişdir. 1765-ci ildə Ceyms Vatt tərəfindən hazırlanan buxar maşınının inkişafı texnologiya baxımından dünyanı fərqli inkişaflara yönəltdi. Buxar maşınları, elektrik xətləri və dəmir yolları ilə ölkələrdə mexaniki istehsal başladı. Bəşəriyyətin inkişafına töhfə verən digər bir inqilab, sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçidi təmin edən inqilabdır. Burada cəmiyyətin rifah halını artıran hərəkətverici qüvvə informasiya istehsalıdır. İnformasiya cəmiyyətinə keçid dövrünü “Kompüter dövrü” adlandıranlar da oldu. Çünki informasiya cəmiyyətinə keçid kompüter, proqram təminatı, mikroçip texnologiyası və internet sisteminin təhlilidir və bu üsullar informasiya cəmiyyətinin əsas bünövrəsini təşkil edir. Kompüter əsrində, xüsusən Yaponiya və Cənubi Koreyada innovativ məhsullar istehsal olunmağa başladı (10, 38).

Dövlət və transmilli şirkətlər rəqabətə davam gətirmək üçün qlobal miqyasda baş verən texnoloji, iqtisadi və ekoloji inkişafa uyğunlaşmağa məcbur oldular. Bəşəriyyətin inkişafına töhfə verən və bunların sistematik birləşməsinə səbəb olan bu üç proses nəticəsində yeni bir inqilab inkişaf etdi. Bu dalğalardan ən əhəmiyyətlisi Almaniyada gündəmə gətirilən, dünyaya yeni texnologiya və sənaye simasını bəxş edən "Sənaye 4.0" oldu. 1969-cu ildə İnformasiya Cəmiyyəti tərəfindən istehsal olunan elektron və informasiya texnologiyaları ilə Sənaye 4.0 inkişaf etdiyi müşahidə olundu. Sənayede İKT-nin imkanlarının genişmiqyaslı tətbiqi “4-cü sənaye inqilabı” konsepsiyasını da öz bərabərində gətirdi. Bu inkişafla əlaqədar olaraq, bir sıra ədəbiyyatlarda da “4-cü sənaye inqilabı” konsepsiyası barəsində bəhs edilməyə başlandı (4,54). 2013-cü ildə inkişaf edən internet şəbəkəsi, inteqrasiya edilmiş sistem və kiber fiziki sistemlər sayəsində qlobal dünyada baş verən ağıllı fabriklərin sürəti və gücü artdı. Almaniyanın Hannover Sərgisində ilk dəfə Sənaye 4.0 gündəmə gəldi və rəqəmsal sistemlərlə inkişafı davam etməkdədir. Davos Dünya İqtisadi Forumunun banisi və icraçı direktoru Klaus Şvab “Sənaye 4.0” texnologiyasının tətbiqini dördüncü sənaye inqilabı olaraq adlandırıb. Tarixə nəzər salsaq, bu günə qədər bir neçə sənaye inqilabının baş verdiyini müşahidə edərik. Belə ki, birinci sənaye inqilabı buxar maşınının icadı ilə istehsalı müəyyən qədər mexanikiləşdirdi. İkinci sənaye inqilabı zamanı elektrikləşmə yayıldı və kütləvi istehsala başlandı. Üçüncü sənaye inqilabında elektronika və texnologiya sayəsində istehsal avtomatlaşdırıldı. Nəhayət, dördüncü sənaye inqilabı ilə ağıllı texnologiyaları tətbiq etməklə bütün sahələrin avtomatlaşdırılmasına nail olunacaq (9,121).

Qeyd edək ki, inqilabların baş vermə aralığı getdikcə daha da sürətlənir. Əvvəlki inqilablar ədədi silsilə ilə inkişaf edirdirsə, növbəti inqilabın həndəsi silsilə ilə yayılacağına heç bir şübhə yoxdur. Bu inqilabların hər biri digərinin meydana gəlməsinə zəmin yaratdı. Əslində, Sənaye 4.0 ilə istifadə olunan proqram və ya rəqəmsal texnologiyalar yenidən istehsal olunmadı. Bu proqram və rəqəmsal texnologiyalar sənaye cəmiyyətindən informasiya cəmiyyətinə keçid dövrünün məhsuludur və onlar daha da təkmilləşdirilərək qlobal dünyaya təqdim edilmişdir. Sənaye 4.0-ın əsas məqsədi daha sürətli olmaq və istehsalın səmərəliliyini artırmaqdır.

Sənaye 4.0 daha aktiv və daha geniş yayılmış mobil internet, daha güclü sensorlar və süni intellekt ilə maşın öyrənməsini xarakterizə edən məlumatların dinamik emalına əsaslanan bir sistemdir. Bu termin yalnız rəqəmsal texnologiya, ağıllı maşın sistemlərindən ibarət deyil və onun sahəsi olduqca genişdir. Sənaye 4.0 kvant fizikası, yüksək səviyyəli nanotexnologiya, Big data, bulud texnologiyası, həmçinin bir çox enerji mənbəyi ilə əlaqələndirilir və ağıllı bir fabrik sistemi xüsusiyyətinə malikdir. Sənaye 4.0 inkişafına təkan verən əsas amilləri aşağıdakı kimi qeyd etmək olar:

**Şəkil1.** ***Sənaye 4.0 inkişafına təkan verən əsas amillər***

| | | | |
|---|---|---|---|
| Süni intellekt | İKT | Şəbəkə texnologiyaları | Kiber-fiziki sistemlər |
| Biq data və bulud texnologiyaları | Modelləşdirmə | Virtualizasiya, Simulyasiya | İnsan-kompüter əməkdaşlığı üçün vasitələr |

Sənaye 4.0 İnqilabının meydana gəlməsi əşyaların İnterneti (Internet of Things - IoT), süni intellekt (Sİ), kiber-fiziki sistem (KFS) texnologiyalarının inkişafı ilə baglıdır və onların müxtəlif sahələrə tətbiqi də öz növbəsində verilənlərin müxtəlif mənbəli və formatlı olması potensialını artırır. Əşyaların İnterneti mahiyyətcə İnternetə qoşulan obyekt, maşın və qurğulardan verilənlərin toplanması, saxlanması, emalı və analizi texnologiyasıdır (8,63). (big dat. Big datanın tətbiq olunduğu sahələrdən asılı olmayaraq, ümumi xarakteristikaları var). Big data konsepsiyasına böyük ölçülü verilənlər və informasiya texnologiyalarının yeni bir növü kimi yanaşmaq olar. Big data konsepsiyası böyük məlumatların toplanması və emalı üçün paylanmış hesablama resurslarının imkanlarından istifadə edən yeni texnologiyadır. Böyük məlumatlar, şübhəsiz ki, Sənaye 4.0-də tətbiq olunan ən vacib texnologiyalardan biridir. Buna səbəb ağıllı alqoritmlərdən istifadə edərək strukturlaşdırılmış və strukturlaşdırılmamış verilənlərin geniş şəkildə toplanması, emal edilməsi və analiz edilməsidir (6,111). Digər vacib bir texnologiya açıq sistemlərdə çox böyük həcmli verilənləri idarə etməyə və real vaxt rejimində əlaqəni təmin etməyə imkan verən bulud hesablamalarıdır. Bulud hesablamalar dünyanın istənilən yerindən istənilən vaxtda məlumat əldə etmək imkanı verir, bu da rahatlığı artırır. Bulud, duman texnologiyaları əsasında yeni nəsil şəbəkə texnologiyaları, biokompüterlər, paralel, kvantum hesablamalar, super kompüterlər çox sürətlə inkişaf edəcəkdir (4,63).

Süni intellekt və maşın təliminin təsiri tezliklə evlərdə, müəssisələrdə, sosial-iqtisadi proseslərdə, idarəetmədə hiss ediləcəkdir. Yaxın gələcəkdə robototexnikanın inkişafı nəticəsində müxtəlif robotlar nəqliyyat sistemində, logistikada, ambarlama fəaliyyətində, daşımalarda, məişət işlərinin, sənaye əməliyyatlarının yerinə yetirilməsində çox böyük işlər görəcəkdir.

Sənaye 4.0 kontekstində istifadə olunan əsas texnologiya kiber-fiziki sistemlərdir. Kiber- fiziki sistemlər müxtəlif fiziki obyektlər, süni altsistemlərdən ibarət olan və müxtəlif sensorlardan gələn əks əlaqələrdən istifadə etməklə idarə edilən sistemlərdir. Bu sistemlərin işləməsi hesablama və fiziki proseslərin inteqrasiyası prinsipinə əsaslanır, yəni fiziki obyektlər sistemin bir hissəsini təşkil edir.

Kiber-fiziki sistemlər fərqli, fiziki cəhətdən uzaq olan subyektlər arasında inteqrasiyanı asanlaşdıran və müxtəlif imkanlar yaradan texnologiyaların toplusudur. Bu sistem məlumatların generasiyası və əldə edilməsi, əvvəllər əldə edilmiş məlumatların hesablanması, birləşdirilməsi və qərar dəstəyi kimi üç ardıcıl prosesi həyata keçirdir (5, 216).

Sənaye 4.0 sisteminə 3D proqram texnologiyası da daxildir. 3D proqram texnologiyası ilk dəfə 1984-cü ildə informasiya cəmiyyəti ilə qlobal dünyaya təqdim edildi və Sənaye 4.0 ilə daha da inkişaf etdirilməyə davam edir. Dördüncü sənaye inqilabı ilə 3D proqram texnologiyasını inkişaf etdirərək obyektlərin əllə tutulacaq şəklə çevrilməsi və onların həqiqi xüsusiyyətlərinə sahib olmasının saxlanılması qarşıya məqsəd qoyulub.

Sənaye 4.0 konsepsiyası səmərəlilik, maya dəyəri, sürət və faydalı yeniliklər ilə işləməklə istehsal və marketinq yanaşmasını, sürətlə inkişaf edən texnoloji imkanları ilə iqtisadiyyatda, sənayedə və istehsalda ən son səviyyəni göstərir. Sənaye 4.0 ilə istehsal proseslərindəki bütün bölmələrin bir-birləri ilə tez bir zamanda əlaqə qura bilməsi, bütün məlumatlara real vaxt rejimində daxil olma və nəticədə gözləntilərin ən yüksək səviyyəsinə cavab verməklə nəticələr əldə ediləcəyi gözlənilir. Bu sistem ağıllı fabriklərin istifadəsi ilə daha sürətli məhsul axınının təmin edilməsində və beləliklə, sıx xarici ticarət əlaqələrinin inkişafında hərəkətverici qüvvə olacaqdır. Bununla birlikdə planlaşdırılan texnoloji inkişaflar şirkətlərə platforma texnologiyalarını inkişaf etdirmək imkanı verəcəkdir. Sənaye 4.0 sisteminin başqa bir üstünlüyü səmərəlilikdə olacaq. Qlobal şirkətlər və ictimaiyyət daha səmərəli işləyəcək, ağıllı bir maşın beş insan əməyinə uyğun məhsulu daha tez istehsal edə biləcək. Sənaye 4.0 ilə insan əməyinin fabriklərdə süni intellektlə əvəz ediləcəyi və transmilli şirkətlərin sürətli məhsul istehsalına başlayacağı düşünülür. Sənaye 4.0 istehsalın çox yüksək bir rahatlığa sahib olmasına imkan yaradacaq və istehlakçıya xüsusi məhsullar hazırlamağa imkan verəcəkdir. Yüksək texnologiyaların istehsalı ilə şirkətlərin enerji xərclərinin azalması da baş verəcəkdir. Sənaye 4.0 sisteminin qlobal dünyaya verdiyi başqa bir töhfə təhsildə olacaqdır. Bəşəriyyətin informasiya cəmiyyətinə keçməsi və texnoloji inkişaf insan kapitalının təhsil aspektini önə çəkir. İnformasiya cəmiyyətinə keçiddə keyfiyyətli işçi qüvvəsi və texnoloji inkişaf bir-birini tamamlayır. Dördüncü inqilabla inkişaf edən texnologiya və ağıllı fabriklərin cəmiyyətə daha keyfiyyətli bir təhsil sistemi gətirəcəyi gözlənilir.

Sənaye 4.0 beynəlxalq iqtisadiyyata töhfələr versə də, bəzi çatışmazlıqları da ola bilər. Mənfi cəhətlər üzərində təhlillər aparıldıqda, ən böyük problemi yaradan amil kimi təbii işsizlik nisbətinin struktur işsizlik artımından asılı olaraq, yüksələcəyi proqnozlaşdırılır. Belə ki, qabaqcıl texnologiyadan istifadə edə bilməyən və ya yeni istehsal sahəsinə uyğun olmayan işçilərə ehtiyac qalmayacaq. Dünya iqtisadiyyatının 30 faizini sənaye, əmək qabiliyyətli əhalinin 12 faizini sənayedə çalışan işçilər təşkil edir. Son 15 ildə sənayedə çalışanların sayı 200 milyon nəfər artmışdır ki, insan əməyinin süni intellektlə əvəz olunması ilk növbədə bu işçi qrupuna təsir edəcək. Daha bir zərbə xidmət sahəsinə dəyməklə, indiki peşə bacarıqlarının 35 %-nə təsir edəcəkdir.

Deməli, dünyanın bütün ölkələrində geniş müzakirə olunan Sənaye 4.0 iqtisadi və sosial sahələrdə baş verən mühüm inkişafların bir xəbərçisi olaraq başa düşülür. Buna görə də cəmiyyətdə hər bir istiqmətdə Sənaye 4. 0 sisteminə hazırlıq mühüm məsələ olmalıdır.

## ƏDƏBİYYAT

1. Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri, Bakı: 6 dekabr 2016-cı il, http://www.president.az
2. R.M.Əliquliyev, R.Q.Ələkbərov, T.X.Fətəliyev. Elektron elm: cari vəziyyəti, problemləri və perspektivləri. İnformasiya Texnologiyaları Problemləri, 2015, №2, səh.4-15
3. R.M.Əliquliyev, Y.N.İmamverdiyev. İnformasiya təhlükəsizliyinin humanitar aspektləri // İnformasiya təklükəsizliyinin multidissiplinar problemləri üzrə II respublika elmi-praktiki konfransı. Bakı: 2015, s. 9- 12
4. Əliyev Ə.Q, Şahverdiyeva R.O. İnformasiya iqtisadiyyatı sektorlarının və innovativ strukturlarının inkişafına dördüncü sənaye inqilabının təsirinin analizi // İnformasiya cəmiyyəti problemləri, 2018, №2,, səh.52-64

5. Mənsumova Ş. Big data analitikası texnologiyaları və fərdi məlumatların təhlükəsizliyi problemləri/ İnformasiya təhlükəsizliyinin aktual multidissiplinar elmi-praktiki problemləri, V respublika konfransı, 29 sentyabr 2019-cu il, səh. 215-218
6. Y.İmamverdiyev. Big data və fərdi məlumatların təhlükəsizliyi // Big data: imkanları, multidissiplinar problemləri və perspektivləri I respublika elmi-praktiki konfransı, 2016, s. 109-113
7. Rəhimov F.M., Abbasova B.İ. Azərbaycanda yeni sənaye inqilabı ərəfəsində texnoparklardan istifadənin vəziyyəti // III beynəlxalq Türk dünyası araşdırmaları simpoziumunun materialları. Bakı: 2016, səh.149-153
8. T.X.Fətəliyev, Ş.A.Mehdiyev. Böyük həcmli elmi verilənlərin menecmenti və emal texnologiyalarının tədqiqi. İnformasiya cəmiyyəti problemləri, 2019, №2, s. 60-70
9. Гулин К.А., Усков В.С. О роли Интернета вещей в условиях перехода к четвертой промышленной революции // Проблемы развития территории, 2017, №4 (90), с. 112-131
10. Ковальчук Ю.А., Степнов И.М. Цифровая экономика: трансформация промышленных предприятий // Инновации в менеджменте, 2017, №1(11), с. 32-43

## РЕЗЮМЕ

**Мехрибан Иманова**

### ИНДУСТРИЯ 4.0 И ЕЕ ВЛИЯНИЕ НА ЭКОНОМИЧЕСКОЕ РАЗВИТИЕ

В статье подробно объясняются этапы развития общества, а также выявляется достижение автоматизации во всех областях с четвертой промышленной революцией. Были изучены факторы, влияющие на развитие «Индустрии 4.0», и характер технологий, используемых в ее контексте, и было отмечено, что эта система станет движущей силой в обеспечении более быстрого потока продукции, тесных внешнеторговых связей, образования и развития человеческого капитала. Было отмечено, что, хотя индустрия 4.0 вносит вклад в международную экономику, замена человеческого труда искусственным интеллектом приведет к углублению безработицы и глобальному кризису. Поэтому подготовка к системе «Индустрия 4.0» должна стать важной проблемой во всех сферах жизни общества.

## SUMMARY

**Mehriban Imanova**

### INDUSTRY 4.0 AND İTS İMPACT ON ECONOMİC DEVELOPMENT

The article explains in detail the development stages of society, and predicts the automation of all areas with the fourth industrial revolution. Also the factors driving the development of Industry 4.0 and the nature of the technologies used in its context have been investigated in it, and noted that this system will be a driving force in ensuring the development of faster product flow, close foreign trade relations, education and human capital. It has also been stated that although Industry 4.0 mostly contributes to the international economy, the replacement of human labor with artificial intelligence will deepen unemployment and the global crisis consequently. Therefore, preparation for the Industry 4.0 system should be an important priority in all fields of society.

# I BÖLMƏ
# İNNOVASİYA YÖNÜMLÜ İQTİSADİYYAT

**ZƏHMƏT ŞAHVERDİYEV**
*Naxçıvan Dövlət Universiteti*

## MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA SƏNAYE VƏ KƏND TƏSƏRRÜFATINDA İNNOVATİV PRİNSİPLƏR

***Açar sözlər:*** *region, sosial-iqtisadi inkişaf, sənaye, kənd təsərrüfatı*
***Ключевые слова****: регион, социально-экономическое развитие, промышленность, сельское хозяйство.*
***Key words:*** *region, socio-economic development, industry, agriculture*

XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəli Azərbaycan, o cümlədən onun tərkib hissəsi olan Naxçıvan tarixinin ən ağır, məsul və mürəkkəb dövrü hesab olunur. Bu illərdə Naxçıvanın blokada şəraitində olmasına baxmayaraq, rəhbərlə yanaşı, naxçıvanlıların fədakarlığı hesabına bu diyar az da olsa, inkişaf etməyə başlamışdır. Bununla yanaşı, xalqın vəziyyətini yaxşılaşdırmaq üçün əsası Heydər Əliyev tərəfindən qoyulmuş iqtisadi islahatlar çox prinsipiallıqla, həm də qısa bir zamanda həyata keçirildi.

Müharibə şəraitinə, ağır iqtisadi vəziyyətə, 1993-1995-ci illərdə olan təxribatlara baxmayaraq, Azərbaycan yenidən bütün sahələrdə, o cümlədən dövlətçilik, ordu, mədəni, iqtisadi, siyasi sahələrdə quruculuq yoluna qədəm qoydu. Çox keçmədi ki, Azərbaycanın bütün regionlarında sabitlik yarandı. Yaradılmış bu sabitlik başqa regionlarda olduğu kimi, Naxçıvanda da quruculuq işlərinin aparılmasına geniş yol açdı. Ona görə möhtərəm Heydər Əliyevin başqa regionlarda olduğu kimi, Naxçıvanda da apardığı kadr siyasəti taleyüklü məsələlərin həllində əsas rol oynadı. Bu regionda Heydər Əliyev məktəbindən bəhrələnən və onun quruculuq ideyasına söykənən Vasif Talıbov 1995-ci ilin dekabr ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi. Vasif Talıbov Naxçıvan Muxtar Respublikasına rəhbərliyə başladıqdan sonra Naxçıvanın iqtisadiyyatının dirçəldilməsində mühüm işlər həyata keçirməyə başladı.

Bu illərdə iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün elmi biliklər və texnologiyaların tətbiqi ilə ayrı-ayrı istehsal sahələri yaradılmış, xalqın rifah halının yaxşılaşdırılması üçün uğurlu addımlar atılmışdır.

1995-2001-ci illərdə muxtar respublika iqtisadiyyatının sənaye, tikinti, nəqliyyat və energetika bazasının inkişafı və müasirləşdirilməsi, fəaliyyətin üstün istiqamətlərindən birinə çevrilmişdir. 1996-2000-ci illərdə bu sahədə yaranmış durğunluq tamamilə aradan qaldırılmışdır. Muxtar respublikanın blokada şəraitində olmasına, xammalın və materialın daşınması sahəsində çətinliklərə baxmayaraq, Alt Trikotaj, Tikiş və Mebel fabriklərinin, emal müəssisələrinin, elektrotexnika zavodunun fəaliyyəti bərpa edilmişdir. Görülmüş tədbirlər nəticəsində təkcə sənaye müəssisələrində 3000 yeni iş yeri yaradılmış, istehsal olunan malların çeşidi artırılmışdır. Şüşə qablar zavodunda energetika sənayesi üçün keramik izolyatorların, dəmirbeton zavodunda beton elektrik dirəklərin, yol kənarına döşəmək üçün beton plitələrin və digər məmulatların istehsalına başlanılmışdır. 1999-cu ildə muxtar respublikanın sənaye müəssisələrində hər ilin qüvvədə olan qiymətləri ilə 58,6 milyard manatlıq, 2000-ci ilin yayında isə 46,8 milyard manatlıq sənaye məhsulu istehsal edilmiş, 15 adda məhsul istehsalı təmin olunmuşdur. 1999-cu ildə istehsal olunmuş məhsulun 43,9 milyard manatı yeyinti sənayesinin (74,9%), 4,7 milyard manat yüngül sənayenin (8,9 %), 1,5 milyard manatı (2,5%) tikinti materialları istehsalı müəssisələrinin payına düşmüşdür. 1999-cu ilin müvafiq dövrü ilə müqayisədə 2000-ci ilin 9 ayında Alt Trikotaj fabrikində 3,2 dəfə, Xalça kombinatında 21,5 dəfə, Elektrotexnika zavodunda 2,1 dəfə, 2 nömrəli üzüm emalı zavodunda 38,5%, Tikiş fabrikində 12%, Naxçıvan

Kooperativlər İttifaqının sənaye müəssisələrində isə (özəl strukturlar da daxil olmaqla) 12 dəfə çox məhsul istehsal edilmişdir. Bununla yanaşı, sənaye müəssisələrinin işinin bərpası üçün ilbəil ardıcıl olaraq tədbirlər həyata keçirilmişdir. Elektrotexnika zavodunun bir hissəsində yeni istehsal sahələrinin yaradılması üçün Türkiyə Cümhuriyyətinin «Baygün» şirkəti ilə müqavilə imzalanmışdır. Əgər 1993-1995-ci illərdə sənaye sahəsinə dair tapşırıqlara, ümumiyyətlə, əməl olunmamış, müəssisələr öz fəaliyyətini dayandırmış, daxili bazarı və dövlət tapşırıqlarını qorumaq mümkün olmamışdırsa, 1999-cu ildə Ordubad rayonunun Parağaçay və Ağdərə mədən yataqlarının kəşfiyyatı və istismarı üzrə böyük Britaniya, "Qinq investment Limited" şirkəti ilə müqavilə bağlanması hesabına dağ mədən sənayesinin bərpasına nail olunmuş və 1999-cu ildə bu tədbirlərin həyata keçirilməsi ilə əlaqədar təqribən 1,8 milyard manatlıq məhsul istehsal edilmişdir. Naxçıvan Muxtar Respublikasında sənaye müəssisələrinin işinin bərpası, istehsal olunan məhsulların həcminin və çeşidinin artırılması sahəsində həyata keçirilmiş tədbirlər nəticəsində 2001-ci ildə 56 milyard 954 milyon manatlıq sənaye məhsulu istehsal edilmişdir. Bunun 52 milyard 565 milyon manatı emal sənayesinin, 4 milyard 67 milyon manatı elektrik enerjisi, qaz və su təchizatı sənayesinin, 326 milyon manatı isə mədənçıxarma sənayesinin payına düşür. Muxtar respublikanın bir çox müəssisələrində məhsul istehsalı əvvəlki 2000-ci ilin müvafiq dövrünün səviyyəsindən xeyli yuxarı olmuşdur. Belə ki, 2001-ci ildə Şüşə qablar zavodunda 1,9 faiz, Sirab mineral su zavodunda 58 faiz, Filiz idarəsində 0,3 faiz çox məhsul istehsal edilmişdir. Özəl fərdi təsərrüfatlarda çörək istehsalı 1,9 faiz artmışdır. 2000-ci illə müqayisədə hörgü daşı istehsalı 4,9 dəfə, əmtəə-beton istehsalı 2,4 dəfə, mələfə istehsalı 64,1 dəfə, qənd istehsalı 2,3 dəfə, alt trikotaj məmulatları istehsalı 8,6 faiz, spirtli içkilər istehsalı 9,6 faiz, duz istehsalı 2,9 faiz artmışdır. Lakin bu nailiyyətlərə baxmayaraq, müəyyən səbəblərə görə bəzi müəssisələrdə, o cümlədən Xalça kombinatında, Elektrotexnika zavodunda, Tikiş fabrikində, Badamlı mineral su zavodunda istehsal həcmi azalmışdır.

Müstəqilliyin ilk on ilində muxtar respublikanın iqtisadiyyatında yeni istehsal münasibətlərinin fəaliyyət dairəsinin daha da genişləndirilməsi, aparılan islahatlar nəticəsində özəlləşdirmə prosesinin dərinləşdirilməsi, torpağın onu əkib becərənlərin ixtiyarına verilməsi və xidmət sahələrində yaranan müsbət meyllər xeyli möhkəmlənmiş, sahibkarlığın inkişafına etibarlı şərait yaradılmışdır. Muxtar respublikada keçirilən aqrar islahat artıq öz bəhrəsini vermişdir. Özəlləşdirilməsi nəzərdə tutulan 57,811 hektar torpağın hamısı 1999-cu ildə özəlləşdirilib başa çatdırılmışdır. Torpağın xüsusi mülkiyyətə verilməsi ilə yanaşı, aqrar sahədə əmlakın özəlləşdirilməsinə də diqqət xeyli artmışdır. Özəlləşdirilməsi nəzərdə tutulan 80,5 milyard manatlıq əmlakın 61,7 milyard manatı bələdiyyə mülkiyyətinə, 18,8 milyard manatı şəxsi mülkiyyətə verilmişdir. Əmlak satışından daxil olan 6,5 milyard manatlıq vəsaitin 3,7 milyard manatı və ya 56,9 %-i təsərrüfatların əhaliyə olan əməkhaqqı və müavinət borclarına ödənilmişdir.

Muxtar respublikanın blokada vəziyyəti ilə əlaqədar 1992-ci ildən istehsal edilmiş şərab məhsullarının kənara çıxarılması və satışı mümkün olmadığından şərab zavodlarının təsərrüfatlara və əhaliyə olan borclarının qaytarılması üçün Ali Məclis rəhbərliyinin müraciətinə əsasən Prezident Heydər Əliyev 1997-ci ildə muxtar respublikaya 12 milyard manatlıq vəsait ayırmış və nəticədə üzümçülərə 1998-ci ilə qədərki borclar ödənilmişdir. Naxçıvan Muxtar Respublikasında aqrar bölmədə çalışanlara yaxından köməklik də göstərilmişdir. Bu məqsəd üçün 2000-ci ildə isə 4 ədəd yeni kombayn, 8 ədəd traktor, 8 ədəd kotan, 8 ədəd toxumsəpən və digər kənd təsərrüfatı texnikası alınıb fermerlərin istifadəsinə verilmişdir. Bütün bunlar kənd təsərrüfatında geriliyi aradan qaldırmağa və onun inkişaf etməsinə geniş imkan vermişdir. 1995-ci ildə muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalının həcmi 117 milyard manat olduğu halda, 1999-cu ildə həmin göstərici 271,2 milyard manat təşkil etmişdir və bütün kənd təsərrüfatı məhsullarının istehsalı sahəsində özəl sektorların payı ilbəil artmışdır. 2000-ci ildə isə bütün istehsal özəl sektorların payına düşmüşdür. 1995-ci ildə muxtar respublika üzrə 1287 ton tərəvəz, 403 ton bostan məhsulu, 216 ton meyvə istehsal olunmuşdursa, 2000-ci ildə 41 min 990 ton tərəvəz, 33 min 565 ton bostan məhsulları, 27 min 754 ton meyvə istehsal edilmişdir. 1995-ci ildə kartof istehsalı olmadığı halda, 2000-ci ildə 13 min 446 ton kartof istehsal edilmişdir. 1995-ci ilə nisbətən tərəvəz istehsalı 32,6 dəfə, bostan məhsulu istehsalı

83,3 dəfə, meyvə istehsalı 129 dəfə artmışdır. Bununla yanaşı, bütün kateqoriyadan olan kənd təsərrüfatı subyektləri üzrə 2001-ci ildə 59 min ton taxıl istehsal edilmişdir ki, bu da 1995-ci ilin nəticəsindən 35 min 674 ton və ya 2,5 dəfə çoxdur. 2000-ci ildə hər hektardan orta hesabla 37,6 sentner və ya 1995-ci il nəticəsindən 26,2 sentner artıq məhsul götürülmüşdür. Muxtar respublikada şəkər çuğunduru isə ən perspektivli sahəyə çevrilmişdir. 1992-ci ildən əkininə diqqət yetirilən şəkər çuğunduru qısa müddətdə qabaqcıl sahələrin birinə çevrilmişdir. Şəkər çuğunduru istehsalı 1995-ci ildə 7 min 951 ton, 1999-cu ildə 38 min 659 ton istehsal edilmişdirsə, 2000-ci ildə isə bu rəqəm 50 min tona çatmış və 1995-ci ilə nisbətən 5,6 dəfə artmışdır.

XX yüzilliyin son onilini əhatə edən bu illərdə aqrar sahədə yeni texnologiyaların tətbiqi ilə məhsuldarlığın artmasına və muxtar respublika əhalisinin kənd təsərrüfatı məhsulları ilə təchizatına nail olunmuşdur. 1999-cu ildə özəlləşdirilən torpaq sahələrinin su təchizatını təmin etmək üçün muxtar respublikanın Sədərək, Babək, Ordubad, Şərur rayonlarının kəndlərində yeni nasos stansiyaları tikilmişdir. Eləcə də Sədərək 4 pilləli nasos stansiyasının və Şərur kollektor drenaj şəbəkəsinin təmiri qısa müddətdə başa çatmışdır. Həmçinin Tumbul, Nehrəm, Uluarx kanalları bərpa edilmiş və "Heydər" dəryaçasının sağ sahil kanalı üzərində nasos stansiyası tikilib istifadəyə verilmişdir. Bununla yanaşı, Türkiyə Respublikasından duru yanacaqla işləyən 4 ədəd səyyar nasos alınaraq şəkər çuğunduru sahələrinin suvarılması üçün istifadə edilmiş, 65 subartezian quyusu bərpa olunaraq istifadəyə verilmişdir. Bənəniyar kəndinin su təchizatını yaxşılaşdırmaq üçün Əlincə çayının sağ sahilində 500 metr məsafədə metal boru xətti ilə su çəkilmiş, Sədərək rayonunda 5 yeni subartezian quyusu qazılmış, 7-si bərpa edilmiş, 5,5 kilometr məsafədən içməli su xətti çəkilmiş, 4 pilləli su nasos stansiyası bərpa olunmuşdur. Şərur rayonunun Qarahəsənli nasos stansiyası, Axura kəndində 1, Qarabağlar kəndində 4 ədəd subartezian quyusu bərpa edilmiş, Yeni Havuş kəndinin içməli suya olan tələbatı ödənilmişdir. Muxtar respublikada aqrar islahatın Azərbaycanın bütün bölgələrindən əvvəl aparılması hesabına əkinçilik və maldarlıq sahələrində məhsul artımı ildən-ilə çoxalmış, çatışmayan problemlər aradan qaldırılmışdır.

Muxtar respublikada kənd təsərrüfatının inkişafına yardım məqsədi ilə Regional Məsləhət Mərkəzi yaradılmışdır. Regional Məsləhət Mərkəzi 2000-ci ilin aprel ayında fəaliyyətə başlamışdır. Bu məqsəd üçün ayrılmış ərazidə köhnə bina yenidən qurulmuş, üstündə ikinci mərtəbə tikilmişdir. Azərbaycan üzrə kənd təsərrüfatının inkişafı və kreditləşməsi layihəsi proqramına Dünya Bankı tərəfindən 33,5 milyon dollar vəsait ayrılmışdır. Həmin vəsaitin 1 milyon dolları Regional Məsləhət Mərkəzinin fəaliyyəti üçün nəzərdə tutulmuşdur. Azərbaycanda 5 regionda belə mərkəzlər yaradılmışdır ki, bunlardan biri də Naxçıvandır. Naxçıvanda ilk dəfə başlanan bu işlə 10 nəfər mütəxəssis, 30 nəfər məsləhətçi məşğul olmuşdur. Yaradılmış regional mərkəzin fəaliyyəti ilə əlaqədar, fermerlərin iş təcrübəsini yaxşılaşdırmaq üçün təlim kurslarının da keçirilməsi nəzərdə tutulmuşdur. Fermer təsərrüfatı ictimai təsərrüfatdan fərqli olaraq, azad sahibkarlar yoludur. Burada fermer əkib-becərməkdə sərbəstdir. O, artıq istehsal etdiyi məhsulu kimə satmağı haqqında fikirləşir. Fermer təsərrüfatı muxtar respublika rəhbərliyinin gündəlik qayğısı nəticəsində respublikanın bütün rayonlarında gündən-günə artır, möhkəmlənir və nümunəvi özəl fermer təsərrüfatına çevrilir. Belə nümunəvi təsərrüfatlardan biri də Azərbaycan Respublikası və Dünya Bankının birgə layihələrinə əsasən muxtar respublikamızda Püsyan kəndində yaradılmışdır. Bu özəl təsərrüfatın yaradılması layihəsinin tətbiqi üzrə Şərur rayon işçi orqanının mütəxəssisi İmamverdi Quliyevin rolu böyükdür. Onun başçılıq etdiyi fermer təsərrüfatı təcrübə məktəbinə çevrilmişdir. Başqa fermerlər bu fermer təsərrüfatında qabaqcıl təcrübə öyrənirlər. O, aqrotexniki qaydalara əməl etməklə, yəni torpağı vaxtında şumlamaq, suvarmanı başa çatdırmaq, süni gübrə verməklə 2001-ci ildə 1, 2 hektar sahədə buğda əkməklə, düzgün becərmə ilə əlaqədar taxıl sahəsindən 55 sentner məhsul götürmüşdür. Həmçinin o öz fermer təsərrüfatında taxılçılıqla yanaşı, 0, 7 hektar sahədə şəkər çuğunduru, 5 hektar sahədə isə yonca əkmişdir. İstər şəkər çuğunduru məhsulu istehsalında, istərsə də yonca çalımında yüksək nəticələr əldə etmişdir. İmamverdi Quliyevin başçılıq etdiyi fermer təsərrüfatında 2000-ci ildə taxılçılıq, heyvandarlıq, bitkiçilik üzrə ümumi gəliri 172,2 milyon manat olmuş, 2001-ci ildə isə bu rəqəmin xeyli artırılması nəzərdə tutulmuşdur. Beləliklə, özlərini torpağın sahibi sayan fermerlər

ildən-ilə yeni qaydalarla işləməyin üstünlüklərini dərk etmiş və sabaha inamla baxmışlar. Bununla yanaşı, Babək rayonunun Hacıvar, Yarımca, Qahab, Nehrəm, eləcə də Ordubad, Culfa, Şahbuz rayonlarının kəndlərində "mən fermerəm" deyənlərin sayı günü-gündən artmışdır ki, bu da muxtar respublika rəhbərliyinin, rayon icra aparatı başçılarının bu işə gündəlik qayğısı, yaratdığı şəraitlərlə əlaqədar olmuşdur. Bu fermerlərdən rayonun Qahab kəndindən Məhəmmədi, Hacıvar kəndindən Məmmədhüseyn Əliyevi, bir çox başqa fermerin Nehrəm və Cəhri kəndlərində də fəaliyyət göstərdiyini qeyd etmək mümkündür. Kənd təsərrüfatının inkişaf etdirilməsində muxtar respublikanın bütün rayonlarında seçilib yerləşdirilən icra aparatının rəhbərlərinin də gərgin iş fəaliyyəti xüsusilə vurğulanmalıdır. Onlar Ali Məclisin qərar, tapşırıq və göstərişlərini çox ləyaqətlə və vaxtında yerinə yetirmək üçün bütün qüvvə və bacarıqlarını sərf edirdilər. Kənd təsərrüfatının inkişaf etdirilməsinə, o cümlədən taxılçılığa meyllilik Culfa rayonunun Kırna və Qızılca kəndlərində də özünü büruzə vermişdir. Bu iki kəndin əhatə etdiyi ərazidə 225 hektar taxıl biçilmiş, hər hektardan orta hesabla 39 sentner məhsul əldə edilmişdir. Bu isə Sovetlər Birliyi dövründə olan kolxoz və sovxozların məhsulundan xeyli çoxdur. Heyvandarlıq da burada öz inkişaf yolunu tapmışdır.

Ümumiyyətlə, XX yüzilliyin 90-cı illərində yenidən öz müstəqilliyini bərpa etmiş Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bütün sahələr üzrə elmi-texniki yeniliklərin tətbiqi sayəsində yüksək nailiyyətlər əldə edilmiş, iqtisadi sahədə uğurlara imza atılmışdır.

## ƏDƏBİYYAT

1. Şahverdiyev Z. Zeynalov İ. Naxçıvan Muxtar Respublikası 1991-2001-ci illərdə. Bakı: 2002, 168 s.
2. "Şərq qapısı" qəz. 1991-2001-ci illərdə nəşr edilən nömrələri

## РЕЗЮМЕ

**Захмат Шахвердьев**

### ИННОВАЦИОННЫЕ ПРИНЦИПЫ В ПРОМЫШЛЕННОСТИ И СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ НАХЧИВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ В ПЕРВЫЕ ГОДЫ НЕЗАВИСИМОСТИ

Конец XX века считается самым тяжелым, ответственным и сложным периодом в истории Азербайджана, в том числе и Нахчывана, входящего в его состав. Несмотря на блокаду Нахчывана в эти годы, наряду с лидером и самоотверженностью народа Нахчывана, эта земля начала развиваться, хотя и незначительно. В то же время инициированные Гейдаром Алиевым экономические реформы, направленные на улучшение положения народа, были проведены очень принципиально и в короткие сроки.

## SUMMARY

**Zahmat Shahverdiyev**

### INNOVATIVE PRINCIPLES IN INDUSTRY AND AGRICULTURE IN NAKHCHIVAN AUTONOMOUS REPUBLIC IN THE FIRST YEARS OF INDEPENDENCE

The end of the twentieth century is considered to be the most difficult, responsible and complex period in the history of Azerbaijan, including Nakhchivan, which is part of it. Despite the blockade of Nakhchivan during these years, along with the leader and the selflessness of the people of Nakhchivan, this land began to develop, albeit slightly. At the same time, the economic reforms initiated by Heydar Aliyev to improve the situation of the people were carried out in a very principled manner and in a short time.

**İSA ALIYEV,**
**FAMİL RÜSTƏMOV**
*AMEA İqtisadiyyat İnstitutu*

# AQRAR SAHƏNİN İNNOVASİYALI İNKİŞAFININ TƏMİN OLUNMASI MƏSƏLƏLƏRİ HAQQINDA

***Açar sözlər****: innovasiya, investisiya, aqrar sahə, dayanıqlı inkişaf*
***Ключевые слова:*** *инновации, инвестиции, сельское хозяйство, устойчивое развитие.*
***Key words:*** *innovation, investment, agriculture, sustainable development*

Artıq bazar iqtisadiyyatı yolunu özünün strateji məqsədi hesab edən respublıкamızda кeyfiyyətcə yeni istehsal münasibətləri bazasında sahibкarlığa əsaslanan istehsal və idarəçiliк münasibətləri yaranmışdır. Yeni bazar iqtisadiyyatının məzmununa uyğun gəlməyən aqrar münasibətlər, eləcə də bu sahənin iqtisadi idarəetmə mexanizminin səmərəli formalaşması yaranmadığından da bu sahə qarşısında duran strateji məqsədi tam yerinə yetirə bilməmişdir. Bu sahədə qanunvericiliк bazasının yetkin normal inкişaf etməsi, idarəetmənin iqtisadi rıçaqlarından, o cümlədən, qiymət, vergi, investisiya, кredit və b. dolğun istifadə, sahibкarlığın ümumi səmərəli inкişafına innovativ əsas verən işləк bir mexanizmin formalaşdırılmasına ehtiyac vardır. Bu yolda isə innovasiya amillərindən dolğun istifadə olunması, innovativ (metodlardan) istifadənin səmərəliliyinin yüкsəldilməsi məsələlərini bu günün baxımından araşdırmaq zərurətini meydana çıxarır.

İnnovasiya anlayışına gəldikdə isə mövcud fikirləri ümumiləşdirərək belə qənaətə gəlmək olar ki, "innovasiya", "yenilik" dedikdə istehlakçılar tərəfindən bu və ya digər əhəmiyyətli kriteriyalar üzrə yeni hesab edilən məhsul və xidmət növləri hesab oluna bilər. Bununla əlaqədar məhsullar təkcə ərazi üzrə deyil, eyni zamanda bazar tələblərindən irəli gələn fərqli siqnallar əsasında alıcılıq xüsusiyyətlərinə görə hərəkət edirlər. Qeyd etmək lazımdır ki, yeniliklərin əhəmiyyəti məsələsində elmi-texniki kriteriyalara da diqqət yetirilməsi vacib məsələyə çevrilir.

Sahibkarlıq subyektlərinin texnoloji baxımdan marketinq tələblərinə uyğun yeniliklərin axtarılması alimlərin, novatorçu mütəxəssislərin texnoloji xidmət orqanları ilə daimi əlaqələri vasitəsi ilə həyata keçirilir. Bununla da hər bir innovasiya strateji maraqların təmin olunmasına xidmət edərək ünvanlı xarakter daşıyır və əvvəlcədən reallaşdırılması imkanları qazanır.

Müasir şəraitdə aqrar sahədə respublikamız iqtisadi inkişafın investisiyalı tipindən innovasiyalı tipinə, sənayeləşdirilmiş cəmiyyətdən elm və biliyə əsaslanan postsənayeləşmə cəmiyyətinə daxil olmağı vəzifə kimi qarşıya qoymalıdır. Fikrimizcə, Azərbaycanda iqtisadi inkişafın innovasiyalı tipinə keçid zəruriləşir ki, bu da bir sıra amillərlə əlaqədardır. Hər şeydən əvvəl, innovasiyalı məhsul istehsalçılarının sayını artırmaq, innovasiyalı məhsul istehlakçılarının davranışına üstünlük vermək, innovasiyalı məhsul istehsalçıları ilə istehlakçılar arasında qarşılıqlı əlaqəni gücləndirmək lazımdır. İnnovasiya prosesi əsasında davamlı iqtisadi inkişafa nail olunması üçün innovasiyalı məhsul istehsal edənlərin birbaşa innovasiyalı istehlak bazarına sərbəst daxil olması mexanizmini daima təkmilləşdirmək zəruridir.

Bunlarla yanaşı, hesab edirik ki, aqrar sahənin rəqabətqabiliyyətliyinin təmin olunması meylləri də müasir dövrdə zəruri hallardandır. Bu baxımdan onun məzmun elementlərinin aşağıdakı prinsiplərdə ifadə etməsini təklif edirik:

- İlk növbədə, aqrar sahənin innovasiyalılığı, keyfiyyətyönümlü islahatların sürəti, həmçinin artım dinamikası nəzərə çarpacaq dərəcədə özünü ifadə etməlidir;
- Aqrar sahənin texniki səviyyəsinin yüksəldilməsi və innovativ meyarların tətbiqi istiqamətləri çoxşaxəli və geniş xarakter daşımalı, bütövlükdə isə artan templərlə getməlidir. Həmin sürət isə ilk növbədə maliyyə bazarının inkişafı ilə əlaqələndirilməlidir. Bu proseslərdə, yəni yeni halda aqrar sahəyə yönəldilə bilən zəruri investisiya portfellərinin həcmi diqqət mərkəzində qalmalıdır;
- Qeyd olunan əsas istiqamətlərlə yanaşı, əmək bazarının hazırkı səviyyəsi də daim diqqətdə sax-

lanılmaqla, bu sahədə təhsil və elmi fəaliyyətin intensiv inkişafının səviyyəsinin də yüksəldilməsi, həmçinin onun makroiqtisadi tənzimlənməsi, dövlətin bu proseslərdə mövcud yeri və rolu məsələləri, müxtəlif məhsul üzrə ayrıca mal və xidmət bazarlarının yetərincə formalaşması, nəticə etibarı ilə isə aqrar bazarın mövcud həcminin daim genişləndirilməsi məntiqinə söykənməlidir. Sözsüz ki, bütün bu hallar aqrar sahədə biznes mühitin formalaşması üçün daha əlverişli şərait yaratmalıdır və s. (1, s.44-45).

Milli iqtisadiyyatımızın inкişafı, islahatların gedişi кonteкstində aqrar sahənin innovasiya amillərindən, onun məzmun və mahiyyətinin öyrənilməsi yeni metodoloji baxış tələb etməyə bilməz. O cümlədən aqrar sahədə innovasiya mexanizminin formalaşması məsələləri, onun xüsusiyyətlərinin öyrənilməsi, sahənin idarə olunmasının strateji məqamlarının araşdırılması, yeni aqrar münasibətlərinin və bazarının formalaşması, inкişafı və reallaşması кimi, eləcə də idarəçiliкdə sahibкarlığın inкişaf formalarının meydana gəlməsi və s. məsələlər кompleкsi geniş şəкildə tədqiq olunmasını tələb edirdi. Laкin yaranmaqda olan yeni istehsal aqrar münasibətləri və formalaşmaqda olan bazar, milli sahibкarlıq münasibətlərinə uyğun, xüsusən də aqrar sahədə innovasiya mexanizminin sürətlə tətbiqi zəruriliyi bu məsələyə yeni yanaşma, tədqiq olunma tərzi tələb etmişdir. Bu baxımdan aqrar sahədə innovasiya mexanizminin formalaşması və inкişafının təкmilləşdirilməsinin nəzəri-metodoloji məsələlərinin, maкroiqtisadi səviyyədə təкmilləşdirilməsi prinsipləri, eləcə də bu sahənin dövlət tənzimlənməsi, yardımı, xarici əlaqələr və s. bu кimi məsələlərə qarşılıqlı əlaqədə baxmaq zərurəti meydana çıxır.

Bunun üçün də innovasiyalı bazarın təşkilati-hüquqi bazasını yaratmaq zəruridir. İnnovasiya fəaliyyətinin dövlət tənzimlənməsinin məqsədi iqtisadiyyatın bütünlükdə normal fəaliyyət göstərməsini təmin edən şəraitin alınması və sahibkarların beynəlxalq əmək bölgüsündə sabit iştirak edərək, optimal səmərə əldə etməsidir. Belə məqsədlərə aşağıdakılar aiddir:

- Bu sahələrdə mütərəqqi dəyişikliklərin təmin olunması;
- Yerli məhsulun rəqabət qabiliyyətinin artırılması;
- Ekoloji vəziyyətin yaxşılaşdırılması;
- Ölkənin milli və iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsi və s.

Aqrar sahənin dinamik və davamlı inkişafının, regionların inkişafı üzrə Dövlət Proqramının zəruriliyi Azərbaycanda dövlətin investisiya siyasətinə yeni əsaslarla baxılmasını tələb edir. Bu baxımdan, fikrimizcə, regional iqtisadi siyasətin formalaşması aşağıdakı yanaşmaları tələb edir:

- İnnovasiya sahəsində qanunvericilik və digər normativ aktların hazırlanması və reallaşdırılması;
- İnnovasiya və investisiya resursların formalaşması və istifadəsi üzrə işlərin əlaqələndirilməsi;
- İnnovasiya və investisiya bazarının ümumi informasiya-maliyyə mühitindən istifadənin təmin edilməsi;
- İnvestisiya xidmətləri sferasının inkişafı üçün zəruri şəraitin yaradılması;
- İnnovasiya təhlükəsizliyinin təmin edilməsi;
- Biznesin, regional idarəetmə orqanlarının, yerli özünüidarəetmə orqanlarının, xüsusi dövlət xidmətinin qarşılıqlı əlaqələri üzrə təşkilati-texniki məsələlərin həll edilməsi.

Hesab edirik ki, aqrar sahədə investisiya bazarları sistemi özündə aşağıdakı elementləri birləşdirməlidir:

- Aqrar sahə üzrə innovasiya bazarların formalaşması;
- Bazar münasibətlərinin inkişafına təkrar istehsalın təkrar proporsiyalarının təsirinin qiymətləndirilməsi, daxili və təsərrüfat əlaqələrin, investisiya potensialının təhlili;
- İstehsalın yerləşdirilməsinin təhlili;
- əsas investisiya layihələrinin təhlili;

Aqrar sahədə davamlı iqtisadi tərəqqi üçün rəqabətqabiliyyətlilik zəruri şərtdir. Rəqabətqabiliyyətliliyin də əsasında innovasiya və modernləşmə dayanır. İnnovativ yanaşmada xarici təcrübə təhlil edilməli və əhəmiyyəti göstərilməlidir. Həmçinin modernləşmə və innovasiyaya biri-birini tamamlayan, dətsəkləyən proseslər kimi baxılmalıdır.

Aqrar sahə iqtisadiyyatının inkişafının əsas istiqamətlərindən biri də innovasiya fəaliyyəti və onun potensialının artırılmasıdır. Buna görə aqrar sahənin sonrakı inkişafı ilk növbədə innovasiya yoluna keçiddən, innovasiyada elmi biliklərin transformasiyası və onların kommersiyalaşmasından,

ölkənin aqrar sənaye kompleksinin əsas sahələrinin informasiya qavramasının səviyyəsindən, ölkənin infrastruktur kompleksinin əsas sahələrindən olan informasiyanın həssaslığı dərəcəsindən asılıdır. Yeni texnoloji proseslərin yaradılması və geniş tətbiqi, investisiya, xarici ticarət dövriyyəsi, iqtisadiyyatın rəqabət qabiliyyətli məhsul həcminin, məşğulluq, əmək və maliyyə resurslarının artması əsas amillərdir.

Digər tərəfdən aqrar sahədə innovasiyalı inkişaf ölkənin elmi-texniki potensialının inkişafı ilə bağlıdır. Keçid şəraitində iqtisadiyyatın innovasiyalı inkişaf yolu elmi nəticələrin kommersiyalaşmasının koordinasiyası və stimullaşdırılması prosesində dövlətin rolu danılmazdır. Ölkədə əsas vəzifə kimi bilik istehsalına olan yanaşma artırılmalıdır. Çünki bilik bu gün maddi dəyərlərin səmərəli istehsalında əsas şərtdir. Elmi biliklərin istehsalında bu sferada məşğul olan elmi-tədqiqat təşkilatlarının və elmi kadrların rolu danılmazdır. Elmi işçilər iqtisadiyyatın və ictimai həyatın bütün sferalarında innovasiyanın yaradıcılarıdır. Elmi kadrların hazırlığı ölkədə elmin inkişafının ölçüsüdür.

Müasir dövr vahid qlobal məkanın formalaşması ilə müşahidə olunur. Artıq qloballaşma və inteqrasiyanın intensivləşməsi iqtisadi proseslər üçün sərhədləri aradan qaldırıb, kapital və əmtəələrin beynəlxalq hərəkəti sərbəstləşib. Təbii ki, istehsal amilləri və hazır məhsulların beynəlxalq hərəkətinin sərbəstləşməsi müxtəlif milli iqtisadiyyatlara fərqli təsirlərlə xarakterizə olunur.

Qloballaşma, ayrı-ayrı milli təsərrüfatların beynəlxalq aləmə, qlobal iqtisadi mühitə inteqrasiyasının sürətlənməsi, həm də XX əsrin axırlarından cərəyan etməyə başlayan informasiya inqilabı ilə də müşayiət edilmişdir. Müşahidələrdən də aydın olur ki, istər qloballaşma və inteqrasiya, istərsə də informasiya təminatı və dövriyyəsi sahəsində baş verən inqilabi dəyişikliklər hər bir milli təsərrüfatın iqtisadi inkişafına ciddi təsir edir. Bütün bunlarla yanaşı, baş verən dəyişikliklər iqtisadiyyatın ayrı-ayrı sahələrinin davamlı inkişaf istiqamətinə bu və ya digər dərəcədə təsir etsə də, konkret tələblər mövcuddur. Buraya ilk növbədə, innovativlik və onun əsasında formalaşan rəqabətqabiliyyətlilik daxildir. Məhz bu səbəbdən də, müasir dövrdə, milli təsərrüfatın bütün sahələrində, xüsusilə də sənaye sektorunda beynəlxalq standart və tələblərin tətbiqi, artıq zərurətə çevrilmişdir. Artıq qloballaşma və informasiya inqilabının nəticəsi olaraq milli iqtisadiyyatda yeni texnika və texnologiyanın genişmiqyaslı tətbiqi ictimai tərəqqinin aparıcı qüvvəsinə çevrilmişdir. Eyni zamanda, iqtisadi inkişafın xarakteri və şərtlərinin tamamilə yeni bazaya əsaslanması, öz növbəsində, ümumilikdə cəmiyyətin modernləşməsini tələb edir.

Aqrar sahə iqtisadiyyatının müasir inkişaf səviyyəsini elmi-texniki tərəqqisiz (ETT) təsəvvür etmək mümkün deyildir. ETT nailiyyətlərindən geniş istifadə edilməsi isə istehsalın səmərəliyinin artırılmasının mühüm amillərindən biridir. ETT-nin əsasında məhsuldar qüvvələrin maddi ünsürləri, əmək vasitələri və əşyalarının inkişafında baş verən ziddiyyətlər durur, hansı ki, bu, məhsuldar qüvvələrin əsaslı surətdə dəyişilməsini özündə əks etdirir. Müasir mərhələdə ETT fundamental tədqiqatlar, tətbiqi tədqiqatlar, təcrübi layihə işləmələri olmaqla üç istiqamətə ayrılır ki, bunların da hər biri digəri ilə qarşılıqlı əlaqəlidir.

Elmi-texniki tərəqqi son illərdə elm və texnika sahəsində ciddi dəyişikliklərə səbəb olmuşdur. Müasir dövrdə elmi və elmi-populyar ədəbiyyatlarda getdikcə daha çox "innovasiya" anlayışı işlədilir. Qeyd etmək lazımdır ki, "innovasiya" termini ötən əsrin əvvəllərində bir mədəniyyətin digər mədəniyyətə diffuziyası kimi, hər hansı bir dildə ayrı-ayrı dillərdə işlədilən anlayışlardan istifadə olunması kimi təqdim olunurdu. Lakin əslində isə innovasiya yaradıcılıq prosesinin nəticəsi kimi çəkilən xərclər və əldə edilən nəticələr arasındakı nisbətlərin yaxşılaşmasına xidmət edir və yaxud şərait yaradır.

Aqrar sahənin innovasiya fəaliyyətinin əsas istiqamətləri aşağıdakılar hesab edilir:

-istehsalın enerji və resursqoruyucu texnologiyası, kənd təsərrüfatı məhsullarının saxlanılması və emalı;

- daxili bazarı ucuz və keyfiyyətli ərzaq məhsulları ilə doldurmağa qadir olan innovasiya;

- məhsuldarlığı, səmərəliliyi, texnika və avadanlığın təmirə yararlılığı, onların xidmət vaxtının uzadılması, istehsal fəaliyyətinin yüksəldilməsinə imkan verən yeniliklər;

- iqtisadiyyatda innovasiya modelinin qurulmasını nəzərə alaraq ASK üçün yüksək ixtisaslı kadrların hazırlanması;

- ekoloji şəraiti yaxşılaşdırmağa imkan verən tədbirlər (2, səh.237).

Hesab edirik ki, innovasiyaların təşkilati iqtisadi mexanizminin idarə olunmasında innovasiya prosesinin spesifikası, ideyaların yaranmasından tətbiq olunmasına qədər prosesin baş verməsi ardıcıllığı, hadisələr silsiləsi nəzərə alınmalıdır. Bu xüsusiyyətlər, adətən, yeniliklərin növü və tipindən asılıdır.

İstehlakçıların tələblərinin ödənilməsi baxımından innovasiyalar ya mövcud tələblərin ödənilməsinə yönəldilən və yaxud yeni tələbləri formalaşdıran innovasiya qruplarına bölünə bilər.

## ƏDƏBİYYAT

1. İ.H.Alıyev, İ.Soltanlı. Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri. Bakı, 2017, s. 44-45
2. E.Quliyev. Aqrar iqtisadiyyat. Bakı, 2015, s. 237

## РЕЗЮМЕ

**Иса Алиев, Фамил Рустамов**

## ПО ВОПРОСАМ ОБЕСПЕЧЕНИЯ ИННОВАЦИОННОГО РАЗВИТИЯ АГРАРНОГО СЕКТОРА

В статье изложены взгляды на инвестиционное развитие аграрного сектора и высказаны конкретные идеи. Таким образом, необходимость инновационного развития оправдана, как условие обеспечения конкурентоспособности в развитии аграрного сектора.

## SUMMARY

**Isa Aliyev, Famil Rustamov**

## ON İSSUES OF ENSURİNG İNNOVATİVE DEVELOPMENT OF THE AGRARİAN SECTOR

The article sets out the views on the investment development of the agricultural sector and expressed concrete ideas. Thus, the need for innovative development is justified as a condition for ensuring competitiveness in the development of the agricultural sector.

**NURİYYƏ İBRAHİMOVA**
*Naxçıvan Dövlət Universiteti*
*nuriyyeibrahimova@mail.ru*

# MÜASİR İNNOVASİYALI DÖVR: SÜRƏTLİ İNKİŞAF VƏ SOSİAL-İQTİSADİ YÜKSƏLİŞ

***Açar sözlər:*** *sahibkar, sektor, tarazlı inkişaf, rəqabət, islahat, inkişaf, innovasiya*
***Ключевые слова:*** *финансы, инвестиция, социальная, потенциал, предпринимательство, комплекс, инновация*
***Key words:*** *entrepreneurship, sector, balanced development, competition, reform, development.*

Azərbaycan Respublikasının müstəqillik əldə etməsindən sonra öz iqtisadiyyatını bazar iqtisadiyyatının tələbləri istiqamətində yenidən formalaşdırmağa başladı. İqtisadi təhlükəsizliyin təmin edilməsi üçün ölkə iqtisadiyyatının innovasiya addımlarından istifadə edilərək inkişaf etdirilməsinin böyük əhəmiyyəti vardır. İnnovasiya fəaliyyətinin kifayət qədər geniş miqyasda təşkil edilməsi üçün elmi-texniki tərəqqini ehtiva edən istehsal sahələrinin əsaslı transformasiyası ilə bağlı problemlərin həlli vacibdir. Bu problemlər təkcə iqtisadiyyat elminə aid deyil, həmçinin bazar münasibətlərinin tələbləri nəticəsində meydana gəlmiş menecment, marketinq və digər elmi sahələrin də tədqiqat obyektidir.

Azərbaycan Respublikasında bazar münasibətlərinə uyğun milli innovasiya sisteminin yaranması və uğurlu fəaliyyəti aşağıdakı amillərdən əsaslı sürətdə asılıdır:

1. Yeni texnologiyaların, texnikanın, ideya və birliklərin istehsalları olan müəssisələr şəbəkəsinin mövcudluğu;
2. Yeni məhsul istehsal edə bilən istehsalat müəssisələri şəbəkəsinin mövcudluğu;
3. Qeyd edilən istehsal prosesləri iştirakçılarının maliyyələşdirilməsi sisteminin mövcudluğu;
4. Bütün tərəflər arasında münasibətlərin tənzimlənmə mexanizminin olması və s.

Ölkəmiz hazırda iqtisadi modernləşmənin keyfiyyətcə yeni mərhələsinə qədəm qoyur. Dünya İqtisadi Forumun dərc etdiyi 2017-2018 Qlobal Rəqabətlilik hesabatında Azərbaycan ölkələr arasında 35-ci yeri tutmaqla MBD dövlətləri arasında 1-ci olmuşdur. Hətta 20-yə daxil olan ölkələrin bir çoxunu iqtisadiyyatın rəqabət qabiliyyətliliyinə görə geridə qoymuşdur.

Azərbaycan Respublikasında iqtisadiyyatın davamlı və rəqabətqabiliyyətli inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirilir və bu islahatlar çərçivəsində iqtisadiyyatın divertisifikasiyası qeyri-neft sektorunun stimullaşdırılması, biznes və investisiya mühitinin yaxşılaşdırılması, dövlət sahibkar münasibətlərinin inkişaf etdirilməsi, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində kompleks tədbirlər görülür. Region iqtisadiyyatının inkişafı indiki tarazlı inkişaf strategiyasının reallaşması konteksində mühüm əhəmiyyət kəsb edir. Regionun kompleks inkişaf məqsədi onun ərazisində formalaşan potensialın istifadəsi və təkrar istehsalı üçün zəruri olan vəzifələrin, əsas tədbirlərin hazırlanması və tətbiqi ilə mümkündür. Yeni iqtisadi şəraitdə ölkəmizdə həyata keçirilən inkişaf strategiyası ilk növbədə regionların sosial-iqtisadi inkişafının təmin edilməsi, iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü məhsul istehsalına keçməklə iqtisadiyyatın şaxələndirilməsinə xidmət edir.

Azərbaycanın ümummilli lideri Heydər Əliyevin müəyyənləşdirdiyi iqtisadi inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müvəfəqiyyətlə davam etdirilməsi nəticəsində qazanılmış uğurların miqyası və əhatə dairəsi xeyli genişləndirilmişdir. Ölkə Prezidentinin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 24 noyabr 2003-cü il tarixdə imzaladığı fərmanla müəyyən edilmiş sosial-iqtisadi inkişafın əsas istiqamətləri üzrə həyata keçirilən tədbirlər bu sahədə əldə edilmiş nailiyyətləri daha da möhkəmləndirmişdir. Digər tərəfdən iqtisadiyyatın bütün sahələrində inkişafa istiqamətləndirilmiş tədbirlərin ayrı-ayrı dövlət proqramları çərçivəsində həyata keçirilməsi ümumi nəticədə səmərəliliyi xeyli artırmışdır. Azərbaycanda həyata keçirilən sosial-iqtisadi islahatlar artıq öz bəhrəsini verməkdədir. İslahatlar nəticəsində iqtisadiyyatın bütün sektorlarının sürətli və daha çox artması, tədiyə balansında müsbət saldoların yaranması bunu bir daha təsdiqləyir. Bütün bunları 9 ayın sosial-iqtisadi göstəricilərinə nəzər yetirdikdə də aydın şəkildə görürük.

Həqiqətən də iqtisadi göstəricilər onu deməyə əsas verir ki, artım daha çox qeyri-neft sektoru istehsalı ilə formalaşıb və praktik olaraq qeyri-neft sektorundakı artım ümumi iqtisadiyyatdakı artım tempinin qorunub saxlanmasına imkan yaradır:

- Qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çox olub;
- Qeyri-neft sənayesi 15 faizdən çox artıb;
- Valyuta ehtiyatları 50 milyard dollara çatıb;
- İqtisadiyyata 10 milyard 146,2 milyon manat investisiya yatırılıb;
- Sahibkarlara 130 milyon manat güzəştli kredit verilib;
- Müxtəlif ölkələrə 7 ixrac missiyası təşkil olunub;
- 186 ölkə ilə ticarət əlaqələri aparılıb;
- Xarici ticarət dövriyyəsi 25,3 milyard dollar olub;
- İxrac məhsullarının çeşidlərinin sayı artaraq 2780-ə çatıb;
- Qeyri-neft ixracı 15,5 faiz artaraq 1,4 milyard dollara çatıb;
- Sənaye parklarında 564 milyon manatlıq məhsul istehsal edilib;
- 8 KOB Dostu fəaliyyətə başlayıb;
- Kənd təsərrüfatı 7 faizdən çox artıb;
- İnflyasiya 2 faizdən bir qədər çoxdur;
- 2 sosial paketlə 4,2 milyondan çox insanın maddi vəziyyəti yaxşılaşıb;
- Minimum əmək pensiyası 200 manata çatdırılıb;
- Minimum əməkhaqqı 250 manata yüksəlib;
- 903,5 kilometr uzunluğunda avtomobil yolları çəkilib;
- Məcburi köçkünlər üçün 106-cı qəsəbə istifadəyə verilib;
- Xarici borc ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir.

Dövlət başçısı qeyri-neft sənayesindəki 15 faizlik artımın rekord göstərici hesab olunduğunu dedi. Ümumiyyətlə, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar sayəsində artıq mərhələli şəkildə iqtisadi artımın neft sektorundan qeyri-neft sektoruna transfer olunduğunu görməkdəyik.

Lakin Azərbaycan Respublikası Prezidenti İlham Əliyev hesab edir ki, bu artım daha yüksək ola bilər. Əgər ölkədəki yetərli imkanlardan, potensialdan maksimum səmərəli istifadə olunarsa: "Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu, onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir. Əlbəttə, biz istərdik ki, artım daha da yüksək olsun. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkanlar, potensial var. Sadəcə olaraq, biz bu potensialdan maksimum səmərə ilə istifadə etməliyik".

Yüksək göstəricilərdən biri kənd təsərrüfatının inkişafında da müşahidə olunub. Son illərdə inkişafı prioritet sahə kimi müəyyən edilən kənd təsərrüfatına böyük investisiyalar qoyulması, subsidiyaların, güzəştli şərtlərlə kreditlərin verilməsi də bu inkişafı daha da sürətləndirib.

Əlavə iqtisadi artım mənbələrinin yaradılmasında və ixracın genişləndirilməsində stimullaşdırıcı tədbirlərdən olan güzəştli kreditləşdirmə, logistik mərkəzlərin yaradılması işlərinin davamı olaraq, son illərdə 400 hektardan çox ərazidə müasir istixana və 9,6 min hektar ərazidə intensiv başçılıq təsərrüfatlarının yaradılmasına 313 milyon manat, ümumi tutumu 353 min ton olan logistik mərkəzlərin təşkilinə 180 milyon güzəştli kredit verilib. Bu isə ixracda kənd təsərrüfatı məhsullarının ixrac həcminin artmasına müsbət təsir göstərir. Elə 9 ayda kənd təsərrüfatı və emalı məhsullarının ixracında 18,6 faizlik artıma nail olunması da bunun təsdiqidir.

Bu gün, həmçinin ölkənin 33 rayonunda 262 min hektar ərazidə ümumi dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatının yaradılması istiqamətində ciddi işlər görülür. Artıq ümumi dəyəri 764 milyon manat olan 27 aqropark və iri fermer təsərrüfatının yaradılmasına 192 milyon manat dövlətin güzəştli kredit vəsaitləri ayrılıb. Əlavə olaraq, 23 aqropark və iri fermer təsərrüfatı üzrə ümumi dəyəri 759 milyon manat olan 45 layihəyə investisiya təşviqi sənədi verilib.

Əlbəttə ki, bütün bunları nəzərə alaraq deyə bilərik ki, növbəti illərdə kənd təsərrüfatında daha yüksək göstəricilərin şahidi olacağıq.

Bu ilin 9 ayında ölkə iqtisadiyyatına yatırılan 10,1 milyard manatlıq sərmayənin 6,3 milyard manatı qeyri-neft sektoruna, o cümlədən 1,2 milyard manatı qeyri-neft sənayesinə yönəldilib. Bu da əlbəttə ki, həm Azərbaycanda investisiya mühitinin yaxşılaşdırılması istiqamətində görülən işlərin, xüsusən də xarici və yerli investorlara yaradılan əlverişli şəraitin uğurlarıdır desək, yanılmarıq.

Həm sosial-iqtisadi islahatlar, həm də xarici, yerli iş adamları üçün yaradılan əlverişli investisiya mühiti, sahibkarlığa başlama, həm də digər proseslərlə bağlı həyata keçirilən uğurlu layihələr beynəlxalq reytinq təşkilatlarının da diqqətindən yayınmır.

Dünya Bankının "Doing Business" hesabatında Azərbaycanın dünyanın ən çox islahat aparan ölkəsi sırasına daxil olması, rəqabətqabiliyyətli indeksində ölkəmizin öz mövqelərini yaxşılaşdıra bilməsi bunu bir daha təsdiqləyir. Bu da ondan xəbər verir ki, əslində, islahatlar makroiqtisadi sabitliyin qorunub saxlanmasına və makroiqtisadi göstəricilərdə artım tempinin formalaşmasına və qorunub saxlanmasına imkan yaratmaqla yanaşı, həm də beynəlxalq səviyyədəki mövqeyimizin möhkəmlənməsinə səbəb olur. Əlbəttə ki, Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun, Dünya İqtisadi Forumunun mütəmadi olaraq diqqət yetirdiyi bir ölkəni digər xarici investorlar da ciddi şəkildə izləyirlər. Bu isə Azərbaycana yeni əməkdaşlıq imkanları üçün şərait yaradır.

Azərbaycanda iqtisadi sahədə islahatların uğurlu davam etməsi aparıcı beynəlxalq maliyyə qurumlarının da diqqətindən yayınmır: "Doing Bussines" hesabatında biz biznes mühitinə görə dünya miqyasında 25-ci yerdəyik. Son hesabatda Azərbaycan yenə də 20 ən islahatçı ölkə sırasında yer alıb. Bu yaxınlarda Davos Ümümdünya İqtisadi Forumu yeni hesabat dərc edib. Bu hesabat bir daha onu göstərir ki, Azərbaycanda aparılan islahatlar ardıcıl xarakter daşıyır. Bütün bunlar, əlbəttə ki, gördüyümüz işlərə verilən yüksək qiymətdir.

Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünəməşğulluq proqramı geniş vüsət alır. Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir.

Doqquz ayın sosial-iqtisadi götəriciləri müsbətdir. İqtisadi artım təmin olunub. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu, onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir.

Qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu, onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər. Bununla bərabər, bildiyiniz kimi, son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyulmuşdur. Kənd təsərrüfatının inkişafı prioritet sahə kimi müəyyən edilmişdir. Nəzərə almalıyıq ki, bu il çox ciddi və böyük sosial paket reallaşdı. 4milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əməkhaqları, müavinətlər artırıldı. Yəni bu məqsədlər üçün milyardlarla manat vəsait xərclənib və bu vəsait sosial-yönümlü istiqamətə nəzərdə tutulurdu. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Əhalinin gəlirləri yenə də inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir.

Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir. Vergi və gömrük sahələrində aparılan islahatlar, şəffaflıqla bağlı addımlar öz səmərəsini verməkdədir. Gömrük və vergi orqanları doqquz ayda büdcəyə plandan əlavə 700 milyon manatdan çox vəsait daxil ediblər. Bu, bir daha onu göstərir ki, bizim nə qədər böyük ehtiyatlarımız var. Ünvanlı sosial yardım alanların sayı artır. İndi hər bir ailə orta hesabla 200 manatdan çox yardım alır. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Beynəlxalq aparıcı maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirirlər. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə çoxsaylı görüşlər bunu deməyə əsas verir ki, Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirilir.

"Doing Business" hesabatında biz biznes mühitinə görə dünya miqyasında 25-ci yerdəyik. Son hesabatda Azərbaycan yenə də 20 ən islahatçı ölkə sırasında yer alıb. Bu yaxınlarda Davos Ümumdünya İqtisadi Forumu yeni hesabat dərc edib. Bu hesabat bir daha onu göstərir ki, Azərbaycanda aparılan islahatlar ardıcıl xarakter daşıyır.

Son illərdə bu qədər elektrik stansiyalarının, ötürücü xətlərin tikilməsi, bax, bizi dünya miqyasında ikinci yerə gətirib çıxardı. Fəal əhalinin rəqəmsal qabiliyyətinə görə 19-cu yerdəyik. Bu, xalqımızın istedadını və mütərəqqi meyillərə yaxın olduğunu göstərir. Biznesi başlamaq baxımından biz 8-ci yerdəyik və bu rəqəmlər, əlbəttə ki, həqiqəti əks etdirir. Çünki Davos Ümumdünya İqtisadi Forumu dünyanın aparıcı beynəlxalq maliyyə qurumlarından biridir və çox mötəbər forumdur. Bildiyiniz kimi, Azərbaycan Prezidenti müntəzəm olaraq forumun iclaslarında iştirak edir.

Bütün bunlar, əlbəttə ki, gördüyümüz işlərə verilən yüksək qiymətdir. Ən böyük qiymət Azərbaycan xalqı tərəfindən verilən qiymətdir. Bu yaxınlarda aparılan sorğuya əsasən demək olar ki, əhalinin mütləq əksəriyyəti Azərbaycan aparılan siyasəti birmənalı şəkildə dəstəkləyir.

## ƏDƏBİYYAT


1. "Naxçıvan Muxtar Respublikasının 2017-2020 ci illərdə sosial-iqtisadi inkişafı" Dövlət Proqramı
2. Əlirzayev Ə. Sahibkarlığın sosial-iqtisadi inkişaf problemləri. Bakı, 2000, 114s.
3. Əliyev K. Bazar iqtisadiyyatı şəraitində sahibkarlığın inkişaf problemləri. İqtisadiyyat və audit, 2003, №10, s.24-25
4. Əhmədov N. Naxçıvan iqtisadiyyatının prioritetləri: iqtisadi artım, dinamik inkişaf. Bakı, 2008
5. İbrahimov İ. Aqrar islahatlar və sahibkarlığın inkişafı. Bakı, 2005
6. "Şərq qapısı" 25 sentyabr 2019-cu il
7. Rüstəmov A., Qasımov D. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avrora, 2013, 406 s.
8. Abbasov T. Naxçıvan Muxtar Respublikasında aqrar bazarın formalaşması və xüsusiyyətləri. Bakı, 2005, 301 s.
9. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşdırılmasında rolu. Naxçıvan, 2014, 129 s.
10. İbrahimova N. Regionda aqrar sahənin istehsal iqtisadi əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri. Naxçıvan, İdeya, 2011, 214 s.
11. Azərbaycan Respublikası DSK-nın rəsmi elektron ünvanı. www.stat.gov.az
12. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. http: //www.economy.gov.az/


## РЕЗЮМЕ

**Нурия Ибрагимова**

### СОВРЕМЕННАЯ ЭРА ИННОВАЦИЙ: ИНТЕНСИВНОЕ РАЗВИТИЕ И СОЦИАЛЬНО-ЭКОНОМИЧЕСКИЙ РОСТ

Развитие экономики региона важно в контексте текущей сбалансированной стратегии развития. В статье рассказывается о комплексном развитии региона через разработку и реализацию ключевых задач, мероприятия, необходимые для использования и воспроизводства созданного на его территории потенциала.

## SUMMARY

**Nuriyya Ibrahimova**

### MODERN INNOVATION TIMES: RAPID DEVELOPMENT AND SOCIAL AND ECONOMIC GROWTH

The article describes the implementation of multidisciplinary reforms towards sustainable and competitive economic development in the Republic of Azerbaijan and the implementation of comprehensive measures to accelerate the economic development, stimulate the non-oil sector, improve business and investment climate, support small and medium-sized businesses. were made.

**HƏSƏN MƏMMƏDOV**
*Naxçıvan Dövlət Universiteti*
*hasan_1961@mail.ru*

# DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ İNFRASTRUKTURLARIN İNKİŞAFINDA İNNOVASİYALAR

***Açar sözlər:*** *innovasiya, davamlı inkişaf, infrastrukturlar, innovasiya mərkəzləri, modernləşdirmə*
***Ключевые слова:*** *инновации, устойчивое развитие, инфраструктура, инновационные центры, модернизация*
***Key words:*** *innovation, sustainable development, infrastructure, innovation centers, modernization*

"İnnovasiya" termini son dövrdə elmi ədəbiyyatda və praktiki fəaliyyət sahəsində geniş tətbiq olunmağa başlanmışdır. "İnnovasiya" yenilik olmaqla, tətbiqi tədqiqatların hər hansı bir fəaliyyət sferasına, onun effektivliyinin yüksəldilməsi üzrə tətbiq olunmuş nəticədir.

İnnovasiya latınca "innovato" sözündən olub, dilimizə yeniləşmə, yaxşılaşma kimi tərcümə olunur. Bununla belə, innovasiya ilə əlaqədar əsas anlayışlar hələ də fərqli şərh olunur. Bəzi mənbələrdə innovasiya fəaliyyəti-insan kollektivinin yeni elmi biliklər, ideyalar, kəşflər və ixtiralar, həmçinin mövcud və sınanmış elmi texnologiya, avadanlıqların istifadəsi və tətbiqi əsasında innovasiyaların tam həcmdə ictimai realizəsinə yönəldilmiş sistemli fəaliyyət növü kimi qiymətləndirilir. Bəzi mənbələrdə isə mənaca dəyişən şəraitə mütəmadi olaraq münasibət bildirməklə bilik və bacarıqları yeni məhsula və yaxud xidmətə çevirmək mənasını daşıyır.

Bu ifadə "kəşf", "səmərələşdirmə", "yeniləşdirmə" kimi məfhumlarla eyniləşdirilir. Başqa sözlə desək, innovasiya elmi-texniki tərəqqinin nailiyyət və yeniliklərini dərindən öyrənib, istehsalata tətbiq etməklə, yeni məhsul istehsalına yönəlmiş fəaliyyət kimi başa düşülür [7].

Davamlı inkişaf şəraitində infrastrukturların inkişafının təmin olunmasında digər amillərlə yanaşı, innovasiyaların tətbiqi əsas elementlərdən biri hesab edilir. Ölkədə milli innovasiya sisteminin yaradılması makro və mikroiqtisadi sahələrdə davamlı iqtisadi inkişafın formalaşmasına xidmət edir.

Milli innovasiya sistemi özündə ölkə üçün səciyyəvi olan və innovasiya proseslərinin yayılma şəraitinə təsir göstərən hüquqi, maliyyə, sosial-iqtisadi və informasiya institutlarının məcmusunu birləşdirir. İnfrastrukturların əsas fəaliyyət və istiqamətlərinə uyğun olaraq, innovasiyalar bir sıra baza elementlərinə ayrılır. Hər bir istiqamət vahid innovasiya sistemində özünəməxsus alt sistem yaradır və təşkilati struktur formasına görə müxtəlif ola bilər.

Davamlı inkişaf şəraitində istehsal infrastrukturunun formalaşması və inkişafı istiqamətində innovasiya strukturlarının əsas vəzifələri aşağıdakılardan ibarət olmalıdır:

- iqtisadi sahələrdə struktur vahidlərin kəmiyyət və keyfiyyət cəhətdən yenidən qurmaq və istehsal olunan məhsulların rəqabətqabiliyyətini artırmaq;
- istehsal prosesini xammal mənbələrinə yaxınlaşdırmaqla yerli xammal ehtiyatları hesabına klasterial istehsal sahələrini inkişaf etdirmək;
- elmi-texniki tərəqqinin nailiyyətlərinin tətbiqi hesabına müəssisələrin yenidən qurulmasını təmin etmək.

İnfrastrukturlarda innovasiya fəaliyyəti subyektlərin fəaliyyət istiqamətindən, konkret innovasiyanın xassələrindən, innovasiya prosesinin fazalarından, dövlət innovasiya siyasətinin məqsədindən asılıdır. İnnovasiya siyasətinin reallaşması infrastrukturların inkişaf dərəcəsinə təsir edən əsas amillərdən biri hesab edilir [2].

İnnovasiya infrastrukturunda formalaşan ən vacib element istehsal texnoloji istiqamət sayılmalıdır ki, bunun da əsasında çox da böyük olmayan innovasiya mərkəzləri dayanır. Milli iqtisadiyyatımıza rəğmən respublikamızda innovasiya mərkəzlərinin üç modelinin istifadə olunmasını məqsədəuyğun sayırıq:

- milli texnoparklar;
- regional innovasiya mərkəzləri;

-yüksək texnologiyaya malik ərazilər.

Milli texnoparkların yaradılmasında əsas məqsəd müasir elmin prioritet sahələri üzrə milli elmi-texniki potensialın iqtisadi proseslərə cəlb olunması və elmi tədqiqatların kommersiya reallaşdırılması yolu ilə bu sahələrin gələcək inkişafına əlavə vəsaitlərin cəlb olunması sayılır [3].

Regional innovasiya mərkəzlərinin yaradılmasının əsas məqsədi Azərbaycanın regionlarında texnoloji istiqamətin geniş spektri üzrə innovasiya proseslərinin aktivləşdirilməsi hesab edilir. Yüksək texnologiyalara malik ərazilər innovasiya infrastrukturunun subyektləri sayılırlar və istehlak təyinatlı yüksək texnoloji məhsulların buraxılışı üzrə xarici şirkətlərlə birgə müəssisələr yaratmaq əsasında fəaliyyət göstərirlər. Bu cür təşkilatların yaradılmasında məqsəd Azərbaycan iqtisadiyyatına istehlak mallarının istehsalı üzrə müasir texnologiyaların cəlb olunması sayılır. Yüksək texnologiyaya malik ərazilərin yaradılması üçün ilkin şərtlər əlverişli coğrafi mövqe, istehsal infrastrukturunun kifayət qədər inkişaf səviyyəsi, zəngin mineral resursların mövcudluğu, iqtisadi və siyasi sabitlik hesab olunur.

Yüksək texnologiyaya malik ərazilərin effektiv inkişafı üçün ən mühüm şərtlər müvafiq qanunvericilik bazasının işlənib hazırlanması və potensial partnyorlar üçün güzəştlər sisteminin tətbiqi sayılır. Yüksək texnologiyalı ərazilər assosiasiya formasında yaradıla bilərlər. Yüksək texnologiyaya malik ərazilərin inkişafı nisbətən az müddətdə ÜDM-də elmtutumlu məhsulların payının artmasına, yerli elmi-texniki və istehsal heyətin yüksək texnologiyalı sferaya cəlb olunmasına, rəqabətqabiliyyətli məhsullarla dünya bazarına çıxmaq üçün əlverişli şəraitin yaradılmasına və beynəlxlaq keyfiyyət standartına keçidin surətlənməsinə kömək edəcəkdir [8].

Azərbaycanda elmi-texniki və innovasiya sferalarının gələcək inkişafı üçün vençur sahibkarlığı sisteminin formalaşması zəruridir. Qeyd etmək lazımdır ki, vençur sahibkarlığının inkişafı sahəsində daha böyük nəticələri yalnız bu sferada xeyli təcrübəsi olan beynəlxalq və xarici maliyyə institutları ilə sıx əməkdaşlığın təmin edilməsi şərtilə əldə etmək olar. Vençur sahibkarlığının inkişafı prosesində aparıcı rolu texnoparklar oynamalıdır, texnoparklar innovasiya fəaliyyəti üzrə informasiya-analitik mərkəz və milli innovasiya fondu oynamalıdır. Müasir mərhələdə vençur maliyyələşdirilməsinin inkişafını ləngidən əsas amillərdən biri kifayət miqdarda cəlbedici şirkətlərin və ya innovasiya təşəbbüskarlarının olmaması sayılır. Odur ki, cari iqtisadi vəziyyət şəraitində investisiyalaşma üçün cəlbedici olan şirkət deyil, ayrıca innovasiya layihəsi müəyyən edilməlidir ki, bu da innovasiya infrastrukturunun bütün subyektlərinin sıx qarşılıqlı təsirinin zəruriliyini şərtləndirir [9].

İnfrastruktuktura aid olan elementərə Biznes inkubatorları, Texnoparkları, biznes-mərkəzləri, sahibkarlar məktəbini, agentlikləri, elm-tədris mərkəzlərini və bir sıra fondları misal göstərmək olar. Bu elementləri təsnifləşdirərkən bir şeyi nəzərə almaq lazımdir ki bu qruplaşdırma nisbi anlayışdır. Təcrübə göstərir ki, bəzən texnoparklar və biznes inkubatorlar tamamilə eyni vəzifəni yerinə yetirirlər. Eyni hal biznes mərkəzlər və menecerlər məktəbi arasında da mövcuddur.

Beləliklə, aparılan araşdırmaların nəticəsi olaraq, belə qənaətə gəlmək olar ki, innovasiya proseslərinin infrastrukturlara tətbiqi milli iqtisadiyyatın davamlı inkişafında mühüm və əhəmiyyətli rola malikdir.

İnfrastrukturların modernləşdirilməsi məqsədi ilə nəzərdə tutulan innovasiya fəaliyyətinin investisiyalaşması proseslərinin tənzimlənməsi bu və ya digər sahənin kreditləşdirilməsi vəziyyətindən asılıdır. Həmin kreditləşmədə dövlətin fəal iştirakı innovasiya bazarında fəallığa müsbət təsir edir.

Qabaqcıl ölkələrdə innovasiya siyasətinin həyata keçirilməsi təcrübəsi göstərir ki, elmi ideyanın texnoloji reallaşması və kommersiyalaşmasının informasiya təminatının, ümumilikdə innovasiyalar statistikasının formalaşdırılmasında analogiyalara əsaslanmaq, heç də həmişə lazımi səmərə vermir. Sənayedə riskli innovasiya layihələrin həyata keçirilməsi qloballaşma proseslərinin intensivləşməsi, paralel fəaliyyətlərin nadir hal olmaması faktına xüsusi diqqət yetirməyi tələb edir. Məsələ ondadır ki, sürətlənən inteqrasiya prosesləri, çoxaspektli qloballaşma amilinə rəqabət və risk müstəvisində baxmağı həyati əhəmiyyətli məsələyə çevirmişdir. Digər tərəfdən innovasiya fəallığının qeyri-qənaətbəxş səviyyəsi sənayedə, əksər hallarda, demək olar ki, nəinki ixracyönlü inkişafa, hətta daxili bazara hesablanmış fəaliyyətə belə imkan vermir. Nəticədə daxili istehsal və resurs potensialından bu və ya digər dərəcədə istifadə prosesləri ləngiyir, ayrı-ayrı istehsalçı subyektlərin iflas təhlükəsi yaranır.

İnnovasiyalı investisiya proseslərinin dəstəklənməsində intellektual mülkiyyətin qorunması, normativlərin və standartların hazırlanması prosesinin sadələşdirilməsi, gömrük-vergi stimullaşdırılması, antiinhisar tədbirləri və haqsız rəqabətlə mübarizə istiqamətləri ön planda olmalıdır. İnnovasiya fəaliyyətinin və sənaye istehsalının innovativliyinin konseptual məsələlərinin həllində, adekvat innovasiya siyasətinin həyata keçirilməsinin elmi-nəzəri, metodoloji, texniki, texnoloji və digər aspektlərində uğurlar mükəmməl informasiya təminatı sayəsində mümkündür.

Yuxarıda göstərilənləri ümumiləşdirərək qeyd edək ki:

- innovativ düşüncə tərzi qədimliklə yeniliyin üzvi vəhdətini nəzərdə tutan birgəyaşayış meyarlarının önə çəkilməsini nəzərdə tutur;
- innovasiya fəaliyyətinin səciyyələndirilməsinə sadələşdirilmiş yanaşma yolverilən deyildir. Çünki innovasiya fəaliyyəti mürəkkəb və çoxsayı subyektlərin birbaşa və ya dolayı yolla iştirak etdiyi fəaliyyət növüdür;
- innovasiya fəaliyyətinin sözün həqiqi mənasında bazaryönümlü olması, onun maliyyə təminatının mühüm şərtidir;
- hazırda davamlı iqtisadi inkişafın infrastruktur problemlərinin həllinə yönəlmiş innovasiya məsələlərinə diqqət artırılmalı, nəzəri və metodoloji-praktik aspektlərə vahid kontekstdə baxılmalıdır.

Ölkədə innovasiya fəallığını artırmaq və innovativ texnologiyadan istifadə etməklə infrastrukturların modernləşdirilməsini stimullaşdırmaq məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi üçün dövlət dəstəyi ilə yanaşı, müvafiq qanunvericilik bazasının yaradılması məqsədəuyğundur:

- Ölkədə davamlı iqtisadi inkişafı təmin edən innovativ infrastrukturların yaradılması məqsədi ilə elm və istehsal sahələri arasında elə münasibətlər qurulmalıdır ki, elmi araşdırmalar yalnız istehsal sahələrinin sifarişləri əsasında, istehsal ehtiyaclarının ödənilməsi istiqamətində aparılsın və əldə edilən nəticələr birbaşa istehsalata tətbiq edilsin;
- Maddi istehsal və ona xidmət edən infrastruktur sahələrinə innovativ texnologiya tətbiq etməklə, rəqabətqabiliyyətli məhsul istehsalının stimullaşdırılması təmin edilsin;
- İnnovativ sahibkarlığın inkişaf etdirilməsi və yeni fəaliyyət növlərinin və məhsullarının inkişafı üçün əlverişli mühit yaradılması ilə yanaşı, qabaqcıl texnologiyaların transferi və mənimsənilməsi istiqamətində tədbirlərin gücləndirilməsi, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparklar və innovasiya zonaları yaradılması təmin edilsin;
- Qabaqcıl dünya təcrübəsindən istifadə etməklə Azərbaycanda informasiya cəmiyyətinin tələblərinə uyğun olaraq, yeni bilik və texnologiyaların istifadəsini, mənimsənilməsini və yayılmasını təmin edən milli innovasiya sisteminin formalaşdırılması təmin edilsin [10].

Fikrimizcə, davamlı inkişaf şəraitində infrastrukturların inkişafı və modernləşdirilməsi üçün innovasiya fəaliyyətinin stimullaşdırılması prioritet istiqamət kimi müəyyən edilməlidir.

## ƏDƏBİYYAT

1. Eyvazova N.K. Regionlarda innovasiyalı istehsalın təşkilinin zəruriliyi //Bakı, Azərbaycan Milli Elmlər Akademiyasının Elmi əsərlər toplusu. 2017, №2, s.88
2. Əliyev B.N. Dünya təcrübəsi əsasında innovasiya fəaliyyətinin təşkili yolları // Azərbaycan Milli Elmlər Akademiyasının Elmi əsərlər toplusu. 2016, № 2, s.206-210
3. Əliyeva G.O. İnnovasiya və investisiya siyasətinin prioritetlərinin birgəliyi və sənayenin davamlı inkişafı // Azərbaycan Milli Elmlər Akademiyasının Elmi əsərlər toplusu. 2015, №2, s.124-130
4. İnnovasiya fəaliyyəti haqqında bir sıra stimullaşdırıcı mexanizmlər/ Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutu. Bakı, "Çap ART" Nəşriyyatı, 2017, 36 s.
5. Qasımlı V. İqtisadi modernizasiya /V.Qasımlı. Bakı, Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 2014, 311 s.
6. Məmmədov İ.S. İnnovasiyayönümlü investisiyaların təkmilləşdirilməsi istiqamətləri// İ.S.Məmmədov, T.M. Əhmədov. AMEA-nın xəbərləri. İqtisadiyyat seriyası. Bakı, 2017, №1, s. 45-50

7. Məmmədov H.Ə. Milli iqtisadiyyatın dayanıqlı inkişafında innovasiyaların rolu // “Naxçıvan MR iqtisadiyyatının innovativ inkişaf istiqamətləri // Naxçıvan Dövlət Universitetində keçirilən Elmi-praktiki konfransın materialları. Naxçıvan: “Qeyrət” nəşriyyatı, 2015, s.33-36
8. Sənaye klasterlərinin yaradılması metodologiyası/A.Hüseynovanın rəhbərliyi ilə. Bakı, “Çap ART” nəşriyyatı, 2017, 63 s.
9. Голиченко О. Г. Основные факторы развития национальной инновационной системы // Москва, Инновации. 2012, №5, с.4-18
10. Мамедов Г.А. Модернизация инновационным путем инфраструктуры в устойчивом развитии// XXXVI İNTERNATİONAL SCİENTİFİC AND PRACTİCAL CONFERENCE. “EUROPEAN RESEARCH: İNNOVATİON İN SCİENCE, EDUCATİON AND TECHNOLOGY”, LONDON,GREAT BRITAIN, Printed in the STATES OF AMERİCA. Журнал «European research», JANUAR 15-16, -2018, № 1 (36), ст.16-19;

**РЕЗЮМЕ**

**Гасан Мамедов**

**ИННОВАЦИИ В РАЗВИТИИ ИНФРАСТРУКТУРЫ В УСЛОВИЯХ УСТОЙЧИВОГО РАЗВИТИЯ**

В статье рассмотривается инновация как экономическая категория, ее сущность и содержание.Использование инноваций наряду с другими факторами является одним из ключевых элементов поддержки развития инфраструктуры в контексте устойчивого развития. Изложены основные задачи инновационных структур в формировании и развитии производственной инфраструктуры в контексте устойчивого развития.

Целесообразно использовать три модели инновационных центров в нашей республике (национальные технопарки; региональные инновационные центры; высокотехнологичные территории) в развитии нашей национальной экономики.

Наконец, отмечается, что в контексте устойчивого развития, стимулирование инновационной деятельности для развития и модернизации инфраструктуры должно быть определено в качестве приоритетной задачи.

**SUMMARY**

**Hasan Mammadov**

**INOVATIONS IN THE DEVELOPMENT OF INFRASTRUCTURE IN THE CONDITIONS OF SUSTAINABLE DEVELOPMENT**

The article describes innovation as an economic category, its essence and content.

The use of innovation, along with other factors, is one of the key elements in supporting infrastructure development in the context of sustainable development. The main tasks of innovation structures in the formation and development of production infrastructure in the context of sustainable development are stated.

It is advisable to use three models of innovation centers in our republic (national technology parks; regional innovation centers; high-tech territories) in the development of our national economy.

Finally, it is noted that in the context of sustainable development, the stimulation of innovation activities for the development and modernization of infrastructure should be identified as a priority.

**KƏMALƏ TƏHMƏZBƏYOVA**
*Naxçıvan Dövlət Universiteti*
*tehmezbeyova@mail.ru*

## AZƏRBAYCANDA İNNOVASİYA TƏTBİQİNİN İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *innovasiya, innovasiya infrastrukturu, innovasiya potensialı, innovativ inkişaf, qiymət, qiymət metodları*

***Ключевые слова:*** *инновации, инновационная инфраструктура, инновационный потенциал, инновационное развитие, оценка, методы оценки*

***Key words:*** *innovation, innovation infrastructure, innovation potential, innovative development, price, pricing methods.*

BMT-nin İnnovasiya agentliyinin təhlilinə əsasən innovasiya nümunələri 4 kateqoriya üzrə təqdim edilir. 1) Yeni məhsul; 2) Yeni proses; 3) Marketinq yeniliyi; 4) Təşkilati idarəetmə. İnnovasiyalar iqtisadi artım və maddi rifah halı ilə qarşılıqlı əlaqədədir. İnnovasiya dövlət siyasətinin, biznes mühitinin, maliyyə fondlarının miqyasını təşəbbüskarlıq keyfiyyətini əhatə etdiyi halda, ən uyğun innovativ mühiti meydana gətirir. Bu mühit ABŞ-da yaradılmışdır ki, Google, Apple kimi firmalar bunun nəticəsində səhnəyə çıxmışdır. Hazırda Azərbaycan iqtisadiyyatı bu gün sürətlə qlobal fəaliyyətə inteqrasiya olunmaqdadır. Bu məqsədlə Azərbaycan 2 istiqamətdə: 1) Qlobal istiqamətdə yeritdiyi innovasiyalaşma siyasəti və qlobal mühitə innovasiya töhfələri; 2) Lokal innovasiyalaşma siyasəti.

Lokal şəraitdə əsas islahatların istiqaməti müəssisələrdə, firmalarda təşkilatlarda sənaye və kənd təsərrüfatı sahələrində innovasiya fəaliyyətinin artırılmasıdır ki, bu da risksiz rəqabətqabiliyyətli beynəlxalq standartlara cavab verən məhsulların dünya bazarlarına çıxarılmasına imkan verir.

Hazırda qeyri-neft sektorunun inkişaf etdirilən sahələri arasında informasiya kommunikasiya sistemləri ön sıralardadır. Azərbaycan Respublikası Prezidenti İlham Əliyev informasiya kommunikasiya sisteminin hazırkı şəraitdə ən prioritet sektor olmasını göstərmişdir. Azərbaycanda bu sahədə xeyli işlər görülmüş telekommunikasiya peykləri orbitə çıxarılmışdır. Elektron Azərbaycan Dövlət Proqramı davamlı şəkildə həyata keçrilməkdədir. Bu da ölkə iqtisadiyyatının avtomatlaşdırılmasına, dövlət idarəçiliyinin, səmərəliliyinin artırılmasına və xərclərin azaldılmasına xidmət edir.

Müasir elmi və texnoloji naliyyətlərə əsaslanan informasiya kommunikasiya texnologiyaları sahələrinin genişləndirilməsi hətta yeni informasiya texnologiyalarının hazırlanması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 5 noyabr 2012-ci il Sərəncamı ilə Sumqayıt şəhərində yüksək texnologiyalar parkı yaradılıb. 15 dekabr 2012-ci ildə Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavodu açılmışdır. Sumqayıt, Gəncə və Naxçıvanda sənaye parklarının yaradılması davam edir. Azərbaycanın Ümumdünya İqtisadi Forumun (DİF) rəqabətqabiliyyətlilik indeksinə görə 2018-ci ildə dünya ölkələri arasında 35-ci yerə yüksəlməsi Cənab İlham Əliyevin yeritdiyi innovasiyalı iqtisadiyyatın siyasətinin tərkib hissəsidir.

Hazırda ölkəmizdə rəqabətqabiliyyətlilik indeksində daha da ön sıralarda yer alması üçün risksiz fəaliyyət siyasəti yeridilməkdədir. Bu gün müəssisələrin qloballaşmada sərbəst fəaliyyəti onlardan baş verən riskləri minimum həddə saxlamağı tələb edir. Müəssisələrdə, təşkilatlarda hər hansı bir risk maliyyə itkisi deməkdir. Hər bir sahədə risklər mövcuddur. Risklər fəaliyyətin növünə uygun olaraq, qiymətləndirilir. Biz buna sxem vasitəsilə baxa bilərik.

Beləliklə, riskləri aşkar etmək üçün təhlillər və qiymətləndirmələr aparılır. Risklərin təhlili dedikdə, mövcud olan risklər haqqında məlumat bazasının yaradılması nəzərdə tutulur. Qiymətləndirmə aşkar edilmiş risklərin miqdar ifadəsidir. Lakin risklərin qiymətləndirilməsi və təhlili nəzarət sistemi vasitəsilə həyata keçirilir. Bu nəzarət sisteminin uçot, audit, təftiş, təhlil və.s aiddir.

2006-cı ilin noyabrında isə Avropa qonşuluq siyasəti çərçivəsində Azərbaycan Avropa İttifaqı fəaliyyət planı qəbul edilmişdir. Avropa İttifaqı ilə qonşuluq siyasətinin tərkib hissələrindən biri texniki yardım proqramlarıdır. TAİEX, Twinninq və Sigma kimi proqramlar ümuminzibati əməkdaşlıq alətidir.




Qloballaşma şəraitində məhz elektron, innovatik nəzarət sisteminin yaradılması "Elektron hökumət" sisteminin əsaslarıdır. Belə ki, kompüter əsaslı nəzarət sistemi elektron audit məlumatlarının emalı və təhlili elektron audit əsasında qurulur. Bu vergi və audit fəaliyyətində daha az məsrəflə daha çox nəticə əldə etməyə imkan verən əsas istiqamətlərdəndir. Ölkədə elektron hökumət siyasətinin səmərəliliyinin artırılmasında bu gün əsas iki amil ön plana çıxır:

1. Daha yaxşı və dəqiq e-audit nəzarəti və səmərəli vergi inzibatçılığı;
2. İnformasiya texnologiyalarının son naliyyətlərindən geniş istifadə;

Lakin bu gün innovasiya sistemindən yararlanma məsələlərində bəzi problemlər özünü göstərməkdədir:

1. İnnovasiyaların tətbiqi və lizinq təşkilatlarının zəif fəaliyyəti;
2. Bəzi sənaye müəssisələrinin şəxsi vəsaitlərinin olmaması;
3. İnnovasiya sahəsində başqa ölkələrlə yerli müəssisələr arasında əlaqələrin zəifliyi və ya olmaması;
4. Audit sahəsində bəzi çatışmazlıqların olması.

Bu gün Naxçıvan Muxtar Respublikasında hər sahədə və idarəetmədə innovasiyalar tətbiq edilir və onun gələcək inkişafına xüsusi yer verilir.

Qeyd etmək lazımdır ki, dünyada patent və lisenziyaların satışı üzrə liderlik ABŞ-na məxsusdur və dünya səviyyəsində ABŞ-ın patent və lisenziyalar ixracında payı 21% təşkil edir və bu hal ABŞ iqtisadiyyatının inkişafına çox mübət təsir edir.

Ümumdünya İntellektual mülkiyyət təşkilatının 2018-ci il üzrə hazırladığı Qlobal İnnovasiya İndeksi raportuna nəzər yetirdikdə görürük ki, 126 ölkə içərisində respublikamız 82-ci yeri tutur.

**126 ölkə üzrə Qlobal İnnovasiya İndeksi**

| Ölkə | Xal | Sıralama yeri | Gəlir səviyyəsi | Effektivlik səviyyəsi | Əhali milyon, nəfər |
|---|---|---|---|---|---|
| Azərbaycan | 30,20 | 82 | Yuxarı orta | 0,49 | 9,8 |
| Belarus | 29,35 | 86 | Yuxarı orta | 0,37 | 9,5 |
| Gürcüstan | 35,06 | 59 | Aşağı orta | 0,85 | 3,9 |
| Avstriya | 51,32 | 21 | Yüksək | 0,64 | 8,7 |
| Ukrayna | 38,52 | 43 | Aşağı orta | 0,90 | 44,2 |

İnformasiya Kommunikasiya sisteminin təşkili dərəcəsinə görə hazırda ölkəmiz layiqli yerlərdən birini tutur. Belə ki, Beynəlxalq Telekommunikasiya İttifaqının informasiya cəmiyyətinin ölçülməsi hesabında ölkəmiz İKT-nin inkişaf indeksi üzrə 176 ölkə arasında 65-ci yeri tutmuşdur. "Azərkosmos" ASC dünyanın 20-dən çox ölkəsinə peyk xidmətləri göstərməkdədir. 2017-ci ilə olan məlumata görə peyk telekommunikasiya xidmətlərinin (Azərspace) ixracından 14 milyon ABŞ dolları optik peyk xidmətlərinin (Azasky) ixracından isə 9 milyon ABŞ dolları gəlir əldə edib. Ümumilikdə Azərkosmos ASC tərəfindən 2017-ci ildə 23 milyon ABŞ dolları dəyərində xidmət ixracı həyata keçirilib. Azərbaycanın dünyaya bəxş etdiyi strateji yol xəritəsi, asan xidmət,

azərkosmos ASC- Beynəlxalq aləmə Azərbaycan brendi kimi təqdim olunmalıdır. Məhz bu innovatik layihələr qlobal aləmə fayda verən region və qlobal aləmdə iqtisadi münasibətləri tənzimləyən əsas qlobal siyasətimizdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Statistik Göstəriciləri 2014. Bakı, 2014, http://www.stat.gov.az
2. Казанцев А.К., Леора СН., Никитина И.А., Рубвальтер Д.А., Фирсова С.А.
3. Региональные научно-технологические комплексы России: индикаторы оценки и методика сравнительного анализа// Информационно-аналитический бюллетень ЦИСН, 2009, №1, с.75
4. Руководство Осло: Рекомендации по сбору и анализу данных по инновациям,Третье издание Москва 2006, 192 с.
5. Radosevic S. A two-tier or multi-tier Erope?: Assessing the innovation capacities of Central and East European countries in the enlarged EU // Journal of common market studies: JCMS, 2004, vol 42, №3, p. 641-666

## РЕЗЮМЕ

**Камаля Тахмезбейова**

### ИННОВАЦИОННОЕ АКТИВНОСТЬ ПРЕДПРИЯТИЙ И ОРГАНИЗАЦИЙ АЗЕРБАЙДЖАНА

Дано слабые стороны и факторы припятствующих развитию инноваций впромыщленных предприятий республики. Раскрыты методы оценки инновационного потенциала и возникшие проблемы во время оценки. В статье даны блок схема управления инновационного потенциала, оценено инновационный потенциал субъектов примере регионов.

## SUMMARY

**Kamala Tahmazbeyova**

### DİRECTİONS OF İNNOVATİON İMPLEMENTATİON İN AZERBAİJAN

This methodology can be implementend in order to evaluate the innovation potential of the several subjects and can be used for purpose of the realization for gaining instrumentarion maximal economic results in the action experience of the subjects.

Consequently, the results of researchs create opportunities to monitorize the innovation potential level of the subjects and that canses the manage efficiently the innovation action and to make the justified strategic decisions.

**MƏHSƏTİ ƏSGƏROVA**
*Naxçıvan Dövlət Universiteti*
*mehseti_74@ gmail.ru*

## AZƏRBAYCAN İQTİSADİYYATININ İNNOVATİV İNKİŞAFI VƏ MODERNLƏŞDİRİLMƏSİ

*"Azad cəmiyyət, hüquqi dövlət, qanunun aliliyi, güclü iqtisadiyyat, çevik xarici siyasət, Azərbaycanın maraqlarının qorunması və möhkəmləndirilməsi dövlət quruculuğunun əsas istiqamətidir".*
*İLHAM ƏLİYEV*
*Azərbaycan Respublikasının Prezidenti*

***Açar sözlər:*** *Azərbaycan iqtisadi modeli, dayanıqlı iqtisadi inkişaf, Strateji Yol Xəritəsi, innovativ inkişaf və modernləşmə, islahatlar, innovasiyayönümlü iqtisadiyyat, iqtisadi strategiya*

***Ключевые слова:*** *Экономическая модель Азербайджана, устойчивое экономическое развитие, Стратегическая Дорожная Карта, инновационное развитие и модернизация, реформы, инновационная экономика, экономическая стратегия.*

***Key words:*** *Economic model of Azerbaijan, sustainable economic development, Strategic Rood Map, innovative development and modernization, reforms,innovative economy, economic strategy.*

Hazırki yüksək inkişaf və tərəqqi mərhələsinə qədəm qoymuş Azərbaycan bu tarixi mərhələyə heç də qısa zaman kəsiyində və asan yolla çatmayıb. Respublikamız qazandığı sosial-iqtisadi uğulara və bu sahədə nümayiş etdirdiyi artım templərinə, yerli resursların səmərəli istifadəsi və sosial ədalət prinsiplərinə uyğun bərabər bölüşdürülməsi, xüsusən də düşünülmüş mükəmməl iqtisadi strategiyanın həyata keçirilməsi yolu ilə nail olub.

Azərbaycanın milli iqtisadi inkişafı vahid iqtisadi siyasət strategiyasının fundamental prinsiplərinə əsaslanır. Yeni iqtisadi təfəkkürün formalaşmasında və yeni milli iqtisadiyyatın inkişafında Azərbaycan iqtisadi modeli mükəmməlliyi ilə seçilir. Ölkəmizin inkişaf modeli iqtisadi mahiyyətinə görə həm də sosiallığı ilə seçilir. Yəni bu modelin alt qatı birbaşa sosialyönümlü liberal iqtisadiyyata bağlıdır. Bu siyasət ictimai münasibətlərin sosial ədalət ruhunda dəyişdirilməsinə, gəlirlərin bərabərləşdirilməsinə, insanlar arasında maddi bölgülərin istehlakında bərabərsizliyin aradan qaldırılmasına və son nəticədə sosial rifahın yüksəldilməsinə hesablanıb. Bu, eyni zamanda , dövlətin iqtisadi gücünün artımı əsasında yeni demokratik cəmiyyətin qurulmasına kömək edir.

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və güclənməsi də dövlət müstəqilliyinin dayaqlarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyası, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələr həyata keçirə bilərdik. Dövlət müstəqilliyinin gücləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişaf etdirilməsinə şərait yaratmışdır.

Bütün planlarımızın həyata keçirilməsi üçün başlıca şərt iqtisadi potensialdır. Bu Prezident İlham Əliyevin səsləndirdiyi əsas tezislərdən biridir. Təsadüfi deyildir ki, hazırda Azərbaycanda dövlət idarəçiliyi əsas etibarı ilə "güclü iqtisadiyyat-güclü dövlət" prinsipinə əsaslanır.

İqtisadi islahatların həyata keçirilməsi üçün münbit şəraitin yaradılması, milli iqtisadiyyatımızın bazar münasibətləri əsasında inkişafına konstitusyon təminatın verilməsi, neft müqavilələrinin imzalanması, xarici investisiyaların ölkə iqtisadiyyatına cəlb edilməsi, ölkəmizin beynəlxalq əhəmiyyətli strateji-iqtisadi layihələrə qoşulması, dünyanın qabaqcıl dövlətləri ilə iqtisadi əməkdaşlığın dərinləşdirilməsi bu sahədə atılan strateji addımların nəticəsi olmuşdur.

Davamlı inkişaf neft gəlirlərinin prioritet istiqamətlər üzrə səmərəli istifadə edilməsindən asılıdır. Azərbaycanda neft və qaz gəlirlərinin kəskin artması şəraitində makroiqtisadi sabitliyin

qorunması, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün istifadə edilməsi qeyri-neft sektorunun inkişafının stimullaşdırılması neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın qəbul edilməsini zərurətə çevirmişdir. Bu strategiya neft və qaz gəlirlərindən istifadənin əsas prinsiplərini və ortamüddətli xərclər siyasətini müəyyənləşdirdi. Bu baxımdan neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiyanın Ulu öndər Heydər Əliyev məhz böyük şəxsiyyətlərə xas uzaqgörənliklə neft gəlirlərinin idarə edilməsinin ən səmərəli modelini yaratdı. Bu model neftin ixracından əldə edilən bütün valyuta gəlirlərinin Dövlət Neft Fondunda toplanmasını və həmin vəsaitlərin mərkəzləşdirilmiş qaydada istifadə etməsini nəzərdə tuturdu. Məhz bu mexanizmə əsaslanaraq Prezident İlham Əliyev "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nı təsdiq etdi (2005-2025-ci illər).

Azərbaycan Respublikasının regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir. Azərbaycanın davamlı inkişafı baxımından regionların inkişafı və bölgələrdəki potensialdan səmərəli istifadə vacibdir.

Ölkəmizdə aparılan ardıcıl və sistemli iqtisadi islahatların mühüm nəticələrindən biri də dövlət mülkiyyətinin özəlləşdirilməsi və azad sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması yolu ilə iqtisadiyyatı inkişaf etdirmək və əhalinin güzəranını yaxşılaşdırmaq olmuşdur. Sahibkarlığın inkişafı iqtisadi siyasətin mühüm istiqamətlərindən biri kimi müəyyən edildiyinə görə özəl sektorun inkişafına dövlət tərəfindən hər zaman siyasi-ideoloji dəstək verilmişdir.

Ölkəmizin sosial-iqtisadi inkişaf sahəsində əldə etdiyi uğurların davamlılığını təmin etmək məqsədi ilə "Azərbaycan 2020: gələcəyə baxış" inkişaf konsepsiyasiyası qəbul edilmişdir. Konsepsiya çərçivəsində qeyri-neft sektorunun inkişafı, nəqliyyat, tranzit və logistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı və səmərəli sosial müdafiə sisteminin qurulması, institusional potensialın gücləndirilməsi, vətəndaş cəmiyyətinin inkişafı, ətraf mühitin qorunması və s. məsələləri əhatə edən 53 sənəd təsdiq edərək icrası təmin olunmaqdadır.

Azad rəqabət mühitinin inkişafı özəl sektorun dəstəklənməsi ilə müşayiət olunmaqla milli iqtisadiyyata daha çox investisiya cəlbi və bazarlara çıxış imkanının genişləndirilməsi ilə nəticələnəcəkdir. Milli iqtisadiyyatın inkişafı qlobal və regional dəyər zəncirlərinə inteqrasiya əsas götürüləcəkdir. Makroiqtisadi sabitliyin qorunması, biznes mühitinin yaxşılaşdırılması, özəl sektorun investisiya qoyuluşlarının təşviqi və dəstəkləyici dövlət sektoru Azərbaycanın 2025-ci ilədək olan dövrdə iqtisadi inkişaf perspektivinin fundamental əsasıdır.

Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri Azərbaycanda davamlı iqtisadi inkişaf əsasında iqtisadiyyatın rəqabətqabiliyyətliliyini və sosial rifahın artırılmasını təmin edəcəkdir. Qlobal çağırışlara cavab verərək investisiyaların cəlbi, azad rəqabət mühiti, bazarlara çıxış və insan kapitalının inkişafı nəticəsində Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini gücləndirəcək və yüksək gəlirli ölkələr qrupuna daxil olacaqdır.

Qloballaşmanın gücləndiyi və dünya təsərrüfat sisteminin bütövləşdiyi müasir dövrdə cəmiyyətin fəaliyyətində innovasiya sferasının intensiv inkişafı və idarə edilməsi, iqtisadiyyatda elmi-texniki və innovasiya fəaliyyətinin, informasiyaların, intelektual məhsulun xüsusi çəkisinin artmasına səbəb olmuşdur.

Milli iqtisadiyyatda struktur dəyişiklikləri diversifikasiyası innovasiyaların aktivliyinin yüksəldilməsi, elmin rolunun artırılması və habelə investisiyaların çoxalması olmadan davamlı iqtisadi artım mümkün deyildir. Bunlar bir tərəfdən iqtisadiyyatın müəyyən sahəsinə investisiyaların istiqamətləndirilməsini nəzərdə tutur, digər tərəfdən isə innovasiyaların artımı ilə iqtisadiyyatın modernləşdirilməsinə, bazarın tələblərinə adekvat investisiya resurslarının axınına təminat verir. Bu gün əsas

məsələ Azərbaycanın davamlı iqtisadi artımına səmərəli təsir edəcək innovasiya tipli iqtisadi inkişafın prioritet məsələlərinin müəyyən edilməsidir.

Sürətli inkişaf strategiyasından çıxış edərək Azərbaycan hökuməti iqtisadiyyatın modernləşməsinin beş əsas istiqamətini müəyyən etmişdir ki, bu istiqamətlərdən birincisi Azərbaycan iqtisadiyyatının innovativ inkişafıdır. Bu istiqamət Azərbaycan şirkətləri tərəfindən müasir texnologiyaların mənimsənilməsini, yeni, rəqabətədavamlı məhsullar istehsalının təmin edilməsini və ixrac bazarlarının genişlənməsini nəzərdə tutur. Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən ölkələrin təcrübəsi göstərir ki, maddi istehsalın inkişafında innovasiya fəaliyyəti mühüm rol oynayır.

İqtisadiyyatın inkişafı və ölkələrin bu sahədə irəliləyişləri yüzillərdən bəri iqtisadçıların tətbiqlərində yer almaqdadır. Bir cəmiyyətin iqtisadi baxımdan güclü olması onun rəqabət gücünə bağlıdır. Rəqabət gücünü artıran ən önəmli vasitə isə innovasiyadır. Çünki innovasiya məhsuldarlığı artırır. Bu səbəblə innovasiya ölkələr üçün iqtisadi inkişafın və rifahının yüksəlişinə açardır. Halhazırda innovasiya əsaslı iqtisadiyyat dövrün ən dinamik və gəlirli istiqamətlərindən sayılır. İnnovasiya termin olaraq yeni ideyalarla elm və texnikanı inkişaf etdirib istehsal sahələrinə tətbiq etmək, gəliri artırıb, işsizliyi aradan qaldırmaq və iqtisadi vəziyyəti inkişaf etdirmək deməkdir. İnnovasiyanı fərqli edən xüsusiyyətlər isə onun elmi-texniki nailiyyətlərdən geniş istifadə etməsinə, yeni texnologiyanın tətbiqinə, istehsal edilən məhsulun keyfiyyət göstəricilərinin artırılmasına və beləliklə də, iqtisadi artımın əldə edilməsinə yönəldilmiş olmasıdır.

İqtisadi inkişaf ölkədəki milli gəlirlərin ÜDM-nin xarici ticarət səviyyəsinin, pul və borc səviyyəsinin ölçülməsidir. İqtisadi inkişafa təsir edən bir sıra amillər vardır. Günümüzdə isə inkişaf texnoloji tərəqqi ilə əlaqədardır. Texnologiyanın sürətli inkişafı isə innovasiyanı sahibkarlıq fəaliyyətinin yaranması üçün başlıca şərt halına gətirir. İnnovativ yanaşma ilə əlavə dəyəri qazanmaq inkişafda açar rolunu oynayır.

Qloballaşma prosesi və dünya iqtisadiyyatındakı rəqabətlilik elm ilə əlaqədar iqtisadiyyatın inkişafı üçün daha vacibdir. İqtisadi artım, rəqabət qabiliyyətliliyi və məşğulluq imkanlarını qorumaq üçün ölkələr sürətlə yeni ideyaları texniki və kommersiya uğurlarına çevirməlidirlər.

İnnovasiya dedikdə heç də yalnız istehsala tətbiq olunan obyekt deyil, həm də onun uğurla tətbiq olunması və mənfəət gətirməsi nəzərdə tutulur.

İnnovasiya prosesi sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirilmə meyarları kəsb edən yeni innovasiyayönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır. Bu zaman iqtisadi artım kimi istehsalın intellektləşdirilməsi çıxış edir, yəni ÜDM artımı, əsasən, elmtutumlu məhsul və xidmətlərin buraxılışı və reallaşdırılması hesabına əldə edilir. Ümumən, bu tipli iqtisadiyyatın maddi bazası yüksək inkişaf etmiş maşınqayırma ilə keyfiyyətcə, istehsalın yenitəşkili ilə xarakterizə olunur ki, bununda əsasında istehsal proseslərinin avtomatlaşdırılmasını, informasiyalaşdırılmasını və intellektləşdirilməsini təmin edən elmtutumlu sahələr dayanır. Elektronika, radio-fizika, optoelektronika, lazer texnologiyaları, müasir materialşünaslıq, kimya və kataliz, müasir aviasiya və kosmonavtika sahələrində müəyyən edilən, bir sıra texnoloji və fundamental ixtiralar və kəşflər, müasir informasiya texnologiyalarından istifadə edilməsi, mikro və makroelektronika sahələrindəki alınmış nəticələr, habelə nanotexnologiyalar elmtutumlu məhsulların yaranmasına səbəb olur. Belə məhsulların alınmasını təmin edən texnologiyalar elmtutumlu texnologiyalar adlandırılır. Elmtutumlu texnologiyalardan istifadə edilməsi iqtisadi inkişafın yeni bir istiqamətini "İnnovasiyayönümlü iqtisadi inkişafın" yaranmasına səbəb olmuşdur.

Elmlə istehsalın qarşılıqlı təsiri bu sahədə yeni rəqabət formasının meydana gəlməsinə səbəb olur. Azərbaycan iqtisadiyyatında islahat aparılması şəraitində əsas məsələlərdən biri elmi təşkilatların, müəssisələrin, firmaların, şirkətlərin innovasiya fəallığının artırılmasıdır. Bu gün respublikada innovasiyanın inkişafının fərqli cəhəti daha proqressiv texnoloji proseslərə və çevik istehsalata tez bir zamanda keçiddir, bu da yeni rəqabətqabiliyyətli, dünya standartlarına cavab verən məhsul istehsal etməyə imkan verir. Müəssisələrin inkişaf strategiyasının işlənilməsində nəzərə alınacaq ən vacib şərt elmtutumlu texnologiyaların tətbiqi olmalıdır.

İnnovasiya iqtisadiyyatının yaradılması Azərbaycan Respublikasının inkişafının prioritetlərindəndir. Bu gün təbii ehtiyatlar ocağı olan Azərbaycan qeyri-neft sahələrinin inkişafına istiqamətlənir. Bu da respublikada elm-təhsil kompleksinin, sənayenin inkişafını sürətləndirməyi tələb edir.İqtisadi islahatları həyata keçirdikcə, bilik və informasiyaların rolunun artması istiqamətində Azərbaycanın dünya birliyinə inteqrasiyası və dünya iqtisadi sisteminə transformasiyası, kapital bazarları və yeni texnologiyalar arasında qarşılıqlı əlaqələrinin güclənməsi Azərbaycan iqtisadiyyatının innovasiyayönümlü inkişaf yoluna keçidini və milli innovasiya sisteminin idarə edilməsinin təkmilləşdirilməsi problemlərinin öyrənilməsini obyektiv zərurətə çevrilmişdir.

İnnovasiya proseslərinin sürətləndirilməsi və bu yolla müəssisələrin bazar mühitinə uyğunlaşdırılması sahəsində dövlət mühüm rol oynayır. Milli innovasiya siyasətinin ana xəttində insan fəaliyyətinin bütün sahələrində formalaşmış yeniləşmənin səmərəliliyi durur. İnnovasiyanı səmərəli edən isə sahibkarlar ordusudur.

İnnovasiya proseslərinin tənzimlənməsi Azərbaycan Respublikasında dövlətin sosial-iqtisadi siyasətinin əsas tərkib hissəsi olan innovasiya siyasəti vasitəsilə həyata keçirilir.

İctimai həyatın bütün sahələrində yüksək tərəqqi və intibaha imza atan, sürətlə modernləşərək qarşıya qoyduğu strateji hədəflərə yetişən Azərbaycan son illərdə həm də özünəməxsus milli inkişaf modeli ilə müasir dünyanın yeni iqtisadi fenomenə çevrilmək əzmi nümayiş etdirir.

İqtisadi sahədə keçid dövrünü geridə qoyan azərbaycanın bazar iqtisadiyyatı sisteminə sürətli transformasiyanın spesifik cəhətləri "inkişafın Azərbaycan modeli" ilə bağlı müzakirələrə hazırda dünyanın nüfuzlu elm mərkəzlərində də kifayət qədər ciddiliklə yanaşılır.

Cənab İlham Əliyevin elmi təmələ əsaslanan iqtisadi strategiyası respublikanın hərtərəfli inkişafı prosesində dinamizmi məqsədyönlü təmin etmiş, hər bir mərhələ üçün qarşıda duran vəzifələrin həllinə real imkanlar açmış, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına etibarlı zəmin formalaşdırmışdır. İnsan kapitalının formalaşdırılmasının prioritet məqsəd kimi önə çəkən, dövlətin innovasiya inkişafında müasir biliklərin, nanotexnologiyaların roluna mühüm yer ayıran bu effektiv iqtisadi strategiyanın elmi cəhətdən təhlili və əsaslandırılması mövcud uğurların davamlılığının təmini baxımından son dərəcə vacibdir. İqtisadi sahədə keçid dövrünün başa çatması elmlə iqtisadiyyatın qarşılıqlı təsir mexanizmləri əsasında qırılmaz vəhdətinin təmin edilməsini, innovativ biliklərə əsaslanan iqtisadiyyatın formalaşdırılmasını, müxtəlif elm sahələrinin yeni dövrün tələblərinə uyğun müasirləşdirilməsini, habelə siyasi idarəetmə elmi proqnozlardan məqsədyönlü istifadəni obyektiv zərurətə çevirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilən milli inkişaf strategiyası sayəsində ölkəmiz yüksələn xətlə inkişaf edən iqtisadiyyata və parlaq gələcəyə sahibdir.

## ƏDƏBİYYAT

1. M.C.Atakişiyev, H.M.Abbasov, N.H.Abbasova. Mikro və makroiqtisadiyyat. Bakı: 2010
2. Q.Manafov.İqtisadi nəzəriyyə. Mikroiqtisadiyyat. Bakı: 2008
3. F.S.Hüseynov.İqtisadi nəzəriyyənin əsas prinsipləri. Bakı: 2015
4. E.Kərimov, B.Qasımov. İqtisadi nəzəriyyə. Bakı: 2004
5. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektiv üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı
6. Akif Musayev. İnnovasiya iqtisadiyyatı. Azərbaycan Universiteti, Bakı: 2014
7. İnnovasiya fəaliyyəti haqqında bir sıra mexanizmlər. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi İqtisadi İslahatlar Elmi Tədqiqat İnstitutu. Bakı: 2017
8. İlham Əliyev. Dövlət quruculuğunun əsas istiqamətləri. azbadersays.az/az 2013.
9. İqtisadiyyatın davamlı inkişafı problemlər, perspektivlər. Beynəlxalq Elmi Konfrans materialları. Sumqayıt: 2016

## РЕЗЮМЕ

**Махсати Асгарова**

**ИННОВАЦИОННОЕ РАЗВИТИЕ И МОДЕРНИЗАЦИЯ АЗЕРБАЙДЖАНСКОЙ ЭКОНОМИКИ**

В статье рассматривается роль модели экономического развития Азербайджана в развитии национальной экономики.

Национально-экономическое развития Азербайджана основывается на основополога-ющих принципах единой стратегии экономической политики. Модель развития нашей страны отличается характером экономической политики и ее социальностью. Эта модель напрямую связана с социально ориентированной либеральной экономикой.

В статье рассматривается роль инновации и инновационного развития в экономике Азербайджана.

## SUMMARY

**Mahsati Asgarova**

**INNOVATIVE DEVELOPMENT AND MODERNIZATION OF THE AZERBAIJANI ECONOMY**

The article discusses the role of Azerbaijan's economic development model in the development of the national economy.

The national economic development of Azerbaijan is based on the fundamental principles of a single economic policy strategy. The development model of our country is distinguished by its economic nature and by its sociality.This model is directly linked of to socially oriented, liberal economy.

The article discusses the role of innovation , and innovative development in the Azerbaijani economy.

**MAYİSƏ ABBASOVA**
*Naxçıvan Dövlət Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ İNNOVASİYALI İQTİSADİYYATININ ƏSAS ŞƏRTLƏRİ

***Açar sözlər:*** *innovasiya, innovasiya mühiti, inkişaf mərhələsi, beynəlxalq standartlar, yüksək texnologiyalar, prioritetlik, səmərəlilik, ekoloji təhlükəsizlik, əhali rifahı*

***Ключевые слова:*** *инновация, инновационная среда, этап развития, международные стандарты, высокие технологии, приоритетность, эффективность, экологическая безопасность, благосостояние населения*

***Key words:*** *innovation, innovation environment, development phase, international standards, high technology, priority, efficiency, environmental safety, welfare of the population.*

Dünya təcrübəsi göstərir ki, hər hansı bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. Bu baxımdan dövlətlə iqtisadiyyatın qarşılıqlı əlaqəsinin, dövlətin iqtisadiyyata müdaxiləsinin optimal nisbəti və hüdudunun gözlənilməsi iqtisadiyyatın tənzimlənməsilə bağlı başlıca problemlərdən biridir. Dünyada mövcud olan iqtisadi sistemlərin hamısı demək olar ki, qarışıq sistemlərdir və bir sıra vəzifələr bazar sistemi ilə dövlət arasında bölünmüşdür. Lakin buna baxmayaraq, dünyanın ayrı-ayrı iqtisadi sistemləri iqtisadiyyatın idarə olunmasına və bazarın oynadığı rola görə bir-birindən fərqlənir.

Bu gün artıq şübhə yoxdur ki, texnoloji inkişaf və innovasiyalar iqtisadi artımın uzunmüddətli hərəkətverici qüvvələrinə çevrilmişdir. Ölkəmizin iqtisadi və sosial inkişafında bu amilin nəzərə alınması son illərdə qəbul edilmiş mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə 29 noyabr 2011-ci il tarixli Sərəncamında deyilir: "Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiyayönlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır".

İnnovasiya prosesi təkrar istehsal tipini, sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirmə meyarları kəsb edən yeni innovasiyayönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır. Nəzəri cəhətdən hazırda innovasiya iqtisadiyyatının formalaşması haqqında danışmaq olar. Bu zaman iqtisadi artım kimi istehsalın intellektləşdirilməsi çıxış edir, yəni ÜDM artımı, əsasən, elmtutumlu məhsul və xidmətlərin buraxılışı və reallaşdırılması hesabına əldə edilir.

Yenilik - fundamental, tətbiqi tədqiqatların və işləmələrin hər hansı bir fəaliyyət sferasına onun effektivliyinin yüksəldilməsi üzrə tərtib olunmuş nəticəsidir. Yenilik - elmi və texnikanın nailiyyətlərinin tətbiqi və bazar istifadəsi üzrə fəaliyyətin yalnız aralıq yekunudur. Yenilik intellektual məhsulun növlərindən biri şəklində, məsələn, kəşf, anlayış, elmi yanaşma, eyni prinsip, standart, tövsiyə, metodika, yeni və ya təkmilləşdirilmiş məhsula sənədləşmə, patent, səmərələşdirici təklif, ixtira, nouhau, marketinq tədqiqatlarının nəticələri və s. formada təsbit edilə və rəsmiləşdirilə bilər.

Yenilik termininin sinonimi - yenicə anlayışı sayılır ki, bu da əvvəllər mövcud olmayan hər hansı yeniliyi özündə əks etdirir

Reaktiv innovasiyalar strateji innovasiyanı tətbiq edən rəqiblərinə çatmaq məqsədi ilə həyata keçirilir. İnnovasiya elm və texnologiyanın iqtisadi və ictimai fayda təmin edəcək şəkildə yenilənməsi müddətidir. Yəni yaradıcılığın, ticari ustalıqla birləşdirilməsidir. İnnovasiya gələcəyi yaratmaqla və davamlı qazanclı böyümə təmin etməklə əlaqədardır.

İnformasiya cəmiyyətinin və rəqabətə davamlı yüksək texnologiyalı milli iqtisadiyyatın yaradılması bir sıra dövlətlərin iqtisadi siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Hazırda dünyanın iqtisadi cəhətdən inkişaf etmiş bütün ölkələri, o cümlədən Avropa dövlətləri öz iqtisadiyyatlarında əldə edilmiş yüksək göstəricilərin stabil saxlanması və perspektiv iqtisadi inkişaf üçün innovasiyaların imkanlarından istifadəni olduqca əhəmiyyətli hesab edirlər.

Bütün bunlar iqtisadiyyatda innovasiyaların rolunun və əhəmiyyətinin yüksəlməsini təsdiq edən faktorlardır. Hesab edirik ki, iqtisadiyyatımızın inkişafının müasir mərhələsində regional inkişaf proqramları tərtib edilərkən, regionların tarazlı inkişaf etdirilməsi imkanları sırasında onların innovasiya potensialından səmərəli istifadə edilməsi məsələlərinin nəzərdən keçirilməsi də vacib rol oynayır. Regional inkişaf proqramlarının hazırlanması zamanı müxtəlif ölkələrin təcrübəsinin təhlili və tətbiq edilmiş regional innovasiya proqramlarına nəzər salınması həmin proqramların icrasının səmərəli olacağı ehtimalını yüksəldir.

Hazırkı şəraitdə ölkəmizdə və onun regionlarında innovasiyalar üçün maneələr xarici və daxili hissələrə bölünür. Xarici maneələr kifayət qədər inkişaf etməmiş infrastrukturdan, mövcud sahədəki biliklərin çatışmazlığından, onlara yiyələnmək üçün imkanların olmamağından, köhnəlmiş qanunvericilikdən, cəmiyyətdəki istedadlara ümumi etinasızlıqdan ibarətdir. Daxili maneələrə ciddi təşkilati tələblər və prosedurlar, konservatizm, dünyagörüşünün çatışmazlığı, köhnə qaydanın saxlanmasına maraq, başqa insanların ideyalarının qəbul etməkdən imtina, riskə getmək üçün arzunun və motivasiyanın olmamağı daxildir. Regional innovasiya proqramlarının hazırlanması zamanı nəzərə alınmalıdır ki, yaradıcı işçilər və onların fəaliyyətinin nəticələri yalnız uzunmüddətli perspektivdə qiymətləndirilə bilər. İnnovasiya fəaliyyətini idarə edən menecerlər ciddi, ətraflı nəzarətə arxayın olmamalıdır. Təkrar olunan, mühafizəkar əməliyyatlar üçün tətbiq olunan metodlar yaradıcılığı fəaliyyəti üzərində nəzarət zamanı tamamilə qeyri-adekvat ola bilər. Ona görə də innovasiya siyasətinin uğurlu icrasına nail olmaq üçün prioritetlik, komplekslilik, səmərəlilik, ekoloji təhlükəsizlik, regional yanaşma prinsiplərinə əməl olunması vacibdir.

İnnovasiyaların idarə olunmasında məqsəd bütün təşkilat miqyasında yeni ideyaları irəli sürmək, generasiya etmək, nəzarət etmək və qiymətləndirməklə alınmış nəticələri bazara çıxarmaqdan ibarətdir. İnnovasiyaların idarə olunmasının əsasında novatorların və təşkilatın fəaliyyət nəticələrinə cavabdehlərin balanslaşdırılmış əməkdaşlığı durur. Yaradıcılıq proseslərinin səmərəli idarə olunması üçün menecerlər innovasiyaların istifadəsi yolundakı maneələri tapmalı və aradan qaldırmalı, eləcə də şəxsi, qrup şəkilli innovasiya təşəbbüslərini müdafiə edərək innovasiya yönündə əməkdaşlıq münasibətlərini təşkilatda yaratmalıdır. Bu baxımdan hazırlanacaq proqramların milli innovasiya sisteminin regional səmərəlilik göstəriciləri və innovasiyaların dayanıqlı inkişafının indikatorlar sistemi vasitəsilə işlənilməsi və yoxlanılması ciddi nəticələr əldə etməyə imkan verə bilər.

İnnovasiyalaşdırma - yeni ideyaların yaradılması və tətbiqi hesabına müəssisənin iqtisadi və ya sosial potensialında məzmunlu, məqsədyönlü dəyişikliklərin həyata keçirilməsi cəhdidir. İnnovasiyalar məhsullarda və proseslərdəki tələbatların, mövcud uyğunsuzluqların, iqtisadiyyatın ayrı-ayrı sahələrindəki və ümumiyyətlə, bazardakı dəyişikliklərin, demoqrafik inkişafın və yeni biliklərin nəticəsi olaraq meydana çıxa bilər. Ona görə də regional innovasiya proqramının dayanıqlı inkişafa təsir göstərə bilən bütün prioritet istiqamətləri müəyyən edilməli və həyata keçirilməsi zəruri hesab edilən tədbirlər proqramda nəzərdə tutulmalıdır.

Bilik iqtisadiyyatının inkişafı ilə əlaqədar olan qlobal çağırışlar, ali məktəblərin ölkənin və regionların innovasiyalı inkişafının aktiv subyektlərinə çevrilməsini tələb edir. Ali məktəblərin ənənəvi sferalarda fəaliyyətindən-təhsil və elmi tədqiqat işləri, habelə onların iqtisadiyyatda tətbiqindən başqa müasir dövrdə daha bir məsuliyyəti, başqa sözlə, universitetlərin «üçüncü missiyası», müasir innovasiya infrastrukturunun formalaşdırılması zərurətindən irəli gəlir.

Müasir dövrdə dünya universitetləri kadr hazırlığının həyata keçirilməsi, elmi-tədqiqat işlərinin yerinə yetirilməsi kimi ənənəvi funksiyaları ilə yanaşı, innovasiyaların yayılması funksiyasını da yerinə yetirirlər. Bunu nəzərə alaraq innovasiya fəaliyyətinin aktivləşdirilməsində ölkəmizin universitetləri, eləcə də regionlarda yerləşən universitetlərin üzərinə mühüm vəzifələr düşdüyünü qeyd etmək vacibdir. Doğrudan da, müasir universitetlər innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması; ali məktəblərin elm işləmələri əsasında kiçik innovasiya müəssisələri zolağının yaradılması; elmi nailiyyətlərin və yeni texnologiyaların ölkə müəssisələrinə ötürülməsi; ölkəyə

beynəlxalq və yerli vençur kapitalın cəlb edilməsi üçün cəlbedici layihələr hazırlamaq; innovasiya fəaliyyətini dəstəkləyən infrastrukturun yaradılmasına elmi və ideya köməyi göstərilməsi; innovasiya fəaliyyətinin kadr təminatı kimi funksiyaları da yerinə yetirməlidirlər.

Ölkəmizdə fəaliyyət göstərən qabaqcıl ali məktəblər mərkəzdə və regionlarda innovasiyaların yaradılması və tətbiqi istiqamətində aktiv şəkildə fəaliyyət göstərməlidir. Universitetlərin geniş maddi-texniki bazası və böyük elmi potensialı artıq fundamental elmi-tədqiqat işlərini yüksək keyfiyyətlə yerinə yetirməyə imkan verir. Təhsildə və texnologiyalarda olan ən son nailiyyətlər auditoriyalarda tətbiq olunur. Bir sözlə, universitetlərdə innovasiya mühitinin inkişafı kreativ düşüncəli yeni nəslin formalaşmasında mühüm rol oynayır ki, bu potensialdan da regional innovasiya proqramlarının hazırlanmasında istifadə edilməsi mümkündür.

Fikrimizcə, son illərdə ölkənin iqtisadi, sosial və intellektual potensialının möhkəmlən-dirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətə davamlı iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması və inkişaf etdirilməsi istiqamətində ölkədə aparılmış irimiqyaslı işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza formalaşdırmışdır. İnnovasiyaların iqtisadiyyatın dövlət və özəl sektorlarında geniş tətbiq olunmasının stimullaşdırılması istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlər, o cümlədən innovasiya proqramlarının elmi əsaslarının yaradılmasına xidmət edən metodik vəsait, tövsiyə və göstərişlərin hazırlanması iqtisadiyyatın yeni, innovasiyalı strukturunun formalaşmasına təkan verə bilər.

## ƏDƏBİYYAT


1. Axundov M.Ə. Strateji idarəetmə. Bakı, Ağrıdağ, 2001
2. “Azərbaycan Respublikasında sahibkarlığın inkişaf problemləri” mövzusunda elmi-praktiki konfransın materialları. Bakı, 2003
3. Atakişiyev M.C., Süleymanov Q.S. İnnovasiya menecmenti. Bakı, 2004
4. Biznesin əsasları. Dərslik. Prof. A.B. Abbasovun ümumi redaktəsi ilə. Bakı, Nurlan, 2005, 656 s.
5. Cəbiyev R.M. Azərbaycan bazar infrastrukturunun formalaşması və inkişafı. Bakı, 2000, 236 s.
6. Əlirzayev Ə.Q. İslahatlar və sürətlənmə strategiyası şəraitində Azərbaycanın sosial-iqtisadi inkişaf problemləri: təcrübə, meyllər və perspektiv istiqamətlər. Bakı, 2005
7. Əliyev İ.İ. Heydər Əliyev yolu: Azərbaycan inkişafının yeni mərhələsində. Bakı, Azərbaycan, 2007, s.862
8. Əliyev M. Azərbaycan iqtisadiyyatının formalaşması və inkişaf problemləri. Bakı, 2002


## РЕЗЮМЕ

**Майса Аббасова**

### ОСНОВНЫЕ УСЛОВИЯ ИННОВАЦИИ ЭКОНОМИКИ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

В статье исследованы факторы. определяющие повышение роли и значения инноваций в экономике автономной республики. В статье также отмечается, что на современном этапе развития экономики, при составлении региональных программ развития, среди возможностей развития регионов важную роль играет эффективное использование инновационного потенциала.

## SUMMARY

**Maysa Abbasova**

### MAIN CONDITIONS OF INNOVATION OF THE AUTHONOMOUS REPUBLIC

The article examines the factors that determine the role and importance of innovation in the economy of the autonomous republic.The article also notes that, at the current stage of development of our economy, effective use of the potential of innovation as a region's development opportunity is important when designing regional development programs.

**SAHİL QULİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*sahiltofiq5@gmail.com*

# MÜASİR ŞƏRAİTDƏ İNNOVASİYALI İQTİSADİYYATIN İNKİŞAFININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ. DÖVLƏTİN İNVESTİSİYA-İNNOVASİYA SİYASƏTİ

***Açar sözlər:*** *yenilik, innovasiya, elmi-texniki tərəqqinin nailiyyətləri, təsərrüfat subyektləri, investisiya, investisiya qoyuluşları, iqtisadi artım*

***Ключевые слова:*** *инновации, инновации, достижения в научно-техническом прогрессе, бизнес, инвестиции, инвестиции, экономический рост*

***Key wods:*** *innovation, achievements in scientific and technological progress, business, investment, investing, economic growth*

Məlum olduğu kimi, dünya iqtisadiyyatı müəyyən inkişaf mərhələlərindən keçib: kənd təsərrüfatı, sənaye və postsənaye dövrü. Son illər yeni qlobal iqtisadi mühitin təşəkkülü prosesi baş verir. Dünya iqtisadiyyatının sənaye və postsənaye dövrü innovasiya dövrü ilə əvəz olunur.

İnnovasiya dünyada baş verən qlobal dəyişmənin təməl faktoru olaraq xarakterizə edilə bilər. Qlobal informasiya təcrübəsinə söykənən, qlobal ünsiyyətə əsaslanan, mövcud elmi qəbul və bunu aşmağı hədəfləyən bir yenilik, dəyişiklik və fərqləndirmə mədəniyyətdir. "Yeni iqtisadiyyat" müzakirələrində iqtisadçıların etdiyi tərif, "sənaye çağında torpaq, əmək və sərmayə kapitalist iqtisadiyyatın təməl daşlarını təşkil edərdi, lakin məlumat çağında bunlara dördüncüsü əlavə olundu. Bu da məlumatdır. Məlumat yeni bir sərmayə növüdür". Artıq beşinci bir ünsür daha var. Bu "innovasiyadır" hansı ki, iqtisadiyyatın əsas sütunlarından biridir. İqtisadiyyatın həm ənənəvi, həm də elmtutumlu sahələrdə rəqabətə davamlılığının artımı onun inkişafına stimul yaradır. Müasir dövrdə iqtisadi inkişaf innovasiya siyasəti ilə sıx əlaqəlidir. Bu da öz növbəsində innovasiya sistemlərinin yaradılmasını tələb edir. İqtisadiyyatın innovasiya inkişaf yoluna keçidi rəqabətə davamlı regional innovasiya sisteminin formalaşmasını, regional iqtisadiyyatın idarəetmə forma və üsullarının təzələnməsini tələb edir. Günümüzün sürətlə dəyişən rəqabət mühitində ayaqda qala bilmək üçün firmaların məhsullarını, xidmətlərini və iş görmə üsullarını davamlı olaraq dəyişdirmək, fərqliləşdirmək və yeniləmək lazımdır. Bu dəyişdirmə, fərqliləşdirmə və yeniləmə əməliyyatı "innovasiya"dır.Təsərrüfat subyektləri üçün innovasiya çox əhəmiyyətli bir rəqabət vasitəsidir. Məhsuldarlığı və gəlirliliyi artırır, yeni bazarlara girilməsini və mövcud bazarların böyüdülməsini təmin edir.İqtisadiyyatın material-resurs tutumlu və xammal istiqamətli sahələrindən innovasiya inkişafına istiqamətləndirilməsi dövlətin iqtisadi inkişaf strategiyasının əsas məzmununu təşkil edir. Yeni dünyada rəqabətə tab gətirmək üçün, ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına, innovasiya iqtisadiyyatına arxalanmaq lazımdır. Yeni dünya nizamında elmi-informativ biliklər inkişafın mühüm katalizatoruna, innovasion yeniliklərin başlıca təminatına çevrilmişdir. Elmtutumlu informasiyanın yaradılması, əldə edilməsi, tətbiqi sosial-iqtisadi inkişafın, qlobal rəqabətin mühüm amilləridir.

İqtisadi artımın və makroiqtisadi sabitliyin təmin olunmasında, iqtisadi təhlükəsizlik, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin təmin edilməsində, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında, bir çox sosial-iqtisadi problemlərin həllində ölkədəki investisiya durumu, investisiyaların innovasiyayönümlü olması vacib şərtlərdən biridir. İqtisadi artımı və iqtisadiyyatın tarazlı inkişafını təmin etmək məqsədilə investisiyaları iqtisadiyyatın prioritet sahələrinə yönəltmək, iqtisadiyyatın quruluşunda elmtutumlu sahələrin payını artırmaq zəruridir. Dövlətin investisiya-innovasiya siyasəti

- investisiya mənbələrini tapıb, onların səmərəli, elmtutumlu, innovasiyalara bağlı sahələrə yönəldilməsidir. Bu siyasət isə bütövlükdə ölkənin iqtisadi siyasətinin tərkib hissəsidir və struktur, vergi, maliyyə-kredit, amortizasiya, qiymət, gəlir və digər siyasətlərlə əlaqəlidir. İqtisadi siyasəti istehsal, bölgü, mübadilə, istehlak, yığım, idxal, ixrac və s. sahələrdə dövlət tərəfindən həyata keçirilən tədbirlər məcmusudur. Dövlətin iqtisadi siyasəti ölkədaxili və beynəlxalq konyunkturadan, bazarın vəziyyətindən, iqtisadi aktivliyin səviyyəsindən, iqtisadi tsiklin mərhələsindən asılıdır. Dövlətin iqtisadi siyasətinin bir çox istiqaməti var: büdcə-vergi, pul-kredit, antitsiklik, struktur, amortizasiya, investisiya-innovasiya, elmi-texniki, regional, ekoloji, sosial, qiymət, xarici-iqtisadi, antiinflyasiya və s. İnvestisiya və iqtisadi artım arasında olan əlaqəyə dair iki yanaşma mövcuddur:

Birinci yanaşmaya əsasən investisiyalar iqtisadi artımın əsas şərtidir və ölkədə yığım nə qədər çox olarsa, o qədər iqtisadi artım templəri yüksək olar.

İkinci yanaşmaya əsasən yüksək tələb istehsalın artırılmasına və firmaları investisiyaları qoymağa vadar edir, başqa sözlə desək, istehsalın və satışın yüksəlməsinə görə firmaların gəlirləri artdıqca investisiya imkanları da artır. İnvestisiya – ÜDM tərkib hissəsidir və ÜDM yüksək artımı investisiyaların artımı ilə müşahidə olunur. İqtisadi artım, bir qayda olaraq, investisiya qoyuluşlarının artması, canlanma (bumu) ilə müşahidə olunur.

Dövlətin investisiya-innovasiya siyasətini reallaşdırmaq üçün öz qarşısında bir sıra həlli vacib sayılan vəzifələr qoyulur. Bu vəzifələri aşağıdakı kimi müəyyənləşdirmək olar:

- iqtisadiyyatın innovasiya əsasında inkişafı üçün ETT nailiyyətlərinin tətbiqini stimullaşdırmaq;
- rəqabətqabiliyyətli sahələrin inkişafını təmin etmək;
- ölkənin beynəlxalq əmək bölgüsündə inkişaf etmiş ölkələr səviyyəsinə çatdırmaq;
- modern iqtisadi sistemin qurulmasını stimullaşdırmaq;
- ölkə üzrə yüksək məşğulluq səviyyəsinə nail olmaq;
- xarici ixrac və daxili təminat potensialını artırmaq və s.

Dövlətin innovasiya siyasəti aşağıdakı kimi müəyyənləşdirilir:

1. İnkişaf və innovasiya normativ bazasının təkmilləşdirilməsi, innovasiya institusional islahatlar, intellektual mülkiyyətin qorunması onun təşviq sisteminin mexanizmi və iqtisadi dövriyyəyə onun tətbiqi;

2. Hərtərəfli dəstəklə yenilik sisteminin yaradılması, istehsalın inkişafı, rəqabət və yüksək texnologiya məhsulları ixracatını artırmaq. İnnovasiya fəaliyyətinin prosesində, həm də regional səviyyədə hökumət, biznes, maliyyə institutları və qeyri-hökumət təşkilatlarının iştirakının tələbi;

3. İnformasiya təhlükəsizliyi, sistem təcrübəsi, maliyyə və iqtisadi sistemi, istehsal və texnoloji dəstək, sertifikatlaşdırma sistemi və təşviq inkişafı, sistem təlim və yenidən sisteminin, o cümlədən innovasiya prosesinin infrastrukturun inkişafı;

4. Formalaşması və kiçik yüksək texnologiyalı şirkətlərin uğurlu fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və ilkin mərhələsində dövlət dəstəyi ilə təmin etməklə kiçik innovasiya sahibkarlığın inkişafı;

5. İnnovativ layihə və proqramların rəqabət seçiminin təkmilləşdirilməsi. Dövlətin dəstəyi ilə özəl investorların iştirakı ilə innovativ layihələrin sektorları nisbətən kiçik və sürətli geri payment həyata keçirilməsi onların özəl investisiya axınını artırmaq üçün ən perspektivli sənaye və təşkilatları dəstəkləyəcək;

6. Kritik texnologiyaların həyata keçirilməsi, ölkə və onun regionlarının iqtisadiyyatının inkişafında müvafiq sektorların prioritet kimi seçilməsi. İnnovasiya siyasətinin həyata keçirilməsi

məqsədi ən əsas texnologiyaları nisbətən kiçik sayda seçki iqtisadiyyatında istehsal və rəqabət qabiliyyətinin artırılması və yeni texnoloji üçün keçid təmin həlledici təsir edir;

7. İkili təyinatlı texnologiyalar istifadə. Belə texnika silah və hərbi avadanlıqların istehsalı, habelə mülki məhsullar üçün də istifadə edilə bilər. Daxili investisiyaların strukturunun və onun dinamikasının təhlili iqtisadi subyektlərin innovativ motivasiyaları barədə ümumi təsəvvürün formalaşmasına kömək edə bilər.

Belə ki, "2014-2018-ci illər Regionların sosial-iqtisadi inkişafına dair "Dövlət Proqramı çərçivəsində sənayedə və emal sahələrində innovasiyaya çəkilən xərclər barədə aşağıdakı cədvələ baxa bilərik:

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında iqtisadi-sosial sahələrin inkişafında dövlət qayğısının göstərilməsi göz önündədir. Son illərdə yeni istehsal və xidmət sahələrinin fəaliyyətə başlaması daxili bazarda məhsul bolluğu yaratmaqla bərabər, muxtar respublikanın ixrac potensialını artırmış, idxalın həcmini isə azaltmışdır.

**Cədvəl 1.** ***Sənayedə və emal sahəsində innovasiya xərclərinin istiqamətləri barədə məlumatlar (min manatla).***

| **İllər** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|
| **Bütün sənaye** | **21534,1** | **35179,1** | **27929,0** | **16135,7** | **34353,6** |
| O cümlədən: | | | | | |
| Yeni məhsulların, xidmətlərin və proseslərin işlənməsi və tətbiqi | 12232,3 | 13283,3 | 5655,0 | 7880,1 | 11119,0 |
| İnnovasiyalarla bağlı maşın və avadanlıqların alınması | 3366,0 | 12764,5 | 1962,6 | 528,4 | 4578,5 |
| Yeni texnologiyaların alınması | 38,5 | 3022,1 | 15919,1 | 158,7 | 185,7 |
| Texnoloji innovasiyalar çəkilən digər xərclər | - | - | 420,0 | 1415,0 | 1216,4 |
| **Emal sənayesi** | **17383,6** | **32492,5** | **27744,4** | **16104,0** | **32967,6** |

***(Mənbə:** stat.gov.az Azərbaycan Respublikası Statistika Komitəsi)*

Naxçıvan Muxtar Respublikasında 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Kənd təsərrüfatı və xidmət sahələrində müasir və innovativ texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi istehsalçıların xarici bazarlara çıxışlarını və bu istiqamətdə təşviq tədbirlərinin artırılmasını zəruri etmişdir. Bununla əlaqədar Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2020-ci il 6 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında 2020-ci il "İxrac ili" elan edilmişdir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası "İnvestisiya fəaliyyəti haqqında" Qanunu
2. Abbasov S.H. Texnologiyalar və yeniliklərin idarə edilməsi
3. Əhmədov M.A, Hüseynov A.C. Dövlətin iqtisadi siyasəti. Bakı: 2011
4. www.stat.gov.az Azərbaycan Respublikası Statistika Komitəsinin rəsmi internet saytı.
5. Müstəqillik illərində Azərbaycanda innovasiyaların inkişafı məqalələr toplusu AMEA Elmi İnnovasiyalar Mərkəzi. Bakı: 2011

## РЕЗЮМЕ

**Сахил Гулиев**

### ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ РАЗВИТИЯ ИННОВАЦИОННОЙ ЭКОНОМИКИ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ. ГОСУДАРСТВЕННАЯ ИНВЕСТИЦИОННАЯ И ИННОВАЦИОННАЯ ПОЛИТИКА

В статье анализируются инновации и их сущность, факторы, которые характеризуют инновационное развитие в экономике, а также инновационные меры и успехи, достигнутые в нашей стране со времени восстановления нашей государственной независимости.

Сегодня регулирование развития, поддержание макроэкономической стабильности является основным приоритетом устойчивого и устойчивого экономического развития нашего государства, главной силой в поддержании и поддержании этой цели являются все субъекты хозяйствования.

Отмечается, что устойчивая структура хозяйствующих субъектов в мировой экономике является одной из ключевых предпосылок инновационных факторов производства и инвестиционной политики для производства конкурентоспособной и качественной продукции с экспортным потенциалом.



## SUMMARY

**Sahil Guliyev**

### CHARACTERİSTİC FEATURES OF THE DEVELOPMENT OF İNNOVATİVE ECONOMY İN MODERN CONDİTİONS. STATE İNVESTMENT AND İNNOVATİON POLİCY

The article analyzes innovation and its essence, the factors that characterize innovative development in the economy,and the innovative measures and successes that have been made in our country since the restoration of our state independence.

Today,the regulation of development, maintaining macroeconomic stability is the main priority of our state's sustainable and sustainable economic development. The main force in maintaining and sustaining this goal are all economic entities.

It is noted that the robust structure of business entities in the global economy is one of the key prerequisites for innovative production factors and investment policies for the production of competitive and quality export potential products

**RƏSUL ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*resulalakberov@hotmail.com*

# AZƏRBAYCAN İQTİSADİYYATINDA İNNOVASİYANIN VƏ VERGİ STİMULLAŞDIRILMASININ ROLU

***Açar sözlər:*** *innovasiya, verginin stimullaşdırılması, yenilənmə, istehsal, sənaye və texnologiya parkları, biznes, vergi güzəştləri, elm və texnika*
***Ключевые слова:*** *инновации, налоговые льготы, обновление, производство, промышленные и технопарки, бизнес, налоговые скидки, наука и техника*
***Key words:*** *innovation, tax promotion, renewal, production, industrial and technology parks, business, tax discounts, science and technology*

Azərbaycanda aparılan islahatlar, düşünülmüş siyasət ölkəmizin hərtərəfli inkişafını təmin edir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş, möhtərəm cənab Prezident İlham Əliyev tərəfindən müasir qlobal çağırışlar əsasında zəngiləşdirilərək, uğurla davam etdirilən milli inkişaf strategiyası ölkəmizin və xalqımızın gələcəyinə böyük nikbinliklə baxmağa imkan verir.

"İnnovasiya" termini latın dilində "innovato" sözündən olub, yenilənmə və yaxşılaşma deməkdir. Dünya inkişafının müasir mərhələsinin səciyyəvi xüsusiyyəti insan sivilizasiyasının sənaye cəmiyyətindən postsənaye cəmiyyətinə keçid sayılır. Bu isə, hər şeydən əvvəl elm və texnikanın cəmiyyət həyatının bütün tərəflərinə daha da güclənməkdə olan təsirinin qlobal xarakteri ilə, irimiqyaslı sosial-iqtisadi və tarixi dəyişikliklərə aparan elmi-texnoloji irəliləyişlərlə əlaqədardır. Buna uyğun olaraq, iqtisadi artımın əsas amillər və mənbələr dəsti də dəyişir. Bunlar içərisində iqtisadi sistemin inkişafı səviyyəsinə təsir göstərmək qabiliyyətinə malik təbii resurslar və kapitalla yanaşı, inteqral resursa çevrilə bilən elmi biliklər daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. Təcrübə müstəvisində bu, yeni biliklərin məhsul və ya texnoloji yeniliklərə çevrilməsini təmin edən innovasiya prosesini ön plana keçirir. İnnovasiya prosesi əslində təkrar istehsal tipini, sosial-iqtisadi münasibətlərin keyfiyyətini dəyişməklə və özünəməxsus yığım forması, xüsusi sərvət strukturu və yığım effektivliyinin xüsusi qiymətləndirmə meyarları kəsb edən yeni innovasiya-yönümlü iqtisadiyyatı yaratmaqla bütün təsərrüfatçılıq sisteminin fəaliyyətində hakim rol oynamağa başlayır.

İnnovasiya proseslərinin intensivliyinin artması hazırda qlobal iqtisadi sistemdə baş verən dəyişikliklərin mühüm istiqamətlərindəndir. İnkişaf etmiş ölkələrdə ÜDM-in artımının 75-90 faizi, MDB ölkələrində isə 10 faizi innovasiya sektoru hesabına təmin olunur. Mövcud qiymətləndir-mələrə əsasən MDB ölkələri innovasiya sahəsindəki gerilik nəticəsində ildə orta hesabla 1214 milyard dollar vəsait itirir.

İqtisadiyyatın inkişaf etdirilməsində innovasiyaların, yeni texnologiyaların tətbiqi ilə yanaşı, iqtisadi münasibətlərin etibarlılığı və sabitliyini təmin edən, cəmiyyətin praktik olaraq əhəmiyyətli məsələlərinin ən effektiv həllinə imkan yaradan hüquqi vasitələr də xüsusi əhəmiyyət daşıyır. Həmin vasitələrdən biri olan vergi güzəştləri mühüm elmi və praktiki mənaya malikdir.

İqtisadiyyatın inkişaf etdirilməsində innovasiyaların, yeni texnologiyaların tətbiqi ilə yanaşı, iqtisadi münasibətlərin etibarlılığı və sabitliyini təmin edən, cəmiyyətin praktik olaraq əhəmiyyətli məsələlərinin ən effektiv həllinə imkan yaradan hüquqi vasitələr də xüsusi əhəmiyyət daşıyır. Həmin vasitələrdən biri olan vergi güzəştləri mühüm elmi və praktiki mənaya malikdir.

İqtisadiyyatın inkişafının innovasiya mərhələsinin əsas hədəfi milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektiv və ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Bunlara ölkənin malik olduğu iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması), hər bir regionun

malik olduğu potensialdan tam və səmərəli istifadə olunması və onların inkişafının tarazlaşdırılması, çoxlu sayda yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması, yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar.

Sənaye və texnologiya parklarının iqtisadi inkişafdakı müsbət rolu barədə beynəlxalq təcrübə nəzərə alınmaqla, Azərbaycanda da bu sahənin inkişaf etdirilməsi dövlətimizin həyata keçirdiyi uğurlu iqtisadi siyasətin tərkib hissələrindən birinə çevrilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasının istiqamətlərindən biri də innovativ sahibkarlığın inkişaf etdirilməsini, elmtutumlu məhsulların və texnologiyaların işlənilməsi və tətbiqi üçün texnoparkların və innovasiya zonalarının yaradılmasını nəzərdə tutur. Ölkə başçısının fərman və sərəncamları ilə artıq Bakı şəhərində Balaxanı Sənaye Parkı, Sumqayıt şəhərində Kimya Sənaye Parkı və Yüksək Texnologiyalar Parkı yaradılmışdır.

Sənaye parkının yaradılmasının məqsədləri aşağıdakılardır:

1. İnnovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılması və bu sahədə sahibkarlığın dəstəklənməsi;
2. İqtisadiyyatın, o cümlədən qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi;
3. Ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması;
4. Əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması.

Vergi Məcəlləsində edilmiş dəyişikliklərə əsasən sənaye və texnologiyalar parklarında sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslərin gəlirlərinin 7 il müddətinə gəlir vergisindən (102.1.21-ci maddə), parkların idarəedici təşkilatının və operatorunun mənfəətinin parkın infrastrukturunun tikintisinə və saxlanılmasına yönəldilmiş hissəsi müddət qoyulmadan mənfəət vergisindən (106.1.12-ci maddə), sənaye və texnologiyalar parklarının rezidenti olan hüquqi şəxslərin bu fəaliyyətdən əldə etdikləri gəlirləri 7 il müddətinə mənfəət vergisindən (106.1.13-cü maddə), sənaye və texnologiyalar parklarının infrastrukturunun, istehsal sahələrinin yaradılması və tikintisi məqsədilə idarəedici təşkilat və operator tərəfindən idxal edilən texnikaların, texnoloji avadanlıqların və qurğuların idxalının müddət qoyulmadan ƏDV-dən (164.1.15-ci maddə), parkların rezidenti olan şəxslər tərəfindən qeyd olunan məqsədlər üçün gətirilən texnika, texnoloji avadanlıq və qurğuların idxalının 7 il müddətinə ƏDV-dən (164.1.16-cı maddə) azad edilməsi nəzərdə tutulmuşdur.

Vergi Məcəlləsinin 221 maddəsinin 25-də vergi stimullaşdırılması ilə bağlı normalar vergi güzəştləri və imtiyazları formasında öz əksini tapmışdır. Vergi güzəştləri daxilində vergi istisnalarını, vergi endirimlərini və vergi azadolmalarını qeyd edə bilərik. Məsələn, Vergi Məcəlləsinin Xüsusi hissəsində vergi stimullaşdırması tədbirlərini özündə əks etdirən fiziki şəxslərin gəlir vergisində "gəlir vergisindən azadolmalar və güzəştlər" (102-ci maddə), hüquqi şəxslərin mənfəət vergisi üçün "azadolmalar və güzəştlər" (106-cı maddə), ƏDV üçün "vergi ödəməkdən azadedilmə" (164-cü maddə) və "verginin sıfır dərəcə ilə tutulması" (165-ci maddə), aksizlər üçün "azadolmalar" (188-ci maddə), əmlak vergisi üzrə "vergi güzəştləri və azadolmalar" (199-cu maddə), torpaq vergisində "vergi güzəştləri" (207-ci maddə) kimi maddələr vardır. Vergi Məcəlləsindən əlavə, vergi stimullaşdırması tədbirləri Azərbaycan Respublikasının qanunlarında da öz əksini tapmışdır. Belə ki, 2001-ci il tarixli 218 nömrəli, 2003-cü il 28 noyabr tarixli 521 nömrəli, 2006-cı il 186 nömrəli qanunlarla əhalinin əmanətləri üzrə ödənilən faizlər, habelə investisiya qiymətli kağızları üzrə divident və faizlərdən olan gəlirlər 2002-ci ilin yanvarın 1-dən 2010-cu ilin yanvarın 1-dək gəlir vergisindən azad edilmişlər. Bundan əlavə, 2009-cu il 27 dekabr tarixli 903 nömrəli və 2012- ci il tarixli 542 nömrəli qanunlarla banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər 2014-cü il yanvarın 1-dək gəlir vergisindən azad edilmişdir.

Sadalanan vergi stimullaşdırma tədbirləri birbaşa olaraq innovasiya fəaliyyətinin stimullaşdırmasına yönəlməsə də, dolayısı ilə bu fəaliyyətin inkişafına hər hansı dərəcədə öz müsbət təsirini göstərir.

**Cədvəl 1.** ***Biznesdə innovasiya proseslərinin inkişafına dövlət köməyi***




*(**Mənbə:** Akif Musayev “İnnovasiya iqtisadiyyatı və Vergi Stimullaşdırması” Bakı: 2014)*

Bu güzəştlər ölkədə innovativ və yüksək texnologiyalar əsasında rəqabətqabiliyyətli sənaye istehsalının inkişafı üçün münbit şəraitin formalaşdırılması, bu sahədə sahibkarlığın dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə tətbiq edilmişdir. İnnovasiya fəaliyyətinin stimullaşdırılmasına yönələn norma kimi Vergi Məcəlləsinin 113-cü maddəsini qeyd edə bilərik. Həmin maddəyə əsasən gəlir götürmək məqsədi ilə aparılan elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclər (əsas vəsaitlərin alınması və qurulması ilə bağlı xərclər, habelə kapital xarakterli xərclər istisna olmaqla) gəlirdən çıxılır. Bu da vergi ödəyicisinin vergi tutulan gəlirini azaltmaqla onun sərəncamında əlavə maliyyə vəsaitinin qalmasına gətirib çıxarır və bununla da innovasiyayönümlü investisiya fəaliyyətini təşviq edir. Bundan əlavə, innovasiya fəaliyyətinin əsas elementlərindən olan təhsil müəssisələrinə ƏDV ilə bağlı tətbiq olunan vergi güzəştlərini də xüsusilə qeyd etmək lazımdır. Həmin güzəştlə ödənişli təhsil xidmətlərinin göstərilməsi ƏDV-dən azad edilmişdir. Buna, əsasən, təhsil xidmətləri göstərən müəssisələrin maliyyə imkanları genişlənməklə onların elmi-texniki bazasının təkmilləşdirilməsinə, yeni texniki avadanlıqların alınıb quraşdırılmasına, laboratoriyaların zənginləşdirilməsinə, elmi tədqiqatların miqyasının genişləndirilməsinə və bu sahədə fəaliyyət göstərən işçilərin sosial vəziyyətinin daha da yaxşılaşdırılmasına münbit şərait yaradılmış olur. Göründüyü kimi, vergi qanunvericiliyində innovasiya fəaliyyətini həm birbaşa, həm də dolayısı ilə stimullaşdıran vergi güzəştləri öz əksini tapmışdır. Lakin bu stimullaşdırma tədbirləri innovasiya fəaliyyətinin tam olaraq mövcud dövrün tələblərinə uyğun stimullaşdırma imkanında deyildir.

Bununla əlaqədar olaraq, xarici ölkələrin qüvvədə olan qanunvericilik təcrübəsi öyrənilməklə vergi qanunvericiliyinə birbaşa olaraq innovasiya fəaliyyətini stimullaşdıracaq, bu fəaliyyətin miqyasının və sürətinin artımına müsbət təsir edəcək vergi güzəştlərinin tətbiqi üçün zəmin yaranmışdır.

Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında Qanunda Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq alınan qərarda innovativ iqtisadiyyatın inkişafı üçün göstərilmiş qayğılardandır.

İnnovasiyaların təhlili göstərir ki, onlar sosial-iqtisadi xarakterli funksiyalar yerinə yetirirlər. İqtisadi ədəbiyyatda qeyd olunduğu kimi, iqtisadi kateqoriya olaraq innovasiya iki əsas funksiyanı-təkrar istehsal və stimullaşdırma funksiyalarını yerinə yetirir. Təkrar istehsal funksiyası onu göstərir ki, innovasiya geniş təkrar istehsalın mühüm maliyyələşdirmə mənbəyi kimi çıxış edir. İnnovasiyaların bazarda satışından əldə edilən pul gəlirləri sahibkarlıq mənfəətini yaradır ki, bu da maliyyə resurslarının mənbəyi və eyni zamanda innovasiya prosesi səmərəliliyinin ölçüsü kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının "Vergi məcəlləsi" 2020
2. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə sərəncamı
3. Akif Musayev. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırması. Bakı, 2014, 184 s.
4. Azərbaycan Respublikası "Azərbaycan Respublikasında innovativ inkişaf sahəsində koordinasiyanın təmin edilməsi haqqında" Qanunu

## РЕЗЮМЕ

**Расул Алекперов**

### РОЛЬ ИННОВАЦИЙ И НАЛОГОВЫХ ЛЬГОТ В ЭКОНОМИКЕ АЗЕРБАЙДЖАНА

Помимо использования инноваций и новых технологий, в развитии экономики также важны правовые инструменты, обеспечивающие надежность и стабильность экономических отношений и позволяющие наиболее эффективно решать практически важные проблемы общества. Одним из таких инструментов являются налоговые вычеты, которые имеют важные научные и практические последствия. Основной целью инновационного этапа является обеспечение устойчивого социально-экономического развития страны в долгосрочной перспективе за счет повышения конкурентоспособности национальной экономики и ее эффективной интеграции в мировую экономику. Хотя налоговые льготы не направлены непосредственно на поощрение инноваций, это оказывает положительное влияние на развитие этих видов деятельности.

## SUMMARY

**Rasul Alakbarov**

### THE ROLE OF INNOVATION AND TAX INCENTIVES İN THE AZERBAİJANİ ECONOMY

In addition to the use of innovations and new technologies, legal instruments that ensure the reliability and stability of economic relations and enable the most effective resolution of practically important issues of society are also important in the development of the economy. One of these tools is tax deductions, which have important scientific and practical implications. The main goal of the innovation phase is to ensure the sustainable socio-economic development of the country in the long-term, by improving the competitiveness of the national economy and its efficient integration into the world economy.

Although tax incentives are not directly aimed at encouraging innovation, it has a positive impact on the development of these activities.

**EHTİBAR İMAMVERDİYEV**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
**ÇİNARƏ NƏSİBOVA**
*aqrobiznes@mail.ru*

# AQRAR SAHƏDƏ SAHİBKARLIĞIN İNNOVASİYALI İNKİŞAFININ ZƏRURİLİYİ

***Açar sözlər:*** *innovasiyalı inkişaf, real sektor, rəqabətqabiliyyətlilik, ixrac potensialı*
***Ключевые слова:*** *инновационное развитие, реальный сектор, конкурентоспособность, экспортный потенциал.*
***Key words:*** *innovative development, real sector, competitiveness, export potential.*

Azərbaycanın inkişafının yeni mərhələsinin əsas hədəfi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaqla, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Hazırda Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin vəzifəsi coxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılmasıdır. Azərbaycanın perspektiv inkişaf hədəf və istiqamətlərinin müəyyən edilməsi məqsədi ilə 2020-ci ilədək dövrü əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası hazırlanmış, əsas hədəflər müəyyənləşdirilmişdir. Azərbaycan iqtisadiyyatının gələcək inkişaf problemlərinin səmərəli həlli iqtisad elmi qarşısında konkret vəzifələr qoyur. Bununla əlaqədar olaraq, iqtisadçı alimlər ölkədə innovasiyalı iqtisadiyyatın qurulması, real sektorun strukturunun təkmilləşməsi, milli iqtisadiyyatın rəqabətə davamlılığının yüksəldilməsi, ölkənin ixrac potensialının artırılması, regional inkişaf, xarici ölkələrlə ticarət-iqtisadi əlaqələrin səmərəliliyi, keyfiyyətli həyat səviyyəsi ilə bağlı tədqiqatlarını genişləndirməlidirlər.

Müasir qloballaşma şəraitində müəssisə və təşkilatlarda innovativ texnika, texnologiya, əməyin təşkili və idarəetmə sahəsində elmi nailiyyətlərə və qabaqcıl təcrübəyə əsaslanan yenilikləri, həmçinin bu yeniliklərin fəaliyyətin ən mühüm sahələrində tətbiqini özündə birləşdirən innovasiya sistemləri hər bir dövlətin ümumi inkişaf səviyyəsindən və potensialından xəbər verən sosial iqtisadi, intellektual yüksəlişi təmin edən ən vacib meyarlardan birinə çevrilmişdir. Bu gün Azərbaycan iqtisadiyyatının, həmçinin aqrar sahənin yeni texnika və texnologiyalarla silahlanması, köhnəlmiş texnologiyalara əsaslanmış texnikanın daha məhsuldar texnika ilə əvəz edilməsi zərurəti ilə qarşılaşır. Hal-hazırda cəmiyyətin inkişafı bilavasitə insan fəaliyyəti, onun əməyinin məhsuldarlığı ilə bağlı olduğundan insanların inkişafına qoyulan investisiyalar xüsusi əhəmiyyət kəsb edir.

2018-ci ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrinə əsas kapitala yönəldilmiş investisiyalar 17244,9 mln. manat təşkil etmişdir (3). Həmin investisiyaların 4,4% kənd təsərrüfatı və emala ayrılmışdır. Beləliklə, 2018-ci ildə kənd təsərrüfatına yönəlmiş investisiyaların məbləği 764,4 mln. manat təşkil etmişdir (4). Hesab edirik ki, aqrar bölməyə ayrılan güzəştli kreditlərin həcminin artırılması kənd təsərrüfatında innovasiyalı inkişafın dəstəklənməsi istiqamətində əhəmiyyətli rol oynaya bilər. Dünya təcrübəsi göstərir ki, innovasiya firmaları öz uğurlu inkişafı və rəqabət qabiliyyətliyi üçün kadrların potensialının yüksəldilməsi ilə daima məşğul olmalıdırlar. Xüsusilə kiçik innovasiya firmaları üçün bu mərhələ işçi qüvvəsinin potensialının artırılması üçün istifadə edilən əsas metodlardan biridir. Hər bir işçinin işinin səmərəliliyi barədə informasiyanın yığılması rəhbərə onların fəaliyyətinin qiymətləndirilməsini aparmağa imkan verir. Belə olduqda rəhbər öz tabeçiliyində olanlara tapşırıqlar vermək və əgər onların davranışı qəbul edilmiş qaydalara uyğun deyilsə, onlara düzəlişlər etməyə imkan yaradır. Kiçik innovasiya firmalarının uğurlu fəaliyyətində birinci vəzifə innovativ texnika, texnologiya, materialların yaradılması və tətbiqi, həmçinin nümunəvi rəhbər kadrların hazırlanmasıdır. Qeyd etmək lazımdır ki, inkişaf ermiş ölkələrdə kadrların hazırlanması və yenidən hazırlanmasına xüsusi diqqət yetirilir. Bu həm şirkətlər, həm də işçilərin özləri tərəfindən həyata

keçirilir. Firmanın hər bir işçisi, bir qayda olaraq, peşəkar biliklərinin artırılması üçün bir neçə xüsusi kurs keçir və bunu, adətən, qeyri-iş vaxtında həyata keçirir.

İnnovasiya prosesində hər yeni ideyanın uğur gətirəcəyinə zəmanət verilə bilməz. Bu fakt inkişaf etmiş ölkələrdə və dünya liderləri ABŞ və Yaponiyada təqdim olunan innovasiya layihələrinin sayının azalmasına mənfi təsir göstərmir. Əksinə, bu kəmiyyət tədricən keyfiyyətin yüksəldilməsinə təsir göstərir. Bu fakt respublikamızda, qeyri-neft sektorunun əsasını təşkil edən kənd təsərrüfatında innovasiya layihələrinin hazırlanması və tətbiqini stimullaşdırmalıdır. Onların uğurla nəticələnəcəyi təqdirdə qarşılaşılan məsuliyyətdən bu həvəsləndirmə üstün olmalıdır. Nəticədə, Azərbaycan Respublikasının aqrar sahəsində fəaliyyət göstərən sahibkarlar dünya bazarına uğurlu məhsul çıxarmağı düşünürlərsə, onlar daha çox innovasiya layihələrini işləyib həyata keçirməlidirlər (1,s.127).

İnnovasiya layihələrinin aqrar sahənin inkişafına təsirini əhəmiyyətli sayan inkişaf etmiş ölkələr, dünya liderləri bu istiqamətdə həm mərkəzləşdirilmiş mənbələrdən, həm də sahibkarlıq subyektlərindən külli miqdarda vəsait xərcləyir, həvəsləndirici tədbirlər həyata keçirirlər. Bunun nəticəsində əsrimizin tələbi olan innovativ inkişafın təmin edilməsi özəl biznes imkanlarını artırır. Belə inkişaf son nəticədə bu ölkənin makroiqtisadi göstəricilərinə əhəmiyyətli dərəcədə təsir göstərir (2,s.38). Daha çox vəsait tələb edən innovasiya layihələrinin maliyyələşdirilməsi məsələlərinə Azərbaycanda da daha ciddi yanaşma tələb olunur.

Müasir dövrdə mütərəqqi texnologiyaların rolu artır, iqtisadi artımın xarakteri dəyişir, iqtisadi inkişafın meyarları barədə yeni baxışlar meydana gəlir, bazarın qloballaşması prosesi baş verir. Belə çətin bir şəraitdə müstəqil Azərbaycan Respublikası dünya iqtisadiyyatının strategiyasına uyğun olaraq, özünün innovasiya siyasətini həyata keçirməlidir. Fikrimizcə, bir və ya bir neçə universitet, təhsil müəssisəsi, tətqiqat mərkəzləri ilə qarşılıqlı əlaqədə olan, nəznində innovasiya layihələri, texnika və qabaqcıl texnologiyaların aqrar sahədə tətbiq olunmasına istiqamətlənmiş, icarədar firmalar üzərində idarəetmə funksiyalarına malik olan aqroparkların yaradılması müasir dövrün tələbidir. Buna bariz misal olaraq, Şəmkir aqroparkını göstərmək olar. Belə aqroparkların, yerli ixtisaslaşma istiqamətləri nəzərə alınmaqla, yaradılması aqrar sahənin inkişafına, ərzaq təhlükəsizliyinin təmin edilməsinə böyük təkan verəcəkdir.

Dünya təcrübəsi göstərir ki, texno və aqroparkların yaradılması və onların fəaliyyətinə hərtərəfli dəstək, ictimai-siyasi və təbii-iqtisadi resursları nəzərə alan aqropark modelinin düzgün seçilməsi, eləcə də konkret regionun elmi-texniki və innovasiya potensialının inkişaf səviyyəsinin nəzərə alınması ölkədə sosial-iqtisadi məsələlərin daha uğurlu həllinə kömək edir.

Problemlərdən biri də bank sektorunun, demək olar ki, aqrar sahədə sahibkarların həyata keçirdiyi innovasiya layihələrinin kreditləşdirilməsində iştirak etməməsi və ya iştirak etmək istəməməsidir. Bu onunla əlaqədardır ki, belə fəaliyyətin qarantı rolunda çıxış edən girov sistemi innovasiya müəssisələri üçün mümkünsüzdür. Belə firmaların daşınmaz əmlakı olmadığından, onlara məxsus maşın və mənzillərdən başqa girov qoymağa heç bir əmlakı olmur. Ona görə də aqroparklarda innovasiya layihələrinin maliyyələşdirilməsinə vəsaitlər, əsasən, ixtisaslaşdırılmış fondlardan və donor təşkilatlardan cəlb edilir.

İnnovasiyaların maliyyələşməsi iki mərhələdə həyata keçirilir:

1) İlkin maliyyələşmə;
2) İnkişafın maliyyələşməsi.

İlkin maliyyələşmə başlamazdan əvvəl və başlanğıcda, inkişafın maliyyələşməsi isə ilkin inkişaf və genişlənmə kimi mərhələlərdən ibarət olur.

Bəzi inkişaf etmiş ölkələrdə hökumət də sosial-iqtisadi inkişafın prioritet sahələri üçün, həmçinin kənd təsərrüfatı üçün, yeni texnologiyalar və texniki avadanlıqlar sifariş verməklə innovasiyayönümlü sahibkarın investoru rolunda çıxış edir (3, s.38). Bu isə öz növbəsində inkişafa və aqroparkın etibarlılığına birbaşa müsbət təsir göstərir.

Aqrar sahə üçün əhəmiyyət daşıyan layihələrin işlənməsi əlverişli tənzimləmə mexanizmlərin, cəlbedici stimulların, aşağı məsrəfli xidmətlərin, rəqabətə davamlı işçi qüvvəsinin, dayanıqlı nəqliyyat əlaqələrinin, cəlbedici daxili İKT bazarının formalaşmasını tələb edir. Belə layihələrin icrası aqrar

sahədə kiçik və orta sahibkarlıq subyektlərində texnoloji innovasiyaların tətbiqinin sürətləndirilməsinə, yeni sərmayələrin artımına səbəb olacaqdır.

Nəticə: 1. Aqroparklar bazar iqtisadiyyatı şəraitində innovasiyayönümlü elmi laboratoriyaların və kiçik müəssisələrin formalaşması və inkişaf etməsi üçün zəruridir;

2. Kiçik innovasiya fırmalarının uğurlu fəaliyyətinin birinci dərəcəli şərti hərtərəfli təhlil və planlaşdırma ilə rəhbər kadrların hazırlanmasıdır;

3. Kiçik innovasiya sahibkarhğına münasibətdə dövlət siyasəti innovasiya tsiklinin bütün mərhələlərində innovasiyaların uğurla irəliləməsini təmin etməyə qadir olan infrastrukturun yaradılması əsasında qurulmalıdır;

4. Fundamental və tətbiqi elmi tədqiqatlar sahəsində mövcud olan problemləri, eləcə də bu problemlərin həlli müddətlərinin əhəmiyyətliliyi nəzərə alınmalı və lazımi maliyyə resursları universitet mərkəzlərinə, kiçik innovasiya fırmalarına verilməlidir;

5. İnnovasiyaların idarə olunmasının beynəlxalq təcrübəsinin öyrənilməsi əsasında kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə risklərinin azaldılması təmin olunmalıdır.

## ƏDƏBİYYAT

1. J.N.İbrahimov. Regionlarda sahibkarlığın inkişaf meylləri və xüsusiyyətləri. Bakı: 2007
2. H.S.Həsənov, M.H.Məmmədov, K.A.Şahbazov. Menecment. Bakı: 2005
3. T.Ə.Hüseynov. Şirkətin iqtisadiyyatı. Bakı: 2009
4. www.stat.gov.az
5. www.prezident.az

## РЕЗЮМЕ

**Этибар Имамвердиев,**
**Чинара Насибова**

## ИННОВАЦИОННОЕ ПРЕДПРИНИМАТЕЛЬСТВО В СЕЛЬСКОМ ХОЗЯЙСТВЕ НЕОБХОДИМОСТЬ РАЗВИТИЯ

Основная цель нового этапа развития экономики Азербайджанской Республики заключается в формировании многопрофильной и инновационно направленной экономики, в том числе инновационного сельского хозяйства.

Развитие экономики на основе внедрения инноваций, совершенствования структуры реального сектора, повышение конкурентоспособности национальной экономики, повышение экспортного потенциала страны, проведение исследований по региональному развитию являются основными задачами стоящими перед нашей экономикой. Считаем, что решение данных задач возможно только при ускоренном внедрении инвестиций.

## SUMMARY

**Etibar Imamverdiev,**
**Chinara Nasibova**

## INNOVATIVE ENTREPRENEURSHIP IN AGRICULTURE DEVELOPMENT DEVELOPMENT

The main objective of the new development phase of the Republic of Azerbaijan is to create a diversified, efficient and innovative economy, as well as innovative agriculture, and to achieve a decent level of well-being of the population.

Building economic innovation, improving the structure of the real sector, enhancing the competitiveness of the national economy, increasing the export potential of the country, and developing regional economics are important tasks facing the economy. This is possible only in the context of rapid application of innovations.

**MƏHƏMMƏD SÜLEYMANOV**
*AMEA Naxçıvan Bölməsi*
*mahammad.suleymanov85@gmail.com*

# AZƏRBAYCANDA YEYİNTİ SƏNAYESİ MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU

***Açar sözlər:*** *sənaye, yeyinti sənayesi, innovasiya, iqtisadi inkişaf*
***Ключевые слова:*** *промышленность, пищевая промышленность, инновации, экономическое развитие*
***Key words:*** *industry, food industry, innovation, economic development*

Müasir dövrdə sənaye müəssisələrində texnologiyanın inkişafı nəticəsində ortaya çıxan yeni texnikaların tətbiq edilməsi bu sahələrin iqtisadi fəaliyyətinin əsas istiqamətini təşkil edir. Mövcud olan texnikaların innovasiyayönümlü texnikalar ilə əvəzlənməsi təbii ki, müəssisələrin fəaliyyətinə təsiri müsbətdir. Belə ki, mövcud texnologiya ilə istehsal olunan məhsullar müasir tələblərdən geri qalır və bunun nəticəsində müəssisə zərərə uğrayır. Dünya təcrübəsinə baxdığımız zaman yeni texnologiyaların istehsal münasibətlərində geniş şəkildə istifadəsi sənaye müəssisələrinin mövcud imkanlarını daha da artırmaqla rəqabətqabiliyyətliliyini və istehsal prosesinin çevikliyini də təmin edir. Qeyd etmək lazımdır ki, innovasiyayönümlü yeni texnologiyanın sənayeyə tətbiqi zamanı çəkilən xərclər elə özlüyündə ölkə iqtisadiyyatının inkişaf səviyyəsi haqqında bizə məlumat verir.

İnnovasiya sözü latınca “innovare” və “innovatus” sözlərinin birləşməsi ilə “yenilənmək və ya dəyişdirmək” mənasını ifadə edən yeni bir anlayış ortaya çıxmışdır [3, s.414]. İnnovasiya nəzəriyyəsinin banisi ABŞ vətəndaşı, Harvard Universitetinin professoru, əslən Avstriyalı siyasi iqtisadçı Yozef Şumpeter (1883-1950) hesab edilir. İnnovasiya konsepsiyasına professor 1912-ci ildə nəşr olunmuş “The Theory of Economic Development” əsərində aydınlıq gətirmişdir [4, s. 90]. Y.Şumpeterə görə məhsulların rəqabətqabiliyyətliliyi və iqtisadi inkişafın dinamikası “yenilik”dən, yəni innovasiyaların artmasından asılıdır. İqtisadçı alim innovasiyanı 5 sinfə ayırırdı ki, bunlar aşağıdakılardır:

- Yeni bir məhsulun və ya artıq istifadə olunan məhsulun yeni bir növünün istehsal edilməsi;
- Məhsul istehsalında və ya satışında yeni üsulların tətbiq olunması;
- Yeni satış bazarlarının yaradılması;
- Xammal və ya yarımfabrikat məhsulları üçün yeni tədarük mənbələrin tapılması;
- Yeni sənaye strukturunun yaradılması.

Sənaye müəssisələrində məhsul istehsalında yeni texnikaların istifadə olunması, müəssisənin texnoloji strukturunda aparılan dəyişikliklər nəticəsində təkmilləşdirilməsi ilə birlikdə istehsal prosesi zamanı çəkilən xərclərin azaldılması və yüksək mənfəət əldə edilməsi məqsədi ilə innovasiya fəaliyyətinin həyata keçirilməsi məqsədə uyğundur. Şumpeterin araşdırmalarını əsas götürərək biz deyə bilərik ki, müəssisələrini innovasiyalaşdırmaq istəyən sahibkarlar istehsal etdiyi məhsulların rəqabətqabiliyyətliliyini artıracaq yeni ideyalardan istifadə etməli, təcrübi tədqiqatlar aparmalı, yeni məhsul və ya artıq mövcud olan məhsulun istehlakçıların tələbinə uyğun şəkildə yeni növünü istehsal etməli, yeni idarəetmə strukturu yaratmalı, istehsalatda yeni üsullardan istifadə etməli və satış bazarlarında yarana biləcək problemlərin əvvəlcədən qarşısını almaq üçün marketinq tədqiqatları aparmalıdır.

Kornell Universiteti, INSEAD (European Institute of Business Administration) və WIPO (World Intellectual Property Organization) birgə təşkilatçılığı ilə çap olunan “Global Innovation Index 2019” jurnalının sıralamasında 129 ölkənin adı qeyd olunmuşdur və bu siyahıda ilk beş yeri İsveçrə, İsveç, ABŞ, Niderlandiya və Böyük Britaniya tutur [5]. Azərbaycan bu sıralamada 84-cü yerdə verilmişdir. Bu siyahıda ilk pillələrdə yer alan ölkələrin R&D (texnologiyanın araşdırılması və inkişafı) xərclərinin ÜDM-dəki payı ilbəil əhəmiyyətli dərəcədə artmaqdadır. 2018-ci ildə yayımlanan “Strategy& Global Innovation 1000” dərgidə dünyanın 1000 ən böyük kooperativlərinin R&D xərcləri göstərilmişdir. Ümumilikdə bu xərc 781,8 milyard ABŞ dollarıdır. Bu diaqrama əsasən 2018-ci ildə dünyada ən böyük 1000 korporativ tərəfindən kompüter və elektronika sahəsinə çəkilən innovasiya xərcləri 176 milyard dollar, səhiyyə sahəsinə çəkilən innovasiya xərcləri 169,7 milyard dollar




və sənaye sahəsinə çəkilən innovasiya xərcləri isə 83 milyard dollar olmuşdur. Aşağıdakı cədvəldə Azərbaycanda sənaye sahəsində innovasiya fəaliyyətinin tətbiqi nəticəsində əhəmiyyətli dərəcədə dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş məhsulların həcmi göstərilmişdir [1].

Cədvəl 1-də qeyd olunan emal sənayesi üzrə innovasiya məhsulunun həcmi 2015-ci ildə 929,7 min manat olmuşdur ki, bunun 82%-i yeyinti sənayesinin payına düşür. Növbəti illərdə bu faizin azalması, yəni 2016-cı ildə 1,2%, 2017-ci ildə 4%, 2018-ci ildə isə 2,9% olmasının əsas səbəbi Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramında qeyd olunduğu kimi "Beynəlxalq təcrübə göstərir ki, sənayenin artım templəri və inkişaf mərhələləri ölkələrin gəlir səviyyəsinə uyğun olaraq dəyişir. Ölkələr inkişaf etdikcə aşağı texnologiyalı və əməktutumlu yeyinti, yüngül və mebel sənayesi sahələri aparıcı mövqeyini orta texnologiyalı kimya, metallurgiya, gəmiqayırma, maşın və avadanlıq istehsalı sahələrinə verir" [2]. Həqiqətən də 2017 və 2018-ci illərdə kompüter və digər avadanlıqların istehsalı cədvəldə göstərilən ümumi sənaye məhsulunun uyğun olaraq, 68%-ni və 68,9 %-ni təşkil etmişdir. Bununla belə innovasiya fəaliyyəti nəticəsində məhsulların həcminin artması ilə birlikdə çəkilən xərclərdə artır ki, aşağıdakı qrafikdə bunu qeyd etmişik.

**Cədvəl 1.** ***Yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsulunun həcmi, min manat***

| İllər / Fəaliyyət növləri | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|
| Bütün sənaye | 929,7 | 35746,9 | 14676,7 | 28952,2 |
| Mədənçıxarma sənayesi | 0 | 129,6 | 0 | 215,3 |
| Emal sənayesi | 929,7 | 35617,3 | 14676,7 | 28736,9 |
| O cümlədən: Yeyinti sənayesi | 758,0 | 444,0 | 589,5 | 831,2 |

**Mənbə:** *Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəqəmləri əsasında hazırlanmışdır.*

2014-cü ildə bütün sənayedə texnoloji innovasiyalara çəkilən xərc 21534,1 min manat olmuşdur ki, burada əsas pay emal sənayesinin üzərinə düşür. 2015-ci il yeyinti sənayesi sahəsində çəkilən xərclər ümumi xərclərin 36%-ni, emal sənayesi üzrə isə 39%-ni təşkil etdiyi halda, daha sonrakı dövrlərdə bu sahədə texnoloji innovasiyalar üzrə çəkilən xərclər azalmışdır. Belə ki, 2016-cı ildə emal sənayesi sahəsində texnoloji innovasiyalara çəkilən xərclər üzrə payı 7%, 2017-ci ildə 1,5 %, 2018-ci ildə isə 1% olmuşdur. Yuxarıda qeyd etdiyimiz kimi, innovasiya fəaliyyəti nəticəsində sənaye məhsullarının artımı texnoloji innovasiyalara çəkilən xərclər ilə düz mütənasibdir. Çəkilən xərclər artdığı zaman sənaye məhsullarının da həcmində artım müşahidə olunur.




Yeyinti sənayesi müəssisələrində innovativ texnologiyaları tətbiq etmək üçün əsas məsələlərdən biri yüksəkixtisaslı peşəkar kadrların olmasıdır. Bu sahələrə yüksək texnologiyaya əsaslanan investisiya qoyuluşu zamanı əgər insan kapitalı aşağı səviyyədədirsə, bu heç bir nəticə verməz.

Belə ki, inkişaf etmiş ölkələrdən ABŞ, Yaponiya, Kanada və s. ölkələrdə insan kapitalına investisiya qoyuluşlarının həcmi artmaqdadır. Ən yüksək rəqabətqabiliyyətli, yüksək texnologiya və təhsil səviyyəsinə malik ölkələrdə insan kapitalı əsas aparıcı qüvvə kimi çıxış edir. Məhz bu səbəbdən ölkəmizdə də qabaqcıl ölkələrin təcrübəsindən istifadə edərək peşəkar ixtisaslı kadrların hazırlanması və insan kapitalına investisiya qoyuluşlarının artırılması vacibdir.

Sonda isə qeyd etmək istərdim ki, elmi-tədqiqat fəaliyyəti ilə məşğul olan insanların ictimai statuslarının yüksəldilməsi də innovasiyaların tətbiq dairəsini genişləndirməyə xidmət edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət Statistika Komitəsi. Azərbaycanın sənayesi. Bakı, 2019, 252 s.
2. Əliyev İ.H. Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı. Bakı, 2014
3. Marxt C., Hacklin F. Design, product development, innovation: all the same in the end? A short discussion on terminology// Journal of Engineering Design, 2005, Vol16, №4, p. 413-421
4. Sledzik K. Schumpeter's View on Innovation and Entrepreneurship // SSRN Electronic Journal, 2013, p. 89-95
5. https://www.strategyand.pwc.com/gx/en/insights/innovation1000.html

## РЕЗЮМЕ

**Махаммед Сулейманов**

### РОЛЬ ИННОВАЦИЙ В РАЗВИТИИ ПИЩЕВОЙ ПРОМЫШЛЕННОСТИ В АЗЕРБАЙДЖАНЕ

Внедрение новых технологий, возникающих в результате развития технологий на промышленных предприятиях в современную эпоху, является важнейшим направлением экономической деятельности в этих областях. В статье также представлены и проанализированы таблицы и диаграммы по объему инновационных продуктов и технологических инноваций с учетом уровня инноваций в отрасли и видов экономической деятельности в Азербайджане.

## SUMMARY

**Mahammad Suleymanov**

### THE ROLE OF INNOVATION IN THE DEVELOPMENT OF FOOD INDUSTRY IN AZERBAIJAN

The introduction of new technologies emerging as a result of the development of technology in industrial enterprises in modern times is a major area of economic activity in these areas. The article also presents and analyzes the tables and charts on the volume of innovative products and technological innovations based on the level of innovation in the industry and the types of economic activity in Azerbaijan.

**ELTUN İBRAHİMOV**
*AMEA Naxçıvan Bölməsi*
*eltunibrahimov@yahoo.com*

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN GENİŞLƏNDİRİLMƏSİNDƏ İNNOVASİYALARIN ROLU

***Açar sözlər:*** *innovasiya, sahibkarlıq, müəssisələr, maliyyə qazancı, yenilikçi, iqtisadi artım*
***Ключевые слова:*** *инновации, предпринимательство, фирма, финансовые доходы, инновации, экономический рост*
***Key words:*** *innovation, entrepreneurship, businesses, financial earnings, innovator, economic growth*

Məlum olduğu kimi, hər bir iqtisadiyyat onu təşkil edən irili-xırdalı müəssisə və biznes obyektlərindən təşkil olunmuşdur. Zamanın sınağından çıxan təcrübələr göstərir ki, dəyişən dövrlərə, yeniliklərə uyğunlaşmaq qabiliyyətini özündə saxlayan və cəmiyyətin ehtiyaclarını təmin edən iqtisadiyyatlar hər zaman sağ qalmış və daha da güclənmişdir. Araşdırmalar göstərir ki, kiçik biznes sahələri də iqtisadiyyatın əsas tərkib hissəsi olub, onların inkişafı olmadan iqtisadiyyatın dayanıqlılığını təsəvvür etmək qeyri-mümkündür. Bunun üçün də hər biznes və sahibkarlıq obyekti öz-özünü təmin etməli, cəmiyyətin və xalqın tələblərini yerinə yetirmək üçün daima inkişafa və yeniliyə doğru meyl göstərməlidir. Onları təşkil edən struktur vahidləri və insan resurslarının da yenilikçi və bacarıqlı olması xeyli vacib məsələlərdən hesab olunmaqdadır.

İnnovasiya sahibkarlığının inkişafının zəruriliyi aşağıdakı amillərlə şərtlənir:

- istehsalın inkişafının intensiv amillərinin güclənməsi ilə. Bu iqtisadi fəaliyyətin bütün sferalarında ETT-nin tətbiq olunmasına imkan verir;
- yeni texnikanın tətbiqinin səmərəliliyinin yüksəldilməsində elmin müəyyənedici rolu ilə;
- texnologiyaların istifadə müddətlərinin əhəmiyyətli dərəcədə azaldılması, istehsalın texniki səviyyəsinin yüksəldilməsi zəruriliyi ilə, ixtiraçıların və kütləvi yaradıcılığının inkişafının zəruriliyi ilə;
- elmi-texniki istehsal prosesinin spesifik xüsusiyyəti ilə: nəticələrin qeyri-müəyyənliyi, tədqiqatların çoxvariantlılığı, risklərinin mövcudluğu;
- yeni məhsulların mənimsənilməsi zamanı müəssisənin xərclərinin artması, texnika və texnologiyaların mənəvi cəhətdən surətli aşınması, texnologiyaların sürətli tətbiqinin obyektiv zəruriliyi ilə (4). Bütün bunlar göstərildiyi kimi innovativ sahibkarlığın meydana çıxmasının və inkişaf etməsinin əsas zərurətləri hesab edilə bilər. Əlavə olaraq, dünya təcrübəsində də məlumdur ki, bu yöndə sahibkarlığın genişləndirilməsi həm də informasiya təminatı sistemlərinin yaxşılaşdırılması və maliyyə bazarlarının inkişafı deməkdir. Kiçik sahibkarlıq və biznes sahələri iqtisadi mühitdəki dəyişikliklərə yaxşı adaptasiya olunmaq qabiliyyəti göstərir ki, bu da onlarda mütərəqqi texnologiyaların dayanıqlı və uzunmüddətli olmasına imkan verir.

Müstəqil surətdə həyata keçirilən, müəyyən işlərin görülməsi və xidmətlərin həyata keçirilməsilə əsas məqsədi mənfəət götürmək olan sahibkarlıq fəaliyyəti maliyyə qazancı gətirir və iqtisadiyyatı ayaqda saxlayır ki, bu da sahibkarlıq fəaliyyətində yeniliyin nə dərəcədə əhəmiyyətli olmasını ortaya çıxarır. Sahibkarlar yalnız ixtira edən və həll yollarını araşdıranlar deyil, həmçinin iqtisadiyyatın yenilikçiləri hesab olunurlar. Yeniliyin əhəmiyyəti keyfiyyətli məhsul istehsal etmək və ya alternativ həll mexanizmləri təklif etmək üçün müvafiq yolların tapılması ilə göstərilir. Müştərilərin daim dəyişən ehtiyaclarını qarşılamaq üçün bir xidmət növündən başqa bir xidmət növünə keçilməklə istehsal daha da genişləndirilə bilər. İstehsalçılar xammal və məhsullara əlavə olaraq digər məhsullar da təklif etməklə öz dövriyyələrini genişləndirirlər.

Sahibkarlıqda yeniliyin əhəmiyyətini artıran əsas amillərdən biri də rəqabətdir. Bazarda daha yaxşı yer tutmaq üçün sahibkar aşağı qiymət siyasətinə qaçmaqdan daha çox yaxşı bir nailiyyət ortaya çıxarmağa meylli olur. Bu baxımdan bu cür davranış kiçik müəssisələr üçün əla fürsət hesab olunur. Qeyd olunduğu kimi kiçik müəssisələr iqtisadi proseslərdə birbaşa iştirak etdikləri üçün öz maliyyə

və digər üstünlükləri ilə iqtisadiyyata öz töhfələrini verirlər və buna görə də əhəmiyyətli hesab olunurlar. Araşdırmalar göstərir ki, iqtisadi sistemdə daim davamlı mövcud olmaq və tanınmaq kapital və resurs çatışmazlığından sonra sahibkarların ən vacib problemlərindən sayılmaqdadır. Məhz bu səbəbdən xeyli sahibkar öz işlərini və təşəbbüslərini davam etdirə bilmir və fikirlərini həyata keçirməkdə çətinlik çəkirlər. Buna görə də hər hansı bir işə girişən təşəbbüskar ideya mərhələsində bir fərq və yenilik yarada bilmirsə, mütləq idarəetmə siyasətində və istehsal prosesində yenilik etməklə bunu aradan qaldırmalıdır. Yəni əgər ideyası yeni olmayan bir işə başlanılıbsa, onun struktur və idarəetməsində müəyyən fikir ortaya qoymaqla bazarda dayaq tutmaq mümkündür. Belə nümunə vermək yerinə düşər: bir çox insanın məşğul olduğu bir işə başlayırsınız (restoran biznesi və ya fermer fəaliyyəti və s.). Bunun üçün isə ilk öncə ərazidə mövcud olan biznes sahələri araşdırılmalı və çeşidli istiqamətlər ortaya çıxarılmalıdır. Daha sonra fərqli hədəf auditoriyası quraraq müvəffəqiyyətlə irəli getmək mümkündür. Sahibkarın müvəffəq olmağının ən önəmli səbəblərindən biri yüksək motivasiyanın olması və hər cəhətdən sistematik innovasiya prosesinin tətbiq edilməsidir. Düzdür, yenilik - müəyyən bir araşdırma prosesindən sonra yeni məhsul tapmaq, bir şey icad etmək olsa da, bundan əlavə, yenilik anlayışının mənalarından biri də dəyişiklik etməkdir. Bunun üçün isə sahibkarların iş qurma, idarəetmə prosesi, ictimaiyyət və müştərilərlə ünsiyyət və digər istiqamətlərdə reklam kampaniyalarını aparması və istehsal proseslərində fərqli dəyişiklik etmələri vacibdir. Yenilikçi düşüncə tərzi ilə işləyən və komandasını bu istiqamətdə quran bir sahibkarın gələcəkdə uğursuz olma ehtimalı xeyli aşağıdır, gözlənilməz çətinliklərə və böhranlara isə hər zaman hazırdır.

İnnovasiya sahibkarlığının inkişafında təməl yanaşmalardan hesab olunan təşəbbüskar fəaliyyətlər iqtisadi artım prosesində çox vacib amildir. İnnovasiya sahibkarlığında məşğul olanların sayındakı azalma və ya yetərincə təşəbbüskar sahibkarın olmaması, sektorun inkişafına mənfi təsir etməklə yanaşı, ölkədə iqtisadi baxımdan böhrana da zəmin yarada bilər. İnnovasiya sahibkarlığı ilə məşğul olanlar tərəfindən həyata keçirilən yenilikçi fəaliyyətlər və bunun nəticəsində daha da artan rəqabət iqtisadi artımın davamlılığı baxımından çox əhəmiyyətlidir. Sahibkarlıqda yenilikçi yanaşmalar həm iş həyatında, həm də cəmiyyətdə intellektual dinamikanı artırır, müsbət istiqamətdə dəyişdirir (3). Lakin onu da qeyd etmək lazımdır ki, yenilik ixtiradan fərqlidir. Bəzi tədqiqatçıların gəldiyi qənaət budur ki, yeniliklər yeni məhsulların, xidmətlərin və proseslərin ortaya çıxması və ya tətbiqi ilə əlaqəli olduğu halda, ixtiraların mütləq bazara gətirilməsi isə o qədər də zərurət daşımır.

İnnovativ imkanların rolunu günümüzdə iş həyatının və biznes fəaliyyətinin hər hissəsində görmək mümkündür. İqtisadiyyatın ən zəif olan sahələrindən tutmuş ən inkişaf etmiş sektorlarına qədər hər sahə innovasiyanın imkanlarına möhtacdır. Kənd təsərrüfatı, sosial və demoqrafik sahələr, bank-maliyyə sistemi, sığorta, təhsil, səhiyyə, sənaye, rabitə və informasiya texnologiyaları, ticarət, xidmət və s. hər birində müəyyən dərəcədə innovativ inkişafa istiqamətlənmiş modellər və təşviqlər icra olunmaqdadır. Ölkəmizdə son illər ərzində həyata keçirilən tədbirlər, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, şaxələndirmə siyasəti, qeyri-neft sektorunun inkişafı innovativ imkanların dəyərləndirilməsini diqqət mərkəzinə gətirmişdir. Azərbaycanda innovasiya siyasətinin həyata keçirilməsi ilk öncə dövlət sənədlərində hüquqi baxımdan mükəmməl bir şəkildə öz əksini tapmışdır. "Elm haqqında" Azərbaycan Respublikasının Qanunu, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi", "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", "İnformasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya", "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası və digər sənədlərdə innovativ tədbirlərə xüsusi yer verilir. Eyni zamanda sahibkarlıq və iqtisadi sahələrdə xeyli sayda dövlət proqramları, qanunlar qəbul edilmiş, layihələr icra olunmuş və hal-hazırda da icra olunmaqdadır. Fərqli illəri əhatə edən regionların sosial-iqtisadi inkişafı ilə bağlı olan dövlət proqramları, "Kiçik sahibkarlığa dövlət köməyi haqqında", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı və digər hüquqi-əməli tədbirlər, bundan başqa, texnologiya parklarının salınması və sənaye məhəllərinin yaradılması ölkəmizdə sahibkarlıq fəaliyyətin canlandırılması yönündə mühüm işlərdir. Azərbaycan

Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramına nəzər saldıqda görə bilərik ki, Dövlət Proqramının əsas məqsədi, prioritet istiqamətləri və gözlənilən nəticələrdə bu məsələlər geniş əksini tapmışdır. Belə ki, innovativ təsərrüfatçılıq formalarının yaradılması və inkişafının dəstəklənməsi mexanizmlərinin həyata keçirilməsi, sahibkarların və fermerlərin maliyyə resurslarına çıxış imkanlarının asanlaşdırılması, KOB-lara operativlik, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında şəhər və regionlarda xidmətlərin təşkili, regionlarda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, KOB-ların inkişafı sahəsində dövlət qurumları tərəfindən sahibkarlara vahid məkanda daha keyfiyyətli, rahat, yeni üslubda və müasir innovasiyaları tətbiq etməklə xidmətlərin (o cümlədən zəruri səyyar xidmətlərin) göstərilməsinin təmin edilməsi və s. proqramın başlıca istiqamətləri hesab olunmaqdadır (2).

Beləliklə, sahibkarlığın inkişafı sahəsində innovasiyanın zəruriliyi istiqamətində aparılan təhlillər onu deməyə əsas verir ki:

- istehsalın inkişafında intensiv amillərin rolunu artırmaq, yeni texnikaya keçid, köhnə texnologiyanın səmərəsinin aşağı düşməsi, elmi-texniki tədqiqatlar sahəsində çoxvariantlılıq və risklərin mövcud olması innovasiyaların tətbiqinin obyektiv zəruriliyini ortaya çıxarır;
- düzgün rəqabət sahibkarlıqda yeniliyin əhəmiyyətini artıran əsas amillərdən biri hesab olunur;
- Azərbaycanda sahibkarlıqda innovasiya siyasətinin həyata keçirilməsi hüquqi baxımdan mükəmməl bir şəkildə öz əksini tapmış və bu istiqamətdə işlər görülməkdədir;
- Sahibkarlıqda innovasiyanın rolunu yeni məhsul istehsalı, rəqabət qaydalarının mükəmməlləşməsi, maliyyə bazarlarının canlandırılması, təşəbbüskar sahibkarların ortaya çıxması ilə əsaslandırmaq mümkündür.

## ƏDƏBİYYAT


1. Azərbaycanda innovasiya siyasətinin effektivliyinin artırılması yolları. Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu. Bakı: 2017, 51 s.
2. "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 29 yanvar 2019-cu il, № 500. http://www.e-qanun.az/
3. Qasımov İ. Cəbiyev F. İnnovasiya sahibkarlığı və texnoparklar. Bakı Mühəndislik Universiteti, 2017, 182 s.
4. http://elibrary.bsu.az/yenii%5Ciqtisadkitablar%5C226_innovasiya.pdf


## РЕЗЮМЕ

**Елтун Ибрагимов**

### РОЛЬ ИННОВАЦИЙ В РАЗВИТИИ ПРЕДПРИНИМАТЕЛЬСТВА

В условиях рыночной экономики компании занимаются инновационной деятельностью, чтобы расширить ассортимент своей продукции, повысить конкурентоспособность и получить доступ к сегменту рынка. В результате интеллектуальной деятельности инновации требуют высокого профессионализма, развития высокотехнологичного производства, человеческого фактора и поиска новых идей. В статье обсуждается необходимость инноваций в развитии предпринимательства.

## SUMMARY

**Eltun İbrahimov**

### THE ROLE OF INNOVATIONS IN DEVELOPING ENTREPRENEURSHIP

In a market economy, companies engage in innovative activities to expand their product range, increase competitiveness and gain access to the market segment. As a result of intellectual activity, innovation requires high professionalism, development of high-tech production, human factor and search for new ideas. The article discusses the need for innovation in the development of entrepreneurship.

**TƏRANƏ MƏMMƏDOVA**
*Azərbaycan Dövlət Aqrar Universiteti*
*terane-memmedova-92@mail.ru*

# AQRAR SAHƏNİN RƏQABƏTQABİLİYYƏTLİ VƏ İNNOVASİYAYÖNÜMLÜ DAYANIQLI İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *strategiya, aqrar sahə, innovasiya, rəqabətqabiliyyətlilik, dayanıqlı inkişaf, səmərə*
***Ключевые слова:*** *сратегия, аграрная отрасль, инновации, конкурентоспособность, устойчивое развитие, продуктивность*
***Key words:*** *agrarian field, innovation, competitiveness, sustainable development, productivity*

Aqrar sahə cəmiyyətin sağlam yaşamasını və inkişafını şərtləndirən, iqtisadiyyatın prioritet əhəmiyyət kəsb edən strateji sahələrindən biridir. Çünki bəşəriyyət öz mövcudluğunu qoruyub saxlamaqla normal inkişaf etməli və uğurlu fəaliyyət göstərmək üçün keyfiyyətli qidalanmalı, aqrar sahənin böyük imkanlarından səmərəli istifadə etməlidir. Bu sahə qeyri-neft sektorunda xüsusi çəkiyə malik olmaqla, həm də çoxşaxəli və çoxfunksiyalı bir vəzifəni yerinə yetirir. Xüsusilə də aqrar sahənin sosial-iqtisadi, ekoloji, innovasiyalı, informasiya və digər xarakterli funksiyaları göstərilənlər baxımından böyük əhəmiyyət kəsb edir.

Müasir dövrdə dünya iqtisadiyyatına yeni yanaşma meylləri və zəruri keyfiyyət dəyişiklikləri ölkə iqtisadiyyatına, o cümlədən onun əsas sahələrindən biri olan aqrar sahəyə də təsirsiz ötüşməmişdir. Bu sahənin müqayisəli üstünlüklər əsasında inkişaf etdirilməsi və rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsi – onun modernləşdirilməsi məsələsini gündəmə gətirmişdir.

Aqrar sahənin dayanıqlı inkişaf strategiyasını məcmu olaraq, sürətlə artan əhalinin kənd təsərrüfatı və ərzaq məhsullarına olan tələbatının daim yüksəlməsi şəraitində mövcud ehtiyacların daha səmərəli təmin olunmasına əsaslanan və mümkün potensialdan daha geniş, düşünülmüş şəkildə istifadəyə yönəldilmiş tədbirlər məcmusu kimi qəbul edə bilərik [3, s. 218]. Onun əsas xüsusiyyəti bu prosesə təsir göstərən çoxsaylı amillərin qarşılıqlı, sıx əlaqədə fəaliyyət göstərməsidir. Hazırda yaşadığımız bazar iqtisadiyyatı sisteminin tələblərinə uyğun olaraq, aqrar sahənin dayanıqlı inkişafına yanaşma istiqamətləri fərqli ola bilər.

Aqrar sahədə iqtisadi şaxələndirmə, yaxud diversifikasiya zəruri modernləşdirmə tədbirləri ilə birgə, onun daha da sürətlənməsinə rəvac verməlidir. Mütərəqqi yeniliklərin iqtisadi proseslərə tətbiqini nəzərə alan modernləşdirmənin əsas xüsusiyyətlərindən biri də institusional islahatların həyata keçirilməsidir. Bu proses, həm də aqrar sahənin inkişafına yönəldilmiş müxtəlif xarakterli tədbirlərin kompleks şəkildə və eyni müddətdə aparılmasını tələb edir. Lakin qeyd etməliyik ki, bu çoxistiqamətlilik müxtəlif istiqamətlərdə aparılan tədbirlərin üstünlüyünü təmin etməlidir.

Biz, tarixən formalaşmış əlverişli şərait, əkinçilik mədəniyyəti və digər imkanlara istinad edə bilərik. Əksər hallarda torpaqlardan öz təyinatı üzrə istifadə olunmaması, münbitliyin azalmasına, məhsuldarlıq səviyyəsinin aşağı düşməsinə və digər analoji hallara gətirib çıxarır [2, s.97]. Hesab edirəm ki, bütün hallarda həlli özümüzdən asılı olan bir çox məsələlərin-aqrar sahənin mövcud və potensial imkanlarının düzgün dəyərləndirilməsi (ölçülməsi), onun iqtisadi idarəetmə obyekti kimi qiymətləndirilməsi, investisiya problemlərinin yetərli həlli, milli seleksiyanın üstünlüklərindən istifadə olunması, kənd əhalisinin məşğulluq səviyyəsinin optimal həll olunması, antiinhisarçılığa əməl etməklə aqrar sahibkarlığın, xüsusən də KOS sektorunun davamlı şəkildə inkişaf etdirilməsi və digər tədbirlər nəticəsində daxili bazarı səmərəli qorumaq mümkündür. Sevindirici haldır ki, bu gün göstərilən problemlərin əksəriyyətinin kompleks həlli - milli iqtisadiyyatın əsas sektorlarından biri olan aqrar sahə üzrə yol xəritəsinin hazırlanmasında əks olunmuşdur.

Aqrar sahənin rəqabətqabiliyyətliliyi dedikdə, həmin sahədə daha səmərəli bazar münasibətlərinin formalaşmasının mühüm şərti, onun dayanıqlı inkişafının əsas hərəkətverici elementi başa düşülür. Aqrar sahədə məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi kənd təsərrüfatında iqtisadi

təhlükəsizliyin təmin edilməsi və ölkənin ərzaq təhlükəsizliyinin qorunub saxlanılmasının vacib ünsürü, mühüm tərkib hissəsi olmaqla, həm də ölkənin milli rəqabət qabiliyyətinin yüksəldilməsində önəmli yer tutur [1, s.367]. Beləliklə, bu prosesi, aqrar bazar münasibətlərini təşkil edən iqtisadi mexanizmin əsas ünsürü hesab etmək olar. Onun səmərəli təmin edilməsinin başlıca amillərindən biri isə sağlam rəqabət prosesinin formalaşması və inkişafına lazımi mühitin və sağlam şəraitin təşkil edilməsidir. Qeyd etdiklərimə uyğun olaraq, aqrar sahənin məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi göstərilən sahədə, ilk növbədə texnoloji geriliyin aradan qaldırılmasını və düzgün kooperasiya meyllərinə əsaslanan təsərrüfatçılığın inkişafını tələb edir. Bütövlükdə isə aqrar sahə məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsi daxili və xarici bazarlarda tələbatın səmərəli şəkildə qarşılanması və məhsulun keyfiyyətinin daha da yüksəldilməsinə istiqamətlənmiş tədbirlərin gücləndirilməsi ilə bağlıdır. Göründüyü kimi, aqrar sahədə təsərrüfat subyektlərinin rəqabət qabiliyyətinin yüksəldilməsi prosesi həmin sahənin həm dayanıqlı, həm də daha səmərəli inkişafının əsas şərti kimi çıxış edir. Söz yox ki, bu zaman müqayisəli üstünlüklərin qorunub saxlanılması da mühüm əhəmiyyətə malikdir.

Aqrar sahənin mövcud potensialından səmərəli istifadə olunması, həmçinin onun dayanıqlı artımı və səmərəli inkişafının təmin edilməsi məqsədilə, perspektiv fəaliyyət istiqamətlərini nəzərdə tutan strateji proqnozlaşdırmaya və məqsədyönlü, düzgün planlaşdırmaya ciddi fikir verilməsi, bu sahədə inkişaf üçün rəqabət üstünlüyü olan əsas məhsul növləri və bölmələrin müəyyən olunması, zəruri hüquqi əsasların formalaşdırılması və inkişaf etdirilməsi, həmin prosesdə daha çox rəqabət üstünlüyünə malik və rəqabət qabiliyyətliliyi olan istiqamətlərin seçilməsi, bu zaman rəqabətli təklif metodlarına üstünlük verilməsi, aqrar sahənin mövcud resurs potensialını düzgün istifadə imkanlarının müəyyən edilməsi, aqrar menecment işinin səmərəli təşkil olunması, kooperasiyaya əsaslanan iri aqrar təsərrüfatların təşkili və inkişaf etdirilməsi, mövcud fəaliyyətin sağlam inkişafına təkan verən güclü kadr potensialının formalaşdırılaraq ondan istifadə olunması, səmərəli aqrobiznes-marketinq strategiyasının işlənib hazırlanması və mövcud marketinq xidmətlərinin modernləşdirilməsi kimi tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab etmək olar [4, s.113].

Birinci növbədə aqrar sahənin dayanıqlı inkişafı problemlərini nəzərə alaraq, bu sahədə mövcud çağırışlar və onların həlli istiqamətləri ilə bağlı "Aqrar islahatlar və ərzaq təhlükəsizliyi problemləri" sahəsində geniş tədqiqatlar aparılır. Bununla yanaşı, müasir dönəmdə aqrar sahənin qarşısında duran çoxsaylı problemlər və onların səmərəli həlli yolları ilə əlaqədar informasiyalar verilir. Ən başlıcası isə yuxarıda göstərilən problemlərin əksəriyyətinin həlli yollarına işıq salan və aqrar sahənin modernləşməsi dönəmində onun rəqabət qabiliyyətliliyinin təmin olunmasının təkmilləşdirilməsi işləri gedir [5, s.189].

Aparılan tədqiqatlar göstərmişdir ki, perspektiv baxımından, innovasiyaların tətbiq edilməsi aqrar sahənin iqtisadi imkanlarını əhəmiyyətli dərəcədə genişləndirir, onların sosial, iqtisadi və ekoloji effektivliyinin artırılmasına, istehsal edilən məhsul vahidi üçün sərf olunan pul vəsaitləri, maddi xərclərin, həmçinin kənd təsərrüfatı məhsullarının resurs tutumunun azaldılmasına şərait yaradır. İnnovasiyaların geniş tətbiqi kənd təsərrüfatı məhsullarının rəqabətə davamlılıq qabiliyyətini artırmış olur.

Bazar iqtisadiyyatının inkişafında innovasiya mərhələsinin əsas hədəfi milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin yüksəldilməsinə, dünya təsərrüfat sisteminə səmərəli inteqrasiyasına nail olmaq və uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığını təmin etməkdən ibarətdir. Bunlara iqtisadi potensialın gücləndirilməsi və bu potensialın kompleks şəkildə səmərəli reallaşdırılması, o cümlədən qeyri-neft sektorunun inkişaf etdirilməsi (neftdən asılı olmayan güclü Azərbaycan iqtisadiyyatının formalaşdırılması), hər bir regionun malik olduğu potensialdan tam və səmərəli istifadə olunması və onların inkişafının tarazlaşdırılması, yeni iş yerlərinin açılmasına şərait yaradılması, sahibkarlığın daha da inkişaf etdirilməsi, sosial xidmətlərin həcminin, keyfiyyətinin və ünvanlılığının əhəmiyyətli dərəcədə artırılması və yoxsulluğun azaldılması kimi vəzifələri aid etmək olar. Bildiyimiz kimi, mülkiyyət formaları üzrə innovasiya bazarının strukturu, müxtəlif təşkilati hüquqi formaya malik subyektlər arasında yeniliklərin mübadiləsini əks etdirir.

İnnovasiya fəaliyyətinin həyata keçirilməsi, forma və müddətləri hər şeydən əvvəl ayrı-ayrı təsərrüfat subyektlərinin və bütövlükdə cəmiyyətin resurs imkanları ilə müəyyən olunmalıdır. İnnovasiya fəaliyyətinin gedişində təsərrüfat subyektləri tərəfindən seçilən məqsədlərin məcmusu və onların həyata keçirilməsi, fərz edilən üsullarla yeniliklərin reallaşdırılması və onların innovasiya siyasətini müəyyən edir. İnnovasiya fəaliyyətinin əsas xüsusiyyətindən və ümumi iqtisadi vəziyyətdən asılı olaraq, bazar münasibətlərinin iştirakçısı gözlənilən nəticəni təmin etməli olan maliyyə metodlarının məcmusunu müəyyən etməlidir. İnnovasiya inkişafının stimullaşdırılması zamanı mövcud olan təşkilati xarakter və tədbirlərdə daha böyük effekt idarəetmə iyerarxiyasının bütöv səviyyələrində təşkilati tədbirlərin qarşılıqlı əlaqələndirilməsi zamanı əldə olunur. Bu fəaliyyətin həyata keçirilməsinin əlverişli olması, şəraitin yaradılmasını nəzərdə tutur. Əlverişlilik dərəcəsi xalis mənfəətin ölçüsü ilə müəyyən oluna bilər. Əksər hallarda innovasiyanın kommersiya reallaşdırılmasının məqsədəuyğunluğu və onun iqtisadi effektivliyi, innovasiya məhsulunun satışı zamanı müəssisənin gəlirləri və müəssisənin öz istehsalında yeniliyin inhisar reallaşdırılmasından ala biləcəyi gəlirlərin əldə olunmamış məbləği arasında fərqi müəyyən etmək yolu ilə təyin edilir. Bu kəmiyyət bazarda konyuktur dəyişiklikləri şəraitində fasiləli xarakter daşıyır. İnnovasiya fəaliyyətinin inkişafı üçün daha yaxşı şəraitin yaradılması dövlət idarəetmə orqanlarının vəzifəsi sayılır. Dövlətin innovasiya siyasəti cəmiyyətin sosial-iqtisadi strategiyası ilə müəyyən edilən məqsədyönlülükdən əlavə, həm də dünya bazarında milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyi səviyyəsinin yüksəldilməsi vəzifələri ilə innovasiya prosesinə cəlb edilən bütün iştirakçıların maraqlarının uzlaşmasını təmin etməlidir. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, qlobal rəqabət şəraitində iqtisadiyyatın dayanıqlı artımı istehsala yeni texnologiyaların tətbiq səviyyəsi ilə müəyyənləşir.

Xaricdə innovasiya fəaliyyətinin stimullaşdırılmasının dolayı metodlarının təhlili göstərmişdir ki, innovasiya inkişafının əsasında elmi-tədqiqat və təcrübi konstruktor işləri üzrə stimullaşdırıcı vergi sisteminin formalaşması dayanır. Azərbaycan iqtisadiyyatının qarşıya qoyduğu tələblərə daha düzgün cavab verən metodlar aşağıdakılar sayılır:

Vergi stimullaşdırılması elmi-tədqiqat və təcrübi konstruktor işlərinə xərclər ölçüsündə mənfəət vergisindən güzəştlər, aşağı dərəcələrlə mənfəətin tutulması, amortizasiya siyasəti vasitəsilə stimullaşdırma.

Hazırda Azərbaycanda iqtisadiyyatın innovasiyalar əsasında yenilənməsinin nəzərdə tutulması bu sahədə mövcud olan məşğulluğun səviyyəsinin, vəziyyətinin öyrənilməsinin ciddiliyini aktuallaşdırır. Respublikanın iqtisadi inkişafının əsas istiqamətini müəyyən edən “Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyası və “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı” iqtisadiyyatın inkişafında innovasiya amilinin nəzərə alınmasını tələb edir. İnnovasiyaların maliyyələşdirmə mexanizmində olan müxtəliflik yeni yaradılan iş yerlərinin maliyyələşdirilməsinə də öz təsirini edir. Məhz elmi-texniki tərəqqinin şərtləndirdiyi inkişaf prosesi sənaye cəmiyyəti, postsənaye cəmiyyəti kimi yeni formasiyalar adı ilə ifadə olunmağa başlamışdır. İnnovasiyaların tətbiqinin mahiyyətini açıqlamaqla onun makrosəviyyədə məşğulluğun strukturunda yaratdığı dəyişiklikləri də nəzərə almalıyıq [6, s.132].

Xarici təcrübədə milli maraqlara çatmaq məqsədilə innovasiya fəaliyyətinə kömək və onun dövlət stimullaşdırılması tədbirlərinin müxtəlifliyinə tez-tez rast gəlinir. Xarici ölkələrin təcrübəsində əsas nəticə ondan ibarətdir ki, iqtisadiyyatın yüksək aktivliyi elmi-texniki bazarda, milli prioritetlərin müəyyən edilməsində dövlətin aparıcı rolu ilə və stimullaşdırma mexanizmləri sistemi vasitəsilə dövlətin innovasiya inkişafı prosesinə fəal təsiri ilə təmin olunur. Belə ki, əgər yeni texnoloji səviyyədə bütün istehsal sahələrinin texniki cəhətdən yenilənməsi və innovasiya tətbiqinin fəallaşdırılması məqsəd sayılırsa, onda iqtisadiyyatın bütün sferalarına bərabər surətdə yayılan ümumi qərarlar kifayətdir. İnnovasiyaları araşdıran rusiya iqtisadçısı L.V.Sankova əsas müəyyənedicilər olaraq əhalinin yüksək intellektual potensialını, innovasiya iqtisadiyyatının formalaşmasını, informasiyalaşma və qloballaşmanı qeyd etmişdir [7]. Nəzərə alınmalıdır ki, bu halda əlavə güclü inkişafı da daha çox investisiya cəlbediciliyinə malik sahələr alacaqdır. Odur ki, innovasiya fəaliyyətinin stimullaşdırılması sistemi iqtisadiyyat sahəsində dövlətin qarşıya qoyduğu iki məsələnin həllinə kömək etməlidir: innovasiya

tətbiqinin ümumi aktivləşdirilməsi və dünya bazarına çıxış perspektivləri nəzərə alınmaqla iqtisadiyyatın yüksək texnoloji sektorlarının rəqabət qabiliyyətinin yüksəldilməsi. Göstərilənləri nəzərə alaraq belə nəticəyə gəlmək olar ki, bazar şəraitində təsərrüfat subyektləri innovasiya fəaliyyətinin effektivliyini yüksəltmək məqsədilə innovasiya fəaliyyətini müəssisənin strateji inkişaf məqsədləri ilə inteqrasiya etməlidir. Strateji innovasiya fəaliyyətinin meydana çıxmasına, təsərrüfat subyektlərinin idarəetmə sisteminin xarici mühit şəraitinin mürəkkəbləşməsinə doğru təkamül kimi baxmaq lazımdır. Yeni texnologiyaların inkişaf etdirilməsi strateji qərarların qəbul edilməsi prosesində aktual istiqamət sayılır. Beləliklə, təhlil etdiyimiz mövzudan belə nəticə çıxarmaq olar ki, hazırda innovasiyalar müəssisənin perspektiv inkişaf istiqamətlərini müəyyən edir və beləliklə də, müəssisənin innovasiya və strateji fəaliyyəti bazarın inkişafı ilə tam inteqrasiya olunur. İqtisadi artım və inkişaf amili kimi yeni texnologiyaların rolunun gücləndirilməsi şəraitində innovasiya fəaliyyətinin stimullaşdırılması vəzifə deyil, ümumi strateji məqsəd olmalıdır. Elmi-tədqiqat və təcrübi konstruktor işlərinin dövlət maliyyələşdirilməsi daha çox müvafiq nəticələrin alınmasına deyil, elmi-tədqiqat təşkilatlarının mövcud infrastrukturuna kömək göstərilməsinə yönəldilməlidir. Bütövlükdə isə mikro səviyyədə ölkə və regional innovasiya strategiyalarının reallaşdırılmasını təmin edən müəssisə səviyyəsində innovasiya fəaliyyətinin inkişafını fəallaşdıran innovasiya mexanizmləri tətbiq edilməlidir. Texnoloji zonalar bazar iqtisadiyyatı şəraitində innovasiyayönümlü elmi laboratoriyaların və kiçik müəssisələrin formalaşması və inkişaf etməsi üçün zəruridir. Kiçik innovasiya firmalarının uğurlu fəaliyyətinin birinci dərəcəli şərti hərtərəfli təhlil və planlaşdırma ilə rəhbər kadrların hazırlanmasıdır. Kiçik innovasiya sahibkarlığına münasibətdə dövlət siyasəti innovasiya tsiklinin bütün mərhələlərində innovasiyaların uğurla irəliləməsini təmin etməyə qadir olan infrastrukturun yaradılması əsasında qurulmalıdır. Fundamental və tətbiqi elmi tədqiqatlar sahəsində mövcud olan problemləri, eləcə də bu problemlərin həlli müddətlərinin əhəmiyyətliliyi nəzərə alınmalı və lazımi maliyyə resursları universitet mərkəzlərinə, kiçik innovasiya firmalarına verilməlidir. İnnovasiyaların idarə olunmasının beynəlxalq təcrübəsinin öyrənilməsi əsasında kiçik və orta sahibkarlıq subyektlərinin maliyyə risklərinin azaldılması təmin olunmalıdır.

## ƏDƏBİYYAT


1. А.А.Голубев. Экономика и управление инновационной деятельностью, учебное пособие. Санкт Петербург: 2012
2. V.Qasımlı. (2014). İqtisadi modernizasiya. Bakı: Strateji Araşdırmalar Mərkəzi
3. G.Ə.Əhmədov. Kənd təsərrüfatında innovasiyaların tətbiqi istiqamətləri. Bakı: Elm, 2010
4. Salahov S.V. Aqrar sahədə dövlət tənzimlənməsinin problemləri. Bakı: 2004
5. İ.Alıyev, İ.Soltanlı. Aqrar sahənin modernləşməsi və rəqabət qabiliyyətliliyinin təmin olunması problemləri. Bakı: 2017
6. İqtisadi nəzəriyə (2010), Mikroiqtisadiyyat-1,2. Dərslik. Q.P.Juravlyovanın ümumi redaktəsilə. 4-cü nəşr. Bakı: Çaşıoğlu, səh. 924
7. http://www.rusnauka.com/12_EN_2008/Economics/31171.doc.html (12.07.2016.) Sankova L.V. İnnovasiya tipli məşğulluğun inkişafı: problemlər və perspektivlər

**РЕЗЮМЕ**

**Тарана Мамедова**

**КОНКУРЕНТНЫЕ И ИННОВАЦИОННЫЕ ТЕНДЕНЦИИ УСТОЙЧИВОГО РАЗВИТИЯ В АГРАРНОЙ ОТРАСЛИ**

Главная цель Азербайджана которая находится на этапе современного и динамичного развития - формирование и расширение диверсифицированной, эффективной и инновационной экономики, обеспечивающей благосостояние населения по международным стандартам. Повышение международной конкурентоспособности страны требует внедрения эффективных, систематических мер во всех сферах социально-экономической жизни. В целях повышения конкурентоспособности важно сначала оценить факторы конкурентоспособности страны, в том числе анализ динамики основных параметров конкурентоспособности и стратегии национального экономического развития.

**SUMMARY**

**Tarana Mammadova**

**THE COMPETITIVE AND INNOVATIONS ORIENTED SUSTAINABLE DEVELOPMENT TRENDS OF THE AGRARIAN SECTOR**

The main goal of Azerbaijan, which is at the stage of modern and dynamic development, is the formation and expansion of a diversified, efficient and innovations oriented economy, which will bring the welfare of the population to the international standards. Increase of the country's international competitiveness requires the implementation of effective, systematic measures in all spheres of social-economic life. In order to increase the competitiveness, it is important to assess the country's competitiveness factors, including the analysis of the dynamics of the main competitiveness parameters and the national economic development strategy first.

**EMİL SEYİDOV**
*Odlar Yurdu Universiteti*

# QISAMÜDDƏTLİ KREDİTLƏŞMƏ MÜƏSSİSƏNİN PUL DÖVRİYYƏSİNİN ELEMENTİ KİMİ

***Açar sözlər:*** *kreditləşmə, qısamüddətli kreditləşmə, pul dövriyyəsi, kredit resursları, kreditləşmə qaydası*

***Ключевые слова:*** *кредитование, краткосрочное кредитование, денежный оборот, кредитные ресурсы, порядок кредитования.*

***Key words:*** *lending, short-term lending, money turnover, credit resources, lending rules*

Klassik iqtisadi ədəbiyyatlarda rast gəlindiyi kimi kredit əməliyyatları əlavə gəlir yaradan, xüsusi əhəmiyyətli əməliyyatlardır. Bu proses nəticəsində yaranan dəyər eyni vaxtda paralel olaraq həm əmtəənin, həm də pulun miqdarını əks etdirir. Kredit resursları əmtəə bazarına daxil olaraq öz fəaliyyəti boyunca, hərəkət etdiyi hər sferada yeni dəyər yaradır. Həmin dəyər həm əmtəə kütləsi kimi, həm də pul ifadəsi ilə əks oluna bilir.

Əgər kredit müəssisələrin, təşkilatların əsas fondlarının artırılmasına və ya əmtəə, mal-material qiymətlilərinin yaradılması üçün istifadə olunursa, hər iki halda kredit müəssisənin pul dövriyyəsinin mühüm elementi kimi çıxış edir. Bu kredit resurslarının xarakterindən, mahiyyətindən irəli gəlir. İqtisadi struktur vəsait çatışmazlığı ilə rastlaşan kimi kredit almaq üçün banklara müraciət edir. Kredit əməliyyatlarının bütün prosedurları yerinə yetirilərək borcalana kredit verilir. Kredit vəsaitləri bank tərəfindən borcalanın hesablaşma, cari hesabına köçürülən andan həmin vəsaitlər müəssisənin pul dövriyyəsinin tərkib hissəsinə çevrilir. Müqavilədə nəzərdə tutulan dövr ərzində kredit resursları müəssisənin pul dövriyyəsində məcmu vəsaitlərin tərkib hissəsində dövr edərək özünün funksiyalarına, müqavilədə nəzərdə tutulan məqsədlərini yerinə yetirir. Sonra faiz ödənişləri ilə birlikdə müqavilədə nəzərdə tutilan dövrdə və şərtlər daxilində geri qaytarılır. Kredit müqaviləsinin şərtlərindən asılı olaraq, borclar birdəfəlik və ya hissə-hissə ödənilməklə geri qaytarıla bilər. Hər iki halda kredit vəsaitləri ödəndikcə müəssisənin pul dövriyyəsini tərk edərək kreditora qaytarılır (3, səh. 87).

Kredit öz hərəkəti boyunca borcun təyinatından asılı olaraq, pul və kapital borcları kimi hərəkət edir. Hər iki halda müəssisənin pul vəsaitlərinin tərkib hissəsi kimi çıxış edərək dəyər yaradır. Birinci halda bank tərəfindən verilən borcların bir hissəsi yeni mal-material qiymətlilərinin yaradılması üçün iqtisadi dövriyyənin pul vəsaitləri ilə təmin olunmasını, digər hissəsi isə bu qiymətlilərin bölüşdürülməsini və istehsal fondlarının artırılmasına yönəldilməsini təmin edir. Qeyd edilən borcların birinci hissəsinin maddi bazasını artıq satış mərhələsində olan, yaradılmış məcmu ictimai məhsulun dəyəri təşkil edir. İkinci hissənin maddi bazasını isə kredit sistemində toplanmış, müvafiq pul ekvivalenti yaradılmış ictimai məcmu məhsulun təkrar bölüşdürülən hissəsi təşkil edir (4, səh. 54).

Qısamüddətli kreditləşmə kredit sistemində həyata keçirilərək mühüm fəaliyyət formalarından biri olmaqla öz operativliyinə görə həm kreditor, həm də borcalanlar üçün əlverişlidir.

Həm qısamüddətli, həm də uzunmüddətli kreditləşmə bir çox parametrlərinə görə ümumi və oxşardırlar, ona görə də onların bəzi parametrləri birlikdə nəzərdən keçirilməlidirlər.

Kredit əməliyyatlarının mahiyyəti və xarakteri onun funksiyalarını formalaşdırır. Onun hər bir funksiyasının tələbləri kreditləşmə əməliyyatları zamanı ortaya çıxan parametrlərin icra olunmasını şərtləndirir. Klassik iqtisadi ədəbiyyatlardan məlum olduğu kimi, kreditin bütün funksiyaları özünü ictimai təkrar istehsal prosesində, fərdə aid olaraq isə hər hansı bir iqtisadi subyektin pul dövriyyəsində əks etdirir (1, səh. 193).

Kredit resursları ictimai təkrar istehsal prosesində iştirak etməklə iqtisadi inkişafın davamlığını təmin edən iki mühüm funksiyanı reallaşdırır. Bunlardan birincisi, xalq təsərrüfatı sahələrində müxtəlif iqtisadi subyektlər arasında gedən prosesləri və mövcud dövriyyələri pul vəsaitləri ilə təmin etməsindən, ikincisi isə, iqtisadiyyatda, fiziki və hüquqi şəxslərdə olan sərbəst pul vəsaitlərinin müvəqqəti olaraq toplanmasını, yerləşdirilməsini və yerdəyişməsini təmin etməkdən ibarətdir (5, səh. 222).

Dünya təcrübəsi göstərir ki, kreditləşmə sistemində istifadə edilən həm qısa, həm orta, həm də uzunmüddətli kreditlər öz parametrlərinə görə oxşardılar. Həm də fərqli cəhətləri vardır. Əsasən, fərqlər borcalanın məqsədlərinin reallaşdığı vaxt meydana çıxır.

Ölkə iqtisadiyyatında, bank sistemində reallaşdırılan kredit əməliyyatlarının bir hissəsi qısamüddətli əməliyyatlardan ibarətdir. Azərbaycan Respublikası Mərkəzi Bankının 2020-ci il 1 yanvar tarixə olan məlumatlara əsasən ölkədə mövcud olan kredit portfelinin məbləği 15116,4 milyon manat təşkil etmişdir. Bunlardan 1410,4 milyon manatı vaxtı keçmiş kreditlərdən ibarətdir. Cəmi kredit qoyuluşlarının 9799,1 milyon manatı və ya 64,8% milli valyutada, 5317 milyon manatı və ya 35,2%-i isə xarici valyutada olmuşdur. Milli valyutada cəmi kredit qoyuluşlarının 8141,4 milyon manatı və ya 83,1%-i uzunmüddətli, 1657,7 milyon manatı və ya 16,9%-i isə qısamüddətli olmuşdur. Xarici valyutada olan 5317,3 milyon manat cəmi kreditlərin 3967,3 milyon manatı və ya 74,6%-i uzunmüddətli, 1350,1 milyon manatı və ya 25,4%-i qısamüddətli olmuşdur (2).

Göründüyü kimi, 01 yanvar 2020-ci il tarixə ölkə üzrə cəmi kredit qoyuluşlarında qısamüddətli kreditlər 3007,9 milyon manat olmaqla, xüsusi çəki etibarilə 19,89% təşkil etmişdir. Qısamüddətli kreditlərin dinamikasına nəzər saldıqda görürük ki, ölkənin kredit bazarında cəmi kredit qoyuluşlarında qısamüddətli kreditlərin xüsusi çəkisi 2014-cü ildə 21,1% olmaqla 3931,4 milyon manat təşkil etmişdir (Cədvəl 1).

Göstəricilərdən aydın olur ki, təhlil edilən 2014-2019-cu illər ərzində qısamüddətli kreditlər cəmi kredit qoyuluşlarının 20%-dən çoxunu təşkil etmişdir.

**Cədvəl 1.** ***2014-2019-cu illər ərzində Azərbaycan Respublikasında kredit qoyuluşlarının bəzi göstəricilərinin dinamikası (milyon manatla)***

| Tarix | Cəmi kredit qoyuluşu | Milli valyutada | | | Xarici valyutada | | | Qısamüddətli kreditlər | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | Cəmi | Uzun-müddətli | Qısa-müddətli | Cəmi | Uzun-müddətli | Qısa-müddətli | Cəmi | Cəmdə xüsusi çəkisi |
| 31.12.2014 | 18542,6 | 13505,7 | 11011,5 | 2494,2 | 5037,0 | 3599,8 | 1437,2 | 3931,4 | 21,2 |
| 31.12.2015 | 21730,4 | 10994,5 | 9220,7 | 1773,8 | 10735,9 | 7212,4 | 3523,5 | 5297,3 | 24,37 |
| 31.12.2016 | 16444,6 | 8663,1 | 7300,8 | 1362,4 | 7781,5 | 5665,9 | 2115,6 | 3478,0 | 21,15 |
| 31.12.2017 | 13020,3 | 8073,6 | 6563,3 | 1510,2 | 4946,7 | 3761,8 | 1184,9 | 2695,1 | 20,7 |
| 31.12.2018 | 13020,3 | 8073,6 | 6563,3 | 1510,2 | 4946,7 | 3761,8 | 1184,9 | 2695,1 | 20,7 |
| 30.11.2019 | 15116,4 | 9799,1 | 8141,4 | 1657,7 | 5317,3 | 3967,3 | 1350,1 | 3007,8 | 20,00 |

**Mənbə (2):** *Cədvəl Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdı*

Bu istiqamətdə ən yüksək göstərici 2015-ci ildə qeydə alınmışdır. Belə ki, həmin il qısamüddətli kreditlər 5297,3 milyon manat olmaqla cəmi kredit qoyuluşlarının, yəni 21730 milyon manatın 24,37%-ni təşkil etmişdir. Bu göstərici əvvəlki 2014-cü ilə nisbətən 1365,9 milyon manat və ya 3,17% artmışdır. 2016-cı ilin yekunlarına əsasən qısamüddətli kreditlərin məbləği 3478,0 milyon manat təşkil edərək, əvvəlki ilə nisbətən 1819,3 milyon manat və ya 3,22% azalaraq, cəmi kredit qoyuluşlarının 21,15%-ni təşkil etmişdir.

Növbəti 2017-ci ildə cəmi kredit qoyuluşlarında qısamüddətli kreditlərin məbləği əvvəlki ilə nəzərən 782,9 milyon manat və ya 0,45% azalaraq 2695,1 milyon manat olmuş və cəmi kredit qoyuluşlarının 20,7%-ni təşkil etmişdir. 2018-ci il ərzində kredit bazarının təhlil edilən göstəricilərində heç bir dəyişiklik, artım və ya azalma olmamış və göstəricilər 2017-ci il səviyyəsində qalmışdır.

Təhlil edilən sonnuncu 2019-cu il ərzində cəmi kredit qoyuluşları əvvəlki, yəni 2018-ci ilə

nisbətən 2096,1 milyon manat artaraq 15116,4 milyon manat olmuşdur. Həmin il ərzində qısamüddətli kreditlərin məbləği 312,7 milyon manat artmış və cəmi kredit qoyuluşlarının 20%-ni təşkil etmişdir. Göründüyü kimi, təhlil edilən illər ərzində ən yüksək kredit qoyuluşu 2015-ci ildə olmuş və 21730,4 milyon manat təşkil etmişdir. Qısamüddətli kreditləşmə üzrə də ən yüksək göstərici elə həmin il olmuş və 5297,3 milyon manat təşkil etmişdir. Xüsusi çəki etibarilə qısamüddətli kreditləşmənin ən yüksək göstəricisi də 24,37% olmaqla həmin il qeydə alınmışdır.

Kredit bazarında qısamüddətli kreditləşmə ilə əlaqədar əməliyyatları təhlil edərkən nəzərə alınmalı mühüm göstəricilərdən biri kredit qoyuluşlarında milli valyutada və xarici valyutada verilən kreditlərin pay dinamikası, digəri isə qısamüddətli kreditlərin ayrılıqda həm milli valyutada, həm də xarici valyutada verilən kreditlərdəki pay dinamikasının nəzərdən keçirilməsidir. Cədvəl 1-in göstəricilərindən aydın olur ki, təhlil edilən illər ərzində cəmi kredit qoyuluşlarında xüsusi çəki etibarilə milli valyutada olan kreditlər üstünlük təşkil etmişdir. Belə ki, 2014-cü ildə cəmi kredit qoyuluşlarının 72,8%-ni milli valyutada, 27,2%-ni isə xarici valyutada olan kreditlər təşkil etmişdir. 2015-ci ildə bu göstəricilər uyğun olaraq, 50,6% və 49,4%, 2016-cı ildə 52,58% və 47,42%, 2017-2018-ci illərdə 62% və 38%, 2019-cu ildə isə 64,8% və 35,2% təşkil etmişdir. Göründüyü kimi, milli və xarici valyutada kreditlərin xüsusi çəkisi yalnız 2015-ci ildə az qala bərabər vəziyyətdə olmuşdur. Qalan illərdə isə milli valyutada kreditlər xüsusi çəki etibarilə xarici valyutadakı kreditləri üstələmişdir.

Yenə də cədvəl 1-in göstəricilərinə əsaslanaraq deyə bilərik ki, qısamüddətli kreditlər təhlil edilən illər ərzində xüsusi çəki etibarilə milli valyutada və xarici valyutada verilən kreditlərdə uyğun olaraq, aşağıdakı pay çəkisinə malik olmuşdur: 2014-cü ildə milli valyutada 18,45%, xarici valyutada 28,53%, 2015-ci ildə 16,3% və 32,8%, 2016-cı ildə 15,7% və 27,2%, 2017-2018-ci illərdə 18,7% və 23,9%, 2019-cu ildə isə 16,9% və 25,4%. Göründüyü kimi, təhlil edilən illər ərzində qısamüddətli kreditlərin xüsusi çəkisi xarici valyutada verilən kreditlərdə milli valyutada verilən kreditlərdən yüksək olmuşdur. Belə ki, həmin illərdə təhlil edilən göstərici xarici valyutada verilən kreditlərdə 23,9% və 32,8% arasında dəyişdiyi halda, milli valyutada verilən kreditlərdə 15,7% və 18,7% arasında dəyişmişdir. Belə bir fərqin olması maliyyə bazarında son illər ərzində baş vermiş olan valyutanın valotilliyi və devalvasiyadan qaynaqlanmışdır.

Kredit bazarında baş verən proseslər onu göstərir ki, banklar daha çox uzunmüddətli kreditlərə üstünlük verir və daha çox etibarlı müştərilərlə işləyərək etibarlı qaydada yeni dəyər yaradılmasında maraqlıdırlar. Belə bir nəticə həm bankların apardığı kredit siyasətinin, həm də dövlətin makrosəviyyədə apardığı pul-kredit siyasətinin tələb və məqsədlərinə uyğundur.

Qısamüddətli kreditləşmə operativlik xarakterinə görə fərqlənir. Elə bu baxımdan da ölkənin iqtisadi strukturlarının qısamüddətli kreditləşmə ilə daha geniş təmin edilməsi və xüsusən də məhsuldar kredit şəklində istifadə olunması daha da məqsədəuyğun olar. Bunu reallaşdırmaq üçün Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsində qeyd olunduğu kimi, banklararası kredit bazarının fəaliyyətinin genişləndirilməsi, bu bazarda aktivliyin artırılması, depozit bazarından asılılığın zəiflədilməsi, investisiyayönümlü kreditləşmələrə üstünlük verilməsi vacib şərtlərdəndir (6, s. 33).

Kredit bazarında həm makro, həm də mikro səviyyədə zəruri məqsədlərə çatmaq üçün bu bazarda təkmilləşmələrə, dəqiqləşmələrə ehtiyac vardır. Bunun üçün ən sərfəli variantlardan biri də qabaqcıl beynəlxalq təcrübənin tətbiqi ola bilər.

## ƏDƏBİYYAT


1. Bağırov M.M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik). Bakı, Nurlan, 2003, 512 s.
2. Azərbaycan Respublikası Mərkəzi Bankının illik hesabatları. 2020
3. Панова Г.С. Кредитная политика коммерческого банка. №1. Финансы и статистика. 2014, 464 стр.
4. Черноуцан Е.Ф. "Франция: Государство поддерживает малое и средное предпринимательство //Проблемы теории и практика управления// 2015, №1, 56-60 стр.
5. Кредитная политика и механизм ее реализации в период рыночных отнощений. Белоглазова

Г.Н., Кроливецкая А.П. и др. СПб (повт.изд). Издово. СПбГУЭФ, 2015, 307 стр.
6. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir).

## РЕЗЮМЕ

**Эмиль Сейидов**

## КРАТКОСРОЧНОЕ КРЕДИТОВАНИЕ КАК ЭЛЕМЕНТ ДЕНЕЖНОГО ОБОРОТА ПРЕДПРИЯТИЯ

В статье дается краткое объяснение и характеристика кредитных операций. Отмечена потребность в кредите и ее экономическая основа. Кредитные ресурсы оценены как важный элемент денежного оборота предприятия. Были проанализированы экономические функции кредитов, используемых для увеличения, как оборотного капитала, так и основных средств.

Проанализирована динамика совокупного кредитного портфеля, показатели краткосрочного и долгосрочного кредитования в экономике нашей страны в период от 2014 до 2019 гг. Рассмотрена динамика доли краткосрочных кредитов в общем портфеле. Объяснены причины динамики. Изучена динамика краткосрочных кредитов, как в национальной, так и в иностранной валюте. Внесены предложения по улучшению кредитного рынка.

## SUMMARY

**Emil Seidov**

## AS AN ELEMENT OF MONEY TURNOVER OF THE ENTERPRİSE

In the article, a brief explanation and characteristics of lending operations have been indicated. The need for credit and its economic basis have been stated. Credit resources have been assessed as an important element of money turnover of the enterprise. The economic functions of loans used to increase both working capital and fixed assets have been analyzed.

During 2014-2019 years, the dynamics of the total loan portfolio, short-term and long-term lending indicators in the economy of our country been examined. The dynamics of the share of short-term loans in the total portfolio have been analyzed. The reasons for the dynamics have been explained. The dynamics of short-term loans in both national and foreign currency loans have been researched. Suggestions have been made to improve the credit market.

**İSMAYIL MƏMMƏDOV**
*Azərbaycan Kooperasiya Universiteti*

# BEYNƏLXALQ KAPİTALIN CƏLB EDİLMƏSİNƏ DAİR NƏZƏRİ YANAŞMALAR

***Açar sözlər:*** *kapital axınları, beynəlxalq kapital, kapital ixracı, kapital idxalı, beynəlxalq maliyyə*
***Ключевые слова:*** *капитальные потоки, международный капитал, экспорт капитала, импорт капитала, международные финансы*
***Key words:*** *capital flows, international capital, export of capital, import of capital, international finance*

İstənilən ölkənin iqtisadi inkişafının ən mühüm parametrlərini təhlil edərkən görürük ki, onların inkişafı beynəlxalq iqtisadi münasibətlərin, əlaqələrin təsiri altında daha sürətlə gedir. Yaşadığımız son əsrin ilk iyirmi ili göstərir ki, ölkələrarası iqtisadi əlaqələr daha da genişlənmiş, qloballaşma özünün heç vaxt olmadığı bir səviyyəyə çatmışdır. Müasir dövrdə iqtisadi münasibətlərin ən mühüm, ümdə cəhətlərindən biri ölkə iqtisadiyyatına beynəlxalq kapitalın cəlb olunması vasitəsilə qarşıda duran problemlərin həll olunmasıdır.

Beynəlxalq kapitalın hərəkəti beynəlxalq maliyyə və iqtisadi münasibətlərin tərkib hissəsi olmaqla özünəməxsus xüsusiyyətlərə malikdir. Beynəlxalq kapitalın hərəkəti dedikdə bir ölkənin milli kapital dövriyyəsindən onun bir hissəsinin müəyyən bir müddət ərzində bu və ya digər formada digər bir ölkənin iqtisadiyyatına istehsal və ya investisiya qoyuluşunun artırılması məqsədi ilə yatırılması deməkdir. Bu proses eyni zamanda iqtisadi ədəbiyyatlarda kapitalın ixracı kimi də ifadə edilir. Kapitalın ixracı, onun cəlb olunması məsələləri həmişə iqtisadçıların, tədqiqatçıların, alimlərin, eləcə də dövlət rəhbərlərinin diqqət mərkəzində olmuşdur. Bu məsələlərə diqqətin artması və həmişə ölkə iqtisadiyyatında həlledici amillərdən biri olması beynəlxalq kapitalın funksiya və vəzifələrindən irəli gəlir.

Beynəlxalq kapitalın hərəkəti ilə bağlı məsələlər iqtisadi ədəbiyyatlarda ilk dəfə XVIII əsrin sonlarında XIX əsrin birinci yarısında ingilis klassik iqtisadçıları tərəfindən işıqlandırılmışdır. İlk dəfə klassik iqtisadi nəzəriyyənin baniləri olan Adam Smit və David Rikardo ölkələr arasında kapitalın beynəlxalq axınları məsələlərinə dair fikir söyləmişlər (1, səh. 216).

Adam Smit iddia edirdi ki, ölkədən kapital ixracına məhdudiyyətlər qoyduqda valyutanın məzənnəsi aşağı düşür, qiymətlər artır, pulun miqdarı ölkədə həqiqi tələbat həddini ötür. Bu halda ölkədən kapital axınlarının baş verməsinə heç bir iqtisadi şərait mane ola bilmir. Ölkədən kapital axınları baş verdikdə bu o şərt daxilində baş verir ki, həmin axınlar, həmin kapital kütləsi ixrac olunduğu ölkədə öz ölkəsində olduğundan daha çox səmərə vermiş olsun. Əgər kapital sahibləri öz vəsaitləri üçün daha səmərəli, daha çox gəlir gətirə bilən poliqon tapırlarsa, deməli kapitalın xaricə axını zəruridir.

A.Smit eyni zamanda qeyd edirdi ki, xarici borclar yalnız qızıl və gümüşlə deyil, eyni zamanda kreditor ölkələrə əmtəənin çatdırılması vasitəsilə də ödənə bilər. Bu halda ölkədə pul kütləsi ilə onun qiyməti arasında məntiqi əlaqə yaranmış olur (1, s. 46).

David Rikardo isə ilk dəfə olaraq sahibkar kapitalının və əməyin yerdəyişməsinin mütləq üstünlüklərə malik olması məsələsini, eyni zamanda da ixrac edilən kapitalın ixrac olunduğu ölkədə uyğun olaraq, az istehsal xərcləri və yüksək mənfəət norması ilə istifadə olunma məsələlərini əsərlərində qeyd etmişdir.

D.Rikardo tərəfindən işlənmiş olan müqayisəli üstünlük nəzəriyyəsinin mahiyyəti ondan ibarətdir ki, ölkədə hər hansı bir əmtəənin istehsalını mütləq üstünlüklə deyil, nisbi üstünlüyə malik olmaqla da beynəlxalq ticarətdə də təşkil edib əldə etmək olar. Burada əsasən kapitalın istifadə olunduğu yerdə istehsal prosesində istehsal xərclərinin az olması şərt kimi qarşıya qoyulmalıdır.

Klassik iqtisadi məktəbin nümayəndələrindən olan tanınmış ingilis alimi Ceyms Mill XX əsrin əvvəllərində ölkələr arasında kapitalın hərəkətinin müxtəlif aspektlərini öyrənməyə başlamışdır. O, öz əsərlərində kapital axınlarına dair iki məsələni araşdırmışdır. Bunlardan birincisi, kapitalın idxal

və ya ixracının xarici ticarətə təsiri məsələsi, ikincisi isə, kapitalın hərəkəti ilə onun mənfəətlilik norması arasındakı əlaqə məsələsidir. İlk dəfə olaraq Ceyms Mill sübut edirdi ki, ölkələr arasında kapital axınlarının ilk stimulverici səbəbi gəlir normalarının fərqli olmasıdır. Kapital sahibi öz kapitalı üçün daha çox gəlir gətirən sahə və ölkə tapan kimi vəsaitlərini ixrac etməkdən çəkinmir. Əgər ölkədə kapital artıqlığı yaranırsa və onun ixracına şərait və imkan yoxdursa, bu halda onlardan istifadədə gəlirlilik səviyyəsi aşağı düşür (2, s. 526).

Eyni zamanda Ceyms Mill beynəlxalq kapital axınlarının həm idxal, həm də ixrac prosesində xarici ticarətə birbaşa təsirini də əsaslandırmışdır. Onun fikrincə, həm idxal edilən, həm də ixrac edilən kapital öz istifadə yerində ya yeni əmtəə istehsalını, ya da ki, xidmətləri şərtləndirərək yeni dəyər yaradır və birbaşa xarici ticarət həcminə təsir göstərir.

Ceyms Mill həm də belə bir fikri müdafiə edirdi ki, beynəlxalq kapital axınları, xüsusən də kapital ixracı daimi olaraq ticarətin və ölkələrin formalaşmış olan regional istehsal ixtisaslaşmasının genişlənməsinə səmərəli şərait yaradır. Nəticədə bu əmtəələri daha çox ucuz almağa şərait yaradır, gələcəkdə daha böyük məbləğdə kapital ixracını stimullaşdırır (3, s. 166). O belə düşünürdü ki, kapital ixracı üçün mütəmadi olaraq mütləq motiv zəruridir. Belə motiv kimi ixracatçı ölkədə mənfəət normasının azalması meyli çıxış edə bilər. Bu halda demək olar ki, kapital ixracı xarici ticarətin genişlənməsini həmişə stimullaşdırır, ölkədə gəlir normasının enməsi meylinə qarşı olan iqtisadi faktor kimi çıxış edir.

Kapitalın beynəlxalq hərəkətinə, onun mahiyyətinə, iqtisadiyyatdakı roluna, beynəlxalq münasibətlərin tənzimlənməsinə dair məsələlər XX əsrin əvvəllərində iqtisadçıların diqqət mərkəzində olmaqla, dövlətlərarası güclənən beynəlxalq münasibətlərin xarakterindən irəli gələn bir çox vacib parametrlər bu məsələyə dair yeni nəzəriyyənin yaranmasına səbəb oldu. Ötən əsrin 30-40-cı illərində İsveçin məşhur iqtisadçıları olan E.Xekşer və V.Olin, həmçinin danimarkalı iqtisadçı olan K.İversen, avstriyalı R.Nurse "kapitalın hərəkətinin neoklassik nəzəriyyəsi"ni hazırladılar.

Bu nəzəriyyənin müddəalarına əsasən kapitalın beynəlxalq hərəkəti istehsal amillərinin rasional bölgüsünü və uyğun qiymətlər səviyyəsini təmin edən mühüm amil kimi qiymətləndirilir. Bu nəzəriyyə vasitəsilə E.Xekşer istehsal amillərinə qiymətlərin beynəlxalq tarazlığı meylləri haqqında tezisi formalaşdırmışdır. Bu tezisi "son faydalılıq" nəzəriyyəsinə əsaslanaraq həm beynəlxalq ticarətə, həm də istehsal amillərinin beynəlxalq hərəkətinə aid etmək olar (4, s. 182).

V.Olin istehsal amillərinin və kapitalın beynəlxalq hərəkətinin mühüm parametrlərini nəzərə alaraq qeyd edirdi ki, onun mühüm səbəblərindən biri müxtəlif ölkələrdə onlara olan tələbatın müxtəlif səviyyədə olmasından və onlardan istifadə nəticəsində əldə edilən gəlir səviyyəsindən asılı olmasından ibarətdir. Onun fikrincə, kapital məhsuldarlığı, gəlirliyi aşağı olan ölkələrdən yüksək olan ölkələrə hərəkət edirlər. Bu mühüm amillərdən olsa da, kapitalın beynəlxalq hərəkətinə təsir edən digər amillər də nəzərə alınmalıdır. Onlara kapitalın ixrac olunduğu ölkədəki siyasi vəziyyət, nəqliyyat logistika şərtləri, həmin ölkədə xarici kapitala dair yanaşma şərtləri, xarici investisiyaların qorunma şərtləri və s. aid olunmalıdır (3, s. 343).

Yuxarıda qeyd edilən nəzəriyyənin müəlliflərindən biri olan R.Nurse qeyd edirdi ki, beynəlxalq kapitalın hərəkətinin əsas konsepsiyasının mühüm prinsiplərindən biri ondan ibarətdir ki, məhsul ixracı artan ölkələrdə kapitala tələbat yüksək templə artmağa başlayır və bu öz növbəsində onun idxalını şərtləndirir (4, s. 265).

Beynəlxalq kapitalın hərəkəti ilə bağlı olaraq danimarka iqtisadçısı K.İversen kapitalın hərəkətinin neoklassik nəzəriyyəsini bir sıra yeni təklifləri ilə zənginləşdirmişdir. O, ilk dəfə olaraq beynəlxalq kapitalı iki hissəyə ayırmışdır. Onun fikrincə, birinci hissə real, ikinci hissə isə ödəniş balansını tənzimləyən hissələrdən ibarətdir. Kapitalın hər iki hissəsi müxtəlif səviyyəli beynəlxalq mobilliyə malikdirlər. Bu parametrinə görə də hər bir ölkə beynəlxalq kapitalın hər iki hissəsini aktiv formada həm idxal, həm də ixrac edə bilər. Qeyd olunanlar əsasında K.İversen belə bir yekun fikrə gəlmişdir ki, beynəlxalq kapital daha az səmərəliliyi olan ölkədən daha çox səmərəliliyi olan ölkəyə idxal və ya ixrac əməliyyatı nəticəsində hərəkət edir və hər iki ölkə üçün istehsal amilinin effektiv kombinasiyası kimi qəbul edilir, nəticədə ölkənin milli gəlirinin artmasını şərtləndirən amil kimi çıxış edir (3, s. 167).

Kapitalın beynəlxalq hərəkətinə dair dövlətlər tərəfindən beynəlxalq kapitalın cəlb edilməsi

nəzəriyyələrinə yanaşmada XIX əsrin sonları, XX əsrin əvvəllərində ingilis iqtisadçıları C.A.Qobson, C.M.Keyns və J.B.Saya yeni fikir və mövqelərini ortaya qoymuşlar. Həmin dövrdə Keyns beynəlxalq ticarətin alternativliyi və istehsal faktorlarının beynəlxalq hərəkəti haqqında konsepsiyaları formalaşdırmışdır. O bu fikri ilə ona əsaslanırdı ki, müəyyən şəraitdə istehsal faktorlarının hərəkəti beynəlxalq ticarəti əvəz edə bilər.

İqtisad elmində belə bir fikir formalaşmışdır ki, neoklassik istiqamət beynəlxalq ssuda kapitalının hərəkətinin təhlili üzrə nəzəri bazanı təmin edir. Eyni zamanda portfel investisiyasının bir sıra vacib aspektləri üçün istifadəyə imkan yaradır, kapital axınlarının zəruri parametrlərinin öyrənilməsi istiqamətlərini müəyyən edir.

Ötən əsrin 40-cı illərindən başlamış monetarist konsepsiya beynəlxalq kapital ixracının və idxalının əsas istiqamətlərinin formalaşmasında dominant rolu oynamağa başladı. Elə bu istiqamətdə də aparılan fəaliyyətlərin təşkili, tənzimlənməsi məqsədilə bir sıra beynəlxalq maliyyə-kredit təşkilatları, o cümlədən Beynəlxalq Valyuta Fondu, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. yaradılmışdır.

Keyns tərəfindən beynəlxalq kapitalın hərəkəti, onun ixracı və idxalı məsələləri araşdırılarkən xüsusi diqqət kapitalın hərəkəti ilə ölkənin ödəniş balansının vəziyyəti arasındakı əlaqəyə ayrılmışdır. O qeyd edirdi ki, ödəniş balansında tarazlıq pozulduqda dövlətin bu məsələyə müdaxiləsi çox vacibdir. Keyns bu məsələdə də dövlət tənzimlənməsinə üstünlük verirdi. Həqiqətən də ödəniş balansında mənfi meyllər yaranarsa, bu və ya digər variantda dövlət müdaxiləsi olmadan onu tənzimləmək olmaz (5, s. 267).

Kapitalın beynəlxalq hərəkətinə dair yanaşmalarda daha bir məşhur iqtisadçı Leon Valras yazırdı ki, xarici ticarət disbalansı kapitalın hərəkəti ilə kompensasiya olunmalıdır. Əgər xarici ticarət balansı mənfidirsə, bu halda kapitalı idxal etmək lazımdır, əgər xarici ticarət balansı müsbət saldoya malikdirsə, bu halda kapitalı ixrac etmək lazımdır. Bu cür mövqeyi müdafiə edən alimlərdən biri də ingilis mənşəli Alfred Marşall idi (4, s. 326).

Beynəlxalq kapitalın hərəkəti məsələlərinin tədqiqi sahəsində Keynsin mühüm xidmətlərindən biri də dövlət gəlirlərinin çatışmazlığı şəraitində "dövlət borclanması və inkişafı defisitinin maliyyələşdirilməsi" konsepsiyasının hazırlanması olmuşdur. Onun fikrinə görə, dövlət xərclərinin artması dövlət investisiyalarının və istehlakın artması ilə baş verir. Xərclərin artmış hissəsinin bağlanması üçün ən zəruri mənbələrdən biri xarici borc kapitalının cəlb edilməsi yolu ilə multiplikativ effektin yaradılmasıdır.

Beynəlxalq kapitalın hərəkətinə dair Keyns yanaşması dünyanın bir sıra məşhur iqtisadçılarının da yaratmış olduğu tədqiqat əsərlərində dəstəklənmişdir. Onlara aid olaraq aşağıdakıları göstərmək olar: Amerika iqtisadçısı F.Maxlupun "kapitalın muxtar stimullaşdırılmış ixracı haqqında" tədqiqatı; Amerika iqtisadçısı L.Domarın "investisiya gəlirləri axınının mal ixracının artmasına və məşğulluq səviyyəsinə təsiri haqqında" tədqiqatı; ingilis iqtisadçısı R.Xarrodun "kapitalın iqtisadi artım tempiylə qarşılıqlı əlaqəsi" haqqında tədqiqatı və s. (5, s. 167)

Beynəlxalq kapitalın cəlb edilməsinin, ixrac olunmasının çoxsaylı parametrləri hal-hazırda da çoxsaylı iqtisadçıların diqqət mərkəzindədir. Zaman ötdükcə, beynəlxalq əlaqələr təkmilləşdikcə kapital axınlarının xarakterində, mahiyyətində dəyişikliklər baş verdikcə bu sahədə yeni-yeni tədqiqatlar, alimlərin yanaşma və mövqeləri ortaya çıxır.

## ƏDƏBİYYAT

1. Маковецкий М.Ю. Инвестеционное обеспечение экономического роста: теоретические проблемы, финансовые инструменты, тенденции развития. М.: АНКИЛ. 2005, 312 с.
2. Кругман П, Обсгфельд М. Международная экономика. Теория и политика: Учебник для вузов /Пер.с англ. Под. ред. В.П.Колосова, М.В.Кулакова:-М.:Экономический факультет МГУ. ЮНИГИ, 2011, 799 с.
3. Международная экономические отнощения: учебник для студентов вузов, обучающихся

по экономическим специальностям. (под ред.В.Е.Рыбалкина-9-е изд. перераб.и доп. М.: ЮНИГИ - ДАНА, 2012, 642 с. (серия "Золотой фонд российских учебников)
4. Булатова А.С, Ливенцова Н.Н. Мировая экономика и международные экономические отнощения (Учебник для вузов) М.: 2008, 491с.
5. Хасбулатов Р.И. Мировая экономика: В 2-х т. Т.1.ЗАО Издательство "Экономика". М, 2009, 598 с.

**РЕЗЮМЕ**

**Исмаил Мамедов**

**ТЕОРЕТИЧЕСКИЕ ПОДХОДЫ К ПРИВЛЕЧЕНИЮ МЕЖДУНАРОДНОГО КАПИТАЛА**

В статье объясняется сущность движения международного капитала, как импорта, так и экспорта. Рассматривается влияние международного капитала на экономическое развитие и его важные специфические особенности. Анализируются подходы различных ученых по важнейшим параметрам, вытекающим из функций и задач международного капитала.

Тщательно проанализированы взгляды и мнения классических экономистов Адама Смита, Дэвида Рикардо и Джеймса Милля о потоках капитала. Изучены подходы и позиции по важным параметрам импорта и экспорта капитала, товаров и услуг в работах и исследованиях шведских экономистов Э. Хекшера и В. Оли, датского экономиста К. Иверсена, австрийца Р. Нурсена. Рассмотрены факторы, влияющие на развитие международных потоков капитала в экономике страны, и выявлены созданные ими позитивные тенденции.

**SUMMARY**

**Ismail Mammadov**

**THEORETİCAL APPROACHES TO ATTRACTİNG İNTERNATİONAL CAPİTAL**

In the article, the essence of the movement, import and export of international capital is explained. The impact of international capital on economic development and its important specific features are interpreted. The approaches of various scientists on the most important parameters arising from the functions and objectives of international capital are analyzed.

The views and opinions of classical economists, such as Adam Smith, David Ricardo, and James Mill, on capital flows have been extensively examined. The approaches to the important parameters of import and export of capital, goods and services have been researched in the scientific works and researches of the Swedish economists, such as E. Heckscher and V. Oli, the Danish economist K.Iversen and the Austrian economist R.Nursen. The factors influencing the development of international capital flows in the country's economy have been examined, and the positive tendencies created by them have been identified.

**NİCAT HÜSEYNOV**
*AMEA-nın İqtisadiyyat İnstitutu*

# HƏYAT SIĞORTASI ÖLKƏNİN SIĞORTA BAZARINDA FƏALİYYƏTİN ƏSAS İSTİQAMƏTİ KİMİ

***Açar sözlər:*** *sığorta, sığorta bazarı, həyat sığortası, sığorta haqları, sığorta ödənişləri*
***Ключевые слова:*** *страхование, страховой рынок, страхование жизни, страховые взносы, страховые выплаты*
***Key words:*** *insurance, insurance market, life insurance, insurance premiums, insurance payments*

Ölkə iqtisadiyyatının normal fəaliyyət göstərməsi həmin ölkədə sığorta sisteminin hansı səviyyədə qurulmasından, onun üzərinə düşən funksiya və vəzifələrin hansı səviyyədə reallaşdırılmasından da asılıdır. Bu baxımdan da iqtisadiyyatda baş verə biləcək böhran və kataklizmlərin, istənilən təhlükənin, risklərin və qeyri-müəyyənliklərin yarada biləcəyi itkilərdən qorunmaq üçün mükəmməl formada fəaliyyət göstərən sığorrta sisteminə ehtiyac vardır. Dünya təcrübəsi göstərir ki, mükəmməl sığorta sistemi olan ölkələrdə bu sistem iqtisadiyyatın və insan həyatının bütün sferalarına dərindən nüfuz edir, bütün sahələrdə dövlətin maliyyə yükünün azalmasına şərait yaradır, müxtəlif investisiya kanalları vasitəsilə ölkə iqtisadiyyatının dinamik inkişaf etməsi üçün zəruri parametrləri yaradır.

Azərbaycan Respublikasında sığorta sistemi ötən əsrin 90-cı illərinin əvvəllərində, ölkəmiz müstəqillik əldə etdikdən sonra, daha doğrusu, 1992-ci ildə yaranmışdır. Həmin dövrdə Nazirlər Kabineti yanında Dövlət Sığorta Nəzarəti Baş İdarəsi təşkil olunmuşdur. 1993-cü ilin yanvar ayında Azərbaycan Respublikası Milli Məclisi tərəfindən "Sığorta haqqında" qanun qəbul edilmiş, 2007-ci ildə isə "Sığorta fəaliyyəti haqqında" qanun qəbul olunmuşdur. Bu qanunun qəbul edilməsi ilə Azərbaycan Respublikasında sığorta sisteminin yaradılmasına, sığorta bazarının formalaşmasına, təkan verilmiş və sığortanın müxtəlif növlərinin tətbiq olunmasına şərait yaradılmışdır.

Ölkəmizdə sığorta sistemi yaradıldıqdan sonra müxtəlif vaxtlarda sığorta bazarının fəaliyyətini tənzimləyən müxtəlif qanunlar, o cümlədən "Azərbaycan Respublikasında nəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası haqqında" qanun, "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" qanun, "Tibbi sığorta haqqında" qanun və s. qəbul olunmuşdur.

Sığorta sistemi formalaşmağa başlayan ilk illərdə, yəni 1992-ci ildə ölkəmizdə 62 sığorta şirkəti fəaliyyət göstərmişdir. Onlardan 53-ü milli kapitala, 9-u isə birgə kapitala malik olmuşlar. Qeyd edilən bazarda baş verən dəyişikliklər və rəqabət nəticəsində 36 sığorta şirkəti dayanıqlığını itirmiş və bazarı tərk etmişlər. Həmin proseslər nəticəsində sığorta bazarında 01.01.2019-cu ildə fəaliyyət göstərən 20 sığorta şirkəti və bir təkrar sığorta şirkəti qalmışdır.

Ölkənin sığorta bazarında fəaliyyət göstərən şirkətlər tərəfindən sığortanın 40-a yaxın növü həyata keçirilir. Bu bazarın ən fəal olan beş iştirakçısı bazar fəaliyyətinin 36,8%-ni əhatə edirlər. Onlar aşağıdakılardır: Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkəti - 9%; "Atəşgah" Sığorta Şirkəti-8,7%; "Atəşgah" Həyat Sığorta Şirkəti-8,5%; "Bakı" Sığorta Şirkəti-5,6%; Azərbaycan Sənaye Sığorta Şirkəti-5%.

Respublikanın sığorta bazarında fəaliyyət göstərən şirkətlərdən cəmi üçü həyat sığortası ilə məşğul olurlar. Bu şirkətlər "Atəşgah Həyat Sığorta Şirkəti" ASC, "Qala Sığorta" ASC və "Paşa Həyat Sığorta" ASC-dir. Beynəlxalq təcrübə göstərir ki, sığorta bazarında həyat sığortası önəm daşıyır və getdikcə onun bazar payı artır. Statistika göstərir ki, ölkəmizdə həyat sığortası sığorta bazarında 2014-cü ildə 24,5% çəkiyə malik olduğu halda, 2017-ci ildə 47% çəkiyə malik olmuşdur. Avropa ölkələrinin sığorta bazarında həyat sığortası ümumi bazarın 60%-nə yaxın bir həddi əhatə edir (1, s. 11).

Həyat sığortası bazarda özünəməxsus parametrlərə malik olmaqla, sığortanın başqa növlərində həyata keçirilməyən xüsusi halların sığortasını reallaşdırır. Həmin hallara sığorta olunanın ölümü, sağlamlığının və ya iş qabiliyyətinin qismən və ya tamamilə itirilməsi, iş qabiliyyətinin qocalığa və ya əlilliyə görə qismən və ya tam itirilməsi aid edilir. Cəmiyyət üzvlərinin, vətəndaşların həyatını təhlükələrdən qorumaq, xoşagəlməz hallarda qeyri-müəyyənliklərin baş verdiyi məqamlarda yaranmış mənfi

meyllərin və dəymiş zərərlərin aradan qaldırılması istiqamətində həyat sığortası əvəzsiz rol oynayır.

Cəmiyyətin normal, hərtərəfli inkişaf etməsi üçün ən zəruri tələblərdən biri ayrılıqda götürülən hər bir vətəndaşın sağlamlığı, onun həyatının təhlükələrdən uzaq olmasıdır. Buna görə də hər bir vətəndaşın sağlamlığının qorunması həm cəmiyyətin, həm də dövlətin ən vacib vəzifələrindən birinə çevrilmişdir. Bu baxımdan da hər bir vətəndaşın həm sağlamlığının qorunması, həm də cəmiyyətin davamlı inkişafının təmin edilməsində həyat sığortasının əhəmiyyəti, rolu yüksək olduğundan onun inkişaf etdirilməsinə ehtiyac vardır.

Cəmiyyətin inkişaf etdirilməsində və hər bir vətəndaşın sağlamlığının qorunmasında həyat sığortasının əhəmiyyəti yüksək olduğuna görə bu məsələnin prinsipial olaraq diqqət mərkəzində saxlanması və daha da genişləndirilməsinin əsas istiqamətləri "Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə öz əksini tapmışdır (2, s. 27). Bu sənəddə həyat sığortasının əsas inkişaf istiqamətləri, sığorta bazarının genişlənməsi, əhalinin yüksək səviyyədə sığorta məhsulları ilə əhatə olunması, əhalinin sığorta təminatı ilə əhatə olunmayan hissəsinin sığorta məhsullarına əlçatanlığının təmin edilməsi, maliyyə xidmətlərinin daha da inkişaf etdirilməsi və iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsi istiqamətində yeni sığorta məhsullarının tətbiq edilməsi məsələləri öz əksini tapmışdır.

Dünya təcrübəsi göstərir ki, həyat sığortası xidmət sektorunun mühüm sahələrindən biri olmaqla son onilliklərdə yüksək artım tempinə malik olmuşdur. Tədqiqatlardan məlum olur ki, ötən əsrin 60-cı illərindən başlayaraq həyat sığortasının artım tempi orta hesabla 10% olmuşdur ki, bu da həmin dövr ərzində dünya iqtisadiyyatının artım tempindən yüksəkdir (3, s. 7). Həm də qeyd etmək lazımdır ki, həmin dövr ərzində həyat sığortasının artım tempi ümumilikdə sığorta sektorunun inkişaf tempindən yüksək olmuşdur. Digər iqtisadi ədəbiyyatlarda, tədqiqatlarda əks olunduğu kimi, 1980-1985-ci illər ərzində dünyanın aparıcı 15 ölkəsində həyat sığortası sektorunun aktivləri ÜDM-in 11%-ni təşkil etmiş, bu göstərici 1995-1997-ci illər ərzində 28%-ə, 2008-2010-cu illərdə isə 34% səviyyəsinə qalxmışdır (4, s. 51-58).

Həyat sığortasının fəaliyyəti ilə əlaqədar olan digər bir göstərici sübut edir ki, dünyada bu sığorta növü üzrə ödənişlər 1961-1965-ci illərdə ÜDM-in 1,2%-ni, 1996-2000-ci illərdə 4,2%-ni, 2010-cu ildə isə 5,1%-ni təşkil etmişdir (5, s. 29). Həyat sığortasının iqtisadiyyatdakı payının artması bu sektordakı kapitalın investisiya olunduğu sahələrin xarakteri ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın sığorta bazarında əldə olunan nəticələrin ÜDM-dəki payı dünya göstəriciləri səviyyəsindən çox aşağıdır. Sığorta sektorunun ÜDM-dəki payı 1% səviyyəsinə də çatmır. Bu göstəricinin səviyyəsinin aşağı olması istiqamətində və eyni zamanda həyat sığortasının inkişafı istiqamətində mövcud olan aşağıdakı problemləri göstərmək olar:

- əhali arasında sığorta barəsində maarifləmə səviyyəsinin aşağı olması və maarifləmə prosesinin zəif templərlə getməsi;
- vətəndaşların sığorta şirkətlərinə zəruri səviyyədə inamlarının olmaması;
- sığorta bazarında fəaliyyətin hüquqi-normativ bazasının təkmil, mükəmməl olmaması və bu sahədə təkmilləşmənin ləng getməsi;
- qeyri-neft sektorunun inkişaf səviyyəsinin aşağı olması və həmin sektorda sığortalanma proseslərinin zəif getməsi;
- milli sığorta bazarında xarici kapitalın müdaxiləsinə ciddi məhdudiyyətlərin qoyulması;
- sığorta şirkətlərinin kapitallaşma səviyyəsinin aşağı olması;
- sığorta bazarında inhisarçılıq meyllərinin mövcud olması;
- çoxsaylı sığorta təşkilatlarının bank kapitalından asılı olması və s.

Hər bir iqtisadi strukturun səmərəli fəaliyyəti onun malik olduğu kapital bazasından çox asılıdır. Ölkəmizdə fəaliyyət göstərən həyat sığorta şirkətlərinin nizamnamə kapitalının dinamikası 2011-2017-ci illərdə aşağıdakı kimi olmuşdur (Cədvəl 1).

Cədvəldən göründüyü kimi, həyat sığortası bazarında fəaliyyət göstərən şirkətlər içərisində 2011-2017-ci illər ərzində nizamnamə kapitalının həcminə görə birinci yerdə "Paşa Həyat Sığorta" ASC, ikinci yerdə "Qala Həyat Sığorta" ASC, üçüncü yerdə isə "Atəşgah Həyat sığorta" ASC

olmuşdur. Bu üç şirkət üzrə məcmu nizamnamə kapitalının həcmi 2011-ci ildən 2017-ci ilədək 3,8 dəfə artaraq 15.350 min manatdan 59.620 min manata çatmışdır. "Paşa Həyat Sığorta" ASC-də bu artım 5,8 dəfə, "Qala Həyat Sığorta" ASC-də 2,9 dəfə, "Atəşgah Həyat sığorta" ASC-də isə 1,6 dəfə təşkil etmişdir.

**Cədvəl 1.** ***Azərbaycanda fəaliyyət göstərən həyat sığortası təşkilatlarının 2011-2017-ci illərdə nizamnamə kapitalının dinamikası***

| № | Təşkilatlar və göstəricilər | Ölçü vahidi | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | "Qala Həyat Sığorta" ASC | min man | 4350 | 5050 | 5050 | 7546 | 7546 | 12870 |
| | Cəmdə payı | % | 28,3 | 20,8 | 14,6 | 13,9 | 13,9 | 21,6 |
| 2 | "Atəşgah Həyat Sığorta" ASC | min man | 4000 | 4000 | 4000 | 6500 | 6500 | 6500 |
| | Cəmdə payı | % | 26,1 | 16,6 | 11,7 | 12,0 | 12,0 | 10,9 |
| 3 | "Paşa Həyat Sığorta" ASC | min man | 7000 | 15050 | 25200 | 40250 | 40250 | 40250 |
| | Cəmdə payı | % | 45,6 | 62,6 | 73,7 | 74,1 | 74,1 | 67,5 |
| | Cəmi | | 15350 | 24055 | 34205 | 54296 | 54296 | 59620 |

**Mənbə:** *Cədvəl sığorta təşkilatlarının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Araşdırmalar göstərir ki, həyat sığortası şirkətlərinin 2017-ci ilin sonuna olan vəziyyətə görə məcmu nizamnamə kapitalının həcmi ölkənin sığorta bazarında fəaliyyət göstərən bütün sığorta şirkətlərinin məcmu nizamnamə kapitalındakı payı 18,29% təşkil edir. Bu şirkətlərin ümumi bazardakı nizamnamə kapitalına nəzər salsaq görərik ki, "Paşa Həyat Sığorta" ASC 12,35% paya, "Qala Həyat Sığorta" ASC 3,94% paya, "Atəşgah Həyat sığorta" ASC isə 2% paya malikdirlər.

Sığorta şirkətlərinin fəaliyyətinin əsas göstəricilərini, sığorta ödənişləri və sığorta haqlarının dinamikasını təhlil edərək görürük ki, həyat sığortası şirkətlərində bu göstəricilər üzrə dinamika olmuşdur. 2017-ci ilin əvvəlinə həyat sığortası təşkilatları üzrə sığorta haqları 115602 min manat təşkil etmiş, növbəti ildə isə, yəni 2018-ci ilin əvvəlinə bu göstərici 62253 min manat və ya 53,82% artaraq 177855 min manata çatmışdır. Həmin dövr ərzində həyat sığortası şirkətləri üzrə sığorta ödənişlərində də artım baş vermişdir. Belə ki, 1917-ci ilin əvvəlinə sığorta ödənişləri 90969 min manat təşkil etdiyi halda, növbəti ildə, yəni 2018-ci ilin əvvəlinə həmin göstərici 35437 min manat və ya 39% artaraq 126406 min manat təşkil etmişdir (6).

Göründüyü kimi, son təhlil edilən illər ərzində həyat sığortası təşkilatları üzrə göstəricilər dinamikaya malik olmuş və bu artım həmin təşkilatların sığorta bazarında mövqeyinin möhkəmlənməsinə gətirib çıxarmışdır.

Həyat sığortası sisteminin geniş inkişafı üçün bir sıra zəruri parametrlər vardır ki, onların yüksək səviyyədə təmin edilməsi sığortanın bu növünün daha da inkişaf etməsini şərtləndirə bilər. Bunlardan biri də ölkənin maliyyə bazarının inkişafı və səmərəliliyidir. Ölkədə inkişaf etmiş maliyyə sistemi, bazarı olarsa, bu sığorta şirkətlərinə imkan verər ki, onlar əldə etdikləri vəsaitləri daha səmərəli şəkildə maliyyə bazarındakı müxtəlif aktivlərə yönəldə bilsinlər.

Ölkənin sığorta bazarında mövcud olan dinamik inkişaf onu deməyə əsas verir ki, həm ümumi olaraq sığorta bazarının, həm də həyat sığortasının inkişafı üçün ölkədə zəruri potensial vardır və ondan səmərəli şəkildə istifadə etməklə daha da yüksək göstəricilər əldə etmək olar.

## ƏDƏBİYYAT

1. Taras K.S., Debashis A. The Life Insurance Industry in India: Current State and Efficiency. 2015
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuşdur)
3. Szabliski K. 2012. Grown and the life insurance market. Draft Paper from the Department of Economics, Vienna University of Business Administration and Economics
4. Besk T. Weeb. 2011. Economic, demographic, and institutional determinants of life insurance consumption across countrics, The World Bank Economic Revicm, 17: - 51-58
5. Адамчуг Н.Г., Юлдашев Р.Т. Обзор страховых рынков ведуших стран мира (серия "Мировые страховые рынки") М.: Анкил, 2011-120 стр.
6. Azərbaycan Sığorta Şirkətləri Assosiasiyasının məlumatları. 2018

## РЕЗЮМЕ

**Ниджат Гусейнов**

### СТРАХОВАНИЕ ЖИЗНИ КАК ОСНОВНОЕ НАПРАВЛЕНИЕ ДЕЯТЕЛЬНОСТИНА СТРАХОВОМ РЫНКЕ СТРАНЫ

В статье страховые услуги обосновываются как параметр, обеспечивающий нормальное состояние экономического развития страны. Раскрывается его роль и значение. Анализируется период становления системы страхования в нашей стране, разъясняются условия принятия нормативно-правовых документов, регулирующих деятельность этого рынка и его состояние. Дается краткое описание страхового рынка в нашей стране. Подчеркивается роль, место и значение страхования жизни на этом рынке. Анализируется динамика уровня капитализации трех действующих в стране компаний по страхованию жизни за период 2011-2017 гг. Кроме того, исследуется динамика страховых премий и страховых выплат по этим компаниям в 2016-2017 гг.

Автор определяет причины, которые негативно влияют на развитие страхования жизни, и, в заключении, вносит предложения по развитию анализируемого вида страхования.

## SUMMARY

**Nijat Huseynov**

### LİFE İNSURANCE AS THE MAİN ACTİVİTY İN THE COUNTRY'S İNSURANCE MARKET

In the article, insurance services are substantiated as a parameter that ensures the normal state of country's economic development, and its role and essence are explained. The period of formation of the insurance system in our country is analyzed, and the conditions of adoption of normative-legal documents regulating the activity of this market and its state are explained. A brief description of the insurance market in our country is interpreted. The role and importance of life insurance in this market are emphasized. The dynamics of the capitalization level of three life insurance companies operating in the country was analyzed for the period covering 2011-2017. The dynamics of the capitalization level of three life insurance companies operating in the country has been analyzed for the 2011-2017 years. In addition, the dynamics of insurance premiums and insurance payments for these companies in 2016-2017 have been examined.

The author has identified the reasons that negatively affect the development of life insurance, and in the end, has made proposes for the development of the analyzed type of insurance.

**RAMİN BAYRAMOV**
*AMEA-nın İqtisadiyyat İnstitutu*

# KREDİT SİYASƏTİNİN ƏSAS FUNKSİYALARI

***Açar sözlər:*** *kredit siyasəti, kredit siyasətinin funksiyaları, kredit portfeli, endogen amillər, ekzogen amillər*

***Ключевые слова:*** *кредитная политика, функции кредитной политики, кредитный портфель, эндогенные факторы, экзогенные факторы*

***Key words:*** *credit policy, the functions of credit policy, credit portfolio, internal (endogenous) factors, external (exogenous) factors*

Kommersiya banklarında kreditləşdirmə sisteminin təkmilləşdirilməsi kredit siyasəti vasitəsilə həyata keçirilir. Hər bir bank öz kredit siyasətini müstəqil surətdə formalaşdırır və öz məqsədlərinə uyğunlaşdırır. Bu siyasətin aparılmasında əsas məqsəd maksimum dərəcədə mənfəət əldə etməkdən ibarətdir. Bankın sahibkarları öz fəaliyyətlərinin nəticələrinin səmərəliliyini daha da artırmaq üçün kredit siyasətinin funksiya və vəzifələrini elə optimallaşdırmalıdırlar ki, bank həm mənfəət əldə edə bilsin, həm də ki, dövlət büdcəsinin tamamlanmasında sosial institut olaraq fəal şəkildə iştirak edə bilsin (1, s. 136).

Kommersiya banklarının fəaliyyətini, onun apardığı aktiv əməliyyatların xüsusi çəki etibarilə əsas hissəsini təşkil edən kredit əməliyyatları kredit siyasətinin əsas elementidir. Kommersiya bankının kredit siyasəti dedikdə bankın kredit bazarında fəaliyyətin prioritetlərinin müəyyən edilməsi və kreditləşmənin məqsədlərinin reallaşdırılması istiqamətində aparılan fəaliyyətin məcmusu başa düşülməlidir.

Ayrı-ayrı ədəbiyyatlarda və tədqiqatlarda kredit siyasətinin məzmunu, mahiyyəti, mənası, rolu, təşkili, idarə olunması, tənzimlənməsi məsələlərinə dair çoxsaylı fikir və mövqelərə rast gəlinir. Tanınmış iqtisadçı E.M.Morsman "Bankın kredit departamenti" adlı kitabında yazırdı ki, "Bankın kredit siyasəti kredit fəaliyyəti üzrə prioritetlərin və fəaliyyətin məqsədlərinin müəyyən edilməsi, bu istiqamətdə reallaşdırılan tədbirlərin məcmusundan ibarətdir" (2, s. 12). Digər bir iqtisadçı Ceyms Xiksin fikrinə görə, kredit siyasəti cari dövrdə bankın potensialından istifadə edərək mənfəətin təmin edilməsi və gələcək dövrdə onun artırılması istiqamətində reallaşdırılan fəaliyyətlərin cəmindən ibarətdir (3, s. 220).

Bankın kredit siyasətinin aparılmasında, onun təşkilində banklar iki mühüm, həlledici elementdən istifadə edirlər. İqtisadi ədəbiyyatlarda formalaşan mövqeyə görə həmin elementin birincisi kreditləşmənin mərhələləri, ikincisi isə kreditləşmənin reqlamentləşdirilən parametr və prosedurlarıdır.

Hal-hazırda respublikamızda kredit təşkilatları tərəfindən həyata keçirilən kredit siyasətinin özünəməxsus cəhətləri vardır. Digər iqtisadi subyektlərdən öz funksiya və vəzifələrinə görə fərqlənən və spesivik fəaliyyət xarakterinə malik olan bu təşkilatların xüsusi parametrik cəhətləri vardır. 01.01.2020-ci il tarixə ölkəmizdə 30 bank fəaliyyət göstərir. Onlardan ikisi dövlətə məxsus, qalanları isə özəl banklardır. Həmin bankların 16-sı bu və ya digər səviyyədə xarici kapitala malik banklardırlar. Fəaliyyətdə olan banklar içərisində xarici bankların yerli filiallarının sayı 2-yə bərabərdir. Fəaliyyətdə olan bank filiallarının sayı 600-ə yaxın, bank şöbələrinin sayı isə 150-yə yaxındır. Bankların tabeliyində fəaliyyət göstərən ATM-lərin sayı 2500-ə yaxındır. Fəaliyyətdə olan bank personalının sayı 16500-ə yaxındır. Bunlarla yanaşı, ölkəmizdə 50-yə yaxın bank olmayan kredit təşkilatı, 80-ə yaxın kredit ittifaqları fəaliyyət göstərir. Fəaliyyət göstərən bank olmayan kredit təşkilatlarından biri dövlət mülkiyyətinə məxsus, qalanları isə özəl mülkiyyətə əsaslanırlar. Bank olmayan kredit təşkilatlarından 9-u xarici kapitallı kredit təşkilatlarıdır. Həmin kredit təşkilatlarının filiallarının cəmi sayı 200-ə yaxındır. Bank olmayan kredit təşkilatlarında çalışan personal sayı 2800-ə yaxındır (4). Yuxarıda qeyd edilən təşkilatlar ölkəmizdə mövcud olan kredit sisteminin elementləridir və bank sistemində reallaşdırılan kredit siyasəti həmin təşkilatlar vasitəsilə həyata keçirilir.

Banklar tərəfindən həyata keçirilən kredit siyasətinin əsası, funksiyaları kreditin funksiyalarından və onun yaratmış olduğu parametrlərdən yaranır. Kredit, əsasən, üç funksiyanı, bölgü və təkrar bölgü funksiyasını, pulların, vəsaitlərin toplanması funksiyasını və həmin vəsaitlərin yerləşdirilməsi funksiyalarını yerinə yetirir. Lakin kredit siyasəti bu finksiyalardan yaranan daha çox sayda funksiyanı icra edir. Bunun ən əsas səbəbi ondan ibarətdir ki, kredit özü kredit siyasətinin bir elementidir.

Bankların və ümumiyyətlə, kredit təşkilatlarının apardıqları kredit siyasətinin əsas funksiyaları pul vəsaitlərinin toplanması, onun aktiv əməliyyatlara yerləşdirilməsi, kredit əməliyyatlarının aparılması ilə bağlı ilkin hazırlıq işlərinin həyata keçirilməsi, kredit prosesinin sənədləşdirilməsi, kredit resurslarının idarə edilməi, bu prosesdə təsir gücünə malik olan endogen və ekzogen amillərin, həmçinin qlobal amillərin təsirini özündə əks etdirən ən zəruri məsələləri özündə əks etdirir.

Kredit siyasətinin aparılması ilk olaraq kredit resurslarının, yəni kredit təşkilatlarında kapital bazasının formalaşdırılması ilə başlayır. Bu baxımdan da kredit resurslarının bazasının formalaşdırılması kredit siyasətinin ilk, zəruri funksiyasıdır (5, s. 164). Kredit siyasətinin ikinci mühüm funksiyası maksimal dərəcədə mənfəət əldə etmək məqsədilə passivlərin minimal risk səviyyəsi ilə kredit resurslarına çevrilməsindən ibarətdir. Kredit siyasətinin üçüncü mühüm funksiyası kreditin prinsiplərinin yerinə yetirilməsinə nəzarətin vaxtlı-vaxtında və keyfiyyətlə reallaşdırılmasından ibarətdir. Kredit siyasətinin dördüncü funksiyası kredit əməliyyatlarında vaxtı keçmiş borcların yaranma riskinin minimuma endirilməsidir. Kredit siyasətinin beşinci funksiyası kreditlərin verilməsi prosesində səlahiyyətlərin hədlərinin məhdudlaşdırılmamasıdır. Kredit siyasətinin altıncı funksiyası bank fəaliyyətinin iqtisadiyyatda baş verən dəyişikliklərə həssas reaksiya verə bilməsinə şərait yaratmasından, bunun üçün mümkün vasitələrdən çevik istifadə edə bilməsini təmin etməkdən ibarətdir. Kredit siyasətinin yeddinci funksiyası qanunvericilikdə baş verən dəyişikliklərin kreditləşmə prosesinə dərhal tətbiq edilməsini təmin etməkdən ibarətdir. Kredit siyasətinin səkkizinci funksiyası kredit bazarında fəaliyyət göstərən optimal səviyyədə etibarlı və mənfəətlə işləyən müştəriləri seçməkdən və banka cəlb etməkdən ibarətdir.

Qeyd edilən funksiyaların uğurla həyata keçirilməsi üçün banklar öz fəaliyyətində menecmenti və marketinqi düzgün qurmalı, bütün mövcud potensialından səmərəli isttifadə etməyi bacarmalıdır (6, s. 116).

Kredit siyasətinin uğurla həyata keçirilməsinin ən mühüm şərtlərindən biri kreditin verilməsi əməliyyatlarında ilkin işlərin düzgün görülməsindən ibarətdir. İlkin işlər dedikdə gələcək borc alanların tərkibinin müəyyən edilməsi, veriləcək kredit növlərinin müəyyən edilməsi, kreditləşmənin son həddinin, məbləğinin müəyyən edilməsi, borcalanların kredit qabiliyyətinin qiymətləndirilməsi standartlarının müəyyən edilməsi, ssudanın qiymətləndirilməsi standartlarının müəyyən edilməsi, kreditdən istifadəyə görə faiz dərəcələrinin müəyyən edilməsi, kreditin qaytarılmasının təmin edilməsinin üsullarının müəyyən edilməsi, kreditin verilməsinə hazırlıq prosedurlarına riayət olunmasına nəzarətin həyata keçirilməsi və s. aid edilir (7, s. 219).

Kredit siyasətinin ən mühüm elementlərindən biri də kreditləşmənin mərhələlərindən olan kreditin sənədləşdirilməsidir. Bu mərhələ özündə çox vacib olan aşağıdakı istiqamətləri birləşdirir: zəruri sənədlərin formalarının seçilməsi; kreditin verilməsinin texnoloji prosedurunun müəyyən edilməsi; kreditin sənədləşdirilməsinin düzgünlüyü üzərində nəzarətin həyata keçirilməsi. Məhz bu üç məsələ özündə çoxsaylı zəruri prosedurları əks etdirir. Bu posedurlara potensial borcalanın kredit müqaviləsinə baxılması və borcalanla tanışlıq, borcalan haqqında dəqiq məlumatların toplanması, kreditin məqsədinin, məbləğinin, müddətinin, təminatının, ödənilmə qaydasının müəyyən edilməsi, faizlərin ödənilmə qaydasının müəyyən edilməsi, potensial borcalanın kredit qabiliyyətinin təhlili və kredit alınan anda onun vəziyyətinin qiymətləndirilməsi, kredit müqaviləsinin hazırlanması, potensial borcalanın ödəmə qabiliyyətinin müəyyən edilməsi və s. aid edilir.

Bankın kredit siyasətinin mühüm elementlərindən olan borcalanın kredit qabiliyyətinin təhlil edilməsi bir neçə vacib göstəricinin müəyyən edilməsindən ibarətdir. Həmin göstəricilər aşağıdakılardır: likvidlik əmsalı, ödəmə əmsalı, dövretmə əmsalı, cəlbetmə əmsalı, mənfəətlik əmsalı. Hər bir göstəricinin müəyyən edilməsi kredit təşkilatının səmərəli kredit siyasəti aparılmasını təmin edir.

Kredit siyasətinin uğurla aparılması üçün ən zəruri olan parametrlərdən biri də kreditin idarə olunmasıdır. Bu məsələ özündə kredit portfelinin idarə edilməsi qaydalarının hazırlanması və icra olunmasını, kredit müqavilələrinin icra olunması üzərində nəzarətin həyata keçirilməsini, kreditin müddətinin uzadılması və ya vaxtı keçmiş kreditlərin bərpa olunması prosesini, kredit əməliyyatları nəticəsində dəymiş zərərin bağlanması prosesini, kreditin idarə olunması üzərində nəzarətin həyata keçirilməsini və s. əks etdirir.

Kredit siyasətinin banklar tərəfindən həyata keçirilməsinin səviyyəsinə təsir edən ekzogen və ya xarici amillər, həmçinin endogen və ya daxili amillər kreditləşmə prosesində mütləq nəzərə alınmalıdırlar. Ekzogen amillərə ölkədə mövcud olan makroiqtisadi vəziyyətin dayanıqlıq dərəcəsi, iqtisadi tsiklin fazaları, mövcud inflyasiya səviyyəsi, dövlət büdcəsinin defisitinin səviyyəsi, xarici borcun səviyyəsi, idxal və ixracın nisbət səviyyəsi, cəmiyyətin maddi rifah səviyyəsi, əhali gəlirlərinin artım səviyyəsi, kredit bazarının ümumi vəziyyəti, rəqabət bazarında rəqiblərin apardığı uyğun siyasətin vəziyyəti və s. aid edilməlidir.

Kredit təşkilatları tərəfindən aparılan kredit siyasətinin formalaşmasında təsir edən endogen amillərə mövcud müştəri bazasının vəziyyəti, bank personalının peşəkarlıq səviyyəsi, borcalan tərəfindən tələb edilən kreditlərə bankın yanaşma tərzi, bankın malik olduğu xüsusi vəsaitlərin və cəlb olunmuş vəsaitlərin səviyyəsi, kreditləşmə üzrə bank tərəfindən hazırlanan bankdaxili normativ sənədlərin işlənmə səviyyəsi, kredit risklərinin idarə olunma səviyyəsi, kredit portfelinin idarə olunması səviyyəsi və s aid ola bilər.

Kredit siyasətinin öz funksiyalarını icra edə bilmək səviyyəsinə həm endogen, həm də ekzogen amillərin birbaşa təsiri altında hər bir konkret bank öz kredit siyasətini formalaşdırmalı və beynəlxalq standartlara uyğun olan aşağıdakı sxemi tətbiq etməlidirlər: kredit siyasətinin məqsədlərini və ümumi əsaslarını müəyyən etməli, kredit əməliyyatlarını həyata keçirən, idarə edən aparatını yaratmalı, bankın kredit əməliyyatlarını həyata keçirən hər bir işçinin konkret səlahiyyətlərini və məsuliyyətlərini müəyyən etməli, kredit müqaviləsinin reallaşdırdığı hər bir mərhələdə kredit prosesini təşkil etməli, kredit proseslərini idarə etməli və ümumi bank nəzarətini həyata keçirməlidir.

Əgər qeyd edilən məsələlər banklar tərəfindən vaxtlı-vaxtında icra olunarsa, bu halda həmin bankın fəaliyyətində kredit siyasətinin funksiyaları özünü doğruldar və kredit üzrə əməliyyatlar özünün səmərəli nəticələrini verər. Deyilənlər əsasında belə bir nəticəyə gəlmək olar ki, banklar tərəfindən uğurla həyata keçirilən kredit siyasəti son nəticədə o zaman səmərəli sayıla bilər ki, bu prosesdə iştirak edən tərəflərin maraqları təmin edilsin, iqtisadi subyektlərdə istehsal və fəaliyyət proseslərinin fasiləsizliyi təmin edilsin, paralel olaraq əməliyyat nəticəsində yeni dəyər yaradılmış olsun.

## ƏDƏBİYYAT


1. Bağırov M.M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik) Bakı: Nurlan, 2003, 512 s.
2. Морсман Э.М. "Кредитный департамент банка". М.Альпина Паблишер, 2009-47 с, 1SBN№5 - 9614 - 0034 – 4
3. Джоиф Ф.Сингли. "Управление финансами в коммерческих банках" Пер. с англ. Учебник банковского дела. М:, 2009, 820 с.
4. Azərbaycan Respublikası Mərkəzi Bankının materialları. 2020
5. Герчикова И.Н."Маркетинг и международное коммерческое дело"-М:, Внешторгиздат, 2012, 254 с.
6. Бернарди А. "Организация и операции акционерных коммерческих банков" - СПб, 2009, 426 с.
7. Морсман Э.М. "Кредитная политика коммерческого банка " - М.Альпина Паблишер, 2011 - 374 с.

## РЕЗЮМЕ

**Рамин Байрамов**

## ОСНОВНЫЕ ФУНКЦИИ КРЕДИТНОЙ ПОЛИТИКИ

Объектом исследования статьи являются основные функции кредитной политики. Чтобы раскрыть роль и значение этих функций, автор сначала объясняет сущность банков, обосновывает их роль в экономике. С экономической точки зрения объясняется важнейшая роль кредита в активных операциях, проводимых кредитными организациями. В статье также рассмотрены подходы ряда известных ученых к сущности кредитной политики. Подробно анализируются этапы кредитования, являющиеся элементами кредитной политики, а также ее регламентированные параметры и процедуры.

Дается краткая характеристика кредитных организаций в банковской системе Азербайджана. Автором рассматриваются всевозможные функции проводимой ими кредитной политики с учетом их экономической значимости. Перечислены эндогенные и экзогенные факторы, влияющие на кредитную политику. Определены основные параметры кредитной политики, формируемой под их влиянием.



## SUMMARY

**Ramin Bayramov**

## THE MAİN FUNCTİONS OF CREDİT POLİCY

In the article, the main functions of credit policy are emphasizes and become an element of analysis. In order to elucidate the role and importance of those functions, the author first explains the essence of banks and substantiates their role in the economy. The high role of credit in the active operations of credit organizations is interpreted economically. The approaches of a number of well-known scholars to the essence of credit policy are explained. The lending stages, which are the elements of the credit policy, and its regulated parameters and procedures are analyzed in detail.

In the banking system of Azerbaijan, A brief description of credit organizations is given. All possible functions of their credit policy are interpreted by the author according to the basis of their economic essence. Internal (endogenous) and external (exogenous) factors influencing credit policy are stated. The main parameters of the credit policy formed under their influence are determined.

**VƏFA ƏZİZOVA**
*Qərbi Kaspi Universiteti*

# BANKLARDA KİÇİK VƏ ORTA BİZNESİN KREDİTLƏŞDİRİLMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *kiçik və orta biznes, kreditləşmə, kreditləşmənin prioritetləri, bank kreditləşməsi*
***Ключевые слова:*** *малый и средний бизнес, кредитование, приоритеты кредитования, банковское кредитование.*
***Key words:*** *small and medium-sized businesses, lending, lending prorities, bank lending*

Banklar ölkə iqtisadiyyatının aparıcı strukturlarından olduğuna görə dövlət iqtisadiyyatda apardığı siyasətdə onlardan çox geniş şəkildə istifadə edirlər. Pul və kredit, valyuta siyasəti sahəsində dövlət bankların fəaliyyətini normativ hüquqi cəhətdən tənzimləyir, lazım gəldikdə onlara öz köməyini göstərir. Bankların həmişə normal şəkildə fəaliyyət göstərməsi dövlətin maraqları daxilindədir. Məhz bu baxımdan da dövlət onların və bütövlükdə bank sisteminin səmərəli fəaliyyət göstərməsi üçün zəruri addımlar atır.

Dövlət özünün iqtisadi siyasəti daxilində iqtisadiyyatın ən zəruri sahələrinin inkişafını və eyni zamanda ən zəruri əməliyyatların aparılmasını məhz banklar vasitəsilə reallaşdırır. Bu baxımdan bankların fəaliyyətində xüsusi əhəmiyyət kəsb edən məsələlərdən biri də məhz kiçik və orta biznesin kreditləşdirilməsidir. Bunun mühüm səbəblərindən biri kiçik və orta sahibkarlığın ölkənin iqtisadi həyatında yerinə yetirdiyi çox zəruri funksiya və vəzifələrlə, eyni zamanda çox əhəmiyyətli rolu ilə bağlıdır. Dünya təcrübəsi göstərir ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulun formalaşmasında kiçik və orta biznesin payı bir çox hallarda 75-80%-ə qədər yüksəlir. Elə bu səbəbdən də kiçik və orta biznesin inkişafına dövlətlər tərəfindən hərtərəfli dəstək verilir, onun daha da inkişaf etdirilməsi üçün bütün zəruri imkanlar və işgüzar şərait yaradılır.

Ölkədə fəaliyyət göstərən kiçik və orta biznes strukturlarının daha da inkişaf etdirilməsi, onların ölkə iqtisadiyyatındakı rolunun yüksəldilməsi, ümumi daxili məhsuldakı payının artırılması və s. üçün zəruri olan şərtlərdən biri onların kredit resurslarına əlçatanlığının təmin edilməsidir. Bunun üçün ən vacib məsələ həmin strukturlarla bankların münasibətlərinin normal formada olmasıdır. Bu kimi tələblər öz əksini 2016-cı il 6 dekabr tarixində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında Maliyyə Xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə tapmışdır (1, s. 5).

Yol xəritəsində göstərilir ki, 2015-ci il ərzində baş vermiş iki devalvasiya nəticəsində ölkənin maliyyə bazarında mənfi meyllər yaranmışdır. Həmin mənfi meyllərdən biri də investor və emitentlərin, kreditorların işgüzar aktivliyinin məhdudlaşması olmuşdur (2). Bunun nəticəsində kiçik və orta biznesin inkişafında geriləmələr baş vermiş, çoxlu sayda sahibkarlıq müəssisələri öz fəaliyyətlərini dayandırmışdır. Maliyyə bazarında yaranan mənfi meyllərdən biri də maliyyə resurslarının qeyri-səmərəli istifadəsi halları olmuşdur ki, bu da öz növbəsində kiçik və orta biznesin zəifləməsini şərtləndirmişdir.

Kiçik və orta biznes strukturlarının bağlanmasının ən mühüm səbəblərindən biri də onların dövriyyə vəsaitlərinin çatışmazlığının bərpa oluna bilməməsi olmuşdur. Bunu yaradan səbəblər isə I devalvasiyadan sonra depozit və kredit portfelinin sürətlə və yüksək səviyyədə dollarlaşması, ikinci devalvasiyadan sonra isə böyük məbləğdə maliyyə vəsaitlərinin bank sistemindən kənarlaşması olmuşdur. Nəticədə kiçik və orta biznesə potensial dəstək verə biləcək bank sektorunda aktivlik azalmış, kreditləşmə prosesləri zəifləmişdir.

Baş vermiş bu proseslər nəticəsində kreditorların aktivliyinin aşağı düşməsi və borcalanların isə ödəmə qabiliyyətinin zəifləməsi fonunda kredit riskləri yüksəlmişdir. Ölkədə bank sistemində mövcud kredit portfelində kiçik və orta sahibkarlıq müəssisələri yüksək paya sahib olduqlarına görə banklar onların borc yükünün azaldılması və kredit risklərinin effektiv idarə edilməsi üçün kredit portfelinin restrukturizasiyasının aparılmasına başlamışlar (1, s. 9). Bunun nəticəsində bəzi müsbət

meyllər yaransa da, kataklizmlərin nəticələri tam aradan qalxmamış, makroiqtisadi çətinliklər davam etmiş, kredit əməliyyatları üzrə ehtiyatlanma xərcləri çoxalmışdır. Həmin dövrdə banklarda məcmu kapitalın adekvatlıq əmsalı müəyyən olunmuş minimum normativlərə yaxın olmuşdur.

Ölkə iqtisadiyyatında yaranmış böhran vəziyyətinin təsiri altında formalaşan kredit bazarında kiçik və orta biznesin kreditləşdirilməsi ilə bağlı kredit risklərinin operativ qiymətləndirilməsi, həmçinin kreditləşmə subyektlərinin hər birində maliyyə intizamının gücləndirilməsinin təmin edilməsi yolu ilə kreditləşmə proseslərinin səmərəli sisteminin formalaşdırılmasına ehtiyac yaranmışdır.

Azərbaycan Respublikasının Mərkəzi Bankının məlumatlarına əsaslansaq, deyə bilərik ki, böhran başladığı dövrdən ölkənin kredit bazarında kiçik və orta biznesin kreditləşdirilməsinə mənfi təsir edən meyllər çoxalmış, kreditləşmə proseslərinin səngiməsi kiçik və orta biznesin zəifləməsinə səbəb olmuşdur. Həmin mənfi meyllərlə bank sektorunun mənfəətliliyin mənfi zonaya düşməsini, kapital adekvatlığının 20 faiz aşağı düşməsini, risklərə həssaslığın zəifləməsini, bankların depozit bazarından asılılıq səviyyəsinin yüksək olmasını, dollarlaşma səviyyəsinin yüksələrək kreditləşmə prosesinin gedişinə mənfi təsir etməsini, kredit portfelinin keyfiyyətinin pisləşməsini, bankların kapital mövqelərinə təzyiqin artmasını və s. aid etmək olar.

Ölkənin kredit bazarında vəziyyətin bərpa olunması, kiçik və orta biznesin kreditləşdirilməsinin səmərəli şəkildə həyata keçirilməsi üçün yaranan zərurət bu istiqamətdə kreditləşmənin prioritet, üstünlük verilən cəhətlərini ortaya çıxarılmasını tələb edir.

Təhlillər göstərir ki, banklar tərəfindən aparılan kreditləşmə əməliyyatlarında nəzərə alınan ən vacib şərt kredit qoyuluşları və kredit resurslarının nisbəti problemidir. Çünki bu amil çox yüksək əhəmiyyətə malikdir. Kreditin verilməsi və kredit resurslarının yaradılması dialektik vəhdətin iki tərəfinə də uyğundur, yəni onlar öz aralarında qarşılıqlı əlaqədədirlər və biri digəri olmadan mövcud ola bilməz (3, s. 194). Qeyd edilən amillərdən biri, yəni kredit qoyuluşları öz parametrlərinə görə kredit resurslarından asılıdır. Bunlar həm miqdarına, həm müddətinə, həm faiz dərəcələrinə və s. görə biri-birindən asılı və əlaqəlidir. Məhz elə bu asılılıq sonda bank tərəfindən kreditləşdirilən kiçik və orta sahibkarlıq müəssisələrinə verilən kreditlərin həm məbləğinə, həm müddətinə, həm faiz dərəcələrinə və s. təsir edir. Bu səbəbdən də kiçik və orta sahibkarlıq müəssisələrinin kreditləşdirilməsi zamanı nəzərə alınmalı ilk faktor kredit resurslarının keyfiyyət göstəriciləri olmalıdır.

Kiçik və orta sahibkarlıq müəssisələrinin ölkə iqtisadiyyatındakı rolu nəzərə alınaraq onların kreditləşdirilməsində ən zəruri parametrlər olan kreditin həm məbləği, həm müddəti, həm təminatı, həm də faiz dərəcələri elə səviyyədə olmalıdır ki, bu müəssisələr operativ qaydada öz üzərlərinə düşən funksiya və vəzifələri yerinə yetirərək iqtisadiyyatın dinamik inkişafını təmin edə bilsinlər. Aydındır ki, bu məsələlərin hamısı bankların həyata keçirdiyi kredit siyasətinin tərkib hissələridir. Buna görə də banklar kiçik və orta sahibkarlıq müəssisələrini kreditləşdirərkən qeyd edilən məsələlər bu prosesin prioritet istiqamətləri kimi ortaya çıxır.

Banklar hal-hazırda kiçik və orta biznes müəssisələrini kreditləşdirərkən onlarda həm istehsal fondlarının, həm də dövriyyə fondlarının artırılması məqsədlərini yerinə yetirirlər. Bu məqsədlərlə verilən kreditlər həm uzunmüddətli, həm də qısamüddətli ola bilir. Bir qayda olaraq, kreditləşmənin məbləği bankda formalaşdırılmış kredit resursları qədər ola bilər. Banklar tərəfindən tədavül sferasına, yəni mal-material qiymətlilərinin əldə olunmasına yönəldilən kreditlərin məbləği bankda toplanmış resurslarla məhdudlaşmamalıdır, çünki etibarlı təminatı olan mal-material qiymətliləri üçün verilən hər bir yeni kreditin özü resurs yaradır. Dünya təcrübəsi göstərir ki, istehsal fondlarının yaradılmasına sərf olunan xərclərin kreditləşdirilməsi banklarda əvvəlcədən kifayət dərəcədə kredit resurslarının toplanmasını tələb edir. Hər iki halda kreditləşmə resursları, yəni verilən kredit pulları mal-material qiymətlilərinin ekvivalenti kimi çıxış edirlər. Birinci halda o tədavül sferasına daxil olan mal-material qiymətlilərinin ekvivalenti, ikinci halda isə tədavül sferasını tərk edən mal-material qiymətlilərinin ekvivalenti rolunda şıxış edir (3, s. 195).

Mahiyyətinə, iqtisadi məzmununa və əhəmiyyətinə görə qeyd edilən hər iki halın, yəni kiçik və orta sahibkarlıq müəssisələrində istehsal fondlarının artırılması, həm də dövriyyə fondlarının artırılmasına yönəldilən kreditləşmə banklarda kreditləşmənin prioritet istiqamətinə çevrilməlidir.

Çünki hər iki halın kreditləşdirilməsi kiçik və orta biznesin etibarlı inkişaf etməsini təmin edər ki, bu da öz növbəsində ölkə iqtisadiyyatının dinamizmini artırar.

Böhrandan sonrakı dövrdə, yəni iqtisadi dinamikanın bərpa olunması dövründə bank kreditləşməsinin əsas prioritet istiqamətlərindən biri də kiçik və orta biznes sahəsində ekspansiv kredit siyasətindən ibarət olmalıdır. Bu sahədə kreditləşmə həm şaquli, həm üfiqi istiqamətlərdə genişləndirilməli, paralel olaraq asanlaşdırılmalıdır (5, s. 216).

Bank tərəfindən kiçik və orta biznesin kreditləşdirilməsi mühitinin əlverişli, kredit resurslarının onlar üçün əlçatan olması üçün banklar ənənəvi müddətli depozit modelindən daha mürəkkəb və təkmil, peşəkar portfel idarəetməsi modelinə keçməlidir. Dünya praktikasında artıq uğurla tətbiq edilən bu modelin tətbiqi banklarda kiçik və orta biznesin kreditləşdirilməsinin prioritet istiqamətinə çevrilməlidir (4, s. 216).

Kiçik və orta biznes strukturları kreditləşdirilərkən banklar tərəfindən prioritet kimi qəbul edilməli istiqamətlərdən biri həmin stukturlara verilən kreditlərin faiz dərəcələrinin aşağı olması, müddətinin mümkün dərəcədə, daha çox uzunmüddətli olması və ödəmə qaytarılma şərtlərinin isə borcalanların fəaliyyət istiqamətlərinə uyğun olmasıdır. Qeyd edilən şərtlərin mövcud olması kiçik və orta sahibkarlığın sürətli inkişafı üçün zəruri olan parametrlərdəndir (6, s. 56-57). Dünya təcrübəsi göstərir ki, kiçik və orta biznesin kreditləşdirilməsi prosesində ekspansiv kredit siyasəti aparıldığı halda, onların fəaliyyət dairəsi genişlənir, ümumi daxili məhsuldakı payı artır, fəaliyyətindəki təkmilləşmələr sürətlənir və s.

Kiçik və orta sahibkarlıq müəssisələrinin bank kreditləşməsi zamanı mühüm prioritetlərindən biri də kredit risklərinin monitorinqi prosedurlarının təkmilləşdirilməsidir. Məlum olduğu kimi banklar risklərin təsnifləşdirilməsini mexaniki və dövri qaydada aparırlar. Bu istiqamətdə dünyanın qabaqcıl təcrübəsində mövcud olduğu kimi risklərin aşkarlanmasının avtomatlaşdırılmış şəkildə "erkən xəbərdarlıq sistemləri"nə əsaslanmaqla aparılmalıdır.

Qeyd olunanlarla yanaşı, kiçik və orta biznesin kreditləşdirilməsi prosesində banklar aparılacaq əməliyyatların diaqnostikasını aparmalı, bu istiqamətdə Bazel şərtlərinin icra olunmasını təmin etməlidirlər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir). Bakı, 2016, 60 s.
2. Azərbaycan Respublikası Mərkəzi Bankının illik hesabatları. 2018-ci il
3. Bağırov M.M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik). Bakı, Nurlan, 2003, 512 s.
4. Кредитная политика и механизм ее реализации в период рыночных отнощений. Белоглазова Г.Н., Кроливецкая Л.П. и др. СПб (повт.изд). Изд-во. СПбГУЭФ, 2015, 307 стр.
5. Панова Г.С. Кредитная политика коммерческого банка. №1. Финансы и статистика. 2014, 464 стр.
6. Черноуцан Е.Ф. "Франция: Государство поддерживает малое и средное предпринимательство //Проблемы теории и практика управления// 2015, №1, 56-60 стр.

**РЕЗЮМЕ**

**Вафа Азизова**

**ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ КРЕДИТОВАНИЯ МАЛОГО И СРЕДНЕГО БИЗНЕСА В БАНКАХ**

В статье раскрывается значение банков и банковской системы в развитии экономики. Поскольку эта система является исполнителем государства в области денежно-кредитной политики, оно всегда принимает необходимые меры для поддержания этой системы в рабочем состоянии. Содержание и сущность этих мер подробно анализируются в статье. Объясняется влияние кредитной политики банков в сфере малого и среднего бизнеса на экономическое развитие. Выявляются факторы, определяющие эту политику, а также приоритетные направления ее реализации.

Выясняются причины ослабления банков во время недавнего кризиса. С целью устранения негативных последствий объясняется необходимость выбора правильных приоритетов в кредитных операциях. Выбор приоритетов основан на предпочтениях кредитования в передовой мировой практике.

**SUMMARY**

**Vafa Azizova**

**PRIORIY DIRECTIONS OF LENDING FOR LENDING TO SMALL AND MEDIUM-SIZED BUSINESSES IN BANKS**

In the article, the importance of banks and the banking system in the development of the economy has been explanied. The state always takes the necessary measures to keep this system working because of being the executor of the state in monetary policy. The content and essence of these measures have been analyzed in detail in the article. The impact of credit policy of the banks in the small and medium-sized businesses on economic development has been explicated. The factors conditioned this policy and the priority directions of its implementation have been elucidated.

The reasons for the decline in the activities of banks during the last crisis have been clarified and the need to prioritize lending operations in order to eliminate the negative tendencies have been explained. It is substantiated to prefer the best world practice of lending in choosing the priorities.

**ORXAN BAĞIROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# İQTİSADİYYATIN DİVERSİFİKASİYASININ PRİORİTET İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *diversifikasiya, prioritet, diversifikasiya siyasəti, "Strateji Yol Xəritəsi"*
***Ключевые слова:*** *диверсификация, приоритет, политика диверсификации, "Стратегическая Дорожная Карта".*
***Key words:*** *diversification, priority, diversification policy, "Strategic Road Maps"*

Respublikamızda iqtisadiyyatın diversifikasiyası iqtisadi siyasətin prioritetinə çevrilən gündən bu sahədə köklü dəyişikliklər və islahatlar aparılır. Ümumiyyətlə, qeyd olunmalıdır ki, ölkəmizdə diversifikasiya neft qiymətləri ilə əlaqədar böhran baş verməmişdən əvvəl başlamışdır. Diversifikasiya siyasətinin ən mühüm parametrlərini özündə əks etdirən və eyni zamanda bu istiqamətdə reallaşdırılması zəruri olan istiqamətləri özündə əks etdirən ilk dövlət sənədi "Azərbaycan 2020: Gələcəyə Baxış" inkişaf konsepsiyası olmuşdur. Bu sənəd özündə 2020-ci ilə qədər olan dövr üçün strateji baxışı və prioritetləri birləşdirən 8 əsas istiqaməti əks etdirir. Bu sənəddə ilk istiqamət olaraq "Səmərəli dövlət tənzimlənməsinə və yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması" qəbul edilmişdir. Bu istiqamət uğurlu iqtisadi diversifikasiya üçün zəruri baza formalaşdırmağa imkan yaradır. Bu istiqamətin əsas məqsədi qarşıya qoyulan sosial-iqtisadi hədəflərə çatmaqdan, beynəlxalq münasibətlərdə, dünya miqyasında rəqabətə davamlı iqtisadi sistemin yaradılmasından ibrətdir (1). Bazar iqtisadiyyatının ən mühüm atributlarından olan azad bazarın formalaşdrılması və onun təşkili, idarə edilməsi, tənzimlənməsi iqtisadi diversifikasiyanın ən ümdə olan prioritetidir. Yüksək rəqabət qabiliyyətinə malik olan bazar yaratmadan diversifikasiyanın uğurlu nəticələrinə çatmaq olmaz. Yüksək rəqabətli bazar onun iştirakçılarının hər birini istehsal prosesinin düzgün təşkil edilməsinə, keyfiyyətli məhsul buraxılışına, məhsul çeşidinin artırılmasına həvəsləndirir. Nəticədə orta və kiçik sahibkarlıq da sürtələ inkişaf etməyə başlayır.

Qeyd edilən sənəddə iqtisadi diversifikasiyanın mühüm istiqamətlərindən, prioritetlərindən biri kimi qiymətləndirilən "İqtisadiyyatın sturukturunun təkmilləşdirilməsi və qeyri-neft sektorunun inkişafı"dır. Bu prioritet birbaşa diversifikasiyanın uğurla təşkili və tənzimlənməsi, iqtisadiyyata daha çox səmərə verməsi məqsədi daşıyır. Bu prioritetin icrası ilə bağlı olaraq konsepsiyada qeyri-neft sənayesinin, sektorunun sürətli inkişaf etdirilməsi vasitəsi ilə iqtisadiyyatın neftdən asılılığının getdikcə azaldılması məqsədi qarşıya qoyulmuşdur. Bu məqsədi yerinə yetirmək üçün ölkənin malik olduğu təbii və iqtisadi resurslar dövriyyəyə cəlb olunmalı, təsərrüfat dövriyyəsi genişləndirilməli, sürətlənməli, səmərəlilik yüksəldilməlidir.

Paralel olaraq qeyri-neft sektorunun inkişafına xidmət edən, bazarın tələblərinə cavab verən infrastrukturun yaradılması, regionlarda yerli xammala əsaslanan bütün növ sənaye və istehsal müəssisələrinin fəaliyyətinin keyfiyyət baxımından yüksəldilməsi, regionların ixrac potensialının artırılması, qeyri-neft istehsal sahələrinə daxili və xarici investisiyaların cəlb edilməsinin artırılmasına nail olunması, bölgələrdə turizmin inkişafına hərtərəfli şərait yaradılması, regionlarda istehsal sahələrinə yeni texnologiyaların tətbiqinin genişləndirilməsi, xidmət sahələrində keyfiyyətin yüksəldilməsi bu prioritetdə öz əksini tapmışdır.

Diversifikasiya siyasətinin ən mühüm prioritetlərindən biri də "Nəqliyyat, tranzit və loqistika infrastrukturunun təkmilləşdirilməsi, bölgələrin tarazlı inkişafı" adı altında müəyyən edilmişdir. Bu prioritetdə nəzərdə tutulan məqsədlər aşağıdakılardan ibarətdir: Ölkənin coğrafi mövqeyindən istifadə edərək, tranzit və nəqliyyat xidmətlərini geniş şəkildə və sürətlə inkişaf etdirərək ölkəni regionun iri ticarət mərkəzinə çevrilməsi; ölkənin bölgələrində loqistika mərkəzlərinin yaradılması; istehsal və investisiya proseslərini gücləndirmək yolu ilə ölkə iqtisadiyyatının cəlbediciliyinin artırılması; yeni biznes sahələrinin yaradılması və məşğulluq səviyyəsinin yüksəldilməsi; rayonlarda, regionlarda

əvvəllər mövcud olmuş ənənəvi təsərrüfat, istehsal sahələrinin bərpa olunması yolu ilə əhalinin əsas hissəsinin həmin istehsal proseslərinə cəlb edilməsi və s.

Bu prioritetdə nəzərdə tutulan ən vacib məsələlərdən biri nəqliyyat sektorunun inkişaf etdirilməsidir. Bu məsələ ona görə vacibdir ki, Azərbaycan Avropa və Asiya arasında körpü rolunu oynaya biləcək çox əlverişli mövqedədir, bundan istifadə edərək ölkəmizi nəqliyyat mərkəzinə çevirmək olar. Bu sahəni geniş inkişaf etdirərək küllü miqdarda gəlir əldə etmək olar ki, o da neft sektorundan əldə edilən gəlirləri əvəz etməyə tam şərait yarada bilər. Eyni zamanda ölkənin nəqliyyat dəhlizinə çevrilməsi ölkədəki istehsalçılara öz məhsullarını beynəlxalq bazarlara daha tez çatdırmaq üçün şərait yarada bilər ki, bu da bu sahədə dövriyyənin həm sürətlənməsini, həm də genişləndirilməsini təmin edə bilər. Bu amillər öz növbəsində ölkə iqtisadiyyatının cəlbediciliyini də artıracaqdır. Nəticədə iqtisadiyyatın şaxələnməsi sürətlənəcəkdir.

Diversifikasiya siyasətinin tərkib elementi olmaq etibarilə nəqliyyat infrastrukturunun inkişafı regionların inkişafı ilə uyğun şəkildə aparılmalıdır. Bu halda regionlarda istehsal edilən məhsullar daha çevik şəkildə beynəlxalq bazarlara çatdırıla bilər.

Təhlil edilən prioritetdə turizm zonalarının və yeni regional inkişaf mərkəzlərinin yaradılması da məqsəd kimi qarşıya qoyulmuşdur. Təhlillər göstərir ki, ölkəmizdə turizmin inkişaf etdirilməsi üçün potensial böyükdür. Bu potensial diversifikasiyanın uğurla aparılması üçün töhfə verə bilər. Turizmin inkişaf etdirilməsi regionların da inkişaf etdirilməsinə, yeni istehsal və xidmət sahələrinin yaranmasına və iqtisadiyyatda səmərəliliyin artmasına səbəb olacaqdır. Regionlarda yeni istehsal və xidmət sahələrinin yaradılması həmin regionda məşğulluğun səviyyəsinin artmasına, əmək məhsuldarlığının yüksəlməsinə, əhalinin gəlirlərinin çoxalmasına, iş qüvvəsinin əmək bazarında təmərküzləşməsinin zəifləməsinə imkan verəcəkdir. Qeyd edilənlər icra olunduğu halda haqqında danışdığımız prioritet diversifikasiya prosesinə öz müsbət təsirini göstərəcəkdir.

Diversifikasiyanın inkişaf etdirilməsinin ən mühüm prioritetlərindən biri də "Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi"dir. Belə bir prioritetin müəyyən edilməsinə zərurət ondan yaranmışdır ki, diversifikasiya prosesi iqtisadiyyatda transformasiyaya, yeni iqtisadi, inkişaf modelinin tətbiqinə səbəb olur. Bu halda yeni fəaliyyətə başlayan və transformasiya edilən bütün sahələrin fəaliyyəti ilə bağlı qanunvericilikdə dəyişikliklərin, təkmilləşdirilmələrin aparılmasına zərurət yaranır. Bu prioritetdə nəzərdə tutulur ki, iqtisadiyyatda sağlam rəqabət mühitinin yaradılması üçün qanunvericilikdə baş verən dəyişikliklərdə dövlət tənzimlənməsi əsas götürülməli və bu tənzimləmə bir sıra mühüm vəzifələri yerinə yetirməlidir. Həmin vəzifələrə qanunvericilik qaydasında biznes mühitinin yaxşılaşdırılması, milli qanunvericilik bazasnın beynəlxalq standartların tələblərinə uyğunlaşdırılması, beynəlxalq münasibətlərdə icra intizamı və nəzarət sisteminin daha da təkmilləşdirilməsi aid edilir. Bu istiqamətdə əsas vəzifə beynəlxalq ticarət əlaqələrinin genişləndirilməsi və daha da sürətlənməsi olduğundan qanunvericilikdə baş verən dəyişiklik və təkmilləşmələr də beynəlxalq ticarəti əhatə etməlidir.

Diversifikasiyanın uğurla həyata keçirilməsi məqsədilə konsepsiyada nəzərdə tutulan ən zəruri istiqamətlər içərisində informasiya, kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi, insan kapitalının inkişafı, əhalinin səmərəli sosial müdafiə sisteminin təşkil olunması, vətəndaş birliyinin təmin edilməsi, ətraf mühitin qorunması, ekoloji problemlərin həllində beynəlxalq standartların tətbiqi və s. məsələlər də vardır.

2014-cü ildə dünya neft bazarında baş vermiş qiymət volotilliyi ölkə iqtisadiyyatı qarşısında yeni problemlər yaratdı. İqtisadi inkişaf tempi aşağı düşdü, valyuta daxilolmaları azaldı, valyuta ehtiyatlarının həcmi xeyli dəyişdi, manatın devalvasiyası baş verdi, dollarlaşma gücləndi, məşğulluq səviyyəsi aşağı düşdü, işsizliyin səviyyəsi yüksəldi və s. İqtisadiyyatda yaranmış olan bu mənfi meyllərin aradan qaldırılması zərurəti yeni iqtisadi siyasətə keçidi şərtləndirdi. Bu məqsədə çatmaq üçün 2016-cı ilin dekabr ayında Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xərtitəsi qəbul edildi. Bu sənəddə iqtisadiyyatın qısamüddətli və uzunmüddətli dövrü üçün inkişaf etdirilməsinin hədəf və prioritetləri müəyyən edildi (2, s. 7).

Bu sənəddə müəyyən edilən ilk strateji hədəf fiskal dayanıqlığın gücləndirilməsi və davamlı monetar siyasətin reallaşdırılması ilə əlaqədardır. Bu hədəfə daxil edilən bir neçə prioritet vardır ki, onlardan birincisi və ən vacibi neft gəlirlərinin dövlət büdcəsinə köçürülməsi ilə bağlı olan, bu məsələni tənzimləyə biləcək "qızıl qayda"dan ibarət idi. Yol xəritələrinin qəbul edilməsində, diversifikasiyanın gücləndirilməsində əsas məqsəd neft gəlirlərindən asılılığın aradan qaldırılmasından ibarət olduğuna görə "qızıl qayda"nın qəbul edilməsi bu istiqamətdə ən zəruri tədbirlərin həyata keçirilməsində çox böyük əhəmiyyətə malikdir. Bu hədəf çərçivəsində nəzərdə tutulan prioritetlər xərclər və investisiya əməliyyatları üçün səmərəli mexanizmin yaradılmasından, xərclər çərçivəsinin mümkün qədər azaldılmasından, nəticə əsaslı büdcə mexanizminin işə salınmasından və s. ibarətdir. Bu prioritetlər göstərir ki, qeyri-neft inkişafına yönəldilmiş yeni iqtisadi siyasətin həyata keçirilməsi üçün dərin, elmi əsaslara söykənən strategiya işlənməli və reallaşdırılmalıdır.

Birinci hədəf çərçivəsində qəbul edilən mühüm prioritetlərdən biri yeni iqtisadi modeldə effektiv pul siyasəti rejiminin tətbiq edilməsidir. Bu istiqamətdə nəzərdə tutulan ən vacib məqsəd pul siyasətinin yeni rejimi vasitəsilə idxalın əvəzlənməsi siyasətinin dəstəklənməsidir.

Sənəddə qəbul edilən mühüm prioritetlərdən biri də özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların keçirilməsidir. Bu prioritetin həyata keçirilməsində məqsəd iqtisadiyyatın şaxələndirilməsinin sürətləndirilməsi və qeyri-neft sektoruna mümkün dərəcədə daha çox investisiyaların cəlb edilməsi yolu ilə iqtisadiyyatda özəl sektorun payının artırılmasını təmin etməkdən ibarətdir (3, s. 19).

Diversifikasiya siyasətinin genişləndirilməsi istiqamətində mühüm prioritetlərdən biri də əlverişli biznes mühitinin inkişaf etdirilməsidir. Bu istiqamətdə ən əsas məsələlər əlverişli biznes mühitinin yaradılmasında hökumətin rolunun gücləndirilməsindən və təşviqedici mühitin yaxşılaşdırılması vasitəsilə biznesin davamlığının möhkəmləndirilməsindən ibarətdir. Bu məqsədləri reallaşdırmaq üçün dövlət azad rəqabət mühitinin yaradılması üçün bütün zəruri addımları atmalı, uyğun vergi sistemini təmin etməli, dövlət xidmətlərinin çevikliyini və səmərəliliyini artırmalı, kiçik və orta sahibkarlığın sürətli inkişafını təmin edə biləcək bütün parametrləri yaratmalıdır (5, s. 79).

İqtisadi diversifikasiyanının sürətlənməsini təmin edə biləcək prioritet istiqamətlərdən biri də insan kapitalının inkişaf etdirilməsidir. Bu istiqamətdə görüləcək işlərin məqsədi əmək bazarı üçün yüksək səviyyəli, bacarıqlı, səriştəli, qabiliyyətli, bir sözlə, bazarın tələblərinə cavab verən mütəxəssislərin hazırlanmasından ibarətdir. Bunun üçün ölkənin təhsil sistemində təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi vacib şərtdir. Yüksək səviyyəli mütəxəssis hazırlığına həmişə ehtiyac vardır. Çünki ölkədə həyata keçirilən bütün islahatların, yeniliklərin icra olunması üçün insan kapitalına ehtiyac tükənməzdir. İnsan kapitalının səviyyəsi nə qədər yüksək olarsa, ölkədə həyata keçirilən dəyişikliklər bir o qədər sürətli və keyfiyyətli olar (4, s. 87-92).

Diversifikasiyanın həyata keçirilməsində dövlətin rolu əvəzsizdir. İqtisadi inkişafda yaranan böhran, kataklizm hallarında dövlət dərhal iqtisadi müdaxilələr etməklə vəziyyəti normallaşdırır. Bu dünya təcrübəsində təsdiq olunmuş bir haldır. Bizim ölkəmizdə də böhran baş verdiyi halda dövlət vəziyyətə nəzarət etmək, yaranmış mənfi meylləri aradan qaldırmaq üçün zəruri addımları atmış, özünün iqtisadi siyasətində diversifikasiyanı mühüm prioritetə çevirmişdir. Hal-hazırda da ölkə iqtisadiyyatında diversifikasiya prosesi uğurla həyata keçirilir. Onun nəticələri isə iqtisadi inkişafın 2019-cu il ərzində tam dinamik vəziyyətə gətirilməsinə səbəb olmuşdur.

## ƏDƏBİYYAT

1. "Azərbaycan 2020: Gələcəyə baxış" inkişaf konsepsiyası. Bakı: 2012 (Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir)
2. Azərbaycan Respublikasının "Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi" (Azərbaycan Respublikası Prezidentinin 06 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq olunmuşdur)
3. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuşdur)

4. Вопросы управления и экономики: современное состояние актуальных проблем. Сборник статей по материалам XXXI международной научно-практической конференции (Способы увелечения эффективности экономической диверсификации в Азербайджане - Багиров Орхан Мубариз оглы. стр 87-92). Москва, 2020 - 158 стр.
5. Значение диверсификации экономики и ее роль в экономическом развитии - Багиров Орхан Мубариз оглы. (Международный научно-практический журнал "Экономика Держава" №5, 2018, г.Киев, с 78-82), 216 с.

## РЕЗЮМЕ

**Орхан Багиров**

## ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ ДИВЕРСИФИКАЦИИ ЭКОНОМИКИ

В статье раскрывается значение и роль диверсификации, которая стала одним из важных направлений экономической политики в Азербайджане. Широко анализируется первый документ, отражающий реализацию этой политики, ее условия, цели и задачи, – концепция развития «Азербайджан 2020: взгляд в будущее». Затем исследуется второй документ – «Стратегическая дорожная карта Азербайджанской Республики по национальным экономическим перспективам». Цели и приоритеты, отраженные в обоих документах, определяют приоритетные направления диверсификации экономики в стране.

Автор, широко исследуя основные параметры диверсификации экономики в нашей стране, а также существующие приоритеты, определил наиболее важные направления мероприятий для дальнейшего развития экономики страны и обеспечения ее устойчивого развития. Обоснована роль государства в этом направлении, объяснены факторы, способные повлиять на усиление и ускорение данного процесса.

## SUMMARY

**Orkhan Baghirov**

## THE PRİORİTY DİRECTİONS FORDİVERSİFİCATİON OF THE ECONOMY

In the article, the importance and role of diversification, which has become one of the important directions of economic policy in Azerbaijan is explained. “Azerbaijan 2020: Look into the future” concept of development, which is the first document that includes the implementation, conditions, goals and objectives of this policy, is widely analyzed. Moreover, the second document, “Strategic Road Map on national economy” of the Republic of Azerbaijan is examined. The goals and priorities stated in both documents have identified priority directions for diversification of the economy in the country.

The author has determined directions of the most important measures to be taken to further develop the country's economy and ensure sustainable development by extensive analysis of the current priorities and the most important parameters of economic diversification in our country. The role of the state in this direction has been substantiated, and the factors that can affect the strengthening and acceleration of the process have been explained.

**AYAZ NEMƏTLİ**
*Azərbaycan Kooperasiya Universiteti*

# POSTNEFT DÖVRÜNDƏ BANKLARIN ANTİBÖHRAN SİYASƏTİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *banklar, antiböhran siyasəti, restrukturizasiya, kapitallaşma, rəqabət*
***Ключевые слова:*** *банки, антикризисная политика, реструктуризация, капитализация, конкуренция*
***Key words:*** *banks, anti-crisis policy, restructuring, capitalization, competition*

Banklar ölkə iqtisadiyyatının aparıcı strukturlarıdır. Onlar öz ictimai təyinatlarına, yerinə yetirdikləri vəzifə və funksiyalarına görə iqtisadiyyatda spesifik xüsusiyyətlərə malik olmaqla fərqli parametrlərlə fəaliyyət göstərirlər. Banklar ölkədə aparılan iqtisadi siyasətin həm makro, həm də mikro səviyyədə reallaşdırılmasını təmin edən strukturlar kimi çıxış edərək, çoxsaylı əməliyyatları icra edirlər.

Bankların iqtisadi inkişafdakı rolunu qiymətləndirərkən onların ictimai təyinatını nəzərə almaq lazımdır. Mülkiyyət baxımından banklar yekcins institutlar deyildir. Mərkəzi Bank dövlətin mülkiyyətidir. Mərkəzi Bank öz fəaliyyətini makroiqtisadi səviyyədə həyata keçirərək, öz siyasətini bu və ya digər regionun, xalq təsərrüfatının bu və ya digər sahəsinin deyil, bütövlükdə dövlətin və millətin maraqları naminə həyata keçirən bir ümummilli institut kimi çıxış edir. Bununla yanaşı, Mərkəzi Bank iqtisadi institut kimi çıxış edərək bütövlükdə pul, kredit, valyuta, investisiya, hesablaşma əməliyyatları apararaq ölkə iqtisadiyyatının normal fəaliyyət göstərməsini təmin edir (1, s. 35).

Banklar öz funksiya və vəzifələrindən irəli gələn fəaliyyətlə məşğul olaraq ölkə iqtisadiyyatında böhran vəziyyəti yarandıqda, kataklizmlər baş verdikdə ilk olaraq vəziyyətin normalaşması istiqamətində fəaliyyət göstərən qurumlardandır. 2014-cü ildən başlamış böhran vəziyyəti bütövlükdə həm iqtisadiyyatı, həm də elə onun əsas sektoru olan bank sektorunu bürümüşdür. Baş vermiş böhran nəticəsində ölkəyə valyuta daxilolmaları azalmış, ümumi daxili məhsulun artım tempi aşağı düşmüş, məşğulluq səviyyəsi zəifləmiş, inflyasiya güclənmişdir (3, s. 7).

2015-ci ilin əvvəlində baş vermiş xarici iqtisadi şoklar və devalvasiya nəticəsində maliyyə və bank sisteminin risk həssaslığı artmış və maliyyə göstəriciləri pisləşmişdir. Artan risklər fonunda bir sıra maliyyə institutlarının dayanıqlığı və uzunmüddətli hədəflərə fokuslanmış biznes modeli və strategiyasının olmaması, habelə bəsit risk idarəetməsi səbəbləri maliyyə sisteminin yeni iqtisadi konyuktura və bazar şərtlərinə uyğunlaşmasını çətinləşdirmiş və maliyyə vasitəçiliyini məhdudlaşdırmışdır (2, s. 5).

Baş verən böhran ölkəmiz üçün postneft dövrünün başladığını, artıq yeni iqtisadi siyasətə keçməyin zəruriliyini ortaya qoydu. Neftdən asılılığın yaratmış olduğu mənfi meyllərin aradan qaldırılması üçün iqtisadiyyatın bütün sahələrində inkişafın istiqamət və prioritetlərinin dəyişməsi günün tələbi kimi meydana çıxdı. Lakin bu heç də asan məsələ deyildi. Çünki 2015-ci ildə baş vermiş iki devalvasiya bank sistemində çoxsaylı, dərin problemlər yaratmışdı.

Valyuta bazarında inersiyon tələbin valyuta təklifini üstələməsi manatn məzənnəsinə təzyiqi yüksəltmişdir. Hökumət valyuta bazarında vəziyyətin tarazlaşdırılması, tədiyyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığının təmin edilməsi məqsədilə iki dəfə devalvasiya həyata keçirmişdir. Birinci devalvasiya həyata keçirildikdə depozit və kredit portfelinin dollarlaşması baş vermişdir. İkinci devalvasiya nəticəsində isə maliyyə vəsaitlərinin bank sistemindən kənarlaşması sürətlənmişdir. Baş vermiş ümumi iqtisadi artımın zəifləməsi fonunda bank sektorunda uzun müddət müşahidə edilən aktivlik azalmışdır (5, s. 9).

Baş vermiş iqtisadi şoklar nəticəsində borcalanların ödəmə qabiliyyəti zəifləmiş, kredit risklərinin artması sürətlənmişdir. İqtisadi artım dövründə yaradılmış kapital yastığının bir hissəsi itirilmiş, məcmu kapitalın adekvatlıq əmsalı müəyyən edilmiş minimum normativlərə yaxınlaşmış və Mərkəzi Bankın məlumatlarına əsasən 2015-ci ildə əvvəlki illə müqayisədə 4,2 faiz bəndi azalaraq

14,7 faiz bəndi təşkil etmişdir (2, s. 9).

Devalvasiyalar həyata keçirilən ilin sonunda əvvəlki illə müqayisədə kreditlərdə dollarlaşma 27 faizdən 50 faizə, depozitlərdə isə 50 faizdən 80 faizə yüksəlmişdir. Həmin il ərzində baş vermiş neqativ proseslər bankların kapital mövqeyinə təzyiqləri artırmışdır. İqtisadiyyatın və bank sisteminin dinamik iqtisadi artım dövründə banklar üçün müəyyən edilən minimum nizamnamə kapitalının beş dəfə artırılaraq 10 milyon manatdan 50 milyon manata çatdırılması müəyyən maliyyə yastığı yaratsa da, baş vermiş daxili və xarici şokların neytrallaşdırılması üçün yetərli olmamışdır. Bu faktı 2011-2015-ci illərin göstəricilərinin müqayisəsi də göstərir. 2014-cü ilin sonunda ölkənin bank sektoru 381 milyon manat xalis mənfəət əldə etmişdirsə, 2015-ci ildə bu sektor ili 351 milyon manat zərərlə başa vurmuşdur. Həmin il ərzində bank sektorunda məcmu kapitalın adekvatlıq əmsalı 18,9 faizdən 14,7 faizədək enmişdir (2, s. 18). Bundan başqa, 2015-ci ildən başlayaraq bankların ümumi mənfəətlilik dərəcəsi aşağı düşmüş, maliyyə dayanıqlığı və dayanıqsız bankların göstəriciləri arasındakı fərq dərinləşmişdir.

İqtisadiyyatda və xüsusən də bank sektorunda baş vermiş böhranın nəticələrinin aradan qaldırılması üçün kompleks tədbirlərin həyata keçirilməsi zərurətə çevrilmişdir. Zamanın yaratmış olduğu yeni çağırışların həlli istiqamətində bankların restrukturizasiyası, kapitallaşması, aktivlərin sağlamlaşdırılması, maliyyə inkluzivliyinin gücləndirilməsi, sığorta bazarının beynəlxalq standartlara uyğunlaşdırılması həlli ən vacib olan məsələlər sırasındadır.

Ölkədə hal-hazırda həyata keçirilən antiböhran tədbirlər sırasında ən vacibi bankların restrukturizasiyasıdır. 2015-ci ildən başlayaraq bank sistemində bu proses aktiv şəkildə aparılmaqdadır. Mərkəzi Bankın məlumatlarına əsaslansaq, deyə ilərik ki, 2015-ci ilin sonuna ölkəmizdə 43 bank, 48 bank olmayan kredit təşkilatı, 109 kredit ittifaqı, 27 sığorta təşkilatı, 5 investisiya şirkəti fəaliyyətdə olmuşdur. 2019-cu ilin sonunda isə bankların sayı 30, bank olmayan kredit təşkilatlarının sayı 47, kredit ittifaqlarının sayı 76, sığorta təşkilatlarının sayı 20, investisiya şirkətlərinin sayı isə 5 olmuşdur (4).

Göründüyü kimi, maliyyə sektorunda baş verən proseslər nəticəsində, xüsusən də güclənən rəqabətə dözməyən, kapitallaşma səviyyəsini təmin edə bilməyən, likvidlik səviyyəsini tələb edilən normativlər səviyyəsində saxlaya bilməyən 13 bank, 7 sığorta şirkəti, 33 kredit ittifaqı, 1 bank olmayan kredit təşkilatı bağlanmışdır. Aparılan restrukturizasiya nəticəsində maliyyə sistemində cəmi aktivlərdə bankların və bank olmayan kredit təşkilatlarının payı uyğun olaraq, 88 faiz və 9,7 faiz sığorta şirkətlərinin payı isə 2,3 faiz təşkil etmişdir.

Bank sistemində aparılan antiböhran tədbirlər içərisində ən mühüm istiqamətlərdən biri də kapitallaşma səviyyəsinin yüksəldilməsidir. Hələ böhrandan əvvəl, daha dəqiq desək, 2012-ci ilin iyul ayında Mərkəzi Bank banklarda minimum nizamnamə kapitalının həcminin 01 yanvar 2014-cü ilə qədər 50 mln manata qaldırılması tələbini qoydu. Bir il sonra, yəni 2013-cü ilin noyabr ayında bu tələbin yerinə yetirilə biləcəyi şübhə doğurduğundan bu müddət daha bir il uzadıldı və tələbin icra müddəti 01 yanvar 2015-ci ilə keçirildi. Həmin dövrə qədər minimum nizamnamə kapitalına olan tələbi ödəməyən banklar bağlandı. Hal-hazırda nizamnamə kapitalını 100 milyon manatdan çox toplayan bir sıra banklar vardır. Respublikanın bank sistemində nizamnamə kapitalının həcminə görə ilk onluqda qərarlaşan banklar üzrə 2018-ci ilin sonunda bu göstərici aşağıdakı kimi olmuşdur: 1) Azərbaycan Beynəlxalq Bankı - 1.241 mln manat; 2) Paşa Bank - 333 mln manat; 3) Xarici Ticarət bankı (Rusiya) - 315 mln manat; 4) Nikoyl Bank - (Rusiya) - 296 mln manat; 5) Xalq Bank - 225 mln manat; 6) Kapital Bank - 205 mln manat; 7) Accessbank - 140 mln manat; 8) Exspressbank - 137 mln manat (4); 9) Unibank - 125 mln manat; 10) Atabank - 120 mln manat.

Göründüyü kimi, 2015-ci illə müqayisədə bank sistemində kapitallaşma səviyyəsində xeyli irəliləyişlər vardır. Həm də nəzərə almaq lazımdır ki, kapitallaşma səviyyəsinin artması böhran illərində baş vermişdir. Lakin buna baxmayaraq, kapitallaşma səviyyəsinin artırılması bu gün də aktual olaraq qalır. Çünki bankın kapitallaşma səviyyəsi artdıqca bankın depozitlərdən və ümumi cəlb olunmuş vəsaitlərdən asılılığı azalır. Belə olduqda bankın mənfəət səviyyəsi artır, büdcəyə ödənən vergilər çoxalır, real sektora verilən kredit faizləri aşağı düşür, kreditin ekspansiyası güclənir, sahibkarlıq müəssisələrinin fəaliyyəti genişlənir. Bankların iqtisadi inkişafa təsiri güclənir, fəaliyyət

dairələri genişlənir. Bu baxımdan da bankların kapitallaşması antiböhran siyasətin əsas istiqamətlərindən biri kimi həmişə diqqət mərkəzində olmalıdır.

Böhranların baş verdiyi dövrdə banklarda problem yaradan mühüm məsələlərdən biri də onun sərəncamında olan aktivlərin strukturudur. Fəaliyyətin səmərəliliyinin artırılması, onun nəticələrinin yüksəldilməsinin ən mühüm amillərindən biri də aktivlərin sağlamlaşdırılmasıdır. Buna görə də qeyd edilən istiqamətdə fəaliyyət banklarda antiböhran siyasətin mühüm amillərindən birinə çevrilməlidir (5, s. 206).

Banklarda antiböhran tədbirlərin ən mühüm istiqamətlərindən biri də maliyyə bazarlarının, maliyyə xidmətlərinin inkişafı fonunda göstərilən xidmətlərin çoxalması və yayılmasıdır. Məlum olduğu kimi, banklar müştərilərə göstərdikləri xidmət çeşidlərini getdikcə artırırlar. Yeni xidmət sahələrinin yaranması və genişlənməsi yeni maliyyə qurumlarının təsiri altında baş verir. Yeni xidmət növlərinə hüquqi və fiziki şəxslərin şəxsi maliyyə planlaşmasını, pensiya-müavinət təminatını, vergi xidməti üzrə məsləhətləşmələri, əmlak üzrə broker xidmətlərini, qarşılıqlı fondlara investisiya və qiymətli kağızlar qoyuluşu üzrə broker xidmətlərini, yerli özünüidarəetmə orqanlarına borcların verilməsini, sığorta agentliklərinin idarə edilməsini, forma və məzmunca yeni növ kreditlərin tətbiq edilməsini və s. aid etmək olar (1, s. 37). Bu növ xidmətlərin genişlənməsi bankların fəaliyyətini daha da artıra bilər, onun səmərəliliyini yüksəldər. Nəticədə antiböhran fəaliyyət güclənmiş olar.

Post-neft dövründə bankların antiböhran siyasətinin əsas istiqamətlərindən biri də artan rəqabətə davam gətirmək üçün həyata keçirilməli olan, ən zəruri fəaliyyətlər olmalıdır. Məlum olduğu kimi banklar tərəfindən həyata keçirilən, maliyyə xidmətləri sahəsində rəqabətin səviyyəsi və intensivliyi banklar və bank olmayan təşkilatlar tərəfindən bu tip xidmətlərin genişləndirilməsi ilə əlaqədar yeni vüsət almışdır. Son illərin təcrübəsi göstərir ki, bankların həyata keçirdiyi istehlak kreditləri, müəssisə və şirkətlərə kreditlər, əmlakın maliyyələşdirilməsi, qiymətli kağızlar və maliyyə məsələləri üzrə məsləhətlər, eyni zamanda bu kimi digər xidmətlərin artması və sürətlənməsi artan rəqabətdə banklara üstünlük gətirə bilər. Bu baxımdan da banklar bu istiqamətdə işlərini daha da gücləndirməlidirlər.

Post-neft dövründə bankların antiböhran siyasəti daha bir neçə vacib istiqamətə yönəldilməlidir. Bunlara banklarda infrastrukturun daha da gücləndirilməsi, tənzimləmə və nəzarət mexanizminin təkmilləşdirilməsi, maliyyə savadlığının yüksəldilməsi və s. aid ola bilər. Nisbətən daha səmərəli nəticələrin əldə olunması üçün banklar yuxarıda qeyd edilən antiböhran tədbirlərini kompleks halda icra etməlidirlər. Bu halda qarşıya qoyulmuş strateji hədəflərə çatmaq, qarşıda gözlənilən maneələri, riskləri dəf etmək olar.

## ƏDƏBİYYAT


1. Bağırov M.M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik). Bakı: Nurlan, 2003, 512 s.
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi (Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuşdur)
3. Azərbaycan Respublikasının "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsinin başlıca istiqamətləri" (Azərbaycan Respublikası Prezidentinin 16 mart 2016-cı il tarixli, 1997 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur)
4. Azərbaycan Respublikasının Mərkəzi Bankının illik hesabatları. 2019-cu il
5. Кредитная политика и механизм ее реализации в период рыночных отнощений. Белоглазова Г.Н., Кроливецкая А.П. и др. СПб (повт.изд). Издово. СПбГУЭФ, 2015, 307 стр.

**РЕЗЮМЕ**

**Аяз Нематли**

**ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ АНТИКРИЗИСНОЙ ПОЛИТИКИ БАНКОВ В ПОСТНЕФТЯНОЙ ПЕРИОД**

В статье определены основные направления антикризисной политики банков в постнефтяной период. Автор сначала обосновал важность банков в экономике, а затем проанализировал функции и обязанности, которые они выполняют. Были рассмотрены негативные тенденции в экономике и банковской системе в результате экономических потрясений 2014 года. Обоснована необходимость антикризисных мер по устранению этих негативных тенденций. Особо выделены мероприятия, проводимые с целью реструктуризации банков, повышения уровня капитализации, укрепления активов посредством структурных изменений, расширения сектора услуг, повышения конкурентоспособности. С целью повышения эффективности банков в постнефтяной период, автором рекомендовано комплексное применение антикризисных мер.

**SUMMARY**

**Ayaz Nematli**

**THE MAİN DİRECTİONS OF ANTİ-CRİSİS POLİCY OF BANKS İN THE POST-OİL ERA**

In the article, the main directions of anti-crisis policy of banks in the post-oil era have been identified. The author have firstly substantiated the importance of banks in the economy, and then have analyzed the functions and tasks they realize. The negative trends in the economy and the banking system as a result of the economic shocks of 2014 have been examined. The necessity for anti-crisis measures to eliminate these negative trends have been substantiated. All activities aimed at restructuring banks, increasing the level of capitalization, strengthening assets through structural changes, expanding the service sphere, increasing competitiveness have been explained in terms of special significance. Comprehensive implementation of anti-crisis measures has been recommended to make banks more efficient in the post-oil era.

# II BÖLMƏ
# İQTİSADİYYAT VƏ İDARƏETMƏ

**AĞARZA RÜSTƏMOV**
**ƏBDÜLHÜSEYN ZAMANOV**
*Naxçıvan Dövlət Universiteti*

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ RƏQABƏT QABİLİYYƏTLİ VƏ İXRACYÖNÜMLÜ İNKİŞAFINA KEÇİDİN İNNOVATİV İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *Naxçıvan Muxtar Respublikası, qeyri-neft sektoru, investisiya, innovasiya, rəqabətqabiliyyətli, ixracyönümlü, məhsul istehsalı*

***Ключевые слова****: Нахчыванская Автономная Республика, не нефтяной сектор, инвестиция, инновация, конкурентоспособный, ориентированный на экспорт, производство продукции*

***Key words:*** *Nakhchivan Autonomous Republic, non-oil sector, investment, innovation, competitive, export-oriented, product production*

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin rəhbərliyə gələrək, 1990-cı illərinin ortalarından başladığı demokratik dövlət quruculuğu və iqtisadfi inkişaf siyasəti hal-hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Azərbaycan Respublikasının müstəqilliyi və suverenliyi bərpa edildikdən bu günədək olan müddətdə dövlət quruculuğu və sosial-iqtisadi inkişafın möhkəmləndirilməsi istiqamətində əməli addımlar atılmaqdadır. Bu dövr ərzində beynəlxalq və nüfuzlu təşkilatlarla, institutlarla əməkdaşlıq güclənmiş, inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərlə müxtəlif istiqamətli əlaqələr yaradılmışdır. Ölkənin iqtisadiyyatında davamlı artım, yüksəliş meyli özünü aydın göstərməkdədir. On altı ildən artıq bir müddət ərzində yeni müəssisələrin, iş yerlərinin açılması, regionların inkişaf səviyyəsindəki fərqlərin aradan qaldırılması, sosial və bazar infrastrukturun formalaşdırılması, sahibkarlıq fəaliyyətinə dövlət dəstəyinin göstərilməsi həyata keçirilən tədbirlər daxildə və xaricdə müsbət hal kimi qiymətləndirilərək, ölkəmizin dünya dövlətləri arasında nüfuzunun artmasına təsir etməkdədir.

Dünyada gedən qloballaşma siyasi və iqtisadi proseslər ölkə ərazisində istehsal olunan məhsulların rəqabət qabiliyyətini artırmaq, idxaldan asılılığı azaltmaq, ixracyönümlü qeyri-neft sektorunun əsaslı inkişafını təmin etmək, insan kapitalından səmərəli istifadə etmək kimi prioritetlərin ön plana çəkilməsini zəruri edir.

Ölkə başçısının son 16 il ərzində "Azərbaycan Respublikasında regionların sosial- iqtisadi inkişafına dair üç Dövlət Proqramı" (2004-2008-ci illər), (2009-2013-cü illər), (2014-2018-ci illər) icra olunmuş və 2019-2023-cü illəri əhatə edən dördüncü proqramın icrasından isə bir il ötmüşdür. Dövlət Proqramının əsas məqsədlərindən biri də istehsal olunan məhsulların dəyər zəncirinin həlqələri üzrə gücləndirilməsi, rəqabət qabiliyyətini artırmaq, ixracyönümlü məhsul istehsalının artırılması və idxalın, əsasən, daxili istehsalla əvəz edilməsindən ibarətdir [5].

Bu baxımdan məhsulların istehsalı üzrə gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi, resursların daha səmərəli bölüşdürülməsi, yerli istehsalın rəqabət qabiliyyətinin təmin edilməsi məsələləri diqqət mərkəzində saxlanılmalıdır. Qarşıya qoyulan bu mühüm və taleyüklü məsələlərin uğurlu icrasında, regionların iqtisadiyyatına yetərli investisiyaların yönəldilməsi böyük əhəmiyyət daşıyır. Bunun üçün ilk növbədə münbit investisiya mühitinin formalaşması, investisiyaların dövlət tərəfindən qorunması, daxili bazarın genişləndirilməsi, istehsal edilən məhsulların ölkə daxilində istehlak və xaricə ixrac imkanlarının yüksəldilməsi mühüm əhəmiyyət kəsb edir. Qabaqcıl ölkələrin təcrübəsi də sübut edir ki, iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, onun iqtisadi səmərəliliyinin

və rəqabət qabiliyyətinin yüksəldilməsi ixrac- yönümlülüyünün artırılmasında yuxarıda göstərilən inkişaf istiqaməti əsas götürülür.

Ötən il ərzində həm dövlət, həm yerli və xarici şirkətlər ölkəmizə 13.5 milyard ABŞ dolları həcmində vəsait qoyublar. 2003-cü ildən bu günə qədər bütövlükdə Azərbaycan iqtisadiyyatı 3,4 dəfə artmışdır. 16 il ərzində sənaye istehsalı 2,7 dəfə, kənd təsərrüfatı 2 dəfə, xarici ticarət dövriyyəsi 6,4 dəfə, ixrac 7,6 dəfə, o cümlədən qeyri-neft ixracı 5,2 dəfə artmışdır (5).

Beynəlxalq hesabatlarda Azərbaycan bəzi alt göstəricilər üzrə ilk 20-liyə daxil olub. Azərbaycan "İnnovasiya potensialı" göstəricisi üzrə 14 pillə, "Texnoloji səviyyə" göstəricisi üzrə 13 pillə, institutların keyfiyyəti göstəricisi üzrə isə 5 pillə irəliləmişdir. Rəqabətlilik indeksinə görə Azərbaycan artıq neçə ildir ki, MDB məkanında liderdir [2].

"Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası digər regionlarda oldugu kimi, Naxçıvan Muxtar Respublikasının sosial- iqtisadi inkişafına da öz müsbət təsirini göstərmişdir.

Naxçıvan Muxtar Respublikasının çox zəngin xammal və resurs potensialının mövcudluğu, iqlim şəraiti, alternativ və bərpa olunan enerji mənbələri, sənayesi, kənd təsərrüfatı, inkişaf etmiş nəqliyat şəbəkəsi, sosial-iqtisadi inkişafında mühüm rol oynamaqla iqtisadiyyatın çox şaxəli inkişafına səbəb olmuşdur.

Ötən illər ərzində muxtar respublikanın inkişafını təmin etmək məqsədilə icrası uğurla başa çatan dövlət proqramları və Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən qəbul edilmiş cox saylı dövlət proqramları və sərəncamlar ümumi inkişafa təkan verib, yeni istehsal və xidmət infrastrukturları fəaliyyətə başlamış, mövcud istehsal müəssisələrinin yenidən qurulması istiqamətində aparılan uğurlu islahatlar bu sahənin sürətli inkişafına zəmin yaradıb.

Regionda son illərdə iqtisadiyyatın rəqabət qabiliyyətinin və ixracyönümlülüyünün artırılması, müasir elmi və texnoloji nailiyyətlərə əsaslanan informasiya və kommunikasiya texnologiyaları sahələrinin genişləndirilməsi, elmi tədqiqatlar aparılması və yeni informasiya texnologiyalarının işlənilməsi üzrə innovativ layihələrin dəstəklənməsini təmin etmək məqsədi ilə 19.09.2019 –cu il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi yanında Elmin İnkişaf Fondu yaradılmışdır [4]. İnnovasiya fəaliyyəti infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən texnoparklar, sənaye məhəlləsinin, biznes inkubatorlar şəbəkəsinin genişləndirilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur. Müasir dünya üçün beynəlxalq innovasiya şəbəkələrinin formalaşması, müxtəlif ölkə və korporasiyaların elmi-texniki tədqiqat və innovasiyayönümlü birgə fəaliyyət istiqaməti xarakterikdir. Bu istiqamətdə yeni və müasir məhsul növləri ilə dünya bazarına çıxma imkanları artırmaqdadır. Regionun iqtisadi inkişafının sürətləndirilməsi, yeni innovasiya və rəqabət qabiliyyətli ixracyönümlü məhsul istehsalının artırılması təmin edilməkdədir. Belə ki, 2019-cu ildə 497.0 milyon ABŞ dolları həcmində xarici ticarət dövriyyəsi olmuşdur ki, bundan da 71.5 milyon ABŞ dollar həcmində idxal olunmuş 425.5 milyon ABŞ dollar müsbət saldo yaranmışdır [3].

Regionun xarici ticarət dövriyyəsinin təqribən 76 faizini sənaye məhsulları, 26 faizini isə kənd təsərrüfatı məhsulları təşkil edir. Regionun xarici ticarətində innovasiya və rəqabətyönümlü məhsulların həcmi öz yüksək səviyyəsi ilə seçilmir.

İnvestisiya - gəlir əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan real maliyyə aktivlərindən və digər ehtiyatlardan, ibarətdir.

Aparılan tədqiqatlar göstərir ki, son illərdə regionun sosial-iqtisadi inkişafı artan dinamika ilə yüksəlir. Belə ki, 2019-cu ildə qeyri-neft sənayesində ümümi daxili məhsulun həcmi 2009-cu ilə nisbətən 2019-cu ildə 2.9 dəfədən cox artaraq 2839.6 milyon manata çatmışdır, sənaye məhsulu 4,7 dəfə artaraq 1014,9 milyon manata, əsas kapitala yönəldilən vəsaitlər 2,5 dəfə artaraq 1029,0 milyon manata çatmışdır [3].

Qlobal rəqabət mühitində inkişaf etməkdə olan qeyri-neft sənayesi ənənəvi sahələrlə yanaşı, yeni məhsul istehsalı üzərində qurulan müasir tipli sahələrin yaranması ilə də xarakterizə olunamalıdır. Ötən il ərzində həyata keçirilən ardıcıl tədbirlər nəticəsində istehsal sahələri genişlənmiş və iqtisadiyyatın çoxşaxəli inkişafına səbəb olmuş, kredit təşkilatları tərəfindən 24,5 milyon manat kredit

verilmiş, 72 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlamış, 37 hüquqi və 3459 fiziki şəxs dövlət qeydiyyatına alınmışdır. Sahibkarlığın hazırkı inkişaf səviyyəsinin nəticəsidir ki, bu gun muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat isə tamamilə yerli istehsal hesabına ödənilir [4].

Mövcud ehtiyatlarlardan maksimum istifadə edərək, regionda mineral sular zavodu, sement zavodu, kərpic zavodu, trafetin daş üzləmə zavodu, plastik qapı-pəncərə, gəc istehsalı sexləri, avtomobil zavodu kənd təsərrüfatı məhsulları istehsalı və emalı müəssisələrinin yenidən qurulması, Naxçıvan Beynəlxalq Hava Limanında yeni uçuş-enmə zolağının qurulması, Culfa stansiyasında İstismar Vaqon Deposunun təmiri sexinin tikintisi, avtomobil yollarının yenidən qurulması, Günəş Elektrik Stansiyasının, Su Elektrik Stansiyasının tikintisi meliorasiya və irriqasiya tədbirləri, kanalzasiya və su təmizləyici qurğular, bir sıra yüngül və yeyinti sənayesi müəssisələri yaradılmış, həmçinin bu sahələr üzrə yeni infrastrukturlar fəaliyyətə başlamışdır. Naxçıvanın əsas ixrac məhsulları arasında tanınmış brend kimi ölkəmizi xarici bazarlarda tanıdan "Badamlı" və "Sirab" mineral sularını, yüksəkkeyfiyyətli tikinti materiallarını, ekoloji cəhətdən təmiz təbii duzu, emal olunmuş ət məhsullarını, spirtli və qazlı aromatlaşdırılmış içkiləri, vafli məmulatlarını, təzə meyvə və meyvə şirələrini göstərmək olar.

Ayrıca yay turizm mövsümündə beynəlxalq turizminin gəlmə tipi üzrə Naxçıvanın ixrac potensialının artmasına şərait yaranıb. Cari ildə regiona 416 mindən çox turist gəlmişdir. Görülən işlər əhalinin məşğulluq səviyyəsini artırmış, cari ilin ötən dövründə muxtar respublika üzrə 3250 yeni iş yeri açılmışdır [4].

Ərzaq təhlükəsizliyi baxımından xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri kimi kənd təsərrüfatı məhsullarının istehsalı və emalına xüsusi diqqət yetirilir, bu sahənin inkişafı əsasında müasir texnologiyaların tətbiqi yolu ilə mövcud emal müəssisələrinin istehsal gücünün artırılması və yeni müəssisələrin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir.

13 sentyabr 2019-cu il tarixli Azərbaycan Prezidenti İlham Əliyevin "Şərur sənaye məhələsinin yaradılması haqqında" Fərmanı ilə 5 milyon manat vəsaitin Naxçıvan Muxtar Respublikasına ayrılması nəticəsində qarşıya qoyulan əsas hədəflərdə aşağıdakılar nəzərdə tutulur:

- Naxçıvan iqtisadi regionunda bitki yağları istehsal ediləcək günəbaxan, qargıdalı və s. məhsulların istehsalının artırlmasına, rəqabət qabiliyyətli və ixracyönümlülüyünə nail olmaq;
- Mikro, kiçik və orta sahibkarlıqda biznes mühitini formalaşdrmaq regionun ixrac məhsulları arasnda onların payının artırılmasna nail olmaq;
- Yeni iş yerləri yaratmaq;
- Bu əsasda əhalinin pul gəlirlərinin artırılmasını və həyat səviyyəsinin yüksəlməsini, həmçinin kənd yerlərində yaşayanların maddi rifah səviyyəsinin yaxşılaşdırılmasına kömək etməkdir [4].

Regionda sənaye müəssisələrinin yenidən qurulmasının aparılmasında müəyyənedici istiqamət yüksək texnoloji, elmtutumlu istehsalın inkişafıdır. Bu inkişaf meyli rəqabətqabiliyyətli məhsul buraxılışını və onun xarici bazarlara çıxışını təmin edəcəkdir.

Bir çox müəssisələrdə, əsasən də, kimya sənayesində məhsul istehsalının azalması, mövcud istehsal güclərindən aşağı səviyyədə istifadə olunması, avadanlıq və texnologiyaların fiziki və mənəvi cəhətdən köhnəlməsi, məhsul satışındakı problemlər texniki-iqtisadi, maliyyə və keyfiyyət göstəricilərinin azalmasına gətirib cıxarmışdır [6].

- Sənaye müəsisələrində olan texniki və texnoloji bazanın mütərəqqi inkişafdan geriliyi;
- Əsaslı vəsait qoyuluşunun və bazarın tənzimləmə mexanizminin infrastukturun kifayət qədər inkişaf etməməsi;
- Regionda sənaye sahələrinin elmi və innovasiya tədqiqatları aparması üçün iqtisadi bazanın zəifliyi;
- Texniki və texnoloji avadanlıqların mütərqqi inkişafdan geriliyi;
- Maliyyə və kreditlərin uçot dərəcəsinin yüksək olması;
- Məhsul istehsalında istehsal fondlarının amortizasiyasının, material və enerji tutumluğunun səviyyəsinin yüksəkliyi.

***Naxçıvan Muxtar Respublikasında qeyri-neft sektorunun inkişafına təsir edən problemlər aşağıdakı şəkildə xarakterizə edilir:***

| № | Makroiqtisadi göstəricilər | İllər | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** | **2015** | **2016** | **2017** | **2018** | **2019** |
| 1 | ÜDM | 973.6 | 1171,3 | 1786,3 | 2103,4 | 2338,9 | 2391,0 | 2467,4 | 2582,3 | 2701,6 | 2773 | 2839,6 |
| 2 | Sənaye məhsulu | 212,4 | 318,5 | 680,9 | 799,4 | 862,8 | 891,4 | 916,8 | 942,9 | 967,0 | 990,0 | 1014,9 |
| 3 | Əsas kapitala yönəldilən vəsaitlər | 411,5 | 501,1 | 815,5 | 981,2 | 1037,7 | 924,6 | 951,1 | 997,6 | 1005,7 | 1017,0 | 1029,2 |
| 4 | O cümlədən quraşdırma işlərinə | 363,0 | 443,4 | 728,1 | 874,5 | 919,0 | 806,9 | 834,5 | 921,6 | 933,0 | 947,8 | 965,4 |
| 5 | Maşın, avadanlıq, inventar və s. | 48,5 | 57,7 | 87,4 | 107,7 | 118,7 | 117,7 | 116,6 | 76,0 | 72,7 | 69,2 | 63,8 |
| 6 | Kənd təsərrüfatı məhsulu | 185,1 | 247,1 | 296,1 | 318,8 | 337,1 | 355,1 | 402,9 | 429,4 | 453,3 | 489,0 | 5-7,6 |
| 7 | Nəqliyyat sektorunda yük daşınması (min ton) | 9,7 | 11,1 | 12,7 | 13,9 | 15,2 | 15,5 | 15,8 | 16,0 | 16,3 | 16,6 | 16,9 |
| 8 | İnformasiya və rabitə xidmətləri | 31,1 | 36,5 | 39,2 | 42,4 | 45,0 | 46,0 | 46,9 | 48,7 | 49,7 | 51,3 | 52,7 |
| 9 | Pərakəndə əmtəə dövriyyəsi | 484,7 | 616,4 | 815,2 | 975,3 | 1108,6 | 1144,4 | 1276,9 | 1506,3 | 1659,9 | 1702 | 1725,8 |
| 10 | Əhaliyə göstərilən pullu xidmətlər | 87,2 | 107,2 | 126,7 | 149,7 | 180,7 | 187,0 | 195,8 | 213,6 | 235,9 | 239,8 | 242,7 |
| 11 | Əhalinin gəlirləri | 913,3 | 1007,4 | 1445,7 | 1623,4 | 1737,0 | 1775,7 | 1804,1 | 1825,5 | 1845,8 | 1866,0 | 1874,8 |
| 12 | Hər bir nəfərə düşən gəlirlər (man) | 2284 | 2479,9 | 3489,5 | 3839,0 | 4027,5 | 4058,8 | 4080,9 | 4085,9 | 4092,7 | 4105,8 | 6201 |
| 13 | Orta aylıq əmək haqqı (man) | 272,3 | 302,6 | 341,4 | 365,1 | 376,6 | 391,3 | 399,5 | 413,2 | 420,1 | 433,0 | 484,8 |
| 14 | İqtisadiyyata kredit qoyuluşu (mln. man) | 42,9 | 35,9 | 47,2 | 58,6 | 49,7 | 54,4 | 70,2 | 43,3 | 31,3 | 50,8 | 143,1 |
| 15 | Əhalidən cəlb olunan əmanətlər (mln. man) | 1,9 | 3,0 | 3,9 | 4,5 | 6,1 | 5,0 | 6,7 | 6,5 | 6,5 | 6,5 | 9,7 |

Regionun davamlı iqtisadi inkişafına nail olunması üçün qeyri-neft sektorunun investisiya vəsaitləri ilə səmərəli təminatı istiqamətində aşağıdakıların kompleks şəkildə həyata keçirilməsi zəruridir:

- Təhlil və araşdırmalardan məlum olur ki, muxtar respublikada regionda Azad İqtisadi Zonanın yaradılmasının sürətlədirilməsi;
- Regionda sənaye məhəlləsinin yaradılması, innovasiya fəaliyyəti üzrə infrastrukturun və mühitin formalaşdırılması;
- Yerli xammal və resurslardan innovasiya və ixracyönümlü məhsul istehsalına keçidin təmin olunması;
- Müəssisələrin elm və yeni texnologiyalara əsaslanan rəqabət qabiliyyətli ixracyönümlü məhsulların istehsalı fəliyyətinin dəstəklənməsi;
- Əməktutumlu sahələrə verilən kreditlərin faiz dərəcələri ilə Mərkəzi Bankın uçot dərəcələri arasında yaranan fərq dövlət büdcəsi hesabına ödənilməsi;
- Dövlət tənzimləmə mexanizmi ilə kənd təsərrüfatı məhsulları istehsalçılarının gəlirlərinin sığorta edilməsinin səmərəli sisteminin yaradılması;
- Regionda yerli xammala əsaslanan sənaye müəssisələrinin fəaliyyətinin keyfiyyətcə müasir səviyyədə qurulması və yeni müəssisələrin yaradılması;
- İnnovasiyayönümlü texnologiyaların tətbiqi əsasında rəqabət qabiliyyətli və ixracyönümlü, ixtisaslaşmış və xüsusi təyinatlı sənaye şəhərciklərin yaradılmasının sürətləndirilməsi və s.

Əldə olunan davamlı iqtisadi inkişaf Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsində olmuşdur. Bu istiqamətdə muxtar respublikamızda davam etdirilən iqtisadi inkişaf siyasəti insanların rifahının yüksəlməsinə, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşmasına töhfəsini verməklə bərabər, prioritet məsələlərin həllində də öz əhəmiyyətini bir daha göstərməkdədir.

## ƏDƏBİYYAT


1. İ.Alıyev, İ.Soltanlı. Aqrar sahənin modernləşməsi dönəmində rəqabətqabiliyyətliliyinin təmin olunmasi problemləri. Bakı: 2015, səh. 221
2. İ.Alıyev. "İqtisadi inkişafa strateji baxış" monoqrafiya. 2018
3. http://statistika.nmr.az/macroeconomy/index.php
4. Copyright © 2011 Naxçıvan MR Ali Məclisi. All rights reserved.
5. Respublika qəzeti 4 fevral 2020-ci il 2019-2023-cü illərdə Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının yekunu haqda
6. 6-XII-2016 cı il "Strateji Yol Xəritəsi"


## РЕЗЮМЕ

**Агарза Рустамов, Абдулгусейн Заманов**

### ИННОВАЦИОНЫЕ НАПРАВЛЕНИЯ ПЕРЕХОДА НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ К КОНКУРЕНТОСПОСОБНОМУИ ОРИЕНТИРОВАННОМУ НА ЭКСПОРТ РАЗВИТИЮ

С расширением отраслей информационных и коммуникационных технологий, основанных на современную науку и достижений в технологии, за счёт поддержки инновационных проектов, можно повысить устойчивость и конкурентоспособность экономики, уменьшить зависимость от импорта, достичь развития, ориентированного на экспорт.

В статье исследованы влияние инвестиций на длительное развитие не нефтяного сектора, текущее состояние капитальных вложений и вопросы изучения проблем в этой отрасли в Нахчыванской Автономной Республике.

## SUMMARY

**Agarza Rustamov, Abdulhuseyn Zamanov**

### INNOVATIVE INSTITUTIONS FOR THE COMPETITIVE AND EXECUTIVE DEVELOPMENT OF THE NAKHCHIVAN AUTHORITIES

Expansion of information and communication technologies based on modern scientific and technological achievements can be achieved through the promotion of innovative projects, increasing the economys resilience, competitiveness, and reducing export dependence.

The article examines the impact of investment in sustainable development of the non-oil sector in the Nakhchivan Autonomous Republic, the current state of capital investments and the study of problems in this area.

**MÜBARİZ BAĞIROV**
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# BANKLARLA REAL SEKTORUN QARŞILIQLI ƏLAQƏLƏRİNİN İNSTİTUSİONAL AMİLLƏRİ

***Açar sözlər:*** *banklar, bank sistemi, real sektor, institusional amillər, kreditlər, aktivlər, depozitlər.*
***Ключевые слова:*** *банки, банковская система, реальный сектор, институциональные факторы, кредиты, активы, депозиты.*
***Key words:*** *banks, banking system, real sector, institutional factors, loans, assets, deposits.*

İstənilən ölkədə normal, dayanıqlı, davamlı inkişafa nail olmaq üçün ölkə iqtisadiyyatının ayrı-ayrı sahə və sektorlarının kompleks şəkildə, qarşılıqlı surətdə fəaliyyət göstərməsi, onların bir-birinin fəaliyyətini tamamlaması çox vacibdir. Çünki bu və ya digər sektor və ya sahə ölkədə aparılan iqtisadi siyasətin tələblərinə cavab verə biləcək səviyyədə fəaliyyət göstərməzsə, bu nəticədə digər sektor və sahələrin də normal fəaliyyətini pozub mənfi meyllərin yaranması üçün zəmin yarada bilər. Bu halların baş verməməsi üçün istənilən ölkədə uğurlu, iqtisadi siyasət aparılması məqsədilə büdcə, maliyyə, gömrük, bank, sığorta, pul, kredit, investisiya və s. siyasət elə qurulur ki, onların fəaliyyəti real sektorun, ümumiyyətlə iqtisadiyyatın bütün sahə və sektorlarının normal fəaliyyətini təmin edə bilsin. Sahə və sektorlararası uyğun fəaliyyətin qurulması çoxsaylı amillərdən asılıdır. Həmin amillərdən biri də məhz institusional amillərdir. İnstitusional amillər öz xarakter və mahiyyətinə görə digər amillər içərisində aparıcı rola malikdir. Bunun əsas səbəbi ondan ibarətdir ki, istənilən sektor və sahənin fəaliyyətində və hətta onların qarşılıqlı əlaqəsində də institusional amillər mövcud olmadan fəaliyyəti başlamaq mümkün olmur. İnstitusional amillər kifayət dərəcədə möhkəm olduqda sahələrarası tarazlı inkişafı qurmaq, makrosəviyyədə davamlı inkişafı təmin etmək asanlaşır (7, s. 67).

Ölkədə iqtisadiyyatının uğurlu, dayanıqlı və davamlı inkişafını təmin etmək üçün ən zəruri məsələlərdən biri də banklarla real sektorun qarşılıqlı əlaqələrinin institusional amilləridir.

## II. Azərbaycan iqtisadiyyatında bankların və real sektorun əlaqələrinin parametrik xüsusiyyətləri

Ölkə iqtisadiyyatının həm makro, həm də mikro səviyyədə problemlərinin həll edilməsi üçün bank sistemi ilə real sektor arasında qarşılıqlı əlaqələrin qurulması, idarə edilməsi və daimi olaraq tənzimlənməsi ən vacib məsələlərdəndir. Bu vəzifənin yerinə yetirilməsi üçün zəruri şərtlər bu qarşılıqlı əlaqələrin institusional amillərinin təsir səviyyəsindən asılı olur. İnstitusional amil dedikdə qarşılıqlı əlaqədə olan sektorların tərkib elementi olan strukturların fəaliyyətinin formal və qeyri-formal çərçivələrinin məcmuyu başa düşülməlidir. Bank sektoru ilə real sektorun arasındakı əlaqələrin institusional amillərinin geniş şəkildə baxılması üçün ölkənin bank sisteminin və onun ayrı-ayrı struktur elementlərinin fəaliyyətinin real sektora təsiri təhlil olunmalıdır. Bunun üçün Mərkəzi Bankın, kredit təşkilatlarının, bankların filial şəbəkəsinin kredit resurslarının regional və sahəvi təmərküzləşməsi, kredit portfelinin vəziyyəti və s. məsələlər nəzərdən keçirilməlidir.

Azərbaycan Respublikasının bank sistemi iki pilləli bank sistemi olmaqla hal-hazırda I pillədə Mərkəzi Bankdan, II pillədə isə kredit təşkilatlarından ibarətdir. 01.07.2020-ci il tarixə ölkədə 26 bank, 48 bank olmayan kredit təşkilatı, 76 kredit ittifaqı mövcuddur (1). Qeyd etmək lazımdır ki, 2009-cu ildə ölkədə 46 bank, 120 bank olmayan kredit təşkilatı, 180 kredit ittifaqı fəaliyyət göstərirdi. Həmin dövrdə bankların minimum nizamnamə kapitalı 10 mln manat müəyyən edilmişdi. 2012-ci ildə Mərkəzi Bankın idarə heyəti bankların minimum nizamnamə kapitalının 01.01.2014 cü ilə 50 mln manata çatdırılması tələbini qoydu. 2013-cü ilin noyabr ayında banklar tərəfindən bu tələbin yerinə yetirilməsində problemlər olduğunu görən Mərkəzi Bank tələbin yerinə yetirilməsi müddətini 01.01.2015-ci ilə qədər uzatdı (6, s. 207).

Həmin tarixə minimum nizamnamə kapitalını toplaya bilməyən banklar 2016-cı ildə bağlandı və onların sayı 30-a endi. 2020-ci ilin əvvəlindən isə daha 4 bank likvidlik normativlərini qoruya

bilmədiyindən və kapital itgilərinə yol verdiyindən ləğv edildi (Cədvəl 1).

Cədvəl 1-in göstəricilərindən görünür ki, əsrin əvvəllərində ölkədə 43 bank fəaliyyət göstərmişdir. Həmin dövrdə bankların 19-da nizamnamə kapitalı 3,5 mln AZN-dən az, 10 bankda 3,5 mln AZN dən 5,0 mln AZN-ə dək, 10 bankda 5 mln AZN dən 10 mln AZN-ə dək, 4 bankda isə 10 mln AZN dən çox olmuşdur. 2005-ci ildə bu göstəricilər 2004-cü il ilə müqayisədə xeyli dəyişmişdir. Bankların sayında dəyişmə çox olmasa da, onların arasında nizamnamə kapitalının səviyyəsinə görə yaxşılaşma baş vermişdir.

**Cədvəl 1.** ***2004-2020-ci illər ərzində Azərbaycanın bank sistemində bankların say dinamikası və nizamnamə kapitalının səviyyəsinə görə onların bölgüsü***

| **Bankların nizamnamə kapitalının səviyyəsi, mln AZN** | **İ L L Ə R** | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | **2004** | **2005** | **2006** | **2007** | **2008** | **2011** | **2013** | **2015** | **2017** | **2020.01.07** |
| 3,5-dən aşağı | 19 | 2 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 | 0 |
| 3,5-dən 5,0-a qədər | 10 | 9 | 3 | 1 | 1 | 1 | 1 | 0 | 0 | 0 |
| 5,0-dan 10-a qədər | 10 | 23 | 29 | 5 | 2 | 1 | 1 | 1 | 0 | 0 |
| 10-dan yuxarı | 4 | 8 | 11 | 33 | 43 | 42 | 41 | 42 | 30 | 26 |
| Cəmi banklar | 43 | 42 | 43 | 45 | 46 | 44 | 43 | 43 | 30 | 26 |

**Mənbə (1):** *Cədvəl Azərbaycan Respublikası Mərkəzi Bankının məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Belə ki, 2005-ci ilin sonuna nizmanamə kapitalı 3,5 mln AZN-dən az olan cəmi 2 bank qalmışdır. Nizmanamə kapitalı 5 mln AZN-dən 10 mln AZN-ə qədər olan bankların sayı 23-ə, 10 mln AZN-dən çox olan bankların sayı isə 8-ə qalxmışdır. Bu meyldə yaxşılaşma 2006-cı ildə də davam etmişdir. Həmin ilin sonuna nizamnamə kapitalı 5 mln AZN-dən 10 mln AZN-ə qədər olan bankların sayı 29-a, 10 mln AZN-dən çox olan bankların sayı isə 11-ə çatmışdır. 2007-ci illərdən başlayaraq və sonrakı illərdə 98% banklarda nizamnamə kapitalı 10 mln AZN-i ötmüşdür.

Ölkənin bank sistemində sürətli institusional dəyişikliklər 2014-2015-ci ilin qlobal maliyyə böhranının təsiri nəticəsində baş vermişdir. 2015-ci il ərzində 2 dəfə devalvasiyanın baş verməsi eyni zamanda nizamnamə kapitalının minimum həddinin 5 dəfə artırılması və s. nəticəsində bir sıra banklar kapital itgiləri ilə, likvidlik səviyyəsinin itirilməsi ilə üzləşdilər. 2015 və 2016-cı illər ərzində sistemdə fəaliyyət göstərən 13 bank bağlandı və 2017-ci ilə işləyən bankların sayı 30-a endi. Kapital adekvatlığını qoruya bilməyən, likvidlik səviyyəsini qoruya bilməyən və kapital itkilərinə yol verən daha 4 bank 2020-ci ilin əvvəllərində bank bazarını tərk etdilər. Hal-hazırda ölkənin bank sistemində 26 bank fəaliyyət göstərir. Mütərəqqi inkişaf yolu tutmuş bütün bank sistemlərində fəaliyyətə qoyulan tələbləri yerinə yetirə bilməyən, daimi olaraq kapitallaşma səviyyəsini artıra bilməyən, real sektorla səmərəli fəaliyyət qura bilməyən bankların sistemi tərk etməsi məntiqi bir nəticədir. Elə bu yolla aparılan institusional tədbirlər həmişə aparılmalı və bank sisteminin təkmilləşdirilməsi amili kimi çıxış etməlidir (2, s. 267).

Azərbaycanda iqtisadiyyatda banklarla real sektorun qarşılıqlı əlaqələrində mühüm əhəmiyyət kəsb edən ən mühüm amillərdən biri bankların kapitallaşma səviyyəsidir. Qeyd edildiyi kimi, bankların minimum nizamanmə kapitalı 2015-ci ilin 1 yanvar tarixindən 50 mln manat müəyyən edilmişdir. 2017-ci ilin sonuna olan məlumatlara əsasən ölkədə fəaliyyət göstərən 30 bankdan 7-nin xüsusi kapitalı 100 mln manatdan artıq olmuşdur. 15 bankın məcmu kapitalı 50 mln manatdan 100 mln manata qədər, qalan 8 bankın məcmu kapitalı isə 50 mln manatdan az olmuşdur (3). 2018-ci ilin sonuna olan məlumatlara əsasən ölkədə nizamnamə kapitalının səviyyəsinə görə ilk onluqda aşağıdakı banklar olmuşdur (Cədvəl 2). Azərbaycanda bank sektorunda kapitallaşma səviyyəsinin getdikcə artması iqtisadiyyatın inkişafında bu sektorun rolunun yüksəlməsi ilə, həmçinin bu sektorun real sektorla əlaqələrinin genişlənməsi ilə izah edilir. Çünki banklar tərəfindən artırılan resurslar bütövlükdə iqtisadiyyatın müxtəlif sahələrinə yönəldilir.

**Cədvəl 2.** ***Azərbaycan Respublikasının bank sistemində nizamnamə kapitalının səviyyəsinə görə ilk onluqda olan bankların siyahısı***

| Sıra №si | Bankların adı | Nizamnamə kapitalı (mln manatla) |
|---|---|---|
| 1 | Azərbaycan Beynəlxal Bankı | 1241287 |
| 2 | Paşa Bank | 333000 |
| 3 | VTB (внеш торг банк) Azərbaycan | 315815 |
| 4 | Nikoyl Bank | 296000 |
| 5 | Xalq Bank | 225079 |
| 6 | Kapital Bank | 205805 |
| 7 | Accessbank | 140258 |
| 8 | Expressbank | 137257 |
| 9 | Unibank | 125686 |
| 10 | Atabank | 120020 |
| **Cəmi** | | **3140207** |

**Mənbə:** *Cədvəl Mərkəzi Bankın məlumatları əsasında "Report" agentliyi tərəfindən hazırlanmışdır.*

Cədvəl 2-nin məlumatlarından görünür ki, ilk onluqda olan bütün banklar nizamnamə kapitalı üzrə müəyyən edilmiş minimum həddi dəfələrlə ötmüşlər. Göründüyü kimi, təhlil edilən göstərici üzrə Azərbaycan Beynəlxalq Bankı liderdir. Bu göstəricini Paşa Bank 6,6 dəfə, VTB (внеш торг банк) Azərbaycan 6,3 dəfə, Nikoyl Bank 5,9 dəfə, Xalq Bank 4,5 dəfə, Kapital Bank 4,1 dəfə, Accessbank 2,8 dəfə, Expressbank 2,7 dəfə, Unibank 2,5 dəfə, Atabank isə 2,4 dəfə ötüb keçmişdir. Kapitallaşma səviyyəsinin yüksəlməsi hər bir bankın inkişafının ən mühüm göstəricilərindən biri olmaq etibarilə həm bank sisteminin davamlı inkişafını sübut edir, həm də real sektorun maliyyələşdirilməsində etibarlı tərəfdaşın olduğunu göstərir (4, s. 314).

Azərbaycan Respublikasının bank sistemində gedən təkmilləşmələrin ən mühüm istiqamətlərindən olan kapitallaşma səviyyəsinin artımını xarakterizə edən ən mühüm göstəricilərdən biri də banklar üzrə nizamnamə kapitalının illik artım səviyyəsidir. Bu göstəricini təhlil edərkən görünür ki, nizamnamə kapitalının səviyyəsinə görə ilk 10-luğa daxil olan bankların bir neçəsi illik artım səviyyəsinə görə fərqlənən ilk 10 bank sırasına düşə bilmişlər (Cədvəl 3).

Cədvəl 3-ün göstəricilərindən aydın olur ki, təkcə bir il ərzində ölkənin 8 bankında nizamnamə kapitalının illik artımı 10%-dən artıq olmuşdur. Bu göstərici ölkənin bank sistemində kapitallaşma səviyyəsinin artımında müsbət meylin olduğunu göstərir. Bu həm ayrı-ayrılıqda hər bir bankın, eyni zamanda bütövlükdə bank sisteminin inkişaf etdirilməsinin mühüm iqtisadi amili kimi çıxış edir. Bu amil sonda ölkə iqtisadiyyatının sabit inkişafını təmin edir (8, s. 83).

Son illər ərzində Azərbaycanın bank sistemində mövcud olan müsbət meyllər nəticəsində bankların kapitallaşma səviyyəsinin artımı, əsasən, xüsusi emissiya səhmlərinin yerləşdirilməsi, mənfəət hesabına kapitalın artırılması, sistemdə aparılan konsolidasiya, sanasiya və s. tədbirlər hesabına baş verir. Azərbaycan Respublikasında bank sektorunun mühüm spesifik xüsusiyyətlərindən biri də resursların aşağı səviyyədə təmərküzləşməsidir. 2015-ci il böhranına qədər bütövlükdə bank sisteminin aktivlərinin 40%-i Beynəlxalq Bankın payına düşürdü. Qalan ən iri beş bank isə bank sisteminin məcmu aktivlərinin 20%-nə sahib idi. 2019-cu ilin sonuna kimi Beynəlxalq Bankın məcmu aktivlərdəki payı 27%-ə düşmüş, ən iri beş bankın payı isə 20%-dən 33%-ə yüksəlmişdir. Bu göstərici dünyanın aparıcı dövlətlərinin bank sistemləri ilə müqayisədə aşağı səviyyədədir. Belə ki, bank sistemlərinin güclü inkişaf etmiş olduğu ölkələrdə bu göstərici 50-70% səviyyəsindədir. Öz ölkəsində beş ən iri bankın malik olduğu aktivlərdəki payı Yaponiyada 48%, Fransada 51%, ABŞ-da 61,3%, Belçikada 84,3%, Almaniyada 79,8% təşkil edir (8, səh. 83).

**Cədvəl 3.** ***01.01.2018-ci il tarixə Azərbaycan Respublikasının bank sistemində nizamnamə kapitalının illik artım səviyyəsinə görə bankların ilk onluğu***

| Sıra №si | Bankları adı | İllik artım (%-lə) |
|---|---|---|
| 1 | VTB (внеш торг банк) Azərbaycan | 521.5 |
| 2 | Nikoyl Bank | 60.4 |
| 3 | Bank Respublika | 27.8 |
| 4 | Bank BTB (Bakı Ticarət Bankı) | 27.8 |
| 5 | Yapı Kredi Bank Azərbaycan | 18.3 |
| 6 | Rabitəbank | 14.5 |
| 7 | Muğanbank | 13.3 |
| 8 | Kapital Bank | 10.7 |
| 9 | Unibank | 5.01 |
| 10 | AG Bank | 1.17 |

**Mənbə:** *Cədvəl Mərkəzi Bankın məlumatları əsasında "Report" agentliyi tərəfindən hazırlanmışdır.*

Azərbaycanda analoji vəziyyət kredit qoyuluşlarına da aiddir. Belə ki, 2015-ci il böhranına qədər ölkədə mövcud olan kredit portfelinin 40%-i Beynəlxalq Banka mənsub idi. Bu göstəricidə qalan iri 5 bankın payı 20% səviyyəsində olmuşdur. 2019-cu ilin sonuna kimi Beynəlxalq Bankın məcmu kredit qoyuluşlarında payı 19% enmiş, qalan iri beş bankın payı isə 40%-ə yüksəlmişdir (5, s. 204).

Bank fəaliyyətində mühüm əhəmiyyət kəsb edən göstəricilərdən biri olan depozitlər üzrə vəziyyət belə olmuşdur. 2015-ci ilə qədər məcmu depozitlərdə Beynəlxalq Bankın payı 49%, qalan iri beş bankın payı isə 19% təşkil etmişdir. 2019-cu ilin sonunda bu göstərici üzrə Beynəlxalq Bankın payı 24%-ə enmiş, qalan beş iri bankın payı isə 46% qalxmışdır (Diaqramma 1).

Azərbaycanın bank sektorunda Beynəlxalq Bankın yüksək rolu risklərin yüksək səviyyədə təmərküzləşməsi ilə müşayiət edilir. Belə bir vəziyyətin mövcud olması böhran şəraitində ölkə iqtisadiyyatının maliyyə sabitliyini təhlükə altında qoya bilər. Əgər bank sistemində mövcud olan məcmu aktivlər, kapital, kreditlər, depozitlər sistemin bütün subyektləri olan banklar arasında bərabər surətdə yerləşdirilmiş olarsa, bu halda bank bazarında baş verə biləcək şokların, mənfi meyllərin təsirini minimuma endirmək, bank sisteminin dayanıqlığını yüksəltmək və bütövlükdə sistemin fəaliyyətinin səmərəli nəticələrini əldə etmək olar.

Bu isə o deməkdir ki, bu yolla pul bazarının çevikliyini təmin etmək, pul-kredit siyasətinin səmərəliyini yüksəltmək, ölkə iqtisadiyyatını vaxtlı-vaxtında pul axınları ilə təmin etmək, monetar amillərin təsiri ilə ölkədə davamlı inkişafı və s. şərtləndirmək olar.

Aparılan təhlillər nəticəsində qeyd etmək olar ki, ölkədə real sektorun inkişaf etdirilməsinin çoxsaylı amilləri içərisində bank sektoru ilə qarşılıqlı əlaqələr mühüm əhəmiyyət kəsb edir. Buna görə də ölkədə dayanıqlı və rəqabətqabiliyyətli bank sisteminin mövcud olması günün ən zəruri problemlərindən biri kimi ortaya çıxır. Bazar iqtisadiyyatı şəraitində dövlətin qarşısında duran ən mühüm sosial iqtisadi problemlərin icra olunmasında bank sistemi həlledici rola malikdir. Çünki bank sistemi ölkədə mövcud olan sərbəst pul vəsaitlərini akkumlyasiya edərək, onu yenidən bölgü vasitəsilə iqtisadiyyatın bütün institusional sektorlarının tələbatına uyğun olaraq, pul vəsaitləri ilə təmin olunması kimi çox vacib və zəruri olan makroiqtisadi vəzifəni yerinə yetirir. Bu vasitə ilə dövlət özünün həm makro, həm də mikro səviyyədə qarşıya qoyduğu vəzifələri vaxtında və keyfiyyətlə həll etmək imkanı əldə edir.

**Diaqramma 1.** ***Azərbaycanın bank sektorunda təmərküzləşmə (2019-cu ilin sonuna)***




**Mənbə:** *Azərbaycan Banklar Assosiasiyasının məlumatları*

*1. ☐ beş iri bankın payı (Beynəlxalq Bank olmadan)*

*2. ■ Beynəlxalq Bankın payı*

Ölkədə banklarla real sektorun qarşılıqlı əlaqələrinin institusional amillərinin inkişaf etdirilməsi son nəticədə rəqabətqabiliyyətli, kredit qabiliyyətli, yüksək likvidliyə və yüksək kapitallaşma səviyyəsinə malik bank sisteminin yaradılmasını şərtləndirir. Bu parametrlərə malik bank sisteminin yaradılması və real sektorun fəaliyyətinin daha da gücləndirilməsi üçün bank birliklərinin, bank konsopsiumlarının və s. yaradılmasına ehtiyac vardır. Belə institusional təkmilləşmənin aparılması Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını daha da dərinləşdirər və onun geoiqtisadi və geosiyasi mövqeyini daha da möhkəmləndirər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Mərkəzi Bankının illik hesabatları. Bakı, 2020
2. Bağırov M.M. Banklar və bank əməliyyatları (Ali məktəblər üçün dərslik) Bakı, Nurlan, 2013, 532 s.
3. http//xəbərlər 24.com/ölkənin bank sistemi
4. Керимов А.Е. Рынок банковских услуг: теория и практика (на примере коммерческих банков Азербайджанской Республики). Баку, "Университет Экономики", 2018, 400 стр.
5. Муршидли Ф.Ф. "Банковское обслуживание внешноэкономической деятельности Азербайджана в условиях финансовой глобализации". Баку, Издательский Дом "Шарк-Карб", 2018, 416 стр.
6. Мамедов З.Ф. "Банковский кризис и реформирование банковского сектора в контексте глобализации". Баку, Азернешр, 2017, 392 стр.
7. Рустамов Э.С. "Экономическая модеризация Азербайджана: вызовы и решение". Москва, Эконом-Информ, 2010, 367 стр.
8. Мусаев Самир Илгар оглы. "Повышение роли коммерческих банков в реальным секторе экономики" (Диссертация представленной на соискание ученый степени доктора философии по экономике по специальности 5301.01- Внутренная фискальная политика и государственные финансы и 5308.01 - "Общая экономика") Баку, 2018, 128 стр.

**РЕЗЮМЕ**

**Мубариз Багиров**

**УСТОЙЧИВОСТЬ БАНКОВ И РЕАЛЬНОГО СЕКТОРА ИНСТИТУЦИОНАЛЬНЫЕ ФАКТОРЫ ОТНОШЕНИЙ**

В статье подчеркивается важность комплексного взаимодействия всех секторов и отраслей для достижения устойчивого развития экономики страны. Данный фактор был оправдан как фактор появления положительной тенденции во взаимодействии банковского сектора с реальным сектором. Среди множества факторов, которые способствуют дальнейшему улучшению отношений между этими двумя секторами, широко освещается анализ институциональных факторов. В период с 2004 по 2019 г.г. были широко проанализированы такие важные факторы, как количество банков в банковском секторе Азербайджана, динамика их уставного капитала. Исследована ситуация с 10 крупнейшими банками, добившихся необходимого размера уставного капитала и стремительного роста этого показателя. Также было проанализировано состояние концентрации активов, кредитов и депозитов в банковской системе страны. В соответствии с этим были рассмотрены возникшие тенденции и даны рекомендации по улучшению воздействия институциональных факторов на экономику страны.

**SUMMARY**

**Mubarız Bagırov**

**RESISTANCE OF BANKS AND THE REAL SECTOR INSTITUTIONAL FACTORS OF RELATIONS**

The article emphasizes the importance of complex interaction of all sectors and industries to achieve sustainable development of the country's economy. This factor was justified as a factor in the emergence of a positive trend in the interaction of the banking sector with the real sector. Among the many factors that contribute to further improving relations between the two sectors, the analysis of institutional factors is widely reported. In the period from 2004 to 2019. such important factors as the number of banks in the banking sector of Azerbaijan and the dynamics of their authorized capital were widely analyzed. The situation with the 10 largest banks that have achieved the required size of the authorized capital and the rapid growth of this indicator has been studied. The state of concentration of assets, loans and deposits in the country's banking system was also analyzed. In accordance with this, the emerging trends were considered and recommendations were made to improve the impact of institutional factors on the country's economy.

**MÜSLÜM CABBARZADƏ**
*Naxçıvan Dövlət Universiteti*
*muslum_cabbarzade@yahoo.com*

# İNNOVASİYA POTENSİALINDAN SƏMƏRƏLİ İSTİFADƏNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *innovasiyalar, iqtisadi inkişaf, bilik iqtisadiyyatı, kreativ sahibkarlıq*
***Ключевые слова****: инновации, экономическое развитие, экономика знаний, креативное предпринимательство*
***Key words:*** *innovations, economic development, knowledge economics, creative entrepreneurship.*

Son illərdə ölkəmizin iqtisadi, sosial və intellektual potensialının möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan, rəqabətədavamlı iqtisadiyyatın qurulması, informasiya və bilik bazarının yaradılması və inkişaf etdirilməsi istiqamətində ölkədə aparılmış irimiqyaslı işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza formalaşdırmışdır.

İndustrial iqtisadiyyatı əvəz edən informasiya-texnoloji istehsal üsulunun meydana gəlməsi müasir elm qarşısında informasiyanın istehsalı və istifadəsi, habelə dünya təsərrüfatındakı iqtisadi münasibətlər sistemində ictimai hərəkəti ilə bağlı proseslərin tənzimlənməsi problemlərinin həlli vəzifələrini qoyur. İnformasiya cəmiyyəti üçün daha çox xarakterik olan xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

- Maddi nemətlər formasında məhsul istehsalından xidmətlər istehsalına keçid;
- Texnoloji innovasiyaların əsasını təşkil edən nəzəri biliklərin rolunun yüksəlməsi;
- Daha çoxsaylı sosial qrup kimi bilik daşıyıcıları sinfinin artımı;
- Elm və texnologiya arasında əlaqələrin güclənməsi;
- İqtisadi, texnoloji və sosial problemlərin həllinə daha səmərəli yanaşma tapmağa imkan verən yeni inteqral texnologiyanın yaradılması;
- Əməyin məzmunu və xarakterinin dəyişilməsi;
- Qıtlığın yeni formalarının - informasiya və vaxt çatışmazlığının meydana gəlməsi.

Bu gün artıq şübhə yoxdur ki, texnoloji inkişaf və innovasiyalar iqtisadi artımın uzunmüddətli hərəkətverici qüvvələrinə çevrilmişdir. Ölkəmizin iqtisadi və sosial inkişafında bu amilin nəzərə alınması son illərdə qəbul edilmiş mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur.

Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması barədə 29 noyabr 2011-ci il tarixli Sərəncamında deyilir: «Hazırda Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiyayönlü iqtisadiyyatın formalaşdırılması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır» (1).

İqtisadi və sosial inkişafda innovasiya amilinin nəzərə alınması son illərdə qəbul edilmiş mühüm dövlət proqramları və sənədlərində aydın şəkildə ifadə olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 mart 2019-cu il tarixli Fərmanı ilə təsdiq edlmiş "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" iqtisadiyyatın innovasiyalı inkişafını nəzərdə tutan növbəti mühüm dövlət sənədidir. Proqramda investisiya və innovasiya fəallığının artırılması üçün tədbirlərin görülməsi, yeni texnologiyaların tətbiqi əsasında yerli iqtisadi potensialın gücləndirilməsi, innovativ təsərrüfatçılıq formalarının yaradılması prioritet vəzifələr kimi qarşıya qoyulub.

İnnovasiyalaşdırma - yeni ideyaların yaradılması və tətbiqi hesabına müəssisənin iqtisadi və ya sosial potensialında məzmunlu, məqsədyönlü dəyişikliklərin həyata keçirilməsi cəhdidir. İnnovasiyalar məhsullarda və proseslərdəki tələbatların, mövcud uyğunsuzluqların, ayrı-ayrı sənaye sahələrindəki və ümumiyyətlə, bazardakı dəyişikliklərin, demoqrafik dəyişikliklərin və yeni biliklərin

nəticəsi olaraq meydana çıxa bilər.

İnnovasiyalara iqtisad elmində mahiyyətcə yaxın olan müxtəlif yanaşmalar mövcuddur. Məşhur iqtisadçı Y.Şumpeterə görə innovasiyalar yeni texnikadan, yeni texnoloji proseslərdən istifadə edilməsi və ya istehsalın yeni bazar təminatı; yeni xüsusiyyətlərə malik məhsulların istehsal edilməsi; yeni xammaldan istifadə edilməsi; istehsalın təşkilində və onun maddi-texniki bazasında dəyişikliklər; yeni satış bazarlarının aşkar edilməsi və s.-dən ibarət olan prosesdir (8).

P.N.Zavlin, A.K.Kazançev, L.E.Mindeli və digər müəlliflər hesab edirlər ki, innovasiya cəmiyyətin həyatının bu və ya digər sahəsində fəaliyyət prosesi və ya onun nəticələrinin yaxşılaşdırılmasına yönəldilmiş intellektual fəaliyyətin nəticələrinin istifadəsidir (4).

Azərbaycan iqtisadçılarından R.K.İsgəndərov hesab edir ki, elmi-texniki innovasiyalar yenilik olmalı, bazarın tələbatını ödəməli, istehsalçıya mənfəət gətirməlidir (2, s. 53).

R.A.Fatxutdinova görə isə innovasiyalar idarəetmə obyektinin dəyişdirilməsi və iqtisadi, sosial, ekoloji, elmi-texniki və digər növ səmərəliliyin əldə edilməsi məqsədilə yeniliklərin tətbiq edilməsinin son nəticəsidir (7).

1993-cü ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən qəbul edilmiş Fraskati Təlimatının sonuncu redaksiyasında innovasiyalar son nəticədə bazara yeni və təkmilləşdirilmiş əmtəə çıxarılması, təcrübədə tətbiq olunan yeni və təkmilləşdirilmiş texnoloji proses yaradılması və ya sosial xidmətlərə yeni tərzdə yanaşmanı ifadə edən fəaliyyət kimi müəyyən olunur (3).

İqtisadi ədəbiyyatda mövcud olan müxtəlif yanaşmaları təhlil etməklə innovasiyaları aşağıdakı kimi təsnifləşdirmək mümkündür (Cədvəl 1):

**Cədvəl 1.** ***Müxtəlif əlamətlər üzrə innovasiyaların təsnifatı***

| № | Təsnifləşdirmə əlaməti | İnnovasiyaların təsnifat qrupları |
|---|---|---|
| **1** | İnnovasiyaların tətbiq sahələri | İdarəetmə, təşkilati, sosial, sənaye və s. |
| **2** | ETT-nin mərhələləri | Elmi, texniki, texnoloji, konstruktor, istehsal, informasiya |
| **3** | İnnovasiyaların intensivlik dərəcəsi | "Bum", bərabər ölçülü, zəif, kütləvi |
| **4** | İnnovasiyaların həyata keçirilmə tempi | Sürətli, yavaş, sönən, artan, bərabərsürətli, çaparaq (sıçrayışlı) |
| **5** | İnnovasiyaların miqyası | Transkontinental, transmilli, regional, iri, orta, kiçik |
| **6** | İnnovasiyaların nəticəliliyi | Yüksək, aşağı, stabil |
| **7** | İnnovasiyaların səmərəliliyi | İqtisadi, sosial, ekoloji, inteqral |
| **8** | Yenilik dərəcəsi | Mütləq, nisbi, şərti, xüsusi |
| **9** | İnnovasiya potensialı | Radikal, kombinə edilmiş, modifikasiya edilmiş |
| **10** | İşlənmə və yayılma səviyyəsi | Dövlət, respublika, regional, sahə, korporativ, firma |
| **11** | İşlənmə və yayılma sferaları | Sənaye, maliyyə, xidmətlər, ticarət-vasitəçilik, elmi-pedaqoji, hüquqi |

Beləliklə, innovasiyaları firmanın fəaliyyətinin uzunmüddətli səmərəliliyinə nail olmaq məqsədilə xarici mühitə adaptasiya olunması üçün təsərrüfat fəaliyyətinin bütün sahələrində həyata keçirilən məqsədyönlü dəyişikliklər kimi dəyərləndirmək mümkündür.

İnnovasiyaların idarə olunmasında məqsəd bütün təşkilat miqyasında yeni ideyaları irəli sürmək, generasiya etmək, nəzarət etmək və qiymətləndirməklə alınmış nəticələri bazara çıxarmaq-

dan ibarətdir. İnnovasiyaların idarə olunmasının əsasında novatorların və təşkilatın fəaliyyət nəticələrinə cavabdehlərin balanslaşdırılmış əməkdaşlığı durur. Yaradıcılıq proseslərinin səmərəli idarə olunması üçün menecerlər innovasiyaların istifadəsi yolundakı maneələri tapmalı və aradan qaldırmalı, eləcə də şəxsi, qrup şəkilli innovasiya təşəbbüslərini müdafiə edərək innovasiya yönündə əməkdaşlıq münasibətlərini təşkilatda yaratmalıdır.

İnnovasiya «ideya» ilə müqayisədə çox dar anlayışdır. Öncədən düşünülmüş məsrəflər zamanı geniş tətbiqə malik ola bildikdə ideya innovasiyaya çevrilir. İdeya laboratoriya şəraitində fəaliyyət göstərirsə, onda o, ixtira olur. İxtira-reallığa çevrilmiş indiyədək naməlum ideyadır. O, özündə texnoloji innovasiyalar prosesinin birinci mərhələsini təcəssüm etdirir. İxtira bir çox patentləşdirilmiş texnoloji innovasiyalara aid edilir. İxtiraçı ideyadakı gizli imkanları öz-özünə təsəvvür etməyə qadir olan və onların reallaşmasını arzulayan bir insandır.

Yaradıcılıq innovasiyanın zəruri ilkin şərti, yeni ideyaların generasiyası, innovasiyalar isə onların uğurlu şəkildə həyata keçirilməsidir. Yaradıcılıq - yeni ideyanın prinsipinin açıqlanması, innovasiya isə bu prinsipin faydalı əmtəələrə və xidmətlərə çevrilməsidir. İnnovasiya prosesində ideyalar təşkilata əlavə gəlir gətirməyə qadir əmtəələrdə maddiləşir.

İnnovasiya fəaliyyəti üçün daha əlverişli mühit kimi informasiya cəmiyyəti çıxış edir. Onun aşağıdakı fərqləndirici xüsusiyyətləri vardır:

- Yaxşı təşkil edilmiş və maliyyələşdirilmiş təhsil və elm;
- Şəxsiyyətin, qrupun və təşkilatın yaradıcılıq potensialına istiqamətlənmə;
- Biliklərin yayılmasında və yaradılmasında inkişaf etmiş infrastruktur.

Təşkilatlarda yaradıcılığın stimullaşdırılması metodlarının əsasında ideyaların yaradıcı istehsalının ümumi prinsipləri durur. Birinci növbədə ideyaların əmələ gəlməsi prosesi onların qiymətləndirilməsi prosesindən və ən yaxşı ideyaların seçimindən ayrılmalıdır. İkincisi, təcrübənin, informasiyanın və ya ekspert ixtisaslaşmasının həddən artıq çox olması yaradıcılığa mane olur. İdeyaların yaradılması baş verən qruplarda müxtəlif xarakterlərin və müxtəlif fikirlərin mövcudluğu təmin edilməlidir. Üçüncüsü, bu qrupda aqressiv, hakimliyə, öz düşüncəsini yeritməyə meylli adamlar iştirak etməməlidir. Dördüncüsü, qrup üzvlərinin sayında optimallığa nail olunmalıdır. Belə ki, kiçik qruplar rəhbərdən çox asılıdır, böyük qruplarda isə koordinasiya problemləri ortaya çıxır. İnnovasiya qrupunun optimal ölçüsü təqribən on iki nəfərdir. Beşincisi, qrupun fəaliyyətinin nəticələri iş şəraitindən asılıdır. Yüksək nəticələrə nail olmaq üçün sakit atmosfer, komfort şərait, xarici müşahidələrin olmamağı tələb olunur.

İnnovasiyalar üçün maneələri xarici və daxili hissələrə bölürlər. Xarici maneələr kifayət qədər inkişaf etməmiş infrastrukturdan, mövcud sahədəki biliklərin çatışmazlığından, onlara yiyələnmək üçün imkanların olmamağından, köhnəlmiş qanunvericilikdən, cəmiyyətdəki istedadlara ümumi etinasızlıqdan ibarətdir. Daxili maneələrə ciddi təşkilati tələblər və prosedurlar, konservatizm, dünyagörüşünün çatışmazlığı, köhnə qaydanın saxlanmasına maraq, başqa insanların ideyalarının qəbul etməkdən imtina, riskə getmək üçün arzunun və motivasiyanın olmamağı daxildir.

Yaradıcı işçilər və onların fəaliyyətinin nəticələri yalnız uzunmüddətli perspektivdə qiymətləndirilə bilər. İnnovasiya fəaliyyətini idarə edən menecerlər ciddi, ətraflı nəzarətə arxayın olmamalıdır. Təkrar olunan, mühafizəkar əməliyyatlar üçün tətbiq olunan metodlar yaradıcılığı fəaliyyəti üzərində nəzarət zamanı tamamilə qeyri-adekvat ola bilir.

Elmi-texniki innovasiyaların başlıca mənbəyi olan insan bacarıqları və yaradıcı düşüncə isə təhsil müəssisələrində, universitetlərdə formalaşır. Bəşər cəmiyyətinin inkişafının VI mərhələsi biotexnologiyalar, nanotexnologiyalar, insan kapitalı, yeni təbi ehtiyatlardan istifadə, yeni təbabət və s. kimi yüksək elmi biliklər tələb edən sahələrin inkişafı ilə xarakterikdir.

Bilik iqtisadiyyatının inkişafı ilə əlaqədar olan qlobal çağırışlar, ali məktəblərin ölkənin və regionların innovasiyalı inkişafının aktiv subyektlərinə çevrilməsini tələb edir. Ali məktəblərin ənənəvi sferalarda fəaliyyətindən - təhsil və elmi tədqiqat işləri, habelə onların iqtisadiyyatda tətbiqindən başqa müasir dövrdə daha bir məsuliyyəti, başqa sözlə, universitetlərin «üçüncü missiyası», müasir innovasiya infrastrukturunun formalaşdırılması zərurətindən irəli gəlir.

Yeni iqtisadiyyat - sabahın yeni nəsil iqtisadi strukturudur. Bu, yeni idarəedicilər, yeni tipli alimlər, yeni sahibkarlar - bir sözlə, "yeni nəsil" deməkdir. Yeni nəslin rolu nədən ibarətdir, səmərəli idarəetməyə, elmdə və iqtisadiyyatda yüksək nailiyyətlər əldə edilməsinə necə təsir göstərəcək? Yeni nəsil bu gün universitetlərdə müasir tələblər baxımından təhsil alan, yeniliklərə açıq, intellektual, təşəbbüskar, güclü kreativ potensiala və digər qabiliyyətlərə malik çevik kadrların məcmusudur. İnkişafın müasir texnoloji mərhələsində formalaşan bu nəsil kadrlar iqtisadiyyata və sosial həyata ənənəvi yanaşmadan uzaqlaşaraq yeni təfəkkür və düşüncə tərzi ilə inkişafın aparıcı qüvvəsinə çevrilə biləcəkdir. Ona görə də innovasiyalı iqtisadiyyatın formalaşması üçün yeni tipli mütəxəssis hazırlığında təhsil müəssisələrinin, xüsusilə universitetlərin üzərinə mühüm vəzifələr düşür (Şəkil 1).

**Şəkil 1. İnnovasiyalı iqtisadiyyatın formalaşma istiqamətləri**




Biliklə işləmək texnologiyaları biliyi sürətlə yaymağa imkan verir, komandanın səmərəli işinə səbəb olur, biliklərin törəməsində və onların idarə olunmasında yeni üsullar yaradır. Biliklərin idarə olunmasına aşağıdakılar daxildir: hazırlıq və təhsil məqsədilə yerləşdirilmiş biliklərin tətbiqi; qruplarda işləməyə və kollektiv bilikdən mənfəət almağa imkan verən biliklərin praktikasının tətbiqi; məlumatlar bazasının tətbiqi; xarici informasiyanın inteqrasiyası (xüsusilə İnternet vasitəsilə).

Biliklərin əldə edilməsi vərdişləri təhsillə əlaqəlidir. Bu vərdişlərə prioritetləri təyin etmək və gələcəkdə hansı biliklərin lazım olacağını müəyyənləşdirmək bacarığı aiddir. Biliyin yaradılması vərdişləri yeni biliklərin törəməsi üçün informasiyanın təhlili və tədqiqatların layihələndirilməsi kimi sahələrdən ibarətdir. Biliklərin təşkili vərdişləri yaradıldığı və ya əldə edildiyi andan biliklərin planlaşdırması, nəzarəti, təşkili və onlara rəhbərlik məsələlərinə toxunur. Biliklərin təşkil olunmamış həcmlərinin strukturlaşdırılması və istifadə üçün əlverişli formaya gətirilməsi də buraya daxildir. Biliklərin tətbiqi vərdişləri işin yerinə yetirilməsi prosesində biliklərdən istifadə ilə bağlıdırlar və qoyulmuş məsələdən asılı olurlar. Bu məsələlər qismində yeni məhsulların yaradılması, firmaların struktur cəhətdən yenidən təşkilinin aparılması və s. belə məsələlərdən çıxış edə bilər. Biliklərin yayılması və digərlərinə ötürülməsi ona görə vacib məsələdir ki, onlardan əldə edilmiş bilik kimi istifadə imkanı başqalarına da verilmiş olsun. Beləliklə, biliyin firmada transformasiyası prosesinin son mərhələsi, adətən, digər firmada biliklərin transformasiyasının birinci mərhələsi kimi xidmət edir. Ayrıca firma çərçivəsində biliklərin tətbiqi-biliklərin transformasiyası prosesinin son mərhələsidir, burada bilik fəaliyyətə çevrilir.

Müasir dövrdə dünya universitetləri kadr hazırlığının həyata keçirilməsi, elmi-tədqiqat işlərinin yerinə yetirilməsi kimi ənənəvi funksiyaları ilə yanaşı,innovasiyaların yayılması funksiyasını da yerinə yetirirlər. Bu proses artıq ölkəmizin ali təhsil müəssisələrinə də sürətlə nüfuz etməkdədir. Fikrimizcə, böyük elmi və yaradıcı potensialın cəmləşdiyi ali təhsil müəssisələri ölkəmizdə innovasiyaların əsas mərkəzinə çevrilə biləcəkdir. İqtisadiyyatda innovasiya fəaliyyətinin aktivləşdirilməsində ölkəmizin universitetləri innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, ali məktəblərin elm işləmələri əsasında kiçik innovasiya müəssisələri zolağının yaradılması,

elmi nailiyyətlərin və yeni texnologiyaların ölkə müəssisələrinə ötürülməsi, innovasiya fəaliyyətinin kadr təminatı və s. kimi vəzifələri yerinə yetirməlidir.

Muxrar respublikamızda sosial-iqtisadi, texniki və intellektual potensialın möhkəmləndirilməsi, informasiya və biliklərə əsaslanan rəqabətədavamlı iqtisadiyyatın qurulması istiqamətində aparılmış irimiqyaslı, kompleks və sistemli işlər innovasiyaların genişlənməsi üçün möhkəm baza yaratmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı görülmüş işlərin davamı olaraq yüksək ixtisaslı kadr hazırlığı və innovasiyaların yaradılması istiqamədində yeni vəzifələr müəyyənləşdirir.

## ƏDƏBİYYAT


1. “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyasının hazırlanması barədə Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2011-ci il tarixli Sərəncamı
2. İsgəndərov R.K. Elmi-texniki tərəqqi: sosial-iqtisadi aspektlər. Dərslik. Bakı, Elm və təhsil, 2010, 636 s.
3. Инновационный менеджмент: основные понятия. http://innovation-management.ru
4. Инновационный менеджмент: Учебное пособие/Под ред. П. Н. Завлина, А. К. Казанцева, Л. Э. Миндели. - СПб.: Наука, 2000, 431 с.
5. Конференция ООН по торговле и развитию. Доклад об информационной экономике, 2007/2008 год. Наука и техника на службе развития: новая парадигма ИКТ. Нью-Йорк и Женева, 2007, 37 с.
6. Стратегии экономического развития государства в информационную эпоху. Информационный документ подразделения Microsoft в странах Европы, Ближнего Востока и Африки (EMEA). https://msdb.ru/Downloads/docs/government/analytics/EconomicDevelopment.doc
7. Фатхутдинов Р. А. Инновационный менеджмент. Учебник, 4-е изд. -СПб.: Питер, 2003, 400 с.
8. Шумпетер Й. Теория экономического развития. Капитализм, социализм и демократия / предисл. В. С. Автономова. -М.: ЭКСМО, 2007, 864 с.


## РЕЗЮМЕ

**Муслум Джаббарзаде**

## ТЕОРИЧЕСКИЕ ВОПРОСЫ ИСПОЛЬЗОВАНИЯ ИННОВАЦИОННЫХ ПРОЦЕССОВ

В статье проведены научные анализы, доказывающие роль и значение инновации в современном периоде экономического развития Азербайджана. Выдвинуты научные взгляды по проблемам, существующим в направлении формирования инновационной экономики и путям их устранения. На основании проделанного анализа оценено значение эффективного использования научного потенциала для активизации инновационных процессов.

## SUMMARY

**Muslum Jabbarzadeh**

## THEORETICAL PROBLEMS OF EFFECTIVE EMPLOYMENT OF INNOVATION PROCESSES

In the article scientific analyses proving the role and importance of innovations in the modern stage of economic development in Azerbaijan have been conducted. Scientific views on solving problems in the direction of formation of innovative economics were put forward. Based on scientific analysis the importance effective employment of the scientific potential for activation of innovation processes have been valued.

**MEHDİ BAĞIROV**
*Naxçıvan Dövlət Universiteti*
*dr.mehdi_bagirov@mail.ru*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR TƏYİNATLI EKSPERİMENTAL SUBYEKTLƏRİN YARADILMASI: ƏNƏNƏLƏR VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *aqrar sahə, aqrar siyasət, eksperimental subyektlər, bitkiçilik, heyvandarlıq, Naxçıvan regionu, Azərbaycan*

***Ключевые слова:*** *аграрная сфера, аграрная политика, экспериментальные субьекты, растениеводство, животноводство, Нахчыванский район, Азербайджан.*

***Key words****: agrarian sector, agrarian policy, experimental subjects, crop production, animal husbandry, Nakhchivan region, Azerbaijan*

Azərbaycan iqtisadiyyatı, sosial-mədəni həyatı onun regionlarının kompleks təkamül səviyyələri ilə birbaşa əlaqəlidir. Strateji kursun müəyyən edilməsi, planlaşdırılması, proqramlaşdırılması və əlaqəli şəkildə sonrakı tənzimlənməsi məsələləri iqtisadi "müstəvinin" müasir dövrün tələblərinə uyğunluğunu araşdırmağa, onun çeviklik, optimal quruluşun, ərzaq təhlükəsizliyi üzrə tələblərə kompleks uyğunluğun təmin edilməsi kimi problemlərin çoxtərəfli müşahidə, qiymətləndirmə və təhlilinin təşkilinə şərait yaradır.

İqtisadiyyat sahələrinin spesifik cəhətlərinin araşdırılması onların bir tərəfdən müxtəlif tələbat istiqamətləri üzrə istehsal proseslərinin qurulması və həyata keçirilməsi, digər tərəfdən isə tələbatın ödənilməsi üzrə əsas "ünvanlardan" hesab olunan insanların, ölkə vətəndaşlarının təhsili və sağlamlığının, mənəvi və mədəni bilgi və zənginliklərinin bərqərar olmasını əhatə edən addımlara nəzər salmaq məqsədini güdür. Makromiqyası ifadə edən mənzərənin bu şəkildə işıqlandırılması onun tərkibində bizi maraqlandıran sahə və problemin seçilməsini, onun fərdiləşdirilməsini tələb edir.

Məqalənin adında da səsləndirilmiş *eksperimental təsərrüfatlar* üzrə reallıqların sadalanmasına və imkanların qiymətləndirilməsinə keçməzdən əvvəl məsələnin hansı amillər əsasında formalaşacağına diqqətin yetirilməsi məqsədəuyğun olardı. Problemlə bağlı müxtəlif təsir dərəcələri ilə seçilən, həmçinin innovasiyaların tətbiqinə imkan yarada biləcək çoxsaylı amillərin iştirakı mümkündür ki, onlardan da birinci dərəcəliləri aşağıdakı kimi ifadə etmək mümkündür:

- ✓ iqtisadiyyatın aparıcı sahələrindən hesab olunan aqrar sferanın istər bitkiçilik, istərsə də heyvandarlıq istiqamətləri üzrə ehtiyacların qarşılanması imkanları və onların yüksəldilməsi zəruriliyi;
- ✓ regional müstəvidə aqrar istehsal vahidlərinin fərdi və ümumi gücü göstəriciləri və ixtisaslaşma yönlərinin müəyyən edilməsi, onların təminatı üzrə müxtəlif istiqamətlərin imkanlarının tədqiq olunması;
- ✓ əhalinin demoqrafik vəziyyətinin müsbət yöndə inkişafı, bu əsasda artan ərzaq məhsulları tələbatının ən azı bir hissəsinin daxili istehsal hesabına qarşılanması;
- ✓ ümumi iqtisadi aktivliyin, əmtəə dövriyyəsinin yüksəldilməsi məqsədilə kənd təsərrüfatı məhsullarının istehsalı həcmlərinin irəlilədilməsi hesabına xarici iqtisadi əlaqələrin (xüsusilə də ixrac hesabına) artırılması və s.

Yaddan çıxarmayaq ki, konkret halda Naxçıvan regionu qədim zamanlardan aqrar sahə üzrə ixtisaslaşmış, çoxsaylı əmək bilik və vərdişlərini yüksək səviyyədə mənimsəmiş, haliyədə əhalisinin ⅔-si kənddə məskunlaşmışdır ki, bu da digər məsələlərlə yanaşı, yenilikçi (innovativ) fikir və düşüncələrin formalaşmasına, müvafiq yöndə təkmilləşdirici və transformastiv addımların atılmasına şərait yaradır.

Təsnifatda sadalanan maddələrin hər biri fərdi yanaşmada kifayət qədər nəhəng araşdırma istiqamətini təşkil etsə də, onların vahid "nüvə" ətrafında birləşdirilərək öyrənilməsi spesifik "tədqiqat konfiqurasiyalarının" formalaşdırılmasını tələb edir.

İlk növbədə qeyd etmək yerinə düşər ki, aqrar sahə digər istiqamətlərin ehtiyaclarını ödəməklə

bərabər özünün daxili ehtiyaclarının qarşılanmasına da diqqət yetirməlidir. Aqrar istehsal komponentlərinin istehlakının növ-tərkib elementlərinin müəyyən edilməsi həm "kənd təsərrüfatı subyekti – kənar təchizatçılar", həm də "sahə daxilində istiqamətlərin ehtiyaclarının qarşılıqlı ödənilməsi" variantlarında ödənilməsi müvafiq hesablamalar əsasında həyata keçirilməlidir. Bu halda marketinq fəaliyyəti əsas götürülməklə plan-proqnoz işləri həyata keçirilməli, gələcək dövrlər üzrə hasil ediləcək məhsulların şəxsi istehlaka (o cümlədən sonrakı istehsal dövrlərində toxum, yem və s. məqsədlə istifadəyə) və ya mübadilə məkanlarına yönəldilməsi qanunauyğun şəkildə əsaslandırılmalıdır. Sahə daxilində ehtiyacların qarşılıqlı ödənilməsi mikrosəviyyədə də gözlənə bilər. Buna misal olaraq, eyni təsərrüfat daxilində bitkiçilikdən əldə olunmuş samanın heyvandarlıqda yem kimi istifadə olunması, yaxud heyvandarlıqda mövcud olan peyinin bitkiçilikdə təbii gübrə kimi tətbiqi göstərilə bilər.

Problemin qoyuluşunda mühüm məsələlərdən birinin təməl nöqtəsi kimi "real istehsal həcmləri ↔ istehlakçı ehtiyacları" tandeminin həqiqi təzahürləri çıxış edir. Yaddan çıxarmaq olmaz ki, Naxçıvan regionunun əhalisi illər üzrə orta hesabla 10%-lik artımla ölkənin demoqrafik yöndəki təkamülündə iştirak etməkdədir. Bu isə öz növbəsində "istehsal → istehlak" və "idxal → istehlak" tandemləri üzrə vəziyyətə təsir etmək imkanlarının nəzərdən keçirilməsinə, ilk növbədə regional miqyasda ehtiyat normalarının səviyyələrinə yenidən baxılmasına gətirib çıxarır, istər istehsalın, istərsə də idxalın yerli əhalinin yaş-cins və digər parametrləri baxımından yeni parametrlərinin müəyyənləşdirilməsinə yol açır. Belə olduqda situasiya ilə bağlı çoxsaylı nəticələr formalaşa bilər ki, onlardan mühüm olanları sırasında aşağıdakıları qeyd etmək məqsədəmüvafiqdir:

1. Əhalinin yeni say-tərkib göstəricilərinə uyğun birbaşa aqrar, həmçinin aqrar mənşəli sənaye məhsullarının zəruri istehlak həcmlərinin müəyyən edilməsi;
2. Artan istehlakın tərkib elementlərinə diqqət yetirilməsi, növ-çeşid tərkibi üzrə məhsulların qruplaşdırılması;
3. Yenidən müəyyənləşdirilən istehlak həcmlərinin ödənilmə mənbələri və istiqamətləri üzrə işlərin həyata keçirilməsi;
4. İstehlak artımının iqtisadi və inzibati ərazi vahidləri nəzərə alınmaqla bölüşdürülməsi xüsusiyyətlərinin öyrənilməsi və s.

İfadə etdiyimiz təsnifat bəlli çərçivələr nəzərə alınmaqla istehsalın və idxalın həcm və tərkibinin yenidən araşdırılmasını tələb edir. Burada bir neçə amilin vəziyyətinə sistemli yanaşma zərurət halına çevrilməkdədir. Birincisi, aqrar sahənin fəaliyyətində mühüm komponentlərdən biri torpaq resurslarıdır. Əgər nəzərə alsaq ki, kənd təsərrüfatı məqsədlərinə istifadə olunan torpaq həcmlərində ili-ildən geriləmələr baş verir, əhalinin sayı və tərkibinin artması fonunda istehsal templərinin daha sürətli artımına, səmərəlilik ifadələrinin daha böyük kəmiyyət ifadələrinə yüksəlməsinə ehtiyac duyulur. İkinci, aqrar istehsala coğrafi amillərin, xüsusilə də yerləşmə zonalarının (dağlıq, düzənlik və s.) böyük təsiri mövcuddur ki, bu da aqrar istehsalın istər bitkiçilik, istərsə də heyvandarlıq sferalarının ayrı-ayrı istiqamətlərinin formalaşması və inkişafına təsirsiz ötüşmür. Üçüncü, bəllidir ki, əksər kənd təsərrüfatı məhsulları üzrə (xüsusilə də bitkiçilikdə) istehsal həcmləri birbaşa istehsal dövrlərində istehlak həcmlərini ən azı iki dəfə üstələyir. Bəhs olunan amil istehsal olunan məhsulların daha səmərəli bölgüsünə də diqqəti çəkir. Bu əsasda aşağıdakı parametrlərin riyazi hesablamalarla, elmi şəkildə müəyyən edilmiş və qabarıq təzahürlərə malik nisbətlərinin müəyyənləşdirilməsi məqsədəmüvafiqdir:

1. *İstehsal olunmuş aqroməhsulların mübadilə məkanlarına göndərilməsi.* Bu addımın atılması ilk növbədə keçmiş istehsal dövrü ərzində maddiləşən məsrəflərin pul qarşılığının daha kiçik zaman kəsiyi ərzində istehsalçı tərəfindən əldə olunmasıdır. Bu və ya buna oxşar addımlar gəlirlərin əldə olunması ilə yanaşı, dövriyyə vəsaitlərinin dövretmə sürətinin artırılması və digər məqsədlər ola bilər. Adətən, belə addım normal (torpaq həcmi 3-5 hektar) həcmli, texnika ilə silahlanması və mütərəqqi texnologiyalardan istifadəsi zəif olan, istehsal etdiyi məhsulun saxlanma müddəti kiçik olan aqrar subyektlər tərəfindən atılır. Əgər istehsal olunan məhsullar qida təyinatlıdırsa, o zaman əmtəələrin ümumi həcm etibarı ilə 55-80%-i satışa yönəldilə bilər. Belə vəziyyət ilk növbədə bitkiçilik sahəsi istehsalına malik və monoistehsalla seçilən subyektlər üçün xarakterikdir;

2. *Aqroəmtəələrin ixraca yönəldilməsi.* Belə addıma, adətən, daxili istehsal həcmləri üzrə real

ehtiyacların ödənilməsinə cavab verən, texniki-texnoloji imkanlardan (məhsuldar toxum sortlarından və yemlərdən, mütərəqqi aqrotexniki üsullardan, gübrələrdən məqsədyönlü istifadənin mümkünlüyü, istehsalın avtomatlaşdırılması səviyyəsinin yüksəkliyi və s.) istifadə səviyyəsi daha yüksək olan təsərrüfat vahidlərində müraciət olunur. Belə aqrar təsərrüfatlar istehsalın həcmlərinin artırılması, onun növ-çeşid tərkibinin genişləndirilməsi yönündə görəcəyi işlərin nəticəsi kimi region hüdudlarından (rayonlararası əmtəə mübadiləsi) və ya ölkə hüdudlarından kənara (ixrac) hazır məhsulların reallaşdırılması proseslərinə müraciət edə bilərlər;

3. *Kənd təsərrüfatı məhsullarının sənaye emalına yönəldilməsi*. Bəndin əsas məqsədini tələbatın (xüsusilə də əhali istehlakının) daha geniş, rəngarəng ödənilməsidir (məsələn, istehsal olunmuş pomidorla yanaşı, insanlara tomatın, pomidor sokunun və vahid mənşəli digər məhsulların təklifi). Bununla yanaşı, müxtəlif təşkilati situasiyalar mümkündür:

a) Kənd təsərrüfatı məhsulunu istehsal edən subyekt onun xam şəkildə reallaşdırmaqla yanaşı, özünün malik olduğu kiçik emal bölmələri (aqroemal subyekti və məhəlləsi formasında olan, kompleks istehsala malik fermer təsərrüfatı və s.) vasitəsi ona təsir edib, yeni emal çeşidlərinin ortaya çıxmasına səbəb olur;

b) İstehsalçı aqrar subyekt (ailə təsərrüfatı və s.) öncədən mümkün olmuş şifahi razılaşma və ya yazılı müqaviləyə əsasən bəlli həcm və növdə olan məhsulu onun sənaye emalı ilə məşğul olan istehsal vahidlərinə təhvil vermiş olur və s.;

4. *Aqrar məhsulların qeyri-istehsal zaman kəsiklərində reallaşdırılması məqsədilə xüsusi məkanlarda (anbarlar, soyuducu kameralar və s.) saxlanılması*. Bəllidir ki, istehsal dövründə aqrar hazır məhsullarının həcmləri onların istehlakının həcmlərini dəfələrlə üstələyir. Bu isə bir sıra hallarda arzuolunmaz nəticələrə yol açır: məhsulun bir hissəsi xarab olur, istehsalçıların gəlirinin azalması ilə yekunlaşan qiymət enmələri baş verir və s. Bu halda istehsal olunan məhsulların eyni vaxtda mübadilə məkanlarına (bazarlara, marketlərə və s.) çıxarılması tələbatın ödənilməsində tarazlığın pozulması ilə yanaşı, əhalinin bütün mövsümlərdə keyfiyyətli kənd təsərrüfatı məhsulları ilə təminatına mənfi təsir göstərmiş olur. Yaranmış vəziyyətdən çıxış yollarından biri kimi hasil edilmiş əmtəələrin bir hissəsinin xüsusi saxlama yerlərində bəlli şərtlər çərçivəsində mühafizə edilməsidir. Müvafiq üsuldan istifadə istehsal dövrü aylarında mübadilə məkanlarının həmin məhsullarla normadan artıq yüklənməsinin qarşısını almaqla yanaşı, bəhs olunan mənfi məqamlara da təsir göstərmiş olur. Bu situasiyada tətbiq edilməli elmi yöntəmlərdən biri – mütəmadi müşahidələrin aparılması yolu ilə məhsullar üzrə gündəlik nümunəvi reallaşdırma həcmlərinin müəyyən edilməsi və birbaşa mübadilə məkanlarında qurulmuş xüsusi saxlama məkanlarının hesabına itki həcmlərinin azaldılmasıdır. Əlavə kimi, aqrar məhsulların bəlli ərazilər çərçivəsində fəaliyyət göstərən ticarət məkanları arasında paylanması tədbirləri, həmçinin elektron ticarət imkanları hesabına əhalinin ərzaq məhsullarına olan tələbatının həmin saxlama məkanlarından birbaşa ödənilməsi ("istehlakçının ünvanında təhvil" və s.) üzrə tədbirlər nümunə olaraq göstərilə bilər.

5. *İstehsalçının şəxsi istehlakının ödənilməsinə yönəldilməsi* və s. Heç kimə sirr deyil ki, istər kənd əhalisi, istərsə də şəhər əhalisinin böyük hissəsi yay aylarından özlərinin qış azuqəsinin formalaşması üçün ehtiyatlar toplayır. Bu ehtiyatlar istər meyvə-tərəvəz məhsullarının (müxtəlif konservlərdən qurudulmuş məhsullaradək), istərsə də heyvandarlıq məhsullarının (mühxəlif ət qovurmaları və s.) bazasında formalaşa bilər. Belə tədbirlər isə yazın sonu-payızın ilk yarısını əhatə edən aylar hesabına istehsalın və əhali tərəfindən real və potensialın istehlakın səviyyəsinin artmasına, dolayısı ilə isə istehsalçı subyektlərin fəaliyyətinin təkmilləşdirilməsinə müsbət mənada təsir edəcəkdir.

Göründüyü kimi, istehsalı başa çatmış hazır məhsulların müxtəlif yönlərə istiqamətləndirilməsi mümkündür ki, bu da təcrübədə formalaşmış real situasiyaların nəticələrindən asılıdır. Digər tərəfdən, aqrar sahənin məhsul diapozonu kifayət qədər genişdir, hər bir növün illik istehsal həcmləri dövrdən asılı olaraq öncəkindən kəskin fərqlənə bilər. Baş verən kənarlaşma müxtəlif obyektiv və subyektiv amillərin nəticəsi kimi çıxış edə bilər.

Yuxarıda da qeyd edildiyi kimi, özünə yüksək dərəcədə diqqəti tələb edən məsələlərdən birini də kənd təsərrüfatı məqsədlərinə uyğun gələn torpaq sahələrinin həcm və keyfiyyət ifadələrinin müxtəlif səbəblər ucbatından il-ildən geriləməsidir. Bu səbəblər sırasında torpaqların şoranlaşması, onların münbit üz qatının fərqli təbii və ya digər kənar təsirlər nəticəsində korlanması, kənd təsərrüfatı məqsədlərinə xidmət edə biləcək torpaqların yaşayış fondunun genişləndirilməsi, yol, süni sututarları və digər infrastruktur obyektlərinin tikintisi məqsədilə istifadə olunması göstərilə bilər. Digər tərəfdən, əkinçiliyə uyğun gələn torpaq sahələri ilə heyvandarlıq məqsədləri üçün istifadə olunan sahələr də keyfiyyət əlaməti baxımından fərqlənməkdədir. Oxşar fikirlər bitkiçiliyin ayrı-ayrı növləri üzrə də müşahidə olunmaqdadır. Məsələn, tərkibində duzluluğu yüksək olan torpaqlar üzüm əkinləri üçün “birə-bir” olduğu halda, taxıl, tərəvəz məhsulları üçün yararsızdır. İfadə olunan fikir aqrar istehsal məqsədlərinə istifadə olunan torpaqların ixtisaslaşmasına da dələlət etməkdədir.

Haqqında bəhs olunanlar Naxçıvan regionu üzrə kənd təsərrüfatı təyinatlı istehsal sahələrinə yararlı torpaq atlaslarının daha dərindən işlənilməsinə şərait yaratmaqla bərabər, mövcud potensialdan daha səmərəli istifadəni, aqrar məhsullar üzrə sahələrin bölüşdürülməsini, sahələrin illər üzrə fərqli əkin altına verilməsini, bu əsasda ixtisaslaşmanın mümkünlüyünü, bu qəbildən olan digər analoji yenilikçi işlərin mütərəqqi mexanizmlərlə həyata keçirilməsini əsaslandırmış olur.

İfadə olunan təsir amilləri sırasına ancaq makromiqyaslı əhəmiyyətə malik (yəni ölkəni, regionu əhatə edən) amillərlə yanaşı, qarışıq tətbiq əhəmiyyətinə malik amillərin iştirakı da lazımi səviyyədə qiymətləndirilməlidir. Buna nümunə olaraq istehsalın təşkilatlanması və idarə olunması məsələsini özünə məzmun kimi qəbul edən amilin təzahür formaları və qaydaları göstərilə bilər. Belə ki, bir tərəfdən iqtisadi sahələrdə yeni, kütləvilik elementi nəzərə alınmaqla beynəlxalq standartlarla uyğunlaşan, bəzi hallarda isə onları əsas götürüb daha təkmil səviyyəyə keçən subyektlərin yeni quruluşlarının ölkə və region miqyasında formalaşdırılması, digər tərəfdən fərdi sahibkarlar tərəfindən quruluş-təşkilatlanma istiqamətində innovasiyaların tətbiqi bəhs olunan amilin əhəmiyyətinin daim nəzərə alınmasını şərtləndirir.

Ümumiyyətlə, istənilən sahədə innovasiyaların tətbiqi yönündə eksperimental təsərrüfatlar mühüm istiqamətlərdən biridir. Onlar bəlli xüsusiyyətlər ifadə etməklə yanaşı, həmçinin müxtəlif təsnifləşdirmələrə malikdirlər. Fikrimizcə, aqrar sahədə eksperimental təsərrüfatların yaradılması baxımından aşağıdakı qruplar fərqləndirilməlidir:

1. Bitkiçilik təyinatlı eksperimental subyektlər;
2. Heyvandarlıq təyinatlı eksperimental subyektlər;
3. Heyvandarlıq və bitkiçilik istiqamətlərini eyni vaxtda özündə birləşdirən kompleks eksperimental subyektlər;
4. Aqrar sahəyə xidmətlə mükəlləf olan eksperimental xidmətçi sahə və subyektlər.

Təsnifatdan da göründüyü kimi, aqrar sferada subyektlərin innovasiya mühitində təkamülünə bir tərəfdən ehtiyac olduğu halda, digər tərəfdən yenilikçilik onların təşkilati-idarəetmə və digər yönlərini əhatə etməlidir. Deyilənləri nəzərə alaraq bəhs olunan fikirləri iki “növə” üzərində - bitkiçilik təyinatlı eksperimental subyektlər və heyvandarlıq təyinatlı eksperimental subyektlər üzərində cəmləmək məqsədəuyğun olardı.

Qeyd etdiyimiz kimi, yenilikçilik düşüncələrini ilk “nüvəsini” bitkiçilik təyinatlı eksperimental subyektlər təşkil edir. Onun fəaliyyətinə daha aydın baxışın təmin edilməsi ayrı-ayrı daxili istiqamətləri vahid məcmuda birləşdirmək və daxili komponentlərin xüsusiyyətlərini ortaya çıxarmaq yolu ilə mümkündür. Bildirilən fikrə daha aydın baxışı təmin etmək məqsədilə sxem 1-ə müraciət edək.

Sxem 1-dən də göründüyü kimi, bitkiçilik təyinatlı eksperimental subyektlər çoxsalı əlamətlər nəzərə alınmaqla rəngarəng innovativ addımların atılmasına, metodların tətbiqinə və metodologiyalardan istifadəyə yol açır. Bu hallarda subyektin ümumi və xüsusi ixtisaslaşma yönü, regionun təbii, yerquruluşu, idarəetmə-iqtisadi və digər spesifik cəhətləri nəzərə alınmalı, regional və ölkə üzrə aqrar əmtəə bölgüsünə bol töhfələrin verilməsi təmin olunmalıdır. Bəzi hallarda innovativ, təkmilləşdirici elementlər zəncirvarı əlaqəsi olan bir deyil, bir çox mərhələni əhatə edə bilər. Yaxud istehsalın təşkilati-idarəetmə quruluşunda dəyişikliklər baş verə bilər. Məs., aqroməhsulların istehsalının klasterlər

qaydasında vahid məkanda cəmlənməsi istiqamətində işlərin görülməsi təchizat-tədarük qaydasında aparılacaq əməliyyatların sürət və keyfiyyətinə operativ nəzarət etməyə imkan yaradır.

***Sxem 1. Bitkiçilik təyinatlı eksperimental subyektlər***

| Bitkiçilik təyinatlı eksperimental subyektlər | |
|---|---|
| İstehsalın təşkili və həyata keçirilməsi üzrə | ✓ İstehsalın təşkili və idarə edilməsi proseslərində daxili tədqiqatların nəticələrindən və mütərəqqi beynəlxalq metodoloji-meodiki təcrübədən istifadə olunması;<br>✓ Hasil edilmiş məhsulda aşağı maya dəyəri və qiymətin mümkünlüyü baxımından mərhələli (xam şəkildə olan aqroməhsulların emal proseslərinə cəlb olunması və digər baxımlardan) fəaliyyətin təşkili, su ehtiyatlarından səmərəli istifadə sistemlərinin tətbiqi;<br>✓ Muzdlu işçilərin marağının artırılması məqsədilə həvəsləndirmə mexanizmlərindən istifadə olunmas (mütərəqqi-işəmuzd əmək haqqı formasının tətbiqi, muzdluların kiçik səhmdarlara çevrilməsi və s.). |
| Toxumçuluq və tingçilik resursları üzrə | ✓ Aqrar subyektlərin eksperimental toxumçuluq və tingçilik subyektləri ilə birbaşa əlaqələrin yaradılması;<br>✓ Yerli təbii-iqlim, yer quruluşu və digər şərtlərə uyğunlaşan, təbii kataklizmlərə tab gətirə bilən yüksək məhsuldarlığı və uzunmüddətli istifadəsi ilə seçilən toxum və tinglərin əldə olunması;<br>✓ Öz ehtiyacları daxilində bitkiçilik istiqamətində birgə elmi-tədqiqat işlərinin aparılması;<br>✓ Təsərrüfatların ərazilərində elmi-tədqiqat subyektlərinin təcrübə sahələrinin formalaşdırılması və s. |
| İxtisaslaşma parametrlərinin xüsusiyyətləri üzrə | ✓ "Sahibkarlıq təşəbbüsü – dövlət dəstəyi" tandemi formasında ixtisaslaşmış aqroparkların, aqroklasterlərin və aqroməhəllələrin yaradılması;<br>✓ Regional, yerli xüsusiyyətlər nəzərə alınmaqla ixtisaslaşdırılmış kompleks şəkildə həyata keçirilən istehsalın və aqroxidmətlərin təşkili, xüsusi məlumatlandırma və konsaltinq xidmətlərindən istifadə olunması;<br>✓ Ayrı-ayrı aqroməhsulların növləri daxilində çeşid və digər fəaliyyət ixtisaslaşmaların tətbiqi (xüsusi istehsal üsullarının tətbiqi, məsələn, il boyu istixanalarda spesifik istehsal mərhələ, komponent və adımlardan istifadə olunması və s.) |
| İnfrastruktur imkanları və perspektilər üzrə | ✓ Xüsusi tədarük və təchizat sisteminin yaradılması;<br>✓ Xüsusi satış sisteminin qurulması bu sahədə "yaşıl mübadilə məkanları (bazarlar)", "fermer (aqrotəsərrüfat) mağazaları" layihələrində, nümayəndəliklərin yaradılmasında aktiv iştirakın təşkili;<br>✓ İxrac məqsədilə "yaşıl koridorlardan", sadələşdirilmiş sertifikatlaşdırma sistemindən istifadə olunması, xarici partnyorlarla uzunmüddətli kommersiya əlaqələrinin yaradılması və s. |
| Digər əlamətlər və amillər üzrə | ✓ İstehsal olunmuş bitkiçilik məhsullarının mübadilə məkanlarına çatdırılma üsullarının və vasitələrinin müxtəlif transformativ və yenilikçi addımların təsirinə məruz qalması;<br>✓ Real satış məkanlarının imkanlarından istifadə etməklə yanaşı, virtual satış üsullarının geniş diapazonlu imkanlarından və üsullarından (məhsulun istehsalçı və ya istehlakçının ünvanında təhvil verilməsi, elektron ödəmə üsullarının geniş tətbiqi və d.) istifadə olunması və s. |

***Mənbə:*** *[2 ; 118]*

Aqrar sahədə təkmilləşdirici fəaliyyətin mühüm obyektlərindən birini də heyvandarlıq sahəsi və onun əsas həlqəsi hesab olunan heyvandarlıq məhsulları istehsalatlarıdır. Bitkiçilik istiqamətində olduğu kimi, heyvandarlıqda da daxili yenilikçilik istiqamətlərinin çoxşaxəliliyi müşahidə olunmaqdadır. Bu baxımdan bölüşdürülmə nümunəsi sxem 2-də verilən təsnifata müraciət etmək məqsədəuyğun olardı. Bu təsnifatda istehsalatlarla yanaşı, yem bazasının formalaşdırılması, infrasrtuktur və digər istiqamətlər də nəzərdən yayınmamışdır. Bəhs olunan yönlər özünün spesifikliyi ilə fərqlənməkdədir. Belə ki, toxunulan məsələlər öz-özlüyündə heyvandarlıq sahəsində ixtisaslaşan aqrosubyektlərin maliyyə-təsərrüfat fəaliyyətinin həyata keçirilməsi ilə yanaşı, region, ölkə miqyasında ərzaq təhlükəsizliyinin təmin edilməsi, məhsul bolluğunun yaradılması istiqamətində atılmalı olan müsbət addımlardan xəbər verməlidir.

***Sxem 2. Heyvandarlıq təyinatlı eksperimental subyektlər***

| **Heyvandarlıq təyinatlı eksperimental subyektlər** | |
|---|---|
| İstehsalın təşkili və həyata keçirilməsi üzrə | ✓ İstehsal üzrə əsas fondlarla təmin olunma vəziyyətinin və onun avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi, istehsalın peşəkar işçi heyəti ilə təmin olunması;<br>✓ İstehsalın texnoloji səviyyəsinin yüksəldilməsi, elmi-metodoloji imkanların təcrübəyə səmərəli tətbiqinin yaxşılaşdırılması, elmi və təcrübi yeniliklərin istehsalata tətbiqinin sürətləndirilməsi; |
| Cins heyvandarlığın formalaşdırılması üzrə | ✓ Ətlik və südlük istiqamətli cins mal-qaranın aqrosubyekt tərəfindən əldə olunması və istehsalata təhvil verilməsi, məhsuldar sürünün say-tərkibinin ferma və örüşləri imkanları ilə qarşılaşdırılması, cins mal-qaranın balaverimi üzrə fəaliyyətinin (o cümlədən süni mayalanma yolu ilə) təminolunma cins malqaranın sağlamlığının qorunması məqsədilə mütərəqqi zootexniki tədbirlərin tətbiqi və s. |
| Yem bazasının yaradılması və təkamülü üzrə | ✓ Heyvanların say-tərkib ifadələrinə uyğun olaraq, yem bazasının minimal həcmlərinin müəyyən edilməsi və tədarükü; yemlərin müxtəlif çeşidlərinin istehsalatda istifadə olunması qaydalarının təkmilləşdirilməsi; məhsuldarlığın, çəki artımının, süd sağımının artırılması məqsədilə yüksək kombinasiyalı yem qarışıqlarının özündə hazırlanması və ya əldə olunması; |
| İnfrastruktur imkanlar və perspektilər üzrə | ✓ Heyvandarlıq subyektinin sistemli fəaliyyətinin təmin olunması məqsədilə yol təsərrüfatının, enerji və su-kanalizasiya təchizatı, köməkçi və yardımçı bölmələrin cari və perspektiv dövrlərdə fəaliyyətinin təmin olunması;<br>✓ Kommersiya fəaliyyətinin səmərəli təşkili məqsədilə uyğun komponentlərin formalaşdırılması; |
| Digər əlamətlər və amillər üzrə | ✓ Heyvandarlıq məhsullarının müxtəlif modifikasiyalarının (hazır məhsul, yarımfabrikat, bitməmiş istehsalat və s.) reallaşdırılması məqsədilə reallaşdırma sisteminin yaradılması;<br>✓ Satışın müxtəlif formalarının tətbiqi imkanlarının yaradılması və genişləndirilməsi;<br>✓ Maya dəyərinin səmərəli üsullarından istifadə etməklə kommersiya xərclərinin optimallaşdırıl- |

***Mənbə:*** *[6; 89-92 ]*

Yuxarıda fərdi qaydada ifadə etdiyimiz nümunəvi təsərrüfatlarla yanaşı, yüksək texnologiyaların, məhsuldar toxum və cins heyvanların istifadəsi mümkün olmuş, möhkəm elmi-təcrübi təməllərə söykənən eksperimental təsərrüfatların yaradılması da mümkündür, bəzi hallarda isə məqsədəmüvafiq və əsaslandırılmışdır. Belə təsərrüfatlarda fəaliyyətinin bütün amilləri nəzərə alınmaqla formalaşdırılan iqtisadi-riyazi modelin hər bir amilinin təsir dərəcəsi müxtəlif situasiyalı təhlilə məruz qalmalı, mütərəqqi üsullarla aparılan hesablamalar vasitəsilə təkamül və transformasiya xarakterli işlər sistemli şəkildə həyata keçirilməlidir.

## ƏDƏBİYYAT


1. Bağırov M.S., Mahmudov C.İ. Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı: problemlər və həlli yolları. Naxçıvan: Əcəmi, 2017, 257 s.
2. Bağırov M.S. Naxçıvan Muxtar Respublikasının aqrar sektoru: hasilat-reallaşdırma sistemi və marketinq prinsipləri. Naxçıvan: Əcəmi. 2016, 344 s.
3. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan: Qeyrət, 2014, 130 s.
4. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan: Qeyrət, 2014, 107 s.
5. Bağırov E.A.Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı. Bakı: Avropa, 2015, 332 s.
6. Abbasov T.A. Naxçıvan: aqrar sektorun resurs potensialı, aqrar bazar və iqtisadi inkişaf. Bakı: ADPU-nun nəşriyyatı, 2018, 584 s.

7. Плотницкий М.И., Лобкович Э.И., Муталимов М.Г. Курс экономической теории. Мн.: Интерпрессервис, 2013, 668 с.
8. Войтов А.Г. Экономика. Общий курс. Мн.: Москва, 2011, 581 с.
9. Алексеева М.М. Планирование деятельности фирм. М.: Финансы и статистика, 2011, 592 с.
10. www. economy.gov.az

**РЕЗЮМЕ**

**Мехти Багиров**

**СОЗДАНИЕ ЭКПЕРИМЕНТАЛЬНЫХ СУБЬЕКТОВ АГРАРНЫЙ ОРИЕНТАЦИИ В НАХИЧЕВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКЕ: ТРАДИЦИИ И НАПРАВЛЕНИЯ РАЗВИТИЯ**

В статье повествуется об экспериментальных хозяйствах, создание которых считается целесообразным в автономной республике. Как составной элемент особое внимание уделяется факторам создание хозяйств этого вида.

С другой стороны, особое внимание уделяется выявлению потребительных обьемов на основе рассматривается информация о выявлении частных по соответствующих показателям использование по теме схем служит их более точному усваиванию.

**SUMMARY**

**Mehdi Bagirov**

**CREATION OF EXPERIMENTAL SUBJECTS OF AGRARIAN PURPOSE IN THE NAKHCHIVAN AUTONOMOUS REPUBLIC: TRADITIONS AND DIRECTIONS OF DEVELOPMENT**

The article discusses experimental farms, which are considered expedient to establish in the Autonomous Republic. A special place is given to the factors of creating such farms as an integral part of the work.

On the other hand, the focus is on determining the creative potential of farms on the basis of consumption volumes. On this basis, information on determining the ratios of related indicators is also considered. Using diagrams on the subject allows you to learn the subject more clearly.

**BƏHRAM HƏSƏNOV**
*Naxçıvan Dövlət Universiteti*

# ƏRZAQ KOMPLEKSİNİN DAVAMLI VƏ DAYANIQLI İNKİŞAFI

***Açar sözlər:*** *ərzaq kompleksi, dayanıqlı inkişaf, ərzaq təminatı, şaxələndirilmiş istehsal, maliyyə-kapital siyasəti*

***Ключевые слова:*** *продовольственный комплекс, устойчивое развитие, продовольственное обеспечение, диверсифицированное производство, финансово-капитальная политика.*

***Key words:*** *food supply, sustainable development, food supply, diversified production, financial and capital policy.*

Qloballaşan dünyada sürətlə artan əhalinin istehlak tələbini ödəmək üçün dayanıqlı inkişafın təmin edilməsi problemi son 100 ilin başlıca problemlərindən birinə çevrilib. Belə ki, XX əsrdə dünya əhalisinin sürətlə artması, tükənən sərvətlərdən vəhşicəsinə istifadə, ekoloji tarazlığın günü-gündən pisləşməsi, torpaq və sulardan səmərəsiz istifadə bu problemin necə də önəmli olduğunu gözlər önünə sərir. Bu problemə biganə yanaşma dünya əhalisinin durmadan artan ərzaq təminatının ödənilməsinə ciddi təhlükə yaradır və dayanıqlı inkişafın təmin olunması sahəsində ciddi addımlar atılmasa, dünya fəlakətlərlə üzləşə bilər.

Ərzaq kompleksin təminatı dayanıqlı iqtisadi inkişafın strategiyasının yaradılması, funksiyaları və idarəedilməsi ilə fərqlənən sektorial vahidlərinin gerçəkliyinin əsasında təhlil edilir. Məntiqi baxımdan ərzaq kompleksin xarakterinə uyğun olaraq, qloballaşma şəraitində ərzaq məhsullarının kompleks və dayanıqlı formada yaradılmasına səy göstərilməlidir. Məsələyə konstruktiv yanaşsaq, ərzaq məhsullarının dayanıqlı inkişafı milli ərzaq təminatı siyasəti baxımından da aktuallıq kəsb edir.

Dayanıqlı ərzaq kompleksinin yaradılması və elmi əsaslandırılması baxımından məzmunca bir-birindən fərqlənən aşağıdakı anlayışlarını özündə birləşdirir:

- əhalinin ərzaq təminatının ödənilməsi anlayışı;
- istehsal-texnoloji əsaslarla ərzaq emalı məhsullarının keyfiyyət anlayışı;
- ərzaq kompleksin inkişafının dayanıqlı və ixracyönumlüyünün təminatı anlayışı;
- əhalinin maddi-resurs potensial keyfiyyət faktoruna uyğunlaşdırma anlayışı və s.

Elmi düşüncə tərzi göstərir ki, dayanıqlı inkişaf sferası dinamikdir, ölkənin iqtisadi strategiyasına uyğun dəyişkənliyə məruz qalır. Ölkədə baş verən institusional dəyişkənliklərinə dayanıqlı inkişafın reaksiyası önəmli gerçəkliklərdən sayılır.

Ərzaq kompleksi dinamik olduğu üçün, artım sürətinin tərəqqi arasındakı gerçəklik yanaşma dayanıqlı inkişafının özü üçün mühüm reallıqdır. Artım sürətinin tərəqqisi ərzaq kompleksin miqyasının keyfiyyətcə artırılmasına yönəldilməsi mühüm şərtlərdən biridir. Bu o deməkdir ki, ərzaq kompleksinin daxili məhsulun real həcmi keyfiyyətcə uzunmüddətli artım meylinə reaksiya verir.

Kapital yağımı baxımdan, ərzaq kompleksin dayanıqlı inkişaf konsepsiyası istehsal sahələrinin realizasiyası fəaliyyətindən alınan gəlirlərinin artırılmasına əsaslanır. Gəlir faktoru əslində ərzaq məhsullarının bazar iqtisadiyyatında mövqeyi və potensialın səviyyəsi ilə tarazlaşır. Odur ki, xammal resurslarından ərzaq məhsulu istehsalı baxımdan optimal səviyyədə istifadə edilməsi, bazarla uyğunlaşdırılması dayanıqlı inkişaf konsepsiyasının əsas mənbələrində effektli modernizasiya mənbə kimi faydalıdır.

Gerçəkliyin məqsəd və vəzifələri ”Azərbaycan 2020: gələcəyə baxış” inkişaf konsepsiyasında ərzaq məhsullarının moderləşməsi ilə təyin edilməsi önəmə gətirilmişdir. Metodoloji təyinatlığı baxımından ərzaq kompleksi və ərzaq təminatın funksional təyinatının interpretasiyasına dair elmi araşdırmalar kifayət qədər aparılmamışdır. Bu məqsədlə ərzaq kompleksin modernizasiyası üçün elmi yanaşma tərzinin nəticələriniə dair məsələlərinə aydınlıq gətirilmişdir. Bu önəmli çərçivə daxilində “ərzaq kompleksi və ərzaq təminatı”nın funksional anlayışı Azərbaycanın dayanıqlı inkişafı kontekstində təhlillərinin aparılmasına üstünlük verilməlidir.

Ərzaq kompleksi və ərzaq təminatın inkişafı və idarəedilməsinin təhlilində sektorial baxımından çoxfunksionallığının əsasını üç sfera təşkil edir:

- kənd təsərrüfatının inkişafı;
- məhsulun texnoloji emalı;
- ərzaq infrastruktur servisinin yaradılması.

Müasir dövrdə sənaye cəhətdən inkişaf etmiş ölkələrdə üçüncü sferanın ÜDM-dəki payının əhəmiyyətli artımı onun "ərzaq servis iqtisadiyyatı" adlanan müstəqil iqtisadi inkişaf sahəsinə çevrilməsinə səbəb olmuşdur.

Ərzaq kompleksin çoxfunksionallığının gerçəkliyinə aydınlıq gətirməklə, onun ölkədaxili strateji mövqeyi və parametrlərini önəmə gətirmək olar. Metodoloji təyinatlığı önəmində bu həm də onunla əlaqələndirilir ki, Azərbaycanın gələcək inkişafında ərzaq kompleksi fəaliyyət göstərilməsinə dair dövlət siyasəti həyata keçirilir. Müqayisəli təhlil əsasında ölkənin ərzaq sektorunun formalaşması baxımından dövlət və özəl sektorlar kompleksində təyinatı mövcuddur. Son illər ərzində milli ərzaq sektoru Azərbaycanın iqtisadi inkişafının baçlıca sahəsinə çevrilməkdədir. Ölkədaxili strateji ərzaq məhsullarının rəqabətədavamlığının təyinatında bu sektorun özünün yetərli dərəcədə resurs potensialına malik olması ilə fərqlənir.

Azərbaycanın ərzaq kompleksin iqtisadi siyasəti önəmli mərhələyə çevrilmişdir. Bu siyasət yalnız lokal məzmunda deyil, həm də regional və qlobal miqyaslarının əhatə dairəsinin genişləndirilməsindən ibarətdir. Məsələnin mahiyyəti onunla ölçülür ki, dövlət tərəfindən milli ərzaq kompleks strategiyası yaxın və orta müddətdə dayanıqlı inkiaşfı iqtisadi, sosial, texniki və siyası kontekstdə əsaslandırılmışdır. İqtisadi inkişaf kontekstinin əsasında milli ərzaq məhsullarının rəqabətədavamlı və ixrac potensiala malik olan və ərzaq təhlükəsizliyin təminatını ehtiva edir. Əhalinin sosial ərzaq təminatı konteksti, aqrar elmi və digər humanitar sferalarda inkişafa istiqamət verən siyasət ölkənin dayanıqlığını təmin edən şərtlərdən biridir. Siyasi kontekst isə milli ərzaq təminatı kompleksin dəyərlərin ərzaq təhlükəsizliyin diplomatiyası ilə qlobal mühitə adaptasiyasının təşkilini özündə birləşdirilməsidir.

Hazırkı ərzaq məhsullarının inkişaf strategiyasının əsasını qloballaşan iqtisadi mühitdə milli ərzaq sferasının şaxələnmiş struktur sahələri ilə əlaqələndirilməsi məsələsi dövlət tərəfindən önəmə gətirilir. Azərbaycanda ərzaq kompleksi iqtisadi-sosial inkişafının transformasiyasına əsaslanır və ölkənin strateji siyasətinin tərkib hissəsidir. Qlobal enerji layihələri, maliyyə-kapital siyasəti, şaxələnmiş istehsal sturkturun yaradılması və idarə edilməsi və s. rasional ideyalarının tədbiqi prosesində ərzaq təminatının sferasının yaradılması və reallaşdırılmasının optimal səviyyədə iştirak edir.

Qloballaşan ərzaq kompleksin funksional təyinatı ölkədə baş verən siyasi və iqtisadi dəyişikliklərinin gerçəkliyi ilə bağlı məsələlərinin təhlillərinə daha çox diqqət yetirilməlidir. Bu gerçəklik fonunda ərzaq məhsullarının ölkənin hərəkətverici sahələrindən hesab olunur və təyinatın təsnifatını aşağıdakı ideyalarına əsaslanmaq olar:

• Ərzaq kompleksin çoxfunksional optimal səviyyəsinin təşkili və idarə olunması;
• Ölkənin qlobal mühitilə inteqrasiyasına ərzaq təminatının yaradılması;
• Aqrar təminatı kompleksin şaxələnməsi və idarəedilməsinin effektliyinin önəmi;
• Dayanıqlı ərzaq kompleksinin təminatı rəqabətədavamlı və ixracyönümlü məhsul istehsalının səviyyəsinin artırılması.

Tətbiqi elmi mənbələrinin nəticələri göstərir ki, dayanıqlı inkişaf praktiki cəhədən o vaxt effektli göstəricilərə malik olur ki, iqtisadi-sosial inkişfı prosesində funksional istehsal sahələrinin ərzaq təminatı kompleksinin tamlığı təmin edilmiş olsun.

Ərzaq məhsul növlüyü istehsalı kontekstinin oriyentasiyalığına rəğmən geniş və miqyaslı resurstutumlu, iqtisadi-sosial, informasiya qurumlarını özündə birləşdirir. Reallıq ondan ibarətdir ki, ərzaq kompleksin indikator göstəricilərinin təyin edilməsi, effektli qlobal səviyyədə ərzaq təminatı mühitinin yaratmaq gerçəklik funksiyasına malikdir. Elmi mənbələrin praktikası göstərir ki, milli ərzaq təminatı sektorunda kompleks inkişaf meyillərinin dəyərləndirilməsi və modernizasiyası əsas tədqiqat sahəsi hesab olunur.

İqtisadi tədqiqatlarda ərzaq kompleksin dayanıqlı inkişafını təmin edən müəyyən səviyyədə

elmi-praktiki həllini tapmışdır. Bununla yanaşı, milli ərzaq kompleksin idarə edilməsi və dayanıqlı inkişaf problemi tədqiqat obyekti olub, onun nəzəri metodologiyası çox az öyrənilmişdir. Bunu nəzərə alaraq milli ərzaq kompleksin çox şaxəli olmasını nəzərə alaraq istehsal resurslarının potensialının əsasında ərzaq təminatının dayanıqlı struktur funksiyaları tədqiqat obyektinə çevrilməsinə dair təkliflərə səy göstərməsini məqsədəuyğun saymışıq. Fikrimizcə, müxtəlif səviyyədə ərzaq struktur sahələrinin kompleks inkişafının dayanıqlığının əsasında təşkili praktiki effektə malikdir və ölkənin potensial aqrar resurslarından səmərəli istifadə və idarə olunmasına geniş miqyasda şərait yaradır.

Ərzaq kompleks struktur modelinin formalaşmasının iqtisadi-sosial qanunauyğunluğunu tədqiq edərək aşağıdakı yanaşmalara üstünlük verilməlidir:

• Ərzaq müəssisələrinin xammal ilə təmin edilməsi məqsədində kompleksin formalaşmasında təbii-iqtisadi resursların optimallığının müəyyən edilməsi imkanları;

• Ərzaq struktur modelinin regionlar üzrə yaradılması;

• Dayanıqlı inkişafa uyğun ərzaq-sənaye məhsullarının bazar münasibətləri ilə tənzimlənməsi.

Azərbaycan dövlətinin strateji siyasətinin tərkib hissəsi kimi ərzaq sənaye müəssisələrinin optimallığını artırmaq və modernləşdirmənin tədqiqinə nail olmaq, istehsal edilən ərzaq məhsullarının dünya bazarına daxil olmaq məsələləridir. Digər tərəfdən isə, ölkənin iqtisadi siyasətində ərzaq-sənaye kompleksini ilk növbədə əhalinin ərzaq təhlükəsizliyini qorumaq və eləcə də ərzaq təminatına yönəldilən məsələlərin tezliklə yerinə yetirilməsi problem kimi qarşıya məqsəd qoyulmuşdur.

Aqrar sənaye strukturun tarazlı inkişafının təmin edilməsi məsələsi bu sahədə texnoloji əsaslarla istehsal prosesinin xüsusiyyətlərindən irəli gəlir və istehsalın səmərəsinin artırılması üçün müstəsna əhəmiyyət kəsb edir. Fikrimizcə, kompleks səviyyədə formalaşan ərzaq-sənaye struktur həm öz daxilində, həm də onun mövcud olduğu region hüdudunda iqtisadi inkişaf və iqtisadi tərəqqi dəyişikliklərə müvafiq istehsal sahələrini yaratmağa qadirdir. Qeyd etmək məqsədəuyğundur ki, iqtisadi inkişaf və iqtisadi tərəqqi arasındakı fərq "dayanıqlı" anlayışının özü üçün mühüm məqamdır. Tərəqqi iqtisadiyyatın miqyasının fiziki baxımdan kəmiyyətcə artırılmasına yönəlmişdir. Bu ideyanı nəzərə alaraq ərzaq-sənaye müəssisələrinin ümumi daxili məhsulun real həcminin uzunmüddətli artım meyli kimi qəbul edirik. Dayanıqlı inkişafa əsaslanan ərzaq-sənaye müəssisələrinin potensialı kəmiyyət və keyfiyyət göstəricilərinin artırılmasına daha çox meyl göstərir.

Ərzaq strukturunun regional tarazlı inkişafı aşağıdakı üç iqtisadi problemin həlli ilə bilavasitə bağlıdır:

1) Regionların resurslarından səmərəli və iqtisadi effektə malik olan metodlarla istifadə edilməsi;

2) Ərzaq strukturun sabit ərazi təşkilinə və ekoloji təminatı sisteminə müvafiq olması;

3) İstehsal prosesində tullantısız texnologiyaya nail olması.

Azərbaycanda aqrar strukturun regional tarazlı inkişafının təşkili və idarə edilməsi ilk növbədə özəl ərzaq-sənaye müəssisələrinin yaradılması; regionların təbii-iqtisadi potensialına əsaslanan aqroemal müəssisələrinin optimallığını yaratmaq və nəticədə isə tullantısız dayanıqlı təsərrüfat sisteminin təşkil edilməsi ilə bağlı dövlət siyasəti həyata keçirilir.

## ƏDƏBİYYAT

1. Azərbaycanda innovasiya infrastrukturu – AMEA Xəbərləri – Elm və İnnovasiya seriyasının innovasiya bülleteni, 2012, №2
2. Əhmədov M.A, HüseynovA.C. İqtisadiyyatın dövlət tənzimlənməsinin əsasları. Metodik vasait. Bakı: İqtisad Universiteti, 2011
3. Əzizova G.A.. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: İqtisad Universiteti Nəşriyyatı, 2012
4. İbrahimov F.M. Azərbaycan iqtisadiyyatına yönəldilən xarici investisiyalar və onun milli iqtisadiyyatın dirçəlməsində rolu. Bakı: 2007

5. İsayev S.Z.. İnvestisaya fəaliyyətinin hüquqi tənzimlənməsi. Dərs vəsaiti. Bakı: 2010
6. Qurbanzadə A. Ərzaq kompleksinin modernizasiyası və dayanıqlı inkişaf problemləri. Bakı: 2017
7. Yahudov X.M., Seyfullayev İ.Z. Müəssisələrin İnnovasiya Fəaliyyətinin Stimullaşdırılmasının Vergitutma Aspektləri. Azərbaycan Texniki Universiteti. Bakı: 2013

## РЕЗЮМЕ

**Бахрам Гасанов**

## УСТОЙЧИВОЕ И ПРОЧНЫЙ РАЗВИТИЕ ПИЩЕВОГО КОМПЛЕКСА

В статье изучена экономическая борьба, идущая на современном этапе в мире, и проблема обеспечения устойчивого развития в этой борьбе. Неспособность обеспечить устойчивое развитие может стать неизбежной проблемой, с которой сталкиваются, прежде всего, население мира, а также наша страна с серьезным дефицитом продовольствия.
Проводимые здесь экономические реформы, проводимые в нашей стране, проводимые мероприятия анализировались в этом контексте и оценивались как реальная картина. Анализы показывают, что в нашей стране проделана важная работа в этой области, и эта проблема постоянно находится под постоянным контролем и заботой руководства страны.

## SUMMARY

**Bahram Hasanov**

## SUSTAİNABLE AND SUSTAİNABLE DEVELOPMENT OF FOOD SUPPLY

The article examines the economic struggle going on in the world at the present stage and the problem of ensuring sustainable development in this struggle. The lack of sustainable development can be an inevitable problem for the world population, as well as for the people of the world, to face serious food shortages.

In this context, the economic reforms and measures taken in our country have been analyzed and the real picture has been evaluated. The analysis shows that important work has been done in this area in our country and this problem is under constant control and care of the country's leadership.

**RÜFƏT ƏLİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*rufeta62@gmail.com*

# NAXÇIVAN MR-DƏ SOSİAL SIĞORTA MÜNASİBƏTLƏRİ: MƏCBURİ DÖVLƏT SOSİAL SIĞORTASI VƏ KÖNÜLLÜ SIĞORTA

***Açar sözləri:*** *sosial sığorta, Naxçıvan Muxtar Respublikası, məcburi dövlət sosial sığortası, könüllü (əlavə) sığorta*
***Ключевые слова:*** *социальное страхование, республика Нахчыванская АР, обязательное государственное социальное страхование, добровольное (дополнительное) страхование*
***Key words:*** *social insurance, republic of Nakhchivan AR, compulsory state social insurance, voluntary (supplementary) insurance*

Sosial sığorta - müvafiq normativ hüquqi aktlarda nəzərdə tutan hallarda işçilərin əmək münasibətləri prosesində itirdikləri gəlirlərinin müəyyən olunmuş qaydada və məbləğdə əvəzinin ödənilməsi, habelə onların itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Belə ki, itirilən gəlirlərə əməkhaqları, əməkhaqqına əlavələr, başqa ödənclər və digər xərclər daxildir: "İşçilərin sosial sığorta olunması prinsipləri, sosial sığorta hadisələri və onların müəyyən edilməsi, sosial sığorta üzrə ödəmələrin növləri, sosial sığortanın iştirakçılarının hüquq və vəzifələri, icbari dövlət sosial sığorta haqqı, ödəmələrin təyin edilməsinin şərtləri və qaydası, vəsaitlərin mənbələri, könüllü və əlavə sığorta üzrə ödəmələrin növləri, habelə sosial sığorta sahəsində digər münasibətlər Əmək Məcəlləsi, "Sosial sığorta haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında" qanunlar və onların əsasında qəbul edilmiş normativ hüquqi aktlarla tənzimlənir." Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisələrdə əmək müqaviləsi bağlayaraq çalışan əcnəbilər, vətəndaşlığı olmayan şəxslər sığorta olunması üçün müvafiq haqq ödəməklə Əmək Məcəlləsi ilə müəyyən olunmuş şərtlərlə və qaydada sosial sığorta olunmaq hüququna malikdirlər. İşəgötürən hər bir işçini onunla əmək müqaviləsi bağladığı zaman qanunvericiliklə müəyyən olunmuş qaydada icbari sığortalanmasını təmin etməlidir. Əmək müqaviləsində işçinin sığortalanması, o cümlədən onun əlavə sığorta olunub-olunmaması barədə müvafiq məlumatlar hökmən göstərilməlidir. Qanunvericiliyə əsasən işçilərin sosial sığortası icbari dövlət sığortası, onların özləri tərəfindən könüllü sığortalanması və işəgötürən tərəfindən aparılan əlavə sığorta formalarında həyata keçirilir. İşçilərin icbari dövlət sığortası işəgötürənlər tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada və məbləğdə həyata keçirilən sosial sığortalanmadır. İşçilər öz vəsaitləri hesabına müəyyən olunmuş qaydada sosial sığorta müqavilələri əsasında könüllü sığorta oluna bilərlər: "İşəgötürənlər işçilərin mənafelərinin təmin olunması və əmək funksiyasının yüksək səviyyədə yerinə yetirilməsinə maraqlarının artırılması, onların və ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə əmək kollektivini və ya onun ayrı-ayrı üzvlərini qanunvericilikdə nəzərdə tutulmuş sığorta formalarından daha üstün sosial sığorta olunmasını həyata keçirə bilərlər. Sığorta olunmuş işçiyə qanunvericilikdə nəzərdə tutulan qaydada tərtib edilmiş dövlət sosial sığorta şəhadətnaməsi verilir. İşçilərin sosial sığorta hüquqlarını məhdudlaşdıran və ya pozan hər hansı fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyətə cəlb olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsinə müvafiq olaraq, hər kəsin sosial təminat hüququ vardır. Konstitusiyanın bu maddəsi əsasında ölkədə sosial təminat hüquqlarının həyata keçirilməsi üçün müəyyən qanunvericilik bazası yaradılmışdır. Həmin qanunvericilik bazası müəyyən edilmiş yaş həddinə çatdıqda, əlilliyə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini müvəqqəti itirdiyinə, işsizliyə görə sosial güzəşt və təminatların əhatə dairəsini və onların həyata keçirilmə mexanizmini müəyyən edir. Ona görə də vətəndaşların sosial təminat hüquqlarının tənzimlənməsi baxımından "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu böyük əhəmiyyət daşıyır.

Qanunda sosial sığorta anlayışı ümumi şəkildə aşağıdakı qaydada ifadə olunmuşdur. Sosial sığorta bu qanunla nəzərdə tutulmuş hallarda vətəndaşların itirilmiş əməkhaqlarının, gəlirlərinin və ya əlavə xərclərinin kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır. Başqa sözlə desək, sosial sığorta tərəflər arasında razılaşmanın elə bir növüdür ki, sosial sığorta hadisəsi zamanı sığortaolunana dəymiş ziyan sığortaçı təşkilat tərəfindən qanunvericiliyə uyğun qaydada ödənilir. Qeyd olunan kompensasiya xarakterli ödəmələr Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən həyata keçirilir. DSMF-nin büdcəsinin böyük bir hissəsi isə məcburi dövlət sosial sığortası hesabına formalaşır.

Hər il üçün DSMF-nin büdcəsi qanunla təsdiq olunur. Qanuna görə məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi əmək ödənişləri ilə birlikdə həyata keçirilir. Qeyd olunan sığorta haqlarının ödəyiciləri isə sığortaolunanlar və Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün işəgötürənlərdir.

Qüvvədə olan qanuna görə, sosial sığorta sahəsində vətəndaşların sosial sığortasının əsas 2 forması göstərilmişdir:

- məcburi dövlət sosial sığortası;
- könüllü (əlavə) sığorta.

Məcburi dövlət sosial sığortası "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununa əsasən bütün əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində həyata keçirilən sosial təminat formasıdır. Belə ki, işəgötürən tərəfindən əmək müqaviləsi ilə işə qəbul olunan hər bir işçi məcburi dövlət sosial sığortası ilə əhatə olunmaqla sığorta iştirakçısına çevrilir. Barəsində məcburi dövlət sosial sığortası həyata keçirilən əmək müqaviləsi (kontraktı) üzrə çalışan işçilər sığortaolunan hesab olunur və onlara qanunvericilikdə nəzərdə tutulmuş qaydada sığorta şəhadətnaməsi verilir. Ona görə də sosial sığortaya cəlb olunan hər bir şəxs və onun ailə üzvləri dövlət tərəfindən onlara verilən sosial təminat hüquqlarının qorunmasında maraqlı olmalıdır. Qanunvericiliyə uyğun olaraq, müxtəlif fəaliyyət növləri üçün məcburi dövlət sosial sığorta haqları müəyyənləşdirilmişdir. Sosial sığortaya cəlb olunan şəxslər əgər öz fəaliyyətlərinə uyğun müəyyənləşdirilmiş məcburi dövlət sosial sığorta haqlarının vaxtlı-vaxtında ödənilməsini təmin edərlərsə, onda onlar özlərini baş verə biləcək sosial sığorta hadisələrindən sığortalamış olacaqlar ki, bunlara da pensiya yaşına çatmaq, əlil olmaq, ailə başçısını itirmək, əmək qabiliyyətinin müvəqqəti itirilməsi, hamiləlik, uşağın anadan olması, uşağa qulluq və sair daxildir.

Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçıları (sığortaedənlər, sığortaolunanlar) mövcud qanunvericilik tələblərinə uyğun olaraq, fondda uçota durmalıdır. Uçota duran hər bir sığortaolunan fond tərəfindən sığorta şəhadətnaməsi ilə təmin edilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinə görə, işçi əmək müqaviləsi bağlayarkən əmək kitabçası, habelə şəxsiyyətini təsdiq edən sənədlə bərabər, dövlət sosial sığorta şəhadətnaməsini də (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla) təqdim etməlidir. Dövlət sosial sığorta şəhadətnaməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin təsdiq etdiyi formaya uyğun olaraq, Dövlət Sosial Müdafiə Fondu tərəfindən müvafiq qaydada verilir.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq, bütün işəgötürənlər işçilərlə əmək müqaviləsi (kontraktı) bağladığı zaman qanunvericiliyin tələblərinə əməl etməklə onların məcburi dövlət sosial sığorta olunmasını təmin etməlidirlər. Ona görə də məcburi dövlət sosial sığortası yeganə sosial sığorta formasıdır ki, həyata keçirilməsində tərəflərin (işəgötürən və işçinin) razılığı tələb olunmur.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun yerli orqanları tərəfindən cari ilin 6 ayı ərzində sığortaedənlər tərəfindən təqdim olunan müvafiq təsdiqedici sənədlərə əsasən sığortaolunanlara məcburi dövlət sosial sığortası üzrə ödəmələr aparılıb. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondundan verilən məlumata görə, muxtar respublika üzrə 4224 nəfər sığortaolunana fondun yerli orqanları tərəfindən məcburi dövlət sosial sığortası üzrə ödəmələr həyata keçirilib. Bunlardan 336 nəfər sığortaolunana əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, 586-na hamiləliyə və doğuma, 1909-na uşağın anadan olmasına, 1354 nəfər sığortaolunana isə uşağın üç yaşı

tamam olanadək ona qulluq etməyə görə müavinət ödənilib. Eyni zamanda, vəfat etmiş 39 nəfər sığortaolunanı dəfn etməyi öhdəsinə götürən şəxsə dəfn üçün müavinət verilib. Məcburi dövlət sosial sığorta ödəmələri almaq hüququ olan sığortaolunanlara ödənilən müavinətlər üzrə vəsait sığorta edənlər tərəfindən təqdim olunmuş haqq-hesab cədvəllərindəki bank rekvizitlərinə uyğun olaraq, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti ilə, eləcə də muxtar respublikada fəaliyyət göstərən digər banklar vasitəsilə onların plastik bankomat kartlarına və "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyətinin yerli poçt bölmələri vasitəsilə ünvanlarında ödənilib.

Könüllü (əlavə) sosial sığorta isə tərəflərin seçdiyi sığorta hadisələri üzrə onların bağladıqları sığorta müqaviləsinin şərtlərinə uyğun tətbiq edilir. Ona görə də sosial təminatın bu forması tərəflərin əvvəlcədən qarşılıqlı razılıqları əsasında hər bir şəxs barəsində sosial sığorta hadisəsinə görə fərdi qaydada həyata keçirilir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində könüllü sosial sığortanın iki forması göstərilmişdir. Bunlar işçilərin öz vəsaitləri hesabına müəyyən edilmiş qaydada sosial sığorta müqavilələri əsasında könüllü sığorta oluna bilməsi və işəgötürənlərin, həmçinin onların birliklərinin işçilərin mənafelərinin təmin olunması, əmək funksiyasının yüksək səviyyədə yerinə yetirilməsinə maraqlarının artırılması, onların, eləcə də ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə əmək kollektivini və ya onun ayrı-ayrı üzvlərini qanunvericilikdə nəzərdə tutulmuş sığorta formalarından daha üstün sosial sığorta olunmasını həyata keçirə bilməsidir.

Sığortanın könüllü forması nəzəri cəhətdən bu prinsiplərə istinad edir: könüllü sığorta qanun vasitəsilə və könüllü şəkildə tətbiq edilir; qanun könüllü sığortadan keçməyə yararlı olanları və sığortanın daha ümumi şərtlərini müəyyən edir; konkret şərtlər sığortaçı tərəfindən tərtib olunan sığorta qaydaları tərəfindən tənzimlənir, könüllü sığorta hər zaman sığorta müddəti ilə məhdudlaşdırılır: bu zaman müddətin əvvəli və sonu xüsusi olaraq müqavilədə razılaşdırılır. Belə ki, sığorta ödənişi sığorta müddəti ərzində sığorta hadisəsinin baş verməsi zamanı ödənilməlidir. Könüllü sığortanın fasiləsizliyini yalnız yeni müddətə müqavilənin təkrar olaraq yenidən imzalanması yolu ilə təmin etmək mümkündür; könüllü sığorta yalnız birdəfəlik və ya dövri sığorta haqlarının ödənilməsi zamanı həyata keçirilə bilər; uzunmüddətli sığorta üzrə növbəti sığorta haqqının ödənməməsi müqavilənin qüvvədən düşməsinə səbəb olur.

"2009-2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nda 2013-2015-ci illərdə yığım komponentinin tətbiqi və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti üçün qanunvericilik bazasının hazırlanması və onların fəaliyyətə başlaması məsələləri nəzərdə tutulmuşdur. Qeyri-dövlət pensiya fondlarının yaradılması ilə bərabər, Dövlət Sosial Müdafiə Fondu vasitəsilə könüllü sığortalanmanın həyata keçirilməsi də hal-hazırda diqqət mərkəzində olan məsələlərdəndir.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu əhalini bir daha sığorta haqlarını vaxtlı-vaxtında və tam məbləğdə ödənilməsində aktiv iştirak etməyə çağırır. Hər bir vətəndaş bilməlidir ki, onun sosial təminatının gələcəyi öz əlindədir və bu prosesdə fəal iştirak etmək gələcəkdə sosial müdafiə hüquqlarının tam təmin olunması ilə nəticələnəcək. Ona görə də təminatlı gələcəyimiz üçün sığorta haqlarını vaxtında ödəmək olduqca vacibdir.

## ƏDƏBİYYAT

1. Azərbaycanda sığorta sistemi: iqtisadi və sosial proseslərə multiplikator təsiri kimi. Bakı: "Qanun" nəşriyyatı, 2018, 108 səh.
2. "Şərq qapısı2 qazeti. 2019-cu il

**РЕЗЮМЕ**

**Руфат Алиев**

**ОТНОШЕНИЯ СОЦИАЛЬНОГО СТРАХОВАНИЯ В НАХЧЫВАНСКОЙ АР: ОБЯЗАТЕЛЬНОЕ ГОСУДАРСТВЕННОЕ СОЦИАЛЬНОЕ СТРАХОВАНИЕ И ДОБРОВОЛЬНОЕ СТРАХОВАНИЕ**

Государственный фонд социальной защиты Нахчыванской Автономной Республики вновь призывает население активно участвовать в своевременной и полной оплате страховых взносов. Каждый гражданин должен знать, что будущее их социального обеспечения находится в их руках активное участие в этом процессе приведет к полному обеспечению прав на социальную защиту в будущем. Вот почему так важно своевременно платить страховые взносы за наше безопасное будущее.



**SUMMARY**

**Rufat Aliyev**

**SOCIAL INSURANCE RELATIONS IN NAKHCHIVAN AR: COMPULSORY STATE SOCIAL INSURANCE AND VOLUNTARY INSURANCE**

The State Social Protection Fund of the Autonomous Republic of Nakhchivan once again calls on the population to actively participate in timely and full payment of insurance premiums. Every citizen should know that the future of their social security is in their hands, and that their active participation in the process will result in full protection of their rights in the future. That is why it is important to pay insurance premiums in a timely manner for our secure future.

**SAMİR HƏZİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*sws1samir@hotmail.com*

# SƏNAYE SUBYEKTLƏRİNİN FƏALİYYƏTİNİN MAHİYYƏTİ VƏ TƏSNİFLƏŞDİRİLMƏSİ

*Məqalədə sənaye subyektlərinin fəaliyyəti haqqında ümumiləşdirilmiş informasiya təqdim olunmaqdadır. Yanaşmanın "iqtisadi sahə - istehsal vahidi" qarşılıqlı təsir müstəvisi üzrə nəzərdən keçirilməsi bir tərəfdən sənayenin ümumi məzmunu və quruluşu, onun vahidlərinin sahədaxili istiqamətlər (yarımsahələr) və istehsal vahidləri haqqında əhatəli məlumatların əldə olunması və müfəssəl xarakteristikaların ifadə edilməsi məqsədini güdməkdədir.*

*Digər tərəfdən, Naxçıvan Muxtar Respublikası üzrə sənaye istehsalın təmərküzləşməsi, onun sahəvi spesifikasiyalarının nəzəri təzahürü ilk növbədə yerli xammala əsaslanmaqla yanaşı daxili və xarici tələbatının daha yüksəksəviyyədə ödənilməsi məq-sədini güdməkdədir. Bu istiqamətdə görülən işlər sırasında yeni quruluşların yaradılması da mühüm əhəmiyyət kəsb edir ki, onların sırasında sənaye zonaları, klasterləri və məhəllələri öz əhəmiyyətini qorumaqdadır.*

***Açar sözlər:*** *sənaye subyektləri, müəssisələrin fəaliyyəti, regional istehsal vahidləri, region iqtisadiyyatı, sənaye müəssisələrinin təsnifləşdirilməsi*

Hər bir ölkənin iqtisadi sistemi digər prinsiplərlə yanaşı "sahə - fəaliyyət vahidi" prinsipi əsasında təzahür etməkdədir. Bu yöndə aparılan tədqiqatlar sırasında regionun sənaye subyektləri üzrə fəaliyyətin mahiyyəti və təsnifləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Sənaye sahəsi vahidləri üzrə yenilikçilik ifadəsinin yüksək sürətlərlə irəliləməsi, onların təkamülü, zəruri transformasiyasının səviyyəsi, istehsalın quruluşunun mövcud iqtisadi mühitə və mütərəqqi, tələblərə uyğun gələ biləcək plankalı səmərəlilik kəmiyyətinə uyğunlaşdırılması sahəsində görüləcək ardıcıl və məqsədyönlü işlər təsərrüfatçılıq subyektinin mühüm fəaliyyət vəzifələrini əks etdirməkdədir.

Sənaye müəssisələrinin fəaliyyətinin məzmun araşdırılması və onlar tərəfindən görülən işlərin təsnifləşdirilməsi ilk növbədə icra edilməli fəaliyyət üzrə dəqiqləşdirilmiş vəzifələrdən irəli gəlməkdədir. Vəzifələrin çoxluğunu nəzərə alaraq onlar üzrə bəlli seçimlərin aparılması və mühüm olan istiqamətlərin aşağıdakı vahid məcmularda birləşdirilməsi zəruridir:

✓ sənaye müəssisələrsinin ixtisaslaşma yönünün (istiqamətinin, qrupunun, yarımqrupunun və s.) araşdırılması;

✓ bazar tədqiqatlarının (marketinq monitorinqləri və s.) həyata keçirilməsi əsasında işgüzar fəaliyyətin spesifikasiyalarının dəqiqləşdirilməsi, onların mahiyyət və əhəmiyyətlilik dərəcəsinin qiymətləndirilməsi;

✓ istehsal vahidləri tərəfindən hasil ediləcək məhsulların məzmununun və uyğun keyfiyyət-kəmiyyət ifadələrinin müəyyənləşdirilməsi;

✓ sənaye istehsalı assortimentinin dəqiqləşdirilməsi əsasında məhsulların (xidmətlərin və işlərin) vizual görüntü nümunələrinin, texniki standartlarının və maliyyə-əsaslandırma sənədlərinin hazırlanması;

✓ istehsal planına müvafiq olaraq sənaye müəssisəsinin əsas və dovriyyə kapitalı ilə, ixtisaslı peşəkarlarla və ümumi təyinatlı işçi heyəti ilə təmin olunması;

✓ istehsal olunacaq məhsulların reallaşdırma şərtləri və imkanları nəzərə alınmaqla mərhələlik baxımından (hazır məhsul, yarımfabrikat və s.) düzgün qruplaşdırılması;

✓ istehsalı planlaşdırılan məhsullar üzrə məkanların istehsal-iqtisadi məkanların (fəaliyyət bölmələrinin və s.) formalaşdırılması, onlar arasında ardıcılığın təmin edilməsi əsas götü
rülməsi əsasında funksional və digər əlaqələrin təmin edilməsi;

✓ sənaye müəssisəsinin məhsullarının satışı prosesində müxtəlif üsul və vasitələrdən, mütərəqqi texnologiyalardan istifadə, onların tətbiqi imkanlarının qiymətləndirilməsi;

✓ müəssisənin ümumi maliyyə-təsərrüfat fəaliyyətinin strukturunun müəyyən edilməsi, onun daxilolma mənbələri və sərf olunma istiqamətləri üzrə həcmlərinin istehsalın məcmu "addımları" ilə qarşılaşdırılması və s. [3; 87]

Yuxarıdakı təsnifat sənaye-istehsal fəaliyyəti üzrə vəzifələrin təmərküzləşmə "nüvələri" haqqında fikir formalaşdırmağa imkan verir. Bu baxımdan qruplaşdırma maddələrinin hər biri çoxsaylı vəzifə maddələrinin mövcudluğuna dəlalət edir və fərdi qaydada nəzərdən keçirilmə müddəalarına diqqəti çəkir.

Sənaye müəssisələrinin fəaliyyətinin məzmunu və təsnifləşdirilməsi ilə bağlı verilmiş təsnifatda bildirəcəyimiz ilk düşüncələr həmin subyektlərin ixtisaslaşma yönünün, onların istiqamətinin, qrupunun, yarımqrupunun və s. araşdırılması, haqqında bəhs etdiyimiz komponentlər üzrə amil və vasitələrin müəyyənləşdirlməsi ilə əlaqələndirilməlidir. Deyilənlərin əsas məğzi – uyğun sahədə həyata keçirilən tədqiqatların ilkin mərhələsində müəssisənin sənayenin hansı sahəsinə (metallurgiya, maşınqayırma, yeyinti, yüngül və s.) aidiyyatının, bu əsasda ilkin və ya növbəti istehsal mərhələlərini özündə birləşdirən olmasının dəqiqləşdirilməsi zəruridir. Məsələn, aqrar sahənin məhsullarının hissəvi şəkildə istehlakçılar arasında paylanılması prosesində birbaşa son istehlakçılarla (yəni özlərinin ərzaq tələbatını ödəməklə məşğul olan fərdlərlə) yanaşı bu istehlakı zənginləşdirmək, onun növ və çeşidlərinə əlavələr gətirmık niyyətində olan emal sənayesi müəssisələri müstəqil tərəf kimi çıxış etməkdədir. Bu sahədə xam şəkildə olan südlə yanaşı qatış və digər ağartı məhsulları, meyvə növləri ilə yanaşı, onlardan istehsal olunan mürəbbələr, cemlər, kompotlar, xam ət həcmləri ilə yanaşı bişirilmiş və konservasiya olunmuş ət yeməkələri (hazır məhsul), yarımfabrikat şəklində istehlakın ödənilməsi məqsədini güdən doğranılmış və çəkilmiş şəkildə olan ət məhsulları rəngarəng istehlakın mövcudluğuna dəlalət etmək iqtidarındadır.

Lakin müraciət olunan misal və göstərilən tərkib təsnifləşdirmələri əsas etibarı ilə "aqrar sahə - onu tamamlayan qida təyinatlı emal sənayesi" məqsədyönlü tandeminin əyani nümunələrindəndir. Bununla bərabər "aqrar sfera – yüngül sənaye" və digər buna oxşar "cütlüklərin" birgə fəaliyyəti istehlak mühitində kifayət qədər tutarlı nəticələrin əldə olunmasına zəmin yaradır. Yaxud, "metallurgiya – tikinti sənayesi" tandemi ölkədə inşaat fəaliyyətinin istehlakında idxaldan asılılığın azaldılması (yaxud, tamamilə ləğvi) üzrə təməllərin formalaşmasından xəbər verməkdədir. Bəhs olunan situasiyalar geniş areala malikdir və müxtəlif konfiqurasiyalar əsasında formalaşdırıla bilər.

Digər tərəfdən, sənaye istehsal vahidlərinin fəaliyyətinin planlaşdırılması, bu sahədə müvafiq kompleks proqnozlaşdırmaların həyata keçirilməsi elmi cəhətdən əsaslandırılmış təməllərə malik olmalıdır. Bu sırada ifadə edilən təsnifatda öncül vəzifələr sırasında aşağıdakıları göstərmək yerinə düşər:

1. istehlakçının ehtiyac və istəklərinin sistemli şəkildə öyrənilməsi;
2. hər bir sənaye müəssisənin ixtisaslaşma əlamətinə, istehsal planlarına təsir edə biləcək məhsul istehsalı seçimlərinin məqsədyönlü, istehsal imkanlarına cavab verən və qanunauyğun şəkildə edilməsi;
3. seçimlər zamanı istər istehsal ediləcək məhsullar üzrə, istərsə də istehsal imkanları və komponentləri üzrə konfiqurativ seçimlərin (fərqli quruluşlu və s.) edilməsi;
4. edilən məhsul seçimlərinin istər daxili istehlak, istərsə də ixrac məqsədilə sənaye subyektlərində istehsalının məzmun, əhəmiyyət və digər əlamətlər baxımından tədqiq olunması və müfəssəl nəticə-qərarların qəbulu və s. [7; 52]

Sənaye müəssisələrin fəaliyyətinin təsnifləşdirilməsində istehsal vahidləri tərəfindən hasil ediləcək məhsulların məzmununun və uyğun keyfiyyət-kəmiyyət ifadələrinin müəyyənləşdirilməsi özünün mühüm əhəmiyyəti ilə seçilməkdədir. Belə ki, sənaye subyekti təkcə nəyin, hansı məhsulun (işin, xidmətin) istehsalının məqsəd olaraq dəqiqləşdirilməsi fikri üzərində fəaliyyətini cəmləməməli, eyni zamanda məqsədə nailolma taktikalarını (yollarını) sistemli və kompleks şəkildə seçməli, qarşıya çıxan texniki, idarəetmə, maliyyə, reallaşdırma və digər mənşəli maneələrin aradan qaldırılması sahəsində atılacaq məqsədyönlü addımları müəyyənləşdirməlidir.

Sənaye müəssisələrinin fəaliyyətinin dəqiqləşdirilməsi və qruplaşdırılmasında sənaye istehsalı assortimentinin dəqiqləşdirilməsi əsasında məhsulların (xidmətlərin və işlərin) vizual görüntü nümunələrinin, texniki standartlarının və maliyyə-əsaslandırma sənədlərinin hazırlanması mühüm əhəmiyyət kəsb edir. Belə ki, həmin subyektin istehsalının “daxili xammalı” üzrə nizamlanma işləri ilk növbədə məhsulun xaraci görünüşü və çeşidləri müəyyən edilir. Məhs bu əsasda vizual görünüş tanıtımları mümkün olur ki, bu da məhsulun cəmiyyətin ayrı-ayrı zümrə və “nüvələrində” qəbul olunmasında və sonrakı istehlakında mühüm rol oynamaqdadır.

Digər tərəfdən, sənaye müəssisəsi tərəfindən məhsulla bağlı atılıan adımlarla bağlı texniki standartlarının və maliyyə-əsaslandırma sənədlərinin hazırlanması mühüm istiqamətlər sırasında kompleks şəkildə ifadə olunmaqdadır. Belə ki, hər bir məhsul növünün sahəvi və istifadə təyinatından, mərhələli hazırlanması və digər şərtlərdən asılı olaraq ödəyəcək istehlakdan irəli gələrək müxtəlif texniki standartlara malik ola bilər. Bəhs etdiyimiz komponent özünün xammalından istehsal prosesinin xüsusisyyətlərinədək olan diapozonda çoxsaylı xüsusiyyətlərə malikdir ki, bu da istər istehsal-texniki, istərsə də maliyyə-iqtisadi yönlərdə olan kəmiyyətlərin sistemləşdirilməsi və rəsmiyyətə salınması ilə yekunlaşmalıdır. Əgər sənaye müəssisəsinin hazır məhsulları qida təyinatlıdırsa, bu zaman ölkə ərazisində qüvvədə olan və AQTA tərəfindən nəzarəti həyata keçirilən standartlar əsas götürülməklə rəsmiləşdirmələr və əsaslandırmalar həyata keçirilməlidir.

“Nə istehsal etməyə qərar verdim? Hansı məhsul üzərində seçim etdim?” suallarına cavab verdikdən sonra “İstehlı neçə, hansı quruluşda qurmalıyam? Bu zaman hansı komponentlərdən istifadə məqsədəuyğundur?” kimi düşüncələri cavablandırmaq zəruridir. Bu zaman sənaye subyektləri üzrə istehsal planları hazırlanmalı və ilk növbədə aşağıdakı mühüm istiqamətlər üzrə qeyri-müəyyənliklər həlli edilməlidir:

- ✓ istehsalına qərar verilmiş sənaye məhsulları və xidmətləri üzrə təchizat və tədarük üzrə fəaliyyətin müəyyənləşdirilməsi, perspektiv dövrdə qarşılıqlı malgöndərmələr həyata keçiriləcək tərəflər – malgöndərənlər, podratşılar, malalanlar, sifarişçilər, onların hər birinin kəmiyyət-keyfiyyət istək, təklif və ehtiyacları dəqiqləşdirilməlidir;
- ✓ öncəki bəndin istehsal – istehlak xarakteristikaları əsas götürülməklə müəssisələrin malik olmalı əsas və dovriyyə kapitallarının növləri, sənaye sahəsi daxilində ümumi və xüsusi tərkib elementləri (istifadə olunacaq bina və tikililər, maşın, avadanlıq və dəzgahlar və s.). Belə ki, məsələn, müəssisənin istehsal-iqtisadi quruluşundan asılı olaraq bütün sənaye müəssisələrində xammal və ya hazır məhsulların saxlandığı ümumi təyinatlı anbarlar mövcud olmalıdır. Bununla belə xüsusi temperatur dərəcələri çərçivəsində saxlanılması zəruri hesab edilən sənaye məhsulları üzrə soyuducu anbarların qurulması istehsal şərtləti ilə məqsədəuyğun hesab edilməkdədir. Eyni fikir və düşüncələr xammal, ehtiyat hissələri və dövriyyə fondlarını formalaşdıran digər ümumi və xüsusi təyinatlı komponentlərlə bağlı da ifadə oluna bilər ki, bu da sənaye istehsalı standartlarından irəli gəlir;
- ✓ müvafiq təsnifatda ifadə etdiyimiz hər iki bənd üçüncü bəndin zəruriliyini sərgiləmiş olur. Belə ki, istehsal sahələrinin, əsas və dövriyyə fondlarının mövcudluğu öz növbəsində müvafiq komponentlərin aktivləşməsinə səbəb ola biləck, zəruri ştat cədvəlinin tələbləri əsasında ixtisaslı peşəkarların və ümumi təyinatlı işçi heyətinin formalaşmasını tələb edir;
- ✓ texniki müstəvinin tamamilə yaradılmasına əsas istehsalaltla yanaşı köməkçi, xidmətedici, yardımçı bölmələrin yaradılmasına da müraciət olunacaqdır;
- ✓ qruplaşdırma maddələrinin vahid məcmu daxilində işıqlandırılması istehsal olunacaq məhsulların reallaşdırma şərtləri və imkanları nəzərə alınmaqla mərhələlik baxımından (hazır məhsul, yarımfabrikat və s.) düzgün qruplaşdırılmasını da tləb edir. Haqqında bəhs olunan yanaşma forması məhsul istehsalı ilə yanaşı onun müxtəlif formalı və şərtlərlə təchiz olunmuş satışı proseslərinin mövcudluğuna da diqqəti çəkmiş olur və s.

Təsnifatda ifadə edilən mühüm maddələrdən biri də istehsalı planlaşdırılan məhsullar üzrə məkanların istehsal-iqtisadi məkanların (fəaliyyət bölmələrinin və s.) formalaşdırılması, onlar arasında ardıcılığın təmin edilməsi əsas götürülməsi əsasında funksional və digər əlaqələrin təmin olunması təşkil edir. Öncəliklə qeyd etmək yerinə düşər ki, sənaye müəssisələri öz funksional fəaliyyətini təmin

etmək məqsədilə qarşılıqlı əlaqələrə malik struktur vahidlkəlrinə - sexlərə və istehsal sahələrinə, briqadalara və fərdi iş yerlərinə malik olmalıdırlar. Məsələnin sxematik ifadəsi üçün aşağıdakı sxemin köməyindən istifadə edilməsi məqsədəuyğun olardı.

***Sxem 1.***

Sənaye müəssisəsinin ümumi quruluşunun formalaşdırılması xüsusiyyətləri

→ Sənaye müəssisəsinin ***istehsal bölmə və vahidləri*** üzrə

- ✓ sənaye müəssisəsinin istehsal strategiyasının həyata keçirilməsi məqsədilə istehsal sexləri və fərdi iş yerlərinin yaradılması;
- ✓ müəssisə daxilində sənaye təyinatlı istehsal sexlərinin və iş yerlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi;
- ✓ müəssisənin istehsal quruluşunun ictimai əmək bölgüsünün, əsas istehsalların diferensiallaşdırılması və ixtisaslaşdırılmasının dərəcəsini əks etdirməsi;
- ✓ istehsal proqramlarına uyğun olaraq vahidlərin fəaliyyətinin işgüzar kəmiyyətləri üzrə optimal nisbətlərin müəyyənləşdirilməsi, real fəaliyyət proseslərində onların gözlənilməsi və s.

→ Sənaye müəssisəsinin ***qeyri-istehsal sahə və vahidləri*** üzrə

- ✓ əsas sənaye istehsal fəaliyyətinin tammənalı həyata keçirilməsi məqsədilə sənaye müəssisələrində xidmətedici və yardımçı təsərrüfat bölmələrinin yaradılması (müəssisə daxilində yeməkxana və digər iaşə obyektlərinin, sənaye müəssisəsi daxilində idman təyinatlı istirahət güşələrinin və kitabxanaların, daxili kommersiya təyinatlı bölmənin, yardımçı kənd təsərrüfatı bölməsinin və s.)

Sənaye müəssisəsinin istehsal quruluşunun və onun dəyişməsinin xarakteristikası üçün aşağıdakı göstəricilərdən istifadə olunması məqsədəuyğun hesab edilməlidir:

✓ müəssisənin ümumi məhsul buraxılışı həcmində ayrı-ayrı istehsal bölmələrinin (o cümlədən əsas sexlərin), məhsul buraxılışının xüsusi çəkisi;

✓ müəssisədə çalışan işçilərin tərkibində bu və ya digər istehsal bölməsində, o cümlədən əsas sexində çalışan işçilərin payı;

✓ müəssisəni əsas istehsal fondlarının ümumi dəyərində ayrı-ayrı istehsal bölmələrinin, o cümlədən əsas sexin əsas istehsal fondlarının xüsusi çəkisi və s.

Sənaye məhsulu buraxılışı göstəricisi subyektlərin istehsal quruluşunu daha dəqiq xarakterizə etməyə imkan verir. Belə ki, işçi sayı və əsas fondların həcm artımı məhsul buraxılışının çoxaldılmasına təsir edən amillərdən hesab olunsa da bu prosesi tam xarakterizə etməməkdədir. Digər tərəfdən, bu göstəricilərdən istifadənin həqiqi səviyyəsinin nə dərəcədə yüksək olması da problemin həllində öz sözünü demiş olur.

Sənaye müəssisəsinin istehsal quruluşunun formalaşması mürəkkəb prosesdir, çoxsaylı iqtisadi, təşkilati və texniki amillərin təsiri altında baş verir. Ona təsir edən mühüm amillər sırasında aşağıdakıları sadalamaq məqsədəuyğundur:

1. sənaye istehsalı həcminin artması subyektin tərkibindəki əsas istehsal və qeyri-istehsal bölmələrin sayı, tərkibi, ölçüsü və onlarda çalışan işçilərin miqdarının artımına da təsir göstərməkdədir. Bəhs edilənlər mürəkkəb istehsal quruluşunun olmasını tələb edir. Məsələn, maşınqayırma zavodlarında istehsalın həcminin artması əlavə hazırlıq, emaletmə və yığma sex və istehsalat sahələrinin yaradılması proseslərini zəruriləşdirir;

2. Yüksək ixtisaslaşdırılmış və kooperativləşdirilmiş sənaye müəssisələrində istehsal quruluşu universal müəssisələrdə olduğundan çox sadə olur. Belə ki, ixtisaslaşdırılmış müəssisələrdə bir çox hissə və qovşaqlar, həmçinin yarımfabrikatlar və komplektləşdirici məmulatlar kənardan – xüsusi ixtisaslaşdırılmış zavodlardan alındığına görə onların müəssisədə hazırlanmasına ehtiyac qalmır və bu da müəssisənin bölmələrinin sayını azaltmağa imkan verir;

3. Sənaye məhsulunun növ-çeşid nomenklaturası az olduqda müəssisənin istehsal quruluşu sadə, çox olduqda isə mürəkkəb olur. Yəni, məhsulun nomenklaturu çox olduqda əlavə sex və istehsal sahələrinin yaradılması zərurəti meydana çıxır;

4. istehlak olunan xammal və materialın növü, çeşidi yaranmış situasiyadan asılı olaraq sənaye müəssisəsinin istehsal quruluşuna birbaşa və dolayı yolla təsiretmə imkanına malikdir. Məsələn, xammal və materialın ölçüsü və forması anbar təsərrüfatının sayına və tərkibinə, nəqliyyat vasitələrinin növlərinə təsir göstərir;

5. sənaye müəssisəsinin avadanlıq parkında iş maşın və avadanlıqların xüsusi çəkisi artdıqca eyni zamanda təmir işlərinin sayının artmasına, deməli müəssisənin ümumi quruluşunun mürəkkəbləşməsinə də səbəb olur;

6. sənaye istehsalına texniki xidmətin təşkili səviyyəsi yüksək olarsa, istehsala texniki xidmət ixtisaslaşdırılmış kənar sexlər və briqadalar tərəfindən daha keyfiyyətli şəkildə həyata keçirilərsə, onda müəssisədə köməkçi və xidmətedici sex və təsərrüfatların sayı azalır;

7. məhsulun xarakteri və onun hazırlanması texnologiyası nə qədər mürəkkəb olarsa və onun hazırlanması çətin olarsa, bu zaman müəssisədə əlavə bölmələrin yaradılması zərurəti yaranır və s. [2; 416]

Sənaye müəssisəsinin səmərəli və optimal quruluşa malik olması onun bölmələri arasındakı düzgün mütənasibliyin yaradılmasının, xərclərin səviyyəsinin aşağı salınması yolu ilə yüksək son nəticələrin formalaşmasının zəmini hesab olunmalıdır. Qeyd etmək yerinə düşər ki, istehsalın səmərəliliyinin, ictimai tələblərə və ehtiyatlara uyğunluğunun göstəricisi olan son nəticələr miqyas etibarı ilə aşağıdakı kimi fərqləndirilə bilər: ümumilikdə ölkə iqtisadiyyatı üzrə; iqtisadi rayon üzrə; iqtisadi sahə üzrə və fərdi sənaye müəssisəsi üzrə. Hər dörd göstərici özünün miqyas ifadəsini əsas götürməklə yanaşı, problemin aktualllığını və onun həllinin zəruriliyini, miqyas qarşılaşdırmalarının mühümlüyünü bir daha sərgiləmiş olur.

Sənaye müəssisələrinin fəaliyyətinin məzmun və qruplaşdırma təyinatlı araşdırmalarında müvafiq sahə subyektlərinin məhsullarının satışı prosesində müxtəlif üsul və vasitələrdən, mütərəqqi reallaşdırma texnologiyalarından istifadə, onların tətbiqi imkanlarının qiymətləndirilməsi kimi problemlər və onların həlli özünün yüksək əhəmiyyətlilik dərəcəsini qorumaqdadır. Sadalanan məsələlər ilk növbədə istehsal olunan sənaye məhsullarının, göstərilməsi mümkün olan xidmətlərin və yerinə yetirilə biləcək sənaye xarakterli işlərin bu və ya digər "mübadilə məkanlarında tərəflərin görüşməsi" əsasında baş verən sadə təmasla yanaşı vasitəçilərin iştirakı ilə, elektron portalların xidmətlərindən istifadə etməklə mümkün olan məhsul, iş və xidmət "əldəyişdirmələri" də satış üsuları sırasında kifayət qədər tutarlı xüsusi çəkiyə malik reallaşdırma üsullarından hesab olunmaqdadır. Satış üsulları üzrə aparılması mümkün olan seçimlər əsasən tərəflərin konkret təmaslarının xüsusiyyətlərindən irəli gəlməkdədir.

Yuxarıda qeyd edildiyi kimi, tədqiqatının həyata keçirilməsi məqsədəuyğun hesab edilən problem üzrə mühüm maddələrdən biri də müəssisənin ümumi maliyyə-təsərrüfat fəaliyyətinin strukturunun müəyyən edilməsi, onun daxilolma mənbələri və sərf olunma istiqamətləri üzrə həcmlərinin istehsalın məcmu "addımları" ilə qarşılaşdırılmasıdır. Yəni, faktiki olaraq, biz bu maddə ilə sənaye müəssisənin fəaliyyətinin texniki, təchizat, təşkilati məsələləri ilə yanaşı maliyyələşdirmə təyinatlı kompleks fəaliyyəti də müşahidə etmiş oluruq.

İqtisadi sahədə aparılan araşdırmalar məsələnin təşkilati-texniki tərəfləri ilə pul vəsaitlərindən istifadənin, maliyyə təyinatlı hesablaşmaların qarşılıqlı vəhdət təşkil etməsi kimi yönlərin sistemli öyrənilməsi maddələrini qarılaşdırmış olur. Belə ki, əgər sənaye müəssisəsinin istehsal sexlərində baş verən proseslər texniki ardıcıllıq, mərhələli fəaliyyət mexanizmlərindən istifadəni nəzərdə tutsa da, onların birbaşa görünməyən, arxa planda olan üzünü maya dəyəri, reallaşdırma qiymətləri təşkil edir ki, bu da maliyyə-təsərrüfat fəaliyyətinin ümumiləşdirilmiş şəkildə özünü biruzə verməsindən xəbər verir. Qeyd olunan məsələlər sənaye müəssisələrinin fəaliyyətinin məzmunu və təsnifləşdirilməsi sahəsində mühüm istiqamətlər haqda təsəvvür yaratmağa, onların hər birinin mahiyyət və əhəmiyyətinə aydınlıq gətirməyə imkan verir.

## ƏDƏBİYYAT


1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı: Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.A. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı: ADİU-nun mətbəəsi, 2007, 792 s
3. Hüseynova İ.M. Müəssisənin iqtisadiyyatı (dərs vəsaiti). Bakı: Elm, 2013, 304s.
4. Niftullayev V.M. Sahibkarlığın əsasları. Bakı: Zaman, 2002, 618s.
5. Quliyev T.Ə. Menecmentin (idarəetmənin) əsasları. (dərslik). Bakı: Qərənfil, 2006, 591s.
6. Bağırov M.S. Statistika kursu. Naxçıvan: Əcəmi, 2014, 608s.
7. İbrahimova N.H. Müasirləşən iqtisadiyyat və təsərrüfat fəaliyyətinin iqtisadi təhlili. Naxçıvan: Əcəmi, 2015, 184s.
8. Azərbaycan Respublikası DSK-nın rəsmi elektron ünvanı. www.stat.gov.az
9. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. http: //www.economy.gov.az/



## РЕЗЮМЕ

**САМИР АЗИЕВ**

**ДЕЯТЕЛЬНОСТЬ ПРОМЫШЛЕННЫХ ПРЕДМЕТОВ ЗНАЧЕНИЕ И КЛАССИФИКАЦИЯ**

В статье представлена обобщенная информация о деятельности промышленных предприятий. С одной стороны, подход рассматривается в контексте взаимодействия «сфера экономики - единица производства», с одной стороны, общего содержания и структуры отрасли, внутриотраслевых направлений (подсекторов) ее единиц и производственных единиц. также стремится получить исчерпывающую информацию и выразить подробные характеристики. С другой стороны, концентрация промышленного производства в Нахчыванской Автономной Республике, теоретическое проявление его отраслевых спецификаций в первую очередь основывается на местном сырье и направлена на удовлетворение внутренних и внешних потребностей на более высоком уровне. Среди работ, проводимых в этом направлении, немаловажным является создание новых структур, среди которых важными остаются промышленные зоны, кластеры и микрорайоны.

***Ключевые слова:*** *промышленные субъекты, деятельность предприятий, региональные производственные единицы, региональная экономика, классификация промышленных предприятий.*



## SUMMARY

**SAMIR HAZIYEV**

**ACTIVITIES OF INDUSTRIAL SUBJECTS SIGNIFICANCE AND CLASSIFICATION**

The article provides generalized information on the activities of industrial entities. On the one hand, the approach is considered in the context of the "economic sphere - unit of production" interaction, on the one hand, the general content and structure of industry, intra-sectoral directions of its units (sub-sectors) and production units. also aims to obtain comprehensive information and express detailed characteristics. On the other hand, the concentration of industrial production in the Nakhchivan Autonomous Republic, the theoretical manifestation of its sectoral specifications is primarily based on local raw materials, as well as aims to meet domestic and foreign needs at a higher level. Among the work done in this direction, the creation of new structures is also important, among which industrial zones, clusters and neighborhoods remain important.

***Key words:*** *industrial entities, activities of enterprises, regional production units, regional economy, classification of industrial enterprises*

**ƏBDÜL-SƏMƏD HƏSƏNOV**
*AMEA İqtisadiyyat İnstitutu*
*sam_5az@yahoo.com*

# BAKININ ƏLƏT QƏSƏBƏSİNDƏ YARADILAN AZAD TİCARƏT ZONASININ RESPUBLİKA İQTİSADİYYATININ DAVAMLI İNKİŞAFINA TƏSİRİ

***Açar sözlər:*** *xüsusi iqtisadi zona, azad ticarət zonası, davamlı inkişaf, innovasiya, dəniz limanı, tranzit, biznes-mühit*

***Ключевые слова***: *специальная экономическая зона, свободная торговая зона, устойчивое развитие, инновация, морской порт, транзит, бизнес-среда*

***Key words***: *special economic zone, free trade zone, sustainable development, innovation, seaport, transit, business environment*

Dünya təcrübəsi təsdiq edir ki, xüsusi iqtisadi zonaların (XİZ) yaradılması və inkişaf etdirilməsi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi alətlərindən ən səmərəli olanlarından biridir. Bundan başqa, XİZ-lər istehsalın inkişafına, yeni iş yerlərinin açılmasına, əmək məhsuldarlığının artırılmasına, ölkənin depressiv rayonlarının sosial-iqtisadi inkişafına, sahibkarlığın sürətli inkişafına yardım edən dövlət regional siyasətinin bir aləti kimi də istifadə oluna bilər.

Müxtəlif növ XİZ-lər yerli və xarici kapitalın cəlb olunması imkanlarının genişlənməsinə, istehsalata qabaqcıl xarici elmi və idarəçilik texnologiyaların tətbiqinə, istehsalatda struktur dəyişikliklər prosesinin sürətləndirilməsinə, istifadə olunan istehsal gücünün səmərəliliyinin artırılmasına, milli təsərrüfatın dünya iqtisadiyyatına daha dərin daxil olmasına və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən daha səmərəli istifadəsinə imkan yaradır. Bu isə, öz növbəsində, gələcəkdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasına əhəmiyyətli potensial yaradır. Qeyd etməliyik ki, beynəlxalq rəqabətin gərginləşdiyi zamanı dövlət dəstəyi ən böyük amil kimi çıxış edir, bunun isə bir növü kimi XİZ-in yaradılması çıxış edir.

Hesab edirik ki, XİZ-lərin yaradılması respublika iqtisadiyyatının davamlı inkişafı üçün innovativ və çox perspektivli istiqamət kimi baxıla bilər.

Azərbaycan XİZ-lərin yaradılması proseslərinə qoşulmaq haqqında düşündükcə, dünya bu sahədə daha irəli gedir. Ona görə də respublikamız bu istiqamətdə gecikə bilər. XİZ-lərin üstünlükləri isə danılmazdır. Müasir dünya təcrübəsinə əsaslanan səmərəli təsərrüfat fəaliyyəti və xarici investisiyaların iri həcmi qısa müddət ərzində infrastrukturun sürətli inkişafına və regionun geopolitik nüfuzunun yüksəlməsinə güclü təkan verər. Respublikamız bu işdə gecikməməlidir.

Fikrimizcə, XİZ-in 30 növündən bir neçəsini yaxın illərdə yaratmaq olar. Bunlar: texnoparklar, elmi-texnoloji zonalar, azad ticarət zonaları, ekoloji-iqtisadi regionlar, azad limanlar və s. Bütün bunlar respublika rəhbərliyinin qeyri-neft sektorunun inkişafına aid tövsiyələrinin yerinə yetirilməsinə, rəqabət qabiliyyətli iqtisadiyyatda azad sahibkarlığın inkişafına böyük təkan verəcək.

Son illər gedən proseslər: texnoloji zonaların və Yüksək Texnologiya Parklarının (YTP) yaradılması, AMEA-nın bazasında YTP-nın yaradılması, sənaye zonaların və sənaye məhəllələrinin işə salınması XİZ-in respublika iqtisadiyyatının davamlı inkişafı üçün daima artan əhəmiyyətinin sübutudur.

XİZ-lərdə sahibkarlar üçün vergi ödənişləri, gömrük siyasəti, lisenziyalaşdırma, bank xidmətləri, viza qeydiyyatı, torpaq mülkiyyəti, girov qoyma münasibətləri, idarəetmə və s. sahələrdə imtiyazlı iş rejimi yaradılır. Burada yaradılan mühit bütün başqa sahələrlə müqayisədə qat-qat əlverişlidir və biznes fəaliyyətinin stimullaşdırılmasına yönəldilib.

Xüsusi qeyd etməliyik ki, bütün bu işlərin bünövrəsini hələ 1994-ci ildə Ümummilli liderimiz Heydər Əliyev qoymuşdur. Dünya iqtisadiyyatının inkişaf istiqamətlərini görən və Azərbaycan Respublikasının gələcək sosial-iqtisadi inkişaf modelini düşünən Ümummilli lider H.Əliyev ölkəmizdə Xüsusi İqtisadi Zonaların yaradılması və fəaliyyətinin mövcud imkanları haqqında

tapşırıqlar vermişdir. Sumqayıtda yaradılan Texnoloji Parkların təşəbbüskarı H.Əliyev olmuşdur.

Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı ölkənin strateji məsələlərindən biridir. Respublika rəhbərliyi Heydər Əliyevin tövsiyələrini həyata keçirmək üçün istehsal sahələrini diriltmək, biznesi stimullaşdırmaq, innovasiyaları tətbiq etməyə hərtərəfli çalışır. Bu yolda birbaşa dövlət investisiyaları və tətbiqi iqtisadiyyatda sahibkarların aktiv çalışmaları üçün stimullaşdırmadan istifadə olunur. Sonra isə bu işləri çox uğurla Prezident İlham Əliyev davam etdirmişdir. Belə ki, 2009-cu ildən Azərbaycanda Texnoloji Parkların, Texnoloji Zonaların, YTP-nin, Sənaye Zonaların və Məhəllələrin yaradılması prosesi sürətlə həyata keçirilməyə başlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 6 mart 2007-ci ildə "Xüsusi İqtisadi Zonaların yaradılması haqqında" Fərmanından (1) və 2009-cu ilin aprel ayında Milli Məclisdə İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanan "XİZ-lər haqqında Qanun" (5) qəbul olunandan sonra bu sahədə işlər çox aktivləşmişdir.

Dövlətin və biznesin birgə fəaliyyətinin nümunəsi kimi Sumqayıt Texnoloji Parkının yaradılmasını göstərə bilərik. Bundan başqa, Prezident İ.Əliyev tərəfindən 21 dekabr 2011-ci il tarixində Sumqayıtda Kimya Sənaye Parkının yaradılması haqqında Sərəncam verilmişdir. Bunun üçün İqtisadiyyat və Sənaye Nazirliyi yanında "Sumqayıt Kimya Sənaye Parkı" MMC yaradılmışdır. 2012-ci ilin noyabr ayının 6-da prezidentin Fərmanı ilə "Yüksək Texnologiyalar Parkının yaradılması haqqında" qərar qəbul edilmişdir.

2012-ci ilin dekabr ayının 19-da Azərbaycan Respublikası Prezidenti tərəfindən Balaxanı sənaye parkının təməli qoyulmuşdur, sonra isə istifadəyə verilmişdir.

İstifadəyə verilən zonalar sırasında Pirallahı və Mingəçevir YTP-ləri, Sumqayıt Kimya Sənaye Parkı və s. var.

Son illər ərzində respublikamızda keçirilən iqtisadi islahatlar, ən əsas da ki, iqtisadiyyatın diversifikasiyası istiqamətində aparılan işlər ölkəmizin biznes-mühitini daha da yaxşılaşdırmış və xarici investisiyalar və investorlar üçün əlverişli imkanlar yaratmışlar. Xarici və yerli investorlar Azərbaycanda yaradılan Azad Ticarət Zonasına, sənaye parklarına və ölkənin tranzit imkanlarına böyük maraq göstərirlər. Azad Ticarət Zonasına (ATZ) daxil olan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da investorlar üçün müxtəlif növ əməkdaşlıq istiqamətləri ilə çox cəlbedicidir.

Respublika rəhbərliyinin prioritet kimi seçdiyi iqtisadiyyatın yenidən formalaşması, nəqliyyat infrastrukturunun modernizasiyası, bir sıra texnoloji, sənaye aqroparkların yaradılması kimi istiqamətləri nəzərə alaraq, xarici investorlar üçün böyük maraq və imkanlar yaranıb. 2017-ci ilin oktyabr ayının 30-da böyük əhəmiyyət və geniş imkanlar yaradan Bakı-Tiflis-Qars dəmir yolunun açılışı isə bu maraq və imkanları qat-qat artırır və respublikamızın dünya iqtisadiyyatına inteqrasiya olunmasına və iqtisadi inkişafımıza böyük impuls verir.

Ələt qəsəbəsində yaradılan ATZ respublika prezidentinin 2016-cı ilin mart ayında verdiyi Sərəncam əsasında qurulur və buraya yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanı da daxil edilib (3).

Bundan başqa, "Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 17 mart tarixli 1912 nömrəli Sərəncamın (3) icrası ilə əlaqədar hazırlanmış normativ - hüquqi aktların layihələri "azad iqtisadi zona" elan ediləcək ərazilərdə həyata keçiriləcək iqtisadi fəaliyyət üçün əlverişli hüquqi rejimin müəyyənlişdirilməsini nəzərdə tutmuşdur.

Qeyd etməliyik ki, buna əlavə olaraq, Prezident İ.Əliyev 31 may 2017-ci ildə azad iqtisadi zonaların yaradılması prosesinin sürətləndirilməsi işinə dair Sərəncam (2) imzalamışdır. Sərəncamda qeyd edildiyi kimi, "transmilli enerji infrastrukturu və beynəlxalq nəqliyyat layihələrinin Azərbaycanda reallaşdırılması investorların ölkəmizə marağını xeyli artırıb". Xarici investisiyaların cəlb edilməsi, əlverişli coğrafi mövqeyi ilə seçilən ərazilərin loqistik və sənaye potensialından tam istifadə olmasına, iqtisadiyyatımızın daha da möhkəmlənməsinə, büdcə gəlirlərinin diversifikasiyasına və əhalinin məşğulluğuna böyük töhfə verə bilər.

AİZ-lərin yaradılması prosesinin sürətləndirilməsi məqsədi ilə 11 nazirlik və komitənin rəhbər

müavinləri səviyyəsində işçi qrup yaradılıb və bu qrupa 3 ay ərzində AİZ-lərin yaradılması ilə bağlı hazırlanmış qanun layihəsinin ekspertizasını keçirməklə, dövlətin mənafelərinin və investorların qanuni maraqlarının tarazlı şəkildə nəzərə alınmasını təmin edən sənədin yekun variantını hazırlayıb Azərbaycan Respublikası Prezidentinə təqdim etmək, AİZ-lərin inkişaf etdirilməsi məqsədi ilə bu sahədə təcrübəsi olan xarici investor (developer) şirkətləri ilə bağlanılacaq müqavilələrin əsas şərtlərinə dair təkliflər vermək tapşırılıb (2).

Hal-hazırda da Ələt qəsəbəsində yaradılmış Bakı Beynəlxalq Dəniz Ticarət Limanında və yaradılması planlaşdırılan ATZ-də böyük işlər aparılır, biznes-mühitinin səmərəli təşkili üzrə tədbirlər keçirilir. Bu haqda respublika prezidenti İ.Əliyev Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda da (4) qeyd etmişdir. Belə ki, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı Xəzər limanları arasında ən böyük olanıdır. May ayının 14-də istifadəyə verilən liman Şərq-Qərb nəqliyyat dəhlizinin tam həcmdə işlənməsi üçün çox önəmli və uğurlu infrastruktur layihəsidir və respublikamızın tranzit ölkə kimi imkanlarını artıracaq. Bundan başqa, Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin də fəal iştirakçısıdır və bunun nəticəsi olaraq 9 ay ərzində daşınan yüklərin həcmi 100 dəfədən çox artmışdır. Cənab İ.Əliyev qeyd etmişdir ki, "Azərbaycanın həm texniki təcrübəsi, həm də mütəxəssisləri və maliyyə resursları var. Azərbaycan ərazisində bütün işləri biz, özümüz gördük və başqa yerlərə də öz maliyyə imkanlarımızı cəlb edə bilərik ki, bu dəhliz tam gücü ilə işləsin və ölkəmizə əlavə valyuta gətirsin. Bizim məqsədimiz budur. Əlbəttə ki, tranzit ölkələrin siyasi çəkisi də siyasi imkanları da artır..."

Qeyd etmək lazımdır ki, Ələt ATZ-nin yaradılması üzrə layihənin operatorlarından biri dünyada məşhur olan "Dubai Port World" şirkətidir. Bu da ondan irəli gəlir ki, axır zamanlar bütün dünyada gedən hadisələr nəqliyyat və logistika sahəsində alternativlərin olmasını obyektiv zərurətə çevirmişdir.

İqtisadiyyat naziri M.Cabbarovun açıqlamasına görə, Azad Ticarət Zonasının regional miqyasda Cənubi Qafqaz, Mərkəzi Asiya, İran, Rusiya və Türkiyənin bir hissəsinin daxil olduğu, 130 milyon insanı əhatə edən bazara xidmət göstərməsi planlaşdırılır. Buradan keçən Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə 2019-cu ilin noyabrında tarixdə ilk dəfə olaraq Çinin Sian şəhərindən Türkiyə Respublikasına ilk konteyner qatarının hərəkəti təmin olunmuşdur. Hazırda bu dəmir yolu 6 milyon ton yük və 1 milyon sərnişin daşımaq gücünə malikdir. Növbəti mərhələdə bu şəbəkənin yükgötürmə qabiliyyəti 15 milyon tondan çox olacaq (6).

Bizim fikrimizcə, Xəzər dənizinin statusunun, nəhayət ki, həll edilməsi 5 sahilyanı ölkənin inteqrasiya əlaqələrinin aktivləşməsinə və iqtisadi əməkdaşlığa əlavə təkan olacaq. Bu yolda Bakı dəniz limanında və Ələt qəsəbəsində ATZ-nin yaradılmasına böyük dəstək ola bilər.

Ələt qəsəbəsində yeni beynəlxalq dəniz limanının istifadəyə verilməsini, o ərazidən keçən beynəlxalq dəmir (Bakı-Tiflis-Qars), avtomobil yollarının olmasını, Bakı-Tiflis-Ceyhan neft və Bakı-Tiflis-Ərzurum qaz kəmərlərinin yaxınlıqdan keçməsini nəzərə alaraq bu qəsəbədə sahibkarlığın inkişafı, yeni iş yerlərinin açılması, əhalinin həyat səviyyəsinin artırılması məqsədilə azad ticarət zonasının yaradılması məqsədəuyğundur və bizim tərəfimizdən çoxdandır ki, təklif edilmişdir (müəllif).

**Bundan əlavə, Ələtdə ATZ-nin yaradılmasının başqa müsbət cəhətlərini də qeyd etmək istərdik :**

- Əlbəttə ki, hər şey yeni olaraq sərbəst ərazidə yaradılır;
- Bura 2 avtomobil yolunun kəsişməsi və "İpək yolunun" üstündə yerləşir;
- Inkişafetmiş infrastruktura "Bakı-Tiflis-Qars" dəmir yolu da əlavə olundu və bu fakt da Ələt ATZ-nin imkanlarını dəfələrlə artırdı. Bunun nəticəsində beynəlxalq ticarət dövriyyəsi artacaq və xarici ticarət strukturu təkmilləşəcək, iqtisadi əlaqələr möhkəmlənəcək, tranzit əməliyyatları sürətlə artacaq;
- Əlbəttə ki, ATZ qeyri-neft sektorunun inkişafını sürətləndirəcək;
- Qonşu regionlar da inkişaf etməyə başlayacaq;
- Beləliklə də, bu ATZ-də tətbiq olunan biznes-mühit həm zonada çalışan sahibkarlara, həm də ətraf rayonların iş adamlarına böyük dəstək olacaq;

- dəniz limanı ilə birlikdə Ələt ATZ-nin yaradılması başqa məsələlərlə yanaşı, su nəqliyyatının sürətli inkişafına və bunun nəticəsində bu zonanı çox vacib nəqliyyat qovşağına çevirəcək. Beləliklə də, dəniz limanı və yaradılan ATZ bir-birini tamamlayaraq və təkan verərək sürətli və səmərəli işləyə bilərlər;

- Ələtdə ATZ-nin yaradılması ilə tələsmək lazımdır və buradakı yeni limanın sürətli inkişafı üçün başqa məsələlərlə yanaşı, yükdaşınma tariflərini optimallaşdırıb, xarici yükdaşıyıcılarını stimullaşdırmaq məqsədəuyğundur;

-Zona beynəlxalq daşımalarda və Avrasiya loqistik zəncirlərdə artan rol oynayacaq;

-Azərbaycanda istehsal olunan malların dünyada tanıdılmasına dəstək olacaq.

Bundan başqa, fikrimizcə, AİZ-lərin müxtəlif növlərinin ölkəmizdə yaradılmasını sürətləndirmək lazımdır. İş ondadır ki, bizimlə qonşu ölkələrdə (Rusiya, Qazaxıstan, İran, Gürcüstan) bu sahədə böyük işlər aparılır. Məsələn, Qazaxıstanda 6 AİZ yaradılması üzrə iş gedir, onlardan biri Xəzər sahilində "Aktau dəniz limanı" və biri də Rusiya ilə sərhəddə neft və qaz sənayesi üçün məhsul istehsalı üzrə yaradılır. Bu sahələrin Azərbaycanda inkişaf etdirilməsi daha vacibdir və bu işdə gecikmək olmaz.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı 6 mart 2007-ci il, "İqtisadiyyat və həyat", 2007, №3
2. Azərbaycan Prezidenti İlham Əliyevin Azad iqtisadi zonalar yaradılması işinin sürətləndirilməsinə dair Sərəncam 31.05.2017
3. "Bakı şəhəri Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın yaradılması ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 17 mart tarixli 1912 nömrəli Sərəncamı
4. Prezident İ.Əliyevin 2018-ci ilin 9 ayının nəticələrinə həsr olunmuş Nazirlər Kabinetinin iclasında çıxışı www.president.az
5. Xüsusi iqtisadi zonalar haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, 9 aprel 2009
6. www.oxu.az

## РЕЗЮМЕ

**Абдул-Самад Хасанов**

### ВЛИЯНИЕ СОЗДАВАЕМОЙ В ПОСЕЛКЕ АЛЯТЫ Г.БАКУ СВОБОДНОЙ ТОРГОВОЙ ЗОНЫ НА УСТОЙЧИВОЕ РАЗВИТИЕ ЭКОНОМИКИ РЕСПУБЛИКИ

Статья посвящена очень важной проблеме-созданию и функционированию специальных экономических зон в Азербайджане. Автор провел исследование о совместной деятельности свободных торговых зон и Бакинского международного морского порта в поселке Аляты и выдвинул свои предложения и рекомендации.

## ABSTRACT

**Abdul-Samad Khasanov**

### INFLUENCE OF THE FREE TRADE ZONE BEING CREATED IN THE ALAT SETTLEMENT OF BAKU ON THE SUSTAINABLE DEVELOPMENT OF THE ECONOMY OF THE REPUBLIC

The article is devoted to a very important problem - the creation and functioning of special economic zones in Azerbaijan. The author conducted a study on the joint activities of free trade zones and the Baku International Sea Port in the village of Alat and put forward his suggestions and recommendations

**İLQAR SADIQOV**
*Azərbaycan Kooperasiya Universiteti*

## QEYRİ-NEFT SEKTORUNUN İNVESTİSİYA TƏMİNATININ ARTIRILMASI

***Açar sözlər:*** *qeyri-neft sektoru, iqtisadi inkişaf, investisiya, müəssisə*
***Ключевые слова:*** *ненефтяной сектор, экономическое развитие, инвестиции, предприятие*
***Key words:*** *non-oil sector, economic development, investment, enterprise*

Azərbaycanda qeyri-neft sektorunun inkişafı onun investisiya təminatının yaxşılaşdırılması və bu təminatdan istifadənin təkmilləşdirilməsi ilə birbaşa bağlıdır. Belə müasir çağırış qloballaşma şəraitində innovasiya fəaliyyətinin keyfiyyətcə yeni müstəvidə genişlənməsi ilə bütün dünyada iqtisadi və təsərrüfat proseslərinin dəyişmə tempi, innovativ yeniliklərin yayılması, onların istehsal sahəsində tətbiqi misli görünməmiş şəkildə sürətlənməsi ilə əlaqədardır.

**Qeyri-neft sektorunun investisiya təminatının yaxşılaşdırlması istiqamətləri**

Qeyri-neft sektorunun investisiya təminatının artırılması onun nəticələrinin vercəyi maraqların, faydaların səviyyəsindən asılı olacaqdır. Məhz bu sektorun yeni, innovativ məhsulu daxili və xarici bazar üçün xüsusi maraq yaratmaqla, onun satış imkanlarını da artırmalıdır. Bütün belə yanaşma isə investisiya qoyuluşlarından istifadənin yaxşılaşdırılmasında ilk olaraq diqqətin istehsal ediləcək məhsul və onun nəticə faydalarının bağlılığının əvvəlcədən müəyyən edilməsini qabartmalıdır (1). Qeyri-neft sektorunda investisiya qoyluşlarından istifadənin yaxşılaşdırılması bu baxımdan sənaye siyasəti və bu sahədə mövcud olan hüquqi-normativ bazanın müasir tələblərə cavab verən yeni məhsul istehsalının stimullaşdırılmasına daha çox yönəldilməsini zəruriləşdirir (2). Zənnimizcə, qeyri-neft sektorunda müasir tələblərə cavab verəcək məhsul istehsalının stimullaşdırılamasında və bununla bağlı investisiya potensialının istifadəsində aşağıdakı amillərə xüsusi üstünlük verilməlidir:

- Yeni və bazar tələblərinə cavab verən məhsul istehsal edən müəssiələrə təminatlı güzəşt və dəstək mexanizminin təkmilləşdirilməsi;
- Müvafiq təyinatlı və bazarda özünü doğrultmaqda olan müəssisələrə uzunmüddətli investisiya kreditləşməsində zəruri dəstəyin artırılması;
- Sosial əhəmiyyətli və ekoloji baxımdan yeni məhsul istehsalçılarına dövlət və yerli idarəetmə orqanları tərəfindən məqsədli sifarişlərin təmini və bu sahədə investisiya təminatı ilə bağlı səmərəli münasibət sisteminin yaradılması;
- Rəqabətqabiliyyətli məhsul istehsalçılarının fəaliyyətinin genişləndirilməsinə xidmət edəcək maliyyə-kredit, vergi, gömürk və s. sahələrdə mövcud olan qanunvericilik bazasının təkmilləşdirilməsi;
- Daxili və xarici bazarlar üçün yüksək tələb olunan və riskli məhsulların istehsalı ilə məşğul olan müəssisələrin xərclərinin müəyyən hissəsinin kompensasiya olunması (elm, innovasiya, marketinq və s.).

Qeyri-neft sektorunda fəaliyyət göstərən müəssisələrin fəaliyyətinin genişləndirilməsi və onların investisiya təminatının yaxşılaşdırılması nəticə etibarı ilə onların fəaliyyətində həm daxili, həm də xarici tərəfdaşların maralanqdırılması mexanizminin yaradılması haqqında ciddi düşünmək məqsədəuyğundur. İlk növbədə ölkədaxili maraq mexanizminin təşkili daha önəmli hesab olunmalıdır. Bu baxımdan milli müəssisələrin məhsullarının ölkədə tam genişliyi ilə reallaşdırılması ilə bağlı əsaslandırılmış və məqsədyönlü siyasət və tədbirlər sistemi hazırlanmalıdır.

Dünyada genişlənməkdə olan ticarət münasibətləri və rəqabət mühiti milli müəssisələrin də fəaliyyətinin və investisiya siyasətinin bu tələblərə uyğun qurulmasını zəruriləşdirməkdədir. Həmçinin beynəlxalq bazarlarda ixtisaslaşmaya üstünlük verilməsi, istehsal texnologiyalarının, innovasiya potensialının inkişaf etdirilməsi və miili təsərrüfat subyektlərinin qlobal və regional səviyyədə rəqabətə davamlılığının artırılması Azərbaycanda da mühüm amillərdən biri kimi qiymətləndirilməkdədir (3). Xüsusilə də qeyri-neft sektrounun, o cümlədən sənayesinin innovasiyalar əsasında inkişafı

elm və texnologiya potensialının gücləndirilməsi və peşəkar kadr hazırlığı imkanlarının genişləndirilməsi bu baxımdan vacib məsələ kimi dəyərləndirilməlidir. Belə yanaşma isə qeyri-neft sektoruna daxil olan müəssisələrin investisiya siyasətinin də məhz bu mühüm məqamlar nəzərə alınmaqla hazırlanmasını gündəmə gətirməkdədir. Qeyri-neft sektroruna daxil olan müəssisələrin çevik və səmərəli investisiya siyasətinin mövcudluğu və onun bazar tələbləri ilə uyğunlaşdırılması amili xüsusi zərurətdən irəli gəlir. Müasir iqtisadi inkişaf və rəqabət mühitinin kəskinləşməsi bu tip müəssisələrin investisiya siyasətinin aşağıdakı tələblər nəzərə alınmaqla tərtib edilməsini ön plana çəkir:

- İnvestisiya siyyasətinin milli və beynəlxalq hüquqi-metodoloji əsaslara uyğun hazırlanmasına üstünlük verilməsi;
- İnvestisiya siyasətinin hazırlanması prosesinin dövrlər və mərhələlər üzrə əlaqələndirilməsi;
- İnvestisiya siyasətində daxili və xarici maliyyə-resurs mənbələrinin birlikdə əsaslandırılaraq, əlaqələndirilməsi;
- İnvestisiya siyasətinin səmərəliliyinin və mənfəətlilik səviyyələrinin qiymətləndirilməsi.

Qeyri-neft sektoruna daxil olan müəssisələrdə investisiya siyasətinin hazırlanmasında əsas mühüm amillərdən biri də subyektin öz və cəlb etdiyi (dövlət, bank və s.) maliyyə resursları hesabına formalaşdırdığı portfelin - həyata keçiriləcək layihələr üzrə qənaətlilik və səmərəlilik məqmaları ilə təmin olunmasının tam əsaslandırılmasıdır. Digər tərəfdən isə belə müəssisələr tərəfindən hazırlanan investisiya siyasəti dövlətin müəyyən etdiyi maliyyə-kredit, vergi, gömrü, büdcə, sosial, kadr-mütəxəssis hazırlığı, innovasiya kimi güzəştlər paketi tam genişliyi ilə əlaqələndirilməlidir. İnvestisiya siyasətinin həyata keçirilməsinin həm də marketinq tədqiqatları ilə əsaslandırılması və bu sahəyə ayrılacaq xərclərin əvvəlcədən müəyyən edilməsi xüsusi zərurətdən irəli gəlir. Qeyri-neft sektoruna daxil olan müəssisələr tərəfindən müasir şəraitdə belə təkmil investisiya siyasətinin həm hazırlanması, həm də həyata keçirilməsi realıq baxımdan çətin hesab olunur. Məhz müsair təcrübə də nəzərə alınmaqla, bu sahədə dövlətin müəssisə və subyektlərə zəruri dəstək mexanizmi xüsusi əhəmiyyətliliyi ilə çıxış etməkdədir.

Qeyri-neft sektoruna daxil olan müəssisələrin investisiya siyasətinin hazırlanmasında müvafiq dövlət orqanlarının məsləhət-dəstək yönümlü mexanizminin mövcudluğu da vacib məsələlərdən hesab olunmalıdır. Çünki dünya təcrübəsi baxımından kifayət qədər formalaşmamış milli müəssisələrin yeksək və təkmil investisiya siyasətini nə hazırlamaq, nə də onu məqsədəuyğun surətdə həyata keçirmək imkanları yoxdur. Digər tərəfdən, dövlət investisiya siyasəti ilə milli müəssisələrin investisiya siyasəti arasında qaneedici uyğunluğun və səmərəliliyin əldə olunması da bu sahədə belə yanaşmanın olmasını şərtləndirir. Məhz bu baxımdan ilk növbədə ölkədə daxili və xarici inkişafın təsir amilləri və dəyişən rəqabət mühitinin tələbləri əsas götürülməklə vahid investisiya siyasəti formalaşdırılmalıdır. Belə dövlət səviyyəsində olan investisiya siyasəti bu sahədə mövcud olan bütün hüquqi, iqtisadi, sosial, ekoloji, metodoloji, innovativ və s. əsasları bir müstəviyə gətirməklə, onlar arasında tam anlaşıqlılıq, əlaqəlilik və çeviklik olmasını təmin etməlidir.

Müasir dövr baxımdan investisiya siyasətinin qeyri-neft sektorunun mənafelərinə daha da yaxınlaşdırmaq üçün onun məqsədini belə formada ifadə etmək məqsəduyğun olar: dövlət investisiya siyasətinin əsas məqsədi - ölkədə mövcud maliyyə resurslarını səfərbər etməklə onları biznes-investisiya mühitinin fəallığının yüksəldilməsinə yönəltmək, dövlət proqramları çərçivəsində qeyri-neft sektorunun inkişafı üçün büdcə və digər mənbələrin vəsaitlərindən səmərəli istifadəni təşkil etməkdir. İnvestisiya siyasəti dövlət maliyyə resursları ilə yanaşı, həm də ölkə vətəndaşlarının və fəaliyyət göstərən hüquqi şəxslərin vəsaitlərinin də bu məqsədlə istifadəsi mexanizmini yaratmalıdır. Bütün belə məqsədli yanaşma eyni zamanda investisiya siyasətinin istiqamətliliyin də təkmilləşdirilməsini zəruriləşdirir:

✓ İnvestisiya fəaliyyətinin prioritetlərinin müasir və perspektiv istiqamətlərinin dəyişən bazar tələblərinə uyğun olaraq, müəyyən edilməsi;

✓ Cəlb olunan müxtəlif mənbəli (dövlət, özəl, şəxsi) investisiya və kapital qoyuluşlarının məqsədli proqramlar və real tələblər nəzərə alınmaqla istifadəsinin təmin edilməsi;

✓ İnvestisiya fəaliyyətində xərclərin optimallaşmasına və istifadə səmərəliliyin artırılmasına əsas üstünlüyün verilməsi;

✓ Büdcə maliyyə resursların investisiya məqsədləri üçün istifadəsində ölkə üçün vacib əhəmiyyət kəsb edən sahələrin inkişafına üstünlüyün verilməsi;

✓ İnvestisiya fəaliyyətində xərclərin özünü ödəmə müddətinin azaldılmasına və onlardan təkrar istifadənin effektivliyinin artırılmasına nail olunması;

✓ İnvestisiya fəaliyyətində innovativ sahələrlə yanaşı, milli iqtisadiyyatın digər sahələrinin də inkişafı üçün əlverişli şəraitin yaradılması.

Ölkədə investisiya siyasətinin əsas istiqamətlərindən birini də onun səmərəliliyinin artırlması və investisiya fəallığının maksimum yüksəldilməsinə nail olunması təşkil etməlidir. Belə yanaşma isə özlüyündə investisiya siysətinin əsas çalarlarına – amortizasiya, elmi-texniki tərəqqi, innovasiya kimi siyasətlərin də təkmil əsaslar üzrə hazırlanaraq daxil edilməsini şərtləndirir. Dövlət investisiya siyasəti ölkədə qeyri-neft sektorun və ya özəl sektorun fəaliyyətinə müdaxilə əsasında qurulmamalıdır. Bu siyasət vasitəsilə dövlətin, cəmiyyətin maraqları gözlənilməklə, həm də ölkədə komersiya - işgüzar mühitin canlandırılması və genişləndirilməsi kimi inkişafa nail olunmalıdır. Digər tərəfdən investisiya siyasəti ilə dövlət ölkədə sosial-iqtisadi inkişafın, makroiqtisadi sabitliyin təmin olunması kimi mühüm məsələlərin də həllini təmin etməlidir. Ölkənin investisiya siyasəti orta və uzunmüddətli dövr-müddətliliyi ilə çıxış etməli, burada milli iqtisadiyyatın ənənəvi, regional və aparıcı sahələrinin prioritetliyi, konkretliyi ilə müəyyənləşdirilməlidir.

İnvestisiya fəaliyyətinin maliyyələşdirilməsinin gücləndirilməsi və bu sahədə dövlət dəstəyinin artırılması məqsədilə büdcə vəsaitlərinin formalaşması və istifadəsi sahəsində fiskal intizamın təkmilləşdirilməsi, vəsaitlərin düzgün bölüşdürülməsi və xərclərin səmərəliliyinin artırılması mexanizminin də müasir tələblərə uyğun təşkili xüsusi zərurətdən irəli gəlir (2;3). Ölkədə iqtisadi sistemin rəqabət qabiliyyətinin artırılması artıq passiv vergi siyasətindən aktiv vergi siyasətinə keçidi, vergi dərəcələrinin optimallaşdırılması istiqamətində əməli tədbirlərin həyata keçirilməsini və bütün bu tədbirlərin nəticə etibarı ilə qeyri-neft sektorunun investisiya təminatının yaxşılaşdırılması ilə sıx bağlılığının təşkil edilməsini əsaslandırır. Digər tərəfdən belə yanaşma vergi-fiskal sisteminin də bu fəaliyyətin stimullaşdırılmasına yönəlməsini ön plana çəkir. Belə ki, müasir innovasiya fəaliyyətinin investisiya təminatının yaxşılaşdırılması vergi sisteminin təkmilləşdirilməsini də aktuallaşdırmaqla, sistemin pinsipal əsasında aşağıdakı istiqamətlərin əhəmiyyətliliyini arıtır:

➢ Vergi sisteminin beynəlxalq standart və tələblərə uyğun təkmilləşdirilməsi;
➢ Vergi sisteminin inovasiya fəaliyyəti üzrə məqsədyönlülüyü;
➢ Vergi sisteminin çevikliliyi;
➢ Vergi sisteminin stiumullaşdırıcı funksiyasının genişləndirilməsi;
➢ Vergi sisteminin universallığı və səmərəliliyinin artırılması və vergiyə cəlb olunma mexanizminin təkmilləşdirilməsi.

Azərbaycanda qeyri-neft sektorunun investisiya fəaliyyətinin yaxşılaşdırılması eyni zamanda gömrük prosedurlarının da təkmilləşdirilməsini əhəmiyyətli edir. Belə ki, investorları yerli bazarlara daxil olmaqdan çəkindirən amillərin aradan qaldırılması üçün bütün imkan və səylər səfərbər edilməli, bu sahədə cəlbediciliyin maksimum artılmasına xüsusi diqqət yetirilməlidir. Gömrük sistemində beynəlxalq ticarət sisteminə uyğun islahat tədbirlərinin genişləndirilməsi, sahə üzrə hüquqi-normativ bazanın müasir dünya təcrübəsinə uyğunlaşdırlması da öz vacibliyi ilə çıxış etməkdədir. Eyni ilə, vergi dərəcələrinin və məcburi dövlət sosial sığorta haqlarının strukturunun, gömrük rüsumlarının optimallaşdırılması istiqamətində həyata keçiriləcək tədbirlər qeyri-neft sektorunun maliyyə-investisiya fəallığının artırılmasına yönəlməlidir.

Qeyri-neft sektorunun maliyyə-investisiya təminatının yaxşılaşdırılması ölkənin maliyyə-fond bazarının investisiya cəlbediciliyi ilə bilavasitə əlaqələndirilməlidir. Məhz fond bazarının investorlar üçün cəlbediciliyinin artırılması məqsədi ilə sistemli tədbirlər həyata keçirilməli, bazarın peşəkar iştirakçılarının fəaliyyətini və onlara nəzarət mexanizmlərini tənzimləyən hüquqi-iqtisadi mexanizmlər müasir təcrübə əsas götürülməklə təkmilləşdirilməlidir. Belə yanaşma ilk növbədə

bazarda investorların hüquq və mənafelərinin təmini və müdafiəsi ilə bağlı olmalıdır. Müasir investisiya siyasəti və fəaliyyəti innovasiya fəaliyyəti ilə vahid mövqedən çıxış etməli, müəssisə və subyektlərin dünyada dəyişməkdə olan konyuktur tələblərə uyğunlaşmasına yönəlməlidir. Ölkədə innovasiyayönümlü investisiya fəaliyyətinin inkişafı ilk olaraq bu sahədə səmərəli tənzimləyici mexanizmlərin formalaşdırılmasını zəruriləşdirir. Azərbaycanda innovasiya fəaliyyətinin investisiyalaşdırılmasının əsas istiqamətlərindən birini də qeyri-neft sektoruna daxil olan subyektlərin elmi-texniki inkişafının yüksəldilməsi təşkil etməlidir.

Qeyri-neft sektorunun, o cümlədən də qeyri-neft sənayesinin investisiya təminatının yüksəldilməsində daha çox rəqabətqabiliyyətli və nanotexnologiya sahələrinə xüsusi diqqətin yetirilməsi öz vacibliyi ilə çıxış etməlidir. Ölkədə innovasiya fəaliyyətində investisiya təminatının yaxşılaşdaşdırılması və stimullaşdırılması eyni zamanda belə yönümlü fəaliyyətə malik müəssisələrin maraqlarının milli iqtisadiyyatın makro və region maraqları ilə uzlaşdırılmasına təsir etməlidir. Yəni dövlət proqramlarının innovasiya və investisiya məqsədləri ilə qeyri-neft sektoruna daxil olan müəssisə və təsərrüfat subyektlərinin maraq və mənafelərinin tam uzlaşdırlıması, bu uzlaşmada səmərəli və stimullaşdırıcı mexanizmlərin geniş tətbiqinə nail olunması vacib hesab olunmalıdır. Dövlət proqramlarının məqsədləri ilə qeyri-neft sektoruna daxil olan müəssisə və təsərrüfat subyektlərinin uzlaşma mexanizmində innovasiya fəaliyyətinin inkişafı, bu sahədə investisiya təminatı və onun hüquqi bazasının təkmilləşdirilməsi, maliyyə-kredit, vergi və büdcə resurslarından istifadə ilə bağlı daha geniş tərkibli güzəştlərin tətbiqi kimi müddəalar əsas götürülməlidir.

## ƏDƏBİYYAT

1. “Azərbaycan 2020: Gələcəyə Baxış” İnkişaf Konsepsiyası. Bakı, 2012
2. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2016
3. “Azərbaycan Respublikasında sənayenin inkişafina dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”. Bakı, 2014

## РЕЗЮМЕ

**Илгар Садыгов**

### УВЕЛИЧЕНИЕ ИНВЕСТИЦИОННОГО ОБЕСПЕЧЕНИЯ НЕНЕФТЯНОГО СЕКТОРА

В статье отмечается необходимость развития ненефтяного сектора в последние годы. Ускорение развития этого сектора вызвано особой необходимостью. В статье рассматриваются вопросы развития ненефтяного сектора и обеспечения инвестиций. Выдвигаются идеи по повышению финансово-инвестиционного обеспечения соответствующего сектора.

## SUMMARY

**Ilqar Sadiqov**

### INCREASE OF INVESTMENT IN NON-OIL SECTOR

The article highlights the development needs of the non-oil sector in recent years. The acceleration of the development of this sector is caused by special necessity. The article expresses the attitude to the development of the non-oil sector and investment security issues. Opinions are put forward on increasing the financial and investment security of the relevant sector.

**NOVRUZƏ ADİLOVA**
*Bakı Dövlət Univesiteti*

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ ƏHALİ MƏŞĞULLUĞUNUN TƏNZİMLƏNMƏSİ

***Açar sözlər:*** *əmək bazarı, əmək ehtiyatları, dövlət tənzimlənməsi, əhalinin məşğulluğu, işsizlik*
***Ключевые слова:*** *рынок труда, трудовые ресурсы, государственное регулирование, занятость населения, безработица.*
***Key words:*** *labor market, labor force, government regulation, population employment, unemployment*

Azərbaycanda məşğulluq problemi mahiyyətinə görə siyasi, iqtisadi, sosial və demoqrafik xarakter daşıyır. Qarabağ probleminin həll olunması, 1 milyondan artıq soydaşımızın öz doğma yurd-yuvalarından didərgin düşməsi, minlərlə iş yerlərinin itirilməsi, məşğulluq sahəsində çətinliklər yaratmışdır.

Bu şəraitdə məşğulluq siyasətinin təkmilləməsinin mühüm əhəmiyyəti var. Əmək bazarının tənzimlənməsinin fəal və kompleks strategiyasının işlənib hazırlanması və həyata keçirilməsinə ciddi ehtiyac hiss olunur. Məşğulluğun tənzimlənməsinin vasitə və mexanizminin seçilməsi, dövlət və şəxsi təşəbbüslərin əlaqəsi, işgüzar fəallığın həvəsləndirilməsi kimi problemlərin xüsusi əhəmiyyətini artırır. Məşğulluğun tənzimlənməsi siyasəti qarşısında digər mühüm vəzifələr durur: Peşə-ixtisas potensialının qorunması, artırılması, işçi qüvvələrinin çevikliyinin artırılması və onun struktur dəyişikliyinə uyğunlaşdırılması, sosial tərəfdaşlıq mexanizminin qaydaya salınması və gücləndirilməsi. Əhalinin məşğulluğu öz sosial-iqtisadi təbiətinə, ona təsir edən amillərin mürəkkəbliyinə, çoxcəhətliliyinə, müxtəlif modelli olmasına, ayrı-ayrı əmək bazarı subyektlərinin mənafelərinin kəsişmə nöqtəsinin variant çoxluğuna görə nəzəri metodoloji və praktiki baxımından ən ağır problemdir [1, 8, 220 ].

**Məşğulluq haqqında olan yanaşmalar**

Məşğulluq konsepsiyasının işlənib hazırlanmasının və təkminləşdirilməsinin vacibliyi barədə nəticəyə gəlməyə imkan verir. Məşğulluğa münasibət iqtisadiyyatın sosial yönümünün əsas meyarıdır, sosial münasibətin ayrılmaz hissəsi kimi baxılmasıdır.

Sosialyönümlü iqtisadiyyatda məşğulluq aşağıdakılara əsaslanır:

- Tam və səmərəli məşğulluğun tarazlaşdırılmış uyğunluğu.
- Əməyin könüllülüyü və əmək sahəsində insanın hüquq və vəzifələri
- Layiqli həyat tərzini təmin etmiş imtiyazlar almaq imkanına görə vətandaşın və dövlətin bərabər məsuliyyəti;
- İşçi qüvvəsinin əməyinin səmərəli inkişafı baxımından əməyin tətbiqi sahələri, peşələr, sahələr və ərazilər arasında sərbəst yerdəyişməsi;
- Yüksək məhsuldarlıqlı əməkdə təşəbbüskarlıq və işçilərin yüksək maraqlılığı;
- Bazar iqtisadiyyatı şəraitində zəhmətkeşlərin vəziyyəti üçün mənfi nəticələrin yüngülləşdirilməsi

İş yerləri sarıdan təklifin yüngülləşdirilməsi məsələsinə dövlətin etinasız münasibəti uzunmüddətli, bir sıra hallarda isə daimi işsizliyin artmasına şərait yaradır. İş yerlərinin çatışmaması səmərəli məşğulluq problemini həll etməyə imkan verməyəcək, dövlət məşğulluq xidmətinin işinin səmərəsi isə get-gedə azalacaqadır. Əhalinin məşğulluğunun ərazi strukturunun xüsusiyyətləri əmək ehtiyatlarının ərazi üzrə artaraq bölünməsidir. Nisbətən çox da böyük olmayan Abşeron iqtisadi rayonunda Azərbaycan əmək ehtiyatlarının üçdə birindən çoxu çəkilmişdir [2, 8, 108].

Bazar iqtisadiyyatı yolunu seçmiş hər hansı ölkədə iş yerləri yaradılmasının stimullaşdırılmasına yönəlmiş siyasət işsizlik probleminin həl edilməsi, işləyən vətəndaşların maddi rifahının yüksəldilməsi, dövlət pensiya təminatı, tibbi və sosial sığorta kimi sosial siyasət təsisatlarının fəaliyyəti və inkişafı üçün zəruri şərait yaratmağın həlledici şərtidir.

Məşğulluğun inkişafı ölkəmizdə sosial islahatların səmərəli şəkildə həyata keçirilməsi üçün mühüm şərtlərdən biridir.

Müvafiq icra hakimiyyyəti orqanları məşğuluq sahəsində yerli, sahə və ərazi xüsusiyyətlərini nəzərə alan Dövlət Məşğulluq Proqramının işlənib hazırlanmasında daha fəal iştirak etməlidir. Bu məqsədlə Dövlət Statistika Komitəsinin nazirliklə və baş idarələrin təqdim etdiyi məlumatlardan istifadə edilə bilər. Bu həm respublika, həm də regionlar səviyyəsində işlənib hazırlanmalıdır. Ölkəmizdə yeni iqtisadi münasibətlər şəraitində hər bir insanın əmək bazarının mənfi tərəfindən müdafiə olunmasının təmin edilməsi dövlətin birinci dərəcəli vəzifəsinə çevrilmişdir. İqtisadiyyatın inkişafının sabitləşdirilməsi və iqtisadi tərəqqiyə stimul yaradılması prosesləri ölkəni iqtisadi böhrandan çıxartmaq üçün zəruri şərtdir. Əvvəllər meydana çıxan kəskin sosial iqtisadi problemlər aradan qaldırılmış, ölkədə əmək bazarının inkişafına təkan verən zəruri şərait yaratmışdır [ 3, 8, 287].

İş yerlərinin yaradılması və qorunub saxlanması üçün təklif olunan proqramın formalaşmasına təsir göstərən əsas prinsipləri və amilləri nəzərdən keçirək:

- İş yerlərinin yaradılması, adətən, beş il müddətinə, illər üzrə nəzərdə tutulan tədbirlər göstərilməsilə, eləcə də on il müddətinədək ümumi perspektiv sxem şəklində hazırlana bilər.
- Əhalinin məşulluğunun daha tam və səmərəli strukturunu təmin etmək üçün iş yerlərinin yaradılmasının və qorunub saxlanmasının həm məşğulluq probleminin kəmiyyət sarıdan onun vəziyyətini, həm də müvafiq keyfiyyət göstəricilərini əks etdirməlidir. Yeni yaradılan iş yerlərinin ərazilər və sahələr üzrə paylanmasına dair tövsiyələr hazırlanarkən regionların, sahələrin və sahibkarların mənafeləri nəzərə alınmalıdır.
- Əhalinin iş yerlərinə tələbatı qiymətləndirilməlidir;
- İş yerlərinin yaradılmasının məşğulluq tərəfindən cari vəziyyəti əks etdirməklə bərabər, ayrı-ayrı sahələrdə, regionlarda iş yerlərinin azalması, yeni iş yerlərinin yaradılması prosesi barədə proqnoz məlumatlarının və məşğulluq üçün optimal göstəriciləri əks etdirməlidir.
- Regionların iş yerlərinə tələbatı, əsasən, əhalinin inkişaf səviyyəsi, konkret regionun coğrafi, iqtisadi və siyasi xüsusiyyətləri ilə bağlıdır.
- Əhalinin iş yerlərinə tələbatı müəyyən edən demoqrafik amil bütövlükdə respublika üzrə və ayrı-ayrı regionlar üzrə nəzərə alınmalıdır;
- Potensial investorların davranışı və təhlili göstərir ki, investisiyaya marağın artması ilə əlaqədar, bu sahədə vəziyyət kökündən dəyişə bilər. Hökumətin siyasəti investorlar üçün sərfəli olsa, kommersiya və bank strukturları da daha fəal mövqe tutacaqlar;
- Yeni iş yerləri yaradılan üstün sahələr nəzərə alınmalıdır;
- İstehsal vasitələri istehsal edən, rəqabətə davamsız sahələrdən, eləcə də yalnız subsidiyalar və əmək bazarında fəaliyyət göstərən qüvvələrdən süni yolla müdafiə olunma sayəsində qorunub saxlanmış yüksək texnoloji sahələrdə istehsalın tədricən azalmasını nəzərə almaq lazımdır.
- Kiçik biznes, kapital yığımı funksiyasını get-gedə daha sürətlə həyata keçirir, iqtisadiyyatda keçid dövrü adlanan yaşadığımız indiki mərhələdə bu faktın əhəmiyyəti böyükdür.
- Yüksək elmtutumlu, ixtisaslı kadr potensialına əsaslanan iş yerlərinin qorunub saxlanması istiqamətlərin nəzərə tutulmalıdır;
- İş yerlərinin yaradılması və qorunub saxlanması sahəsində dünya təcrübəsində qəbul edilmiş istiqamətlərin nəzərə alınmalıdır;
- Konkret ərazinin inkişafı üçün elmi-texniki potensial nəzərə alınmalıdır;
- Yeni yaradılan iş yerlərinin ərazilər və sahələr üzrə paylanması göstəricilərini müəyyən edərkən istehsal və qeyri-istehsal sahələrinin yerləşməsinə və inkişafına təsir edən bütün amillər kompleksi nəzərə alınmalı və iqtisadi əsaslandırılmalıdır;
- İş yerlərinin yaradılmasının optimal variantLarı seçilməlidir;
- Əmək bazarında böhranlı vəziyyət yarana biləcək ərazilər üçün yeni iş yerləri yaradılan variantları bu cür vəziyyətdən qaçmağa imkan verməli və həmin variantın reallaşdırılması üçün maliyyə xərcləri minimum olmalıdır. İş yerləri yaradılmasının konkret variantı seçilərkən müvafiq xərclər əsaslandırılmalıdır;

- İş yerlərinin yaradılmasının əsas funksiyası respublika əhalisinin məhsuldar məşğulluğa tələbatını ödəmək üçün iş yerləri yaradılmasına dair kəmiyyət parametrlərinin və perspektiv istiqamətləri müəyyən etməkdən ibarət olmalıdır.

- MP üç əsas bölmədən ibarət ola bilər:

- Birinci bölmədə konkret dövrdə iş yerlərinin mövcud struktur müəyyən edilir;
- MP-nin ikinci bölməsindən əhalinin iş yerlərinə tələbatı barədə məlumatlar əks etdirilir;
- Üçüncü bölmə əhalinin məşğulluğunun perspektiv strukturunu səciyyələndirən göstəricilərdən ibarətdir.

Məşğulluq sosial-iqtisadi münasibətlər toplusunun istifadə etməklə bərabər, əhalinin iş yerinə olan tələbatı ilə mövcud iş yerləri arasındakı nisbətlə müəyyən edilir.

Əhalinin məşğulluq problemi sistemində onların iqtisadiyyatın sahələri, iqtisadi fəaliyyət üzrə, habelə mülkiyyət formaları üzrə bölgüsünün 30%-ə qədəri kənd təsərrüfatının payına düşür [4, s. 320].

**Əhali məşğulluğu proqramının hazırlanması**

MP-nin birinci bölməsi ölkə əhalisinin məşğulluğu barədə cari vəziyyəti kəmiyyət və keyfiyyətcə qiymətləndirməyə imkan verir. Bu məqsədlə aşağıdaki işlər görülməlidir:

- Sahələr və regionlarda iş yerlərinin mövcud strukturunun kəmiyyətcə müəyyən edilməsi;
- Əhalinin cins-yaş strukturunun göstərilməsi;
- İş yerlərinin formalaşmaqda olan strukturu üçün məşğul əhalinin təhsil göstəricisi üzrə strukturunun müəyyən edilməsi;
- Əhalinin məşğulluğunun keyfiyyət baxımından vəziyyətinin müəyyən edilməsi;

MP-nin ikinci bölməsindən əhalinin iş yerlərinə tələbatı müəyyən edilir;

- İqtisadi cəhətdən aktiv əhalinin iş yerlərinə ümumi və əlavə tələbatının müəyyən edilməsi;
- Əhalinin iş yerlərinə faktiki tələbatının müəyyən edilməsi;
- Sahələr üzrə iş yerlərinə tələbat;

MP-nin üçüncü bölməsində əhalinin iş yerlərinə tələbatı barədə proqnoz məlumatları və əhalinin məşğulluğunun perspektiv strukturunu səciyyələndirən indikativ göstəricilər əks etdirilir. Bu bölmədə aşağıdakı yarım bölmələrdən ibarət ola bilər:

- demoqrafik amil nəzərə alınmaqla regional bölgüdə əhalinin iş yerlərinə təlabatının proqnozu.
- ayrı-ayrı sahələr və regionlar üzrə müxtəlif səbəblər üzündən dövriyyədən çıxan iş yerlərinin sayı. Əhalinin məşğulluğunun hüquqi, iqtisadi və təəşkilatı şərtlərini, habelə Azərbaycan Respublikası ərazisində daim yaşayan vətəndaşlarının ımık hüquqlarının tənzimlınmısini həyata keçirmək üçün 1991-ci ildə Azərbaycan Respublikasının vətəndaşlarının məşğulluq sahəsində təminatlarını tınzimləyən Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Respublikada əmək üzrə qanunvericiliyə əsasən əmək bazarının tənzimlənməsi üzrə beynəlxalq praktikaya, həmçinin beynəlxalq Əmək təşkilatının (BƏT) əmək və məşğulluq üzrə konversiya və tövsiyyələrinə uyğun hazırlanmışdır. [5, 8, 433]

Bu kəmiyyət illər üzrə hesablanır. İnformasiya mənbəyi kimi müvafiq sahə və regionların inkişafına dair işlənib hazırlanmış və ya hazırlanmaqda olan proqnozlardan istifadə edilə bilər:

- Ayrı-ayrı sahələr və regionlar üzrə yeni yaradılan iş yerlərinin ümumi sayının müəyyən edilməsi;
- Xalq təsərüffatının perspektivsiz sahələrindən iş yerlərinin sayının müəyən edilməsi;
- Əhalinin məşğulluğunun perspektiv strukturunun müəyyən edilməsi;
- Sərbəstləşən işçilərin sayının müəyyən edilməsi.

Məşğul əhalinin mövcud strukturu məşğulluğun perspektiv strukturu ilə müqayisə edilərək işçi qüvvəsi baxımından sahələr, qəbuledici sahələr, eləcə də depressiv sahələrdən işçi axınının mümkün istiqamətləri və bu axının həcmi müəyyən edilir. Bu zaman ölkənin sosial-iqtisadi inkişafının strateji məqsədləri nəzərə alınmalıdır.

Aparılan təhlillər müasir dövrdə Azərbaycanda məşğulluğun bir sıra səciyyəvi xüsusiyyətlərin olduğunu göstərir. Məşğulluq iqtisadi kateqoriya olmaqla insanlar arasında iş yerləri və təsərrüfat

fəaliyyətində iştirakı təmin etmək üçün münasibətlər sistemidir. Əhalinin məşğulluğu insanların şəxsi tələbatlarının ödənilməsi və onların əmək gəlirləri ilə təmin edın fəaliyyətlərdir. Məşğulluq insanların təsərrüfat sahələri üzrə bölüşdürülməsini xarakterizə edir. Ölkə ərazisinin böyük bir hissəsini iqtisadi fəaliyyətlə məşğul olanlar təşkil edir [6, s.382].

Respublikada natamam məşğulluq geniş miqyas almışdır. Bu fakt ilk növbədə onunla əlaqədardır ki, istehsal sahəsində ciddi tənəzzül yarandığı bir şəraitdə müəssisə və təşkilatlar öz işçilərinin əsas hissəsini qoruyub saxlamağa çalışır.

Ölkədə təkrar məşğulluq geniş yayılmışdır. İşləyənlərin əksəriyyətinin əmək haqqının aşağı səviyyədə olması üzündən bu adamlar əvəzçilik və ya başqa bir formada əlavə məşğulluq imkanı axtarmağa məcbur olur. Ölkədə əhalinin məşğulluq və işsizlik problemlərinin həll edilməsinin mühüm aspektlərindən biri də ölkə iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi strategiyasının həyata keçirilməsi ilə bağlıdır. Bu baxımdan Azərbaycanın iqtisadiyyatına yönəldilmiş xarici kapitalın ölkə əhalisinin məşğulluq və işsizlik problemlərinin həll edilməsindəki rolunun müəyyən edilməsi ən mühüm vəzifələrdən biridir [7, 8, 273-274].

İşçilərin peşə və ixtisas səviyyəsi lazımi dərəcədə yüksək deyil. Bazar iqtisadiyyatına keçidlə əlaqədar, işçilərin ixtisas və peşə bilikərinə tələblər artır. Etiraf etmək lazımdır ki, işçilərin ümumi təhsil səviyyəsinin xeyli yüksək olmasına baxmayaraq, onların peşə və ixtisas hazırlığı müasir tələblərə cavab vermir. Ölkəmizdə istehsal edilən məhsulların və göstərilən xidmətlərin kifayət qədər yüksək səviyyədə olmaması onların dünya bazarında rəqabət qabiliyyətini azaldır.

Məlumdur ki, iş yerlərinin keyfiyyəti də o qədər qənaətbəxş deyildir. Əsaslı vəsait qoyuluşunun kəskin sürətdə azalması ilə əlaqədar, adamların həyat səviyyəsi get-gedə pisləşir. İstehsalatda əməyin təşkili və təhlükəsizliyi məsələlərinə diqqət xeyli azalmışdır.

90-cı illərin əvvəllərindən etibarən Azərbaycan iqtisadiyyatından geniş əhatəli qeyri-formal sektor yaradılması bütövlükdə sosial-iqtisadi şəraitə, əhalinin həyat səviyəsinə və əmək bazarındakı vəziyyətə təsir göstərməkdədir. Qeyri-formal məşğulluğun ayrı-ayrı formaları islahatlardan əvvəlki dövrdə də mövcud olmuşdur. Lakin bazar münasibətlərinə keçid prosesində bu cür məşğulluğun tərkibində, miqyasında, xarakterində və onun ölkə iqtisadiyyatındakı rolunda kəskin dəyişiklər baş vermişdir.

Qeyri-formal məşğulluğun əhatə dairəsini müəyyən etmək xeyli çətindir. Bu vəziyyət həm qeyri-formal sektorun hüdudlarının daimi olmaması, həm də onun barəsində kifayət qədər məlumatın olmaması ilə bağlıdır. Bu məqsədlə tətbiq edilən ayrı-ayrı metodlar çox vaxt bir-birindən fərqli nəticələr verir.

Qeyri-formal sektorda məşğul olanların sayının bu günki səviyyəsi Azərbaycan üçün yüksək sayıla bilər. İnkişaf etməkdə olan ölkələrdə qeyri-formal fəaliyyət, adətən, ilkin məşğulluq şərti ilə nəzərə alınır. Müvəqqəti çətinlikləri aradan qaldırmaq üçün əhalinin vaxtaşırı olaraq qeyri-formal məşğuluqdan istifadə etməsi Azərbaycandan ötrü də səciyyəvi haldır.

Ölkəmizin iqtisadiyyatından qeyri-formal sektorun rolu heç də bir mənalı deyil. Bir tərəfdən məşğulluq və əhalinin gəlirləri problemlərinin həllində, əmtəə və xidmətlər bazarının genişlənməsində, kiçik biznesin inkişafı üçün baza yaradılmasında bu sektorun müsbət rol oynaması göz qabağındadır. Məsələn, əhalinin həyat səviyyəsinin kəskin sürətdə aşağı düşməsini və işsizliyin artmasını xeyli ləngidən məhz qeyri-formal sektordur. Bundan əlavə, qeyri-formal sektor yaxın vaxtlara qədər qıt olan mallar və xidmətlər təklif edir, bir sıra işçilərin özləri üçün sərfəli iş rejimi seçmələrinə imkan verir. Əmtələri və xidmətləri yaradanlar təkcə istehsalın abstrakt amili kimi deyil, eyni zamanda onlar iqtisadiyyatı əmək resursları ilə də təmin edirlər. Əmək resurslarını təklif edənlərin ailələri, arzularını, istəklərini və istehlak ehtiyacları vardır. Məhz buna görə də keyfiyyətli və kəmiyyətli iş yerlərinin olması, əmək resurslarının məşğulluğunun təmin edilməsi, işsizliyin qarşısının alınması sosial problemlər kimi cəmiyyət qarşısında duran mühüm vəzifələrdən biridir.

Digər tərəfdən, qeyri-formal sektor bir sıra kəskin sosial problemlərin də yaranmasına səbəb olur. Belə ki, qeyri-formal sektorda sosial zəmanətlər, əmək şəraitinə nəzarət, malların və xidmətlərin keyfiyyətinə nəzarət yoxdur. Həmin sektorda işləyənlər çox vaxt peşə səviyyəsini, ixtisas vərdişlərini

itirirlər. Bundan əlavə, qeyri-formal məşğulluq kriminal mühitin inkişaf etməsi üçün əlavə şərait yaradır. Nəhayət, gəlirlərin vergidən gizlədilməsi nəticəsində dövlət xeyli vəsait itirir. İndiki mərhələdə qeyri-formal məşğulluğun inkişafı iqtisadiyyatın özünü tənzimlənmə mexanizminin təzahür forması hesab edilə bilər. Təkrar məşğulluq şərtləri daxilində qeyri-formal sektorda işləyənlər üçün bu cür siyasət həyat səviyyəsinin kəskin pisləşməsinə gətirib çıxaracaqdır. Bundan əlavə, qeyri-formal sektorun təqiblərə məruz qalacağı halda kriminal forma kəsb edəcəyi labüddür.

## ƏDƏBİYYAT


1. T.Ə.Quliyev. Əməyin iqtisadiyyatı. Bakı, "Nağıl evi", 2003, 686 s. Ş.Mehbaliyev R.İskəndərov əmək bazarı və əhalinin sosial müdafiəsi
2. R.İsgəndərov. Elmi-texniki tərəqqi sosial-iqtisadi aspektlər. Bakı, Elmi və təhsil, 2010, 636 s.
3. A.A.Rüstəmov, D.Q.Qasımov. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, Avropa, 2013, 406 s.
4. İ.S.Qarayevin redaktəsi ilə Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi Bakı "İqtisad universiteti" 2011, 522 səh.
5. E.Quliyev. Aqrar iqtisadiyyat. Bakı: Koperasiya, 2015, 320 səh.
6. Ş.Ş.Qafarov. Müasir iqtisadi sistem və qloballaşma. Bakı: CBŞ, 2005, 632 səh.
7. T.Ş.Vəliyev redaktəsi ilə İqtisadi nəzəriyyə Bakı. "Çaşıoğlu" 2001, 691 səh.


## РЕЗЮМЕ

**Новруза Адилова**

### РЕГУЛИРОВАНИЕ ЗАНЯТОСТИ НАСЕЛЕНИЯ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

В статье занятость,проанолизирована,как экономическая категория и показаны её виды и особенности.Исследованы основные направления государственного регулирования и причины безработицы и занятости в республике.А также даны рекомендации по безработицы. Здесъ на рынке труда избегая безработищы, открытие новых рабочих мест, была представлена чтобы решитъ проблемы в этой области.

## SUMMARY

**Novruza Adilova**

### REGULATION OF POPULATION EMPLOYMENT IN THE MARKET ECONOMY CONDITIONS

The article was presented as an economic category as employment.The elimination as unemployment in the labor market,create new jobs and to salve problems in this area are shown.The article according to the recommendations as the charecteristics as a variety as employment in modem times shown.The main directions of state regulation of employment and the causes of employment and unemployment in the country have been insvestigated and some recommendations on the ways of their elimination have been given.

**NİCAT İSAQOV**
*Bakı Dövlət Universiteti*

# AZƏRBAYCANDA PENSİYA TƏMİNATI SİSTEMİNƏ YENİ YANAŞMA VƏ İNKİŞAFI MEXANİZMLƏRİ

***Açar sözlər:*** *rifah, pensiya, təminat, sosial müdafiə sistemi, yığım, yardım*
***Ключевые слова:*** *социальное обеспечение, пенсия, социальное обеспечение, система социальной защиты, сбор, помощь*
***Key words:*** *welfare, pension, welfare, social protection system, collection, aid*

Ümumilikdə dövlətin sosial siyasətinin mühüm sahələrindən biri də pensiya təminatıdır. Pensiya islahatları məhz pensiyanın məbləği ilə onun orta səviyyəsi, əmək pensiyaları ilə sosial pensiyalar arasında nisbətlərin təkmilləşməsinə, pensiya ilə əməkhaqqı arasında nisbətlərin tənzimlənməsinə yönəldilir. Ölkə əhalisinin rifahının yüksəldilməsi və sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ölkə prezidenti tərəfindən bir sıra əhəmiyyətli addımlar atılmışdır ki, dölət başçısının imzaladığı silsilə sərəncamlarla pensiyaçıların baza pensiyalarının artımı həyata keçirilmiş, bir sıra müəssisələrdə çalışanların aylıq vəzifə maaşları, sosial müavinətlərin, o cümlədən məcburi köçkünlərə verilən müavinətin məbləği artırılmışdır. Bunlarla yanaşı, pensiya təminatı ilə əlaqədar bağlanmış beynəlxalq müqavilələr də əsas amillərdən biridir. Bu sahədə müxtəlif ölkələrin təcrübəsindən yararlanmaq bu sahədə islahatların keyfiyyətinin artırılmasına şərait yarada bilər.

**Xarici ölkələrdə tətbiq edilən pensiya sistemlərinin xüsusiyyətləri**

Apardığımız araşdırmalar nəticəsində müxtəlif pensiya sistemlərinin aşağıdakı xüsusiyyətlərini qeyd edə bilərik:

*Dövlət bölgü (paylama) pensiya sistemləri.* Kosovo və Qazaxıstan istisna olmaqla, əksər Mərkəzi Şərqi Avropa ölkələrində bu və ya digər şəkildə bölgü (paylama) pensiya sistemi mövcud-dur. Dövlət bölgü (paylama) pensiya sistemi çərçivəsində risk faktorları kimi böhran vaxtı işsizliyin potensial artması, işsizliyin pensiya fondlarına edilən ödəmələrə təsiri və pensiya sisteminin gəlirinin azalmasıdır. Serbiya və Ukrayna kimi ölkələrdə pensiya sistemlərində bununla əlaqədar əhəmiyyətli çatışmazlıqlar ortaya çıxmışdır. Pensiya sisteminin həcmi nisbətən kiçik olan ölkələrdə (məsələn, Rusiya, Gürcüstan, Kosova və s.) pensiyaçılar arasında yoxsulların sayı arta bilər, çünki həyat səviyyəsinin həcmi inflyasiyanın təsiri altında kəskin artarkən, pensiyanın həcmi nisbətən az artırılıb.

*Yığım pensiya sistemləri.* Mərkəzi Şərqi Avropanın on üç ölkəsində, adətən, özəl idarə olunan, sabit təyin edilmiş ödəniş məbləği ilə tam maliyyələşdirilən yığım pensiya sistemlər fəaliyyət göstərir. Onlar icbari pensiya təminatı sistemlərinin tərkib hissəsi olmuşlar. Yığım sistemləri maliyyə böhranından asılı olaraq, zəifləyə bilir. Çünki maliyyə bazarlarının çökməsi özəl pensiya fondları tərəfindən idarə olunan aktivlərin dəyərində kəskin azalmaya səbəb ola bilər. Bundan əlavə, böhran dövründə pensiyaya çıxan şəxslər üçün onların pensiya hesablarında qalan aşağı ölçülü qalıq əsasında pensiya hesablanır ki, bunun nəticəsində pensiya təminatının bütün dövrlərində pensiya aşağı olacaq.

Bununla belə, bu təsiri azaltmaq üçün bəzi amillər mövcuddur. Birincisi, Mərkəzi Şərqi Avropa ölkələrinin əksəriyyətində pensiya sistemi dövlət və özəl pensiya planlarının birləşməsi olub, bir qayda olaraq, dövlət bölgü (paylama) sisteminin elementlərinin üstünlük təşkil etdiyi bir sistemdir.

Qeyd etməliyik ki, yalnız Qazaxıstanda və Kosovada ödəmələrin 100%-i xüsusi yığım sistemlərində toplanır. İkincisi, bir çox ölkələrdə, pensiya islahatları nəticəsində ən yaşlı işçilər. adətən. dövlət bölgü (paylama) sistemlərində qalırdı və yalnız cavan işçilərə qarışıq tipli sistemlərə keçməyə icazə verildi. Bu cavan işçilər hələ pensiya yaşına çatmamışdır və yalnız yaşlı insanlar (nisbətən qısa müddət yığım sisteminə ödəmələr edə bilənlər) birbaşa maliyyə bazarları ilə bağlı risklərə məruz qala bilər. Ən böyük risk Qazaxıstan, Macarıstan və Polşada olan pensiya sisteminin iştirakçıları üçün müşahidə edilmişdir [19].

Digər ölkələrə gəldikdə, ikinci komponentin çox sayda iştirakçıları təqaüdə çıxmağa

başlayanda bazarlar ən azından qismən bərpa edə bilər. Ancaq böhran uzanarsa, aktivin dəyəri kifayət qədər tez bərpa olunmayacaq və daha çox insan pensiya yaşına çatan vaxt kifayət qədər aktivləri olmayacaq. Bu baxımdan, təcrübəsiz investorlar portfelinin dəyərinin azaldığını görəndə onların arasında təlaş yarana bilər. Bu şərtlər altında pensiya islahatlarına son qoyulması çağırışlarının gündəmə gəlməsi mümkündür. Bu səbəbdən bəzi ölkələrin pensiya sistemlərini düzəltməsinə, müsbət nəticələr əldə etməsinə baxmayaraq, zənnimizcə, inkişafda olan bir sıra ölkələr hər hansı bir tələsik hərəkətdən qaçınmalı və bazarda vəziyyət normallaşana qədər gözləməlidir.

Könüllü maliyyələşdirilən yığım pensiya sistemləri ciddi təsirə məruz qala bilir. Xüsusilə inkişafda olan müəyyən ölçüdə sabit ödəniş edilən ölkələrdə risk yüksəkdir. Bu, könüllü pensiya sistemlərinin populyarlığının azalmasına, eyni zamanda onlara etimad göstərərək və güvənərək hökumətin pensiya proqramlarına xərclərinin azaldılmasına gətirib çıxara bilər.

Son onilliklərdə ciddi demoqrafik dəyişikliklər bir çox ölkələri yaşlı vətəndaşlara yardım sistemini yenidən nəzərdən keçirməsinə məcbur etmişdir.

Əvvəla, pensiya xidməti ilə bağlı problemlər yaranıb, çünki yaşlı pensiyaçıların sayı kəskin artıb. İkinci tərəfdən, bir çox ölkələrdə yüksək işsizlik səviyyəsinə görə vəziyyət nisbətən pisləşmişdir. Bu gənc, əmək qabiliyyətli insanlar üçün iş yerlərini azad etmək üçün hakimiyyətdə olanları pensiyaya erkən çıxmanın təşkili üçün yeni imkanlar axtarmağa məcbur etdi.

Avropa Birliyinin demək olar ki, bütün ölkələrində 1980-ci illərin ortalarında erkən pensiya proqramları inkişaf etdirilməyə başlandı və qəbul edildi. Müxtəlif ölkələrdə dəqiq müəyyən edilmiş iki qərar qəbul edildi: 1) İşləmək hüququ olmadan erkən pensiyaya çıxa bilmək; 2) İşləmə hüququ olmaqla erkən pensiyaya çıxa bilmək. Proqramların əksəriyyəti Almaniya, Belçika, Fransada, ən azı Böyük Britaniya və Danimarkada tətbiq olunub[15].

Belçikada 50 yaşında təqaüdə çıxmaq olar. İşdən çıxarılma firmanın ehtiyacları ilə bağlıdırsa, yaşlılar qazancın 80%-i şəklində pensiya alırlar. Ödəniş vasitələrinin əsas hissəsi işsizlik sığortasından, bəziləri isə işəgötürən tərəfindən ödənilir. Pensiyaçıya məhdud miqdarda əlavə pul qazanmağa icazə verilir. Belçikada boşalan iş yerinə gənc adamın götürülməsi aydın və dəqiq şəkildə nəzərdə tutulur ki, bu da işçilər arasında bir yaş qrupundan digər yaş qrupuna keçidi təmin etmək üçün edilir.

Fransada işəgötürən yaşlı işçilərin yerinə 26 yaşınadək gənc götürdüyü halda, pensiyaya erkən çıxarılan əvvəlki əməkhaqqının 70% pensiya şəklində ala bilər. Bu fayda işsizlik sığortası fondu və dövlət pensiya fondu tərəfindən maliyyələşdirilir.

Almaniyada 60-65 arası yaşda könüllü pensiyaya çıxma təklif edilmişdi. Sonradan pensiyaya çıxanın hesabında kifayət qədər pul yığılmışsa, pensiyaya erkən getmə 57 yaşa endirildi. Pensiya (orta gəlirlərin 65% -i həcmində) şirkətlər tərəfindən maliyyələşdirilir. Pensiya yaşına çatanı işsizlə əvəz etdikdə, şirkət, əmək administrasiyasından bir qrant ala bilər. Bütün bunlar 1984-cü ildə qəbul olunan "Erkən pensiyaya çıxma haqqında" Qanunda nəzərdə tutulmuşdu. Amma bu qanun 5 ildən sonra başqa qanunla əvəz edilmişdi [22].

Digər ölkələrdə də oxşar məlumatlar var. Ancaq qeyd etmək lazımdır ki, yaşlıların erkən pensiyaya çıxmalarının nəticələri çox ziddiyyətlidir. Şirkətlərin seçmə əsasında işçi qüvvəsinin məhsuldarlığı artır, işçi qüvvəsinin azaldılması və cavanlaşması baş verir. Bununla yanaşı, mənfi nəticələr də var: təcrübəli, bacarıqlı işçilərin itkisi baş verə bilir. Bu vəziyyətin yaşlı işçilər tərəfindən qəbulu da birmənalı deyil: onlarda pensiyanın əvvəlində yaxşı kompensasiya alma və sonra ailə vəziyyətində dəyişiklik, əlaqələrin itirilməsi, yararsızlıq hissi ilə toqquşması nəticəsində nikbinlik yaranır.

Buna baxmayaraq, bəzi ölkələrdə sonrakı illərin pensiya islahatları pensiya yaşının tədricən artmasını büruzə verir. İtaliyadakı pensiya yaşının artırılması 1992-ci ildən edilən islahatlara uyğun olaraq reallaşdı. 1990-cı ildə Yunanıstanda erkən pensiyaya çıxmanın müxtəlif növləri tamamilə ləğv edildi.

Bir sıra Avropa ölkələrində hökumətlər qadın və kişilərin hüquqlarının bərabərliyini təmin etmək üçün sosial xidmətlər sahəsində müəyyən tədbirlər gördülər. Bu, ilk növbədə rəhmətə gedən həyat yoldaşına görə pensiya almaq imkanının verilməsi ilə bağlı idi. Almaniyada həyat yoldaşı ölmüş vətəndaşın pensiyasının 60%-ini almaq hüququ olan bir qanun qəbul edildi. Danimarkada 1985-ci ildə ölənlərin həyat yoldaşları üçün sosial sığortanın bütün hüquqları ilə birlikdə ölənlərin

pensiyalarının verilməsi də ləğv edildi. Pensiya xərclərinin azaldılmasına yönəldilmiş digər tədbirlər kimi pensiyaların ölçüsünün azaldılması, onun hesablanması qaydasının dəyişdirilməsi, pensiya üçün sığorta fonduna ödənişlərin müddətinin uzadılmasını qeyd etmək olar. Məsələn, Böyük Britaniyada 1986-cı ildə pensiyanın həcmi 5% azaldılmış və hesablanması üçün yeni bir prosedur tətbiq edilmişdir. Bu prosedur 20 il ərzində ən yüksək əməkhaqqının bir istinad nöqtəsi kimi götürülməsi yerinə, bütün məşğulluq tarix boyunca orta əməkhaqqının götürülməsindən ibarət idi. Eyni zamanda, işçilərə dövlət müəssisələri deyil, özəl şirkətlərdən pensiya almaq üçün daha əlverişli olan stimullar tətbiq edilmişdir.

ABŞ -da dövlət yaşla bağlı pensiyanı 65 yaşına çatmış şəxslər (kişi və qadınlar) ala bilər. Tam pensiya almaq üçün tələb olunan xidmət müddəti 35 ildir. Xidmət müddəti az olduqda pensiya da azalır. Pensiya 62 yaşdan verilə bilir, lakin bu halda pensiya məbləği 20% azalır. 1983-cü ildən bu əsrin əvvəllərinə qədər pensiya yaşının 67 yaşa çatdırılması planlaşdırılmışdır. 1986-cı ildə orta pensiya aylıq 478 dollar idi. Əgər kişi pensiyaçının öhdəsində 65 və yuxarı yaşda olan həyat yoldaşı varsa, o pensiyaya 50% əlavə almaq haqqı qazanır. Öhdəsində əri olan bir qadın belə bir əlavə almır. Ər-arvadın hər ikisi pensiya alırsa, onda qadın öz pensiyası ilə ərinin pensiyasının 50% -i arasında seçim etməlidir. Pensiyanın orta ölçüsü əlavə ilə birlikdə yalnız "yoxsulluq həddi" səviyyəsində gəliri təmin edir. Təqaüdçülər işləmək hüququna malikdirlər. Ancaq qazandıqları hər bir dollar üçün pensiyalarından 50 sent geri tutulur. Əslində, onlar əməkhaqqından gəlir vergisi ödədikləri üçün daha çox itirmək, nəticədə hər dollara görə 70 sent itirə bilirlər. Bir çox işçilər üçün şəxsi (özəl) pensiyalar böyük əhəmiyyət daşıyır. 1950-ci ildən 1980-ci ilə qədər şəxsi pensiya planları ilə əhatə olunan işçilərin sayı 9,8 milyondan 35,8 milyona çatıb. Şəxsi pensiya alıcılarının sayında artımı göstərən bir çox rəqəmlərin olmasına baxmayaraq, hələ də şəxsi pensiya sistemi dövlət pensiya sistemindən üç dəfə az işçiləri əhatə edir. Bundan əlavə, dövlət pensiya hesablanması zamanı bir qayda olaraq, şəxs işini dəyişdirdiyi və ya dəyişmədiyindən asılı olmayaraq, verildiyi halda, şəxsi pensiya alan zaman minimal pensiya üçün eyni şirkətdə davamlı olaraq 10 il xidmət göstərməlidir. Əksər pensiya planlarında gələcək pensiyanın ölçüsü artır və son əməkhaqqına sabit faiz, məsələn 1,5% şəklində hesablanır. Bu halda, 30 illik təcrübəsi olan bir işçi, 15 il stajı olandan daha böyük bir pensiya alacaq. 1985-ci ildə fərdi pensiyanın illik orta həddi kişi üçün 5 134, qadınlar üçün isə 3 417 dollar təşkil etmişdir. Şəxsi pensiya sisteminə dövlət tərəfindən iki əsas qanun əsasında - 1954-cü il ABŞ-ın Vergi Məcəlləsi (1986-cı ildə düzəliş edilmiş) və 1974-cü il “Şəxsi pensiya təminatı haqqında” Qanun əsasında nəzarət edilir. Xüsusi Federal Agentlik Korporasiyası mövcud pensiya fondlarının ödəmə qabiliyyətinə nəzarət edir [21].

İsveçdə pensiya yaşı kişilər və qadınlar üçün 65 ildir. Pensiyanın ölçüsündə müvafiq bir dəyişikliklə vaxtından əvvəl təqaüdə çıxmaq mümkündür. 1976-cı ildə qəbul edilmiş qanuna əsasən qismən pensiyalar iş saatlarını azaltmağa və itirilmiş gəlir üçün kompensasiya almağa imkan verir. Lakin bu zaman pensiyanı alan həftədə ən azı 17 saat işləməlidir. Əsas və əlavə pensiya üç formada - yaşa, əlilliyə və ailə başçısının ölümü ilə əlaqədar olan ailə pensiyası şəklində ödənilə bilir. Bir nəfər eyni anda bir neçə pensiya ala bilər. İsveçdə daimi yaşayan hər bir vətəndaş, iş müddətinin bitməsindən sonra əsas pensiya almaq hüququna malikdir. 1979-cu ildən bəri əlavə pensiya hüququ olan həm də əsas pensiyanı ala bilir. Yaşlılıq pensiyalarının həcmi çox aşağıdır (gəlirin 20% həcmindədir) və buna görə də insanlar yalnız əsas və ya aşağı həcmli əlavə pensiyalardan birinə malikdirlərsə, onlara, həmçinin vergiyə cəlb edilməyən mənzil mülkiyyəti subsidiyası və pensiyaya əlavələr (hansı ki, vergiyə cəlb edilmir) verilir. Pensiya sistemində əlillik pensiyası yaşlılıq pensiyasına bərabərdir. Əlillik pensiyasını xəstəliyi olan, işləmək bacarığını itirmiş 16 yaş və daha yuxarı olan şəxslər pensiya yaşına qədər alır. Bir şəxs 16 yaşına çatmamış əlil uşaqlara qayğı göstərirsə, o zaman ona uşağa görə müavinət də ödənilir. Pensiya sistemində ailə pensiyası dul qadına pensiyanı (dul kişilərə ödənilmir) və yetimlərə pensiyanı nəzərdə tutur. Pensiya 36 yaşına çatmış və ən azı 5 il evli olmuş dul qadınlara ödənilir. Tam pensiya 50 yaşınadək və ya 16 yaşından kiçik bir uşağı olduqda dul qadına ödənilir. Tam pensiya yaşlılıq pensiyası ilə eynidir. Dul qadın ərə getdikdə ödəniş dayandırılır. 18 yaşından kiçik uşaqlar üçün pensiya bir və ya hər ikisinin valideynlərinin

ölümünə görə ödənilir. Tam əlavə pensiya almaq üçün 30 il, natamam pensiya üçün ən azı 3 il işləməlisiniz. Daha az iş stajı ilə pensiyaya çıxdıqda hər işlənilməyən il üçün pensiyanın həcmi üçdə bir azalır. Orta hesab ən yüksək ödənişli 15 il müddətinə əsasən hesablanır. Əsas pensiya ilə birlikdə əlavə pensiya keçmiş illərdə əldə edilmiş gəlirlərin 70% -dən çoxunu təşkil edir. Əlavə pensiya sistemi vaxtından əvvəl pensiyanı, əlillik pensiyasını, dul qadının (əri əlavə pensiya almaq hüququna malik olduqda) və yetimlərin (yaşı 19-dan az olanlara) pensiyalarını almaq imkanını yaradır [16].

Beləliklə, aparılan təhlil nəticəsində inkişaf etmiş xarici ölkələrin pensiya sistemlərini qısa şəkildə cədvəl 1-dəki kimi səciyyələndirə bilərik.

***Cədvəl 1. Xarici ölkələrin pensiya sistemi***

| Ölkə | Maliyyələşmə | Pensiya yaşı (kişi/ qadın) | Sığorta haqlarının ödənilməsi müddəti | Pensiya ödənişi etmək üçün gəlirin hesablanması dövrü | Əvəzləmə əmsalının maksimumu | İndeksləmə |
|---|---|---|---|---|---|---|
| Amerika Birləşmiş Ştatları | Nisbi yığım | 65/66 | 35 | Bütün əmək dövrü | 41.0 | İstehlak qiymət indeksi |
| Yaponiya | Bölgü (paylama) | 60/55 | 40 | Bütün əmək dövrü | 30.0 | Xalis əmək haqqı |
| Almaniya | Bölgü (paylama) | 65/65 | 40 | Bütün əmək dövrü | 60.0 | Xalis əmək haqqı |
| Fransa | Bölgü (paylama) | 60/60 | 38 | Ən əlverişli 12 il | 50.0 | İstehlak qiymət indeksi/brutto əmək haqqı |
| İtaliya | Bölgü (paylama) | 62/57 | 40 | Son 5 il | 80.0 | İstehlak qiymətləri indeksi |
| Böyük Britaniya | Bölgü (paylama) | 65/60 | 50 | Bütün əmək dövrü | 20.0 | İstehlak qiymətləri indeksinə uyğun olaraq |
| Kanada | Bölgü (paylama) | 65/65 | 40 | Bütün əmək dövrü | 25.0 | İstehlak qiymətləri indeksi |
| İsveç | Nisbi yığım | 65/65 | 30 | Ən əlverişli 15 il | 60.0 | İstehlak qiymətləri indeksi |

İnkişaf etməkdə olan ölkələrin təcrübəsi Azərbaycan pensiya sisteminin təkmilləşdirilməsinə öz töhfələrini verə bilər. Çili dövlət tərəfindən maliyyələşdirilən pensiya təminatının formalaşdığı ilk Latın Amerika ölkələrindən biridir. Çili sistemi pensiyaları qeyri-sabitlikdən qorumaqda və kapital yığmaqda uğurlu bir təcrübədir. Son illər pensiya fondları tərəfindən yığılmış pensiya ödəmələri 4 qat artmış və ÜDM-in təxminən 40% -ni təşkil etmişdir. Eyni dövrdə, pensiya fondlarında kapitalın orta gəlirliyi də çox yüksək (12,8%) olmuşdur. 2005-ci ildə əlverişli şəraitdə fondlar ÜDM-in 50% -ni əhatə etdiyi halda, proqnozlara görə 2025-ci ildə ÜDM-in 100% -ni təşkil edəcəkdir. Yeni pensiya sistemi Çili iqtisadiyyatının əsas xüsusiyyətlərindən birinə çevrilmişdir və xüsusilə Çili maliyyə bazarının inkişafına böyük təsir göstərmişdir. Burada yenidən bölgü xarakteri daşıyan bir pensiya

sistemi formalaşmışdır. İşçilərin əmək haqqından ödənişləri əlavə olaraq, dövlət tərəfindən ödəmələr ilə də tamamlanmışdır. Əmək fəaliyyətini dayandırmış şəxslərə ödənilən pensiyalar işçilərin, işəgötürənlərin və dövlət xəzinələrinin ödəmələri hesabına təmin edilir. Pensiyaların məbləğini müəyyən etmək üçün, hər bir şəxsin "sığorta tarixçəsi" əsas kimi götürülür və təyin olunmuş pensiyanın səviyyəsi şəxsin aktiv fəaliyyəti zamanı sığorta sisteminə faktiki ödəmələrilə az bağlı olur. İdarəetmə baxımından köhnə sistem işçilərdən və onların işəgötürənlərindən toplanan pensiya və müavinətlərin ödənilməsi üçün məsul qurum olan sığorta kassası əsasında mövcud olmuşdur. Tədricən dövlət pensiya sistemi zəifləməyə başladı və dövlətdən daha çox investisiyalar və işçilərdən isə böyük ödəmələr (19-21%) tələb etdi. Bir neçə hökumət dövlət pensiya sistemini islah etməyə çalışdı, lakin maraqlı qruplar bu istiqamətdə konqresə təqdim edilən hər hansı bir təklifin qarşısını alırdı. Çilidə sosial müdafiə sistemində islahatlar dövründə böyük dəyişikliklər edildi. Referendum nəticəsində həmrəylik sistemindən yığım pensiya sisteminə keçdilər. Bu islahatın 3 əsas məqsədini: büdcə, pensiya və investisiya sisteminin təkmilləşdirilməsini qeyd etmək lazımdı. Çilidə pensiyanın iki əsas növü var: ömürlük renta (sığorta şirkəti sığortalıya ömrünün sonuna qədər müavinət ödəyir) və pensiyaya proqramlaşdırılmış çıxma (pensiya ödənişləri sığortalı ilə razılaşdırılmış xüsusi sxem əsasında verilir [24, s. 85]. Çili maliyyə strukturunda pensiya fondları və sığorta şirkətləri əhəmiyyətli çəkiyə malikdir. Yeni pensiya sisteminin tətbiqi ilə hökumət faktiki olaraq pensiyaların maliyyələşdirilməsi ilə məşğul olmağı dayandırıb, çünki pensiya, əsasən, vətəndaşların şəxsi hesabına toplanan qənaət hesabına ödənilir. Çililər pensiya fondlarına öz əməkhaqqının 10%-ni ödəyir. Pensiya sisteminin islahatı pensiyaların idarə edilməsi üçün özəl fondların və sığorta şirkətlərinin sayının əhəmiyyətli artması ilə nəticələnmişdir. Pensiya fondunu idarə edən şirkətlər tərəfindən toplanan ümumi məbləğ ölkənin özəl sektorunda olan bütün uzunmüddətli depozitlərin 90% -dən çoxunu təşkil edir və mövcud pul vəsaitlərindən təxminən altı dəfə yüksəkdir. Pensiya fondlarının investisiyaları dövlət müəssisələrində, ipoteka istiqrazlarında, maliyyə institutlarında depozitlər şəklində, özəl şirkətlərin paylarına qoyulmaqla həyata keçirilir. Beləliklə, bir neçə vəzifə uğurla həll olunur, yığım fondunda fərdi qənaətlərin mobilizasiyası, "kollektiv" əmlakın payının artırılması baş verir. Banklara öz pensiya fondlarını yaratmaq və onların vəsaitlərindən istifadə etmək hüququ verilmişdir. Çili kredit sisteminin strukturunu, əsasən, özəl banklar, xarici kapital, pensiya fondunu idarə edən şirkətlər təşkil edir. Pensiya sisteminin islahatından sonra köhnə bölgü (paylama) sistemindən fərqli olaraq, ödəmələrin miqdarı sığortalının işi zamanı verdiyi səylərə mütənasib olan yeni sistem yarandı. Hər bir sığortalı şəxsin daimi ödənişləri onun fərdi şəxsi hesabına gedərək şəxsi pensiya fondunu təşkil edir. Bu fondun həcmi ödənişlər hesabına artır. Onun dəyəri kapital qoyuluşu nəticəsində yaranan mənfəəti təmin etmək vasitəsi kimi də artır. Fərdi hesabda toplanan fondun dəyəri nə qəədər çoxdursa, pensiya yaşına çatdıqdan sonra sığortalının ala biləcəyi pensiya, ya da ölümündən sonra vərəsələrinə ödənilə biləcək məbləğ də yüksəkdir. Pensiya hesablarının idarə edilməsi xüsusi mülkiyyətə keçirildi. Çilidə 12 özəl pensiya fondları yaradılmışdır. Dövlətin tənzimləyici rolu yalnız fondların fəaliyyətinə nəzarət edən nəzarət orqanı roluna keçdi. Hər pensiyaçı pensiya hesabının idarəedilməsi fondunu seçir və fərdi kapitallaşma (vergi tutulan gəlir 10%) üçün nəzərdə tutulmuş sığorta ödəmələrini, eləcə də əlillik və ailə başçısını itirməyə (3.44%) görə pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün ödəmələrini ora köçürür. Müvafiq Fond, öz növbəsində, hər bir sığortalının vergiyə cəlb olunan gəlirlərindən həm sabit, həm də komissiya faizlərini alır. İşçinin pensiya qeydiyyatı zamanı fərdi kapitallaşma hesabına köçürülə biləcək əlavə əmanət hesabına sahib olmaq hüququ vardır, bu da pensiyanın məbləğini artırır. Hesabdakı vəsaitlər qiymətlərin qeyri-sabitliyindən (inflyasiyadan) tamamilə qorunur. Pensiyalar, pensiya fondlarının aktivləri və s. inflyasiyaya görə indeksasiya olunan pul vahidi - UF əsasında hesablanır. Dövlət sığortalıya minimal pensiya almasına zəmanət verir. Sığortalı öz şəxsi hesabında minimum pensiya almaq üçün kifayət qədər məbləği yığa bilmədiyi hallarda dövlət yığım və minimum pensiyanın həcmi arasındakı fərqləri əhatə edən məbləğdə subsidiyalar ödəməyə borcludur. 65 yaşdan yuxarı kişilərin, 60 yaşdan yuxarı qadınların ən azı 20 illik ödəmələri təsdiqləndikdə dövlət tərəfindən qanunvericiliklə təmin edilmiş minimum pensiyanı almaq hüququna malik olurlar. Sığortalı pensiyaya çıxan zaman "ömürlük" renta modelini seçirsə, o

avtomatik olaraq yenidən hesablanan pensiyanı seçmiş olur ki, bu da istehlak səbətinin dəyəri ilə ifadə olunur. Beləliklə, yeni sistemin köhnədən əsas fərqləri aşağıdakılardır:

- Yaşa görə pensiyanın sığortalının şəxsi səyindən asılılığı;
- Sığortalının və seçki azadlığının fəal rolu;
- Sistemin rəqabət qabiliyyətli olması;
- Pensiyaların avtomatik indeksasiyası;
- Sığortalı üçün xərclərin azaldılması;
- Məşğulluğa mənfi təsirlərin azaldılması;
- Dövlət büdcəsindən asılı olmaması;
- Hamı üçün bərabər imkanların olması;
- Əlillik və ailə başçısının itirilməsinə görə pensiyanın kollektiv sığortası;
- Sərmayə yığımının artması.

Hal-hazırda dünya ölkələrinin əksəriyyətində pensiya sistemində hiss olunan böhranın qarşısını almaq, etibarlılığı artırmaq üçün onu islah etmək cəhdləri aparılır. Təcrübədə liberal, korporativ və sosial-demokrat modellərin elementlərini hər hansı birinin üstünlüyü ilə birləşdirmək mümkündür. Məsələn, Kanadada pensiya sığortası ilə yanaşı, əsas ("xalq") pensiya tətbiq edilir. Bənzər pensiya sistemi Avstraliyada da tətbiq olunur. İslahatın tərkib hissəsi olan əsas məqam, universal bölgü (paylama) sistemindən qarışıq sistemə keçid etmək və yığım elementlərinin əhəmiyyətini artırmaqdır. Ümumilikdə, üç növ pensiya təminatı nəzərdə tutulur: 1) Dövlət pensiya sığortası (əmək stajına görə) – burada dövlət pensiya fondunun büdcəsinə ödənişlər vasitəsilə maliyyələşdirilir; 2) Lazımi əmək stajına malik olmayan və hərbi heyət üçün pensiya təminatı – bu, dövlət büdcəsindən təmin edilir; 3) Erkən pensiyaya gedənlər üçün könüllü və məcburi əlavə pensiya sığortası tətbiq edilir. Müxtəlif ölkələrin təcrübəsinə əsasən pensiya sisteminə əsas, əlavə (əmək) və qismən (natamam) pensiya daxildir. Bir çox ölkələrdə vergi imtiyazı qeyri-dövlət pensiya fondlarının yaradılmasını stimullaşdırmaq üçün təqdim edilir və pensiya yaşının artırılması məsələsi nəzərdən keçirilir. Pensiya ödənişi hər il inflyasiya baş verdikdə hökumət tərəfindən avtomatik artırılan baza məbləği əsasında müəyyən edilir.

**Azərbaycanda pensiya sisteminin təkamülü**

Azərbaycanda pensiya sisteminin formalaşması tarixinə nəzər saldıqda görürük ki, Azərbaycan SSRi-nin tərkibində olduğu zaman ilk dəfə 01 oktyabr 1956-cı il tarixdə "Dövlət pensiyaları haqqında" Qanunun qüvvəyə minməsi ilə dövlət pensiyaları qocalığa, əlilliyə və ailə başçısını itirməyə görə təyin olundu. Qocalığa görə pensiyalar kişilər üçün 60 yaşına çatdıqda və azı 25 il iş stajı, qadınlar üçün isə 55 yaşına çatdıqda və azı 20 il iş stajı olduqda təyin olundu. Qocalığa görə güzəştli şərtlərlə pensiya hüququ yeraltı işlərdə çalışan fəhlələr, 5 və daha çox uşağı olan, onları 8 yaşınadək tərbiyə etmiş qadınlar üçün nəzərdə tutuldu. Qanunla qocalığa görə pensiyaların minimum və maksimum məbləğləri müəyyən edildi. Əlilliyə görə pensiya hüququna əlil olan fəhlə və qulluqçular malik idi. Sovet pensiya təminatının maliyyə modeli, habelə pensiyaçıların sayının müntəzəm olaraq artması mövcud pensiya sisteminin sabit fəaliyyətinə mənfi təsir göstərdi. Pensiyaçıların ümumi sayı 1982-ci ildə 1941-ci ildəki 4 milyon nəfərdən 51,4 milyon nəfərədək artmışdı ki, bu da ölkə əhalisinin 19,2 faizi demək idi. 1990-cı ildə SSRİ Sosial Sığorta Fondu yaradıldı və tabeçiliyindən asılı olmayaraq, bütün müəssisə, idarə, təşkilat, kooperativ, sovxoz, kolxoz və digər təşkilatların onun hesabına ayırmalar etməsi qərara alındı. Bundan sonra "Azərbaycan SSRİ-də sosial sığorta üzrə idarəçiliyin təkmilləşdirilməsi və maliyyələşdirmə qaydası haqqında" Azərbaycan SSRİ Nazirlər Kabinetinin və Həmkarlar İttifaqlarının Azərbaycan Respublikası Şurasının 8 may 1991-ci il tarixli qərarı ilə Həmkarlar İttifaqlarının Azərbaycan Respublikası Şurasının nəzdində Azərbaycan SSRİ Sosial Sığorta Fondu yaradıldı. "SSRİ Pensiya Fondunun yaradılması haqqında" SSRİ Nazirlər Sovetinin 15 avqust 1990-cı il tarixli qərarı ilə pensiya təminatını maliyyələşdirəcək SSRİ Pensiya Fondu təşkil olundu və onun Azərbaycan şöbəsi yaradıldı.

Azərbaycanda pensiya təminatı 1 yanvar 1993-cü il tarixində qüvvəyə minən "Vətəndaşların pensiya təminatı haqqında" və "Hərbi qulluqçuların pensiya təminatı haqqında" qanunla tənzimlənir.

1992-ci il yanvarın 1-dən "Vətəndaşların pensiya təminatı haqqında" Qanunun müddəalarına uyğun olaraq, 1,1 milyondan çox vətəndaş pensiya almağa başlamışdır. Hal-hazırda Azərbaycan Respublikası sosial-iqtisadi həyatın bütün sahələrində olduğu kimi, əhalinin pensiya təminatı sahəsində də islahatlar həyata keçirir. Pensiya sahəsində islahatları uğurla həyata keçirmək üçün 1996-cı ildə Nazirlik pensiya islahatı konsepsiyasını hazırladı. Bu konsepsiya üç pilləli pensiya sisteminin (ilk növbədə, sığorta ödənişləri ilə bağlı müəyyənləşdirilmiş əmək pensiyaları, 2-ci sosial pensiya, 3-cü isə qeyri-dövlət pensiya təminatının) yaradılması nəzərdə tuturdu. Bu islahatın bir neçə mərhələdə aparılması nəzərdə tutulmuşdu. Birinci mərhələdə (1997-1998) bu qanunun qüvvəyə minməsindən əvvəl pensiya alanlar arasında, yəni 1993-cü ilədək və sonrakı illərdə təqaüdçü olan şəxslər arasında pensiya məbləğində uyğunsuzluqların aradan qaldırılmasının təmin edilməsi planlaşdırılırdı. 1 avqust 1998-ci ildən etibarən pensiyaların minimum əmək haqqından asılılığı aradan qaldırılmış və pensiya məbləğinin müəyyənləşdirilməsi üçün yeni bir mexanizm yaradılmışdır.

Beləliklə, pensiyanın yenidən hesablanması Nazirlər Kabinetinin təsdiq etdiyi orta aylıq əmək haqqı səviyyəsinə uyğun olaraq, həyata keçiriləcəkdir. 1997-ci ilin iyun ayında "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi haqqında" Qanun qəbul edildi. Nəticədə, 1997-ci il avqustun 1-dən etibarən, 1993-cü ilədək təqaüdçü olan vətəndaşların pensiyaları iki dəfədən çox artmışdır. Qeyd edilən qanunda bu dəyişiklik və əlavələr qəbul edərkən sosial təminat sahəsində islahatlarla bağlı konsepsiyanın bəzi müddəaları nəzərə alınmışdır. Azərbaycan Respublikasının müstəqillik illərində ölkəmizdə beynəlxalq standartlara uyğun yeni sığorta-pensiya sisteminin formalaşdırılması üçün zəruri addımlar atıldı. “Həyata keçirilən islahatlarla, ilk növbədə, Azərbaycanda mövcud olan və keçmiş sovet dönəmindən qalmış pensiya sisteminin bazar iqtisadiyyatı ilə ciddi uyğunsuzluğunun və bu uyğunsuzluğun yaratdığı çoxsaylı problemlərin aradan qaldırılmasına tam nail olunmuşdur. Sosial müdafiənin Azərbaycan modelinin əsas cəhəti ondan ibarətdir ki, bu proses, digər keçid dövrü ölkələrində olduğu kimi, "şok" effekti ilə deyil, əvvəlki sistemlə əhatə olunmuş insanların davamlı sosial müdafiə tədbirləri vasitəsilə yeni şəraitə mərhələlərlə tam inteqrasiyası yolu ilə reallaşdırılmışdır” [14]. 1 avqust 1997-ci ildən 1 avqust 2000-ci ilədək respublikada pensiya üçün yaş həddi iki il artmışdır. Sonrakı müddətdə hər il 6 aylıq artım mərhələsi tətbiq edilmişdir. Bununla da pensiya yaşı kişilər üçün 63, qadınlar üçün isə 60 yaşa çatdırılmışdır. Bununla yanaşı, köhnə qanununun bəzi müddəaları (güzəştli şərtlərlə pensiyaların verilməsi) ləğv edilərək, işləyən pensiyaçılar üçün pensiya məbləğinin 50% azaldılması təmin edildi. 7 fevral 2006-cı il tarixli “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanunu ilə yaşa görə əmək pensiyası, əlilliyə görə əmək pensiyası və ailə başçısını itirməyə görə əmək pensiyası müəyyən edildi. Fiziki şəxslərə müxtəlif pensiyaların birini seçmək hüququ verilir. Onlar dövlət pensiyası ilə yanaşı, könüllü sığorta və digər pensiya almaq hüququna malikdirlər. Vətəndaşlar heç bir səbəbdən əmək və digər fəaliyyətlə əlaqədar pensiya almaq hüququna malik olmadıqda, onlara sosial pensiya verilir. Belə pensiya əmək pensiyasının əvəzinə müvafiq hallarda təyin oluna bilər. 2001-2017-ci illər üzrə pensiyaçıların sayı və tərkibi ilə bağlı təhlil cədvəl 2-də verilir. Təhlil göstərir ki, pensiyaçıların tərkibində son 16 ildə qadınların sayında 1,3 %, işləyənlərin sayında 2,8 % artım baş vermişdir. Əlilliyə görə pensiya alanların sayı 15,4%, o cümlədən əlil qadınların sayı 7%, əlil kişilərin sayı 8,4%, işləməyən əlillərin sayı 14,4% artmışdır.

Son zamanlar pensiya təminatı sahəsində köklü dəyişikliklər olmuşdur. Xüsusilə də minimum pensiya məbləğinin ilbəil artmasını qeyd etmək lazımdır. Ölkə üzrə qəbul edilmiş minimum əmək haqqı, minimal pensiya və yaşayış minimumu arasında əlaqəyə diqqət yetirək.

29 dekabr 2004-cü ildən tətbiqinə başlanılmış "Yaşayış minimumu haqqında" Azərbaycan Respublikası Qanununu ilə ölkə üzrə əhalinin həyat səviyyəsinin müəyyən edilməsinə başlanıldı. Ölkə üzrə minimum əməkhaqqı 2007-ci ilin ikinci yarısından 2018-ci ilin əvvəlinə 2,6 dəfə, minimal pensiya 2,3 dəfə, yaşayış minimumu isə 2,7 dəfə artmışdır. Amma artım kifayət qədər yüksək olsa da, qrafikdən göründüyü kimi, minimal pensiya yaşayış minimumu və əmək minimumundan geri qalır. Bu fərq son illər pensiya islahatları nəticəsində yeni pensiya yığım sisteminə keçidlə əlaqədar olmuşdur.

**Qrafik 1.**




**Mənbə:** *Qrafik müəllif tərəfindən stat.gov.az materialları əsasında tərtib edilmişdir.*

**Cədvəl 2.**

**Pensiyaçılar haqqında ümumi məlumat, illər üzrə %-lə**

| | 2001 | | | | | 2005 | | | | | 2010 | | | | | 2015 | | | | | 2017 | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | sayı | kişi | qadın | işləyən | işləməyən | sayı | kişi | qadın | işləyən | işləməyən | sayı | kişi | qadın | işləyən | işləməyən | sayı | kişi | qadın | işləyən | işləməyən | sayı | kişi | qadın | işləyən | işləməyən |
| Pensiya-çıların sayı | 100,0 | 43,5 | 56,5 | 8,1 | 91,9 | 100,0 | 41,0 | 59,0 | 7,4 | 92,6 | 100,0 | 39,4 | 60,6 | 10,2 | 89,8 | 100,0 | 40,1 | 59,9 | 10,4 | 89,6 | 100,0 | 42,2 | 57,8 | 10,9 | 89,1 |
| yaşa görə | 60,2 | 23,5 | 36,7 | 6,5 | 53,7 | 55,3 | 34,9 | 36,0 | 5,9 | 49,4 | 65,6 | 22,9 | 42,8 | 8,6 | 57,0 | 60,8 | 20,7 | 40,1 | 8,3 | 52,5 | 59,5 | 21,4 | 38,1 | 8,5 | 51,0 |
| əlilliyə görə | 13,8 | 8,5 | 5,3 | 1,3 | 12,4 | 18,3 | 57,0 | 7,9 | 1,3 | 17,1 | 36,3 | 13,3 | 10,5 | 1,6 | 22,2 | 28,3 | 15,9 | 12,5 | 2,1 | 26,2 | 29,2 | 16,9 | 12,3 | 2,4 | 26,8 |
| ailə başçısını itirməyə görə | 11,2 | 3,9 | 7,4 | 0,003 | 11,2 | 9,7 | 29,1 | 6,8 | 0,0 | 9,6 | 44,2 | 3,3 | 7,3 | 0,01 | 10,5 | 10,9 | 3,6 | 7,3 | 0,0 | 10,8 | 11,4 | 4,0 | 7,4 | 0,1 | 11,3 |
| sosial pensiyalar | 14,8 | 7,6 | 7,2 | 0,2 | 14,5 | 16,7 | 50,3 | 8,3 | 0,3 | 16,5 | … | … | … | | | … | … | … | | | … | … | … | | |

**Mənbə:** *Qrafik müəllif tərəfindən stat.gov.az materialları əsasında tərtib edilmişdir.*

Qeyd etməliyik ki, yaşayış minimumu pensiyaçılar üçün (uşaq və əmək qabiliyyətli əhaliyə nisbətən) fərqli məbləğdə olduğundan pensiyaçılar üçün yaşayış minimumunun dəyişməsi tendensiyası aşağıdakı qrafik 2-dəki kimi olmuşdur. Təhlil göstərir ki, 2010-cu ildə minimum pensiyanın məbləği yaşayış minimumunu 25% üstələdiyi halda, 2018-ci ilin birinci yarısına əksinə minimal pensiyanın məbləği yaşayış minimumundan 18,8 % aşağı olmuşdur.

**Qrafik 2.**




| | 2007 | 2008 | 2010 | 2013 | 2018 |
|---|---|---|---|---|---|
| yaşayış minimumu | 49.7 | 79 | 68 | 94 | 144 |
| minimum pensiya | 50 | 75 | 85 | 100 | 116.82 |

**Mənbə:** *Qrafik müəllif tərəfindən stat.gov.az materialları əsasında tərtib edilmişdir.*

Pensiya islahatının ikinci mərhələsində pensiya sisteminin əsasını təşkil edən fərdi uçot sisteminin yaradılması, pensiya yığımları, maliyyələşdirmə və ümumilikdə pensiyaların təyini ilə əlaqədar işlərin avtomatlaşdırılmış sistemin hazırlanması və tətbiqinin təmin edilməsi nəzərdə tutulmuşdur.

Üçüncü mərhələdə, fərdi uçotun yaradılması ilə bağlı əmək qabiliyyətli işçilərin pensiyalarının müəyyən edilməsi üçün lazım olan gəlir və digər göstəricilər barədə məlumatların toplanması planlaşdırılmışdır.

Dördüncü mərhələdə pensiyanın hesablanmasının fərdi uçot sənədləri əsasında başlanılması mərhələsidir.

Strategiyaya əsasən orta pensiya pensionerlərin yaşayış minimumunu üstələməli, minimal pensiya isə ən azı yaşayış minimumunun 80%-ni təşkil etməlidir. Pensiya fondunun maliyyə davamlılığını artırmaq üçün pensiyaların qarışıq (inflyasiya və əməkhaqqı) indekslənməsinə keçid edilmişdir. İkinci problemi həll etmək üçün işləyən əhali üçün pensiyaların yığım mexanizminin tətbiq edilməsi planlaşdırıldı. “Bu məqsədlə 2003-2005-ci illərdə pilot və hazırlıq tədbirləri başa çatdırılmış, 2006-cı ildən sığorta-pensiya sistemi ilə dövlət sosial yardım sistemlərinin bir-birindən ayrılması və beynəlxalq standartlar əsasında fəaliyyət göstərməsi təmin edilmişdir. Konsepsiya islahatın mahiyyətini təşkil edən sığorta-pensiya və sosial yardım sistemlərinin bir-birindən ayrılmasını, sığorta münasibətlərinə əsaslanan pensiya sisteminin qurulmasını ifadə edirdi. Bu dəyişikliklərin başlıca elementi sosial sığorta haqlarının fərdi uçotuna əsaslanan avtomatlaşdırılmış sığorta-pensiya sisteminin yaradılması idi. Fərdi uçot sisteminin tətbiqində əsas məqsəd ödənilən məcburi dövlət sosial sığorta haqqı ilə pensiya məbləği arasında birbaşa qarşılıqlı əlaqənin təmin edilməsi idi. 2005-2009-cu ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması ilə bağlı 7, sığorta hissəsinin artırılması ilə bağlı 5 sərəncam verilmişdir” [14].

Əksər inkişaf etmiş ölkələrdə pensiya sistemində islahatlar davam etsə də, əvvəlki sistemin iştirakçılarının yeni şəraitə uyğunlaşdırılması hələ də tam başa çatmayıb. Azərbaycan Respublikasında bu prosesin təşkilinin sürətli və davamlı hayata keçirilməsi bu sahədə müxtəlif ölkələr üçün nümunədir. Şübhəsiz, bu istiqamətdə tədbirlərin davam etdirilməsi ölkəmizdə sosial müdafiənin daha təkmil olmasına imkan verəcək.

**Yekun**

Hal-hazırda, dünya ölkələrinin əksəriyyətində pensiya sistemində hiss olunan böhranın qarşısını almaq, etibarlılığı artırmaq üçün onu islah etmək cəhdləri aparılır. Təcrübədə liberal, korporativ və sosial-demokrat modellərin elementlərini hər hansı birinin üstünlüyü ilə birləşdirmək mümkündür.

Pensiya və müavinətlərin hesablanması mexanizmlərinin sadə, əhali tərəfindən başa düşülən, sabit olması, müxtəlif illər üzrə indeksasiyanın yalnız inflyasiyaya deyil, həm də kommunal xərclər, dərman vasitələrinin qiymətləri nəzərə alınmaqla yaşayış minimumuna uyğun olaraq, aparılmasının qanunvericiliklə təmin edilməsinə, pensiya və sosial sığortanın idarə edilməsi sisteminin əsas subyektlərinin (işçi və işəgötürən) qərar qəbulu prosedurlarında iştirak və seçim imkanı mexanizmlərini təmin etmək, bu mexanizmlərin açıqlığı və şəffaflığını təkmilləşdirmək lazımdır. Fikrimizcə, qeyri-dövlət pensiya fondları üçün qanunvericilikdə dəyişikliklərin edilməsi və yaradılmasına ehtiyac var.

Azərbaycan dövlətinin inkişaf strategiyasında bu sahədə iki əsas problem həll olunmalıdır: 1) Pensiya sisteminin mövcud maliyyə sabitliyini təmin etmək və pensiyanın real həcminin artırılması; 2) Əhalinin yaşlanması ilə əlaqədar pensiya sisteminin böhranının qarşısını almaq. Strategiyaya əsasən pensiya yaşının mərhələli artması nəzərdə tutulur.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı:1995
2. Azərbaycan Respublikasında 2018-ci il üçün ehtiyac meyarının həddi haqqında Azərbaycan Respublikasının Qanunu. https://www.e-qanun.az
3. Azərbaycan Respublikasının "Əmək pensiyaları haqqında" Qanunu. https://www.e-qanun.az
4. Azərbaycan Respublikasının "Sosial xidmət haqqında" Qanunu. https://www.e-qanun.az
5. Azərbaycan Respublikasının "Sosial müavinətlər haqqında" Qanunu. https://www.e-qanun.az
6. Azərbaycan Respublikasının "Sosial sığorta haqqında" Qanunu. https://www.e-qanun.az
7. Azərbaycan Respublikasının "Ünvanlı dövlət sosial yardımı haqqında" Qanunu. https://www.e-qanun.az
8. "Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafında yoxsulluq probleminin azaldılmasına yönəldilmiş ünvanlı sosial yardım siyasəti mexanizminin təhlili və effektivliyinin qiymətləndirilməsi" mövzusunda elmi-tədqiqat işi üzrə Əmək və Sosial Problemlər üzrə ETTM-nin hesabatı. Bakı: 2007
9. Əliyev M. N. Yaşa görə pensiyalar: müasir vəziyyəti, hüquqi problemləri, inkişaf perspektivləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 2003
10. Əliyev M.N. Pensiya hüququnun problemləri. Bakı, Bakı Universiteti nəşriyyatı, 2004
11. Əşrəfova R.S. Azərbaycanda pensiya təminatı sisteminin formalaşması və təkmilləşdirilməsi. Bakı: Elm, 2007, 260 s.
12. Kərimov D.F. Ailə başçısını itirməyə görə əmək pensiyaları. Bakı, Təknur, 2009
13. Qasımov A.M., Əliyev M.N. Azərbaycan Respublikasının pensiya hüququ: Dərs vəsaiti. Bakı, Digesta, 2001
14. Müslümov S. Müstəqilliyin 20 ili və Azərbaycanın sığorta-pensiya sistemi //Azərbaycan. 2011. 18 oktyabr. № 230. -s.7. http://anl.az/down/meqale/azerbaycan/2011/oktyabr/206775.htm.
15. Антропов В.В. Социальная защита в странах Европейского союза: история, организация, финансирование, проблемы. — М.: Экономика, 2011. — 271 с
16. Антропов В.В. Шведская модель социальной защиты // Народонаселение. 2005, № 4, 144 с.
17. Антропов, В.В. Система социальной защиты населения в Италии / В.В. Антропов // Трудовое право. – 2006. – №4. – С. 76 – 86.
18. Ассоциация социального обеспечения КНР [Электронный ресурс].-URL: www.shflxh.mca.gov.cn
19. Баранник Л. Б. Современные тенденции в развитии социальной защиты населения в мире. Социально-экономические явления и процессы, № 1 (047), 2013, с.32-37
20. Гришин, И.В. Шведская модель общественного развития: дихотомия рынокполитика // Мировая экономика и международные отношения. – 2005. – № 10. – 128 с.
21. Губин А. В. Особенности системы социальной защиты в США // Омские социально-

гуманитарные чтения —2015, Материалы VIII Международной научно-практической конференции. Министерство Омской области; Омское отделение Российского общества социологов; Омский государственный технический университет, факультет гуманитарного образования, кафедра социологии, социальной работы и политологии; Ответственный редактор Л. А. Кудринская. 2015 — С. 53–60.
22. Гутник В.П. Политика хозяйственного порядка в Германии: Монография. – М.: Экономика, 2002. – 271с.
23. Дамбаева Д. Р., Базарова Т. С.. Особенности системы социальной защиты в Китае. Вестник Бурятского Государственного Университета 5/2015
24. Корнюшина, Р.В. Зарубежный опыт социальной работы / Р.В. Корнюшина. – Владивосток: Издательство Дальневосточного университета, 2004. – 85 с.
25. Павлов В.С. Социальная политика западноевропейских государств в рыночной экономике//Вестник Нижегородского университета. 2008. № 6.342 с.
26. stat.gov.az

**РЕЗЮМЕ**

**Ниджат Исаков**

**НОВЫЕ ПОДХОДЫ И МЕХАНИЗМЫ РАЗВИТИЯ ПЕНСИОННОЙ СИСТЕМЫ В АЗЕРБАЙДЖАНЕ**

Меры, принимаемые в области пенсионного обеспечения в Азербайджанской Республике, требуют изучения международного опыта в этой области. В связи с этим в статье основное внимание уделяется методологии расчета пенсий в развитых и развивающихся стран, а также реформам социальной защиты. Результаты, полученные в этой статье, дают возможность определить преимущества различных систем пенсионного обеспечения.

**SUMMARY**

**Nicat Isagov**

**NEW APPROACHES AND MECHANİSMS OF DEVELOPMENT OF THE PENSİON SYSTEM İN AZERBAİJAN**

Measures taken in the field of pension provision in the Republic of Azerbaijan require the study of international experience in this area. In this regard, the article focuses on the reform of the developed and developing countries in the methodology for calculating pensions as well as the social protection reforms. The results obtained in this article provide an opportunity to explore the benefits and benefits of various retirement benefits systems.

**EMİL MİRZƏYEV**
*AMEA- nın İqtisadiyyat İnstitutu*
*emil.mirzeyev.84@inbox.ru*

# AQROEMAL SEKTORUNDA İNVESTİYA FƏALİYYƏTİNİN TƏHLİLİ VƏ TƏKMİLLƏŞDİRİLMƏSİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *Aqroemal, innovasiya , investisiya , kənd təsərrüfatı, sənaye, əsas kapital*
***Ключевые слова:*** *Агр, инновации, инвестиции, сельское хозяйство, промышленность, основной капитал*
***Key words:*** *agro processing, innovation, investment, agriculture, industry, fixed capital*

Gündən-günə genişlənən və qloballaşan rəqabət mübarizəsi iqtisadiyyatın digər sektorlarında olduğu kimi, aqrar iqtisadiyyatda, xüsusən də onun əsas yarımkompleksi olan aqroemal sənayesində fəaliyyətin düzgün təşkili, idarəedilməsi və təkmilləşdirilməsini tələb edir. Bu baxımdan da mövcud sektorda fəaliyyət göstərən sahibkarların və biznes subyektlərinin üzərinə müvafiq sahə üzrə investisiya – innovasiya fəaliyyətinin təşkili və təkmilləşdirilməsi istiqamətində böyük yük düşür. Bu baxımdan sahibkarlıq subyektləri əsas kapitala yönləndirilən investisiyaları mütəmadi təhlil etməli və nəzarətdə saxlamalıdırlar. Cədvəl 1-də 2005-2018-ci illərdə sənayedə əsas kapitala yönəldilən investisiyaların həcmi göstərilmişdir. Cədvəl 1-dən göründüyü kimi, 2005-2018-ci illər intervalında qida məhsulları istehsalına yatırılan investisiyanın həcmi enib qalxmalarla 28 mln.manatdan 196,6 mln.manata qədər artmışdır. Bu sahəyə yatırılan investisiyanın minimal həcmi 2010-cü ildə 27,1 mln. manat təşkil etmişdir. Bu sahəyə 2005-2010-cu illərdə yatırılan xarici investisiyanın ümumi həcmi 28,6 mln. manat təşkil etmişdir. Bu isə 2005-2018-ci illərdə yatırılan cəmi investisiyanın 4,2%-ni təşkil edir.

Cədvəldə göstərilən məlumatlardan aydın olur ki, 2011-2016-ci illərdə aqroemal sahəsinə xarici investisiya yatırılmamışdır. Bu sahəyə yalnız 2017-ci ildə 32 mln. manat xarici investisiya qoyulması diqqəti cəlb edir. İçki istehsalına baxılan dövr ərzində yatırılan investisiyaların həcmi enib-qalxmalarla 3,2 mln.manatdan 39,3 mln.manata qədər artmışdır. İnvestisiyanın minimal həcmi 2005-ci ildə 3,2 mln. manat, maksimal həcmi 2011-ci ildə 41,5 mln. manat təşkil etmişdir. Tütün məmulatları istehsalına 2005-2018-ci illərdə yatırılan investisiyanın həcmi enib-qalxmalarla 8,1 mln.manatdan əvvəlcə 2017-ci ildə 0,4 mln.manata qədər azalmış, sonra 2018-ci ildə 60,7 mln. manata qədər artmışdır. Bu da sahəyə yatırılan investisiyanın maksimal həcmini təşkil edir. 2006, 2011, 2013-2015-ci illərdə tütün məmulatları istehsalına, ümumiyyətlə, investisiya qoyulmamışdır. Toxuculuq sənayesinə baxılan dövr ərzində yatırılan investisiyaların həcmi enib-qalxmalarla 2,1 mln.manatdan 42,9 mln.manata qədər artmışdır. Bu sahəyə investisiya qoyuluşunun minimal həcmi 2011-ci ildə 0,2 mln.manat təşkil etmişdir. 2018-ci ildə aqroemal sahəsinə qoyulan daxili investisiyaların həcmində çox yüksək səviyyədə artım baş vermişdir. Bu göstərici əvvəlki illə müqayisədə qida məhsulları istehsalında 1,6 dəfə, tütün istehsalında 151,8 dəfə, içki istehsalında 1,5 dəfə, toxuculuq sənayesində 12,7 dəfə, dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı sahəsində isə 19 dəfə artmışdır. Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalına 2005-2017-ci illərdə yatırılan investisiyaların həcmi enib-qalxmalarla 2,1 mln.manatdan 0,1 mln.manata qədər azalsa da, 2018-ci ildə 1.9 mln.manata qədər artmışdır. Bu sahəyə yatırılan investisiyanın maksimal həcmi 2015-ci ildə 8,8 mln. manat təşkil etmişdir. 2012-2014-ci illərdə dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalına, ümumiyyətlə, investisiya qoyulmamışdır. Aqroemal sənayesinə baxılan dövr ərzində yatırılan investisiyaların həcmi enib-qalxmalarla 42,1 mln. manatdan 341,4 mln.manata qədər artmışdır. İnvestisiyanın minimal həcmi 2005-ci ildə 42,1 mln. manat təşkil etmişdir. 2005-2018-ci illərdə aqroemal müəssisələrinə yönəldilən investisiyaların emal sənayesində xüsusi çəkisi enib-qalxmalarla 36,4%-dən 24.3%-ə qədər azalmışdır. Bu onunla əlaqədardır ki, emal sənayesinə yönəldilən investisiyaların həcmi 2005-ci illə müqayisədə 2017-ci ildə 5,6 dəfə, aqroemal sənayesinə yönəldilən investisiyaların həcmi 3,8 dəfə artmışdır. Bu göstəricinin minimal qiyməti

*Cədvəl 1. Sənayedə əsas kapitala yönəldilən investisiyalar (faktiki qiymətlərlə), milyon manat*

| Göstəricilər | 2005 | 2010 | 2011 | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|---|---|---|---|
| **Bütün sənaye** | 4176 | 4276 | 5370 | 7500 | 7640 | 8500 | 9950 | 10610 | 8497,1 |
| **Emal sənayesi** | 115.8 | 510.2 | 847.9 | 888.9 | 644.6 | 483 | 424,3 | 652,6 | 1431,9 |
| Xarici investisiyalar | 35.9 | 1.1 | 0.2 | 0.2 | 0.9 | 16.1 | - | 32,0 | 25,6 |
| Daxili investisiyalar | 79.9 | 509.1 | 847.7 | 888.7 | 643.7 | 467 | 424,3 | 620,6 | 1406,3 |
| Qida məhsullarının istehsalı | 28.00 | 27.10 | 46.50 | 160.80 | 92.40 | 87.90 | 63,6 | 125,5 | 196,6 |
| Xarici investisiyalar | 8.90 | 1.10 | - | - | - | - | - | 32,0 | 16,5 |
| Daxili investisiyalar | 19.00 | 26.00 | 46.50 | 160.80 | 92.40 | 87.90 | 63,6 | 93,5 | 180,1 |
| İçki istehsalı | 3.20 | 12.10 | 41.50 | 16.80 | 14.60 | 23.70 | 4,1 | 26,9 | 39,3 |
| Daxili investisiyalar | 3.20 | 12.10 | 41.50 | 16.80 | 14.60 | 23.70 | 4,1 | 26,9 | 39,3 |
| Tütün məmulat-larının istehsalı | 8.10 | 32.50 | 0.00 | 0.00 | 0.00 | 0.00 | 0,8 | 0,4 | 60,7 |
| Daxili investisiyalar | 8.10 | 32.50 | - | 0.00 | 0.00 | - | 0,8 | 0,4 | 60,7 |
| Toxuculuq sənayesi | 2.10 | 9.80 | 0.20 | 10.40 | 38.80 | 10.20 | - | 5,9 | 42,9 |
| Daxili investisiyalar | 2.10 | 9.80 | 0.20 | 10.40 | 38.80 | 10.20 | - | 5,9 | 42,9 |
| Dəri və dəri mə-mulatlarının, ayaq-qabıların istehsalı | 0.70 | 1.10 | 1.60 | 0.00 | 0.00 | 8.80 | 0,0 | 0,1 | 1,9 |
| Daxili investisiyalar | 0.70 | 1.10 | 1.60 | - | - | 8.80 | 0,0 | 0,1 | 1,9 |
| Cəmi aqroemal | 42.10 | 82.60 | 89.80 | 188.00 | 145.80 | 130.60 | 68,5 | 158,8 | 341,4 |
| Emal sənayesində payı (%) | 36.4 | 16.2 | 10.6 | 21.2 | 22.6 | 27.1 | 16,1 | 24,3 | 23,8 |
| Sənayedə payı (%) | 1.0 | 1.9 | 1.7 | 2.5 | 1.9 | 1.5 | 0,7 | 1,5 | 4,0 |

**Mənbə:** *http://www.stat.gov.az /source/agriculture*

2011-ci ildə 10,6%, maksimal qiyməti 2006-cı ildə 48,7% təşkil etmişdir. 2005-2018-ci illərdə aqroemal müəssisələrinə yönəldilən investisiyaların emal sənayesində xüsusi çəkisinin dinamikası qrafik olaraq şəkil 1-də göstərilmişdir.

***Şəkil 1. Aqroemal müəssisələrinə yönəldilən investisiyaların emal sənayesində xüsusi çəkisi, faizlə***




**Mənbə:** *http://www.stat.gov.az /source/agricult*

2005-2018-ci illərdə aqroemal müəssisələrinə yönəldilən investisiyaların sənayedə xüsusi çəkisi enib-qalxmalarla 1%-dən 1,54%-ə qədər artmışdır. Bu onunla əlaqədardır ki, sənayeyə yönəldilən investisiyaların həcmi 2005-ci illə müqayisədə 2017-ci ildə 2,03 dəfə, aqroemal sənayesinə yönəldilən investisiyaların həcmi 3,1 dəfə artmışdır. Bu göstəricinin minimal qiyməti 2005-ci ildə 1%, maksimal qiyməti 2012-cı ildə 2,79% təşkil etmişdir. 2005-2018-ci illərdə aqroemal müəssisələrinə yönəldilən investisiyaların sənayedə xüsusi çəkisinin dinamikası qrafik olaraq şəkil 2.-də göstərilmişdir.

***Şəkil 2. Aqroemal müəssisələrinə yönəldilən investisiyaların sənayedə xüsusi çəkisi, faizlə***




**Mənbə:** *http://www.stat.gov.az /source/agriculture*

Göstəricilərin təhlilindən aydın görünür ki, digər illərə nisbətən 2018-ci ildə aqroemal müəssisələrinə yönəldilən isvestisiyaların sənayedə xüsusi çəkisi digər illərə nisbətən yüksək olmuşdur. Ümumiyyətlə, aqroemal sənayesində investisiya fəaliyyətinin təşkili və təkmilləş-dirilməsi üçün aşağıdakı təkliflərin icrası vacibdir:

- Mövcud sahənin tədqiqi və SWOT təhlilinin aparılması;
- Layihənin iqtisadi effektivliyinin müəyyən edilməsi;
- Sahənin likvidliyinin təyin edilməsi;
- Strateji planlaşdırma və proqnozlaşdırmanın təşkili;
- Mövcud sahədə marketinq tədqiqatlarının aparılmasının təşkili;
- Mövcud sahədə əsas kapitala yönləndirilən investisiyaların həcminin artırılması;
- Əsas kapitaldan istifadənin səmərəlilik göstəricilərinin yüksəldilməsi.

Bu baxımdan da aqroemal sənayesində innovasiyaların tətbiqi zəruridir və aşağıdakı mərhələlərə əsaslanmalıdır:

- Fundamental tədqiqatlar;

- Tətbiqi tədqiqatlar;
- İşləmələr;
- Layihələndirmə;
- Məhsul vahidinin modelinin hazırlanması;
- Testləşdirmə və sınaq;
- Marketinq və nəzarətin təşkili.

Qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün ən əsası layihə risklərinin təhlili zəruridir. Bunu isə riskləri təyin etmədən, sistemləşdirmədən həyata keçirmək olmaz [1, s. 250]. Qeyd etmək lazımdır ki, aqroemal sektorunda investisya-innovasiya fəaliyyətinin təşkili və təkmilləşdirilməsi istiqamətində atılacaq strateji addımlar sahənin inkişafını təmin etməklə yanaşı, onun rəqabətqabiliyyətinin də yüksəlməsinə təkan verəcəkdir.

## ƏDƏBİYYAT

1. Tağıyev A.H., Aslanzadə İ.A. İnnovasiya menecmenti. Bakı, 2017
2. Azərbaycan Respublikasında "Kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi". 2016
3. Палей Т.Ф. « Инновационный менеджмент». Москва, 2011

## РЕЗЮМЕ

**Эмиль Мирзаев**

### ВОПРОСЫ АНАЛИЗА И СОВЕРШЕНСТВОВАНИЯ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В СЕКТОРЕ АГРОПЕРЕРАБОТКИ

В статье рассматриваются вопросы анализа и совершенствования инвестиционной деятельности в агропромышленном секторе. В статье освещены вопросы анализа и совершенствования инвестиционно-инновационной деятельности в агропромышленном секторе, указаны направления совершенствования деятельности.

## SUMMARY

**Emil Mirzayev**

### ANALYSİS AND İMPROVEMENT OF İNVESTMENT ACTİVİTY İN AGRO-PROCESSİNG SECTOR

The article examines the issues of analysis and improvement of investment activity in the s agro-processing sector. The article describes the issues of analysis and improvement of investment – innovation activity in the processing sector and shows the directions of improvement of its activity

**YUNİS SADIQOV**
*AMEA İqtisadiyyat İnstitutu*
*y.sadikhov@mail.ru*

# AQRAR EMAL SAHƏSİNİN MÖVCUD DURUMU VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *aqrar emal sahəsi, emal müəssisələri, sahibkarlıq, sağlam rəqabət, yol xəritəsi, strateji hədəflər, qeyri-neft sektoru*

***Ключевые слова****: переработка сельхозпродукции, перерабатывающие предприятия, предпринимательство, здоровая конкуренция, дорожная карта развития, стратегические цели, ненефтеной сектор*

***Keys words:*** *agrarian processing, ownership, healthy competition, monopolism, roadmap, strategical targets, non-oil sector*

Aqrar-emal sənayesi (AES) milli iqtisadiyyatın vacib hissəsi kimi kənd təsərrüfatının özünü, xammalın emal edilməsi və kənd təsərrüfatı məhsullarının istehlakçılara çatdırılması ilə məşğul olunan sahələri özündə birləşdirir.

Hazırda kənd təsərrüfatının dayanıqlı inkişafı respublika iqtisadiyyatı üçün ən mühüm məqsədlərdəndir. Bu isə, qısa bir vaxtda neft sektorundan asılılığı aradın qaldırmaq və regionların inkişafının yüksəldilməsinə nail olmağa təkan vermək deməkdir. Kənd təsərrüfatının inkişafının əsas istiqamətlərindən biri bitkiçilik və heyvandarlıq məhsullarının istehsalı ilə bərabər, onların emal edilməsi və son istehlakçıya çatdırılmasıdır. Dövrün tələblərinə cavab olaraq, respublika əhalisinin əsas ərzaq məhsulları ilə nəinki öz daxili tələbatını ödəmək, hətta bəzi məhsullar üzrə ixrac potensialına da malik ola bilər. Lakin aqrar bazarda özünəməxsus problemlər də mövcuddur. Belə ki, kənd təsərrüfatının iqlim şərtlərinin asılılığı, il ərzində qiymətlərin sabitliyi və lazımı ərzaq təklifi həcmində tənzimlənməlidir.

Prezident İlham Əliyev hələ Nazirlər Kabinetinin 2014-cü ildə sosial-iqtisadi inkişafının doqquz aylıq yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı yekun nitqində söyləmişdir- "Azərbaycanda müasir emal müəssisələri yaradılır. Kənd təsərrüfatı məhsullarımız dünya bazarlarına emal edilmiş şəkildə çıxarılır. Bir daha demək istəyirəm ki, hazırda ixrac potensialımızın artırılması üçün çox gözəl imkanlar var. Biz, sadəcə olaraq, gərək əlavə investisiya-larla, sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlərlə ixrac imkanlarımızı daha da artıraq" (1).

Aqrar sektor təbii amillərlə sıx bağlıdır və ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca mənbəyidir. Bu da kənd təsərrüfatı təyinatlı resurslardan səmərəli istifadəyə nail olunması ilə, aqrar-sənaye sahələrini inkişaf etdirməklə kənd təsərrüfatı ilə sənaye arasında etibarlı əlaqələr olması vacibdir və beləliklə ərzaq təminatının formalaşdırılması və bu təminatın əsasını kənd təsərrüfatının inkişaf etdirilməsi aktual problemlərindən biridir.

Son illər respublikada milli iqtisadiyyatın inkişafı əhalinin ərzaq məhsulları ilə təmin edilməsində öz müsbət nəticəsini göstərmişdir. Bu isə ölkədə bazar iqtisadiyyatının yüksəldilməsinə və milli iqtisadiyyatın ayrı-ayrı sahələrində təsərrüfat formaların yaranmasına və inkişafına təkan vermişdir. Bunların nəticəsində aqrar sahədə istehsalın artmasına, bu sahənin daha da inkişaf etdirilməsi üçün müxtəlif Dövlət Proqramları və digər normativ sənəd qəbul edilmişdir. Beləliklə, ölkədə kənd təsərrüfatının inkişaf etdirilməsi aqrar sektorun milli iqtisadiyyatın aparıcı sahələrinə çevrilmişdir. Kənd təsərrüfatının inkişafı həm də əlaqədar sənaye sahələrinin məhsullarının artmasına təkan vermişdir.

Qeyd edək ki, ölkə Prezidentinin müvafiq sərəncamı ilə 2016-cı ildə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" hazırlanmışdır. Bu Strateji Yol Xəritəsində ölkənin kənd təsərrüfatı sahəsinin inkişafı ilə bağlı 2020-ci ilədək strateji baxış, 2025-ci ilədək olan dövr uzunmüddətli baxış, 2025-ci ildən sonrakı dövr üçün hədəf baxış əks olunub ki, bu da kənd təsərrüfatı sahəsində həm orta, həm də uzunmüddətli dövr üzrə strateji inkişaf

hədəflərinə çatmaq üçün dövlətin ardıcıl mərhələlərlə icra ediləcək aydın yol xəritəsinə malik olmasını ifadə edir.

Strateji Yol Xəritəsində kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda həyata keçiriləcək prioritetlərin 2020-ci ildə real ÜDM-in ümumilikdə 1235 milyon manat artıracağı və təxminən 20 min yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Təsirin gerçəkləşdirilməsi üçün isə dövlət-özəl resursları hesabına 1170 milyon manat investisiya qoyuluşu tələb ediləcəyi proqnozlaş-dırılır. Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunda nəzərdə tutulan tədbirlər üzrə 2020-ci ilədək (2015-ci illə müqayisədə) konkret hədəf indikatorları müəyyən edilmişdir.(**2**)

Aqrar emal sahəsinin daha da inkişaf etdirilməsi məqsədilə dövlət tərəfindən investisiya layihələrinin reallaşdırılmasına, güzəştli kreditlərin verilməsinə xüsusi əhəmiyyət verilir və bu istiqamətdə fəaliyyət getdikcə genişlənir. Bu dəstək tədbirlərinə misal olaraq Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına dövlətin güzəştli kreditlərinin verilməsini göstərmək olar

İqtisqd elmləri doktoru, professor İslam İbrahimovun qeyd etdiyi kimi, "...bazar münasibətləri şəraitində emal sənayesinin səmərəli inkişafının mühüm şərti kənd təsərrüfatı məhsullarının ayrı-ayrı növlərinin emalı ilə, onların istehsal gücləri ilə müvafiq xammal bazası arasında zəruri proporsionallığın təmin edilməsidir. Tədqiqat göstərir ki, kənd təsərrüfatı məhsullarının istehsal həcmi ilə yeyinti məhsulları sənayesindəki istehsal gücü arasında nisbət gözlənilmir."(4,s.407).

Məhz buna görə də bəzən kənd təsərrüfatı məhsullarının satışında problemlər yaranır. Bu hal ən çox özünü yun istehsalında göstərir.

Kənd təsərrüfatından alınan xammal, emal sənayesi üçün son məhsulların istehsalında mütəxəssisləşən sahədir. Buraya aşağıdakı sənaye sahəsi, yəni qida, içki, tütün və toxuculuq sənayeləri daxildir. Aşağıdakı cədvəldə emal sənaye məhsullarının 1995-2015 illər ərzində olan istehsal həcmləri göstərilmişdir.

**Cədvəl 1.** *Emal sənaye məhsullarının istehsal həcmi (milyon manatla)*

| | **1995** | **2000** | **2005** | **2010** | **2014** | **2015** | **2016** | **2017** | **2018** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Qida məhsullarının istehsalı | 172.5 | 657.1 | 1094.5 | 1924.6 | 2422.0 | 2307.6 | 2964.7 | 2999.8 | 3050.8 |
| İçki istehsalı | 5.0 | 24.1 | 72.5 | 170.2 | 220.2 | 197.7 | 223.9 | 263.4 | 295.0 |
| Tütün məmulatlarının istehsalı | 7,0 | 17.7 | 30.5 | 22.3 | 24.6 | 27.2 | 41.5 | 39.2 | 56.1 |
| Toxuculuq sənayesi | 148.2 | 24.6 | 34.8 | 29.4 | 49.6 | 31.7 | 96.8 | 182.3 | 248.3 |

**Mənbə:** *Azərbaycan Respublikası Dövlət Statistika komitəsi*

Cədvəl 1-dən göründüyü kimi, ölkədə 2018-ci ildə, 1995-ci ilə nisbətən qida məhsulları istehsalı 17,6 dəfə, içki istehsalı 59 dəfə, tütün məmulatlarının istehsalı 8 dəfə, toxuculuq sənayesi istehsalı 1,7 dəfə artmışdır. [**3**]

Öz növbəsində bu sənaye sahələrinə aşağıdakı alt sahələr daxildir: 1.Ət və süd məhsullarının istehsalı; 2. Balıq məhsullarının istehsalı; 3. Çörək və makaron istehsalı; 4. Şəkər istehsalı; 5.Şirniyyat istehsalı 6. Yağ-piy istehsalı; 7.Spirtli içkilər istehsalı; 8. Alkoqolsuz içkilər istehsalı; 9. Tütün məhsulları istehsalı; 10. Çay istehsalı; 11. Meyvə-tərəvəz konservlərinin istehsalı; 12. Duz istehsalı.

Emal sənayesi aqrar sektorun lokomotividir desək yanılmarıq. Kənd təsərrüfatını inkişaf etdirən, eyni zamanda kənd təsərrüfatı məhsullarını satış bazarı ilə əsasən təmin edən əsas alıcılar məhz emal müəssisələridir. Ölkədə müasir standartlara cavab verən emal müəssisələri vardır, ancaq yetərincə deyil. Məlum məsələdir ki, emal müəssisələrinin mövcud vəziyyəti və inkişafı ölkədə sahibkarlıq mühitindən çox asılıdır. Emal müəssisəsisələrinin yaradılması üçün vəsait qoyan sahibkarlar hər şeydən öncə sağlam rəqabət mühitinin olması, vergi və digər ödəmələrin yükü və nəhayət bazarı təhlil edərək

nəticə çıxarır və nəhayət investisiya qoymaq haqqında qərar verir. Təbii ki, ölkədə mövcud sahibkarlıq mühiti sahibkarı qane etməzsə qərarı mənfi olacaq.

Bu gün ölkədə emal sənayesi müəssisələrinin sayının kənd təsərrüfatı məhsullarının istehsalı ilə uzlaşmaması, daha doğrusu yetərincə olmaması bu sahənin böyük miqdarda investisiyaya ehtiyacı olmağından xəbər verir. Etiraf edək ki, Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yetərincə olmaması və bəzilərinin də müasir tələbatdan geri qalması mövcud məhsul istehsalının artım səviyyəsinin ləngiməsinə, məhsulların müəyyən hissəsinin itkisinə səbəb olur, istehlakçıların çeşidli yerli məhsullarla təminatına mənfi təsir göstərir. Bu baxımdan mövcud imkanların tam reallaşdırılmasına, xüsusilə də sahibkarlıq və rəqabət mühitinin yaxşılaşdırılması, istehsal olunmuş məhsul itkilərinin qarşısının alınmasına, mövcud bioloji potensialdan maksimum istifadə edilməsinə, yalnız kənd təsərrüfatı məhsullarının istehsalı, onların emal vasitəsilə hazır istehlak mallarına çevrilməsi və alıcılara çatdırılması, prosesində bioloji, texniki, və təşkilati – iqtisadi faktorların vahid sistemdə və üzvi şəkildə cəm edilməsi yolu ilə nail olmaq olar.

Kənd təsərrüfatı ölkə sənayesinin müxtəlif sahələrinin, xüsusən də yüngül və yeyinti sənayesi müəssisələrinin xammala olan ehtiyaclarının ödənilməsində mühüm rol oynayır. Ona görə də regionlarda kənd təsərrüfatının davamlı inkişafının təmin edilməsi həm ümumi regional inkişaf və həm də yoxsulluğun aradan qaldırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Çünki bu sahənin inkişafı digər sahələrin tərəqqisinə də güclü təsir imkanlarına malikdir. İqtisadiyyatın digər sahələrindən fərqli olaraq kənd təsərrüfatında başlıca istehsal vasitəsi torpaqdır. Burada istehsal prosesi birbaşa təbii amillərlə qarşılıqlı əlaqədədir və onun nəticəsi təbii-iqlim şəraitindən bilavasitə asılıdır. Ona görə də kənd təsərrüfatında davamlı inkişafa keçidlə davamlı iqtisadi inkişafın əsas şərti olan resurslardan qənaətlə istifadə və təbiətin qorunması da təmin edilir.

Bazar münasibətləri şəraitində aqrar-emal sənayesinin idarə olunmasında dövlətin səmərəli tənzimləmə mexanizminin tətbiqi hər şeydən əvvəl dövlət tənzimləmə prinsiplərinə əməl edilməsini tələb edir. Aqrar-emal sənayesinin ölkədə ərzaq məhsullarının istehsalını əsasən öz daxilində həyata keçirməli, ərzaq təhlükəsizliyinin qarşısını almağa nail olunması əmtəə istehsalçılarının gəlirlərini geniş təkrar istehsalın təmin olunması səviyyəsinə çatdırılması üçün dövlət tərəfindən köməklik göstərilməlidir.

Digər tərəfdən isə aqrar-emal sənayesində elmi-texniki tərəqqinin və mütərəqqi texnologiyaların ən yeni nailiyyətlərindən geniş istifadə olunması və istehsalın səmərəliliyinin yüksəlməsi üçün şəraitin yaradılmasıdır.

Məhsullara olan tələblərin yüksəldilməsinə dövlət məhsullarının səmərəli tədarük sistemini həyata keçirməlidir. Yerli ərzaq məhsullarına olan tələbin artımı həm də onların ixracının stimullaşdırılması vasitəsilə də təmin edilməlidir.

Bu sahədə dövlət tənzimlənməsinin ən mühüm vasitələrindən biri məhsulların dövlət tərəfindən tədarük olunmasıdır. Dövlət mövcud vəziyyəti stabilləşdirmək və qiymətlərinin səviyyəsinə yardım göstərməlidir.

Dövlət tənzimlənməsinin ən mühüm vasitələrindən biri də emal və yeyinti sahələrində istehsalın rentabelliyinin yüksəldilməsinə istiqamətlənmiş məqsədyönlü tədbirlərin görülməsidir. Bu məqsədlə aqrar sahənin inkişafına yönəldilən tədbirlərdən olan istehsal və sosial infrastruktur obyektlərinin və xidmətlərin inkişaf etdirilməsidir.

Bazar münasibətləri şəraitində kənd təsərrüfatı istehsalının idarə olunmasını dövlətin kompleks şəkildə həyata keçirmək yolu ilə tənzimlənməsi və qiymət ən başlıca amilidir. Çünki bazar qiymətləri ilə aqrar-emal sənayesinin məhsulları istehsalçıları bazarın rəqabətinə tab gətirə bilmir.

Aqrar-emal sənayesinin inkişafına yönəldilmiş investisiyaların məbləği artsa da aqrar sahəyə yönəldilən investisiyalar hələ lazımı təşkil olunmur. Bu da bu sahənin iqtisadi problemlərinin tam həllinə imkan vermir.

Aqrar-emal sahədə aparılan islahatların sürətləndirilməsinə baxmayaraq kənd təsərrüfatı xammalı emal edən müəssisələrinin yaradılması, istehsal, emal və satış infrastrukturların yaradılması ayrı-ayrı iqtisadi rayonlar arasında kooperasiya əlaqələrinin təşkili, xidmət bazarlarının formalaşması səviyyəsi hələ də günün tələblərindən geri qalır.

Statistikaya əsasən deyə bilərik ki, 2018-ci ildə ölkədə taxıl istehsalı artaraq 3309,0 min. ton olmuşdur. Ancaq məhsuldarlığa baxanda görürük ki, hər hektardan ölkə üzrə cəmi 30 sentner olmuşdur. Əlbəttə, bu aşağı bir rəqəmdir. Təkcə bu iki rəqəmdən nəticə çıxarmaq olar ki, taxıl istehsalının artımına heç də intensiv üsullarla nail olunmamışdır. Məhz vaxtilə texniki bitkilərin əkildiyi torpaqların (üzüm, tütün, pambıq və s.) hazırda çarəsizlikdən dənli bitkilər altına verilməsi heç də aqrar inkişafdan xəbər vermir. Qafqaz dağlarının cənub ətəklərində yerləşən münbit torpaqlarda texniki bitkilər əvəzinə taxıl bitkiləri əkilməsi fikrimizcə səmərəsiz bir haldır. Eyni zamanda taxıl əkinində subsidiyaların hektara görə verilməsi və məhsuldarlığın hec nəzərə alınmaması ölkədə məhsuldarlığın aşağı düşmə səbəblərindən biri olmuşdur.

Üzümçülüyün və tütünçülüyün bərpası, bu məhsullara uyğun emal müəssisələrinin yaradılması və nəhayət şərab və tütün məhsulları üçün ənənəvi bazarların yenidən ələ alınması bu torpaqların səmərəliliyini qat-qat artırardı.

Vaxtilə Sovetlər dövründə Bakı tütün fabrikinin tütünlə təminatı ancaq yerli xammal hesabına idi. İsmayıllı, Qəbələ, Şəki-Zakatala zonasında minlərlə ailə tütünçülük ilə məşğul idi. Sonradan, müstəqillik dövründə həmin fabrik özəlləşdirildi, rekonstruksiya olundu. Hazırda EVROPEAN TABAK müəssisəsi demək olar ki, yerli xammaldan imtina etməklə başqa ölkələrdən xammal əldə etməyə başladı. Hansı ki, Azərbaycanda vaxtilə 65000 ton dünyada yüksək keyfiyyətli sort sayılan "Virciniya" tütün sortu istehsal olunurdu. və bunu davam etdirmək olardı. Təəssüf ki, alıcı olmadığında ölkədə tütün istehsalı dəfələrlə aşağı düşdü və həmin torpaqlar dənli bitkilər altına verildi.

Eyni vəziyyəti üzümçülüyə də aid etmək olar. Vaxtilə Azərbaycan şərabı qonşu Rusiya bazarında önəmli yer tuturdu. Doğrudur o vaxtlar bir ölkə sayılırdıq və planlı iqtisadiyyat bazarı həll edirdi. Ancaq hər dövrün öz tələbləri vardır. Bu gün Rusiya bazarında yer tutmaq üçün 2 əsas amil- qiymət və keyfiyyət əsasdır. Başqa amillər də rol oynayır. Məsələn dövlətlərarası münasibətlər. 2008-ci ildə Rusiya ilə Gürcüstan arasında münasibətlər böhran həddinə catdı və Rusiya tərəfindən Gürcüstandan idxal olunan bütün məhsullara o cümlədən həmişə Rusiya bazarında ənənəvi yer tutan Gürcüstan şərabına embarqo qoyuldu. Qısa müddətdə Rusiya bazarında kicik boşluq yarandı və çox təəssüf ki, Azərbaycan bu tarixi şəraitdən istifadə edərək yararlana bilmədi.

Bütün bunları nəzərə alaraq fikirlərimizi aşağıdakı təkliflərlə yekunlaşdırmaq istəyirəm.

Kənd təsərrüfatı məhsullarının emalı sahəsində prioritet istiqamətlərinin dəstəklənməsi və aqrar - emal komplekslərinin yaradılmasına və struktur dəyişikliklərinə yardım edilməsi öndə duran məsələdir. Hazırda üzümçülük və tütünçülük məhsullarının bazarı cox zəifdir. Buna görə də fermerlər üzüm və tütün istehsalı ilə lazımınca məşğul ola bilmirlər. Lazımdır ki, şərab zavodları, tütün fermentasiya kombinatları və siqaret istehsal edən müəssisələr artırılsın. Bunun ücün Sahibkarlığa Kömək Milli Fondundan ayrılmış güzəştli kreditlərin böyük hissəsi (60-70%-i) bu sahə ilə məşğul olan sahibkarlara verilməlidir. Əgər respublikamız ücün müasir orta ölcülü emal müəssisələrinin başa gəlmə qiymətini 5-10 milyon dollarla hesablasaq, bu təxminən Sahibkarlığa Kömək Milli fondu tərəfindən ildə 20-yə yaxın emal müəssisəsinin istifadəyə verilməsi ücün kreditləşməsi demək olardı ki, bu da ölkənin aqrar–sənaye sahəsində cox böyük canlanmaya səbəb olardı. Eyni zamanda bu sahəyə verilən kreditlərin illik faiz dərəcələri 6 %-dən 4%-ə endirilməli, güzəşt müddəti uzadılmalıdır və kreditin təminatı şərtləri yumşaldılmalı, bir sözlə regionlarda fəaliyyət göstərən sahibkarlar ücün əlçatan olmalıdır.

Müəyyən zaman daxilində movcud emal müəssisələrinin xammal bazarları elə tənzimlənməlidir ki, sahibkarlar yerli xammala üstünlük versinlər. Daxili xammal bazarı qorunmalıdır. Mövcud emal müəssisələri, yəni sahibkar-oliqarxlar yerli məhsulların satın alınmasında çox da maraqlı görsənmirlər. Kənardan (daha çox İran) daha ucuz başa gələn kənd təsərrüfatı məhsullarına meyl göstərirlər. Buna tütün,şəkər çuğunduru, meyvə və sair, misal göstərmək olar ki, bu məhsulların istehsalına respublikamızda çox böyük imkanlar var. Ona görə də kənd təsərrüfatı məhsullarının daxili bazarı dövlət tərəfindən tənzimlənməsi məsələsi həll edilməlidir. Belə ki, hər hansı məhsul respublikamızda yetişdirilirsə o zaman həmin məhsulların emal müəssisələri tərəfindən kənardan gətirilirsə ona gömrük taarifləri artırılmalı və yaxud hər hansı məhsul ölkədə istehsal olunmursa və ölkənin təbii iqlim şəraiti buna imkan vermirsə ona kömrük taarifləri çox aşağı salınmalıdır. Fikrimcə tənzimlənmə prosesi müəyyən zaman

daxilində xammal bazarı tam formalaşanadək davam etməlidir. Eyni zamanda dövlət satınalmaları yerli məhsullara üstünlük verməklə yanaşı, istisnasız olaraq açıq hərraclar vasitəsilə və şəffaf qaydada həyata keçirilməlidir.

Texniki bitkilərin və üzümün səmərəliliyi dənli bitkilərə nisbətən qat-qat çoxdur. Vaxtilə SSRİ dövründə olan üzüm və texniki bitkilərin əkin sahələrinin məhz dənli bitkilər hesabına yenidən bərpa etmək daha səmərəli olardı. Keçən əsrin 70-80-ci illərində inkişafının pik nöqtəsini yaşamış Azərbaycan şərabının şöhrətinin yenidən özünə qaytarılarsa bu ölkəyə çoxlu valyuta axınına səbəb olar. Bunun üçün ölkədə hər bir şərait var.

## ƏDƏBİYYAT

1. www.president.az
2. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalına dair Strateji Yol Xəritəsi"
3. Azərbaycan Respublikası Statistika komitəsinin Kənd təsərrüfatı məhsulları istehsalına dair 2018 ilin yekun hesabatları.
4. İbrahimov İ.H. Aqrar sahənin iqtisadiyyatı (Monoqrafiya). Bakı: 2016, 655 s.

## РЕЗЮМЕ

**Юунис Садыгов**

### ТЕКУЩАЯ СИТУАЦИЯ В АГРОПЕРЕРАБАТЫВАЮЩЕМ СЕКТОРЕ И НАПРАВЛЕНИЕ ЕГО РАЗВИТИЯ

Цель исследования: В статье проанализированo текущее состояние агроперерабатывающей отрасли, выявлены проблемы в этой области и выдвинуты предложения для приведения развития отрасли в соответствие с современными требованиями.

Методология: наблюдение, сравнение, классификация, анализ.

Результаты исследования: Определены приоритетные направления обеспечения устойчивого и эффективного развития агроперерабатывающей отрасли.

## SUMMARY

**Yunis Sadıqov**

### THE CURRENT SITUATION IN AGRARIAN PROCESSING SECTOR AND ITS DEVELOPMENT DIRECTIONS

Purpose of the research: - in the article the current status of agro processing sector is analyzed, the problems in this area are identified and proposals to bring the development of the industry in line with modern requirements are put forward.

Methodology of the research: Observation, comparison, statistical grouping, analytical analysis.

Results of the research: priorities for sustainable and effective development of agro processing sector are identified.

**RƏMZİ ABDULLAYEV**
*AMEA İqtisadiyyat İnstitutu*
*ramziabdullayev1985@gmail.com*

# İQTİSADİYYATIN DAVAMLI İNKİŞAFINDA ƏRZAQ TƏHLÜKƏSİZLİYİ MƏSƏLƏLƏRİ *(QLOBAL ƏRZAQ TƏHLÜKƏSİZLİYİ İNDEKSİ ƏSASINDA)*

***Açar sözlər****: ərzaq təhlükəsizliyi indeksi, orta ərzaq təklifi, aqrar tədqiqat və işləmələr, kənd təsərrüfatı infrastrukturu*
***Ключевые слова:*** *индекс продовольственной безопасности, средний запас продовольствия, аграрные исследования и разработки, сельскохозяйственная инфраструктура и др.*
***Key words:*** *food security index, average food supply, agrarian research and development, agricultural infrastructure, etc.*

Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi Economist Intelligence Unit tərəfindən layihələndirilmiş və qurulmuş və Corteva Agriscience tərəfindən maliyyələşdirilmişdir. The Economist Intelligence Unit məlumatların toplanması, analizi və proqnozlaşdırılması daxil olmaqla, bütün məzmuna dair tam və son redaktə nəzarətini həyata keçirir. Economist Intelligence Unit beynəlxalq biznes və dünyəvi məsələlər üzrə qabaqcıl təhlil mənbəyi olan Ekonomist Qrupunun bir hissəsidir. 1946-cı ildə The Economist qəzeti üçün daxili bir araşdırma vahidi olaraq qurulmuşdur, dünyanın aparıcı şirkətlərindən, maliyyə qurumlarından, hökumətlərdən və universitetlərdən 1,5 milyondan çox qərar qəbul edənlərə biznes zəkası, proqnozlaşdırılması və tövsiyə verməkdədir. Bu indeks Economist Intelligence Unit-in ictimai siyasət təcrübəsi ilə yaradılmışdır.

Ərzaq təhlükəsizliyi hər zaman insanların sağlam və aktiv həyatları üçün olduqca vacibdir. Ərzaq təhlükəsizliyinin səviyyəsi hökumətin də bu sahədə nə qədər aktiv iqtisadi siyasət yürüt düyündən xəbər verir. Bu baxımdan "Ərzaq təhlükəsizliyi" dedikdə müəyyən edilmiş keyfiyyət standartları çərçivəsində əhalinin əsas ərzaq məhsullarına olan tələbatının fasiləsiz, uzunmüddətli və dayanaqlı şəkildə ödənilməsini təmin edən tədbirlər kompleksi nəzərdə tutulur. Müşahidələr təsdiqləyir ki, ərzaq təhlükəsizliyi o qədər aktualdır ki, artıq onun hesablanması üzrə beynəlxalq təşkilatlarda xüsusi yanaşmalar mövcuddur. Onlardan biri də qlobal ərzaq təhlükəsizliyi indeksidir (**Global Food Security Index**). Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi 1996-cı ildə Dünya Ərzaq Sammitindən sonra 113 ölkədən ibarət olan ölkələr qrupu üzrə ərzaq məhsullarının mövcudluğu və yetərliliyi, keyfiyyəti kimi əsas məsələləri nəzərdən keçirir. İndeks həm inkişaf etməkdə olan, həm də inkişaf etmiş ölkələrdəki ərzaq təhlükəsizliyinin 26 göstəricisi əsasında kəmiyyət və keyfiyyət balı kimi müəyyən edilir. Tədqiqat üzrə ən yüksək bal 100 (yüz) baldır. Tədqiqatın ümumi məqsədi ölkələrə əlverişliliyi, mövcudluğu, keyfiyyəti və təhlükəsizliyi ilə ərzaq təhlükəsizliyinə ən az və daha az həssas olanları qiymətləndirməkdir.

**Qlobal Ərzaq Təhlükəsizliyi İndeksinin hesablanmasının metodoloji əsası**

Qlobal ərzaq təhlükəsizliyi indeksi (GFSI) hesablanmasının məqsədi ölkə səviyyəsində ərzaq təhlükəsizliyi istiqamətində irəliləyişləri müəyyən etməkdir. GFSI-nın konseptual çərçivəsi ərzaq təhlükəsizliyinin müəyyənləşdirilməsi üç ölçülü indikator əsasında, lakin 2017-ci ildən sonra 4 ölçülü indikator əsasında həyata keçirilir **(1, s.35).**

- Əlçatanlıq (affordability);
- Mövcudluq (availability);
- Keyfiyyət və təhlükəsizlik (quality and safety);
- Təbii ehtiyatlar və davamlılıq (natural resources and resilience).

Göstərilən ilk üç meyar üzrə 26 indikatordan istifadə edilir ki, əlçatanlıq üzrə (6göstərici), mövcudluq (8 göstərici), keyfiyyət və təhlükəsizlik (5 göstərici), təbii ehtiyatlar və davamlılıq (7 göstərici) istifadə edilir. Bu məlumatları əldə etmək üçün və ya qlobal ərzaq təhlükəsizliyinin mənbəyi kimi (*Economist Intelligence Unit* (*EİU*), Dünya Bankı (DB), Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO), Dünya Ərzaq Proqramı (WFP) və Dünya Ticarət Təşkilatının (DTT) göstəriciləri və

məlumatlarından istifadə olunur. GFSI-yə daxil olan fərdi göstəricilər və onların yekun hesabında çəkisi isə akademik, qeyri-kommersiya sektorlardan gələn ekspert qrupu tərəfindən qərar əsasında verilir. Qlobal ərzaq təhlükəsizliyi indeksinin qeyd edilən 26 göstəricisindən 19 iqtisadi intelektual birliyinin mütəxəssisləri tərəfindən məsləhətləşmələr əsasında doldurulur. Həmçinin hesablanma zamanı istifadə edilən kəmiyyət göstəriciləri milli və beynəlxalq statistik təşkilatların kəmiyyət göstəricilərinə, keyfiyyət göstəriciləri isə bir sıra inkişaf bankları və hökumət saytlarının məlumatları, bir sıra sorğular və məlumat mənbələrindən istifadəyə əsaslanır. Beləliklə də, qeyd edilənləri nəzərə alaraq qlobal ərzaq təhlükəsizliyi indeksi üçün 2018-ci ildə Azərbaycan üçün hesablanan göstəricilər aşağıdakı kimi olmuşdur (Cədvəl 1).

**Cədvəl 1.** *Qlobal ərzaq təhlükəsizliyi indeksinin hesablanması üçün istifadə olunan göstəricilər bazası*

| | | | |
|---|---|---|---|
| Mövcudluq (availability) | **2.1** | **Təklifin yetərliliyi** | EİU-nin balı |
| | 2.1.1 | Orta ərzaq təklifi (73.33%) | FAO |
| | 2.1.2 | Xroniki ərzaq məhsullarından asılılıq (26,67%) | WFP |
| | **2.2** | **Aqrar tədqiqat və işləmələrə dövlət xərcləri** | EİU-nin hesablamaları |
| | **2.3** | **Kənd təsərrüfatı infrastrukturu** | EİU-nin verdiyi bal |
| | 2.3.1 | Məhsul saxlama anbarlarının mövcudluğu (22,2%) | EİU-nin kəmiyyət balı |
| | 2.3.2 | Yol infrastrukturu (40,74%) | EİU-nin Risk brifinqi əsasında |
| | 2.3.3 | Liman infrastrukturu (37.04%) | EİU-nin Risk brifinqi əsasında |
| | **2.4** | **Aqrar istehsalın volatilliyi** | FAO |
| | **2.5** | **Siyasi sabitlik riski** | EİU-nin Risk brifinqi əsasında |
| | **2.6** | **Korrupsiya** | EİU-nin Risk brifinqi əsasında |
| | **2.7** | **Şəhərlərin absorbsiya potenseialı** | DB, WFP |
| | **2.8** | **Ərzaq itkisi** | FAO |

**Mənbə:** (2, s.11)

İlk növbədə göstərilən bu nəzəri metodoloji bazaya dair bəzi müsbət və mənfi fikirlərimi bildirmək istərdim. Müsbət məqamlar kimi aşağıdakıları demək olar:

1. Hesablanma üçün zəruri olan və müəyyən qədər mürəkkəb olan göstəricilər ümumiləşdirilmişdir;
2. Hesablanan bu indikatorların əsas elementlərini şərh etmək mümkündür;
3. Zamana uyğun olaraq, ölkələrin inkişafını qiymətləndirmək olur.

Mənfi məqam kimi isə aşağıdakıları demək olar:

1. Nəticələr siyasi müzakirələrə səbəb ola bilər;
2. Seçilmiş göstəricilər və onların xüsusi çəkiləri mübahisə doğura bilər.

**2018-cı ildə dörd əsas göstəriciyə görə Azərbaycanın reytinqi**

İlk növbədə bildirək ki, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə çevik və effektiv qərarlar real vəziyyətin obyektiv məlumatlar əsasında qiymətləndirilməsi, mövcud və gələcəkdə baş verə biləcək problemlərin aşkarlanması və aradan qaldırılması üçün qısa, orta və uzunmüddətli tədbirlərin müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Qeyd edilən problemlərin həlli istiqamətində tədbirlərin müəyyənləşdirilməsi və qərar qəbul edilməsi prosesinin effektivliyinin artırılması üçün ərzaq təhlükəsizliyi üzrə etibarlı informasiya və monitorinq sistemi formalaşdırılması istiqamətində ciddi işlər gedir. Bu barədə Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsinin 52-si səhifəsində xüsusi vurğulanır.

Cədvəl 2-nin məlumatları göstərir ki, 113 ölkə üzrə əlçatanlıq orta hesabla bal 56,3 olduğu halda, bu göstərici ölkəmizdə 61 bal, mövcudluq üzrə orta hesabla bal 60,3 olduğu halda, bu göstərici ölkəmizdə 61 olmuşdur. Təəssüflə qeyd etməliyik ki, digər iki göstərici keyfiyyət və təhlükəsizlik üzrə orta hesabla bal 58,2 olduğu halda, bu göstərici ölkəmizdə 43,4 bal, təbii ehtiyatlar və davamlılıq üzrə orta göstərici 66,3 bal olduğu üzrə, bu göstərici ölkəmizdə 57,6 bal olmuşdur.

**Cədvəl 2.** ***2018-ci ildə dörd əsas göstəriciyə görə Azərbaycanın reytinqi***

| **Göstəricilər** | Aldığı bal | Ranq | Orta göstərici |
|---|---|---|---|
| Əlçatanlıq (affordability) | 61 | 54 | 56,3 |
| Mövcudluq (availability) | 61 | 51 | 60,3 |
| Keyfiyyət və təhlükəsizlik (quality and safety) | 43,4 | 86 | 58,2 |
| Təbii ehtiyatlar və davamlılıq | 57.6 | 75 | 66,3 |

**Mənbə:** https://foodsecurityindex.eiu.com və (2,s. 36)

Qeyd edilən indikatorların reallığı nə qədər əks etdirdiyini müəyyənləşdirmək üçün onun metodoloji əsaslarına da nəzər salmaq zəruridir. Təbii ki, qlobal ərzaq təhlükəsizliyi indeksinin hesablanmasının müəyyən bir metodologiyası vardır. Həmin metodologiyaya nəzər salmaq məqsədəuyğun olardı. Bizim tədqiqatımız üçün istifadə edilən indikatorlar və sub- indikatorlar mövcudluq indikatorunu və onun sub-indikatorlarını əhatə edir ki, qeyd edilən indikator üzrə də aşağıdakılar daxildir:

**Cədvəl 3.** ***Qlobal ərzaq təhlükəsizliyi indeksi üzrə Azərbaycanın aldığı bal***

| Göstəricilər | Aldığı bal | Ranq | Orta göstərici |
|---|---|---|---|
| 2.1) Sufficiency of supply (**Təklifin yetərliliyi)** | 77.2 | 35 | 56.8 |
| 2.2) Public expenditure on agricultural R&D **(Aqrar tədqiqat və işləmələrə dövlət xərcləri)** | 0.0 | 62 | 15.6 |
| 2.3) Agricultral infrastructure (**Kənd təsərrüfatı infrastrukturu** ) | 61.1 | 44 | 58.7 |
| 2.4) Volatility of agricultural production **(Aqrar istehsalın volatilliyi)** | 94.3 | 32 | 86.4 |
| 2.5) Political stability risk (**siyasi sabitlik riski)** | 17.6 | 100 | 46.8 |
| 2.6) Corruption (**Korrupsiya**) | 25.0 | 49 | 37.6 |
| 2.7) Urban absorption capacity (**Şəhərlərin absorbsiya potenseialı)** | 62.8 | 104 | 76.9 |
| 2.8) Food loss (**Ərzaq itkisi)** | 95,3 | 15 | 84,9 |

**Mənbə:** https://foodsecurityindex.eiu.com və (2, s. 39)

Təchizatın yetərli olması üzrə 113 ölkənin orta göstərici balı 56,8 baldır, lakin ölkəmizin aldığı bal 77,2 bal, kənd təsərrüfatının tədqiqatı və inkişafı üçün dövlət xərcləri üzrə orta göstərici 15,6 baldır, lakin ölkəmizin aldığı bal 0 bal, kənd təsərrüfatı istehsalının dəyişkənliyi üzrə orta göstərici 86,4 baldır, lakin ölkəmizin aldığı bal 94,3 bal, şəhərə çəkiləmə qabiliyyəti 76,9 baldır, lakin ölkəmizin aldığı bal 62,28 bal, ərzaq itkisi üzrə orta göstərici 84,9 baldır, lakin ölkəmizin aldığı bal 95,3 baldır. Mövcudluq sub-indeksinin indikatorları olan kənd təsərrüfatı infrastrukturu, siyasi sabitlik riski və korrupsiya üzərində xüsusi dayanmaq istərdim.

**Mövcudluq** - keyfiyyət və kəmiyyət baxımından yararlı və sağlamlıq üçün təhlükəsiz olan ərzaq məhsullarının hazır olması, ölkə səviyyəsində ərzaq mövcudluğu ehtiyatlar, idxal, humanitar yardımlar və yerli istehsaldan əldə edilən məhsulları özündə əks etdirir.

Bildirmək istərdim ki, kənd təsərrüfatı infrastrukturu üzrə indikator özü də üç subindikatorlardan ibarətdir ki, bunlar da aşağıdakılardır:

- Məhsulun saxlanması üçün yetərli obyektlərin sayı (22,2%);
- Yol infrastrukturu (40,74%);
- Liman infrastrukturu (37.04%).

Tədqiqata daxil olan bütün indikator və sub-indikatorların hesablanması Economist Intelligence Unit-in ekspertlərinin Risk brifinqi əsasında qiymətləndirməsinə əsaslanır.

Cədvəl 4-ün məlumatları göstərir ki, ölkəmizdə kənd təsərrüfatının infrastrukturu üzrə orta bal 58,7 olduğu halda, 61,1 bal almaqla yaxşı səviyyədə - 113 ölkə arasında 44-cü pillədə, korrupsiya üzrə orta bal 37,6 olduğu halda, 25 bal almaqla yaxşı səviyyədə qərarlaşmışdır.

**Cədvəl 4.** ***2018-ci ildə müvafiq göstəricilərə görə Azərbaycanın reytinqi***

| | № | Göstərici | Bal | Rank | Orta göstərici |
|---|---|---|---|---|---|
| | 2.3 | Kənd təsərrüfatı infrastrukturu | 61.1 | 44 | 58.7 |
| | 2.5 | Siyasi sabitlik riski | 17.6 | 100 | 46.8 |
| | 2.6 | Korrupsiya | 25.0 | 49 | 37.6 |
| ÇOX YAXŞI | YAXŞI | ORTA | ZƏIF | | |

**Mənbə:** *https://foodsecurityindex.eiu.com*

GFSI-nin metodologiyasına əsasən kənd təsərrüfatı infrastrukturunun sub-indeksləri kimi məhsulun saxlanması üçün yetərli obyektlərin sayı, yol infrastrukturu və liman infrastrukturu çıxış edir. Bu baxımdan 2012-2018-ci illər üzrə həmin göstəricilərə nəzər saldıqda aydın olur ki, 2012-2013-cü illərdə yol infrastrukturunda zəif xarakterizə olunsa da, sonrakı illərdə (2014-2018-ci illər) 100 baldan 50-yə layiq olduğu görünür ki, bu da ölkəmizdə kənd təsərrüfatı infrastrukturunun yaxşı səviyyədə olduğunu göstərir. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsinidə Yeni Bakı Limanı rəqabətqabiliyyətli liman qovşağı üçün tələb olunan üç əsas amili özündə birləşdirməsi qeyd edilir (3. s.28).

- Səmərəlilik;
- Əlverişli mövqe;
- Əlavə dəyər yaradan xidmətlər.

GFSI-nin ekspertləri təsdiqləyir ki, təkcə siyasi mühit deyil, eyni zamanda ölkədə korrupsiyanın vəziyyəti də kənd təsərrüfatına investisiya qoyuluşları üçün önəmlidir. GFSI-nin 2012-2018-ci illərdə Azərbaycan üçün siyasi sabitlik və korrupsiya üzrə verdiyi ballara nəzər yetirdikdə aydın olur ki, ölkəmizdə qeyd edilən bu iki meyarlar üzrə 100 mümkün baldan 17,6 bal toplayaraq 113 ölkə arasında 100 yerdə olduğunu göstərilmişdir.

Ümumiyyətlə, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından kənd təsərrüfatının infrastrukturu, siyasi sabitlik riski və korrupsiyanın oxşar ölkələrdə və eləcə də inkişaf etmiş ölkələrdə necə xarakterizə olunmasına nəzər salaq:

***Cədvəl 5. 2018-ci il üzrə bəzi ölkələrdə müvafiq göstərici üzrə balların müqayisəsi***

| Göstərici | Bal | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Azərbaycan | Türkiyə | Belarus | Belçika | Almaniya | İsrail | Qazaxıstan | Rusiya | Ukrayna | Özbəkistan |
| Kənd təsərrüfatı infrastrukturu | 61.1 | 61.1 | 41.7 | 89.8 | 89.8 | 61.1 | 51.9 | 50.9 | 41.7 | 32.4 |
| Siyasi sabitlik riski | 17.6 | 23.5 | 29.4 | 70.6 | 82.4 | 52.9 | 23.5 | 35.3 | 11.8 | 29.4 |
| Korrupsiya | 25.0 | 25.0 | 50.0 | 75.0 | 75.0 | 50.0 | 25.0 | 0.0 | 0.0 | 0.0 |

**Mənbə:** *https://foodsecurityindex.eiu.com*

**Cədvəl №6.** ***2018-ci il üzrə bəzi ölkələrin müvafiq göstərici üzrə ranqları***

| Göstərici | Ranq | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Azərbaycan | Türkiyə | Belarus | Belçika | Almaniya | İsrail | Qazaxıstan | Rusiya | Ukrayna | Özbəkstan |
| Kənd təsərrüfatı infrastrukturu | 44 | 44 | 41.7 | 11 | 11 | 44 | 60 | 62 | 78 | 94 |
| Siyasi sabitlik riski | 100 | 94 | 29.4 | 18 | 5 | 38 | 94 | 71 | 107 | 80 |
| Korrupsiya | 49 | 49 | 24 | 11 | 11 | 24 | 49 | 90 | 90 | 90 |

**Mənbə:** *https://foodsecurityindex.eiu.com*

Cədvəl 4-ün məlumatları göstərir ki, Azərbaycanın kənd təsərrüfatı infrastrukturu üzrə aldığı bal Türkiyə və İsrailin aldığı balla eyni səviyyəddir. Həmçinin kənd təsərrüfatı infrastrukturu üzrə vəziyyətə görə isə Belarusiya, Qazaxıstan, Rusiya, Ukrayna və Özbəkistandan öndə olduğu görünür. Siyasi sabitlik baxımından isə ən pis vəziyyət 11,8 bal toplayan Ukraynadadır. Siyasi stabillik riskinə görə ölkəmiz təkcə Ukraynadan yaxşı vəziyyətdədir. Bununla belə, Türkiyə, Qazaxıstan və Özbəkstan nisbətən yaxın ölkələrdir. Korrupsiya ilə bağlı Rusiya, Ukrayna və Özbəkstanla bağlı məlumatlar olmasa da, ölkəmizin aldığı bal Türkiyə və Qazaxıstanla eyni həddədir. Müqayisə olunan ölkələrin göstərilən bu üç meyar üzrə reytinqinin də müəyyən olunması məqsədəmüvafiqdir.

Kənd təsərrüfatının infrastrukturu üzrə ən yaxşı vəziyyət Belçika və Almaniyada müşahidə olunduğu halda, ən pis vəziyyət isə Özbəkistan və Ukraynada olduğu müşahidə edilir. Korrupsiya baxımından ranqlaşdırmada isə Azərbaycan, Türkiyə, Qazaxıstan eyni səviyyədə, Rusiya, Ukrayna və Özbəkistanda isə vəziyyət daha da pis olduğu görünür.

## ƏDƏBİYYAT

1. EIU Global Food Security Index – 2018 p 49
2. The use of the Global Food Security Index to inform the situation in food insecure countries- 2017. p. 60
3. Strateji Yol Xəritəsi
4. https://foodsecurityindex.eiu.com

## РЕЗЮМЕ

**Рамзи Абдуллаев**

## ПРОБЛЕМЫ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ В УСТОЙЧИВОМ ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ (НА ОСНОВЕ ГЛОБАЛЬНОГО ИНДЕКСА ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ)

Анализ показывает, что в 2018 году мировые индексы продовольственного индекса Азербайджана выросли на 0,4 пункта или на положительную динамику. Положительная динамика наблюдалась в отношении доли потребления продуктов питания в расходах домохозяйств, вариабельности сельскохозяйственного производства, потенциала городского поглощения, разнообразия рациона питания и показателей качества белка. Произошло снижение импортных тарифов на сельское хозяйство. Другие индексы не показали положительной динамики. Кроме того, согласно оценкам международной организации, наша оценка аграрной инфраструктуры составила 61,1, что указывает на то, что индекс аграрной инфраструктуры занял 44-е место из 113 стран мира с 49 баллами по индексу коррупции. Положение нашей страны по этим двум показателям хорошо оценено для их оценки по 4 критериям (очень хорошо, хорошо, средне, слабо).

## SUMMARY

**Ramzi Abdullayev**

## PROBLEMS OF FOOD SECURITY IN SUSTAINABLE ECONOMIC DEVELOPMENT (BASED ON THE GLOBAL FOOD SECURITY INDEX)

The analysis shows that in 2018, Azerbaijan's global food index scores were up 0.4 points or positive dynamics. Positive dynamics was observed for the share of food consumption in household expenditures, variability in agricultural production, potential for urban absorption, dietary diversity and protein quality indicators. There was a decline in import tariffs on agriculture. The other indexes did not show any positive dynamics. Also, according to the estimates of the international organization, our agrarian infrastructure score was 61.1, which indicates that the agrarian infrastructure index was ranked 44th out of 113 countries in the world, with 49 points for corruption index. The position of our country on these two indicators is well assessed for their assessment based on 4 criteria (very good, good, average, weak).

**TEYMUR MEHDİYEV**
*AMEA İqtisadiyyat İnstitutu*
*E-mail:tm@bts-int.com*

# MÜASİR DİSTRİBÜTER FƏALİYYƏTİNİN ƏSASLARI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *iqtisadi inkişaf, distribüter, biznes fəaliyyəti, istehsalçı və istehlakçı*
***Ключевые слова:*** *экономическое развитие, дистрибьютор, бизнес-деятельность, производитель и потребитель.*
***Key words:*** *economic development, distributor, business activity, producer and consumer.*

## Distribüter fəaliyyəti və onun inkişafı

Müasir dünyada bu və ya digər məhsulun istehsalı ilə məşğul olan şirkətlərin öz aralarında rəqabət aparması təbii haldır. İlkin olaraq, rəqabət istehlakçıya ən səmərəli şəkildə ehtiyaclarını təmin edəcək bir mal təklif etməkdən ibarətdir. Beləliklə, şirkətin əsas vəzifəsi məhsul şəklində rəqabət üstünlüyünün yaradılması ilə çıxış edir. Rəqabətin inkişafının təbii mərhələsi məhsulların fərqləndirilməsi olmuşdur. Şirkətlər məhsullarını modernləşdirməyə çalışmış, çeşidlərini genişləndirmişlər. Lakin eyni zamanda, yeni məhsulu ilk dəfə bazara çıxaran şirkət yalnız müvəqqəti olaraq bu rəqabət üstünlüyünə malik olur, çünki bazarın digər iştirakçıları bu məhsulun modifikasiyalarını tez bir zamanda qəbul edirlər. Belə vəziyyət istənilən bazarda, istər avtomobil bazarında, istərsə də bank xidmətləri bazarında tez-tez müşahidə olunur.

Müasir dövrdə şirkətlər öz rəqabət üstünlüyünü qoruyub saxlamaq üçün nəinki innovasiya məhsuluna, həm də effektiv satış sisteminə malik olmalıdırlar. Hazırda ən effektiv satış sistemlərindən birini distribüter fəaliyyəti (şirkəti) təşkil edir. İstehsalçı şirkətin rəqabət üstünlüklərindən biri məhsulların satışı ilə bağlı xərclərin azaldılmasıdır. Məhz distribüter şirkəti bu xərcləri optimallaşdırmağa imkan verir və bu baxımdan o öz vacib mövqeyi ilə bazara təsir göstərir (1, s.89). Effektiv satış sistemi istehsal prosesindən daha az əhəmiyyətli olmayan bir prosesdir. Əvvəllər istehsalçı şirkətlər bütün bazarı əhatə edən çoxsəviyyəli malların paylanması sistemlərindən istifadə edirdilər. Bununla yanaşı, satış şöbələrinin təşkili və onların fəaliyyəti, anbar və nəqliyyat xərcləri və s. üçün əhəmiyyətli xərclər ayırmaq məcburiyyətində qaldılar. Buna görə də istehsalçılar məhsulun istehlakçıya çatdırılması ilə bağlı əməliyyatların autsorsinqə verilməsi üçün ixtisaslaşmış distribüter şirkətlərə həvalə etməyi qərara almışlar. Əksər ölkələrin iqtisadiyyatında distributorluq və distribüter fəaliyyəti anlayışları nisbətən yeni olduğundan, onların mahiyyəti və konsepsiyası araşdırılmaqdadır. Hər bir şirkət öz funksiyalarını yerinə yetirərkən aşağıdakı məqsədləri nəzərdə tutmalıdır:

- Distribüter vasitəsilə xərclərin optimallaşdırılması;
- İstehsalçı ilə istehlakçı arasında informasiya kanallarının inkişafı;
- İstehlakçıların logistika xidməti ilə təmin edilməsi ilə bağlı problemlərin həlli;
- Distribüter vasitəsilə əsas və sosial müştərilər üçün güzəştlərin verilməsi;
- Dövrün yekunlarına görə müxtəlif göstəricilərin yerinə yetirilməsinə görə bonusların ödənilməsi (satış planı, marketinq planı və s.).

İnkişaf etmiş ölkələrdə distributor şirkətləri vasitəsilə malların satış həcmi 50%-dən çox olmur. Belə ki, ABŞ-da distribüterlər pərakəndə ticarətin yalnız 20%-ni təmin edir. Avropada isə bu göstərici 40%-ə çatır. MDB ölkələrində digər vəziyyət özünü göstərir: malların 80-85%-i distributorlardan keçir (5). Malların həcminin distribüter vasitəsilə bu cür bölüşdürülməsi inkişaf etmiş iqtisadiyyata malik ölkələrdə ticarət şəbəkələrinin genişlənməsi ilə bağlıdır. MDB məkanında distribüterin təşəkkülü və genişləndirilməsi xüsusiyyətlərinin tədqiqinin nəticələrinə əsasən, bu qənaətə gəlmək olar ki, distribüter şəbəkələrinin inkişafı 20 il bundan əvvəl inkişaf etmiş ölkələrdə olduğu kimi mərhələlərdən keçmişdir. Bundan belə bu ölkələrin distribüterlərini də eyni inkişaf mərhələsi gözləyir. 10-15 ildən sonra (cari inkişaf meyillərinin qorunması zamanı eksponensial proqnoza görə)

ticarət şəbəkələri vasitəsilə pərakəndə ticarətin dövriyyələrinin həcmi 80% təşkil etməsi gözlənilir. Bu da malların yalnız 20%-nin distribüterlərdən bu gün 80%-ə qarşı keçəcəyini deməyə imkan verir. Bu cür vəziyyət birmənalı şəkildə ona gətirib çıxaracaq ki, hər bir ayrı ərazidə yalnız ən iri yerli və xarici istehsalçılarla müqavilələrin diversifikasiya edilmiş portfeli olan 2-3 iri distribüter səmərəli fəaliyyət göstərəcəkdir (4; 5).

**Distribüter fəaliyyətinin tənzimlənməsi**

Hazırda distribüter fəaliyyətini məhsulun satışının ən effektiv sistemlərindən biri adlandırmaq olar. Bu onunla bağlıdır ki, istehsalçı şirkətin rəqabət üstünlüklərindən biri bazar tələbatının marketinqi və məhsulun satışı ilə bağlı xərclərin azaldılmasıdır. Distribüter firmaları öz və ya icarəyə götürülən anbarlara, nəqliyyat vasitələrinə malik olan, öz hesabına əmtəə məhsullarının bilavasitə istehsalçılardan alınması, anbara gətirilməsi, saxlanması və daşınmanın təşkili əsasında malların satışını həyata keçirən müstəqil, nisbətən iri kommersiya-vasitəçilik təşkilatı kimi də qəbul olunmaqdadır. "Dağıtım" konsepsiyası ingilis dilindən gəlir və "distribution" adlanır. Yəni distribütiya dedikdə, malların paylanması kanalı başa düşülür. Distribüter fəaliyyəti istehsalçının (təchizatçının) son istehlakçılara və onların satışını dəstəkləmək və ya artırmaq məqsədi ilə malların irəliləməsini təmin edən təkrarlanan hərəkətlərin ardıcıl birləşməsidir. Müvafiq olaraq, o, iki mərhələyə bölünür:

✓ İstehsalçı (tədarükçü) və distribüterin qarşılıqlı fəaliyyətinin ümumi şərtlərini və məqsədlərini razılaşdırdıqları müqavilə münasibətləri, distribüter razılaşmasının icrası ilə onların arasında bağlanan göndərmə müqavilələri;

✓ Distribüterdən alınan malları öz alıcılarına son şərtlərlə razılaşdırılmış şərtlərlə satma mərhələsi.

Birinci mərhələ distribüterin sahibkarlıq fəaliyyətinin ümumi miqyasını və parametrlərini müəyyən edir. İkinci mərhələdə distribüter və distribütor arasında razılaşdırılmış öhdəliklər tərəflərin qəbul etdikləri vəzifələrin yerinə yetirilməsinə yönəlmiş real hərəkətlərinə transformasiya edilir. Beləliklə, distribusiya sahəsində münasibətlər üçün mürəkkəb subyekt tərkibinin (təchizatçı, distribüter, distribüter alıcıları) olması səciyyəvidir. Bu amil də bəzi hallarda distribüterin vasitəçiləri (komisyonerlər, agentlər, marketoloqlar və s.) tərəfindən tamamlanır. Distribüterin istehsalçıdan aldığı malları satdığı alıcılar distribüter razılaşmasının tərəfləri deyillər, lakin distribüter müqaviləsinin həyata keçirilməsi ilə əlaqədar yaranan iqtisadi və hüquqi münasibətlərin, o cümlədən distribüter alıcılarına malların sonrakı satışı ilə bağlı yaranan münasibətlərin məcmusu distribüter fəaliyyətinin həyata keçirilməsi prosesində yaranan münasibətlərin subyektləridir [2, s. 124]. Distribütorluq müqavilə əlaqələri kompleks struktur ilə xarakterizə olunur:

➢ Təchizatçı və distribüter arasında faktiki distribüter müqaviləsi və çatdırılma müqavilələri;

➢ Məhsulun ödənişlə distribüterin alıcılarına verilməsi prosesini şərtləndirən müqavilələr;

➢ Distribüter tərəfindən tədarükçünün məhsullarını tanıtmaq məqsədi ilə bağlanan müvafiq müqavilələr.

Ümumiyyətlə, distribütorun alıcıları şəxsi, ailəvi və digər bu cür istifadə ilə bağlı olmayan sahibkarlıq məqsədləri üçün özünün irəli sürdüyü malları əldə edən şəxslər ola bilərlər. Çünki bu, distribüterin xarakterik xüsusiyyətidir. Lakin distribüterin müvafiq satış kanalları vasitəsilə pərakəndə satışda malların satışının mümkünlüyü istisna edilmir. Belə ki, distribütorun bu yönümlü tənzimlənmiş satış kanalları olduğu təqdirdə, malları birbaşa son istehlakçılara satmasına heç nə mane olmur. Distribüterin hüquqi statusunun hüquqi vasitəçi (agent və ya komisyonçu) statusundan prinsipial fərqi qeyd etmək lazımdır. Bu ondan ibarətdir ki, distribüter malları istehsalçıdan mülkiyyət formasında əldə edir və gələcəkdə onların öz adından və öz hesabına yenidən satışını təşkil edir. Bu da distribüterə satılan mallar üçün dərhal gəlir əldə edən və mal paylanması üzrə distribüterin hərəkətlərindən iqtisadi cəhətdən daha az iqtisadi cəhətdən asılı olan mal tədarükçüsü üçün müvafiq müqavilə modelindən istifadənin üstünlüyü hesab olunur. Digər tərəfdən, distribüterin kommersiya seçimi sərbəstliyi elementlərindən biri öz təchizatçısının mallarının qiymətini müstəqil müəyyənləşdirmək və üçüncü şəxslərlə sövdələşmələr aparmaq imkanıdır. Çünki distribüter malların satıcıları tərəfindən yaradılan diler-distribüter zəncirinin fəal iştirakçısıdır və məhsulun son

istehlakçıya çatdırılması prosesində vasitəçi kimi çıxış edir. Distribüter fəaliyyəti kimi bir istiqamətin meydana çıxmasının zəruriliyi müasir bazarın inkişafının aşağıdakı xüsusiyyətləri ilə şərtlənir:

- İstehsalçı şirkətlərin fəaliyyətinin qloballaşması;
- Məhsulların təşviqi və həyata keçirilməsi prosesində bütün xərclərin optimallaşdırılmasına istiqamətləndirmə;
- İstehsalçı şirkətlərin əsas fəaliyyətə qatılması və qeyri-profil istiqamətlərinin autsorsinqə çıxarılması;
- Yeni satış texnologiyalarının inkişafı;
- Məhsullara tələbatın dəyişkənliyinin artması;
- Logistika sisteminə istehlakçıların tələblərinin artırılması;
- İstehsalçı və istehlakçı arasında informasiya axınının mürəkkəbliyi.

## ƏDƏBİYYAT


1. Котлер Ф. Основы маркетинга: пер. с англ. М.: Вильямс, 2015. 752 с.
2. Лебедев Ю.Г. Логистика: теория гармонизированных цепей поставок. М.: Издательство МГТУ им. Н.Э. Баумана, 2012. 448 с.
3. Новиков О.А., Уваров С.А. Логистика. СПб.: «Бизнес – пресса», 2000. 208 с. 8
4. Сорокина Т. Информация как двигатель дистрибуции //Журнал «Эксперт» 2010. №20 (705).
5. http://expert.ru/expert/2010/20/informaciya_kak_dvigatel_disribucii/


## РЕЗЮМЕ

**Теймур Мехтиев**

### ОСНОВЫ И ОСОБЕННОСТИ РАЗВИТИЯ СОВРЕМЕННОЙ ДИСТРИБЬЮТОРСКОЙ ДЕЯТЕЛЬНОСТИ

В статье проводится исследование новых форм продажи товаров, имеющих важное значение в современных процессах глобального развития. В основном выражается отношение к основам деятельности дистрибьютора и особенностям его развития. Выдвигаются вопросы развития этой деятельности.

## SUMMARY

**Teymur Mehdiyev**

### FUNDAMENTALS AND DEVELOPMENT FEATURES OF MODERN DISTRIBUTOR ACTIVITY

The article examines new forms of sales of goods and services, which are important in modern global development processes. Basically, the basis of distributor activity and the attitude to its development characteristics are also expressed. The issues of development of this activity are being put forward.

**SƏDAQƏT ƏHMƏDOVA**
*Bakı Dövlət Universiteti*
**LƏMAN ALİYEVA**
*Leman222@bk.ru*

# SAHİBKARLIQ FƏALİYYƏTİNİN ELMİ MAHİYYƏTİ VƏ ONA MÜASİR YANAŞMA

***Açar sözlər:*** *sahibkarlıq fəaliyyəti, dəvlət tənzimlənməsi, milli iqtisadiyyat, beynəlxalq təcrübə, baza iqtisadi sistemi*

***Ключевые слова:*** *предпринимательская деятельность, государственное регулирование, национальная экономика, международный опыт, базовая экономическая система*

***Key words:*** *entrepreneurial activity, state regulation, national economy, international experience, basic economic system*

Sahibkarlıq fəaliyyəti bazar iqtisadi sistemində iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin mühüm istiqamətlərindən biri kimi çıxış edir. Burada dövlətin rolu daha çox milli sahibkarlığın qorunması və həvəsləndirilməsi istiqamətində həyata keçirilir.

Bəzi iqtisadçıların fikrincə, hazırki dövrdə dövlət sahibkarlığa(biznesə) dost, həmkar və sifarişçi qismində münasibət bəsləyir [1, s.328].

Beynəlxalq təcrübə milli sahibkarlıq fəaliyyətinin dövlət tərəfindən qorunması və həvəsləndirilməsinin geniş bir sisteminin mövcud olduğunu göstərir. Həmin sistemə təşkilati, qanunvericilik, inzibati-hüquq, büdcə, vergi, gömrük və s. sahələr üzrə həyata keçirilən kompleks tədbirlər daxildir. Burada başlıca məqsəd aşağıdakılardan ibarətdir:

-milli sahibkarlığı cəmiyyət qarşısında duran problemlərin həllinə cəlb etmək;

- iqtisadiyyatda özəl bölmənin formalaşması və yüksək inkişafı üçün əlverişli şərait yaratmaq;

- mürəkkəb bazar konyunkturu və kəskin rəqabət şəraitində kiçik və orta sahibkarlığın onların fəaliyyətinin xüsusən ilk dövründə davam gətirə bilməsi və möhkəmləndirilməsi üçün zəruri iqtisadi mühiti təmin etmək;

- sosial təbəqə kimi milli sahibkarlığın öz qüvvələrini və imkanlarını dövlətin iqtisadi siyasətinin həyata keçirilməsinə yönəltmək.

Sahibkarlığa dövlət köməyinin müxtəlif ölkələrdə özünəməxsus xüsusiyyətləri vardır. Ona görə də bazar iqtisadiyyatlı ölkələrin bəzilərində sahibkarlığa dövlət köməyinin iqtisadi mexanizmlərini araşdırmağa çalışaq.

Türkiyədə sahibkarlığa kömək sahəsində dövlətin qarşısında dayanan əsas vəzifələr sırasına ölkənin ayrı-ayrı iqtisadi regionlarının, cəmiyyətin ehtiyacı olan məhsulların, müəssisələrin, iş növlərinin və s. inkişafı üçün əlverişli iqtisadi mühitin yaradılması aiddir.

Həmin vəzifələrin yerinə yetirilməsində bir sıra vergi, kredit, gömrük güzəştləri, investisiyaların bir qismini bağışlama, sığorta və s. kimi iqtisadi vasitələrdən istifadə olunur.

Türkiyədə sahibkarlığa dəstək proqramı ümumilikdə üç sahəyə ayrılır: 1.İxracat dəstəkləri, 2 Yatırım(investisiya) dəstəkləri, 3. Xidmət sektoru dəstəkləri.

İxracat dəstəklərinə beynəlxalq rəqabətin inkişafı, bazar araşdırması və bazara giriş dəstəyi, internet-ticarət, xaricdə məhsulun, markanın tanıtımı, beynəlxalq sərgilərdə iştirak, markalaşma, kənd təsərrüfatı məhsullarında ixracat vergisinin geri qaytarılması, kadrların xaricdə təhsili dəstəkləri daxildir.

Yatırım dəstəklərinə ayrı-ayrı regionlar üzrə qoyulan investisiyalara vergi güzəştləri və dövlətin maliyyə dəstəyinin faizlə həcmi daxildir.

Xidmət sektoru dəstəklərinə müalicəvi turizmə dəstək, elm, texnoloji və rabitə xidmətləri sektoruna dəstək, film (kino) sektoruna dəstək və təhsil sektoruna dəstəklər daxildir.

Türkiyə hökuməti ixrac edilən kənd təsərrüfatı mallarının ƏDV-ni istehsalçıya geri qaytarır. Burada yerli tələbat nəzərə alınaraq bir firma tərəfindən güzəştli ixrac edilən malların maksimum ixrac limitləri müəyyənləşdirilir.

Türkiyədə kiçik və orta sahibkarlığın inkişafına köməklə KOSKEB (kiçik və orta ölçülü müəssisələrin inkişafı və dəstəklənməsi idarəsi başkanlığı) idarəsi məşğul olur. İdarə kiçik və orta ölçülü müəssisələrin iqtisadiyyatdakı rolunu və təsirini artırmaq, rəqabət qabiliyyətliliyini yüksəltmək və sənayedəki inteqrasiyanı ümumi iqtisadi inkişafa uyğun həyata keçirmək məqsədilə 1990-cı ildə Elm, Sənaye və Texnologiyalar nazirliyinin nəzdində yaradılmışdır. KOSKEB-in xidmətlərindən illik dövriyyəsi 50 milyon avroya qədər və illik işçi sayı 250 nəfərə qədər olan müəssisələr yararlana bilər. Həmin idarənin həyata keçirdiyi dövlət himayəsi tədbirlərinə kiçik və orta ölçülü özəl müəssisələr üçün zəruri texnoloji parkların, laboratoriyaların, məsləhət şöbələrinin yaradılması, işgüzar informasiyanın geniş yayılması, xidmət binalarının tikilməsi və onların zəruri texniki avadanlıqla təmin edilməsi, sahibkarların dövlət proqramlarının icrasına cəlb edilməsi, satış problemlərinə kömək göstərilməsi və s. daxildir. Bütün bunlar KOSKEB dəstək proqramları vasitəsilə həyata keçirilir ki, bu proqram bütünlükdə aşağıdakılardan ibarətdir:

1. Kiçik və orta sahibkarlığa Layihə Dəstək Proqramı;
2. Tematik Layihə Dəstək Proqramı;
3. İşbirliyi-Gücbirliyi Dəstək Proqramı;
4. İnnovasiya və Sənaye Dəstək Proqramı;
5. Umumi Dəstək Proqramı ( bura əsasən ölkədaxili sərgi dəstəyi, xaricə işgüzar səfərlərə dəstək, tanıtım dəstəyi, kadr hazırlığı və təhsil dəstəyi, test, analiz və kalibrləşdirmə dəstəyi, mülkiyyət hüququnun qorunması dəstəyi və s. daxildir).
6. İlkin başlayanlara Dəstək Proqramı;
7. İnkişaf Edən Kiçik və Orta Müəssisələrə Dəstək Proqramı;
8. Kredit Faiz Dəstəyi Proqramı;
9. Labaratoriya Xidmətləri.

Bundan başqa, Türkiyədə kiçik müəssisələrə güzəştli kreditləşməni həyata keçirən Xalq Bankı kimi xüsusi bir bank fəaliyyət göstərir. Bu bankın yaradıl-maslnın təməlində Mustafa Kamal Atatürkün "kiçik dükan sahiblərinə və iri sənaye adamlarına möhtac olduğu kreditləri asanlıqla ucuza verecək bir təşkilat yaratmaq və kreditin normal şərtlər altında ucuzlaşdırılmasına çalışmaq da çox lazımdır" fiki önəmli bir yer tutmuşdur [3]. Davamlı iqtisadi artıma, sosial tarazılığa və ictimai barışığın qorunmasına nail olmaq məqsədilə güzəştli şərtlərlə dükançı, sənatkar və kiçik məslək sahiblərinə maliyyə vəsaiti tapmaq və sərmayə yatırmaq məqsədi ilə 1938-ci ildə fəaliyyətə başlamışdır. Təməl prinsipləri aşağı faiz dərəcəsi və kreditin verilməsi şərtlərinin asanlaşdırılması olan Xalq Bank kiçik və orta sahibkarlığa kredit verən ikl bank olmuşdur.

ABŞ-da 1953-cü ildən fəaliyyət göstərən "Kiçik sahibkarlıq" idarəsi təşkilati məsələlərlə məşğul olur, müəssisələrə elmi və təcrübi köməklik göstərir, ölkənin bir sıra universitetləri ilə birgə yaxın və ortamüddətli inkişaf proqnozları işləyib hazırlayır. Bu ölkədə kiçik sahibkarlıq subyektləri üçün xüsusi vergi güzəştləri nəzərdə tutulmasa da, dövlət kommersiya bankları tərəfindən onlara verilən vəsaitin təminatçısı kimi çıxış edir.

Keçən əsrin 50-60-cı illərində Amerikada çoxlu sayda elmi parklar, sənaye parkları və texnoloji parklar yaranmışdır. Bunların da inkişafna səbəb ABŞ dövləti tərəfindən ölkənin iqtisadi inkişafı sahəsində həyata kesirilən tədbirlər olmuşdur. Belə ki, dövlət iqtisadi inkişaf konsepsiyası tərkibində elmi-texniki proqram və layihələrə (kosmik, hərbi, kompüterlərin yeni nəslinin yaradılmasına, mikroelektronika sahəsində yeni texnologiyaların yaradılmasına) külli miqdarda vəsait ayırmışdı. Bu proqramın həyata kesirilməsinə universitetlər öz əsalı və tətbiqi tədqiqatları ilə, bu sahədə çalışan bir sıra dövlət qurumları, podratçılar, kiçik sahibkarlar və s. firmalar qoşuldular və nəticədə bu konsepsiya coxlu sayda yenilikçi kiçik müəssisələrin yaranmasına təkan verdi. 30 ildən artıq Amerikada bu layihə həyata keçirildi ki, minlərlə iş yerlərinin acılmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə, dövlətin dinamik iqtisadi inkişafına və s. səbəb oldu.

Ancaq keçən əsrin 80-ci illərin əvvəllərində parkların inkişafında böhran mərhələsi başladı ki, buna səbəb artıq bu şəbəkənin həddən artıq böyüməsi və dövlətin düzgun koordinasiyanı həyata keçirə bilməməsi idi. Bu zaman fərdi təşəbbüslər də artmış, vençur firmalar da təşəkkül tapmağa başlamışdılar. Böhranın ən mühüm səbəbi isə dövlətin bu sahəyə əvvəlki qədər vəsait ayırmaması idi. Bütün bunlar Amerikada biznes-inkubatorlarının formalaşmasına səbəb oldu. Öz xərcini ödəmə prinsipi ilə işləyən bu firmalar sürətlə yayılmağa başladılar.

1990-cı ildə Amerikada təşkil olunmuş İşgüzar Texnologiyar mərkəzi qarışıq tipdə yaradılmış Bİ-olub həm sənaye, həm də xidmət müəssisələri ilə çalışır. Bu Bİ-a şəhər rəhbərliyi ilə bərabər vilayət rəhbərliyi də öz yardımlarını göstərir. Təkcə 2005-ci ildə bu inkubator 25 firmanın fəaliyyətə başlamasına dəstək vermiş, 30,1 milyon dollar mənfəət əldə etmiş, 344 şəxsi işlə təmin edərək onlara 2,7 milyon dollar əmək haqqı ödəmişdir.

Texas universitetinin nəzdində fəaliyyət göstərən Ostin Texnoloji inkubatoru yeni yaranan firmaları yüksək texnologiyalı avadanlıqlarla təhciz etməyi nəzərdə tutur. Bu Biznes inkubator maliyyələşmə mənbəyini tapmaqda, məqsədli bazarı və məqsədli seqmenti öyrənməkdə, məhsulların bazarda genişlənməsini təmin etməkdə yeni yaranan müəssisələrə yardım edir ki, bu da öz nöbəsində əhalinin rifahının yüksəlməsinə və iqtisadiyyatın inkişafına səbəb olur. 1989-cu ildən bəri bu inkubator Ostina ərazisində 140 kompaniya ilə əməkdaşlıq etmiş, universitetin məzunları və müştəriləri 1,4 milyarddan artıq gəlir əldə etmiş, 2880 yüksək əmək haqqı verən iş yeri yaratmış, öz xarici kapitalını 600 milyon dollara catdırmışdır.

Corciya universitetinin nəzdində fəaliyyət göstərən Atlanta texnoloji inkubatoru da hələ 1980-cı ildən fəaliyyətə başlamışdır. İnkubatoru yaratmaqda məqsəd dövlət ali məktəblərində yaranan innovasiyaları yerli idtisadiyyat üçün gəlir mənbəyinə çevirmək idi . Artıq bura mərkəz kimi fəaliyyət göstərir və öz nəzdində üç inkubatoru birləşdirir. 2004-cü ilə mərkəz 44 kompaniya ilə işləmiş və ümumilikdə onlara 94 milyon dollar maliyyə yardımı göstərmişdir. Bu kompaniyalar da öz növbəsində həmin il 4900 yüksək gəlirli iş yeri açmış, 684 milyon dollar gəlir əldə etmişlər.

Göründüyü kimi, ABŞ-da kiçik müəssisələrin elmi-texniki tərəqqi ilə bağlı fəaliyyəti daim dövlətin diqqət mərkəzinədir və onların dövlət "inkubatorlarından" güzəştli şərtlərlə istifadə etmək imkanları genişdir. Dövlət bununla kiçik müəssisələrə əsasən də ilk fəaliyyət dövrlərində əlverişli iqtisadi şərait yaradır [2].

Böyük Britaniyada sahibkarlığa dövlət köməyinin iqtisadi vasitələri arasında dövlətin büdcə (vergi və kredit) siyasəti mühüm əhəmiyyətə malikdir. Hökumət kiçik biznesə kömək məqsədilə: yeni və fəaliyyətdə olan firmalara məsləhət proqramı; maliyyə köməkliyi proqramı; Şotlandiya, Uels və Şimali İrlandiyada fəaliyyət göstərən kiçik firmalara kömək üzrə regional proqram; kiçik firmaların ixrac fəaliyyətini həvəsləndirən proqram işləyib hazırlamış və həyata keçirir. Bundan başqa, dövlət kiçik sahibkarlığa kömək, onun rəqabət qabiliyyətini yüksəltmək üçün "sahibkarlıq təşəbbüsü" adı altında bir çox proqramlar işləyib hazırlamış və həyata keçirir.

Böyük Britaniyada kiçik sahibkarlıqla bağlı peşə hazırlığı mütəxəssis hazırlığı üzrə xüsusi şuralar tərəfindən həyata keçirilir. Dövlət həmin şuraların ölkənin bütün regionlarında, xüsusən də Uelsdə təşkilini həyata keçirir. Bununla yanaşı, ölkədə bütün banklar tərəfindən kiçik biznesə verilən kreditlərin təminatı üzrə hökumət Proqramı işlənib hazırlanmışdır. Bu Proqram demək olar ki, həmin kreditlərin 70-80 faizinə tətbiq edilir [2].

Biznes inkubator ideyası Amerikada formalaşsa da sonrakı inkişafını Böyük Britaniyada həyata keçirdi. 1984-cü ildə Böyük Britaniyada 16 biznes inkubator var idisə, 1989-da onların sayı 38-ə, 1990-da isə 170-ə çatmışdır. Nəticədə yüksək texnologiyalı kiçik müəssisələrin ingilis-amerikan modeli meydana gəldi. Ingilis-amerikan modelinə əsasən kiçik innovasiya qurumlarına elə müstəqil hüquqi şəxslər rəhbərlik etməlidilər ki, onlar bazarda yeni biliklərin, yeni texnologiyaların və yeni xidmətlərin tətbiqində maraqlı novator şəxslər olsunlar.

Universitet və digər elmi mərkəzlərin sənaye ilə əmədaşlıqda qarşılıqlı maraqları dərin elmi tədqiqatlar tələb edən yeni texnika və texnologiyaların, yeni məhsulların meydana gəlməsinə səbəb

olmuşdur. Belə elm tutumlu sahələrə mikroelektronikanı, informasiya texnologiyalarını, biotexnologiyaları, dəqiq alət texnologiyalarını və s. misal göstərmək olar. Parkların sürətli inkişafı nəticəsində Britaniya hökuməti tərəfindən universitetlərə ayrılan vəsaitin həcmi ilbəil azaldıldı. Britaniyada demək olar ki, bütün ali məktəblər dövlətə məxsusdur. Dövlət tərəfindən maliyyə dəstəyinin azaldılması universtitetləri alternativ yollar axtarmağa təşviq etdi. Universitetlərin yüksək elmi potensialı bir çox maneələri dəf etməkdə onlara yardımçı oldu. Onlar öz yeni texnika və texnologiyalarını Bİ-lar vasitəsilə heç bir maneə olmadan reallaşdıra bildilər. Onu da qeyd etmək lazımdır ki, yerli hakimiyyət orqanları regionun sənaye mühitində belə biznes mərkəzlərin katalızator rolunu qiymətləndirərək onlara maliyyə dəstəyi göstərdilər.

Böyük Britaniyada aparıçı universitetlər adətən iri şəhərlərin kənarında geniş ərazidə yerləşirlər. Universitetə aid olan ərazilərin böyük bir hissəsi istirahət zonası kimi istifadə olunur, yaxud da icarəyə verilir. Elmi parklar da əsaən həmin ərazilərdə yaradılırdı.

Hal–hazırda Britaniyada elmi parklara kapital qoyluşu 120 milyon funt sterlinqi üstələmişdir ki, bunun da üçdə ikisi ictimai sektor, dövlət sektoru, yerli hakimiyyət orqanları, xüsusi inkişaf agentlikləri və bilavastə dövlət büdcəsi tərəfindən ayrılır.

Beləliklə, hal-hazırda da Böyük Britaniyada elmi mərkəzlərin, biznes inkuba-torların sayı durmadan artır. Yüksək texnika və texnologiyaların artım sferasında əhalinin işlə təminat səviyyəsi yüksəlir, bir çox firmaların fəaliyyət miqyası genişlənir. Oxşar proseslər digər qonşu ölkələrdə də baş verir.

## ƏDƏBİYYAT

1. 26-Əliyeva Y.Ə. Azad sahibkarlıq fəaliyyəti. Müasir mərhələdə Azərbaycanın sosial-iqtisadi inkişafının əsas meylləri(məqalələr toplusu). IX buraxılış. AMEA.İİ. Bakı, 2000, 425 s.
2. 57-Государственное регулирование малого бизнеса: опыт зарубежных стран. http://www.business.zakon.kz/inostr/QB.shtml
3. 130 https://www.halkbank.com.tr/channels

## РЕЗЮМЕ

**Садагат Ахмедова**
**Алиева Ляман**

### НАУЧНАЯ СУЩНОСТЬ ПРЕДПРИНИМАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ И ЕЕ СОВРЕМЕННЫЙ ПОДХОД

Статья посвящена научному обоснованию предпринимательской деятельности и ее сути в современную эпоху. Были высказаны мнения о значении предпринимательской деятельности видными исследователями экономической науки. Было указано, что наличие государственной защиты и стимулирования предпринимательской деятельности свидетельствует о наличии у нее широкой системы. Наряду с этим, были озвучены стимулирующие факторы экономического управления с точки зрения долгосрочных перспектив.

## SUMMARY

**Sadaqat Ahmadova**
**Aliyeva Laman**

### SCIENTIFIC ESSENCE OF ENTREPRENEURIAL ACTIVITY AND MODERN APPROACH TO IT

The article touched upon the scientific justification of entrepreneurial activity and its essence in modern times. His views on the significance of entrepreneurial activity were given place by prominent researchers of economic science. It was indicated that the existence of protection and encouragement of entrepreneurial activity by the state indicates the existence of a broad system. Bononlia also mentioned the stimulating factors of economic management in terms of long-term prospects.

**SAMİRƏ ABASOVA**
*AMEA İqtisadiyyat institutu*
*abasovasamira@rambler.ru*
**SƏNAN YƏHYA**
*Müdafiə Nazirliyi Bakı Qarnizonu Mənzil-İstismar hissəsi*
*marketing_sanan@mail.ru*

# DÖVLƏT MARKETİNQ FƏALİYYƏTİNİN İNKİŞAFINDA STRATEJİ YOL XƏRİTƏLƏRİN PERSPEKTİVLƏRİ

***Açar sözlər:*** *rəqabətqabiliyyətli məhsullar, idxal-ixrac əməliyyatlarının dövlət tənzimlənməsi, rəqabətqabiliyyətlilik indeksi – RCAİ, Azərbaycanın Strateji Yol Xəritələri, dövlət marketinqi*

***Ключевые слова:*** *конкурентоспособные продукции, государственное регулирование импорта и экспорта, индекс конкурентоспособности - RCAİ, Стратегические Дорожные карты Азербайджана, государственный маркетинг.*

***Key words:*** *competitive products, state regulation of import and export, competitiveness index - RSAİ, Azerbaijan Strategic Road Maps, state marketing.*

Dünyada dəyişən ictimai-siyasi və iqtisadi proseslər yeni iqtisadi modellərin yaradılmasını və ya iqtisadi yanaşmaları tələb edir. Tələbin əsas məqsədi ölkədə rəqabətə davamlı məhsulların istehsalının gücləndirilməsi və respublikada buraxılan məhsulların dünya iqtisadiyyatına səmərəli inteqrasiya olunması dəyişməz olaraq qalır. Bu məqsədlərə çatmaq dövlətin iqtisadi maraqlarından biridir.

Qloballaşma şəraitində texnologiyanın, siyasi və iqtisadi proseslərin gücüylə milli məhsulların rəqabətə davamlılıq problemləri ortaya çıxmışdır. Eyni zamanda qloballaşmadan kənarda qalmaqla iqtisadi maraqların qorunmasını təmin etmək yeni problemlər yaradır. Bu problemlərə yeni iqtisadi vasitələrlə yanaşmadıqda iqtisadi fəlakətlər qaçılmaz olur. Belə iqtisadi vasitələrdən yenisi dövlət tənzimlənməsində marketinq fəaliyyətidir.

Qlobal iqtisadi münasibətlər sisteminin dinamik inkişafı iqtisadiyyatın dövlət tənzimlənməsi səviyyəsində marketinq fəaliyyətinin əhəmiyyətini artırmaqdadır. Tarixin müəyyən mərhələlərində formalaşmış dövlət tənzimlənməsi nəzəriyyələri qlobal iqtisadi münasibətlərin dinamik inkişafı dövrünün tələblərinə tam cavab vermir. Dünyanın inkişaf etmiş ölkələrinin güclü iqtisadiyyatları inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatlarına təsir edir. Bütün bunları nəzərə alaraq dövlətin iqtisadiyyata müdaxiləsi labüddür. Çünki bazar iqtisadiyyatı stabil inkişaf edən mexanizm deyil. Sadəcə, bazar yenilikləri dinamik qəbul edən, tələbin elastikliyinə tez uyğunlaşan, cəmiyyətdə problemləri tam həll edə bilməyən və mənfi tərəfləri olan ictimai institutdur. Eyni zamanda marketinq bazarın idarə edilməsi konsepsiyası olduğu üçün qlobal iqtisadi münasibətlər şəraitində mikro səviyyədən makrosəviyyəyə yüksəlmişdir.

Dövlətlərin məsuliyyəti, iqtisadiyyatın aşkar və potensial üstünlüklərinin təsbit edilməsi davamlı inkişaf strategiyaları hazırlamaq və dünya iqtisadiyyatına səmərəli şəkildə inteqrasiya etmək deməkdir.

## 1.Milli iqtisadiyyatda davamlı inkişaf dinamikası

1994-cü ildən başlayaraq Azərbaycan Respublikasında həyata keçirilən neft strategiyası milli iqtisadi təhlükəsizliyi təmin etməklə paralel dünya arenasında ölkə mövqelərinin güclənməsində və vətəndaşların həyat səviyyəsinin yüksəlməsində müstəsna rol oynamışdır. Neft emalı sənayesi iqtisadiyyatın əsas dayaq nöqtəsi və ölkənin potensial ixrac resursudur. Bu səbəblə milli iqtisadiyyatın dünya neft qiymətlərindən asılılığı daha çox diqqət mərkəzində olur. Dünya iqtisadiyyatında baş verən maliyyə böhranları milli iqtisadiyyata təsirsiz ötüşmür. Belə ki, 2014-cü ildə dünya bazarında neft məhsullarının qiymətinin kəskin ucuzlaşması Azərbaycan iqtisadiyyatının tədiyyə balansında müsbət saldonun aşağı düşməsinə səbəb olmuşdur. İxracın 90%-dən yuxarı hissəsi neft məhsullarından asılı olduğu üçün ölkəyə daxil olan xarici valyutanın azalması səbəbilə “Manat” 2014-cü ildə 0.78 manatdan 2016-cı ildə 1 dollar 1.60 manat səviyyəsinədək dəyərini itirmişdir.

Azərbaycan Respublikasının tədiyyə balansını təhlil etdikdə aydın olur ki, yanacaq-xammal

məhsullarının ixracı ümumi ixracın 90%-dən çoxunu təşkil edir. Yanacaq – xammal məhsullarının ixracı son məhsul kimi deyil, xammal məhsulları kimi ixracı milli valyutanın məzənnəsinə birbaşa təsir edir. Eyni zamanda dövlət büdcəsinin gəlirlərinin formalaşmasında mühüm paya malikdir.

**Cədvəl 1.** ***Azərbaycan Respublikasının Tədiyyə Balansı (mln.dollar)***

| **İllər** | **2005** | **2011** | **2015** | **2018** | **2018-ci ildə 2011-ci ilə nisbətən, %** |
|---|---|---|---|---|---|
| **Malların İxracı** | **7649.0** | **34494.9** | **15586.1** | **20793,8** | **39.7%↓ azalma** |
| Neft-qaz sektoru | 6883.0 | 32871.0 | 14474.8 | 19176,0 | 47.1%↓ azalma |
| Digər sektorlar | 766.0 | 1623.9 | 1111.3 | 1617.7 | 0.4%↓ azalma |
| Malların idxalı | 4350.0 | 10166.5 | 9773.6 | 10952,4 | 0.08%↑artım |
| Neft-qaz sektoru | 1927.0 | 1134.7 | 2208.0 | 1745.4 | 53.9%↑ artım |
| Digər sektorlar | 2423.0 | 9031.8 | 7565.6 | 9207,1 | 1.9%↑ artım |

**Mənbə:** *Mərkəzi Bank* www.nba.az

Azərbaycan Respublikasında xarici ticarət balansında ixrac dinamikasında ən yüksək göstərici 2011-ci ildə 34494.9 mln dollar olmuşdur. Əmtəə ixracı 32871.0 mln. dollar neft-qaz məhsulları, 1623.9 mln. dollar (4.7%) digər sektorları əhatə etmişdir.

2014-cü ildə xarici ticarət balansında ixrac dinamikası qiymət və qeyri-qiymət amillərinin təsiri ilə 28259.6 mln. dollar təşkil etmişdir. Əmtəə ixracında 26627.3 mln. dollar neft-qaz məhsulları, 1623.3 mln. dollar (6.1%) digər sektorlar təşkil etmişdir.

2018-ci ildə xarici ticarət balansında ixrac dinamikası qiymət amillərinin təsiri ilə 20793.8 mln. dollar təşkil etmişdir. Əmtəə ixracının 19176.0 mln. dollar neft-qaz məhsulları, 1617.7 mln. dollar (8.4%) digər sektorlar təşkil etmişdir.

Neft-qaz məhsullarının dünya bazarında qiymətlərinin enməsi əmtəə ixracına birbaşa təsir etməklə yanaşı, dolayı amillərlər əmtəə idxalına təsirsiz ötüşməmişdir. Bu təsirlər kəskin formada müşbət olmamışdır. Xarici ticarət balansında əmtəə idxalı 2011-ci ildə 10166.5 mln. dollar olmuşdur. Əmtəə idxalında 1134.7 mln. dollar (11.2%) neft-qaz məhsulları, 9031.8 mln. dollar digər sektorları əhatə etmişdir.

2014-cü ildə xarici ticarət balansında idaxl dinamikası qiymət və qeyri-qiymət amillərinin təsiri ilə 9332.0 mln. dollar təşkil etmişdir. Əmtəə idxalında 1114.4 mln. (11.9%) dollar neft-qaz məhsulları, 7894.0 mln. dollar digər sektorların əmtəə həcmi təşkil etmişdir.

2018-ci ildə xarici ticarət balansında idxal dinamikası qiymət amillərinin təsiri ilə 10952,4 mln. dollar təşkil etmişdir. Əmtəə idxalında 1745,4 mln. dollar (19.0%) neft-qaz məhsulları, 9207,1 mln. dollar isə digər sektorlar təşkil etmişdir.

Nəticələr göstərir ki, dünya bazarında neft məhsullarının qiymətlərində baş verən dəyişmələr və dünya iqtisadiyyatında baş verən maliyyə böhranı Azərbaycan iqtisadiyyatının əsas inkişaf lokomotivi olan neft sənayesinə mənfi təsir etmişdir. Eyni zamanda milli valyutanın devalvasiyası nəticəsində əmtəə ixracı 2011-ci illə müqayisədə 39.7% azalsa da, qeyri-neft sektoru üzrə idxal 1.9% artmış və ixrac isə 0.4% azalmışdır.

Təhlillər göstərir ki, Azərbaycan Respublikası beynəlxalq əmək bölgüsündə xammal təchizatçısı rolunu oynamamalıdır. Davamlı iqtisadi inkişafı və dünya iqtisadiyyatına səmərəli inteqrasiyanı təmin etmək üçün əmtəə ixracının strukturu diversifikasıya olunmalı və rəqabətə davamlı məhsulların istehsalı üçün mütərəqqi dünya təcrübəsinə uyğun islahatlar davam etdirilməlidir.

## 2. Rəqabətə davamlı milli məhsulların istehsalına dəstək olan marketinqin problemləri

Azərbaycanın təbii ehtiyatlarla zənginliyi, əlverişli coğrafi mövqedə yerləşməsi yaxın perspektivdə iqtisadi artımın qeyri-neft sektoru üzrə daha da sürətlənməsi üçün geniş potensial imkanlar yaradır. Sərbəst istehsal güclərinin və əlavə işçi qüvvəsinin mövcudluğu, həmçinin orta keyfiyyətli idxal məhsulların yerli istehsal vasitəsilə yaradılan məhsullarla əvəz edilməsi imkanlarının mövcudluğu gələcəkdə ölkə iqtisadiyyatında əlavə artım potensialı yarada bilər. Tədqiqatlar göstərir ki, Azərbaycan Respublikasının xarici ticarət sahəsində, xüsusilə qeyri-neft sahəsində ixrac problemləri mövcuddur ki, bunun nəticəsində iqtisadiyyatın qeyri-neft sahəsində ixrac dinamikasının müsbətə

dəyişməsi yüksək artımlarla baş vermir [1].

Azərbaycan Respublikasının tədiyyə balansının neft-qaz sektorundan fərqli olan digər sahələr üzrə əmtəə ixracı və idxalının dinamikası göstərir ki, respublikada daxili bazarın geniş potensialı var. Belə ki, qeyri-neft sektorunda idxal ixracdan 6 dəfə çoxdur. Təhlilin nəticəsi olaraq qeyd edə bilərik ki, istehsal və satış sahəsində marketinq problemləri mövcuddur.

Azərbaycan Respublikasında rəqabətədavamlı məhsul istehsalını təşkil etmək və qeyri-neft sektorunda məhsulların ixrac həcmini genişləndirmək qarşıda duran əsas vəzifələrdən biridir. Respublikadan ixrac olan məhsulların beynəlxalq rəqabətqabiliyyətliliyi əmsalı RCAİ üzrə hesablanmış cədvələ diqqət yetirdikdə müəyyən olur ki, mədən sənayesi və yanacaq malları ixracında müqayisəli üstünlüyə malik olması qeyri-neft sektorunda marketinq fəaliyyəti problemlərinin olmasını təsdiq edir.

**Cədvəl 2.** ***2012 - 2018-cü illərdə Beynəlxalq Standart Ticarət Təsnifatı üzrə ixracın rəqabətqabiliyyətliliyi (RCAİ)***

| | **Məhsulların bölmələri** | **2012** | **2014** | **2016** | **2018** |
|---|---|---|---|---|---|
| 1 | Yeyinti məhsulları və diri heyvanlar | -0.21 | -0.20 | -0.43 | -0.32 |
| 2 | İçkilər və tütün | -0.84 | -0.83 | -0.77 | -0.79 |
| 3 | Qeyri-ərzaq xammalı (yanacaqdan başqa) | -0.60 | -0.62 | -0.61 | -0.43 |
| 4 | Mineral yanacaq-sürtkü yağları, analoji materiallar | 0.99 | 0.97 | 0.96 | 0.92 |
| 5 | Heyvan və bitki mənşəli yağlar, piylər | 0.30 | 0.31 | -0.80 | -0.78 |
| 6 | Kimyəvi mallar və digər kateqoriyalara daxil edilməyən məhsullar | -0.60 | -0.58 | -0.71 | -0.72 |
| 7 | Əsasən materialın növünə görə təsnifləşdirilən sənaye malları | -0.76 | -0.80 | -0.74 | -0.73 |
| 8 | Maşın və nəqliyyat avadanlıqları | -0.96 | -0.95 | -0.93 | -0.95 |
| 9 | Müxtəlif sənaye məmulatları | -0.90 | -0.57 | -0.97 | -0.95 |
| 10 | BSTT-nin digər kateqoriyalarına daxil edilməyən mallar | -0.76 | -0.69 | 0.64 | -0.75 |

**Mənbə:** *DSK-nın məlumatları əsasında müəllif tərəfindən heablanıb [10]. RCA3=(Xij-Mij)/(Xij+Mij). Burada RCAi-i – xalis ixrac indeksinin kəmiyyəti -1 və +1 arasında dəyişir. Bu indeksin mənfi ədəd olması müqayisəli üstünlüyün olmamasını, müsbət ədəd olması müqayisəli üstünlüyün olmasını göstərir.*

2014-cü ilədək bir çox ekspertlər milli məhsulların rəqabət qabiliyyətinə təsir edən amillər kimi milli valyutanın xarici ölkə valyutaları ilə müqayisədə baha olmasını qeyd edirdilər. Lakin dünya iqtisadiyyatında baş verən maliyyə böhranı fonunda neft məhsullarının qiymətinin ucuzlaşması və manatın devalvasiya olması prosesləri Azərbaycan Respublikasında istehsal olunan məhsulların rəqabət qabiliyyətinə (ucuz manat) təsirləri o qədər də hiss olunmamışdır. Respublikadan ixrac olan məhsulların beynəlxalq rəqabətqabiliyyətlilik əmsalı-RCAİ hesablanmış cədvələ diqqət yetirdikdə aydın olur ki, 2015-ci ilədək rəqabətə davamlı sahə olan “heyvan və bitki mənşəli yağlar, piylər” devalvasiya nəticəsində rəqabətə davamlılıq səviyyəsini itirmişdir.

İxrac proseslərinin və beynəlxalq Ticarət Sazişlərinin təhlili göstərir ki, milli iqtisadiyyatın rəqabətə davamlı inkişafını təmin etmək üçün aşağıdakı marketinq problemlərinin həllində dövlət orqanlarının rolu artırılmalıdır:

1. Kiçik və orta müəssisələrin maliyyə imkanlarının zəif olması nəticəsində istehsal olunan malların yerli və xarici bazarlarda tanıdılması həyata keçirilmir;
2. Kiçik və orta müəssisələr yerli və xarici bazarlarda araşdırma aparma imkanlarına malik deyillər;
3. İxracat sahəsində (texniki və hüquqi) təcrübəsizlik davam edir;
4. Müəssisələrdə istehsal və satış zamanı beynəlxalq keyfiyyət standartlarının tətbiqi həyata keçirilmir və s.

**3. Strateji Yol Xəritələrinin dövlət marketinq fəaliyyətinə müsbət təsiri.** 2015-ci ildən etibarən dünya iqtisadiyyatında və milli iqtisadiyyatda baş verən tsiklik dalğalanmalar nəzərə alınaraq

Azərbaycan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün Azərbaycan Respublikası Prezidenti tərəfindən "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsinin başlıca istiqamətləri" sənədi imza olunmuşdur. Bu normativ aktdan irəli gələn məsələlər haqqında" 2016-cı il 16 mart tarixli 1897 nömrəli Sərəncamına müvafiq olaraq milli iqtisadiyyat və iqtisadiyyatın 11 sektoru üzrə ümumilikdə 12 Strateji Yol Xəritəsi hazırlanmış və **Azərbaycan Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq olunmuşdur.** Strateji Yol Xəritəsi qısa, orta və uzunmüddətli dövrləri əhatə etməklə dünyada baş verən iqtisadi proseslərin fonunda ölkə iqtisadiyyatının inkişafı, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın genişləndirilməsi üçün əlverişli imkanların yaradılması, qeyri-neft ixracının artırılması məqsədi ilə yerli sahibkarlar üçün dövlət dəstəyinin gücləndirilməsi də daxil olmaqla ixrac potensialının gücləndirilməsi və dərin iqtisadi islahatların aparılması istiqamətində tədbirlər planını müəyyənləşdirmişdir.

Qəbul olunmuş Strateji Yol Xəritələrinin uğurla icra edilməsi üçün Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 20 aprel 2016-cı il 879 nömrəli Fərmanı ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi yaradılmışdır. Əsas fəaliyyətlər Strateji Yol Xəritələrinin icrasından irəli gələn makro- və mikroiqtisadiyyat sahəsində təhlil və tədqiqatlar aparmaqla analitik məlumatlar əsasında iqtisadi islahatların həyata keçirilməsi üçün təkliflərin verilməsi, əldə olunan nəticələrin qiymətləndirilməsini və nailiyyətlərin təbliğindən ibarətdir.

Bu sahədə əldə edilmiş mühüm uğurlardan biri İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi tərəfindən idarə olunan *www.azexport.az* saytıdır ki, burada Azərbaycanda istehsal olunan məhsullar haqqında məlumat bazası yerləşdirilmişdir. Bu sayt daxili və xarici bazarlarda ölkə məhsulları tanıdan, eləcə də satışını təmin edən və xarici təcrübələrə uyğun perspektivli platformadır. İslahatların Təhlili və Kommunikasiya Mərkəzi *www.azexport.az* vasitəsilə yerli sahibkarlara aşağıdakı imkanları təqdim edir:

- İxracın stimullaşdırılması;
- Marketinq təhlillərinin aparılması;
- *Made in Azerbaijan* brendinin tanıdılması;
- İxrac prosedurlarının asanlaşdırılması;
- Nəqliyyat və logistika xidmətlərinin təklif edilməsi;
- Milli və beynəlxalq ödəniş sistemlərinə inteqrasiyanın dəstəklənməsi;
- Azərbaycan məhsullarının *azexport.az* saytının inteqrasiya olunduğu beynəlxalq ticarət platformalarına yerləşdirilməsinin təmini;
- Xarici bazarların əhatə dairəsinin genişləndirilməsi;
- Sərbəst satış sertifikatının verilməsi.

Portalın daha bir əhəmiyyəti ondadır ki, orada reklam üçün yerləşdirilən məhsulların istehsalçıları haqqında məlumat bazası yaradılmışdır. İstənilən xarici sahibkar məhsul çeşidləri haqqında məlumatları və rekvizitləri operativ əldə edə bilir.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin *azexport.az* ixrac portalı vasitəsilə 2017-ci ildə 475,0 mln. dollar və 2018-ci ildə isə 514,0 mln. dollar dəyərində məhsul sifarişləri qəbul olunmuşdur.

**Nəticə.** Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritələrinin tətbiqi Azərbaycan Respublikasında mütərəqqi dünya təcrübəsinə uyğun dövlət marketinq fəaliyyətini genişləndirməyə imkan verir. Bunun nəticəsində milli sahibkarlığın xarici bazarlara çıxışı stimullaşdırmaqdadır. Milli iqtisadiyyatın dünya iqtisadiyyatına səmərəli inteqrasiyasını təmin etmək üçün yuxarıda qeyd olunan marketinq problemlərinin həlli istiqamətində İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirdiyi maarifləndirmə fəaliyyətləri genişləndirməkdədir. Klassik marketinq fəaliyyətindən fərqli olaraq, dövlət təşkilatları tərəfindən həyata keçirilən marketinq, başqa sözlə, dövlət marketinqi potensial müştərilərin sahibkarlara müraciətini əldə edir.

Azərbaycanda dövlət marketinqinin davamlı fəaliyyəti qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün zəruri olan tədbirlərə aşağıdakılar aiddir [6, s.181-182]:

1. Kiçik və orta sahibkarların istehsal etdikləri məhsulların yerli və xarici bazarda performanslı tanıdılmasının həyata keçirilməsi;

2. Kiçik və orta müəssisələr üçün yerli və xarici bazarlar haqqında dolğun dövrü məlumatların yaradılması və saytda yerləşdirilməsi;

3. İxracat sahəsi üzrə təşkilati, idarəetmə, hüquqi və texniki problemlərin həll olunması;

4. Müəssisələrdə beynəlxalq keyfiyyət standartlarına cavab verən məhsulların istehsal olunmasının dövlət tərəfindən dəstəklənməsi;

5. Ticarət və çatdırılma (dağıtım və logistika) problemlərinin aradan qaldırılmasına hüquqi dəstəyin formalaşması.

## ƏDƏBİYYAT


1. Abasova S.H. Xarici-iqtisadi əlaqələrin əsas inkişaf istiqamətləri üzrə Avropa İttifaqı ölkələrində innovasiya proseslərinin dövlət tərəfindən tənzimlənməsinin müqayisəli təhlili. “Strateji iqtisadi islahatlar: qabaqlayıcı vergi siyasəti” mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları. Bakı, AMEA İqtisadiyyat İnstitutu, 2017, s. 402-405
2. “Azərbaycanın xarici iqtisadi əlaqələri: nailiyyətlər və perspektivlər” Kollektiv monoqrafiyanın 7 fəsli. Bakı, “Avropa” nəşr., 2015, 332 s.
3. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi. Azərbaycan İqtisadi İslahatlar İcmalı: xüsusi buraxılış. Bakı: 2019, 29 s.
4. Məhərrəmov A. İqtisadi diplomatiya. Bakı: 2013, Adventa MMC, 2013, 386 s.
5. Qənbərov F. Xarici İqtisadi əlaqələr və iqtisadi artım. Bakı: Elm, 2012, 448 s.
6. Абасова С.Г. Механизмы государственного регулирования внешнеэкономических инновационных процессов в странах с развивающейся экономикой (на примере внешнеэкономических инновационных связей Азербайджана с другими странами). (монография). Новосибирск, изд-во ЦРНС, 2015, 234 с. ISBN 978-5-00068-318-7
7. www.cbar.org Mərkəzi Bank
8. www.economy.gov.az İqtisadiyyat Nazirliyi
9. www.iqtisadiislahat.org İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi
10. www.stat.gov.az Dövlət Statistika Komitəsi


## РЕЗЮМЕ

**Самира Абасова, Санан Яхйа**

## ПЕРСПЕКТИВЫ СТРАТЕГИЧЕСКИХ ДОРОЖНЫХ КАРТ В РАЗВИТИИ ГОСУДАРСТВЕННОЙ МАРКЕТИНГОВОЙ ДЕЯТЕЛЬНОСТИ

В этой статье рассчитан индекс конкурентоспособности - RCAİ в импорте и экспорте различных республиканских продукций. Здесь также рассмотрена и оценена деятельность Центра Анализа Экономических Реформ и Коммуникаций в области стимулирования экспорта местных продукций. Исследованы проблемы, задерживающие развитие малого и среднего предпринимательства и показано решение проблем с помощью государственного маркетинга.

## SUMMARY

**Samira Abasova, Sanan Yahya**

## PERSPECTIVES OF STRATEGIC WAY MAPS IN STATE MARKETING ACTIVITY DEVELOPING

This paper calculates the competitiveness index - RCAİ in the import and export of various republican products. It also reviewed and evaluated the activities of the Center for Analysis of Economic Reforms and Communications in the field of stimulating the export of local products. There are investigated the problems retarding the development of small and medium-sized enterprises and decision-making solutions of these problems by state marketing.

**MÜBARİZ TƏHMƏZOV**
*Azərbaycan Kooperasiya Universiteti*

# İNNOVASİYA FƏALİYYƏTİ KORPORATİV İDARƏETMƏNİN ƏN VACİB İSTİQAMƏTİ KİMİ

***Açar sözlər:*** *korporativ idarəetmə, innovasiya, innovasiya prosesi, innovasiya fəaliyyəti, kiçik və orta biznes*

***Ключевые слова:*** *корпоративное управление, инновации, инновационный процесс, инновационная деятельность, малый и средний бизнес.*

***Key words:*** *corporate governance, innovation, innovation process, innovation activity, small and medium business.*

Yeni iqtisadiyyatın formalaşmasının müasir şəraitində innovasiya fəaliyyəti iqtisadiyyatın bütün səviyyələrində korporativ idarəetmənin normal həyata keçirilməsinin zəruri şərti sayılır. Bu onunla şərtlənir ki, innovasiyalar sosial-iqtisadi sistemin inkişafının əsasını təşkil edir, onların artım templərini və miqyaslarını, struktur dəyişikliklərini müəyyən edirlər. Sosial-iqtisadi sistemlərin dinamikası insan fəaliyyətinin yeni vəsaitə və üsullarının tətbiqi ilə şərtlənmişdir. Hazırda həmin sistemlərin müxtəlif elementlərinin yeni, daha effektiv sistemlərlə fasiləsiz əvəz olunması baş verir. Müasir şirkətlərin korporativ idarəetmə sistemlərində cərəyan edən innovasiya proseslərinin xüsusiyyətlərinin dərk edilməsi bu sistemlərin məqsədyönlü idarə edilməsinin nəticəliliyinin yüksəldilməsinə kömək edir.

Korporativ idarəetmənin keyfiyyətinin qiymətləndirilməsi çərçivəsində korporativ subyektlərin iqtisadi mənafelərinin təmin edilməsi baxımından, resurs bazasının genişləndirilməsi və innovasiyanın tətbiqi vasitəsilə daha səmərəli istifadəsi kimi iqtisadi artıma və davamlı inkişafa birbaşa təsir edən faktorları nəzərə almaq mühüm əhəmiyyət kəsb edir. Şirkətin dəyərinin artırılması və onun davamlı inkişafının təmin edilməsi birbaşa istehsalın modernləşdirilməsi və innovasiyaların tətbiqi prosesində investisiya layihələrinin həyata keçirilməsinin keyfiyyət və kəmiyyət xüsusiyyətlərindən asılıdır.

İstehsala innovasiyaların tətbiqi ilə bağlı araşdırma, əsaslandırma və qərar qəbul etmək korporativ idarəetmənin ən vacib istiqamətidir və eyni zamanda keyfiyyət və effektivliyini qiymətləndirmək meyarıdır.

İnnovasiyaların tətbiqi üçün ilkin zəminlər və müəyyən faktorlar korporativ idarəetmə çərçivəsində nəzərə alınmalı olan aşağıdakı şərtlərdir:

- Mövcud potensial və korporasiyanın mövcud strukturu innovativ qərarların yaranmasına və həyata keçirilməsinə imkan verməməsinə baxmayaraq, bazarda artan rəqabətin anlaşılması;
- İnnovasiyaların həyata keçirilməsi üçün heç bir infrastrukturun olmamasına baxmayaraq, onların tətbiqi imkanlarının anlaşılması;
- Həyata keçirilmiş biznes-plan iqtisadi reallıqlara cavab vermir (aktuallığı itirir), innovasiya fəaliyyəti konsepsiyasının inkişafının işlənib hazırlanmasına ehtiyac var;
- Yeni texnologiyaların tətbiqi və yeni məhsulların işlənib hazırlanması proseslərinin daha da sürətlənməsi və ucuzlaşması sayəsində bazarda öz mövqelərini gücləndirmək və artırmaq imkanlarının axtarılması.

Korporativ idarəetmənin bir hissəsi olaraq, yeniliklərin tətbiq edilməsinə dair qərar qəbul edərkən, mövcud biznes modelinin məhv edilməsi yeni bir nüsxənin olmaması ilə strategiyanın hazırlanmasında nəzərə alınması lazım olan son dərəcə mənfi nəticələrə səbəb ola biləcəyi riskləri (mənfi təsirlərin olma ehtimalı) nəzərə almaq lazımdır. Bundan əlavə, innovasiya, bir qayda olaraq, innovasiyaların istehsal prosesinə düzəldilməsinə və uyğunlaşdırılmasına qədər müşahidə olunacaq yüksək səhvlər və uğursuzluq ehtimalı ilə bağlıdır. Korporasiya yeniliklərin tətbiqi zamanı ani nəticələr verməyəcəyinə hazır olmalıdır.

Bütövlükdə, innovasiya prosesinin son məqsədinə nail olunması kifayət qədər mürəkkəb məsələ sayılır ki, bunun da həlli aşağıdakıların düzgün qiymətləndirilməsini nəzərdə tutur:

-Əlavə ictimai əmək xərcləri və innovasiyanın reallaşdırılması üçün zəruri olan kapital qoyuluşu;
- İnnovasiyanın tətbiqindən innovasiya prosesinin bütün subyektləri tərəfindən alınan iqtisadi effektlə əlavə xərclərin ödənilməsi.

M.Porterin rəqabət nəzəriyyəsinə uyğun olaraq, milli iqtisadiyyatın rəqabət mövqeləri istehsal,

eləcə də investisiya, innovasiya və ya maddi rifah amillərində, daha doğrusu, yüksək inkişaf səviyyəsi amillərində üstünlüyü təmin edirlər [7, s.11].

Dünyanın texnoloji özülünü təşkil edən ölkələr - ABŞ, Yaponiya, Almaniya, Böyük Britaniya və Fransa – ÜDM-də ETTKİ-yə xərclərin payının daima artımı hesabına əldə edilən innovasiya fəaliyyəti aktivliyinin yüksək dərəcəsi əsasında özlərinin liderlik mövqelərini təmin edirlər.

Tədqiqatlar göstərir ki, müasir yeni iqtisadiyyatda ÜDM artımının daha böyük payı innovasiya texnologiyalarında, avadanlıqlarında, insan kapitalının keyfiyyətində, istehsalın və idarəetmənin təşkilində ifadə olunmuş yeni biliklər hesabına təmin edilir.

Prinsipcə vacib olan odur ki, müasir cəmiyyətdə iqtisadi effektivliyin yalnız elm və real istehsalın inkişafı hesabına deyil, həm də innovasiya tsiklinin bütün fazalarının-yeni biliklərin alınması, bazar vasitəsilə onların iqtisadiyyatın istehsal sektoruna ötürülməsi və istehsal istifadəsi fazalarının effektiv fəaliyyətini təmin etmək əsasında əldə edilir. Bu cür istifadə bir qayda olaraq, son məhsul bazarında iqtisadi cəhətdən əhəmiyyətli rəqabət üstünlükləri almaq məqsədilə həyat keçirildikdə, onda innovasiya tsiklinin bütün mərhələləri müxtəlif dərəcələrdə olsa da, güclü informasiya, təşkilati, maliyyə və digər bazar amillərinin təsiri altında yerləşəcəklər. Məhz innovasiyanı mənimsəyənin iqtisadi marağı son nəticədə innovasiya fəaliyyətinin həyata keçirilməsinin məqsədəuyğunluğunu, yönümlülüyünü, miqyasını, tempini və formasını müəyyən edir.

Ölkənin iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi resursların və istehlakın nisbətlərində əhəmiyyətli dəyişikliklər yaradır. İqtisadi inkişafın yüksək səviyyəsinə nail olmuş dövlətlər qaçılmaz surətdə resursların qıtlığı ilə qarşılaşırlar. Eyni zamanda, ölkənin iqtisadi inkişaf səviyyəsinin yüksəlməsi bütün təsərrüfat subyektlərinin iqtisadi tələbatlar sistemində, hər şeydən əvvəl isə, əhalinin şəxsi tələbat sistemində tezliklə kəmiyyət artımına və keyfiyyət yeniləşməsinə gətirib çıxarır. Beləliklə, iqtisadi inkişaf səviyyəsi yüksəldikcə, resursların məhdudluğu və əhalinin tələbatının məhdudiyyətsiz genişlənməsi arasında ziddiyyət daha da artır.

İnkişaf etmiş bazar iqtisadiyyatlı ölkələrin təcrübəsi göstərdiyi kimi, bu ziddiyyət istehsalın genişləndirilməsinin üstün ekstensiv metodlarından innovasiya məhsulları və texnologiyasının tətbiqinə əsaslanan üstün intensiv metodlarına keçilməsi yolu ilə həll edilir.

Beləliklə, innovasiyalar bir tərəfdən təkrar istehsalın bütün fazalarını ardıcıl olaraq düzməklə, digər tərəfdən isə təkrar istehsalın ekstensiv tipindən intensiv tipinə keçidi müəyyən etməklə müasir iqtisadiyyatda təkrar istehsalın ən vacib amili sayılırlar.

Akademik L.Abalkinin fikrincə, elmtutumlu istehsalların meydana çıxması texnoloji inkişafın nəticəsi sayılır. Bu zaman elm və təhsilə artmaqda olan xərclərin strukturunun keyfiyyət dəyişiklikləri, xüsusilə də tədqiqat və işləmələrin bazasının yaxşılaşdırılmasına sərf olunan vəsaitlərin səmərəsini təmin edən yeni qapalı təkrar istehsal konturu yaradır [4, s.174].

Ölkənin elm və sənaye potensialının qorunub saxlanması və inkişafı üçün islahatın strategiya və taktikasında dövlətin istiqamətləndirici və tənzimləyici rolu gücləndirilməlidir ki, bu da həm dövlət sektoru üçün, həm də özəl biznes üçün uzunmüddətli strateji oriyentirləri müəyyən etməli və onların əldə edilməsi üçün mexanizm və stimullar yaradılmalıdır. İnnovasiya iqtisadiyyatı şəraitində dövlət müvafiq elmi-texniki və sənaye inkişaf strategiyasını işləyib hazırlamalı və reallaşdırmalıdır [6, s.19].

Mülkiyyət formasından asılı olmayaraq, hər bir təsərrüfat subyektinin uğurlu biznes strategiyası qurması və reallaşdırması xeyli dərəcədə innovasiyanın tətbiqi səviyyəsi ilə müəyyən edilir. Müəssisə nə qədər nadir məhsula və ya onun istehsal üsuluna malikdirsə, o bir o qədər uğurlu müəssisə sayılır. Məhz bu baxımdan, innovasiya dedikdə, sosial-iqtisadi sistemin innovasiya məhsullarının, proseslərinin və biznes modelinin tətbiqi vasitəsilə yeni keyfiyyət sisteminə keçidi təmin edən proses başa düşülür [8, s.16].

Başqa sözlə, innovasiya özündə elmi-tədqiqata əsaslanan və bazarda reallaşdırılan yeniliyi ehtiva edir. Biznes sistemi müəyyən dərəcədə öz-özlüyündə innovasiyalı sayılır.

Bazar iqtisadiyyatı və rəqabət şəraitində biznes müəssisələri gəlir və mənfəət artımına nail olmaq üçün öz yeniliklərini həyata keçirməli olurlar. Heç də təşkilatların hamısı pul vəsaitlərini müəssisələrin innovasiya fəaliyyətinə qoymurlar və buna görə də gələcək inkişaf imkanlarını və perspektivlərini özləri işləyib hazırlamalı olurlar.

Bu cür işləmələrin həyata keçirilməsi üçün şirkətin yaradıcı potensialına söykənmək, müştərinin tələbatını bilmək və hətta tapmaq lazımdır. Əlbəttə, həmişə arzu olunur ki, yeni innovasiya məhsulu artıq bu gün olsun, lakin planlaşdırma zamanı kiçik və orta biznes daha böyük biznesə çevrilmək və qarşıdakı uzun müddətə innovasiya fəaliyyətini planlaşdırmaq imkanına malik olmaq üçün uzaq olmayan perspektivə söykənirlər. Lakin mürəkkəbliyə baxmayaraq, kiçik və orta biznes aşağıdakı bir sıra səbəblər üzündən təbii ki, innovasiyanın inkişafının özülü seçilə bilər:

- Kiçik və orta firmalarda elmi tədqiqatlar maksimum intensiv aparılır, çünki bütün qüvvə bir layihədə cəmləşir;
- Kiçik və orta firmalarda idarəetmə aparatı böyük deyil ki, bu da iri korporasiyalarda elmi-tədqiqat işlərinin səmərəliliyini aşağı sala bilən əlavə xərcləri aşağı salır və bürokratik vəziyyətlərdən qaçmağa imkan verir;
- Kiçik və orta müəssisələr, bir qayda olaraq, bazarın inkişaf meyllərini daha yaxşı görürlər, istehlakçıların tələblərinə daha bacarıqla uyğunlaşa bilirlər ki, bu da onların istehsalını daha çevik edir.

Bütün bunlar innovasiya prosesini sürətləndirməyə imkan verir və onu müvafiq olaraq, yekun mərhələsinə yaxınlaşdırır. Ən müsbət cəhət odur ki, tədqiqatçı firmalara marketinq, idarəetmə, kadr və s. vacib məsələlərdə onların investorlarından zəmanətli imic və ən yüksək dəstək yaranır. Mühasiblər, hüquqşünaslar, icarədarlar və digər əksagentlər bu firmalara gələcəkdə yüksək gəlir nəzərdə tutmaqla öz xidmətlərini güzəştlərlə təklif edirlər. Azərbaycanda bu investisiyalaşma inkişaf etdikcə, kiçik və orta biznesdə inkişaf perspektivləri ilə və daha əhəmiyyətli strukturlarda birləşməklə innovasiyalı inkişafın istiqamətlərinin məşhurluğu artacaqdır.

İqtisadi inkişafın hazırkı mərhələsində innovasiya prosesi milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması və davamlı inkişafın təmin edilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Təcrübə göstərir ki, innovasiyayönümlü iqtisadiyyatlarda innovasiya prosesi daha səmərəli və yüksək inkişaf səviyyəsinə malik olurlar. Odur ki, belə bir inkişaf təmayülünə istiqamətlənmə innovasiyaların əhəmiyyətini düzgün qiymətləndirməklə yanaşı, onun mahiyyətinin, hazırlanma mərhələlərinin, idarə edilməsi qanunauyğunluqlarının da daha düzgün dərk olunmasını və tədqiqini tələb edir.

Müasir qloballaşma şəraitində texnologiya sahəsində baş verən yeniliklər firmalar, xüsusilə də kiçik müəssisələr üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. İnnovasiya prosesinin səmərəliliyi xeyli dərəcədə bu sahədə çalışanların, o cümlədən firmaların, elmi-tədqiqat müəssisələrinin, universitetlərin peşəkarlıq fəaliyyətindən, onların yerli, milli və beynəlxalq səviyyədə əlaqələrindən asılıdır. Digər tərəfdən, innovasiya sisteminin səmərəliliyinə təsir edən amillər sırasına fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimlənmələrinin səmərəliliyi və s. aid olunur. Təsadüfi deyildir ki, prof. D.Ə. Vəliyev innovasiya prosesinin milli iqtisadiyyata müsbət təsir göstərə bilməsinin mühüm şərtlərindən biri kimi elmi-tədqiqat müəssisələri və universitetlər ilə sahibkarlar arasında qarşılıqlı əlaqələrin yaradılmasını və inkişaf etdirilməsini qeyd edir [3, s.52].

Alim bu sahədə dövlətin vəzifələri sırasına innovasiya sisteminin gücləndirilməsini, innovasiya üçün zəruri şəraitin yaradılmasını, yeni texnologiyanın yayılmasını, şəbəkələşmə və təmərküzləşmənin tətbiqini daxil edir [3, s.52-53].

Prof. A.B.Abbasova görə innovasiya prosesini səciyyələndirən cəhətlər aşağıdakılardan ibarətdir [1]:

- Qarşıya qoyulan məqsədə çatmaq üçün çoxlu qeyri-müəyyən yolların və yüksək riskin mövcudluğu;
- Dəqiq proqnoz qiymətləndirilməsinin aparılmasının qeyri-mümkünlüyü;
- İqtisadi münasibətlərin mövcud olduğu sferada gərginliyin aradan qaldırılması;
- İnnovasiya prosesinin bilavasitə iştirakçılarının mənafelərini qorumaq zərurəti.

Bəzi iqtisadçılar isə innovasiya prosesini, iqtisadiyyatı, elmi, texnikanı, sahibkarlığı və idarəetməni özündə birləşdirən yeganə proses kimi səciyyələndirir [2, s.351].

İnnovasiya prosesi dedikdə, müəssisənin hər bir həlqəsinin işinin rentabelliyinə nəzarət zamanı onun fəaliyyətinin müxtəlif sferalarının balanslaşdırılmasının təkmilləndirilməsi başa düşülür. Bütün yeniliklər firmanın işinin müxtəlif tərəflərinin sistemli, kompleks təhlili əsasında aparılır ki, burada da ən başlıcası alınmış nəticələrin artıq əldə edilənlərlə deyil, bazarın həmin vaxtda

malik odluğu potensialla (tutumluluqla) müqayisə etməkdən ibarətdir.

İnnovasiya prosesi müxtəlif mövqelərdən müxtəlif detallaşdırma dərəcəsi ilə baxıla bilər. Birincisi, elmi-tədqiqat, elmi-texniki, innovasiya, istehsal fəaliyyətinin və marketinqin paralel-ardıcıl həyata keçirilməsi kimi nəzərdən keçirilə bilər. İkincisi, ideyanın meydana çıxmasından onun işlənib hazırlanmasına qədər yeniliklərin həyat tsiklinin müvəqqəti mərhələləri kimi baxıla bilər. Üçüncüsü, məhsul və ya xidmətlərin yeni növünün işlənib hazırlanması və yayılmasının maliyyələşdirilməsi və investisiyalaşdırılması prosesi kimi verilə bilər. Bu halda o, investisiya layihəsinin təsərrüfat təcrübəsində geniş yayılmış xüsusi halı kimi çıxış edir.

Ümumi şəkildə innovasiya prosesi ixtiraların, yeni texnologiyanın, məhsul və xidmət növlərinin, istehsal, maliyyə, inzibati və s. xarakterli qərarların və intelektual fəaliyyətin digər nəticələrinin alınması və kommersiyalaşdırılmasından ibarətdir. Məhz bu proses sahibkarlığın inkişafının əsas impulsuna çevrilmişdir.

İnnovasiya sahibkarlığı prosesinin başlandığı məkan isə ideyadır. İnnovasiya ideyasının meydana çıxması üçün təkan rolunu biliklər, şəxsi və peşəkar təcrübə, eləcə də onu real vəziyyətə tətbiqetmə qabiliyyəti oynayır. İstənilən sahibkarlıq qabiliyyətinin həyata keçirilməsi həmişə hansısa ideyaya əsaslanır. Lakin innovasiya biznesi üçün düzgün ideya seçimi prinsipial əhəmiyyət kəsb edir və faktiki olaraq, layihənin gələcək uğurunun təminatçısı sayılır. Onu da qeyd edək ki, daimi olaraq yeni ideyaların axtarışı innovasiya biznesinin və kifayət qədər yüksək dərəcədə, bütövlükdə elmi-texniki tərəqqinin "hərəkətvericisi" hesab edilir.

İnnovasiya prosesi üçün ilkin resurs və ya "xammal"ı elmi biliklər, hərəkətverici qüvvəsi isə bazar tələbi sayılır. Yeni texnologiyalara tələb çox vaxt elm sferasının özündən elmi ictimaiyyətdən gəlməklə, elmin özünün daxili inkişaf məntiqi ilə müəyyən edilir. Bu halda yeni texnologiyaya, bu texnologiyanın məlum texnologiyalar qarşısında imkan və üstünlüklərini nümayiş etdirmək və sübut etmək üçün bazara "soxulmaq" lazım gəlir.

Bazar infrastrukturunun inkişafı ilə bazarın texnoloji inkişafa təsir dərəcəsi yüksəlir. Əksər hallarda məhz bazar tələbi yeni texnologiyaların və yeni məhsulların işlənib hazırlanması istiqamətlərini müəyyən edir. Bazar elm sferasından yeni keyfiyyət "dartıb çıxarır". Məsələn, tibdə lazer texnologiyaları elmdən çıxmışdır və elmi axtarışların nəticələrinin təsiri altında inkişaf etməkdə davam edir, çünki bu texnologiyaların istehlakçılarının böyük əksəriyyəti bu texnologiyaların mahiyyəti haqqında biliklərin məhdudluğu üzündən onların təkmilləşdirilməsi və dəyişdirilməsi istiqamətlərini müəyyən edə bilmirlər.

İnnovasiya biznesi ilə məşğul olan sahibkar üçün ona innovasiya ideyasını tapmağa kömək edən informasiya mənbələrini ayırmaq çox vacibdir. Belə mənbələr bazar və onun tələbatı haqqında, yeni texnologiyaların, materialların, istehsal üsullarının meydana çıxması haqqında, hansısa müəyyən əmtəə ilə təminatlıqda mövcud coğrafi uyğunsuzluqlar haqqında konkret biliklər ola bilər.

İnnovasiya fəaliyyəti əsasında innovasiya layihəsi hazırlanır. Bütövlükdə layihə kompleks təkrar olunmayan tədbir olub, vaxta, büdcəyə, resurslara görə məhdud, eləcə də yerinə yetirilməsi üzrə dəqiq göstərilərsə, sifarişçinin tələbi altında işlənib hazırlanan yeninin tətbiqini nəzərdə tutur. İqtisadi ədəbiyyatda innovasiya layihəsi dedikdə, elm və texnikanın prioritet inkişaf istiqamətlərində konkret məqsəd və vəzifələrin əldə olunmasına yönəldilmiş tədbirlərin resursları, müddətləri və icraçıları üzrə bir-biri ilə qarşılıqlı şərtlənən və bir-biri ilə bağlı proseslərin mürəkkəb sistemi başa düşülür [5, s.6]. Hesab edirik ki, innovasiya layihəsinə icraçıların göstərişi ilə yeni yüksək texnoloji məhsulların, istifadə olunan resursların və onların mənbələrinin yaradılması, istehsalı və bazara irəlilədilməsi üzrə planauyğun həyata keçirilməsi nəzərdə tutulan, vahid məqsəddə birləşən və müəyyən vaxta uyğunlaşdırılan iş və tədbirlər kompleksi kimi baxmaq lazımdır. İnnovasiya layihəsinin həyat tsikli-layihənin bütün icraçıları tərəfindən müəyyən ciddi ardıcıllıqla yerinə yetirilən iş və tədbirlərin tam kompleksidir. Beləliklə, layihənin həyat tsikli onun yaradılmasının bütün mərhələlərini – ideyanın meydana gəlməsindən başlamış, ETTKİ-nin aparılması, istehsalın hazırlığı, bilavasitə məhsulun istehsalı və onun reallaşdırılmasına qədər olan mərhələləri əhatə edir. Buraya, həmçinin satışdan sonrakı xidmət, istismar, bəzən də məhsulun utiləşdirilməsi də daxil ola bilər. Korporativ idarəetmə çərçivəsində, korporasiyanın davamlı inkişafı və innovasiya iqtisadiyyatının

tələblərinə uyğunlaşdırılması arasında optimal balansın qorunması vacibdir.

İnnovasiya istehsalının tətbiqi çərçivəsində müntəzəm yenidən qurulmanın həyata keçirilməsi iqtisadi cəhətdən mümkün deyildir, çünki bu, təsərrüfatçılığın səmərəliliyinin artırılmasına kömək etmir. Bu baxımdan aşağıdakı inkişaf variantları mümkündür (onların mümkün birləşməsi ilə):

- Korporasiyanın müxtəlif səviyyələrində müxtəlif idarəetmə metodlarının tətbiq edilməsi (funksional qurumlar və biznes xətləri);
- İdarəetmədə müxtəlif prioritetlərə yönəlik (korporasiyanın inkişaf mərhələsindən asılı olaraq).

Korporasiyanın və onun iş mühitinin genişləndirilməsi zamanı innovasiya iqtisadiyyatının tələblərinə uyğunlaşdırmaq və korporativ iqtisadi sistemin sabit vəziyyətə gətirmək arasında balansın uyğunluğunun monitorinqini əhatə edən ilk variantdan istifadə etmək mümkündür. Risklərin və ya perspektivlərin (daxili və xarici xüsusiyyətlərin) meydana çıxması şəraitində üstün inkişaf ssenarisi kimi bütün korporasiyalara aid sürətli dəyişikliklər (məsələn, restrukturizasiyanın aparılması) mümkündür.

Beləliklə, innovasiyaların tətbiqi prosesinə və onların dəyərinə müxtəlif təşkilati səviyyələrdə korporativ idarəetmənin keyfiyyəti və təşkili böyük təsir göstərir.

Biznes sferasında innovasiya layihələrinin iqtisadi səmərəliliyinin təmin olunmasında onların tərtibi və qiymətləndirilməsinin müasir tələblərə uyğun aparılması son dərəcə vacibdir, çünki o, əslində innovasiya strategiyasının formalaşmasının əsas meyarı kimi çıxış edir.

## ƏDƏBİYYAT

1. Biznesin əsasları. Dərslik. Prof. A.B. Abbasovun ümumi redaktəsi ilə. Bakı: Nurlan, 2005, 656 s.
2. Əhmədov M.A. Qloballaşma və milli iqtisadiyyatın formalaşması. Bakı: Azərnəşr, 2003, 520 s.
3. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı: Adiloğlu, 2008, 428 s.
4. Абалкин Л. Логика экономического роста. М., Институт экономики РА.Н, 2012
5. Дроботов А.С. Анализ эффективности инновационных проектов технических систем// Автореферат дисс. на соиск. Ученой степени кондидата экономических наук, Волгоград: 2013, 20 с.
6. Ленчук Е.Б. Инновационный процесс в переходной экономике. Автореф.дис.на соиск.уч. степени доктора экономических наук. М.: 2007, 23 с.
7. Портер М.. Конкуренция. М.: Издательский дом "Вильямс", 2013, 496 с.
8. Савельева И.Н. Развитие малого инновационного предпринимательства в промышленности. Автореферат дисс. на соиск. Ученой степени кондидата экономических наук, Екатеринбург: 2011, 27 с.

## РЕЗЮМЕ

**Мубариз Тахмазов**

### ИННОВАЦИИ КАК ВАЖНЕЙШЕЕ НАПРАВЛЕНИЕ КОРПОРАТИВНОГО УПРАВЛЕНИЯ

В статье обоснована важность инноваций в корпоративном управлении, а также изложены условия, которые следует учитывать в рамках корпоративного управления. Выявлена необходимость оценки уровня внедрения инноваций с точки зрения разработки и реализации бизнес-стратегии, а также исследовано влияние инновационной деятельности на качество и организацию корпоративного управления.

## SUMMARY

**Mubariz Tahmasov**

### INNOVATİON AS THE MOST İMPORTANT DİRECTİON OF CORPORATE GOVERNANCE

The article justified the importance of innovation in corporate governance, and outlined the conditions to be considered within corporate governance. The need to assess the level of innovation implementation in terms of business strategy formulation and implementation has been identified, and the impact of innovation activities on the quality and organization of corporate governance has been investigated.

# III BÖLMƏ
# XARİCİ İQTİSADİ ƏLAQƏLƏR VƏ İNNOVASİYA

**CEYHUN MAHMUDOV**
*Naxçıvan Dövlət Universiteti*
*ceyhun.ilhamoglu@gmail.com*

## İNNOVASİYA POTENSİALININ REALLAŞDIRILMASI REGİON İQTİSADİYYATININ TARAZLI İNKİŞAFININ ZƏRURİ ŞƏRTİ KİMİ

***Açar sözlər:*** *innovasiya, innovasiya potensialı, tarazlı inkişaf, region iqtisadiyyatı, regional sosial-iqtisadi inkişaf*

***Ключевые слова:*** *инновации, инновационный потенциал, устойчивое развитие, экономика региона, региональное социально-экономическое развитие.*

***Key words:*** *innovation, innovative potential, sustainable development, region economy, regional socio-economic development.*

Qloballaşan dünyada Azərbaycan iqtisadiyyatının xammala istiqamətlənməsi, regionlarda istehsal və innovasiya infrastrukturlarının lazımi səviyyədə inkişaf etməməsi, emal müəssisələrinin texniki-texnoloji səviyyəsinin innovasiyalı iqtisadiyyatdan geri qalması, rəqabətədavamlı məhsulların az sayda istehsalı, həmin səbəbdən ölkəyə gətirilən məhsulların sayının ixrac edilənlərin sayından bir neçə dəfə çox olması, elmlə istehsalat arasında əlaqələrin lazımi səviyyədə təşkil edilməməsi və s. kimi problemlərin həlli üçün Azərbaycanın regionlarında elmə və biliyə əsaslanan, rəqabətədavamlı innovasiya meyilli iqtisadiyyatın təşkilinə ehtiyac duyulur.

İnnovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması üçün regionların mövcud innovasiya potensialının reallaşdırılması əsasında inkişaf etdirilməsi öz iqtisadi və sosial əhəmiyyəti ilə diqqəti cəlb edir və yeni nailiyyətlərin əldə olunması baxımından önəmlidir.

Azərbaycanın regionlarının zəngin təbii ehtiyatlarından, geniş sənaye və kənd təsərrüfatından, enerji sistemindən, sosial infrastrukturundan, əmək ehtiyatlarından səmərəli istifadə etməklə tarazlaşdırılmış sosial-iqtisadi inkişafa nail olmaq üçün regionların innovasiya potensialının reallaşdırılmasını əhatə edən regional innovasiya konsepsiyanın işlənilməsi və icrası vacibdir. Məhz bu baxımdan məqaləmizdə regionun innovasiya potensialı və onun reallaşdırılması iqtisadiyyatın tarazlı inkişafının mühüm şərtlərindən biri kimi araşdırılmışdır.

***İnnovasiya potensialı və onun reallaşdırılması prosesi***

Bu gün Azərbaycanın regionlarının iqtisadiyyatının keyfiyyətcə yeni səviyyəyə keçməsi yalnız innovasiya fəaliyyəti və ya yenilik əsasında mümkündür. Bu fəaliyyətin həyata keçirilməsi isə regionların mövcud innovasiya potensialının dəyərləndirilməsinə və səmərəli reallaşdırılmasına əsaslanır. Qeyd etdiyimiz bu fikirlər öz təsdiqini innovativ inkişaf ssenarisinin ölkəmiz qarşısında iqtisadi artım tempinin yüksədilməsi, milli müəssisələrin innovasiya fəallığının artırılması, həmçinin dünya yüksək texnologiyalar bazarlarında mövqeyimizin genişləndirilməsi kimi ciddi vəzifələr qoyan Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsində təsbit edilmiş əsas müddəalardan biri olmasında tapır [1].

Qeyd edək ki, iqtisad elmində innovasiya potensialının dəyərləndirilməsinə mahiyyətcə bir-birinə yaxın olan müxtəlif yanaşmalar mövcuddur. İnnovasiya potensialı anlayışının mahiyyətini araşdırmazdan ilk əvvəl, qeyd edək ki, iqtisadi ədəbiyyatlarda (Böyük İqtisadi Ensiklopediyada) "potensial" termini aşağıdakı kimi şərh edilir: "hər hansı bir problemi həll etmək, müəyyən bir məqsədə nail olmaq üçün istifadə olunan, hərəkətə gətirilən mənbələr, imkanlar, vasitələr, ehtiyatlar" [2]. Camid Mövsümovun tərtib etdiyi izahlı iqtisadi lüğətə görə "potensial" anlayışı hər hansı bir sahəyə müvafiq olaraq "imkan, şərait və fürsətlər" anlayışlarının sinonimi kimi başa düşülür [4].

Y.O.Baklanovaya əsaslanaraq qeyd edək ki, regionun innovasiya potensialı adı altında elm və texnikanın iqtisadi inkişafa təsirinin optimallaşdırılması üçün bu sahəyə bazar prinsiplərinin tətbiqi yolu ilə şəraitin yaradılması vasitə və imkanları başa düşülür [6].

S.İ.Kravçenko və İ.S.Kladçenko öz araşdırmalarında innovasiya potensialını tələbatların ödənilməsi məqsədilə sistemin yeni bir vəziyyətə transformasiyası qabiliyyəti kimi şərh edirlər [9]. Həmçinin bu araşdırmada qeyd edilir ki, innovasiya potensialından səmərəli istifadə etməklə gizli fürsətdən aydın reallığa, yəni sistemin bir vəziyyətdən digərinə keçidi baş verir. İnnovasiya potensialı sistemin dəyişmə, inkişaf və irəliləmə qabiliyyətidir.

İ.V.Şlyaxto innovasiya potensialını yeniliklərin yaradılması və həyata keçirilməsi ehtimalı, yeniliklərin dünya səviyyəsində səmərəli istifadəsi üçün onların mənimsənilməsinə hazır olma kimi nəzərdən keçirir [11].

Beləliklə, regionun innovasiya potensialı dedikdə, region iqtisadiyyatının tarazlı inkişafı məqsədilə innovasiya fəaliyyətinin həyata keçirilməsinə şərait yaradan qarşılıqlı bağlı resurs və şərtlərin məcmusu başa düşülür. Bu bir tərəfdən innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan müxtəlif növ resursların (maddi, maliyyə, intellektual, elmi-texniki və s. resurslar) məcmusu, digər tərəfdən isə region iqtisadiyyatının yeniliklərin gələcək səmərəli istifadəsi üçün onları qəbul etməyə və ya mənimsəməyə hazır olmasıdır.

Mövcud innovasiya potensialının reallaşdırılmasının əsas xüsusiyyətlərindən biri region iqtisadiyyatının keyfiyyətcə yeni inkişaf səviyyəsinə keçməsinə zəmin yaradan regional iqtisadi sistemin vəziyyətinin böhran nöqtələrinin və hədlərinin müəyyənləşdirilməsidir. Bu zaman regionun innovasiya potensialından səmərəli istifadənin məqsədi yeniliklərin tətbiq edilməsi hesabına regionun tarazlı inkişafının təmin edilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi və uzunmüddətli perspektivdə rəqabət qabiliyyətliliyinin artırılmasıdır. İnnovasiya potensialı yalnız regionun innovasiya-yönümlü inkişafı üçün mövcud imkanların xarakteristikası deyildir. Bununla yanaşı, əlverişli bir innovasiya mühiti olan innovasiya potensialının normal vəziyyətinin təsvirinə malik olmaqla onun tələb olunan səviyyəyədək inkişaf mexanizmlərinin müəyyənləşdirilməsi mümkün olur.

Regionun innovasiya potensialına təsir edən, onun miqyasını formalaşdıran və istifadə istiqamətlərini müəyyən edən əsas amillərə aşağıdakıları aid etmək olar:

1. Regional hakimiyyət orqanları tərəfindən həyata keçirilən innovasiya siyasəti;
2. Regionda fəaliyyət göstərən maliyyə-kredit qurumlarının siyasəti;
3. İstehlakçı seçimində dəyişikliklər;
4. Rəqabətin xarakteri;
5. Ərazi innovasiya infrastrukturunun mövcud inkişaf səviyyəsi;
6. Müvafiq ərazi hüdudları çərçivəsində öz fəaliyyətini həyata keçirən təsərrüfat subyektlərinin innovasiya strategiyaları;
7. Bu və ya digər regionun sosial-iqtisadi inkişaf maraqlarına uyğun olaraq, bu ərazi hüdudları çərçivəsində və onun hüdudlarından kənarda toplanmış elmi-texniki işləmələr.

Regional innovasiya potensialının formalaşmasına təsir edən yuxarıda sadaladığımız amillər innovasiya potensialının həm kəmiyyət parametrlərini, həm də yenilikləri yaymaq imkanlarını müəyyənləşdirir.

Fikrimizcə, məhz bu baxımdan D.İ.Kokurinin qeyd etdiyi kimi, innovasiya fəaliyyətinin mahiyyətinə "iyerarxik şəkildə qurulmuş anlayışlar sistemi olan" iqtisadi kateqoriya kimi yanaşmaq lazımdır [8].

İnnovasiya potensialının resurs bazasının formalaşdırılması, innovasiya fəaliyyəti məhsullarının yaradılması və onun son nəticələrinin birbaşa istehsal sferasında tətbiq edilməsi xüsusunda iqtisadi münasibətlər müvafiq olaraq innovasiya fəaliyyətinin resurs potensialını (birinci səviyyə), innovasiya prosesinin özünü (ikinci səviyyə) və iqtisadi əlaqələrin maddi istehsalını (üçüncü səviyyə) xarakterizə edir.

Regionun innovasiya potensialının iqtisadi mahiyyəti və strukturunun, müxtəlif istiqamətlərdə istifadəsinin araşdırılması prosesində müasir iqtisadçılar tərəfindən onun strukturunun bir neçə müstəqil qrupa ayrılması qərarlaşdırılmışdır.

Regionun innovasiya potensialının iyerarxiya səviyyəsinə görə təsnifatı, yəni beynəlxalq,

milli, regional, sahə, həmçinin elmi-tədqiqat təşkilatlarının və onların qruplarının potensialına ayrılması bütün seçilmiş iyerarxik səviyyələr üzrə potensialın istifadəsinin ətraflı öyrənilməsinə yönəldilmişdir [7].

Regionun innovasiya potensialının sahə quruluşuna maddi istehsal sahəsinin, qeyri-istehsal sferasının elmi-texniki potensialı, bu sahələrə (maddi və qeyri-maddi istehsal) daxil olan müəssisə və təşkilatların potensialı daxildir. Regionun innovasiya potensialının sahə əlamətinə görə təsnifatlandırılması regionun elmi-texniki potensialının sahələrarası əlaqələrinin öyrənilməsinə istiqamətlənmişdir.

İnnovasiya potensialının regional strukturu ölkəmizin inzibati və iqtisadi bölgüsünə uyğun olaraq, təfərrüatı ilə işlənilmişdir.

Ölkəmizdə bazar münasibətlərinin qanunauyğunluqlarına əsasən innovasiya potensialını mülkiyyət meyarına görə dövlət, xüsusi (özəl) və qarışıq mülkiyyət potensialına ayıra bilərik.

İnnovasiya potensialının funksional xarakteri ayrı-ayrı funksional komponentlər üzrə (kadr, maddi-texniki, informasiya) onun xüsusiyyətlərinin məqsədəuyğunluğunu müəyyənləşdirir ki, bu da onlar arasındakı bütün mümkün qarşılıqlı əlaqələri dəqiq müəyyənləşdirməyə, inkişaf meyillərinin ətraflı təhlil edilməsinə və potensialın komponentləri arasındakı əlaqələrin yaxşılaşdırılması istiqamətlərinin seçilməsinə imkan verir.

Bundan əlavə, formalaşma mənbəsinə görə regionun innovasiya potensialını şəxsi (və ya özünəməxsus) və cəlb edilmiş potensiala ayırmaq olar. Regionun innovasiya potensialına olan ehtiyac bir tərəfdən mənsub olduğu ümummilli sahəyə xidmət etməsi ilə, digər tərəfdən yerləşdiyi regionun ehtiyaclarının ödənilməsinə çalışmaqla bağlıdır. Qeyd etdiklərimiz regionun innovasiya potensialının formalaşma əlamətinə görə təsnifatlandırılmasının vacibliyini müəyyənləşdirir. Belə ki, regionun şəxsi innovasiya potensialı regionda toplanmış innovasiya potensialının dəyər kəmiyyətini, cəlb edilmiş potensial isə digər sahə və regionlardan cəlb edilən potensialın dəyər kəmiyyətini əks etdirir.

Deməli, regional səviyyədə innovasiya potensialının zənginləşməsi yalnız həmin region ərazisində yerləşən elmi qurumlar və layihə-konstruktor büroları hesabına deyil, həmçinin digər bölgələrin innovasiya potensialının topladığı nailiyyətlər hesabına da formalaşır. Dövlətlərarası səviyyədə milli innovasiya potensialının qarşılıqlı əlaqəsinə beynəlxalq elmi-texniki əməkdaşlıq imkan yaradır.

Regionun innovasiya potensialı elm sahələrinə görə (fizika, kimya, iqtisadiyyat və s.) və regionun prioritet istiqamətlərinə görə (gen mühəndisliyi, seleksiya və genetikaya əsaslanan biotibbin və biotexnologiyanın inkişafı; ən yeni informasiya texnologiyaları və sistemlərinin inkişafı; enerjiyə qənaət edici texnologiyalar və qeyri-ənənəvi resurslar; təbii xammaldan ibarət ənənəvi materiallara olan tələbatın azaldılmasını təmin edən prinsipcə yeni materialların yaradılması; yeni nəsil maşın və istehsal texnologiyaları sisteminin işlənilməsi; aviakosmik texnologiyaların inkişafı; yeni nəsil nəqliyyat və rabitə vasitələrinin inkişafı; yeni nəsil müdafiə və təhlükəsizlik sistemlərinin inkişafı; rekreasiya xidməti, turizm və idman sənayesi) təsnifatlandırıla bilər.

Yuxarıda qeyd olunanlara əsaslanaraq region iqtisadiyyatının tarazlı inkişafını konseptual olaraq şəkil 1-də təqdim olunan struktur əsaslı bir model şəklində göstərmək olar. Bu model regionun innovasiya potensialının onun iqtisadiyyatının tarazlı inkişafına təsirini strukturca açmağa imkan verən "qara qutu" kibernetik modelinə əsaslanır.

Tərtib etdiyimiz model regionun innovasiya potensialı ilə iqtisadiyyatının tarazlı inkişafı arasında qarşılıqlı əlaqənin mövcudluğu haqqında nəticə çıxarmağa imkan verir. Bu model region iqtisadiyyatının tarazlı inkişafını təmin etməyə yönəlmiş idarəetmə qərarlarının reallaşdırılması üçün metodoloji əsas rolunu oynayır və onun praktikada reallaşdırılması regionun inkişafının strateji istiqamətlərini əsaslı şəkildə yenidən nəzərdən keçirməyə imkan verəcəkdir.

Bildiyimiz kimi, bu gün Azərbaycanın regionlarının tarazlı inkişafını təmin etmək yollarından biri innovativ inkişaf yoluna keçiddir. Bu o deməkdir ki, Azərbaycanın regionlarının iqtisadiyyatlarının tarazlı inkişafının təmin edilməsi innovativ əsaslarla həyata keçiriləcəkdir. İnnovasiya potensialının reallaşdırılması əsasında regionların tarazlı inkişafına nail olunması üçün uzun bir müddət (zaman) lazımdır. Dünya təcrübəsinin öyrənilməsi timsalında R.İ.Naydenovanın apardığı tədqiqatlara əsaslanaraq bu müddətin iki mərhələdən ibarət olduğunu qeyd edə bilərik [10]. Birinci mərhələnin

əsas məqsədi insan potensialının inkişafı və səmərəli istifadəsi, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi və texniki-texnoloji cəhətdən yenidən qurulması, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması əsasında region əhalisinin həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsidir. Bu mərhələdə aşağıdakı proseslər başa çatdırılmalıdır:

a) Tarazlı inkişaf üçün zəruri olan qanunvericilik və hüquqi bazanın yaradılması;

b) Əmtəə və xidmətlərin səmərəli təkrar istehsalını təmin edən, uzunmüddətli iqtisadi artım potensialına malik olan və əhalinin rifah halının yüksəldilməsi məsələsini həll etməyə imkan verən regional iqtisadiyyatın yeni modelinin formalaşdırılması.

***Şəkil 1. Region iqtisadiyyatının tarazlı (tarazlaşdırılmış) inkişafının struktur əsaslı modeli***




İkinci mərhələnin məqsədi biosferin imkanları daxilində təsərrüfat fəaliyyətinin inkişaf etdirilməsi və diqqətin maddi dəyərlərdən mənəvi dəyərlərə keçirilməsi əsasında təbiətlə cəmiyyət arasındakı qarşılıqlı əlaqələrin uyğunlaşdırılmasıdır.

Nəticə etibarilə innovasiya potensialını və onun reallaşdırılması prosesini yalnız o halda düzgün qiymətləndirmək olar ki, innovasiya fəaliyyəti elmi-texniki və istehsal fəaliyyəti ilə birlikdə

bütöv bir tam kimi nəzərdən keçirilsin. Başqa sözlə desək, elm, innovasiya və istehsal vahid üzvi sistem kimi çıxış etməlidirlər. Təsadüfi deyildir ki, professor D.Ə.Vəliyev innovasiya potensialının reallaşdırılması prosesinin milli iqtisadiyyata müsbət təsir göstərə bilməsinin mühüm şərtlərindən biri kimi elmi-tədqiqat müəssisələri və universitetlər ilə sahibkarlar arasında qarşılıqlı əlaqələrin yaradılmasını və inkişaf etdirilməsini qeyd edir [5, s.52-53]. Beləliklə, sistemin seçilmiş halqalarının hər birinin müvafiq idarəetmə səviyyəsində sıx qarşılıqlı əlaqə və inkişafına imkan yaradan iqtisadi şəraitin hakimiyyət orqanları tərəfindən yaradılması regional innovasiya potensialının maksimum inkişafına səbəb olacaqdır.

***İnnovasiya potensialının reallaşdırılması istiqamətlərindən biri kimi elmi potensialdan istifadənin konseptual əsasları***

Elmi-texniki innovasiyaların başlıca mənbəyi olan insan bacarıqları və yaradıcı düşüncə təhsil müəssisələrində, universitetlərdə formalaşır. Bilik iqtisadiyyatının inkişafı ilə əlaqədar olan qlobal çağırışlar ali məktəblərin ölkənin və regionların innovasiyalı inkişafının fəal subyektlərinə çevrilməsini tələb edir. Müasir dövrdə ali məktəblərin məsuliyyəti mütərəqqi innovasiya infrastrukturunun formalaşdırılması və innovasiya potensialının səmərəli reallaşdırılması zərurətindən irəli gəlir.

İnnovativ əsaslara dayanan iqtisadiyyat – sabahın yeni nəsil iqtisadi strukturudur. Bu yeni idarəedicilər, yeni nəsil alimlər, yeni sahibkarlar – bir sözlə, "yeni nəsil" deməkdir. Yeni nəslin rolu nədən ibarətdir, səmərəli idarəetməyə, elmdə və iqtisadiyyatda yüksək nailiyyətlər əldə edilməsinə necə təsir göstərəcəkdir? Yeni nəsil bu gün universitetlərdə müasir tələblər baxımından təhsil alan, yeniliklərə açıq, intellektual, təşəbbüskar, güclü kreativ potensiala və digər qabiliyyətlərə malik olan kadrlar məcmusudur. İnkişafın müasir texnoloji mərhələsində formalaşan bu yeni nəsil kadrlar iqtisadiyyata və sosial həyata ənənəvi yanaşmadan uzaqlaşaraq yeni təfəkkür və düşüncə tərzi ilə təsir göstərməklə aparıcı qüvvəyə çevriləcəkdir. Məhz bu baxımdan innovasiyalı iqtisadiyyatın formalaşması üçün yeni tipli mütəxəssis hazırlığında universitetlərin üzərinə mühüm vəzifələr düşür.

Biliklə işləmək texnologiyaları biliyi sürətlə yaymağa imkan verir, komandanın səmərəli işinə səbəb olur, biliklərin törəməsində və onların idarə olunmasında yeni üsullar yaradır. Biliklərin idarə olunmasına aşağıdakılar daxildir:

- Hazırlıq və təhsil məqsədilə yerləşdirilmiş biliklərin tətbiqi;
- Qruplarla işəməyə və kollektiv bilikdən mənfəət almağa imkan verən biliklərin praktikasının tətbiqi;
- Məlumatlar bazasının tətbiqi;
- Xarici informasiyanın inteqrasiyası.

Biliklərin əldə edilməsi vərdişləri təhsillə əlaqəlidir. Bu vərdişlərə prioritetləri təyin etmək və gələcəkdə hansı biliklərin lazım olacağını müəyyənləşdirmək bacarığı aiddir. Biliyin yaradılması vərdişləri yeni biliklərin törəməsi üçün informasiyanın təhlili və tədqiqatların layihələndirilməsi kimi sahələrdən ibarətdir. Biliklərin təşkili vərdişləri yaradıldığı andan biliklərin planlaşdırılması, nəzarəti, təşkili və onlara rəhbərlik məsələlərinə toxunur. Biliklərin tətbiqi vərdişləri işin yerinə yetirilməsi prosesində biliklərdən istifadə ilə bağlıdır və qoyulmuş məsələdən asılı olurlar. Bu məsələlər qismində yeni məhsulların yaradılması, firmaların struktur cəhətdən yenidən təşkil edilməsi və s. çıxış edə bilər. Biliklərin yayılması və digərlərinə ötürülməsi ona görə vacib məsələdir ki, onlardan əldə edilmiş bilik kimi istifadə imkanı başqalarına da verilmiş olsun. M.Ə.Cabbarzadənin tədqiqatlarına əsaslanaraq qeyd edək ki, biliyin firmada transformasiyası prosesinin son mərhələsi, adətən, digər firmada biliklərin transformasiyasının birinci mərhələsi kimi xidmət edir. Ayrıca firma çərçivəsində biliklərin tətbiqi – biliklərin transformasiyası prosesinin son mərhələsidir və burada bilik fəaliyyətə çevrilir [3, s. 259-266].

Müasir dövrdə dünya universitetləri kadr hazırlığının həyata keçirilməsi, elmi-tədqiqat işlərinin yerinə yetirilməsi kimi ənənəvi funksiyaları ilə yanaşı, innovasiyaların yayılması və innovasiya potensialının reallaşdırılması funksiyalarını da yerinə yetirirlər. Bu proses artıq ölkəmizin ali təhsil müəssisələrinə də sürətlə nüfuz etməkdədir. Fikrimizcə, böyük elmi və yaradıcı potensialın

cəmləşdiyi ali təhsil müəssisələri ölkəmizdə innovasiya potensialının reallaşdırılmasının əsas mərkəzinə çevrilə biləcəkdir.

***Nəticə***

Apardığımız tədqiqatların nəticələrinin ümumiləşdirilməsi Azərbaycanın əksər regionlarının innovasiya potensialının reallaşdırılması problemlərini aşağıdakı şəkildə müəyyənləşdirməyə və strukturlaşdırmağımıza imkan vermişdir (cədvəl 1).

**Cədvəl 1.** ***Azərbaycanın regionlarının innovasiya potensialının reallaşdırılması problemləri***

| Problemlər | Məzmunu |
|---|---|
| İstehsal xarakterli problemlər | ▪ Əmək qabiliyyətli əhalinin, ixtisaslı işçi qüvvəsinin digər regionlara axını və regionun əmək potensialını itirməsi;<br>▪ Müəssisələrin innovasiya fəaliyyətinin aşağı səviyyədə olması;<br>▪ Təşkilatların yeniliklərə etinasız yanaşması. |
| Maliyyə-iqtisadi xarakterli problemlər | ▪ İnnovasiya fəaliyyətinin maliyyələşdirilməsi mənbələrinin, ilk növbədə, şəxsi pul vəsaitlərinin azlığı və ya çatışmazlığı;<br>▪ İnnovasiya məhsullarına tələbatın az olması;<br>▪ Əhalinin həyat səviyyəsinin aşağı olması. |
| İnstitusional xarakterli problemlər | ▪ Qanunvericiliyin mükəmməl olmaması;<br>▪ İnnovasiya potensialının əsas elementlərinin inkişafının tarazlaşdırılmaması;<br>▪ Regional innovasiya infrastrukturunun inkişaf etməməsi. |
| İdarəetmə xarakterli problemlər | ▪ İdarəetmə heyətinin ixtisas səviyyəsinin yetərli olmaması. |

Apardığımız araşdırmanın əldə edilmiş nəticələrinə əsaslanaraq son olaraq qeyd edək ki, Azərbaycanın regionlarının innovasiya potensialının reallaşdırılması problemlərinin aradan qaldırılmasında təhsil müəssisələrinin, xüsusilə universitetlərin üzərinə böyük məsuliyyət düşür. Fikrimizcə, yuxarıda sadalanmış problemlərin həll edilməsi və regionların innovasiya potensialının reallaşdırılması prosesinin aktivləşdirilməsi məqsədilə ölkəmizin universitetləri innovasiya layihələrinin məqsədyönlü axtarışı və reallaşdırılması, ali məktəblərin elmi işləmələri əsasında kiçik innovasiya müəssisələri zolağının yaradılması, elmi nailiyyətlərin və yeni texnologiyaların region müəssisələrinə ötürülməsi, innovasiya fəaliyyətinin kadr təminatı və s. kimi vəzifələri yerinə yetirməlidirlər.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Strateji Yol Xəritəsi" /statis.prezident.az/pdf, 947 s.
2. Böyük İqtisadi Ensiklopediya. IV cild, Bakı, Azərbaycan İqtisadçılar İttifaqı, 2012, 592 s.
3. Cabbarzadə M.Ə. İqtisadiyyatda innovasiya proseslərinin inkişafı və elmi potensialdan səmərəli istifadənin nəzəri əsasları. AMEA Naxçıvan bölməsinin "Xəbərlər"i. İctimai və humanitar elmlər seriyası. 2013, №1, 306 s.
4. Mövsümov C. İqtisadi lüğət. Bakı, 2012, 483 s.
5. Vəliyev D.Ə. Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, "Adiloğlu", 2008, 428 s.
6. Бакланова Ю. О. Инновационный потенциал региона и его открытость по отношению к внешней среде // Инновации. Инвестиции. 2010. № 1
7. Буянова М. Э., Трухляева А. А. Инновационный потенциал макрорегионов Российской Федерации: анализ и оценка (на примере Южного федерального округа) // Национальные интересы: приоритеты и безопасность 2008. № 11 (32)

8. Кокурин Д. И. Инновационная деятельность. М., 2001
9. Кравченко С. И., Кладченко И. С. Исследование сущности инновационного потенциала // Научные труды Донецкого национального технического университета. Серия Экономика. Донецк, 2003. Вып. 68
10. Найденова Р. И. Формирование системы управления устойчивым развитием региона // Российское предпринимательство. 2007. № 8. Вып. 2 (96)
11. Шляхто И. В. Оценка инновационного потенциала региона // Управление общественными и экономическими системами. 2007. № 1

## РЕЗЮМЕ

**Джейхун Махмудов**

## РЕАЛИЗАЦИЯ ИННОВАЦИОННОГО ПОТЕНЦИАЛА КАК НЕОБХОДИМОЕ УСЛОВИЕ УСТОЙЧИВОГО РАЗВИТИЯ ЭКОНОМИКИ РЕГИОНА

В статье представлено исследование инновационного потенциала региона как одного из важнейших условий обеспечения устойчивого развития экономики. В научном статье на основе изучения системообразующих элементов региональной экономики разработана структурно-содержательная модель устойчивого развития экономики региона.

Особое внимание в статье уделено механизму обеспечения устойчивого развития экономики региона на основе реализации инновационного потенциала, а также комплексу направлений и мер, реализуемых в рамках региональной экономической политики для регионов с низким уровнем инновационного потенциала.

## SUMMARY

**Ceyhun Mahmudov**

## REALIZATION OF INNOVATIVE POTENTIAL AS NECESSARY CONDITION OF THE SUSTAINABLE DEVELOPMENT OF THE REGION ECONOMY

In article research of innovative capacity of the region as one of the most important conditions of providing a sustainable development of economy is presented. In scientific articles on the basis of studying of backbone elements of regional economy the structural and substantial model of a sustainable development of the region economy is developed.

The special attention in article is given to the mechanism of providing a sustainable development of the region economy on the basis of realization of innovative potential, and also to a complex of the directions and the measures realized within regional economic policy for regions with low level of innovative potential.

**ƏŞRƏF ƏLƏKBƏROV**
*Naxçıvan Dövlət Universiteti*
*a.ashraf@mail.ru*

# İNNOVASİYALI İNKİŞAFDA STARTAPLARIN ROLU

***Açar sözlər:*** *qloballaşma, iqtisadi inkişaf, innovasiya, startap, texniki tərəqqi*
***Ключевые слова:*** *глобализация, экономическое развитие, инновации, startup, технический прогресс*
***Key words:*** *globalization, economic development, innovation,startup, technical progress*

Müasir qloballaşma şəraitində texnologiya sahəsində baş verən yeniliklər firmalar, xüsusilə də kiçik müəssisələr üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. İnnovasiyanın səmərəliliyi xeyli dərəcədə bu sahədə çalışanların, o cümlədən firmaların, elmi-tədqiqat müəssisələrinin, universitetlərin peşəkarlıq fəaliyyətindən, onların yerli, milli və beynəlxalq səviyyədə əlaqələrindən asılıdır. Digər tərəfdən, innovasiya sisteminin səmərəliliyinə təsir edən amillər sırasına fərdləri və müəssisələri öyrənməyə stimullaşdıran şərtlər, maliyyə sisteminin etibarlılığı, bu sahədə dövlət tənzimlənmələrinin səmərəliliyi aid olunur.

İnnovasiaya uğurlu texnoloji dəyişikliklərin məhsulu kimi xarakterizə olunmaqdadır. Yeniliklərin iqtisadi faydalarına yalnız yeni məhsulu uğurla təqdim etməklə nail olmaq olar. Bu da yeni bir prosesi təqdim etmək və ya uğurla istifadə etməklə özünü təzahür edir. Buna görə uğurlu yeniliklərin dərəcəsi yalnız texnoloji girişlərin keyfiyyətindən və miqdarından asılıdır. Burada, həmçinin innovasiyaların istehsala tətbiqi, marketinqi və idarə edilməsi də vacib amillərdən hesab olunur.

İnnovasiya prosesi yeni növ məhsulun mənimsənilməsi və buraxılan məhsulun modernləşdirilməsini, yeni maşın, avadanlıq və materialların istehsalata tətbiqini, yeni texnologiyalardan və məhsulun istehsalı üsullarından istifadə edilməsini, habelə istehsalın təşkilinin və mütərəqqi idarəetmə metodlarının, vasitə və qaydalarının tətbiqini nəzərdə tutur.

İnnovasiya prosesi müxtəlif yollarla həyata keçirilə bilər. Hər bir konkret halda daha səmərəli yolun seçilməsi texnologiyanın xarakteri, son məhsul bazarı, firmanın potensialı, iqtisadi iqlim, rəhbərliyin səriştəlilik dərəcəsi kimi şərt və amillərdən asılıdır. İstənilən halda müxtəlif qruplar tərəfindən həyata keçirilən çoxüzlü və çoxmərhələli proseslərin, bir çox insanlar, bölmə və təşkilatlar arasında dinamik qarşılıqlı təsirin rolu böyükdür. Bununla yanaşı, həmişə uğur qazanılması maneə və müqavimətin aradan qaldırılması ilə bağlıdır. Odur ki, innovasiyalar təşəbbüssüz və inadsız, habelə istehsal, insan, təşkilati və sosial amillər sahəsində iri xərclər çəkmədən mümkün deyildir.

Hal-hazırda ölkə gündəmində iqtisadiyyatın modernləşməsi və yerli məhsulların rəqabət qabiliyyətliyinin artırılması ən aktual mövzulardan biri kimi çıxış edir. İqtisadiyyatın müxtəlif sahələrində innovativ üsulların tətbiqi sayəsində ölkə iqtisadiyyatı şaxələndirilmiş, qeyri-neft sektoru inkişaf etdirilmiş, bunun da məntiqi nəticəsi olaraq minlərlə yeni iş yerləri açılmışdır.

Ötən dövrlərdə olduğu kimi, Azərbaycan iqtisadiyyatında müsbət meyillər getdikcə güclənib. Bu meyillər sosial-iqtisadi sabitliyin təmin olunması, iqtisadi islahatların sistemli şəkildə aparılması və xarici investisiya qoyuluşlarının həcminin artmasında özünü daha qabarıq büruzə verib.

Statistika Komitəsinin məlumatına görə, 2019-cu ilin yanvar-noyabr aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 42,2 milyard manatlıq və ya 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çox sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft-qaz sektorunda məhsul istehsalı 13,9 faiz artıb. Hüquqi və fiziki şəxslər dünyanın 186 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 113 ölkəyə məhsul ixrac olunub, 177 ölkədən isə idxal reallaşdırılıb. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1639,1 min nəfər olub, onlardan 909,5 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 729,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə reallaşdırılan kompleks sosial islahatlar

nəticəsində ölkədə minimum aylıq əməkhaqqı məbləğinin 250 manata qaldırılması, dövlət qulluqçularının, dövlət büdcəsindən maliyyələşən bir sıra idarə, müəssisə və təşkilatlarda əməkhaqlarının əhəmiyyətli dərəcədə artırılması, bununla əlaqədar özəl sektorda işləyənlərin də əməkhaqlarının yüksəlməsi, eyni zamanda, bu sahədə şəffaflaşma proseslərinin sürətləndirilməsi nəticəsində 2019-cu ilin sentyabr ayında ölkə üzrə orta aylıq nominal əməkhaqqı 723,4 manata çatıb ki, bu da ötən ilin sentyabr ayı ilə müqayisədə 35,8 faiz çoxdur. İnflyasiya cəmi 2,5 faiz təşkil etmişdir. Valyuta ehtiyatları 52 milyard dollar təşkil etmişdir.

Həyata keçirilən məqsədyönlü və düşünülmüş iqtisadi islahatlar nəticəsində Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycanın dünyada ən islahatçı ölkə elan edilmişdir. Bundan başqa, "Doing Business 2019" hesabatında Azərbaycan 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmaqla MDB-də lider mövqeyinə yüksəlib.

Müasir dövrdə innovasiyalı inkişafda startapların önəmi və əhəmiyyəti mühüm dərəcədə artmışdır. Sənayeyə əsaslanan texnologiyanın köhnəldiyi bu günlərdə yüksək texnologiyalara əsaslanan startap şirkətləri istehsalları ilə cəmiyyətin hər səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərirlər. 1990-cı illərdən bəri beynəlxalq miqyasda şirkət artımlarını təhlil etdikə, innovasiya şirkətlərinin başqalarına nisbətən böyük bir üstünlüyə sahib olduğu görülür. Startapların bu yüksəlişdə böyük dərəcədə rolu vardır. Bunu aşağıdak kimi xarakterizə etmək olar:

1) Startap şirkətləri ənənəvi şirkətlər kimi milyonlarla sərmayə ilə deyil, kiçik bir investisiya ilə reallaşdırıla bilər;

2) Tələb olunan maliyyələşməni tapmaq daha asandır;

3) Yeni texnologiyalara uyğunlaşma və bu texnologiyaların yeni startap şirkətlərində istifadəsi daha sürətli və asandır və s.

Startap dediyimiz zaman bir çox insan açıq ofislər və rahat bir iş mühiti, gənclərin bir araya gələrək mürəkkəb texnoloji tətbiqetmələrin inkişaf etdirildiyi bir şirkət və ya fantastik məhsullar hazırlanan bir məkan kimi düşünür. Startap yeni yaradılmış və ilkin inkişaf mərhələsində olan şirkət adlandırılır. Startaplar istənilən forma və ölçüdə ola bilər. Eyni zamanda hər bir yeni yaradılan şirkətə startap deyilmir. Ümumilikdə startapların fəaliyyətləri daha çox yeni texnologiyaların, yəni innovasiyaların işlənilməsi və onların tətbiqi ilə bağlıdır. Bunu nəzərə alaraq, startaplar bir tərəfdən davamlı və dayanaqlı, digər tərəfdən isə iri miqyasartımı potensialına malik olan biznes modelinin işlənilməsinə maraq göstərirlər. Startap ilk öncə biznesdir və hər bir biznes kimi gəlir gətirən bir subyekt olmalıdır. Bununla yanaşı, startaplarda "sosial sahibkarlıq" istiqamətiləri də mövcuddur. Bu tip startaplar gəlir güdmədən, amma minimal gəlir gətirərək layihənin fəaliyyətini təmin edərək fəaliyyət göstərir. Startaplar universitetlər, biznes inkubatorlar, biznes mələkləri (mələk investorlar), texnoparklar, qrant proqramları, vençur maliyyələşdirmə fondları tərəfindən dəstəklənir.

Startap proqramlarının, yəni yeni başlanğıcların məqsədi, əvvəllər istehlakçılara təklif olunmayan bir şey təklif etmək və sürətli böyüməkdir. Bu cür layihələrin tez-tez texnologiya ilə hərəkət etdiyini görsək də, Startap mütləq bir texnologiya ilə əlaqəli bir layihə olmalı deyil. Kənd təsərrüfatında başladığınız yeni bir layihə də Startap konsepsiyası altında araşdırıla bilər.

İlk dəfə startap anlayışı 1939-cu ildə ABŞ-da yaranır. Həmin ildə San-Fransisko şəhərinin yaxınlığında Santa-Kler vadisində (Kaliforniya ştatı) yüksək texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlər, sahibkarlar və Stenford Universitetinin gənc tələbələri Devid Pakkard və Vilyam Xyulett yeni layihə yaradaraq ona startap adını verdilər. Zaman ötdükcə bu "kiçik" layihə "Hewlett-Packard" adlı iri şirkətə çevrilmişdir.

Ali təhsil müəssisələri və biznes strukturları arasında partnyorluq, tərəfdaşlıq və əməkdaşlıq əlaqələrinin qurulması, tələbə gənclərin yaşadıqları cəmiyyətdə azad sahibkarlığın prinsiplərini öyrənmək, öz ideyalarını praktikada tətbiq etmək və əldə etdikləri bilikləri digərləri ilə bölüşmək məqsədilə Naxçıvan Dövlət Universitetində "Startap" hərəkatının kütləviliyi daim diqqət mərkəzində saxlanılmışdır. Bu məqsədlə universitetdə İnnolab yaradılmış, tələbələrlə daim bu sahədə işlər aparılmış, hazırladıqları layihələr mütəxəssislər tərəfindən müzakirə olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 03 aprel 2019-cu il tarixli Sərəncamının icrası məqsədilə nazirliklər, komitələr və digər qurumlarla birlikdə mütəmadi olaraq, tələbələr və universitet əməkdaşları tərəfindən startap lahiyələrinin hazırlanması və reallaşdırılması istiqamətində işlər daim diqqət mərkəzində saxlanılmışdır.

Startap layihələrinin dəstəklənməsi və bu sahədə əməli nəticələrin əldə olunması Naxçıvan Dövlət Universitetinin əsas məqsədlərindən biridir. Hazırlanan layihələrin həm tələbələr, həm universitet, həm də sahibkarlıq subyektləri üçün səmərəli olması bu sahədə gələcək fəaliyyət üçün əsas hədəflərdən biri hesab olunur.

## ƏDƏBİYYAT

1. Əzizova G. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı, 2012
2. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı, 2009
3. M.Atakişiyev, Q.Süleymanov. İnnovasiya menecmenti. Bakı, 2004
4. T.Ə.Quliyev.Menecmentin əsasları. Bakı, 2006
5. www.economy.gov.az
6. www.stat.gov.az

## SUMMARY

**Ashraf Alakbarov**

### ROLE OF STARTAPS IN INNOVATIVE DEVELOPMENT

In the context of modern globalization, technology innovations are becoming increasingly important for firms, especially small businesses. The effectiveness of innovation depends to a large extent on the professional activities of those working in this field, including firms, research institutions, universities, and their relationship at the local, national and international levels. On the other hand, factors affecting the effectiveness of the innovation system include the incentives for individuals and businesses to learn, the reliability of the financial system, and the effectiveness of government regulation in this area. In recent years, the importance and importance of startups in innovative development have grown significantly. With the advent of industry-based technology, high-tech startup companies now have a significant impact on every level of society with their productions.

## РЕЗЮМЕ

**Ашраф Алекперов**

### РОЛЬ СТАРТАПОВ В ИННОВАЦИОННОМ РАЗВИТИИ

В современных условиях глобализации происшедшие новшества в области технологий приобретают все большее значение для фирм, в особенности для мелких предприятий. Эффективность инноваций в большой степени зависит от профессиональной деятельности работающих в этой области, в том числе фирм, научно-исследовательских предприятий, университетов, их связей на местном, национальном и международном уровне. С другой стороны, в ряды факторов, влияющих на эффективность инновационной системы, относятся условия, стимулирующие изучение личностей и предприятий, надёжность финансовой системы, эффективность государственного регулирования в этой области. В последнее время в инновационном развитии в существенной степени возросли важность и значение стартапов. В дни, когда промышленность опирается на устаревшие технологии, стартап-компании, базирующиеся на высокотехнологичные технологии, своим производством оказывают существенное влияние на все уровни общества.

**DİLSUZ QASIMOV**
*Naxçıvan Dövlət Universiteti*
*dilsuzqasimli@gmail*

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINDA İQTİSADİYYATIN ŞAXƏLƏNDİRİLMƏSİ İNNOVASİYA AMİLİ KİMİ

***Açar sözlər:*** *qeyri-neft sektoru, aqrar sahə, diversifikasiya strategiyası, innovasiya, istehsal strukturunun təkmilləşməsi*

***Key words:*** *non-oil sector; agrarian sector; the strategy of diversification; innovation; the improving of production structure.*

***Ключевые слова:*** *не нефтяной сектор, аграрная отрасль, стратегия диверсификации, инновация, совершенствование структуры производства*

Diversifikasiya -firmalar, müəssisələr və digər mülkiyyət formaları tərəfindən buraxılan məhsulun çeşidlərinin artırılması, yeni istehsal sahələrinin yaradılması kimi də izah olunur. Qeyri-neft sektorunun inkişafında diversifikasiya müasir dövrün aktual problemlərindən hesab olunur. Xüsusən də diversifikasiya aqrar sahədə istehsalın təşkilinin əsas formalarından biri kimi iqtisadi cəhətdən daha səmərəli istehsal sahələrinin müəyyən edilməsi və inkişaf etdirilməsini nəzərdə tutan mühüm iqtisadi proses kimi də özünü göstərir. Diversifikasiya eyni zamanda müəssisələrin onlar üçün yeni olan, ənənəvi istehsal sahələri ilə yanaşı, çoxsahəli komplekslərə çevirən fəaliyyət sahələrini də xarakterizə edir. Bu zaman xüsusilə əsas istehsal ilə bağlı olmayan fəaliyyət sahələrinin yaradılmasına üstünlük verilməsi nəzərdə tutulur.

Azərbaycanda sürətli iqtisadi inkişafın başlaması nəticəsində aqrar sahənin daha da inkişaf etdirilməsi üçün görülən tədbirlər də genişlənməkdədir. Aqrar sahənin inkişafı Azərbaycan prezidentinin iqtisadiyyatın şaxələndirilməsi strategiyasının başlıca istiqamətlərindən birini təşkil edir. Belə ki, ölkə əhalisinin təxminən 1,5 milyon nəfərindən çoxunun aqrar sektorda çalışması baxımından bu sahənin inkişaf etdirilməsi həm də qeyri-neft sektorunun inkişafı, işsizliyin və yoxsulluğun azaldılması baxımından xüsusi əhəmiyyət kəsb etməkdədir.

İqtisadi ədəbiyyatlarda nəzəri baxımdan diversifikasiyanın aşağıdakı istiqamətləri fərqləndirilir:

- ✓ konsentrik – mövcud olan texnologiya ilə və müəssisədə əvvəllər də istifadə edilən xammal və materiallar əsasında yeni növ məhsul istehsalını əks etdirir;
- ✓ şaquli – müəssisə əvvəllər kənardan aldığı məhsulu indi özü istehsal edir;
- ✓ üfüqi – mövcud texnologiyanı dəyişmək və ya yeni texnologiya hazırlamaqla yeni məhsul istehsalı həyata keçirilir;
- ✓ korporativ – yeni istehsal və idarəetmə münasibətləri əsasında daha təkmil məhsulun yaradılması və istehsalını xarakterizə edir.

Diversifikasiyanın qeyd edilən istiqamətləri iqtisadiyyatın bütün sferaları üçün xarakterik olsa da, tədqiqat aparılan sahə kimi kənd təsərrüfatının xüsusiyyətləri baxımından istehsal diversifikasiyası daha fərqli mahiyyəti ilə səciyyələnir. Bu da onun əsas istiqamətləri və növlərini müəyyənləşdirərkən araşdırmaların aparılması zamanı yeni yanaşmalar tələb edir.

O cümlədən aqrar sferada həyata keçirildiyi sahə meyarı üzrə diversifikasiyanın üç formasının seçilməsini - istehsal, maliyyə və marketinq tələb edir. Əslində qloballaşma şəraitində diversifikasiya daha dərin məzmun daşımaqla müəsisənin məhz istehsal, maliyyə və marketinq sahəsində əsas fəaliyyət növü kimi özünü büruzə verir.

İstehsal diversifikasiyası müəssisələrdə müxtəlif məhsulun alınmasını və ya çeşidinin genişləndirilməsini təmin edən istehsal növlərinin müxtəlifliyini xarakterizə edir. İqtisadi ədəbiyyatda istehsal diversifikasiyasının iki növü fərqləndirilir: konkret sahə və məhsul.

Sahə diversifikasiyası müəssisədə fəaliyyətdə olan və kənd təsərrüfatı məhsulları istehsalının bütün mərhələlərində bir-biri ilə texnoloji baxımdan bağlı olan sahələrin artırılması, eləcə də

başqalarından özünün son məhsulu, istifadə etdiyi istehsal vasitələri, texnologiyası ilə fərqlənən istehsal sahələrinin inkişaf etdirilməsi ilə fərqlənir.

Məhsul diversifikasiyası üçün oxşar vəziyyət konkret məhsul növü üçün xarakterikdir.

Maliyyə diversifikasiyası maliyyə fəaliyyətinin müxtəlifliyi ilə xarakterizə olunur, bu mənada müəsisə tərəfindən müxtəlif növ uzunmüddətli və qısamüddətli maliyyə qoyuluşlarını həyata keçirməklə nail olmağın mümkünlüyü özünü əhəmiyyətli şəkildə göstərir.

Marketinq diversifikasiyası tərəfindən əlverişli alqı-satqı sahələrinin yaradılması, satış kanallarının genişləndirilməsi, məhsulun bazara irəlilədilməsində çoxsaylı marketinq alətlərindən istifadə edilməsi, zəruri hallarda məhsul istehsalçılarına satışdan sonra əlverişli xidmət növlərinin təşkili ilə fəaliyyəti özündə ehtiva edir.

Məhsul və istehsal diversifikasiyasına dair nəzəriyyələr dünyanın əksər ölkələrində keçən əsrin 50-ci illərindən etibarən istehsalın iqtisadi səmərəliliyində müxtəlif istiqamətli dəyişikliklər şəraitində özünə yer tapmağa başlamışdır. 60-70-ci illərdə diversifikasiya tədqiqatları ilə ilk olaraq M.Qort və E.Esinara məşğul olmuşlar.

Sonralar bu istiqamətdə V.Alqin, V.Şarp, B.Kraskov və başqaları tədqiqat aparmışlar. Qeyd edilənlərə baxmayaraq, diversifikasiya istiqamətindəki fəaliyyət lazımi səviyyədə tam və sistemli elmi-təcrübəvi nəticələrlə yekunlaşmamışdır. Bu problem xüsusilə kifayət qədər riskli sahə olan kənd təsərrüfatında, tələbatının əhalinin alıcılıq qabiliyyəti, istehlak zövqü və s.-dən asılı olaraq, mütəmadi olaraq dəyişdiyi kənd təsərrüfatı məhsulları bazarındakı konyunktur dalğalanmaları baxımından özünü daha qabarıq büruzə verir.

Azərbaycanda diversifikasiya məsələləri üzrə K.Aslanlı, Z.İsmayil, V.Qasımlı, R.Ağayev-İqtisadiyyatın və ixracın diversifikasiyasının qiymətləndirilməsi, S.İsmayılov - Müəssisənin diversifikasiyası strategiyası haqda araşdırmalar aparmışlar.

Ümumiyyətlə, dünya iqtisadi ədəbiyyatında da diversifikasiyaya müxtəlif aspektdən yanaşmalara rast gəlinir. Bəzi iqtisadçılar diversifikasiyanı müxtəlif müəssisələr tərəfindən istehsal edilən əmtəə çeşidinin dəyişdirilməsi və genişləndirilməsi kimi xarakterizə edir. Diversifikasiyanın eyni vaxtda bir neçə bazara xidmət göstərən müəssisələr şəklində də izahına rast gəlinir. Digər iqtisadçılar isə diversifakasiyaya istehsal və mübadilə sferasında risklərin azaldılması və maliyyə dayanıqlığının yüksəldilməsi strategiyası kimi baxır.

Beləliklə, diversifakasiyanın mahiyyətini ixtisaslaşma ilə əlaqəli proses olan, bazarın tələbatı nəzərə alınmaqla iqtisadi cəhətdən üstün istehsal sahələrinin müəyyənləşdirilməsinə xidmət edən strategiya kimi ümumiləşdirmək olar və təbii ki, bu strategiyanı müəyyənləşdirmədən istehsal və satışın nəticələrinin səmərəliliyindən danışmaq mümkün deyil. Qeyd edilənlər göstərir ki, diversifikasiya mahiyyət etibarilə istehsalda struktur dəyişikliklərinin mühüm istiqamətlərindən biridir.

Bu prosesdə istehsal sahələrinin və məhsulların spesifik xüsusiyyətlərinin də nəzərə alınması vacib şərtlərdən biri kimi özünü büruzə verir. İqtisadiyyatın ən mühüm sferalarından olan kənd təsərrüfatı istehsalının strukturunda baş verən dəyişikliklər son nəticə olaraq daha səmərəli istehsal sahələrinin formalaşmasını şərtləndirir. Bu baxımdan müasir şəraitdə kənd təsərrüfatının diversifikasiyasında başlıca meyllər bazar konyunkturu hesab edilə bilər. Çünki istehsalın nə dərəcədə səmərəli olması nəticə etibarilə bazarda reallaşır. Daha doğrusu, bazar konyunkturunda baş verən dəyişikliklərə müvafiq olaraq, kənd təsərrüfatı istehsalında istehsal istiqamətinin prioritetləri müəyyən edilməlidir. Deməli, kənd təsərrüfatında diversifikasiya strategiyasının formalaşması əslində bu prosesin özünün əsaslandırılmasını tələb edir.

Bu baxımdan kənd təsərrüfatı məhsulları istehsalı ilə məşğul olan təsərrüfatlarda bazar konyunkturundan və onun tələbindən asılı olaraq, diversifikasiya prosesinin iqtisadi əsaslandırılması, bu prosesdən irəli gələn məsələlərin – mövcud resurslardan istifadənin səmərəliliyinin yüksəldilməsi, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi, iqtisadi cəhətdən daha üstün istehsal sahələrinin müəyyənləşdirilməsi və s. strategiyanın hazırlanmasının vacib şərtlərindəndir. Kəndli fermer təsərrüfatlarının daha iri kənd təsərrüfatı müəssisələri formasında birləşmələrinin iqtisadi stimullaşdırılması qeyd edilənlər baxımından xüsusi əhəmiyyətlidir. Bu, öz növbəsində təbii-iqtisadi şəraitdən

səmərəli istifadə etməklə əmək resurslarından və istehsal vasitələrindən istifadənin səmərəliliyinin yüksəldilməsinə, əmək məhsuldarlığının yüksəldilməsinə, istehsalda istifadə edilən texnologiyaların davamlı olaraq təkmilləşdirilməsinə, istehsal təcrübəsinin yüksəlməsinə, bazar və sahələrarası inteqrasiya prosesinin dərinləşməsinə, bütövlükdə kənd təsərrüfatında dinamik inkişafa gətirib çıxara biləcək ən mühüm strategiya kimi istehsal strukturunun təkmilləşməsinə xidmət edir.

Kənd təsərrüfatında struktur dəyişikliklərinə gətirib çıxaran diversifikasiya prosesinin həyata keçirilməsində tələbatın yerli istehsal hesabına ödənilməsi imkanlarının yaxşılaşdırılması əsas məsələlərdəndir. Bu baxımdan diversifikasiya ilə bilavasitə bağlı olan kənd təsərrüfatı istehsalının ixtisaslaşmasının bazar konyunkturuna uyğunlaşdırılması, prioritet sahələrin inkişaf etdirilməsi üçün bazar infrastrukturunun yaradılması və regional mübadilə sisteminin müasir tələblərə uyğunlaşdırılması xüsusilə vacibdir.

Araşdırmalar göstərir ki, istehsal sahələrinin strukturundakı dəyişikliklər əksər hallarda kortəbii şəkildə baş verir, belə kortəbiilik-pərakəndə qərarların qəbulu müəyyən risklərlə müşayiət olunur. Halbuki, bazar münasibətləri şəraitində kənd təsərrüfatında yenidən ixtisaslaşmanın – diversifikasiyanın başlıca meylləri qeyd edildiyi kimi bazar konyunkturu hesab olunur. Konkret olaraq bazar konyunkturunda baş verən dəyişikliklərə müvafiq olaraq, kənd təsərrüfatı istehsalının diversifikasiyasının prioritetləri müəyyən edilir. Deməli, struktur dəyişikliklərinin həyata keçirilməsində bazarda tələbatın yerli istehsal hesabına ödənilməsi imkanlarının yaxşılaşdırılması əsas məsələlərdəndir. Bu baxımdan kənd təsərrüfatı istehsalının bazar konyunkturuna uyğunlaşdırılması və iqtisadi cəhətdən daha səmərəli istehsal sahələrin inkişaf etdirilməsi üçün daha təkmil mübadilə sisteminin formalaşdırılması zəruridir.

Araşdırmalar göstərir ki, diversifikasiya müəssisələrin iqtisadi strategiyasına əsaslanan kənd təsərrüfatı istehsalının ixtisaslaşması, istehsalın inkişafının obyektiv qanunauyğunluğu kimi şərtlənməklə məhsul istehsalının iqtisadi səmərəliliyinin yüksəldilməsinin və əmək məhsuldarlığının artırılmasının başlıca vasitəsidir. Qeyd etmək lazımdır ki, ictimai əmək bölgüsü prosesi iqtisadiyyatın bütün sahələrinə, o cümlədən kənd təsərrüfatına xarakterik olan cəhətlərdən biridir. İctimai əmək bölgüsü kənd təsərrüfatı istehsalının spesifik xüsusiyyətləri, geniş təkrar istehsal prosesinin iqtisadi və təbii qanunauyğunluqlarından irəli gəlir.

Geniş təkrar istehsal prosesinin iqtisadi və təbii qanunauyğunluqları, öz növbəsində kənd təsərrüfatında ictimai əmək bölgüsünün səviyyəsinə, həmçinin istehsalın ixtisaslaşma səviyyəsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Məhsuldar qüvvələrin inkişaf səviyyəsi yüksəldikcə, təbii ki, əməyin ixtisaslaşması və bölüşdürülməsi də kifayət qədər dərinləşir. İctimai əmək bölgüsü əsasında iqtisadiyyatın bütün sahələrində elmi-texniki tərəqqini həyat keçirmək mümkündür. Bu proses əmək məhsuldarlığının yüksəldilməsinə, istehsalda istifadə edilən texnologiyaların davamlı olaraq təkmilləşdirilməsinə, istehsal təcrübəsinin yüksəlməsinə və davamlı olaraq ictimai istehsalın genişlənməsinə gətirib çıxarır. Beləliklə, ictimai əmək bölgüsünün inkişafı, nəticə etibarilə istehsalın fasiləsiz şəkildə təşkilini və təkmilləşdirilməsini şərtləndirir.

Qeyd etmək lazımdır ki, ictimai əmək bölgüsü istehsalın ixtisaslaşması ilə şərtlənir. İstehsalın ixtisaslaşması, nəticə etibarilə ayrı-ayrı regionların təbii-iqtisadi şəraitindən səmərəli istifadə edilməsinə, əmək resurslarından və istehsal vasitələrindən istifadənin səmərəliliyinin yüksəldilməsinə xidmət edir. Araşdırmalar göstərir ki, istehsalın ixtisaslaşması keyfiyyət və kəmiyyət xüsusiyyətlərinə malikdir. Kənd təsərrüfatının ixtisaslaşmasının keyfiyyət tələbləri, sahələrin tərkibi və onlar arasında əlaqə ilə səciyyələnir. Kəmiyyət baxımdan istehsalın ixtisaslaşması qarşılıqlı əlaqəyə girən sahələr arasındakı proporsiyaların həcmindəki nisbəti səciyyələndirir. Beləliklə, ixtisaslaşmanın hər iki tərəfi üçün səciyyəvi cəhət, müəyyən həcm və proporsiyalara malik olması və sahələrin tərkibinə xas olan proporsiyalar arasındakı nisbətin təmin edilməsindən ibarətdir. Sahələr arasındakı əlaqənin davamlı xarakter daşıması, kənd təsərrüfatının sahələrarası inteqrasiya prosesinin dərinləşməsinə və kənd təsərrüfatında inkişafın dinamik xarakterinə əlverişli şərait yaradır.

Sahələr arasındakı qarşılıqlı əlaqələr və proporsiyalar dəyişkən xarakterə malikdir. Bu isə ixtisaslaşma prosesinin aktuallığını şərtləndirir və kənd təsərrüfatının inkişafının hər bir mərhələsində

təsərrüfat subyektlərinin qarşılıqlı əlaqələrinin obyektiv xarakterini özündə əks etdirir. Deməli, bu proses məhz istehsal diversifikasiyasının prioritetliyini şərtləndirir.

İnkişaf etmiş ölkələrin təcrübəsində kənd təsərrüfatı məhsuldar qüvvələrin inkişaf səviyyəsindən və diversifikasiyanın dərinləşməsi prosesindən bilavasitə asılıdır, bunlar isə son nəticədə ixtisaslaşma formalarının dəyişməsinə gətirib çıxarır. Beləliklə, kənd təsərrüfatı istehsalının ixtisaslaşmasında baş verən dəyişiklikləri nəzərə almadan, kənd təsərrüfatında məhsuldar qüvvələrin və texniki tərəqqinin inkişaf istiqamətlərini müəyyən etmək mümkün deyil.

Qeyd etmək lazımdır ki, hər bir ölkənin təbii-iqtisadi potensialı aqrar istehsal diversifikasiyasının əhəmiyyətli amili kimi çıxış edir. Bu baxımdan təbii-iqtisadi şəraitin ölkənin ayrı-ayrı rayonlarında müxtəlif olması kənd təsərrüfatı istehsalı üçün də fərqli proseslər yaradır. Təbii-iqtisadi bölgələr üzrə kənd təsərrüfatının səmərəli yerləşməsi, məhsul istehsalının artırılmasına və eləcə də məhsul istehsalının istehsal xərcləri baxımından ucuz başa gəlməsinə əlverişli şərait yaradır. Kənd təsərrüfatı istehsalının yerləşməsinin bu cür xüsusiyyəti nəticə etibarilə torpaq, material, maliyyə və əmək resurslarından səmərəli istifadə edilməsinə şərait yaratmaqla məhsulun daşınması ilə bağlı xərclərin ixtisar edilməsinə gətirib çıxarır. Kənd təsərrüfatının yerləşməsi ölkə ərazisi üzrə geniş təkrar istehsalın bütün amillərinin səmərəli şəkildə bölgüsündə də əhəmiyyətli rol oynayır. Təbii ki, bunlar ayrı-ayrı sahələrdə iqtisadi inkişafa xidmət etməklə, aqrar sahəda tələbatın yerli istehsal hesabına ödənilməsi ilə nəticələnir. Beləliklə, kənd təsərrüfatı istehsalının səmərəli yerləşməsi bazar konyunkturu əsasında yenidən ixtisaslaşmaya, aqrar sahədə özünü təminat səviyyəsinin yüksəlməsinə, həmçinin daxili və xarici bazara çıxarılan məhsulların rəqabətə davamlılığının yüksəldilməsinə xidmət edir.

Məlum olduğu kimi, kənd təsərrüfatı istehsalı ilə məşğul olan hər bir iqtisadi rayonun özünəməxsus təbii və iqtisadi şəraiti mövcuddur və bu amil istehsalın yerləşməsinə əhəmiyyətli təsir göstərir. İnkişaf etmiş ölkələrdə kənd təsərrüfatı istehsalının əlverişli iqtisadi rayonlarda yerləşdirilməsi nəticəsində bir sıra iri təsərrüfatlar formalaşmışdır. Həmin təsərrüfatlar aqrar sahədə, eləcə də daxili və xarici bazarlarda əhəmiyyətli xüsusi çəkiyə malikdir. Təbii ki, iri təsərrüfatların yaradılması məhsul istehsalına çəkilən xərclərin aşağı salınmasına səbəb olmaqla məhsuldarlığın yüksəldilməsində, növbəli əkin sisteminin tətbiqində əhəmiyyətli rol oynamışdır.

İri təsərrüfatların şəhərətrafı ərazilərdə yerləşməsi məhsulların daşınması şərtlərinin yüngülləşdirilməsinə də səbəb olur. Belə şəraitdə məhsulların tez xarab olması kimi xüsusiyyətlərindən kənarlaşması mümkün olur. Göründüyü kimi, ixtisaslaşdırılmış təsərrüfatlar bir qayda olaraq, özünəməxsus üstünlüklərə malik olmaqla yüksək əmək məhsuldarlığına nail olmağa, maddi-texniki vasitələrdən səmərəli istifadəyə və məhsul istehsalının genişləndirilməsinə əlavə stimul yaradır.

İstehsalın ixtisaslaşmasının üstünlüklərini şərtləndirən ən mühüm amillərdən biri də təmərküzləşmə prosesinin yüksək olması nəticəsində elmi və qabaqcıl təcrübənin tətbiq edilməsi imkanlarının kifayət qədər genişlənməsidir. Bu, istehsal prosesinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasına əlverişli şərait yaratmaqla əməyin təşkilinin mütərəqqi formalarının tətbiqini, yeni texnologiyaların və ixtisaslaşmış kadrların istehsalda istifadəsini və bütövlükdə geniş təkrar istehsal prosesinin müvəffəqiyyətini şərtləndirən başlıca amillərdən birinə çevrilir. Ümumiyyətlə, yenidən ixtisaslaşmanın – diversifikasiyanın inkişaf etdirilməsi bazar konyunkturunda baş verən dəyişikliklərin nəzərə alınması şərtilə iri təsərrüfatların yaradılmasında mülkiyyət formasından asılı olmayaraq, hər bir təsərrüfata bərabər şərait yaradılmasını nəzərdə tutan səmərəli, iqtisadi və hüquqi mexanizmin yaradılmasını tələb edir. Bazar təsərrüfatçılıq sisteminin ən mühüm xüsusiyyətlərindən birinin təsərrüfat subyektlərinin iqtisadi müstəqilliyinin təmin edilməsi olduğunu nəzərə alsaq, istehsalın daha təkmil təşkilini və iqtisadi səmərəliliyinin yüksəldilməsini diversifikasiya prosesində ən vacib şərtlərdən biri kimi qeyd etmək olar. Odur ki, kənd təsərrüfatı əmtəə istehsalçılarının iqtisadi imkanlarının və istehsalın diversifikasiyasının genişləndirilməsinə yönəldilmiş tədbirlərin həyata keçirilməsi aktuallığını kəskin şəkildə göstərir. Kənd təsərrüfatında istehsalın diversifikasiyasının nəticələrini təbii, iqtisadi və sosial amillər kimi təsnifləşdirmək mümkündür. İqtisadiyyatın şaxələndirilməsi siyasətinin prioritet istiqamətlərindən biri də regionların inkişafı strategiyasının həyata keçirilməsidir. Bu baxımdan qəbul edilmiş 4 "Azərbaycan Respublikası regionlarının sosial-

iqtisadi inkişafı Dövlət Proqramı"nın uğurla icrasıdır. Həyata keçirilən proqrama əsasən digər böyük layihələrin icrası qeyri-neft sektorunun davamlı inkişafına şərait yaradacaq, ictimai xidmətlər və sosial infrastruktur daha da təkmilləşəcəkdir. Həmçinin rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin daha da yüksəlməsinə, biznes və investisiya mühitinin, əhalinin rifahının yaxşılaşmasına nail olunacaq. Şübhəsiz, deyə bilərik ki, proqramın qəbul edilməsindən keçən müddət ərzində qeyd etdiyimiz qarşıya qoyulan məqsədlərin bir hissəsinə müvəffəqiyyətlə nail olunmuşdur və qarşıdakı illər ərzində proqram çərçivəsində mühüm işlərin görülməsi nəzərdə tutulmuşdur.

Elmi-texniki tərəqqinin ən yeni nailiyyətlərinin istehsalda tətbiqinin genişlənməsi və kənd təsərrüfatında sənaye sahələrinin inkişaf səviyyəsinin yüksəlməsi hallarında belə kənd təsərrüfatında təbii amillər kifayət qədər hakim mövqe tutmaqdadır. Təbii amillər kənd təsərrüfatında istehsalın diversifikasiyasını şərtləndirməklə məhsul istehsalının həcminə və kənd təsərrüfatında çalışan əmtəə istehsalçılarının gəlirlərinin səviyyəsinə təsirsiz ötüşmür.

Bu baxımdan kənd təsərrüfatı istehsalının diversifikasiyasını şərtləndirən amilləri ümumi şəkildə aşağıdakı kimi qiymətləndirmək mümkündür:

✓ Bioloji və iqtisadi proseslərin qarşılıqlı əlaqəyə malik olması həm bitkiçilik, həm də heyvandarlıqda təsərrüfat fəaliyyətinin nəticələrinə obyektiv surətdə təsir göstərmək imkanlarını şərtləndirir;

✓ Çoxsaylı amillər və onların spesifikliyi kənd təsərrüfatı istehsalının nəticələrinə əhəmiyyətli təsir göstərməklə istehsal potensialının elementlərindən səmərəli istifadə edilməsini özündə birləşdirir;

✓ Təbii-iqlim amillərinin mövcudluğu kənd təsərrüfatı istehsalının yerləşməsində və ixtisaslaşmasında həlledici təsirə malikdir;

✓ İş müddəti ilə istehsal dövrü arasındakı əlaqənin fərqli xarakter daşıması istehsalda mövsümlük amilinin üstünlük təşkil etməsinə gətirib çıxarır;

✓ Kənd təsərrüfatında bioloji amillər mühüm rol oynamaqla heyvandarlıqda canlı orqanizmlər, istehsalın hərəkətverici qüvvəsi kimi çıxış edir.

Göründüyü kimi, təbii amillər - iqlim, torpağın münbitliyi, relyef və s. kənd təsərrüfatında sistem formalaşdıran amillər kimi çıxış edir. Həmin amillər kifayət qədər aşağı dinamikliyə malikdir, istehsal və satış prosesində risklərin yaranmasını şərtləndirən əsas amillərdən biri kimi çıxış edir, onların müxtəlifliyi və istifadə dərəcəsi kənd təsərrüfatı istehsalında, bütövlükdə aqrar-sənaye sferasında struktur dəyişikliklərinin əsasını təşkil edir. Kənd təsərrüfatının inkişafına təbii-iqlim şəraitinin təsiri bölgələr və sahələr üçün fərqli xarakter daşıyır. Qeyd etmək lazımdır ki, təbii, iqtisadi və sosial amillərin kifayət qədər diferensial xarakter daşıması diversifikasiyanın sahə strukturuna təsirini şərtləndirir. Kənd təsərrüfatı istehsalının diversifikasiyasının elmi cəhətdən əsaslandırılması xüsusi əhəmiyyət kəsb edən məsələlərdəndir və bu, nəticə etibarilə təbii amillərin təsiri fonunda dəyişən iqtisadi amillərə kifayət qədər dinamik reaksiya göstərilməsini şərtləndirir.

Ümumiyyətlə, təbii amillərin təsiri ilə istehsalın strukturunda köklü dəyişikliklər baş verir. Bu, öz növbəsində əsas növ kənd təsərrüfatı məhsullarının istehsalı üzrə ixtisaslaşdırılmış bölgələrin formalaşdırılmasına gətirib çıxarır. Konkret təbii şərait daxilində kənd təsərrüfatı istehsalının diversifikasiyasının dərinləşməsi, yüksək rentabelli fəaliyyət göstərən sahələrin və təsərrüfatların inkişafında əhəmiyyətli rol oynayır.

Göstərilənləri ümumiləşdirərək aqrar sahədə istehsal diversifikasiyasının səmərəli nəticələrə gətirib çıxara biləcək aşağıdakı istiqamətlərini qeyd etmək olar:

✓ Diversifikasiya strategiyasının formalaşması aqrar sahə müəssisələrinə istehsal prosesinə başlamazdan əvvəl iqtisadi cəhətdən daha səmərəli sahələri müəyyənləşdirməyə imkan verir;

✓ Diversifikasiya strategiyası bazar konyunkturunda baş verən dəyişikliklərə çevik reaksaiya imkanlarını artırmaqla bazar haqqında məlumatların – tələb və təklifin, rəqabət mühitinin, qiymətlərin səviyyəsinin, alıcılıq qabiliyyətinin, istehlakçıların zövqünün və s. toplanması və sistemləşdirilməsinə əlverişli şərait yaradır;

✓ Diversifikasiya prosesi ənənəvi istehsal sahələri ilə yanaşı, kənd təsərrüfatı istehsalçılarına bazarın tələbinə uyğun yeni növ məhsul istehsalı ilə məşğul olma vərdiş və bacarığının formalaşmasına şərait yaradır. Bu, öz növbəsində istehsalın təşkili və idarə edilməsi məsələlərinə də yeni yanaşma intellektinin inkişafını şərtləndirir;

✓ İqtisadi cəhətdən daha üstün istehsal sahələrini müəyyənləşdirməyə imkan verən diversifikasiya prosesi istehsal və satışın nəticələri ilə bağlı riskləri əvvəlcədən "sığortalamaqla" müəssisələrin maliyyə dayanıqlığının təminatçısı qismində çıxış etmiş olur;

✓ Diversifikasiya prosesi rəqabətqabiliyyətli məhsul istehsalı baxımından innovasiyaların istehsala cəlb edilməsinin stimullaşdırıcı amilinə çevrilir;

✓ Diversifikasiya istehsalla bazar, istehsalçılarla istehlakçılar, tələblə təklif arasında əlaqəni tənzimləyən mühüm bir strategiya kimi kənd təsərrüfatı müəssisələrinin iqtisadi inkişafının təkanverici mexanizmi rolunu oynaya bilir.

### ƏDƏBİYYAT


1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, 2007
2. M.C.Hüseynov, V.T.Əmrahov, A.M.Qasımov, A.F.Həsənov, N.A.Nərimanov. Aqrar istehsal strukturunun diversifikasiyası. Bakı, 2016
3. B.N.Kuzik, V.I.Kuslin, V.Yokoveç. Proqnozlaşdırma, strateji planlaşdırma və milli proqramlaşdırma. Moskva, Ekonomika, 2008


### РЕЗЮМЕ

**Дилсуз Гасымов**

### В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ РАЗВЕТВЛЕНИЕ ЭКОНОМИКИ В РАЗВИТИИ НЕ НЕФТЯНОГО СЕКТОРА КАК ИННОВАЦИОННЫЙ ФАКТОР

В статье нашли свое отражение новые подходы теории в направлении разветвления экономики в развитии не нефтяного сектора. Так, теории по диверсификации продукции и производства аграрной отрасли в развитии не нефтяного сектора в большинстве стран мира начали находить свое место в условиях изменений различного направления. С этой точки зрения, хотя в основном исследования диверсификации проводились иностранными и русскими учеными, Азербайджанские учёные также проводили исследования по оценке диверсификации экспорта и стратегии диверсификации предприятия. Поэтому проведение исследований требует новых подходов при определении основных направлений и видов диверсификации.

### SUMMARY

**Dilsuz Gasimov**

### THE DIVERSIFICATION OF ECONOMY IN THE DEVELOPMENT NON-OIL SECTOR IN THE GLOBALIZATION PROCESSES AS INNOVATION FACTOR

The new approach to the theories of the diversification of economy in the development of non-oil sector was reviewed in this article. Thus, the theories on of agrarian sectors' product diversification was occupied in many world countries within different challenges. In this regard, besides of foreign scholars the Azerbaijanis investigators also did researches in the diversification of export and the strategy of diversification of firms. Thus the clarification of main direction and types of diversification demands new approach to the research.

**HƏVVA ADIGÖZƏLOVA**
*Naxçıvan Dövlət Universiteti*
*eva.alieva.2012@mail.ru*

# MÜASİR ŞƏRAİTDƏ ÖLKƏNİN İNNOVATİV İQTİSADİ POTENSİALININ FORMALAŞMASINDA TƏHSİLİN ROLU

***Açar sözlər:*** *innovasiya, innovasiyalı iqtisadiyyat, iqtisadi potensial, potensialın formalaşması, təhsil sistemi*

***Ключевые слова:*** *инновация,инновационная экономика, экономический потенциал, формирование потенциала, система образования*

***Key words:*** *innovation, innovative economy, economic potential, capacity building, the education system.*

Hər bir ölkə özünün iqtisadi sisteminin tammənalı sahəvi əlaqələrinin yaradılması və qarşılıqlı fəaliyyətinin (təsirinin) təmini ilə təzahür etməkdədir. Cəmiyyətin müsbət yöndə keyfiyyət dəyişikliklərinə məruz qalması, onun tələblərinin daha yüksək mərhələyə keçidinin təmin olunması təmasda olunan hər bir sahə üzrə çoxsaylı transformativ və təkmilləşdirici xarakterə malik dəyişikliklərin mövcudluğuna dəlalət edir.

Beynəlxalq arenada iqtisadi sistemin sahələrinin qarşılıqlı əlaqələrinin kifayət qədər çoxşaxəli quruluşları mövcuddur. Onların bir çoxuna respublikamızda da rastlanmaqdadır. Aydındır ki, bu əlaqələrin ümumi trayektoriyası qalmaqla spesifik məqamları da müşahidə olunmaqdadır. Digər tərəfdən xarici təcrübədə əldə olunmuş mütərəqqi nəticələrin ölkəmizə gətirilməsi, yerli spesifik cəhətlər nəzərə alınmaqla onların təcrübi tətbiqi iqtisadi sistemin müəyyən həlqələrinin keyfiyyət dəyişikliklərinə məruz qalmasında, onların daha yüksək mərhələdə təmsil olunmasına şərait yaratmaq məqsədi güdür. Yenilikçi düşüncə, təkmilləşdirilmiş mexanizmlərdən istifadə, tərəflərarası mənafelərin gözlənilməsi, əldə olunmuş nəticələrdən qarşılılı istifadə olunması, təcrübi təyinatlı informasiyaların kəmiyyət və keyfiyyət parametrlərinin daha yüksək mərhələlərə daşınması kimi prinsiplərin məqsədyönlü tətbiqi istər ölkə, istərsə də regionlar miqyasında daha səmərəli və məhsuldar mühitin formalaşmasına imkan verir.

Sahələrarası əlaqələrin mühüm formalarından birini də "nəzəriyyə - təcrübə" tandeminə yeni baxışı təmin edəcək iqtisadi sahələrlə təhsil subyektləri arasında olan qarşılıqlı əlaqələrdir. Bu əlaqələr məzmun elementi nəzərə alınmaqla özünün geniştərkibliliyi ilə fərqlənməkdədir. Onların sırasında "iqtisadi sahələrin fəaliyyətində innovasiyalılıq dərəcəsi", "iqtisadi sistemdə əldə olunmuş innovasiyalar və tədrisin təşkil olunması xüsusiyyətləri" kimi istiqamətlər müasir dövrdə öz əhəmiyyətini günü-gündən artırmaqdadır.

İşin adından da göründüyü kimi, onun mərkəzi kimi qəbul olunan iqtisadi potensialın formalaşmasında innovativlik amili və təhsil sahəsinin bu yöndə imkanlarının qarşılaşdırılması kifayət qədər "çəkili" problemin mövcudluğuna diqqəti çəkir. Məzmun etibarı ilə innovasiya – iqtisadi sistemin istənilən sahəsində işin, xidmətin, məhsulun keyfiyyətinin yüksəldilməsi, subyektlərin iqtisadi, təşkilati, inzibati və digər aspektlərdə fəaliyyət alətləri və mexanizmlərinin təkmilləşdirilməsi yönündə tətbiq olunan yenilikləri ifadə etməkdədir. İnnovasiyaların istehsal-iqtisadi və sosial xarakterli qrupları xüsusi əhəmiyyət kəsb etməkdədir [5, s. 87.]

Bəhs olunan məsələdə daha ayrıntılı fikir və mülahizələrə keçməzdən əvvəl sxem 1-in məzmununa diqqət yetirək.

Sxemdəki ardıcıllıqdan da göründüyü kimi, "iqtisadi (istehsal və xidmət sahələri) sfera ↔ təhsil fəaliyyəti" qarşılıqlı əlaqələri öz aralarında qarşılqlı təsiri də ehtiva etməkdədir. Belə ki, iqtisadi sahələrə tətbiq olunan innovasiyaların təhsil subyektlərində öyrənilməsi öz növbəsində həmin subyektlər vasitəsilə yeni innovasiyaların nəzəri "qəliblərinin" hazırlnmasına və elə həmin təcrübi iqtisadi sahələrdə tətbiqinə şərait yaradır.

***Sxem 1.***




**Mənbə:** *[müəllif tərəfindən tərtib edilmişdir]*

Bəhs olunan müstəvi bir tərəfdən təhsil (və elm) ocaqlarının spesifik fəaliyyət yönlərinə diqqəti çəkdiyi halda, digər tərəfdən "təsir - əkstəsir" əlaqələrinin xüsusilə də müasir dövrdə güclənməsi və kəskinləşməsi müşayiət olunmaqdadır. Fikrimizcə, haqqında mülahizələrin bildirilməsi məqsədəuyğun hesab edilən, "nəzəri biliklər – təcrübi tətbiq nəticələri" müstəvisi əsasında formalaşan əlaqələr özünün uzunmüddətliliyi ilə fərqlənməlidir.

***Sxem 2.***




**Mənbə:** *[müəllif tərəfindən tərtib edilmişdir]*

Sxem 2-dən də göründüyü kimi, mövzu ilə bağlı ümumi şəkildə ifadə edilən fikir və düşüncələr kifayət qədər geniş və rəngarəng tərkibə malikdir. Əyani təsvir bəhs olunan sahələrdə 1-ci və 3-cü sütunlar arasında daim əlaqələrin olması zərurətini sərgiləmiş olur. Eyni zamanda nəzərdən yayınmamalıdır ki, müvafiq sütunlar arasında informasiya mübadiləsi hər sütundan "bir maddədən – bir maddəyə" qaydasında deyil, "bir və ya bir neçə maddədən – bir neçə maddəyə" şəklində quraşıq qaydada təşkil oluna bilər.

Rəsmi statistikaya müracət edildikdə görmək olar ki, təkcə son iki ildə irili-xırdalı innovativ layihənin müzakirəsi və təcrübəyə tətbiqi mümkün olmuşdur. Bu layihələrin hər biri məzmun etibarı ilə maliyyə əsaslandırılmasına da malikdir. Yəni onların təcrübədə təşəkkülü xeyli həcmdə pul vəsaitlərinin xərclənməsi ilə müşayiət olunmaqdadır. Bununla belə, sosial sahələrdə tətbiqi nəzərdə tutulan innovasiya layihələri istisna olmaqla, iqtisadi sistemin digər sahələri üzrə belə işlərin icrası perspektiv dövrdə maddi və pul şəklində ifadəsini tapacaq gəlirlərin əldə olunmasına hesablanmışdır.

Digər tərəfdən nəzərə alınmalıdır ki, iqtisadi sahənin kadr potensialının əsas hissəsi məhz tədris müəssisələri hesabına formalaşmaqdadır. Bu isə haqlı olaraq, "keyfiyyətli təhsil – keyfiyyətli iqtisadiyyat" mülahizəsinin məzmununa diqqəti çəkir, onun nə dərəcədə düzgün olmasına nəzərləri yönəltmiş olur. Belə ki, təcrübə ilə əlaqəli şəkildə təhsil alan gələcəyin mütəxəssisi öz növbəsində perspektiv dövrdə iqtisadi sahədə öz biliklərini fəaliyyətə tətbiq edəcəkdir. Öz növbəsində daha mütərəqqi təşkilati və digər şəraitə malik subyektlər təhsilin (tədrisin) keyfiyyətinin yüksəldilməsində mühüm amillərdən hesab olunmaqdadır.

Bir faktı da diqqətdən qaçırmamaq lazımdır. Bəzi spesifik hallarda "tədris-təcrübə" əlaqələri özünün məhdudluğu ilə fərqlənməkdədir. Belə ki, yaxın keçmişə qədər mövcud olan, sonradan isə "AzəriSilah" adlı hüquqi subyektlərin birliyi adı altında yenidən təşkil olunan Müdafiə Sənaye Nazirliyi öz nəzdində onlarla müdafiə təyinatlı müəssisəni birləşdirməkdə idi. Onlarda yeniliklərin tətbiqi daha sürətli həyata keçirilməkdir. Bununla belə, bu innovasiyalarla tanışlıq, onların mənimsənilməsi ancaq məhdud sayda təhsil müəssisələri tərəfindən mümkündür.

Məsələdə ən maraqlı maddə - iqtisadi sistemin sahələrindən biri (sosial sahə) olan təhsilin özündə mümkün ola biləcək yenilikçi alət və mexanizmlərin tətbiqidir. Aydındır ki, təhsil innovasiyaları bu sahənin əsas fəaliyyətini əhatə etməklə mükəlləfdir. Bu isə, öz növbəsində, tədrisdə təkmilləşdirici üsul və vasitələrin tətbiqini nəzərdə tutur ki, onların sırasında fəaliyyətdə elektron vasitələrin tətbiqinin genişlənməsi, interaktiv üsullara müraciət olunması, orta məktəb şagirdlərinin informativliyinin təmin olunması, daha az zaman kəsiyində daha çox dinləyiciyə məlumatların çatdırılması məqsədilə internet sisteminin imkanlarından daha geniş istifadə olunması (məsələn, mərkəzdə deyilən mühazirələrin eyni vaxtda ucqar kəndlərin tədris ocaqlarında dinlənilməsi, yaxud kənd məktəblərində yaradılan şərait hesabına mərkəzin elm və təhsil bazalarının imkanlarından istifadə olunması, bu əsasda digər bilik ünvanlarına müraciətlərin rahatlığı və s.) kimi maddələr nümunə kimi göstərilə bilər.

## ƏDƏBİYYAT


1. Qasımov F.H., Nəcəfov Z.M. İnnovasiyalar: yaranması, yayılması və inkişaf perspektivləri. Bakı: Elm, 2009, 416 s.
2. Azərbaycanda innovasiya infrastrukturu//AMEA Xəbərləri. Elm və innovasiya seriyasının İnnovasiya bülleteni, 2012, № 2
3. Elm və innovasiya jurnalı, 2009, №1
4. Əzizova G. Dövlətin investisiya-innovasiya siyasəti. Bakı: İqtisad Universiteti nəşriyyatı, 2012
5. Управление инновационными процессами. Самара: СГТУ, 2009, 153 с.

**РЕЗЮМЕ**

**Хавва Адыгезалова**

**РОЛЬ ОБРАЗОВАНИЯ В ФОРМИРОВАНИИ ИННОВАЦИОННОГО ЭКОНОМИЧЕСКОГО ПОТЕНЦИАЛА СТРАНЫ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ**

В работе рассматриваются связи между экономическими и образовательными субъектами, связанные с инновациями. Отмечается, что инновации, рассматриваемые как важные факторы формирования экономического потенциала страны (региона), наряду с практическим применением, служат объектом текущих и перспективных теоретических исследований. Выражение идей отражает существование различных ситуационных отношений и их специфические особенности.

**SUMMARY**

**Havva Adigozalova**

**THE ROLE OF EDUCATİON İN SHAPİNG THE COUNTRYS İNNOVATİVE ECONOMİC POTENTİAL İN MODERN CONDİTİONS**

The study highlights the relationship between economic subjects and innovation related to education. It is noted that innovations considered as important factors in the economic potential of the country (region ), along with practical application, serve as the object of current and prospective teoretical research. Expression of ideas demonstrates the existence of different situational relationships, their specific features.

**VAQİF MEHDİYEV**
*Naxçıvan Dövlət Universiteti*
*mehdiyevvaqif95@gmail.com*

## MÜƏSSİSƏLƏRİN İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU

***Açar sözlər:*** *müəssisə, istehsal-təsərrüfat fəaliyyəti, rəqabət qabiliyyəti, innovasiya, innovasiya fəaliyyətinin mərhələləri*

***Ключевые слова:*** *предприятие, производственно-хозяйственная деятельность, конкурентоспособность, инновация, этапы инноваций*

***Key words:*** *enterprise, production and economic activities, competitiveness, innovation, stages of innovation*

Bildiyimiz kimi, müasir iqtisadi nəzəriyyə iki hissədən: mikroiqtisadiyyat və makroiqtisadiyyatdan ibarətdir. Mikro və makroiqtisadi sistemlər bir-birini tamamlayan vahid iqtisadi sistemin tərkib hissələridir. Mikroiqtisadi nəzəriyyənin əsasını firma (müəssisə) nəzəriyyəsi təşkil edir. Bu nəzəriyyə milli iqtisadiyyatın əsas həlqəsi kimi firmanın (müəssisənin) fəaliyyətini öyrənir. Məşhur alman alimi V.Zombart müəssisəni uzunmüddətli planın mövcud olduğu və həyata keçirilməsi üçün vahid iradəli bir neçə şəxsin uzun müddət birgə fəaliyyət göstərmələrini tələb edən subyekt adlandırmışdır.

Müəssisə - ölkə iqtisadiyyatının ilkin halqası olub, müəyyən mülkiyyətə və kollektiv əməyə əsaslanan ictimai tələbatı ödəmək və mənfəət əldə etmək məqsədi ilə məhsul istehsal edən, iş və xidmətlər göstərən, istehsal-texniki, təşkilati və iqtisadi vəhdətə malik olan hüquqi şəxs statuslu istehsal təsərrüfat vahididir. Bazar münasibətləri şəraitində müəssisə özünün istehsal-təsərrüfat fəaliyyətini müstəqil həyata keçirir, istehsal etdiyi məhsulun reallaşdırılmasından əldə etdiyi gəlirdən vergilər və digər məcburi ödənişləri ödədikdən sonra sərəncamında qalan mənfəətdən istədiyi kimi istifadə edir. Bu zaman müəssisə mənfəətin alınması ictimai tələbatın ödənilməsi məqsədlərinə nail olmağa çalışır. Gördüyümüz kimi, hər bir müəssisənin əsas məqsədi minimum xərclə maksimum mənfəət əldə etməkdir. Bu məqsədlə də müəssisə öz istehsalını elə qurmalıdır ki, əlində olan istehsal resurslarından düzgün istifadə etsin və mənfəətini maksimumlaşdırsın. İstehsal resursları deyəndə biz burada: əmək, torpaq, kapital və sahibkarlıq qabiliyyətini nəzərdə tuturuq.

- ✓ **Torpaq** istehsal amili kimi son dərəcə müstəsna əhəmiyyətə malikdir, istehsal prosesində istifadə edilən fabrik ərazisi, təbii minerallar, iqlim və su kimi təbii resurslardır;
- ✓ **Əmək** insanın məqsədəuyğun fəaliyyətidir, onun köməyi ilə insan təbiəti öz tələbatını ödəmək üçün dəyişdirir və uyğunlaşdırır;
- ✓ **Kapital** istehsalın ən mühim amilidir. Əmtəə və xidmət istehsalında istifadə olunan resurslar, dəzgah və işçi kimi ünsürlərdir;
- ✓ **Sahibkarlıq qabiliyyəti** mövcud iqtisadi resursların kombinasiyasının bütün mümkün yeni üsullarından istifadə etməklə yüksək rəqabətqabiliyyətli məhsul istehsalını təşkil etməkdir.

XXI əsrin və yeni minilliyin çağırışları sırasında təbiətin və cəmiyyətin inkişaf potensialının yeni keyfiyyət səviyyəsində dərk edilməsi xüsusi yer tutur. Əsrlərlə formalaşmış ictimai fəaliyyətin əsaslarının XX əsrdə əsaslı surətdə yenilənməsi insanlar üçün məhz fərqli keyfiyyətdə inkişaf üçün imkanlar açmışdır. Həmin imkanlar ənənəvi dünya görüşü müstəvisində reallaşdıqca bəşəriyyəti təhdid edən təhlükələr: ərzaq qıtlığı, bərpa olunmayan enerji mənbələrinin tükənməsi, arzu olunmaz urbanizasiya prosesləri, ekoloji böhran davam edəcəkdir. Eyni zamanda elmin tarixin müəyyən dövrlərində fraqmentar inkişafı, bu inkişafda kəsilmələr və sapmalar, yeniliklərə tam mənası ilə tənqidi yanaşmalara rəvac verir.

Qeyd edilənlər innovativ düşüncə tərzinin adi həyat tərzinə çevrilməsini, qədimliklə yeniliyin üzvi vəhdətini nəzərdə tutan birgə yaşayış meyarlarının önə çəkilməsini, başqa sözlə, innovativ fəaliyyətin geniş yayılmasını tələb edir.

İqtisadi proseslərin səmərəliliyi və ümumilikdə iqtisadi sistemin dayanıqlığının təmin edilməsinə tələblər intensiv inkişafın innovativliyini zəruri edir, əks halda, iqtisadi maraqlara əsaslanan artım iqtisadiyyatının sosial və ekoloji çatışmazlığı nəinki aradan qaldırmaq, hətta yumşaltmaq belə

çətinləşir. Bir sözlə, innovativlik və innovativ fəaliyyət dayanıqlı inkişafın zəruri şərti kimi qəbul edilməli, insan həyatının bütün sahələrində rolu artırılmalıdır.

“İnnovasiya” anlayışı latın dilində “innovato” sözündən götürülmüş, XIX əsrdən istifadə olunmasına baxmayaraq, əsasən Yozef Şumpeterin “The Theory of Economic Development” (1934) əsərində işlədilərək geniş elmi dövriyyəyə daxil olmuşdur. Bununla belə, innovasiya ilə əlaqədar əsas anlayışlar hələ də fərqli şərh olunur. “İnnovasiya fəaliyyəti-insan kollektivinin yeni elmi biliklər, ideyalar, kəşflər və ixtiralar, həmçinin mövcud və sınanmış elmi texnologiya, sistem və avadanlıqların istifadəsi və tətbiqi əsasında innovasiyaların tam həcmdə ictimai realizəsinə yönəldilmiş sistemli fəaliyyət növüdür”.

Müasir şəraitdə yeni texnologiyaların təsərrüfat dövriyyəsinə cəlb edilməsi effektivliyinin yüksəldilməsi müəssisənin innovasiyalı inkişaf metodologiyasının işlənib hazırlanmasını zəruri edir. İnnovasiyalı inkişafın tədqiqi hər şeydən əvvəl innovasiyalar və onların təsnifatı, innovasiya prosesi və onun təşkil ediciləri, innovasiya fəaliyyəti və onun xarakteristikası kimi əsas anlayışların öyrənilməsini tələb edir. Bu iqtisadi kateqoriyaların mahiyyəti və məzmununun açıqlanması, həmçinin yeni texnologiyanın işlənilməsi və tətbiqi xüsusiyyətlərinin aşkara çıxarılması təsərrüfat subyektlərinin innovasiyalı inkişafının həyata keçirilməsinin müasir konsepsiyasını müəyyənləşdirməyə imkan verir.

Müasir bazar münasibətləri şəraitində rəqabət amili iqtisadi fəaliyyətin miqyası və tempini şərtləndirən mühüm amillərdən biridir. Bazarda mövqe qazanmağın ənənəvi imkanlarının tükəndiyi bir şəraitdə, bu və ya digər iştirakçı alternativ (yeni) yollar axtarışına üstünlük verir. Bu yol, bir qayda olaraq, riskli, məsrəfli və uzundur. Odur ki, innovasiyalı inkişaf yoluna üstünlük verilməsi, geniş araşdırmalar və kompleks təhlillər tələb edir.

Açıq ensiklopediyada göstərildiyi kimi, “innovasiya-yüksək səmərəliliyə malik yeniliyin tətbiqi, insanın intellektual fəaliyyətinin, kəşfinin, ixtirasının son nəticəsidir. İnnovasiya fəaliyyətinin nəticəsi yeni və ya təkmilləşdirilmiş məhsul (iş, xidmət), texnoloji proses, həmçinin ictimai münasibətlərin müxtəlif sahələrində təşkilati-texniki, maliyyə-iqtisadi və digər hallar hesab edilir. İnnovasiya fəaliyyəti iqtisadi inkişafı və rəqabətliliyi təmin etmək üçün yeni ideyaların, elmi biliklərin, texnologiya və məhsulların müxtəlif istehsal və idarəetmə sahələrinə tətbiq edilməsidir”.

İnnovasiyanın əsas xassələri qismində, bir çox tədqiqatlarda elmi-texniki yenilik, istehsalda tətbiq və kommersiyalaşma (gəlir gətirmə) qabiliyyəti qəbul olunur. “Bu məsələyə kommersiya aspektindən yanaşdıqda, innovasiya-bazarın tələbləri vasitəsilə dərk edilən iqtisadi zərurət kimi müəyyənləşdirilir. Burada iki məqama-innovasiyanın, ixtiranın və tədqiqatların yeni, texniki cəhətdən mükəmməl sənaye məhsulları şəklində, əmək vasitələri və əmək alətləri, texnologiyalar və istehsalın təşkil edilməsi şəklində “maddiləşməsi” və onları gəlir mənbəyinə çevirən kommersiyalaşmaya xüsusi fikir verməliyik”. Rəqabətin get-gedə kəskinləşdiyi müasir bazara, xüsusilə qloballaşmanın intensivləşdiyi hazırkı dövrdə yeni sənaye məhsulunun çıxarılması müssisənin yüksək rəqabət qabiliyyətindən xəbər verir. Belə ki, yeni ideyaların maddiləşdirilməsi, onların kommersiyalaşması istiqamətində kompleks və səmərəli tədbirlərin həyata keçirilməsi ilə müşayiət olunmalıdır. Belə bir fikirlə razılaşmaq lazımdır ki, yeni məhsul istehsalı həm tədqiqatlara, həm də müəssisənin idarəetmə sisteminin təkmilləşdirilməsinə artan məsrəflər tələb edir. “Müəssisənin yeni məhsul istehsal etmək qabiliyyəti gələcək müvəffəqiyyətin əsas amilidir. Lakin bu qabiliyyət sadəcə olaraq müəssisənin tədqiqat xidmətinə diqqətin artırılması deyildir. Bu müəssisənin idarəetmə aparatının bütün bölmələrinin bacarıqlı inteqrasiyasıdır”. İnnovasiya fəaliyyəti, innovasiyanı reallaşdıran çoxmərhələli prosesdir. Həmin mərhələlər aşağıdakı ardıcıllıqla təqdim olunur:

- Fundamental tədqiqatlar. Obyektiv qanunauyğunluqların inkişafının aşkar edilməsi və sistemləşdirilməsidir;
- Tətbiqi tədqiqatlar. Həmin araşdırmalar fundamental tədqiqatların nəticələrinin həyata keçirilmə imkanlarını müəyyənləşdirməklə bəzi təshihlər üçün elmi material verə bilər;
- İşləmələr. Bu mərhələdə yeni ideyanın maddiləşdirilməsi istiqamətində fəaliyyət həyata keçirilir;
- Lahiyələndirmə. Yeni qurğunun, cihazın, maşının, texnologiyanın texniki dildə təsviri məhz bu mərhələdə reallaşır. Belə ki, bu zaman eskizlər hazırlanır, modellər işlənir, hesablamalar aparılır;
- Yeni məmulatların və ya texnologiyaların yaradılması;
- Həmin məmulatların sınaqdan keçirilərək mənimsənilməsi;

- Real istehsal prosesinin başlaması və davamlı istehsalın təmin olunması;
- Marketinq – yeni məhsulun bazara çıxarılması və sonistehsalçıya çatdırılması;
- Satış və satışdan sonrakı xidmət;
- İnnovasiyanın həyat dövrü. Həmin dövr elmi ideyanın kommersiyalaşma anına qədərki müddəti əhatə edir. Haqqında danışılan dövr kimi elmi ideyanın maddiləşərək öz xərcini ödəməsinə qədər keçən müddət də qəbul oluna bilər;
- Sınaq və satış. Ötən əsrin 70-80-ci illərində yaradılmış elm istehsalat birlikləri tətbiqi tədqiqatlardan başlayaraq sonuncu satış mərhələsinə kimi innovasiya tsiklinin bütün mərhələlərini özündə birləşdirirdi. Müstəqillik dövründə də respublikamızda analoji qaydada fəaliyyət göstərən təşkilatlar vardır. Ölkəmizdə əsaslı islahatlar çərçivəsində başlıca olaraq qeyri-neft sektorunun inkişafına yönələn iqtisadi modelə keçidlə bağlı innovasiyaların tətbiqi arealı geniş zərurət xarakteri daşıyır. Sözsüz ki, bütün bu islahatlar dalğası milli innovasiya sisteminin rəqabətədavamlı formada yaradılması məcburiyyətindən irəli gəlir. Belə ki, ölkədə iqtisadiyyatın şaxələnməsi və innovasiya fəaliyyətinin geniş tətbiqi sürətləndirilməsi hədəfi ilə bütün əlaqəli sahələrdə stimullaşdırıcı mexanizmlərin qurulması prosesinə başlanılmışdır. Eyni zamanda, həmin mexanizmlərə nümunə kimi strateji yol xəritəsinin təsdiq edilməsi və burada əsas kimi iqtisadiyyatın perspektivləri nəzərdə tutulmuşdur. İnnovasiyalı iqtisadiyyata keçidlə əlaqədar olaraq, hal-hazırda respublikamızda firmalarda və müəssisələrdə innovasiyaların tətbiqi və inkişafı üçün geniş imkanlar var.

## ƏDƏBİYYAT

1. Biznesin təşkili və idarə edilməsi. Dərslik, Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2011
2. İ.M.Hüseyinova. Müəssisənin iqtisadiyyatı. Dərs vəsaiti, Bakı: 2013
3. İqtisad Universitetinin Magistratura Mərkəzinin disertasiya işləri, 2015-2019-cu illər
4. Arzu Hüseynova. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: 2013
5. A.H.Tağıyev, İ.A.Aslanzadə. İnnovasiya menecmenti. Dərs vəsaiti, I hissə, Bakı: 2017

## РЕЗЮМЕ

**Вагиф Мехтиев**

## РОЛЬ ИННОВАЦИЙ В РАЗВИТИИ ИНСТИТУТОВ

Статья является одной из самых актуальных тем в современном мире для модернизации экономики и повышения конкурентоспособности местной продукции. Таким образом, как научно-техническая отсталость экономически развивающихся стран, так и их стремление войти в глобальную инновационную среду в значительной степени зависят от качества и объема применяемых инноваций в стратегическом и организационном аспекте инноваций. Предыдущий опыт экономически развитых стран показывает, что фирмы или предприятия, которые имеют более эффективные механизмы инноваций, понимают важность инноваций и имеют хорошо разработанную структуру внедрения, могут легко одолеть своих конкурентов на мировых рынках. По этой причине использование инноваций для достижения экономического процветания для нашей страны, которая находится в середине переходной экономики, неоценимо.

## SUMMARY

**Vagif Mehdiyev**

## THE ROLE OF İNNOVATİON İN THE DEVELOPMENT OF İNSTİTUTİONS

The article is one of the most urgent topics in the modern world to modernize the economy and increase the competitiveness of local products. Thus, both the scientific and technical backwardness of the economically developing countries and their desire to enter the global innovation environment significantly depend on the quality and scope of the innovations applied, in a strategic and organizational way of innovation. Previous experience of economically developed countries shows that firms or businesses that have more efficient mechanisms of innovation, understand the importance of innovation and have a well-developed structure of implementation, can easily overcome their competitors in global markets. For this reason, the use of innovations to achieve economic prosperity for our country, which is in the middle of a transitional economy, is invaluable.

**HÜSEYN BAĞIRSOYLU**
*“Naxçıvan” Universiteti*

# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ SOSİAL-İQTİSADİ İNKİŞAFINDA XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN ROLU

***Açar sözlər:*** *xarici iqtisadi əlaqələr, ümumi daxili məhsul, ixrac, idxal, innovasiya, iqtisadi siyasət, nəqliyyat, beynəlxalq əmək bölgüsü, rəqabətqabiliyyətli*

***Ключевые слова:*** *внешние экономические связи, общая внутренняя продукция, экспорт, импорт, инновации, экономическая политика, транспорт, международный трудовой раздел, конкурентоспособность.*

***Key words:*** *Foreign economic relations, gross domestic product, export, import, innovation, economic policy, transport, new international division of labor, competitive.*

Təməli xalqımızın ümummilli lideri Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri işlədiyi dövrdə qoyulan yeni həyat quruculuğu xətti ötən illər ərzində uğurla davam etdirildi. Heydər Əliyev siyasi kursunu dövrün tələblərinə uyğun və yaradıcılıqla davam etdirən ölkə Prezidenti İlham Əliyev regionların sosial-iqtisadi inkişafında Naxçıvanın xüsusi yeri olduğunu dönə-dönə qeyd etmişdir (1, s. 20).

Azərbaycanda ilk dəfə olaraq Naxçıvanda milli ordu hissələri formalaşdırıldı, regionun ərazi bütövlüyünün və təhlükəsizliyinin müdafiəsi üçün zəruri təminat əldə edildi. Yeridilən daxili sosial-iqtisadi siyasət xətti və xarici dövlətlərlə yaradılan iqtisadi əlaqələr Naxçıvan əhalisinin güzəranını yüngülləşdirməyə, onu düçar olduğu blokada vəziyyətindən çıxarmağa istiqamətləndirilmişdi. Bölgənin düşdüyü iqtisadi çətinlikləri aradan qaldırmaq üçün qonşu Türkiyə və İranla iqtisadi əlaqələr yaradıldı. Həyata keçirilən tədbirlər Naxçıvanın qorunub saxlanılmasına və yaşamasına şərait yaratdı. “Həmin illər Naxçıvan üçün çox çətin, muxtar respublikanın gələcəyi üçün həlledici dövr idi. Heydər Əliyevin nüfuzu, təcrübəsi, iradəsi həmin dövrdə Naxçıvanı qorudu... Naxçıvan yaşadı, burada sülh və əmin-amanlıq təmin olundu” (1, s.36).

Xarici iqtisadi əlaqələr tarixən dövlətlər, xalqlar arasında mövcud olmuş və hazırda da davam edərək region və dünya ölkələri üçün mühüm əhəmiyyət kəsb edir. Xarici iqtisadi əlaqələrin mühüm cəhəti ondan ibarətdir ki, bu əlaqələr ölkə və ya region üçün əsas iqtisadi inkişaf göstərici amillərindən biri olaraq qəbul edilir. İstər erkən dövlət qurumları səviyyəsində, istər böyük coğrafi kəşflər dövründə, istərsə də müasir dövrümüzdə ölkələr arasındakı sosial-iqtisadi əlaqələr olmuş, müasir dövrümüzdə isə bu daha da innovativ və inteqrasiya formasını alaraq yayılmışdır.

Müasir zamanda ölkələr arasında həyata keçirilən idxal-ixrac əməliyyatları, ölkələrin beynəlxalq əmək bölgüsündə çıxış etmək imkanları, onların investisiya potensialı və s. bu kimi iqtisadi amillər ilk öncə ölkənin sərbəst siyasət yürütmək qabiliyyətinin, onun etibarlı tərəfdaşlığının göstəricisidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: “Azərbaycanın beynəlxalq nüfuzu, bizimlə əməkdaşlıq etmək istəyən ölkələrin sayı getdikcə artır. Azərbaycan dünyada, beynəlxalq arenada özünü etibarlı tərəfdaş kimi və etibarlı dost kimi təsdiq edə bilmişdir”.

Artıq dünya ölkələrinin ÜDM (Ümumdaxili məhsul) və ÜMM (ümummilli məhsul)-nin formalaşmasında xarici iqtisadi əlaqələrin payı olduqca artmışdır. Həmçinin bunlarla yanaşı, bazar iqtisadiyyatının inkişaf etdiyi bir dövrdə ölkələr arasında insan kapitalı axını, xarici ölkələrin təcrübələrindən istifadə etmə, geniş istehlakçı bazarlarına çıxabilmə, rəqabətqabiliyyətli məhsulları istehsal və ixrac etmək kimi geniş imkanlara malik olan müasir iqtisadiyyat formalaşmışdır.

Naxçıvan Muxtar Respublikasında da xarici iqtisadi əlaqələrin inkişafı daim aktual olub. Bu sahədə ilk addımlar xalqımızın ümummilli lideri Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi dövrdə atılıb. Belə ki, qonşu İran İslam və Türkiyə respublikaları ilə yaradılmış hərtərəfli əlaqələr iqtisadi sahədə də öz uğurlu nəticələrini göstərib. Xüsusilə muxtar respublikanın blokada vəziyyətinə salınması bir çox iqtisadi çətinliklərin yaranmasına vəsilə olub. Bu

vəziyyətdən də çıxış yolu kimi adıçəkilən dövlətlərlə iqtisadi əlaqələrin qurulması böyük rol oynayıb. Doğrudur, bu iqtisadi əlaqələr ilk illərdə, əsasən, idxal məhsulları üzərində qurulsa da, sonrakı dövrlərdə muxtar respublikada milli iqtisadiyyatın inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər yerli məhsulların aparılan əməliyyatlarda daha çox paya sahib olması ilə nəticələnib. Son illərdə isə bu əlaqələr daha da inkişaf edərək özünün yeni mərhələsinə qədəm qoyub.

Muxtar respublikanın iqtisadi inkişafında ilk mərhələ keyfiyyətli məhsul istehsal etməklə əhalinin tələbatını ödəməkdən ibarət idisə, bu gün həmin məhsulların rəqabət qabiliyyətini artırmaqla ixracına nail olmaq prioritet vəzifə kimi qarşıya qoyulub. Bu məqsədlə cari ilin ötən dövrü ərzində Birləşmiş Ərəb Əmirlikləri, Türkiyə, Rusiya, İraq, İran, Gürcüstan, Küveyt, Çin və Qırğızıstan kimi ölkələrə muxtar respublikadan müxtəlif məhsullar ixrac edilib.

Belə ki, həyata keçirilən iqtisadi siyasətin nəticəsi olaraq muxtar respublikamızda 441 müəssisə tərəfindən istehsal olunan 361 növdə və 1116 çeşiddə məhsul daxili bazarın tələbatlarını ödəməklə yanaşı, idxaldan asılılığın da azaldılmasında mühüm rol oynayır. Qeyd edək ki, hazırda muxtar respublikada 343 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bununla yanaşı, Naxçıvandakı bir çox müəssisə artıq xarici bazarlarda özünəməxsus yer tutmağa başlamışdır. Belə ki, bu gün muxtar respublikada istehsal gücünə görə 51 müəssisə ixrac potensialına malikdir. Həmin müəssisələr tərəfindən 60 növdə məhsulun istehsalı həyata keçirilir. Bu gün muxtar respublikada qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar məhz buradan təmin olunur. Muxtar respublikada istehsal olunan ixracyönümlü ərzaq məhsulları daha çox saf və təbiidirlər. Müasir dünyada təbii məhsullara verilən üstünlük belə məhsulların xarici bazarlara çıxarılma imkanlarını artırır. Bu məqsədlə muxtar respublikada ilk dəfə olaraq məhsul ixracına dəstək məqsədilə “Naxçıvan Məhsulları” MMC təsis edilmişdir. Müəssisənin əsas vəzifəsi məhsulların respublika ərazisində satışının genişləndirilməsi, qablaşdırma, dizayn, markalanma və digər göstəricilərin yaxşılaşdırılması, xarici ölkələrə ixracının təşkil edilməsindən ibarətdir. Hazırda Naxçıvan Muxtar Respublikasında istehsal edilən çox sayda məhsul ixrac baxımından perspektivli hesab olunur. Məhsul ixracı marketinq və reklam işinin təşkili ilə birbaşa əlaqəlidir. Bu baxımdan sərgilərdə iştirak, reklam kampaniyalarının təşkili, təbliğat işləri xüsusi əhəmiyyət kəsb edir. Son illərdə muxtar respublikadan 1200 nəfərdən çox nümayəndə 62 xarici ölkə sahibkarları ilə keçirilmiş 230-dan çox yerli və beynəlxalq əhəmiyyətli sərgi, biznes-forum və konfranslarda iştirak etmişdir. Təkcə 2015-ci ildə 78 nəfər 21 beynəlxalq əhəmiyyətli tədbirdə iştirak etmiş, muxtar respublikada istehsal olunan 20 növdə ərzaq məhsulları Almaniya Federativ Respublikasında keçirilən “Green Week”, Birləşmiş Ərəb Əmirliklərində keçirilən “Gulfood”, Səudiyyə Ərəbistanı və İran İslam Respublikasında keçirilmiş müxtəlif sərgilərdə nümayiş olunmuşdur. Naxçıvanın əsas ixrac məhsullarından məşhur mineral sularımızı, təbii duzu, vafli məmulatlarını, çay, emal olunmuş ət və meyvə məhsullarını, qazlı aromatlaşdırılmış içkiləri, spirtli içkiləri, meyvə şirələrini, yüksəkkeyfiyyətli tikinti məhsullarını, o cümlədən Naxçıvan sementini, gips və daş məmulatlarını, xam dəri, plastik və metal məmulatlarını, mebel, metal örtüklər, panel radiatorlar, karbon qazı, uşaq bezləri və digər çox sayda məhsulları misal göstərmək olar. 2015-ci ildə muxtar respublikada istehsal olunan sement, travertin daş məmulatları, meyvə şirələri, vafli məmulatları Gürcüstana, yarımfabrikat dəri, mineral sular Türkiyə, İran və MDB ölkələrinə, NAZ-Lifan avtomobilləri Belarusa ixrac olunub. 2016-cı ildə məhsullarımızın Rusiya və Birləşmiş Ərəb Əmirliklərinə çıxışı istiqamətində zəruri tədbirlər həyata keçirilir (4).

Muxtar respublikada iri özəl sektor təmsilçiləri olan “Gəmiqaya Holdinq”, “Dizayn Holdinq”, “Cahan Holdinq” Şirkətlər ittifaqları, “Ləzzət Qida Sənaye” Məhdud Məsuliyyətli Cəmiyyəti, “Babək”, “Sirab” Açıq Səhmdar Cəmiyyəti ilə yanaşı, çox sayda digər orta və kiçik biznes qurumlarının rəqabətqabiliyyətli məhsulları da dünyanın bir çox ölkələrinə ixrac olunmaqdadır.

Bildiyimiz kimi, artıq Naxçıvan Muxtar Respublikasında istehsal edilən və ya istehsal potensialı olan 43 adda məhsulun (13 kənd təsərrüfatı, 30 sənaye məhsulu) Türkiyənin bütün ərazisinə idxal rüsumu ödəmədən, güzəştli şərtlərlə daxil olmasına razılıq verilib. Qərara əsasən Naxçıvan Muxtar

Respublikasında istehsal olunan illik təqribən 100 milyon ABŞ dolları məbləğində məhsullar Turkiyəyə rüsum ödəmədən ixrac ediləcək. Naxçıvanda istehsal olunan və istehsal potensialını yüksək qiymətləndirdiyimiz 43 adda məhsulun heç bir vergisiz Türkiyəyə idxalına şərait yaradırıq. Bu, təkcə Qars və İğdır üçün deyil, bütün Türkiyə ərazisində qüvvədə olacaq bir qərardır. Bununla da Naxçıvanla qarşılıqlı ticarətin həcminin 120 milyon dollar artıb 200 milyon dollara çatmasına nail olacağıq" (3).

Muxtar respublikanın xarici ticarət əlaqələrinin inkişafında müasir gömrük və nəqliyyat infrastrukturunun yaradılması böyük əhəmiyyət kəsb edir. Bakı-Axalkalaki-Qars dəmir yolunun tikintisinə başlanması, Naxçıvan Beynəlxalq Hava Limanının yenidən qurulması, Culfa və Sədərək sərhəd-keçid məntəqələrinin müasirləşdirilməsi, Şahtaxtı-Poldəşt sərhəd-keçid məntəqəsinin istifadəyə verilməsi və ona beynəlxalq statusun verilməsi, İran ərazisindən keçməklə Naxçıvan-Bakı avtobus marşrutunun açılması, Türkiyə Hava Yollarının Naxçıvana reyslər açması, Qars-Naxçıvan dəmir yolunun, İqdır-Naxçıvan magistral qaz kəmərinin çəkilməsi kimi iri iqtisadi layihələrin müzakirəsi regionun gələcək inkişafına istiqamətlənən, muxtar respublikanın xarici ticarət əlaqələrinin inkişafına çox böyük perspektivlər yaradan layihələrdir.

Belə ki, bu layihələrdən biri olan Qars-İğdır-Naxçıvan dəmir yolu layihəsinin ən yaxın tərəfdaşımız olan qardaş ölkə Türkiyə Respublikası üçün və Azərbaycandan quru yolu ilə birbaşa əlaqədən ayrılan Naxçıvan Muxtar Respublikası üçün mühüm əhəmiyyəti vardır. Bu haqda Türkiyə Cümhuriyyətinin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan belə demişdir: "Məlum olduğu kimi, Qars-İqdır-Naxçıvan dəmir yolu Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin davamıdır. Bu xətt Qarsda tikintisi hələ davam edən logistik mərkəz ilə də bağlı olacaq". Bu Türkiyədə "Orta nəqliyyat dəhlizi" adlandırılan dəhlizə daxildir: "Naxçıvana, İrana çıxışı olan dəmir yolunun tikintisi bu hissəni Edirne, İstanbul, Eskişehir, Ankara, Yozqat, Sivas, Ərzincan, Ərzurum və Qars kimi şəhərlərdən keçən "Şərq-Qərb" dəmir yolu dəhlizi ilə birləşdirməyə imkan verəcək və bu, Türkiyənin mövqeyini daha da gücləndirməyə və muxtar respublikanın nəqliyyat müstəqilliyinin təmin edilməsinə və Naxçıvanda istehsal olunan məhsulların xarici ölkələrə rahat daşınmasına səbəb olacaq.".

Ötən dövrdə muxtar respublika iqtisadiyyatının dinamik inkişafı digər sahələrdə olduğu kimi, xarici iqtisadi əlaqələrin genişləndirilməsinə də öz təsirini göstərib. Belə ki, hazırda Türkiyə və İranla yanaşı, Rusiya, Gürcüstan, Ukrayna, Litva, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrə də Naxçıvandan məhsullar ixrac olunur. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, 2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada 304 milyon 838 min 500 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri son bir il ərzində 1,2 faiz artaraq 284 milyon 341 min 600 ABŞ dolları, idxalın dəyəri 27,1 faiz azalaraq 20 milyon 496 min 900 ABŞ dolları təşkil edib. Nəticədə, 263 milyon 844 min 700 ABŞ dolları dəyərində müsbət saldo yaranıb (2).

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2018-ci ilin yanvar-iyul aylarında 249 milyon 147 min 700 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 221 milyon 145 min 500 ABŞ dolları təşkil edib, 193 milyon 143 min 300 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

Göründüyü kimi, muxtar respublika iqtisadiyyatının davamlı inkişafı təkcə xarici iqtisadi əlaqələrin və əhalinin həyat səviyyəsinin yüksəlməsi ilə deyil, həm də dünya iqtisadiyyatına sürətli inteqrasiyasını səciyyələndirib. Bu isə Naxçıvan Muxtar Respublikasının etibarlı tərəfdaş və dost kimi özünü təsdiq etməsindən qaynaqlanır.

## ƏDƏBİYYAT

1. İ.Hacıyev. Naxçıvan Muxtar Respublıkasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı (1991-2011-ci illərNaxçıvan: 2011-ci il, 272 səhifə
2. http://www.serqqapisi.az/index.php/iqtisadiyyat/13769-1d2a0
3. https://www.economy.gov.az/article/naxchivan-mehsulari-turkiyeye-rusumsuz-ixrac-edilecek/28587
4. https://virtualaz.org/bugun/63027

## РЕЗЮМЕ

**Гусейн Багирсойлу**

### РОЛЬ ВНЕШНИХ ЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ В СОЦИАЛЬНО ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ НАХЧЫВАНСКОЙ АВТОНОМНОЙ РЕСПУБЛИКИ

Если первой ступенью экономического развития Автономной Республики было производство качественной продукции для удовлетворения спроса населения, сегодня поставлена приоритетная задача, увеличивая конкурентоспособность данных продукций, достичь увеличения экспорта. С этой целью за прошедший период текущего года были экспортированы различные продукции из автономной республики в такие страны как ОАЭ, Турция, Россия, Иран, Ирак.

## SUMMARY

**Huseyn Baghirsoylu**

### THE ROLE OF FOREİGN ECONOMİC RELATİONS İN THE SOCİO-ECONOMİC DEVELOPMENT OF THE NAKHCHİVAN AUTONOMOUS REPUBLİC

If the first stage in the economic development of the autonomous republic was to meet the needs of the population by producing high-quality products, today the priority task is to achieve the export of these products by increasing their competitiveness. For this purpose, during the past period of the current year various products were exported from the autonomous republic to the United Arab Emirates, Turkey, Russia, Iraq, Iran.

**RƏNA SULTANOVA**
*AMEA-nın İqtisadiyyat İnstitutu*
**MƏHİN ŞAHSUVARLI**
*Azərbaycan Kooperasiya Universiteti*

# İNTELLEKTUAL KAPİTALIN QİYMƏTLƏNDİRİLMƏ METODLARI

***Açar sözlər:*** *intellektual kapital, insan kapitalı, göstəricilər, rəqabət, ali təhsil, region*
***Ключевые слова:*** *регион, интеллектуальный капитал, человеческий капитал, показатели, конкуренция, высшее образование*
***Key words:*** *region, intellectual capital, human capital, indicators, competition, higher education.*

XX əsrin 70-ci illərindən etibarən beynəlxalq iqtisadi təşkilatlarda insan kapitalı problemi ilə bağlı məsələlərə marağın artması ilə əlaqədar olaraq, BMT-nin iqtisadi və sosial şurası davamlı inkişaf strategiyası üzrə sənəd hazırlamışdır. Bu sənədə görə insan kapitalının bəzi tərkib hissələrinin hesablanma metodikaları yaradılmışdır (1, səh. 206). Bu metodikaya bir nəslin orta ömür müddəti, aktiv əmək qabiliyyəti müddəti, iş qüvvəsinin balansı və digər insan amili ilə bağlı göstəricilər daxil olmuşdur (2, səh. 108). Beləliklə, XX əsrin ikinci yarısından iqtisadi inkişafda insan amilinin rolu və əhəmiyyətinin artması problemi qarşıya qoyulmuşdur. Ölkədə fəaliyyət göstərən şirkətlərin yüksək intellektual kapitala sahib olması onun rəqabətliyinin əsasını təşkil edir. İnsan kapitalının tərkibi kimi, ölkənin intellektual kapitalı elmi-texniki və ali təhsil sahələrində formalaşır.

***İntellektual kapitalın qiymətləndirilməsində istifadə olunan üsullar***

Hal-hazırda ölkənin intellektual ehtiyatlarının qiymətləndirilməsi üçün bir çox metodlar mövcuddur. İntellektual ehtiyatların qiymətləndirilməsində görkəmli iqtisadçı alim K.E.Seybi, xüsusən 42 üsul müəyyənləşdirmişdir (3, 148). Bu üsulların bəziləri yalnız təşkilat səviyyəsində tətbiq olunur, lakin əksəriyyəti regional səviyyədə istifadə edilə bilər. İntellektual kapitalın qiymətləndirilməsi üsulları toplusunu dörd kateqoriyaya bölmək olar (6, s.102):

1. İntellektual kapitalın birbaşa ölçülməsi metodları (Direct Intellectual Capital methods-DIC). Bu metod intellektual kapitalın ayrı-ayrı komponentlərinin pul dəyərlərindəki eyniləşdirmə və qiymətləndirilməsinə əsaslanır, sonradan isə inteqral qiymətləndirmə aparılır;

2. Bazar kapitallaşması metodları (*Market Capitalization Methods-MCM*). Bu yanaşmalar təşkilati səviyyədə hazırlanmışdır və intellektual kapitalın dəyəri şirkətin bazar kapitallaşması ilə öz kapitalı arasındakı fərqi kimi hesablanır;

3. Aktivlərin gəlirliyini müəyyənləşdirmək üsulları (*Return on Assets methods - ROA)*. Müəyyən dövr ərzində şirkətin orta gəlirinin şirkətin maddi aktivlərinə nisbəti bütövlükdə sənaye üçün eyni göstərici ilə müqayisə olunur;

4. Balla qiymətləndirmə metodları (*Scorecard Methods — SC)*. Dəyər üzrə nəticələrin alınması nəzərdə tutulmur. Bu metodların tətbiqi zamanı intellektual kapitalın müxtəlif komponentləri müəyyən edilir, həmçinin amillər və indekslər generasiya edilir.

Hər bir metodun qruplarının öz məhdudiyyətləri vardır. Belə ki, ROA və MSM-nin potensial olaraq etibarlı qiymətləndirmələr verə bilər, lakin şirkətin ayrı-ayrı bölmələri səviyyəsində, həm də qeyri-kommersiya təşkilatları və regional səviyyədə tətbiq oluna bilməz. Daha geniş tətbiq sahəsinə sahib olan DIC və SC metodları həmişə obyektiv bir şəkil vermir və nəticələr müqayisə üçün əlverişsiz ola bilər.

Qeyd etmək lazımdır ki, sonralar J.Ruus və onun həmkarları bu metod qruplarına aşağıdakı daha bir əlavə, 5-ci qrup da daxil etmişlər.

5. Düzgün ölçmə sistemləri (Proper Measurement Systems - MS). Bu yanaşma birgə ölçmələrin iyerarxiyası konsepsiyasına əsaslanır (Conjoint Value Hierarchy) və ölçülə bilən atributlara bölünməsi ilə təşkilata və ətraf mühitə dəyər parametrlərinin toplanmasını əhatə edir. Belə bir qiymətləndirmə, keyfiyyətə yüksək tələblər qoyan çox sayda məlumat tələb edir ki, bu da bütün

lazımi məlumatları toplamaq mümkün olmadıqda metodun tətbiqini çətinləşdirir.

Hər bir bölgənin intellektual kapitalına artan diqqət bu işə ən uyğun olan SC-metodlarının intensiv işlənilməsinə səbəb olmuşdur. Bunu intellektual kapitalın əmələ gəlməsi dinamikasını əks etdirən aşağıdakı şəkildən görmək olar.

**Şəkil 1.** ***Dünya ölkələrində intellektual kapitalın əmələ gəlməsi dinamikası.***




***Mənbə:*** *müəllif tərəfindən müvafiq məlumatlar əsasında tərtib edilmişdir [6].*

Şəkil 1-dən göründüyü kimi, intellektual kapitalın qiymətləndirilməsi metodlarının ortaya çıxmasının dinamikasının təhlili 2000-ci illərdə SC-metodların aktiv inkişaf etməsi haqqında fikir deməyə imkan verir. Ona görə də bu metodlar başqa metodlara nisbətən daha çox işlənib hazırlanır və ən böyük qruplara çevrilirlər.

Bölgələrin intellektual kapitalının qiymətləndirilməsinə həsr olunmuş işləri iki istiqamət üzrə qruplaşdırmaq olar:

1) Bir qrup bölgənin intellektual kapitalının öyrənilməsi;

2) Müəyyən bir bölgə səviyyəsində qiymətləndirmə.

Bir neçə bölgə səviyyəsində əqli kapitalın rolunu və onun inkişafını müqayisə etmək və təhlilini nəzərdə tutan işlərin həyata keçirilməsi zamanı ölçmə indekslərdən istifadə edilir. Bu indekslərin hesablanmasına əsaslanan göstəricilərin tərkibi, ümumiyyətlə, tanınmır və müxtəlif işlərdə dəyişir. Eyni zamanda ümumi xüsusiyyətlər göstəricilərin seçilməsində müşahidə edilə bilər və bunun üçün bu sahədə daha geniş tətbiq edilən bir neçə tədqiqat işlərini nəzərdən keçirək.

İlk belə tədqiqatlardan biri N.Bontisin "Ərəb bölgəsi ölkələrinin intellektual kapitalı" əsəri olmuşdur. Bu əsərdə müəllif Edvinsson modeli əsasında Milli İntellektual Kapital İndeksi (NICI) metodundan istifadə etmişdir (bax. cədvəl 1-ə).

Model kiçikhəcmli göstəricilərlə xarakterizə olunduğuna görə istifadə üçün əlverişlidir. Lakin intellektual kapitalın quruluşu baxımından bu kifayət qədər tam deyildir. Aşağıdakı cədvəldə N.Bontis modelindəki Milli İntellektual Kapital İndeksinin quruluşu göstərilmişdir.

Qeyd etmək lazımdır ki, struktur kapitalı müəllif tərəfindən "proses" kimi, xarakterizə olunaraq, yalnız texniki tərəfdən nəzərə alınır. Bu isə kifayət deyil, çünki bölgələr arasındakı texnoloji boşluq az əhəmiyyətə malik ola bilər və sosial infrastrukturun inkişaf səviyyəsindəki boşluğa nisbətən innovativ inkişafa daha az təsir göstərir.

D.Vejek modeli öz növbəsində təşkilati kapitalın tərkibindəki patent fəaliyyətinin qiymətləndirmələrini özündə cəmləşdirir və nisbi kapitalın qiymətləndirilməsində onları təkrarlayır və bu kateqoriyaların təfsirini çətinləşdirir.

Beləliklə, qeyd olunan model intellektual kapitalın məzmununu daha əhatəli şəkildə təmin edir. Buna baxmayaraq, onun tətbiq dairəsi rəy sorğularının məlumatlarından istifadə ehtiyacı ilə məhdudlaşır. Modelin olmaması həm də intellektual kapitala münasibətdə bəzi göstəricilərin, məsələn, "xoşbəxtlik səviyyəsinin subyektiv qiymətləndirilməsi" kimi şərhlərin açıq olmamasıdır.

**Cədvəl 1.** ***Bontis modelində Milli İntellektual Kapital İndeksinin quruluşu***

| Ölkənin intellektual kapitalı | Ölkənin intellektual kapitalının qiymətləndirilməsi göstəriciləri |
|---|---|
| **İnsan kapitalı** | 1. Savadlılıq səviyyəsi;<br>2. Adambaşına düşən ali təhsil müəssisələrinin sayı;<br>3. Adambaşına düşən müəllimlərin sayı;<br>4. Ali təhsil müəssisələrinin tələbələrinin sayı;<br>5. Məzunların ümumi sayı |
| **Struktur kapitalı** | 1. Adambaşına düşən telefon xətlərinin sayı;<br>2. Adambaşına düşən fərdi kompüterlərin sayı;<br>3. Adambaşına düşən İnternet serverlərinin sayı;<br>4. Adambaşına düşən İnternet istifadəçilərinin sayı;<br>5. Adambaşına düşən mobil telefonların sayı;<br>6. Adambaşına düşən qəzetlərin sayı. |
| **Münasibətlilik kapitalı** | 1.Yüksək texnoloji məhsulların ixrac həcmi;<br>2. Patent İdarəsində qeydə alınmış patentlərin sayı və ABŞ ticarət markası (USPTO) adambaşına;<br>3.Adambaşına düşən konfransların, iclasların sayı. |
| **Bərpa olunan kapital** | 1. Kitab idxalı, ÜDM-in%;<br>2. Adambaşına düşən ümumi elmi-tədqiqat xərcləri;<br>3. Elmi sahədə çalışanların sayı;<br>4. Təhsilin ümumi maliyyələşdirilməsinin faizi kimi ali təhsil xərcləri;<br>5. Bir ildə qeydə alınan patentlərin sayı;<br>6. Vençur kapital şirkətlərinin sayı |

***Mənbə:*** *müəllif tərəfindən müvafiq məlumatlar əsasında tərtib edilmişdir (4).*

D.J.Andriessena və C.D.Stemanin “Avropa Birliyinin intellektual kapitalı” adlanan tədqiqat işində təklif etdikləri İntellektual kapital monitorinq modelində intellektual kapitala üç perspektiv prizmadan baxılır: aktivlər, investisiyalar və səmərə. Aşağıdakı cədvəldən bunları daha aydın görmək olar. Qeyd etmək lazımdır ki, 2001-ci il üçün Evrobarometer tədqiqatına əsasən bu tədqiqat işlərində göstəricinin məzmunu açıqlanmır. Bu yanaşma “kapital” hesab olunmayan, lakin “investisiya” proqnozuna endirilən bərpa olunan kapital kateqoriyasından daha diqqətli istifadə ilə fərqlənir və bununla da qiymətləndirmə nəticələrinin şərhini çətinləşdirmir. Modeldə istifadə olunan göstəricilər də əvvəllər qeyd olunan modellərdəki oxşar göstəricilərlə qismən üst-üstə düşür. Əvvəla, bunlar insan kapitalı ilə əlaqəli göstəricilərdir. Struktur və əlaqəli kapitalın elementlərində modellər arasındakı fərqlər artır. Struktur kapitalı dedikdə, D.Vezhekin tədqiqat işində olduğu kimi, texnologiyanın inkişafından daha geniş, eyni zamanda sahibkarlıq mühitini müəyyən edən göstəricilər vasitəsilə qiymətləndirilir.

Təqdim olunan göstəricilər dəsti balans baxımından suallar doğurur, ancaq yanaşma təkcə intellektual kapitalın "miqdarını" səciyyələndirən göstəricilər qrupunu seçməyə imkan verir, onları nəticələrdən və investisiyalardan ayıraraq onlara əsaslanan qiymətləndirmə formalaşdırır ki, bu da bölgələrin intellektual kapitalının müqayisəli qiymətləndirilməsinə mühüm şərait yaratmış olur.

Bu modellərin təhlili göstərir ki, qiymətləndirməni ölçmək üçün belə modellərdə tələb olunan məlumatlar çoxdur və ona görə də onlar müntəzəm istifadə üçün uyğun deyildir. Bu çatışmazlıqları aradan qaldırmaq üçün ilk dəfə L.Edvinsson tərəfindən C.Lin ilə birlikdə göstəricilərin sayı az olan bir model təklif edilmişdir. Həmin model cədvəl 3-də öz əksini tapmışdır. Müəlliflərin təklif etdikləri bu model vasitəsilə bilik iqtisadiyyatını qiymətləndirmək üçün ölkələrin seçilməsi maraq doğurur. Əvvəlki tədqiqatlarda nümunə yalnız bir bölgə ölkələri (Avropa Birliyi, Ərəb ölkələri) ilə

məhdudlaşmışdısa, bu reytinqdə 2011-ci ildə 32-ci yeri tutan Rusiya da daxil olmaqla dünyanın müxtəlif bölgələrindən 40 ölkənin qiymətləndirməsi aparılmışdır.

**Cədvəl 2.** ***D.J. Andriessena və C.D.Stemanın intellektual kapitalın göstəriciləri modeli***

| | |
|---|---|
| **Aktivlər** | 1. Tam orta və ali təhsilli olan əhalinin xüsusi çəkisi;<br>2. Peşəkar ehtiyaclar üçün bir PC istifadə edən iqtisadi fəal əhalinin payı;<br>3.İxtisaslarını artıran 25-64 yaş arası əhalinin payı;<br>4. Məşğul əhalinin 1000 nəfərinə düşən tədqiqatçıların payı;<br>5. Məşğulluq səviyyəsi;<br>6. "Elmtutumlu" və ya yüksək texnoloji istehsal sahəsində məşğulluq. |
| **İnvestisiyalar**<br>**Səmərəlilik** | 1. Təhsil xərclərinin ÜDM-də %-lə payı;<br>2.Əmək bazarının tənzimlənməsi xərclərinin ÜDM-də %-lə payı<br>1. Bir iş saatına düşən ÜDM;<br>2. Elmtutumlu xidmətlərin əlavə dəyərinin ÜDM-də % -lə payı |
| **Nisbi kapital** | |
| **Aktivlər** | - Beynəlxalq görüşlərin, forumların və s. payı;<br>- İnnovasiyalara cəlb edilmiş kiçik və orta sahibkarlıq;<br>- Xarici tələbələrin payı;<br>- Çıxan beynəlxalq telefon danışıqları;<br>- Beynəlxalq elmi əməkdaşlıq dərəcəsi. |
| **İnvestisiya** | - |
| **Səmərə** | -Birgə xarici investorlarla patentlərin payı;<br>-Franşizalardan və istehsal lisenziyalarından əldə olunan gəlirlər;<br>- Xidmətlərin ixracı;<br>- Yüksək texnoloji ixracat. |

***Mənbə:*** *müəllif tərəfindən müvafiq məlumatlar əsasında tərtib edilmişdir [5].*

Eyni zamanda modelin zəif nöqtəsi mürəkkəb hadisələrin ekspert qiymətləndirməsinə əsaslanan göstəricilərin yüksək olmasıdır ("universitetlər və iş adamları arasında əməkdaşlıq") ki, bu da göstəricilərin obyektivliyini və müqayisəsini azaldır. Müəyyən bir bölgə səviyyəsində qiymətləndirməyə həsr olunmuş tədqiqat işlərindən danışarkən qeyd etmək lazımdır ki, intellektual kapitalın qiymətləndirilməsi müxtəlif məqsədlər üçün həyata keçirilə bilər: strateji idarəetmə məsələlərindən tutmuş bilik iqtisadiyyatı sahəsində nailiyyətləri nümayiş etdirməyədək. Məsələn, İsrailin Sənaye, Ticarət və Məşğulluq Nazirliyi tərəfindən təqdim olunan "İsrail Dövlətinin İntellektual kapitalı: 60 illik Nailiyyətlər" əsəri də oxşar xarakter daşıyır. Bu vəziyyətdə intellektual kapitalın elementləri göstəricilərin birləşməsi ilə təsvir olunur, lakin əlavə təhlillər aparılmır. Əlbəttə ki, belə bir mənzərə, bölgənin intellektual kapitalının vəziyyəti haqqında müəyyən məlumat əldə etməyə və bunun əsasında nəticə çıxarmağa imkan verir, lakin butün bunlar kifayət deyildir.

***Nəticə***

Aparılmış tədqiqatda belə bir nəticəyə gəlmək olar ki, strateji inkişafyönümlü yanaşmalar, insan kapitalı konsepsiyanın imkanlarından daha dolğun istifadə etməyə imkan verdiyinə görə Azərbaycan Respublikasının intellektual kapitalını innovativ proseslərin inkişaf amili kimi öyrənmək daha məqsədəuyğun görünür. Bu cür modellər çərçivəsində, ümumiyyətlə, intellektual kapitalın üçlü quruluşunun daha dərindən ayrılması və müəyyən edilmiş elementlərin vəziyyətinin qiymətləndirilməsi və regional inkişafın hədəfləri ilə əlaqələndirilməsi vacibdir. Bu baxımdan belə modellər regionda intellektual kapitalın idarə edilməsi praktikası ilə sıx bağlıdır.

## ƏDƏBİYYAT


1. Allahverdiyev H.B., Qafarov K.S., Əhmədov Ə.M. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, 2012, 508 s.
2. Əzizova G.A. İqtisadiyyatın tənzimlənməsi. Bakı, 2015, 204 s.
3. Багов В.П. Управление интеллектуальным капиталом: учеб. пособие. М.: ИД «Камерон», 2006, 248 с.
4. Быкова А. А., Молодчик М. А. Влияние интеллектуального капитала на результаты деятельности компании//Вестник Санкт-Петербургского университета. Серия: Менеджмент. 2011, вып. 1, стр. 27–55
5. Бесполов П.В. Интеллектуальный капитал – стратегический потенциал. Москва: 2003
6. Sveibi K.-E. Methods for Measuring Intangible Assets. URL: http://www.sveiby.com/ articles / IntangibleMethods.htm (as of 2013)
7. World Bank Institute. 2002. The knowledge assessment Methodology andScoreboards. URL: http://www.worldbank.org/kam.


## РЕЗЮМЕ


**Рена Султанова**
**Мехин Шахсуварлы**


### МЕТОДЫ ОЦЕНКИ ИНТЕЛЛЕКТУАЛЬНОГО КАПИТАЛА


В статье изучены методы оценки интеллектуального капитала страны по категориям и проведен анализ существующих моделей. Были определены его цели путем классификации показателей оценки интеллектуального капитала страны по человеческому капиталу, структурному капиталу, относительному капиталу и восстановленным капиталам, отражающих грань национального интеллектуального капитала.


## SUMMARY


**Rena Sultanova**
**Mehin Shahsuvarlı**


### METHODS FOR ASSESSING INTELLECTUAL CAPITAL


In this article we have theoretically explained the methods of evaluation of intellectual capital of the country categories and the analysis of existing models. Its goals were defined by classifying indicators for assessing the country's intellectual capital by human capital, structural capital, relative capital, and recovered capital, reflecting the facet of the national intellectual capital

**SEVDA ABBASOVA**
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*abbasova-1975@bk.ru*

# MÜASİR BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ RƏQƏMSAL TURİZM SAHƏSİNİN ÖLKƏNİN İQTİSADİ İNKİŞAFINDA ROLU

***Açar sözlər:*** *turizm, ümumi daxili məhsul, iqtisadi inkişaf, ixrac, inteqrasiya, qloballaşma, iqtisadiyyat*

***Ключевые слова:*** *туризм, валовой внутренний продукт, экономический рост, экспорт, интеграция, глобализация, экономика*

***Key words:*** *tourizm, gross domestic product, economic growth, export, integration, globalisation, economy*

İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, müasir dünyada baş verən texnoloji innovasiyaların milli iqtisadiyyatın müxtəlif sektorlarına nüfuz etdiyi zamanda Azərbaycan Respublikasında da bununla bağlı yeni inkişaf proqramlarının yaradılması zəruridir. Artıq ölkəmizdə də yeni texnoloji nəsil iqtisadiyyatı-"rəqəmsal turizm iqtisadiyyatı"- irimiqyaslı sistemli proqramın gerçəkləşməsi zərurəti yaranmışdır. Bunu bizə dünyada baş verən texnoloji tendensiyalar və müasir iqtisadi şərait tələb edir.

Qeyd edək ki, "rəqəmsal turizm iqtisadiyyatı"nın məqsədi turizmin bütün sahələrində rəqəmsaltexnologiyaların sistemli inkişafı və tətbiqini təşkil etməkdir. Müvafiq sahələrə, xüsusilə iqtisadiyyat, sosial fəaliyyət kimi sahibkarlıq, dövlət idarəetməsi, sosial sfera və şəhər təsərrüfatı aiddirlər. Ümumiyyətlə, turizm sahəsi üzrə rəqəmsal iqtisadiyyata keçid bizim qlobal rəqabətqabiliyyətli olacağımız və milli təhlükəsizlik məsələmiz olmalıdır (1, s.104). Bütün dünyada keçirilən beynəlxalq iqtisadi tədbirlərdə, o cümlədən, İsverənin Davos şəhərində keçirilən Ümumdünya İqtisadi Forumunda da dördüncü sənaye inqilabına keçidin zəruriliyi qeyd olunur və onun əsas hədəfinin rəqəmsal iqtisadiyyata keçidi təmin etməkdə görülür. Məhz bu baxımdan, xüsusən ölkəmizdə də rəqəmsal turizm iqtisadiyyatına keçidin tam formalaşdırılması təmin olunmalıdır.

Müasir dünya iqtisadiyyatının ən böyük xidmət sahələrindən biri də rəqəmsal turizm sahəsi hesab olunur. Qeyd edək ki, ümumdünya milli məhsulunun 1/10 hissəsini təşkil edən beynəlxalq rəqəmsal turizm sahəsi dünya iqtisadiyyatında mühüm rol oynayır. Azərbaycan Respublikasında son illərdə bu sahə sürətli templə inkişaf edərək milli iqtisadiyyatın daha əhəmiyyətli bir sahəsinə çevrilmişdir. Nəzər almaq lazımdır ki, hər il turizm sektoruna qoyulan investisiyaların həcmi təqribən 30% ətrafında artmaqdadır (2, s.301).

Müasir dünyada beynəlxalq turizm bu gün iqtisadi sosial kompleksin ayrılmaz bir həlqəsi olmaqla, bir çox ölkələrdə iqtisadiyyatın inanılmaz sürətlə inkişaf edən bir sahəsinə çevrilmişdir.

Aparılmış təhlillər onu göstərir ki, hazırda beynəlxalq rəqəmsal turizmdə iki əsas istiqamət özünü göstərir: iqtisadi və siyasi maraqların turizm sektoruna təsirini minimuma endirmək və dünya iqtisadi böhranının turist biznesinə vurduğu ziyanları aradan qaldırmaq. Son illər dünya maliyyə bazarlarında uzun sürən stabillik tətil günlərində turistlərin daha mükəmməl istirahət meyllərini artırmış, yeni istirahət vərdişləri aşılamaqla 21-ci əsrin mədəniyyətində dərin izlər buraxmışdır.

Azərbaycan Respublikasında da turizm milli iqtisadiyyatın ən böyük, yüksək gəlirli və ən sürətlə inkişaf edən sahələrindən biri hesab edilir. Ümumiyyətlə, məhz turizm valyutanın beynəlxalq hərəkətində və ölkənin tədiyyə balansının tənzimlənməsində əvəzsiz rol oynayır ki, nəticə etibarilə bu da həm sözügedən sahənin, eləcə də ölkə iqtisadiyyatının makroiqtisadi göstəricilərinin yaxşılaşmasına gətirib çıxarır. Bundan başqa, beynəlxalq turizmin müxtəlif ölkələrin sosial, iqtisadi, mədəni və eləcə də ekoloji həyatına göstərdiyi təsirlər də bu qəbildən olan inkişaf meyllərinə aid edilə bilər. Odur ki, dünya səviyyəsində iqtisadi fəaliyyətin bu sahəsinə maraq günbəgün artır. Son illər Azərbaycanda da postsovet məkanı ölkələri arasında əvvəllər zəif inkişaf etmiş turist biznesinə maraq artmaqdadır. Artıq Azərbaycanda da əksər turizm şirkətləri tez-tez özfəaliyyət istiqamətlərini dəyişməklə ölkədaxili və eləcə də xaricə səyahət turları təşkil edirlər (3, s.155).

Artıq rəqəmsal turizm üzrə beynəlxalq biznes Azərbaycanda inkişaf etməkdə olan kompleksdir. Odur

ki, turizm sektoru daim bazara yeni turist fəaliyyət növlərini təqdim edir, qarşıya çıxan problemlərin aradan qaldırılması yollarını axtarır. Azərbaycanda regionlar üzrə turizmin inkişafı yeni yolların çəkilməsi, nəqliyyat vasitələrinin təkmilləşdirilməsi, xarici sahibkarların bölgəyə marağını artırmaqla, gələn turistlərin qarşılanması, yerləşdirilməsi, onlar üçün gəzinti planlarının hazırlanması və həyata keçirilməsi bir çox fəaliyyət komplekslərinin inkişaf perspektivlərini müəyyən edir. Belə ki, ölkəmizdə yeni hava və dəniz limanlarının istifadəyə verilməsi, yeni dəniz, hava, minik avtomobilləri və avtobusların alınması və istifadəyə buraxılması bu inkişafın elementlərindəndir. Həmçinin turizmin inkişafı ölkənin də inkişafına səbəb olur, yüzlərlə iş yerlərinin açılmasına və son nəticədə ölkənin sosial-iqtisadi inkişafına öz müsbət təsirini göstərir.

Qeyd edək ki, rəqəmsal turizm məhsulunun istehsalının kompleksli təşkili sistemi turizm sənayesi adlanır. Belə ki, turizm sənayesi - yerləşdirmə və nəqliyyat vasitələri, ictimai iaşə, əyləncə, dərketmə, işgüzar, sağlamlıq, idman və digər təyinatlı obyektlərin, turoperator, turagent, ekskursiya və bələdçi-tərcüməçi xidmətləri göstərən təşkilatların məcmusudur. Aparılmış araşdırmalar onu göstərir ki, kütləvi turizmin coşqun inkişafı bütün dünyada turizm sənayesinin və təsərrüfatın qarışıq sahələrinin, elm və mədəniyyətin, təhsil sisteminin uyğun olaraq davamlı inkişafına gətirib çıxarır.

Azərbaycan Respublikasında rəqəmsal turizmin yüksək templə inkişafı, böyük həcmdə valyuta axını iqtisadiyyatın müxtəlif sahələrinə fəal təsir göstərir ki, bu da hər bir ölkədə turizm sənayesinin yaradılmasına təkan verir. Dünya iqtisadiyyatında turizmin mahiyyəti genişlənir. Bu onun ayrılıqda hər bir ölkənin iqtisadi inkişafına göstərdiyi əsaslı təsirlə bağlıdır. Turizm ayrılıqda mühüm funksiyaları həyata keçirir. Onlara bunlar aid edilir: beynəlxalq turizm ölkəyə valyuta axınını təşkil edən mühüm mənbədir; tədiyyə balansına və ölkənin ümumi daxili məhsuluna maliyyə qoyuluşlarını artırır; iqtisadiyyatın diversifikasiyasına təkan verir, turizmə xidmət edən sahələri yaradır; ölkədə məşğulluğu təmin edən vasitələrdən biridir.

Ölkə iqtisadiyyatı üçün ən sərfəli hesab olunan beynəlxalq rəqəmsal turizmin gəlmə hissəsinin mühüm gəlir əldə etməkdir. Nəzərə alaq ki, rəqəmsal turizm xidmətlərinə motivlənmiş turistlər əraziyə səyahət edərək, xarici valyutanın ölkəyə daxil olmasına şərait yaradırlar. Buna görə də turizmin mühüm iqtisadi funksiya yerinə yetirdiyini qeyd etmək olar. Turizmin digər mühüm funksiyaları kimi isə ideoloji, siyasi, ümumi maarifləndirici və tərbiyəedici informasiyaların verilməsini, dünyagörüşünün genişləndirilməsini, insanlarda yeni maraqların formalaşdırılmasını, kadr hazırlığını və təkmilləşdirilməsini göstərmək olar (4.s.194).

Beynəlxalq təcrübə onu göstərir ki, Azərbaycanda müasir rəqəmsal turizm xidmətlərinin göstərilməsi və ölkəyə xarici turistlərin cəlb olunması üçün rəqabətqabiliyyətli yeni turizm məhsulları yaradılmalıdır. Bunun üçün də təbii, tarixi, coğrafi, etnik-milli ehtiyatlar tələb olunmaqdadır. Turizm məhsulu kimi istifadə olunan ehtiyatlar hər bir ölkədə, o cümlədən ölkəmizdə və bizim regionda da mövcuddur. Müxtəlif məzmunlu resurslar o zaman turizm məqsədilə istifadə oluna bilər ki, onlar müxtəlif xarakterlərinə görə təkrarolunmazlıqları, təbiilikləri və bənzərsizlikləri ilə seçilsinlər. Həmin resursların dünyada, yaxud ən azından regionda analoqu olmadıqda onlar müvafiq turizm məqsədilə səmərəli şəkildə istifadə oluna bilərlər. Məhz buna görə də zəruri infrastruktur, təşkilati, idarəetmə və tənzimləmə tədbirləri olmadan həmin resurslar elə resurs olaraq qalacaqlar və heç bir dəyər kəsb etməyəcəklər. Nəticədə işçi, sahibkar və dövlət büdcəsinin əldə edə biləcəyi külli miqdarda gəlir azala bilər.

Son illər bütün qabaqcıl dünya ölkələrində rəqəmsal turizm sahəsinin inkişafı əsas prioritetlərdən hesab olunur.




**Şəkil 1**. *Azərbaycan Respublikasına turizm məqsədilə gələn xarici ölkə vətəndaşlarının sayı ilə ( min. nəfər) turizm müəssisələrinin əldə etdiyi gəlirlər ( mln. manat)*

Azərbaycanın iqtisadiyyatının sürətli inkişaf edən sferalarından olan turizm perspektiv sahələrdən hesab olunur. Ölkəmizdə turizmin inkişafına səbəb olan əsas amillərdən biri turizmlə əlaqədar olan iqtisadiyyatın digər sahələrinin inkişafına istiqamətlənən irimiqyaslı layihələrə dövlət dəstəyinin himayə edilməsi hesab olunur.

Turizm və sosial-mədəni servis xidməti fəaliyyət növü kimi əhalinin asudə vaxtının səmərəli istifadə edilməsinə, ekskursiya, səyahət və turist marşrutlarının təşkilinə, həmçinin turistlərin başqa xidmət növlərindən istifadənin gücləndirilməsinə təkan verir. Rəqəmsal turizm xidmətləri bilavasitə turist təşkilatlarının fəaliyyətinin nəticəsidir. Turizm xidməti əməyin spesifik xüsusiyyətlərini və məzmununu müəyyənləşdirən milli iqtisadiyyatın müstəqil sahəsidir.Turizmdə əmək məhsuldarlığının artım sürəti üçün xidmətin səviyyəsinin yüksəldilməsi, əməyin təşkili və stimullaşdırılmasının forma və üsullarının təkmilləşdirilməsi, turizim və sosial-mədəni servis xidmətlərinin təşkilinin yenidən qurulması zəruridir. Azərbaycanda rəqəmsal turizm sahəsinin inkişafı ölkənin təbii-iqlim şəraitinin və regionların iqtisadi xüsusiyyətlərinin istifadə olunmasına, müvafiq sahibkarlıq fəaliyyətinin həvəsləndirilməsinə, maliyyə axınlarının tənzimlənməsinə və turizmin inkişafının müxtəlif amillərinin və modellərinin mənimsənilməsinə əsaslanan çoxsaylı məsələlərin həllini nəzərdə tutur. Xarici turist axınlarının intensivləşməsi məsələsinin həlli üçün regionlarda mövcud olan turist obyektlərində şəraitin yaxşıya doğru dəyişməsi istiqamətində bir sıra problemləri həll etmək zəruridir (5, s.171).

Son illər ölkəmiz beynəlxalq əlaqələrin genişləndirilməsinə xüsusi diqqət yetirir. Azərbaycan Respublikası hökuməti ilə son dövrlər 16-dan artıq ölkə – Türkiyə, Pakistan, Özbəkistan, Qırğızıstan, Çin, Polşa, İtaliya, Gürcüstan, Ukrayna, Rumıniya, Bolqarıstan, Belarus, Yunanıstan, Moldova, Qazaxıstan, Qətər və s. hökumətləri arasında turizm sahəsində əməkdaşlıq haqqında sazişlər imzalanmışdır. Azərbaycan bir sıra beynəlxalq və regional təşkilatlarda, o cümlədən Ümumdünya Turizm Təşkilatı, İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Beynəlxalq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM, MDB üzv dövlətlərinin Turizm Şurası və digər regional təşkilatlar ilə turizm sahəsində əməkdaşlıq edir.

Son illər beynəlxalq rəqəmsal turizmin inkişafı, respublikamızda turizm şirkətlərinin və mehmanxanaların sayının artması, ölkəmizdə turizm sektorunun dünya standartlarına uyğun səviyyədə inkişaf etdirilməsi Azərbaycanın dünya turizm bazarına inteqrasiyası istiqamətində aparılan ardıcıl tədbirlərdir.

Son illər digər regional dövlətlərlə müqayisədə Azərbaycana gələn turistlərin sayı və ölkəmizdə fəaliyyət göstərən turizm müəssisələrinin göstərdiyi xidmətlərdən əldə etdiyi gəlirlərin həcmi də artmışdır. Məsələn, 2014-cü ildə Azərbaycana gələn xarici turistlərin sayı 2159,7 min nəfər, 2017-ci ildə 2454 min nəfər, 2018-ci ildə bu göstərici 2605,3 min nəfər təşkil etmişdir. Bu proseslərin artımına ölkədə keçirilən beynəlxalq tədbirlər də mühüm təsir etmişdir. Xarici ölkələrdən gələn turistlərin sayı artdıqca ölkəmizdə fəaliyyət göstərən turizm müəssisələrinin gəlirləri də çoxalmışdır. Son illər Azərbaycanda turizm müəssisələrinin gəlirləri 2014-cü ildə 181,1 mln. manat olmuşdursa, 2017-ci ildə bu göstərici artaraq 284,4 mln. manat, 2018-ci ildə isə bu göstərici 2 dəfə artaraq 359,4 mln. manat olmuşdur (6, s.214). Təhlildən də göründüyü kimi, ölkəmiz üzrə son illər turizm axınının çoxalması regionlar üzrə turizm təsisatlarının, əlaqəli infrastruktur sahələrinin çoxalmasını təmin etmişdir.

Bu proseslərin əsas səbəbi ölkəmizin rəqəmsal turizm baxımından son illər cəlbediciliyinin artmasıdır. Ölkənin regionlarında turist zonalarının və marşrutlarının təşkil edilməsilə bağlı son illər 7 marşrut istiqamətində proqramlar hazırlanmışdır. Bu marşrutlara aşağıdakılar daxildir: Abşeron; Qobustan-Şamaxı-Ağsu-Göyçay-İsmayıllı-Kürdəmir-Zərdab-Ağdaş; Xızı-Siyəzən-Şabran Xaçmaz-Quba-Qusar; Qəbələ-Oğuz-Şəki-Qax-Zaqatala-Balakən; Gəncə-Goranboy-Göygöl-Gədəbəy-Tovuz-Qazax; Salyan-Masallı-Lerik-Lənkəran-Astara; Naxçıvan-Şahbuz-Şərur-Sədərək-Ordubad-Culfa-Babək. Azərbaycanın turizm bazarının inkişafını əks etdirən statistik göstəricilər bu bazarın kifayət qədər cəlbedici və dinamik olduğunu göstərir. Ölkəmizdə turizm sahəsinin inkişafına yönəldilmiş regionların inkişaf proqramlarının, Strateji Yol Xəritəsinin həyata keçirilməsi nəticəsində isə ölkəmizin turizm bazarı daha rəqabətqabiliyyətli olmuşdur. Xüsusən, regionlarda hal-hazırda turizm infrastrukturunun inkişafına daha çox diqqət ayrılır. Azərbaycanda turizmin inkişafına kömək olan

səbəblərdən biri də Sahibkarlığın İnkişafı Fondunun yaradılmasıdır. Fond turizm sahəsində fəaliyyət göstərən sahibkarlara kredit vermək imkanlarına malikdir.

Ümumiyyətlə, rəqəmsal turizm sahəsinin İKT texnologiyalarının dəstəyi ilə inkişafı istiqamətində aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

- ölkədə xarici ölkələrdən gələn turist axınlarının cəlbi istiqamətində regionlarda turizm müəssisələri üzrə İKT texnologiyalarının tətbiqinin və əlaqələndirilməsinin həyata keçirilməsi;
- regionlarda fəaliyyət göstərən turizm obyektlərinin fəaliyyətinin müasir beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində tələblərin sərtləşdirilməsi (5, s.171);
- ölkədə fəaliyyət göstərən mehmanxana və bu tip obyektlərin yataq yerlərinin 200 minə kimə artırılması;
- beynəlxalq və daxili bazarda ölkənin rəqabətqabiliyyətini artıra bilən müasir turizm infrastrukturunun və turizm sənayesinin yaradılması istiqamətində cəlbedici tədbirlərin artırılması;
- ölkə üzrə rəqəmsal turizm xidmətləri üzrə müasir standartların hazırlanması və tətbiq olunması;
- regionlarda turizm sahəsində çalışan insanların ixtisas və xarici dil bilmə səviyyəsinin yüksəldilməsi;
- turizm sahəsində regionlar üzrə özəl sektorun fəaliyyətinin genişləndirilməsində xarici investisiyaların cəlbinin stimullaşdırılması;
- milli turizm məhsulunun dünya turizm xidmətləri bazarında reklam olunmasında rəqəmsal informasiya vasitələrinin rolunun artırılması və s.

## ƏDƏBİYYAT

1. Dərgahov V.Ş. Reaksiya turizm ehtiyatları. Bakı, Təhsil, 2008, 214 s.
2. Yeganlı Ş. T., Haciyev E.M. Turizm. Dərs vəsaiti. Bakı, ABU, 2006, 324 s.
3. Məmmədov C.A. Bilalov B.Ə. Azərbaycanda gəlmə turizm və onun inkişaf yolları. Bakı, Mütərcim, 2004, 212 s.
4. Ушакова, Е. О. Методологические основы оценки ресурсов развития туризма региона: монография / Е. О. Ушакова, И. И. Золотарев, С. А. Вдовин. – Новосибирск : СГГА, 2014. – 194 с.
5. Основы туризма: учебник/ коллектив авторов; под ред. Е. Л. Писаревского.-Мосва: Федеральное агентство по туризму, 2014, 384 s.
6. www.stat.gov.az/turizm/2017_455 s

## РЕЗЮМЕ

**Севда Аббасова**

### РОЛЬ ЦИФРОВОГО ТУРИЗМА В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ СТРАНЫ В КОНТЕКСТЕ СОВРЕМЕННОЙ РЫНОЧНОЙ ЭКОНОМИКИ

В статье рассматривается роль цифрового туризма в экономическом развитии страны в контексте современной рыночной экономики. Международный опыт показывает, что экономические реформы необходимы для устойчивого развития туристического сектора. В статье выявляются существующие проблемы, предлагаются предложения и рекомендации по их решению.

## SUMMARY

**Sevda Abbasova**

### THE ROLE OF DIGITAL TOURISM IN THE ECONOMIC DEVELOPMENT OF THE COUNTRY IN THE CONTEXT OF MODERN MARKET ECONOMY

The article examines the role of digital tourism in the economic development of the country in the context of modern market economies. International experience shows that economic reforms are necessary for the sustainable development of the tourism sector. The article identifies existing problems, offers suggestions and recommendations on how to address them.

**KAMRAN ABDULLAYEV**
*AMEA İqtisadiyyat İnstitutu*
*kamran.abdullayev.1978@mail.ru*

## BEYNƏLXALQ REYTİNQLƏRDƏ AZƏRBAYCANIN NƏQLİYYAT SEKTORUNUN MÖVQEYİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *nəqliyyat, reytinq, innovasiya, innovasiya fəaliyyəti, infrastruktur, iqtisadiyyat, inteqrasiya*

***Ключевые слова:*** *транспорт, рейтинг, инновации, инновационная деятельность, инфраструктур, экономика, интеграция*

***Key words:*** *transport, rating, innovation, innovation activities, infrastructure, economy, integration*

Bütün dünyada Dünya İqtisadi Forumu dövlət və özəl sektor arasında əməkdaşlığı təmin etmək üçün təşkil olunmuş beynəlxalq təşkilat hesab olunur. Qeyd etmək lazımdır ki, bu təşkilat bir sıra beynəlxalq səviyyəli iqtisadi tədqiqatlar apararaq illik hesabatlar tərtib edir. Beynəlxalq İqtisadi Forum bütün dünya ölkələrini əhatə edən iqtisadi hesabatlar hazırlayaraq elmi beyin mərkəzi funksiyasını icra edir. Bu təşkilat üzrə fəaliyyət göstərən "Strateji Fikir Heyəti" rəqabətqabiliyyətlilik, beynəlxalq iqtisadi risklər sahəsində müxtəlif hesabatlar hazırlayırlar.

2019-cu il üzrə Qlobal Rəqabətlilik Hesabatında infrastruktur göstəriciləri üzrə Azərbaycanın mövqeyində ciddi irəliləyiş qeydə alınmışdır. Belə ki, Azərbaycan Respublikası 2019-cu ildə 140 ölkə arasında infrastruktur göstəriciləri üzrə 38-ci yerdə, nəqliyyat infrastrukturu üzrə 31-ci yerdə yol şəbəkəsinin keyfiyyəti üzrə 88-ci yerdə, yol infrastrukturunun keyfiyyəti üzrə 27-ci yerdə, dəmir yollarının sıxlığı üzrə 34-cü yerdə, dəmir yol xidmətlərinin səmərəliliyi üzrə 11-ci yerdə, hava limanlarının bağlantısı əlaqəliliyi indeksi üzrə 79-cu yerdə, hava nəqliyyat xidmətlərinin səmərəliliyi üzrə 12-ci yerdə, dəniz limanları xidmətlərinin səmərəliliyi üzrə 25-ci yerdə olmuşdur (2, s.64). Aparılmış təhlil onu göstərir ki, nəqliyyat xidmətləri göstəriciləri üzrə beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin yaxşılaşdırılmasına ölkənin ayrı-ayrı nəqliyyat növlərinin fəaliyyəti üzrə mövcud bir sıra maneələr və problemlər təsir edir ki, onlar da tədricən aradan qaldırılmalıdır.

Son illər üzrə Azərbaycanda dəmir yolu nəqliyyatında yük və sərnişin daşımaları üzrə əldə olunan gəlirlər və illik xərclər arasında ciddi fərqlər müşahidə olunmaqdadır. Məsələn, 2014-cü ildə dəmir yol nəqliyyatı üzrə əldə olunan gəlirlər 236303 min manat olmuşdursa, 2018-ci ildə bu göstərici 34538 min manat artaraq 270841 min manata çatmışdır. 2014-cü illə müqayisədə 2018-ci ildə dəmir yolu nəqliyyatı üzrə xərclərin həcmi 99676 min manat artaraq 323427 min manat olmuşdur (3, s.560). Yalnız 2018-ci ildə xərclər və gəlirlər arasında mənfi saldo 52586 min manat təşkil etmişdir. Xərclərin həcmi 2016-2018-ci illərdə daha da intensiv olaraq artmışdır (Cədvəl 1). Təhlil göstərir ki, son illər dəmir yol nəqliyyatı üzrə illik xərclər, hər il əldə olunan gəlirləri üstələməkdədir. Bu da dəmir yolu nəqliyyatı üzrə struktur islahatların aparılmasını, sahə üzrə yeni kiçik və orta, böyük özəl şirkətlərin yaradılmasını zəruri edir.

**Cədvəl 1.** ***Azərbaycanda dəmir yolu nəqliyyatı üzrə (yük və sərnişin daşımaları daxil olmaqla) əldə olunan gəlir və illik xərclər (min manatla)***

| İllər | Gəlirlər | Xərclər |
|---|---|---|
| 2014 | 236303 | 223751 |
| 2015 | 232077 | 201976 |
| 2016 | 202435 | 327401 |
| 2017 | 279202 | 460350 |
| 2018 | 270841 | 323427 |

Aparılmış təhlil onu göstərir ki, Azərbaycan Respublkasında dəmir yol nəqliyyatı üzrə gəlirlərin 1% artması xərclərin 1,4% artması ilə nəticələnmişdir. Qeyd olunanları nəzərə alaraq dəmir yol nəqliyyatı üzrə 2014-2018-ci illəri əhatə edən dövr üzrə mövcud xərclər və iqtisadi şəraitə əsasən 2022-ci ilə kimi proqnoz göstəricilərini MS Excel 2019 proqram paketinə görə hesablasaq, aşağıdakı qrafikdəki kimi olacaqdır.

Qrafik üzrə proqnoz göstəricilərinə əsasən demək olar ki, 2019-cu ildə Azərbaycan Respublikasında dəmir yol nəqliyyatı üzrə xərclər artaraq 536329,6 min manat, 2020-ci ildə 623803,6 min manat, 2021-ci ildə 678764,8 min manat, 2022-ci ildə isə 766238,9 min manat olacaqdır (Şəkil 1). Təhlildən də göründüyü kimi, 2019-2022-ci illər ərzində dəniz nəqliyyatının xərcləri hər il artacaqdır. Məhz buna görə də bu nəqliyyat sahəsi üzrə ciddi struktur islahatların həyata keçirilməsi və özəl sektorun yaradılması zəruridir.

**Şəkil 1.** ***Azəbaycan Respublikasında dəmir yolu nəqliyyatı üzrə mövcud xərclərin illər üzrə proqnoz göstəriciləri (min manatla)***




**Mənbə:** *Müəllif tərəfindən aparılmış hesabata əsasən MS Excel 2019 proqram paketində tərtib olunmuşdur.*

Son illər hava nəqliyyatı üzrə (yük və sərnişin daşımaları da daxil olmaqla) əldə olunan gəlir və xərclər üzrə ciddi dəyişiklər müşahidə olunmaqdadır. Məsələn, 2014-cü ildə hava nəqliyyatı üzrə gəlirlərin həcmi 837820 min manat olmuşdursa, 2019-cu ildə bu göstərici 2.5 dəfə artaraq 2066918 min manata çatmışdır (Cədvəl 2). Xərclərin həcmi isə 2014-cü illə müqayisədə 2.8 dəfə artaraq 2018-ci ildə 2187832 min manat təşkil etmişdir (Cədvəl 11 və Şəkil 13). 2018-ci ildə hava nəqliyyatının xərclərinin həcmi gəlirlərdən 120914 min manat yüksək olmuşdur (3, s.558).

***Cədvəl 2. Son illər Azərbaycanda hava nəqliyyatında (yük və sərnişin daşımaları daxil olmaqla) əldə olunan gəlir və xərclər (min manatla)***

| İllər | Gəlirlər | Xərclər |
|---|---|---|
| 2014 | 837820 | 770221 |
| 2015 | 828058 | 810422 |
| 2016 | 1053949 | 975035 |
| 2017 | 1647341 | 1626498 |
| 2018 | 2066918 | 2187832 |

***Şəkil 2. Azəbaycan Respublikasında hava nəqliyyatı üzrə mövcud xərclərin illər üzrə proqnoz göstəriciləri (min manatla)***




**Mənbə:** *Qrafik müəllif tərəfindən aparılmış hesabata əsasən MS Excel 2019 poqram paketində tərtib olunmuşdur.*

Alınmış hesabat onu göstəri ki, Azərbaycan Respublikasında hava nəqliyyatı üzrə gəlirəlin 1% artması xərclərin 1,13% artması ilə nəticələnmişdir. Qeyd olunanları nəzərə alaraq hava nəqliyyatı üzrə 2014-2018-ci illəri əhatə edən dövr üzrə trend modelinə uyğun olaraq mövcud xərclər və iqtisadi şəraitə əsasən 2022-ci ilə kimi proqnoz göstəricilərini MS Excel 2019 proqram paketinə əsasən hesablasaq aşağıdakı qrafikdəki kimi olacaqdır:

Qrafik üzrə proqnoz göstəricilərinə əsasən demək olar ki, 2019-cu ildə Azərbaycan Respublikasında hava nəqliyyatı üzrə xərclər artaraq 2461048,3 min manat, 2020-ci ildə isə 2842973,9 min manat olacaqdır. Təhlildən də göründüyü kimi 2019-2020-ci illər ərzində hava nəqliyyatının xərcləri hər il artacaqdır (Şəkil 2). Məhz buna görə də bu nəqliyyat sahəsi üzrə davamlı islahatların aparılması və yeni özəl hava yük və sərnişin şirkətlərinin yaradılması məqsədəuyğundur.

***Cədvəl 3. Azərbaycanda dəniz nəqliyyatı üzrə (yük və sərnişin daşımaları daxil olmaqla) əldə olunan gəlir və illik xərclər (min manatla)***

| İllər | Gəlirlər | Xərclər |
|---|---|---|
| 2014 | 102339,6 | 119029,1 |
| 2015 | 93989,7 | 154812,6 |
| 2016 | 160095,9 | 173959,9 |
| 2017 | 179724,5 | 162393,9 |
| 2018 | 170566,6 | 174676,7 |

Azərbaycan Respublikasında dəniz nəqliyyatında son illər ərzində yük və sərnişin daşımaları üzrə əldə olunan gəlirlər və çəkilən xərclər arasında ciddi fərqlər qeydə alınmışdır. Məsələn, 2014-cü ildə dəniz nəqliyyatında daşımalar üzrə əldə olunan gəlirlər 102339,6 min manat olmuşdursa, 2018-ci ildə bu göstərici 68227 min manat artaraq 170566,6 min manat təşkil etmişdir. 2017-ci ildə isə dəniz nəqliyyatı üzrə daşımalardan əldə olunan gəlir 179724,5 min manat olmuşdursa, 2018-ci ildə bu göstərici 9157,9 min manat azalaraq 170566,6 min manata çatmışdır (Cədvəl 3). Təhlil göstərir ki, Azərbaycan Respublikasında son 2017-2018-ci illər ərzində dəniz nəqliyyatının iqtisadi fəaliyyəti zərərlə müşahidə olunmuşdur. Dəniz nəqliyyatı üzrə ümumi daşımalara çəkilən xərclər 2014-cü ildə 119029,1 min manat, 2016-cı ildə 173959,9 min manat, 2018-ci ildə 174676,7 min manat olmuşdur. 2017-ci illə (162393,9 min manat) müqayisədə 2018-ci ildə daşımalara çəkilən xərclər 12282,8 min manat artaraq 174676,7 min manat təşkil etmişdir (3,s.554). Yalnız 2018-ci ildə dəniz nəqliyyatının fəaliyyətində gəlirlər və xərclər arasında mənfi saldo 4110,1 min manat olmuşdur. Təhlil onu göstərir ki, Azərbaycan Respublikasında dəniz nəqliyyatı üzrə gəlirlərin 1% artması xərclərin 0,36% artması ilə nəticələnmişdir.

***Şəkil 3. Azərbaycan Respublikasında dəniz nəqliyyatı üzrə mövcud xərclərin yaxın illər üzrə proqnoz göstəriciləri (min manatla)***




**Mənbə:** *Qrafik müəllif tərəfindən aparılmış hesabata əsasən MS Excel 2019 proqram paketində tərtib olunmuşdur.*

Qrafik üzrə proqnoz göstəricilərinə əsasən demək olar ki, dəniz nəqliyyatı üzrə 2019-2022-ci illər üzrə xərclərin artımı daha intensiv olacaqdır. Qrafik üzrə proqnoz göstəricilənə əsasən demək olar ki, 2019-cu ildə Azərbaycan Respublikasında dəniz nəqliyyatı üzrə xərclər artaraq 188292 min manat, 2020-ci ildə isə 199383 min manat, 2021-ci ildə 210475 min manat, 2022-ci ildə 221567 min manat təşkil edəcəkdir (Şəkil 3). Təhlildən də göründüyü kimi 2019-2020-ci illər ərzində hava nəqliyyatının xərcləri hər il artacaqdır. Məhz buna görə də bu nəqliyyat sahəsi üzrə davamlı islahatların aparılması və yeni özəl hava yük və sərnişin şirkətlərinin yaradılması məqsədəuyğundur.

Ümumiyyətlə, ölkəmizin beynəlxalq müqayisəli reytinqlərdə mövqeyinin daha da yaxşılaşdırılması istiqamətində aşağıdakı tədbirlərin görülməsi məqsədəuyğundur: müasir innovativ texnologiyalardan magistral avtomobil yollarının tikintisində istifadə olunması ilə tikinti xərclərinin azaldılması və beynəlxalq standartlara uyğun keyfiyyətli yolların tikintisi həyata keçirilməlidir (1, s.150); Azərbaycanda nəqliyyat sektorunun rəqəmsal formata keçidin (nəqliyyat kompleksinin vahid rəqəmsal platformasının formalaşdırılması) və qabaqcıl ölkələrin operatorlarının qarşılıqlı əlaqələrinin təmini sahəsində beynəlxalq təcrübənin (postsovet məkanı ölkələri, o cümlədən Rusiya təcrübəsi nəzərə alınmaqla) öyrənilməsi və ölkəmizdə tətbiqi vacibdir; müasir innovativ texnologiyaların mərkəz, regional və tranzit yollarının tikintisində istifadə olunması ilə yüksək kateqoriyalı yolların tikintisində tikinti xərclərinin azaldılmasına nail olunmalıdır; ölkənin regionlarında yerləşən şəhərlərin avtomobil yollarında müasir intellektual nəqliyyat sistemləri tətbiq olunmalı, onlar qarşılıqlı olaraq əlaqələndirilməlidir; təhlükəsiz və keyfiyyətli rəqəmsal texnologiya xidmətlərinin ayrı-ayrı nəqliyyat növləri üzrə tətbiqi vacibdir; dövlət büdcəsindən və beynəlxalq maliyyə qurumlarından ölkə üzrə avtomobil yollarının tikintisinə ayrılan maliyyə vəsaitlərinin xərclənməsinə "şəffaf" nəzarətin həyata keçirilməsi və yoxlanılması üçün beynəlxalq səviyyədə tanınmış xarici konsaltinq və auditor şirkətləri bu sahəyə cəlb olunmalıdır; avtomobil yollarının kateqoriyalarına uyğun olaraq onun keyfiyyətinin və istismar müddətinin yüksəldilməsi üçün yolların layihələndirilməsi, tikintisi, bərpası, təmir olunması istiqamətində müasir beynəlxalq standartlar tətbiq olunmalıdır və yerli standartlar bu standartlara uyğunlaşdırılmalıdır; Azərbaycanın regionları üzrə əsas magistral avtomobil yollarına paralel, daha optimal və qısa məsafəli ödənişli avtomobil yollarının çəkilməsində yerli və xarici özəl investisiyaların cəlbi, xarici investorların, özəl qabaqcıl şirkətlərin fəaliyyəti stimullaşdırılmalıdır; Azərbaycan Respublikasında avtomobil yollarının yaxın perspektiv dövrü əhatə edən inkişaf konsepsiyası, proqramları hazırlanmalıdır; avtomobil yollarının layihələndirilməsi, tikintisi, bərpası və təmiri sahəsində dövlət və özəl sektorun əməkdaşlıq imkanlarının gücləndirilməlidir.

Azərbaycan Respublikasında dəmir yolu nəqliyyatı üzrə özəl sektorun inkişaf etdirilməsi, özəl sahibkarlıq fəaliyyətinin yaradılması istiqamətində yaxın dövrlərdə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruridir: "Azərbaycan Dəmir yolları" (ADY) QSC-i mərhələli şəkildə özəlləşdirilməli, açıq səhmdar cəmiyyətə çevrilməli, onun aktivlərinin yenidən dəyərləndirilməsi, bu proseslərə Avropa Birliyi ölkələrinin, Dünya Bankının nəqliyyat üzrə beynəlxalq ekspertləri, məsləhətçiləri cəlb olunmalı, son nəticədə şirkətin nəzarət hissəsinin (payının) xarici və yerli investorlara açıq hərrac, müsabiqə və ya birjada səhmlərinin bir hissəsinin yerləşdirilməsi şəklində təklif olunmalıdır. Bu zaman "ADY" QSC-nin maliyyə effektivliyini, daxili və beynəlxalq bazarlarda xidmət keyfiyyətini yüksəltmək mümkündür. "Azərbaycan Dəmir yolları" QSC-nin tərkibində və yaxud ayrıca paylarının, səhmlərinin nəzarət zərfi dövlətə, yaxud özəl sektora (qarışıq-dövlət və özəl birgə formada da mümkündür) məxsus olan hüquqi şəxs statuslu təsis edilmiş aşağı büdcəli (kiçik, orta və böyük həcmli yük və sərnişin daşınması, infrastrukturun saxlanılması, təmiri müəssisələri də daxil olmaqla) özəl dəmir yol nəqliyyat şirkətlərinin yaradılması; yerli və özəl sahibkarlar tərəfindən bu sahəyə yönəldiləcək investisiya qoyuluşlarının stimullaşdırılması və sahə üzrə yaradılacaq özəl sahibkarlıq fəaliyyətində daxili və tranzit daşımalar üzrə tədricən azad tariflərə keçilməsi zəruridir.

Azərbaycan Respublikasında hava nəqliyyatı üzrə özəl sektorun, (özəl nəqliyyat vasitələrinə malik) sahibkarlıq fəaliyyətinin yaradılması istiqamətində aşagıdakı tədbirlərin reallaşdırılması məqsədəuygundur: Azərbaycan Respublikasının hava nəqliyyat xidmətləri bazarında aşağı büdcəli kiçik və orta həcmli özəl milli aviaşirkətlərin də fəaliyyəti təmin olunmalı, müxtəlif ölkələrə uçuşların sayı artırılmalıdır;

"Azərbaycan Hava Yolları" QSC-nin və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin nəzdində və yaxud ayrıca hava və dəniz nəqliyyatı üzrə yaradılmalı olan aşağı büdcəli şirkətlərə Bakı Fond Birjası vasitəsilə özəl sərmayə imkanı yaradılmalıdır. Məsələn, onlarda kapitalın 50%-i həcmində "AZAL"-ın və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"-nin nəzarət payı təmin oluna bilər, qalanını isə investorlara təklif etmək mümkündür. Bu şirkətlərə hava və dəniz limanlarından istifadə üzrə aşağı rüsumların tətbiqi vacibdir; "Azərbaycan Hava Yolları" və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" (AXDG) Qapalı Səhmdar Cəmiyyətləri özəlləşdirilməli, hər ikisi Açıq Səhmdar Cəmiyyətlərə çevrilməli, onun aktivlərinin yenidən dəyərləndirilməsi, qabaqcıl dövlətlərin beynəlxalq məsləhətçilərinin bu prosesə cəlb olunması, son nəticədə şirkətin nəzarət hissəsinin (payının) xarici və ya yerli investorlara açıq hərrac, müsabiqə və ya birjada səhmlərinin bir hissəsinin yerləşdirilməsi şəklində təklif olunmalıdır; milli hava nəqliyyatı sektoru üzrə rəqabətin gücləndirilməsi, yerli və beynəlxalq uçuşların sayının artırılması, qısa məsafəyə malik ərazilər üzrə təyyarə biletinin qiymətinin azaldılması, aşağı büdcəli bir neçə hava nəqliyyat şirkətlərinin fəaliyyəti üçün əlverişli mühitin yaradılması vacibdir; "Azərbaycan Hava Yolları" QSC-nin və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" (AXDG) QSC-nin tərkibində və yaxud ayrıca paylarının, səhmlərinin nəzarət zərfi dövlətə (yaxud özəl sektora, qarışıq və birgə şəkildə) məxsus olan hüquqi şəxs kimi təsis edilmiş aşağı büdcəli hava nəqliyyat şirkətlərinin yaradılması zəruridir; hava liman xidmətlərində potensial mövcud rəqabətli sahələrdə (yanacaq doldurulması, hava uçuş nəqliyyat vasitələrinə texniki xidmət, baqajın, yüklərin və poçtun emalı və s.) rəqabətin inkişaf etdirilməsi üçün bir neçə yerli və xarici şirkətin fəaliyyəti təmin olunmalıdır; Azərbaycan Respublikası ilə Avropa Birliyi və qeyri-Avropa ölkələri, eləcə də regional qonşu dövlətlər ilə tam aviasiya razılaşması (açıq səma sazişi), liberallaşdırılmış hava yolları xidmətləri üzrə müqavilələr imzalanmalıdır. Bütün bunlar ölkəmizdə turizmin və əlaqəli hava nəqliyyatının mərkəz və regionlar üzrə inkişafına səbəb ola bilər və s.

## ƏDƏBİYYAT


1. Abdullayev K.N. Azərbaycan Respublikasının nəqliyyat xidmətləri bazarı (Monoqrafiya). Bakı: "Elm və Bilik" nəşr., 2017, 172 s.
2. www3.werforum.org/World Economic Forum, The Global Competitiveness Report 2018. Geneva.: WEF, 2018, 675 p.
3. www.stat.gov.az/transport_2019. 750 s.


## РЕЗЮМЕ

**Камран Абдуллаев**

### ПРОБЛЕМА ПОВЫШЕНИЯ ПОЗИЦИИ МЕЖДУНАРОДНОГО РЕЙТИНГА ТРАНСПОРТНОГО СЕКТОРА АЗЕРБАЙДЖАНА

В статье рассмотрена проблема повышения позициимеждународногорейтинга транспортного сектора Азербайджана. Международный опыт показывает, что в области транспортного сектора осуществление реформ является актуальным. В статье исследованы проблемы повышения международного рейтинга функционирования различных видов транспорта и на этой основе разработаны и представвлены научно обоснованные рекомендации и предложений.

## SUMMARY

**Kamran Abdullayev**

### THE PROBLEM OF INCREASING THE POSITION OF THE INTERNATIONAL RATING OF THE TRANSPORT SECTOR OF AZERBAIJAN

The article considers the problem of increasing the position of the international rating of the transport sector of Azerbaijan. International experience shows that in the field of the transport sector, the implementation of reforms is relevant. The article explores the problems of increasing the international rating of the functioning of various modes of transport and on this basis scientifically based recommendations and suggestions are developed and presented.

**CƏVAHİR BABANLI**
*Azərbaycan Texniki Universiteti*
*babanlicevahir97@gmail.com*

# İNFORMASİYA KOMMUNİKASİYA TEXNOLOGİYALARININ İQTİSADİ İNKİŞAFDA ROLU

***Açar sözlər:*** *ümumi daxili məhsul, iqtisadi böyümə, ixracat imkanı, inteqrasiya, qloballaşma, iqtisadiyyat*

***Ключевые слова:*** *валовой внутренний продукт, экономический рост, экспорт, интеграция, глобализация, экономика*

***Key words:*** *gross domestic product, economic growth, export opportunity, integration, globalisation, economy*

Son illər bütün dünyada olduğu kimi Azərbaycanda rabitə və informasiya texnologiyalarının rolu milli iqtisadiyyatın bütün sahələri üzrə artmaqdadır. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiyada göstərildiyi kimi" informasiya və kommunikasiya texnologiyaları (İKT)-yüksək artım tempinə malik yeni iqtisadi sektor kimi müasir və çoxtəyinatlı infrastruktur, habelə hərtərəfli sosial-iqtisadi tərəqqinin aparıcı qüvvəsi rolunu oynayır. Bu gün İKT respublikanın davamlı və dayanıqlı inkişafının təmin edilməsi, intellektual potensialının gücləndirilməsi, biznesin inkişafı, korrupsiya ilə mübarizə, yoxsulluq və işsizliyin azaldılması, cəmiyyətdə şəffaflıq və demokratiyanın inkişaf etdirilməsi üçün əlverişli vasitə olaraq qəbul edilir. Dövlət idarəçiliyi, təhsil, səhiyyə, biznes, maliyyə-bank işi və digər sahələrdə yeni dəyərlər yaradan İKT ictimai - iqtisadi münasibətlərin vacib tərkib hissəsinə çevrilmişdir. İnternet mediasının inkişafı, internetdə fikir və söz azadlığının mövcudluğu, elektron qəzet və jurnalların, xarici və daxili sosial şəbəkələrin geniş yayılması İKT-nin cəmiyyətə verdiyi yeni imkanlardır (1, s.154).

İKT-nin, o cümlədən internet iqtisadiyyatının inkişaf etdirilməsi ənənəvi iqtisadi sahələrin inkişafında da mühüm rol oynayacaqdır. Məhz internet iqtisadiyyatı yeni istifadə və iştirak mühitlərinin yaranmasına, məhsuldarlığın artırılmasına, rəqiblər üzərində strateji üstünlüyün əldə olunmasına, tərəfdaşlarla münasibətlərin möhkəmləndirilməsinə, informasiya resurslarından optimal istifadəyə və bütövlükdə cəmiyyətin rifahının yaxşılaşdırılmasına şərait yaradır (2, s.154). Azərbaycan Respublikasının bu sahədə mövcud qanunvericilik bazasının, onun tərəfdar çıxdığı bir sıra beynəlxalq müqavilələrə uyğunlaşdırılması, bununla yanaşı, telekommunikasiya və poçt xidmətləri bazarının daha da liberallaşdırılaraq, özəl bölmənin inkişaf etdirilməsi məqsədilə çoxsaylı işlər görülmüş, tədbirlər həyata keçirilmişdir.

Aparılan müşahidə və təhlillər onu göstərir ki, son illər ölkədə informasiya-kommunikasiya texnologiyaları sektoru daha sürətlə və dinamik şəkildə inkişaf etməkdədir. Göstərilən sahədə həyata keçirilən məqsədyönlü siyasət, mühüm dövlət proqramları və zəruri islahatlar nəticəsində Azərbaycan Respublikasının ümumdünya elektron məkanına daha sürətli inteqrasiyası təmin edilmiş, yeni biliklərə əsaslanan iqtisadiyyatın təşəkkülü, elektron hökumətin formalaşdırılması, zəruri və aktual informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm addımlar atılmış, müasir və modern texnologiyaların vətəndaşların gündəlik həyatında tətbiqinə, Azərbaycan dilli internet resursların zənginləşdirilməsinə, respublika əhalisinin əksər hissəsinin internet istifadəçisinə çevrilməsinə nail olunmuşdur.

Son illər davamlı olaraq İKT sahəsində xidmətlərin əhali üçün əlçatanlığının təmin edilməsi, yeni layihələrin tətbiqi, İKT infrastrukturunun modernləşdirilməsi, tətbiq coğrafiyasının genişləndirilməsi və sahənin diversifikasiyası istiqamətində mühüm addımlar atılmaqdadır. "Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair 2014-2020-ci illər üçün Milli Strategiya" Azərbaycan Respublikası Prezidentinin 02 aprel 2014-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş və strategiyada bu sahənin inkişafı üzrə 2020-ci ilə kimi konkret məqsəd və vəzifələr müəyyən olunmuşdur.

Aparılmış təhlillər onu göstərir ki, ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları sektoru xüsusən son dövrlərdə sürətlə inkişaf etməkdədir. Bunu aşağıdakı statistik göstəricilərin təhlilindən də müşahidə etmək olar:

***Şəkil 1. Azərbaycanda son illərdə İKT sektorunda məhsul (xidmətlər) buraxılışı, mln. manatla***




Statistik göstəricilər üzrə aparılmış təhlil onu göstərir ki, İKT sektorunda məhsul (xidmətlər) buraxılışı üzrə ciddi artım tendensiyası qeydə alınmışdır. Məsələn, 2013-cü ildə bu göstərici 1528 mln. manat, 2017-ci ildə 1662,6 mln. manat, 2018-ci ildə isə 1786,9 mln. manat təşkil etmişdir. Son illər İKT sektorunda yaradılmış əlavə dəyərin həcmində də artım templəri müşahidə olunmuşdur (3, s.156). Məsələn, 2013-cü ildə bu göstərici 949 mln. manat, 2017-ci ildə 1038,1 mln. manat, 2018-ci ildə isə 1112 mln. manat olmuşdur. Təhlildən də göründüyü kimi hər il İKT üzrə artım dinamikası müşahidə olunmaqdadır. Azərbaycanda İKT sektorunda hər il qeydə alınan inkişaf tempinin əsas səbəbi bu sahədə dövlət dəstəyinin gücləndirilməsi, özəl İKT şirkətlərinin ölkədə sayının artması, onlara ayrılan investisiyaların çoxalması və onların ixrac imkanlarının yüksəlməsidir (Şəkil 1). Son illərdə ölkəmizdə informasiya-kommunikasiya texnologiyaları və rabitə sektoru dayanıqlı və intensiv şəkildə inkişaf etməkdədir. Bu mühüm infrastruktur sahəsində maliyyə gəlirlərinin orta illik artım tempi 25-30% arasında dəyişərək, əslində mövcud inkişaf səviyyəsinə görə ölkə iqtisadiyyatının, xüsusən də qeyri-neft sektorunun digər bütün bölmələrini geridə qoyur. Beynəlxalq təcrübədən göründüyü kimi, qeyri-neft sektorunun və infrastruktur sahələrin davamlı inkişafında informasiya texnologiyalarının rolu və yeri çox mühüm və əhəmiyyətli hesab edilir. Çünki müntəzəm olaraq çoxsaylı texnoloji yeniliklərə məruz qalan və onunla müşayiət olunan informasiya-kommunikasiya texnologiyaları (İKT) sektorunda modern xidmət növlərinin təşkil olunması, eyni zamanda bu xidmətlərin həcmi və əhatə dairəsinin getdikcə genişləndirilməsi hesabına, cədvəldə göstərilən illər ərzində yaradılan əlavə dəyərin qeyri-neft ÜDM-də xüsusi çəkisi artan templərlə inkişaf etməkdədir.

Azərbaycanda rabitə və informasiya texnologiyaları sahəsinin inkişafı istiqamətində aşağıdakı iqtisadi tədbirlərin həyata keçirilməsini məqsədəuyğun hesab edirik:

*-İnformasiya iqtisadiyyatının təşkili sahəsində qabaqcıl ölkələrin təcrübələrinin öyrənilməsi və ölkəmizdə tətbiqi prosesi stimullaşdırılmalıdır;*

*-İKT sahəsinin inkişafında dövlət dəstəyinin artırılması, bu sahədə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və fəaliyyət göstərən şirkətlərin ixrac fəaliyyəti dəstəklənməlidir;*

*- Respublika iqtisadiyyatının müxtəlif sahələrinin, həmçinin sosial məsələlərin səmərəli həlli istiqamətində nəzərdə tutulan müxtəlif innovasiya layihələrinin zəruri maliyyə vəsaitləri ilə təmin olunması vacibdir. Bu zaman onların məhz müsabiqələr vasitəsi ilə seçilərək müəyyən edilməsi, bu fəaliyyətlə məşğul olan qurumlara isə müəyyən qrantların və subsidiyaların verilməsi vacibdir və s.*

## ƏDƏBİYYAT

1. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı, Elm, 2013, 385 s.
2. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие, Москва, Наука, 2015, 222 с.
3. www.stat.gov.az/statistika/2019_İKT statistikası

## РЕЗЮМЕ

**Джавахир Бабанлы**

## РОЛЬ ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ В ЭКОНОМИЧЕСКОМ РАЗВИТИИ

В статье рассматривается роль информационных коммуникаций в экономическом развитии Азербайджана. Анализ показывает, что в нашей стране в последние годы были проведены очень серьезные реформы в этой области. В статье также приводятся рекомендации по развитию информационно-коммуникационных технологий в нашей стране.

## SUMMARY

**Javahir Babanli**

## ROLE OF INFORMATION COMMUNICATION TECHNOLOGY IN ECONOMIC DEVELOPMENT

The article examines the role of information communications in economic development of Azerbaijan. The analysis shows that in our country in recent years there have been very serious reforms in this area. The article also provides recommendations for the development of information and communication technologies in our country.

**GÜLNARƏ FƏTƏLİYEVA**
*AMEA İqtisadiyyat İnstitutu*
*feteliyevagulya@gmail.com*

# İNFORMASİYA-KOMMUNİKASİYA TEXNOLOGİYALARI SEKTORUNUN İNKİŞAFINDA İNNOVASİYALARIN ROLU

***Açar sözlər:*** *İKT sektoru, innovasiya, investisiya, rəqabətqabiliyyətlilik, iqtisadi inkişaf, məhsul və xidmətlər*

***Ключевые слова:*** *сектор ИКТ, инновации, инвестиции, конкурентоспособность, экономическое развитие, продукты и услуги.*

***Key words:*** *ICT sector, innovation, investment, competitiveness, economic development, products and services.*

**Problemin qoyuluşu**

Dünya dövlətləri elmi-texniki tədqiqatların həyata keçirilməsi, elmi-tədqiqat institutlarının fəaliyyətinin saxlanılması və genişləndirilməsini maraq dairələrində saxlayırlar. Bu baxımdan elmi araşdırmalar, tədqiqat mərkəzlərinin yaradılması, beynəlxalq əməkdaşlığın aparılması, müəllif hüquqlarının qorunması, kadrların hazırlanması və təkmilləşdirilməsi, elmi tədqiqatların, innovasiyaların maliyyələşdirilməsi kimi istiqamətləri reallaşdırmaq üçün hər bir dövlət milli maraqlarından çıxış edərək özünün elmi-texniki siyasətini müəyyənləşdirir və reallaşdırır.

İnnovasiyalar sahəsindəki mövcud durum, dünya ölkələrində bu sahəyə investisiyaların yönəldilməsi, innovasiyaların İKT sektorunun və eləcə də dövlətlərin rəqabətqabiliyyətli inkişafına təsiri məsələlərinin araşdırılması xüsusi əhəmiyyət kəsb edir.

**Beynəlxalq təcrübədə innovasiyalar və onların maliyyələşmə məsələləri**

Bir sıra qabaqcıl dünya ölkələri elmi tədqiqat və innovasiyalara böyük məbləğdə xərc çəkirlər. Məsələn, 2017-ci ildə elmi tədqiqatlara yönəldilən xərclərin həcmi ABŞ, Çin, Yaponiya, Almaniyada 100 milyon dollardan, Cənubi Koreya, Birləşmiş Krallıq, Fransada isə 40 milyon dollardan çox olmuşdur.

Qeyd edilən ildə elmi işləmələrə və tədqiqatlara çəkilən xərclərin ÜDM-ə nisbətinin ən yüksək payı Cənubi Koreya (4,6%) və İsrailə (4,5%) məxsus olmuşdur. Dünya üzrə bu göstərici 2010-cu ildə 2%-dən 2017-ci ildə 2,3%-ə qədər yüksəlmişdir.

Ölkəmiz və ona qonşu olan dövlətlərdə elmi işləmələrə və tədqiqatlara çəkilən xərclərin ÜDM-ə nisbətinə gəldikdə isə, bu göstərici Rusiyada - 1,1%, Türkiyədə - 1%, İran və Gürcüstanda - 0,3%, Azərbaycan və Ermənistanda - 0,2% təşkil etmişdir.

Təcrübə göstərir ki, investisiyaların innovasiyaya yönəldilməsi ölkələrin iqtisadiyyatının sürətli və davamlı inkişafına, bu isə öz növbəsində həyat səviyyəsinin yüksəlməsinə gətirib çıxarır. Əksər dövlətlər elmi tədqiqatları stimullaşdırmaq və innovasiyaların təşviqini gücləndirmək məqsədilə qeyri-rəqabət xarakterli bazar tənzimləmələrini azaltmış, birbaşa xarici sərmayə qoyuluşları sahəsində məhdudiyyətləri aşağı səviyyəyə salmışlar. İnnovasiyalara investisiya yatırmaq baxımından sabit makroiqtisadi şərait və aşağı real faiz dərəcələrinin təmin edilməsi də innovasiya fəaliyyəti üçün sabit və əlverişli mühit yaradır.

Fundamental elmi tədqiqatlara yönəldilən dövlət investisiyaları innovasiyalara yeni imkanlar açmaq baxımından mühüm əhəmiyyət kəsb edir. 2017-ci ilin məlumatlarına əsasən Argentina (72,6%), Meksika (67,4%), Rusiya (66,2%), Çili (47%), Latviya (43,6%) və s. ölkələrdə daha çox dövlət innovasiyalara yatırımlara yardım edir. İsrail (50,2%), Çex Respublikası (25%), İslandiya (24,5%), Litva (24,4%) kimi dövlətlərdə tədqiqatların maliyyələşməsinin 24% və ondan çox hissəsi dünya dövlətləri tərəfindən həyata keçirilir.

***Diaqram 1. 2017-ci ildə dünya ölkələrində elmi-tədqiqat və innovasiyalara çəkilən xərclər***




**Mənbə [1, s.11-12]** *əsasında müəllif tərəfindən tərtib edilib.*

Bundan əlavə, innovasiyalar üçün biznes mühitinin təkmilləşdirilməsi xüsusi əhəmiyyət daşıyır, çünki biznes innovasiyalar üçün hərəkətverici qüvvə rolunda çıxış edir. Bununla əlaqədar, əksər dövlətlər özəl sektorda innovasiya fəaliyyətinin təşviq edilməsi üçün dəstək göstərirlər. Dövlət dəstəyinin məqsədlərinə səmərəli şəkildə nail olunmasını təmin etmək üçün birbaşa və dolayı alətlərin (vergi güzəştləri, dövlət-özəl tərəfdaşlıqları) uyğun kombinasiyasını müəyyən etməklə bu dəstəyin effektivliyini artırmaq mümkündür. Bunun da nəticəsi kimi bəzi inkişaf etmiş ölkələrdə elmi tədqiqatlara çəkilən xərclərin əksər hissəsi biznes sektorun payına düşür. İnnovasiyalara çəkilən xərclərdə biznes sektorunun böyük paya sahib olduğu dövlətlərə nümunə olaraq Yaponiya (78,3%), Çin (76,5%), Cənubi Koreya (76,2%), Almaniya (66,2%), Belçika (63,5%), ABŞ (62,6%), İsveç (60,8%), Danimarka (58,5% ), Finlandiyanı (58%) göstərmək olar [1, s.22-25]. Bu ölkələrin özəl şirkətlərinin xərclərinin həcmi bir sıra iqtisadiyyatların elmi-tədqiqat işlərinə ayırdığı dövlət xərcləri qədər yüksəkdir. Məsələn, 2017-ci ildə Cənubi Koreyanın Samsung, ABŞ-ın Alphabet və Microsoft, Almaniyanın Volkswagen şirkətlərinin elmi tədqiqatlara yatırdığı sərmayələrin həcmi 16 milyard dollar, Çinin Huawei şirkətinin isə 14 milyard dollar təşkil etmişdir ki, bu da həmin dövrdə İsveç, İsveçrə, Avstriya, İsrailin dövlət xərcləri miqdarında olmuşdur. Ümumilikdə, 2016-cı il ilə müqayisədə 2017-ci maliyyə ilində özəl sektorun elmi-tədqiqat işlərinə xərcləri 8,3% artmışdır [2, s.6,8]. Qeyd etmək lazımdır ki, əgər dövlət sektorunun xərcləri növbəti onilliklərdə tərəqqi üçün vacib olan əsas tədqiqatlara daha çox diqqət ayırırsa, özəl sektorun investisiyaları xüsusən məhsul inkişafına yönəldilir.

**İnnovasiyaların İKT sektorunun inkişafında rolu**

İnformasiya-kommunikasiya texnologiyaları (İKT) sektoru dünya iqtisadiyyatının gələcək inkişafı baxımından mühüm sahələrdən biri hesab olunur. İKT sektoru innovasiyalara əsaslanır. Bir çox ölkələr qlobal İKT sənayesində liderliyi təmin etmək və ön sıralarda durmaq üçün innovasiya, yeniliklərə imza atmağa səy göstərirlər ki, bu da öz növbəsində beynəlxalq rəqabətin güclənməsinə səbəb olmuşdur.

Bu gün dünyada inkişaf etmiş ölkələrin iqtisadi artımının əksər hissəsi məhz elmtutumlu malların və texnologiyaların payına düşür. Son dövrlərdə ABŞ, Yaponiya, Cənubi Koreya, Sinqapur, Hindistan, Çin, Qərbi Avropa ölkələrinin ÜDM-nin artımı, əsasən, innovasiya infrastrukturlarının inkişafı ilə əlaqədar olmuşdur. Qeyd edilən ölkələr həm də İKT sahəsində yenilikləri, ixtiraları ilə də öncül sıralarda yer alırlar. Təhlillər də göstərir ki, məhz bu dövlətlərin İKT məhsul və xidmətləri sahəsində uğurlu təcrübəsi onları qlobal bazarlarda rəqabətli edir. Məsələn, bu gün ölkə üzrə ümumi

məhsul ixracında yüksək texnologiya məhsullarının ixracının payı Çində-27,9%, Sinqapurda-27,4%, Cənubi Koreyada-26,4%, Fransada-12,8%, Yaponiyada-12,1%, İsraildə-11,9%, Almaniyada-11,5%, Birləşmiş Krallıqda-9%, İsveçdə-7,3%, İsveçrədə-7,2%, ABŞ-da-5,8% təşkil edir [2].

Adı çəkilən dövlətlərin əksəriyyəti həm də İKT xidmətlərinin ixracına görə seçilirlər. Nümunə üçün qeyd edək ki, 2017-ci ildə İKT xidmətlərinin ixracının həcminə görə ilk onluqda yer alan ölkələrin sıralanması belə olmuşdur: İrlandiya-79,2, Hindistan-78,5, ABŞ-42,2, Almaniya-37,4, Çin-27, Birləşmiş Krallıq-26,5, İsrail-20, Fransa-18,4, Niderland-16,5, İsveç-14,3 milyard dollar [3]. Bu on ölkə birlikdə qlobal İKT xidmətlərinin ixracının üçdə-iki hissəsinə sahib olmuşdur.

***Cədvəl 1. 2017-ci ildə dünya ölkələrində İKT sektorunda patentlərin sayı***

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Çin | 23368 | Niderland | 562 | Avstriya | 175 | Lüksemburq | 30 |
| ABŞ | 17831 | Finlandiya | 541 | Danimarka | 137 | Çexiya | 22 |
| Yaponiya | 11840 | Avstraliya | 417 | Türkiyə | 133 | Yunanıstan | 20 |
| Cənubi Koreya | 5317 | İsveçrə | 356 | Norveç | 90 | Rumıniya | 19 |
| Almaniya | 2850 | İtaliya | 335 | Polşa | 81 | Estoniya | 9 |
| İsveç | 1588 | Rusiya | 277 | Macarıstan | 74 | Çili | 8 |
| Birləşmiş Krallıq | 1459 | Sinqapur | 240 | Cənubi Afrika | 46 | Slovakiya | 8 |
| Fransa | 1335 | İspaniya | 220 | Meksika | 44 | Sloveniya | 6 |
| Kanada | 979 | Belçika | 200 | Portuqaliya | 39 | Litva | 4 |
| İsrail | 768 | İrlandiya | 190 | Yeni Zelandiya | 35 | Argentina | 3 |

**Mənbə [1, s.73]** *əsasında müəllif tərəfindən tərtib edilib.*

Cədvəl 1-də yer almış dövlətlərin əksəriyyəti yüksək gəlirli iqtisadiyyatlar qrupuna aiddir ki, onlar da yüksək həyat keyfiyyətinə malikdirlər. Adambaşına düşən ÜDM-i 11000 ABŞ dollarından yuxarı olmayan Rusiya, Türkiyə, Cənubi Afrika, Meksika və Rumıniya isə yuxarı orta gəlirli ölkələr qrupuna daxildir. İKT sektorunda patentlərin sayının üstünlüyünə görə Çin liderdir. Ümumi ÜDM-nin həcmi üzrə dünyada ABŞ-dan sonra ikinci sırada qərarlaşan bu ölkə əhalisinin say çoxluğu səbəbilə hər nəfərə düşən ÜDM-nə görə inkişaf etmiş ölkələrdən geri qalır və gəlir səviyyəsi baxımından yuxarı orta gəlirli ölkə hesab edilir.

**İnnovasiyaların iqtisadiyyatların rəqabətqabiliyyətli tərəqqisinə təsiri**

İnnovativ inkişaf gələcək iqtisadi rifahın əsası hesab edilir. İnnovasiyalar, həmçinin dövlətin rəqabətqabiliyyətinin və milli inkişafının müəyyənləşdirilməsində mühüm amil rolunu oynayır. Daha doğrusu, qlobal rəqabətqabiliyyətliliyin əsas meyarı ölkələrin innovativ potensialı ilə müəyyən edilir.

2 saylı diaqramda Qlobal Rəqabətqabiliyyətlilik İndeksi və Qlobal İnnovasiya İndeksi hesabatlarının məlumatları əsasında dünya ölkələrinin innovativ və rəqabətqabiliyyətli inkişafı arasında bağlılıq təsvir edilmişdir.

Dünya ölkələrinin Qlobal İnnovasiya İndeksi və Qlobal Rəqabətqabiliyyətlilik İndeksi üzrə topladığı ballara istinad etməklə aparılmış təhlillərin nəticəsi hər iki göstərici arasında müsbət korrelyasiya əlaqəsinin olduğunu göstərir və bu bağlılıq kifayət qədər yüksəkdir ($R^2$=0,9342).

Müqayisələrə əsasən qeyd etmək olar ki, Qlobal İnnovasiya İndeksi əmsalı 50-dən yüksək olan (mümkün bal 0-100 arasıdır) ölkələrin Rəqabətqabiliyyətlilik indeksi üzrə əmsalı da 76-dan yüksək (mümükün bal 0-100 arasıdır) olmuşdur və bu ölkələr dünyanın qabaqcıl, inkişaf etmiş dövlətləridir. Bəzi ölkələr yüksək mövqelərə sahib olmaqları ilə seçilir. Məsələn, hər iki indeks üzrə ilk onluqda yer almış lider dövlətlərə misal olaraq, İsveçrə, İsveç, ABŞ, Niderland, Birləşmiş Krallıq, Danimarka, Sinqapur, Almaniyanı göstərmək olar.

İnnovativ inkişaf göstəricisi üzrə aşağı bal toplayan bəzi ölkələr həm də zəif rəqabətqabiliyyətli iqtisadiyyata malikdirlər. Bu ölkələr iqtisadi inkişaf səviyyəsinə görə digərlərindən geridə qalırlar (məsələn, Qana, Uqanda, Zimbabve, Burundi, Yəmən və s.).

***Diaqram 2. Qlobal İnnovasiya İndeksi ilə Rəqabətqabiliyyətlilik indeksi arasında əlaqə***




**Mənbə [4, s.13; 2, s.35-36]** *əsasında müəllif tərəfindən tərtib edilib.*

**Nəticə.** Bu gün innovasiyalar iqtisadi artım və inkişafın mərkəzi amili kimi qəbul edilir. Hazırda əksər dünya dövlətləri bu sahəyə böyük məbləğdə sərmayə yönəltməyə çalışırlar. Aparılmış təhlil və qiymətləndirmələrin nəticəsi innovasiyaların İKT sektorunun inkişafına və dövlətlərin qeyd edilən sektor üzrə müqayisəli üstünlüyünə müsbət təsir etdiyini göstərir. Həmçinin ölkələrin innovativ inkişafı ilə iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi arasında da müsbət və sıx asılılıq vardır. Bu gün innovasiya sahəsində uğurları ilə fərqlənən, iqtisadiyyatın bütün sektorlarının innovasiyalara əsaslanan inkişafını stimullaşdıran ölkələr dünya bazarlarında daha rəqabətli hesab olunurlar. Təcrübədə göstərir ki, texnologiya və xidmətlər sahəsində yeniliklərə daha açıq olan iqtisadiyyatlar innovativ məhsul və xidmətləri ilə qlobal bazarlarda daha yaxşı nəticələr əldə edirlər.

## ƏDƏBİYYAT


1. Main science and technology indicators. Volume. 2019/1. OECD. 2019. 86 p. [https://read.oecd-ilibrary.org/science-and-technology/main-science-and-technology-indicators/volume-2019/issue-1_g2g9fb0e-en].
2. The Global Innovation Index 2019. Creating Healthy Lives - The Future of Medical Innovation. 12th edition. 400 p. [file:///C:/Users/user/Downloads/gii-full-report-2019%20(1).pdf].
3. The World Bank 2017. ICT service exports (% of service exports). [https:// data. worldbank. org/indicator/BX.GSR.CCIS.ZS].
4. World Economic Forum. The Global Competitiveness Report 2019. 650 p.[http://www3. weforum.org/docs/WEF_TheGlobalCompetitivenessReport2019.pdf].

## РЕЗЮМЕ

**Гульнара Фаталиева**

## РОЛЬ ИННОВАЦИЙ В РАЗВИТИИ СЕКТОРА ИНФОРМАЦИОННО-КОММУНИКАЦИОННЫХ ТЕХНОЛОГИЙ

В статье анализируется современное состояние инноваций в практике стран мира. Роль инноваций в развитии сектора ИКТ также была изучена. Результаты исследования показывают, что конкурентоспособность стран, а также прогресс сектора ИКТ напрямую зависят от инноваций. В статье в качестве методов исследования были использованы сравнительный и статистический анализ, системный подход, корреляционный анализ.



## SUMMARY

**Gulnara Fataliyeva**

## THE ROLE OF INNOVATIONS IN THE DEVELOPMENT OF THE INFORMATION AND COMMUNICATION TECHNOLOGIES SECTOR

The article analyzes the current state of innovation in the practice of world countries. The role of innovation in the development of the ICT sector has also been studied. The results of the research show that the competitiveness of the countries, as well as the progress of the ICT sector, is directly dependent on innovation. In the article, as research methods were used comparative and statistical analysis, systematic approach, correlation analysis.

**AYGÜN ƏLİYEVA**
*AMEA İdarəetmə Sistemləri İnstitutu*
*aygunaliyeva@isi.az*

# AZƏRBAYCANDA SƏNAYE SAHƏSİNİN DAVAMLI İNKİŞAFINDA MÜASİR İNNOVASİYALARIN ROLU

***Açar sözlər:*** *innovasiya, innovasiya fəaliyyətləri, texnoparklar, sənaye, iqtisadiyyat, inteqrasiya*
***Ключевые слова:*** *инновации, инновационная деятельность, технопарки, промышленность, экономика, интеграция*
***Key words:*** *innovation, innovation activities, technology parks, industry, economy, integration*

Azərbaycan Respublikasında son illər dövlət rəhbərliyi səviyyəsində milli iqtisadi sahələr üzrə aparılan sistemli və genişmiqyaslı islahatlar ölkədə yüksək sosial-iqtisadi inkişafı təmin etmişdir. Qeyd edək ki, bütün bunlar ölkəmizə dünya iqtisadiyyatına inteqrasiya istiqamətində müxtəlif beynəlxalq maliyyə təsisatları ilə əməkdaşlığı daim genişləndirməyə imkan vermişdir. Nəzərə almaq lazımdır ki, Azərbaycanın milli iqtisadi maraqlarının həyat keçirilməsi milli iqtisadiyyatın davamlı inkişafı üzərində qurulmuşdur. Son illər bütün dünya ölkələrində baş vermiş siyasi və maliyyə böhranları zamanı Azərbaycanda davamlı inkişaf müşahidə olunmuşdur.

Milli iqtisadiyyatın formalaşması və onun dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunması bütünlükdə ölkə iqtisadiyyatının və onun əsasını təşkil edən sənayenin rəqabətqabiliyyətinin təmin olunmasını şərtləndirir. Ölkəmizdə formalaşan sənaye siyasəti milli iqtisadiyyatın rəqabətqabiliyyətinin təmin olunması konsepsiyası ilə uyğunlaşmışdır.

Ölkəmiz demokratik cəmiyyət quruculuğu, iqtisadi-siyasi islahatlar və bazar iqtisadiyyatının inkişafı istiqamətində sürətlə irəliləyir, müasirləşir, dünyada özünün layiqli yerini tutur. Azərbaycanda son illər qəbul olunan iqtisadi proqramların müvəffəqiyyətlə yerinə yetirilməsi nəticəsində ölkəmiz iqtisadiyyatın bütün sahələrinin inkişafında, dünya iqtisadiyyatına inteqrasiya olunmasında, neft strategiyasının həyata keçirilməsində, işsizliyin, yoxsulluğun azaldılması və həyat səviyyəsinin yüksəlməsi sahəsində böyük uğurlar qazanmışdır.

Respublikamızda milli iqtisadiyyatın çoxşaxəli inkişafı, səmərəliliyinin artması, məhsulun keyfiyyətinin və rəqabətqabiliyyətinin yüksəlməsi, cəmiyyət həyatının bütün sahələrinin modernləşməsi, əhalinin həyat səviyyəsinin yüksəldilməsi və bütün bu sahələrdə dünyanın inkişaf etmiş dövlətləri səviyyəsinə çatmaq istiqamətində sürətlə inkişaf etməkdədir. Azərbaycanın iqtisadi nailiyyətləri dünyanın nüfuzlu beynəlxalq təşkilatları tərəfindən yüksək dəyərləndirilir.

Hal-hazırda ölkəmizdə qarşıya qoyulan sosial-iqtisadi inkişaf strategiyası uğurla həyata keçirilməkdədir. Ölkə rəhbərliyinin "Azərbaycan 2020: Gələcəyə baxış" Sərəncamı əsasında hazırlanmış sosial-iqtisadi inkişaf konsepsiyasında yaxın illər ərzində çoxsahəli, innovasiya - yönümlü, səmərəli və davamlı inkişaf edən güclü iqtisadiyyat yaratmaq ölkəmizin irəliyə doğru inkişafının əsas hədəfləri kimi müəyyənləşmişdir (7). Məsələn, müvafiq konsepsiyasının 4-cü bəndi "yüksək rəqabətqabiliyyətli iqtisadiyyata doğru" adlanır və özündə səmərəli dövlət tənzimlənməsinə, yetkin bazar münasibətlərinə əsaslanan iqtisadi modelin formalaşması, iqtisadiyyatın strukturunun təkmilləşdirilməsi, qeyri-neft sektorunun inkişafı, elmi potensialın və innovasiya fəaliyyətinin dəstəklənməsi xüsusiyyətlərini özündə ehtiva edir. Müvafiq aspektlər üzrə real imkanların aşkara çıxarılması və onlardan səmərəli istifadə olunmasına nail olmaq üçün ilk növbədə ölkəmizin sənaye sektorunun mövcud iqtisadi durumunu, real texniki – texnoloji səviyyəsini təhlil etmək, formalaşan meyilləri və ayrı-ayrı iqtisadi fəaliyyət sahələrinin xüsusiyyətlərinin aydınlaşdırılması zəruridir.

Son dövrlər Azərbaycan iqtisadiyyatının müasir innovativ texnologiyaları üzrə əsas prioritet hesab olunan informasiya kommunikasiya texnologiyaları (İKT) sektorunun ölkə iqtisadiyyatının inkişafındakı rolu və İKT nailiyyətlərinin ölkədə geniş tətbiqinə və bu sahənin daha sürətli tərəqqisinə dövlət tərəfindən xüsusi qayğı göstərilməkdədir. Bu istiqamətdə son illər İKT-nin İnkişafı Dövlət Fondunun, Yüksək Texnologiyalar Parkının, İnformasiya Təhlükəsizliyi Mərkəzi və İnformasiya

Təhlükəsizliyi üzrə Dövlət Agentliyinin yaradılması üzrə çox ciddi tədbirlər həyata keçirilmişdir (7).

Azərbaycanın ilk telekommunikasiya peykinin səmaya buraxılması texniki elmlər üzrə çox mühüm uğurdur və gələcəkdə respublikamızda İKT-nin daha sürətlə inkişaf edəcəyindən xəbər verir. Ölkə başçısının müəyyən etdiyi strategiyaya uyğun olaraq Azərbaycanda 2025-ci ildə İKT-dən gələn gəlirlərin neft ixracından əldə edilən gəlirlərə çatması nəzərdə tutulmuşdur. Bir sıra inkişaf etmiş ölkələrin iqtisadi təcrübəsi göstərir ki, innovasiya prosesinin maliyyələşdirilməsi probleminin həllinin səmərəli variantlarından biri də vençur kapitalı fondlarının fəaliyyətidir. Beynəlxalq təcrübənin birbaşa istifadəsi yolu ilə onların milli iqtisadiyyatda tətbiqi bəzən gözlənilən nəticə vermir, çünki ölkənin iqtisadi inkişafının spesifikliyi bu zaman nəzərə alınmır.

Texnoloji innovasiyaların inkişafı üçün iqtisadi sahələr üzrə əlverişli şəraitin yaradılması Azərbaycan iqtisadiyyatının texnoloji bazasını modernləşdirməyə imkan verməklə yanaşı, milli sənaye məhsullarımızın rəqabətqabiliyyətini və ixracyönümlüyünü də yüksəldə bilər. Qeyd olunanlar dövlət innovasiya siyasətinin və onun həyata keçirilməsi mexanizminin işlənməsini, həmçinin milli innovasiya sisteminin yaradılmasını zəruri edir. Dünya iqtisadiyyatının qloballaşması şəraitində yalnız sənaye müəssisələrinin innovasiya aktivliyi onların rəqabət qabiliyyətliliyinin artırılmasına təkan verəcəkdir (1, s.5).

***Şəkil 1. Beynəlxalq Rəqabətlilik Hesabatı üzrə 141 ölkə arasında bəzi ölkələrin innovasiya imkanları üzrə mövqeləri (2019) (5, s.74)***




Son illər bütün dünya ölkələrində milli iqtisadi sahələr üzrə müasir innovasiyaların tətbiqi istiqamətində ciddi tədbirlər həyata keçirilməkdədir. Belə ki, 2019-cu il üzrə Beynəlxalq Rəqabətlilk hesabatı üzrə 141 ölkə arasında bəzi postsovet məkanı dövlətləri innovasiya imkanları üzrə fərqli mövqelərdə olmasına baxmayaraq, bu ölkələrdə müvafiq istiqamətdə irəliləmək üçün davamlı olaraq iqtisadi tədbirlər həyata keçirilməkdədir. Belə ki, son hesabat üzrə bütün dünya ölkələri arasında Almaniya innovasiya imkanlarına görə 1-ci yerdə olmasına baxmayaraq, Rusiya postsovet məkanı ölkələri arasında ən yaxşı mövqedə- 32-ci, Ukrayna 60-cı yerdə olmuşdur. Azərbaycanın mövqeyi isə 68-ci pillə olmuşdur. Bu siyahıda Azərbaycan innovasiya imkanlarına görə Gürcüstan (91-ci yer), Qazaxıstan (95-ci yer), Tacikistan (120-ci yer), Qırğızıstan (129-cu yer) kimi ölkələri qabaqlamışdır (Şəkil 1). Azərbaycanda sənaye sahələri üzrə istehsal proseslərində müasir innovativ texnologiyaların tətbiqi, ixracyönümlü məhsul istehsalının həcminin artırılması ölkəmizin innovativ ölkə kimi nüfuzunun artırılmasında mühüm rol oynamışdır (5, s.74).

Son illəri əhatə edən statistik göstəricilərin təhlili göstərir ki, Azərbaycanda ÜDM-in strukturunda

elmtutumlu məhsulların xüsusi çəkisinin təqribən 0.2%-ə yaxın olması ixrac məhsulları içərisində neft-qaz, neft emalı məhsullarının orta hesabla təqribən 95%-dən yuxarı olması, emal sənayesində əsas istehsal fondlarının (ƏİF) yüksək dərəcədə aşınması və s. bu kimi məsələlər onu göstərir ki, hazırda ölkəmizdə innovasiya fəaliyyəti üçün vacib olan təşkilati-iqtisadi mühit, stimul və qaydalar sistemi hələ də tam formalaşmamışdır. Sənaye sahələri üzrə bir çox elmi işləmələrin səviyyəsi aşağı olduğundan, onları bazar məhsulu kimi satışa çıxarmaq və istehsal sahələrində tətbiq etmək mümkün deyildir. Azərbaycanda daxili bazarda idxal məhsullarının yüksələn templə artması da sənaye sahələri üzrə innovasiyanın kompleks tətbiqinin vacibliyini ön plana çəkir. Qeyd edilən mənfi meyllərin qarşısının alınması və ölkədə innovasiya aktivliyinin yüksəldilməsi üçün təkmilləşdirilmiş yeni milli innovasiya strategiyası formalaşmalı və ona dövlətin vacib elmi-texniki və sosial-iqtisadi siyasətinin qlobal istiqamətlərindən biri kimi baxılmalıdır. Ölkəmizdə beynəlxalq təcrübəyə əsaslanan iqtisadi siyasət ölkənin intellektual və istehsal potensialının hərtərəfli qiymətləndirilməsinə, intellektual məhsullar bazarının inkişaf perspektivlərinin nəzərə alınmasına əsaslanan uzunmüddətli proqnozlar əsasında təşkil olunmalıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi onu göstərir ki, milli innovasiya sisteminin (MİS) inkişafı ilk öncə onun regional və qlobal sistemlərə birləşməsi ilə əlaqədardır. Hal-hazırda inkişaf etmiş ölkələlər ümumi innovasiya inkişafı strategiyası və ilk növbədə innovasiya sistemləri, insan resurslarının inkişafı, informasiya və kommunikasiya texnologiyaları, işgüzar mühit kimi sahələrdə bu proseslərin reallaşma mexanizmləri üzrə davamlı siyasət həyata keçirirlər (2, s.200).

***Şəkil 2. Azərbaycanda innovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən ümumi xərclər ( min manatla)***




***Mənbə:*** *www.stat.gov.az/ sənaye_pdf/*

Son illər Azərbaycanda ayrı-ayrı sənaye sahələrində məhsul innovasiyaları və proses innovasiyaları üzrə çəkilən ümumi xərclərdə ciddi dəyişiklik qeydə alınmışdır. Məsələn, 2013-cü ildə məhsul innovasiyalarına çəkilən xərclər 11899,5 min manat olmuşdursa, 2016-cı ildə bu göstərici artaraq 20313,8 min manat təşkil etmişdir. 2017-ci ildə isə əvvəlki illə müqayisədə bu göstərici azalaraq 10439,6 min manata çatmışdır. Sənaye sahələri üzrə proses innovasiyaları üzrə çəkilən ümumi xərclər də 2017-ci ildə azalaraq 5696,1 min manat təşkil etmişdir (6, s.215). Təhlildən də göründüyü kimi ölkəmizdə 2016-cı illə müqayisədə 2017-ci ildə məhsul və proses innovasiyalarına çəkilən xəclər üzrə azalma müşahidə olunmuşdur (Şəkil 2). Məhz buna görə də sənaye sahələri üzrə yerli və xarici investisiya qoyuluşlarının və ixracyönümlü məhsul istehsalının artırılması, müxtəlif innovasiyalı texnologiyaların tətbiqi istiqamətində dövlət səviyyəsində davamlı olaraq stimullaşdırılmış tədbirlərin həyata keçirilməsi zəruridir.

*Şəkil 3. Azərbaycan Respublikasında sənaye sahəsi üzrə proses innovasiyaları və məhsul innovasiyalarına çəkilən xərclər arasında (min manatla) korrelyasiya əlaqəsi*




***Mənbə:*** *qrafik www.stat.gov.az/ sənaye_pdf/ məlumatları əsasında müəllif tərəfindən MS Excell-2019 proqram paketində tərtib olunmuşdur.*

Ölkəmizdə sənaye sahəsi üzrə proses innovasiyaları və məhsul innovasiyalarına çəkilən xərclər arasında trend xəttini müəyyən etsək görərik ki, onlar arasında y=0.249x +5471 reqressiya tənliyi ilə ifadə olunan xətti korrelyasiya əlaqəsi vardır (Şəkil 3). Müvafiq korrelyasiya əmsalının R=0.126 olması y asılı dəyişəni ilə modelə daxil olan amilləri ifadə edən sərbəst dəyişənlər arasında, yəni proses innovasiyaları və məhsul innovasiyalarına çəkilən xərclər arasında əlaqənin olduqca zəif olmasını göstərir. Çeddok şkalasına görə (0.1-0.3) bu əlaqə çox zəifdir. Determinasiya əmsalının $R^2$=0.016 olması o deməkdir ki, müvafiq reqressiya tənliyi 1.6% dispersiya nəticə göstəriciləri ilə, 98.4%-i isə digər amillərin təsiri ilə izah edilir. Determinasiya əmsalının aşağı olması reqresiya tənliyinin ilkin verilənləri daha zəif ifadə etməsi və nəticə amilinin daha az hissəsinin (1.6%) modelə daxil olan amillər hesabına izah edilməsi ilə əlaqədar olduğunu göstərdiyini qeyd etmək zəruridir. Təhlildən də göründüyü kimi, ölkəmizdə sənaye sahəsi üzrə proses innovasiyaları və məhsul innovasiyalarına çəkilən xərclərin hər il artırılması bu sahədə məhsul istehsal həcminin artırılmasını təmin edə bilər.

Ümumiyyətlə, aparılmış təhlil onu göstərir ki, yaxın illər ərzində Azərbaycanda sənaye sahəsi üzrə müasir innovasiyaların tətbiqi istiqamətində aşağıdakı tədbilərin həyata keçirilməsi məqsədə-uyğundur:

- Sənaye sektorunun innovasiyayönümlülüyünü təmin etmək üçün innovasiya infrastrukturunun kompleks və balanslaşdırılmış inkişafı, innovasiya kapitalları bazarının formalaşdırılması (innovasiya və vençur fondları) və innovasiya sahəsində informasiya-məsləhət xidmətləri, intellektual mülkiyyət hüquqlarının müdafiəsinin normativ-hüquqi əsaslarının təkmilləşdirilməsi zəruridir;
- Sənaye sahələri üzrə mülkiyyət hüququnun qorunması, informasiya aşkarlığı və təbii inhisar məhsullarının qiymətlərinin tənzimlənmə metodlarının təkmilləşdirilməsi üçün təşkilati və hüquqi bazanın yaradılması vacibdir (3, s.211);
- Sənaye sahəsi ilə bağlı vergi sistemində yeni islahatların aparılması məqsədəuyğundur. Onun əsasını istehsalın, o cümlədən innovasiyalı kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yerli və xarici investorların cəlbinin stimullaşdırılmasına yönəldilmiş tədbirlər üstünlük təşkil etməlidir (4, s. 311);
- Ölkəmizdə milli innovasiya sisteminin formalaşdırılmasını təmin edən mexanizm və konkret tədbirlərin yaradılması və sənaye sahəsi üzrə innovasiya sahibkarlığının inkişafının təmin edilməsi istiqamətində dövlətin rolu artırılmalıdır və s.

## ƏDƏBİYYAT

1. Qasımov F.H. Azərbaycanda innovasiyanın vəziyyəti və onun inkişaf perspektivləri. AMEA-nın Xəbərləri; Elm və innovasiya seriyası, №1; Bakı, 2009, s. 4-10
2. Бабашкина А.М. Государственное регулирование национальной экономики. Москва: Финансы и Статистика, 2017, 254 s.
3. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие, Москва: Наука, 2018, 245 s.
4. Иванова Н. Формирование и эволюция национальных инновационных систем. М.: ИМЭМО, 2018, 355 с.
5. www.weforum.org/gcr_Klaus Schwab/The Global Competitiveness Report-2019/World Economic Forum/Geneva_(Switzerland)
6. www.stat.gov.az/ sənaye_pdf/Azərbaycanın statistik göstəriciləri 2019
7. www.prezident.az/sənayedə inkişaf / 2020

## РЕЗЮМЕ

**Айгюн Алиева**

### РОЛЬ СОВРЕМЕННЫХ ИННОВАЦИЙ В УСТОЙЧИВОМ РАЗВИТИИ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

В статье рассматривается роль современных инноваций в устойчивом развитии промышленности в условиях рыночной экономики в Азербайджане. Надо отметить, что в соответствии с международной практикой и в нашей стране успешно проводятся значительные реформы в инновационной сфере. В конце статьи были проанализированы существующие проблемы в области современных инноваций в промышленных отраслях, и были представлены предложения и рекомендации по их устранению.

## SUMMARY

**Aygun Aliyeva**

### THE ROLE OF MODERN İNNOVATİON İN THE SUSTAİNABLE DEVELOPMENT OF THE İNDUSTRY İN AZERBAİJAN

The article examines the role of modern innovation in the sustainable development of industry in the context of modern market economy in Azerbaijan. It should be noted that sustainable reforms in the field of innovation based on international experience in our country are being successfully implemented by economically. At the end of the article, existing problems in the field of modern innovations in the industry were analyzed, and suggestions and recommendations for their elimination were presented.

**AMİRƏ İSMAYILOVA**
*Azərbaycan Kooperasiya Universiteti*

# BEYNƏLXALQ KREDİTLƏŞMƏ BEYNƏLXALQ MALİYYƏ-KREDİT TƏŞKİLATLARININ AZƏRBAYCANDA FƏALİYYƏT İSTİQAMƏTİ KİMİ

***Açar sözlər:*** *kredit, beynəlxalq kreditləşmə, beynəlxalq maliyyə-kredit təşkilatları, xarici investisiya*

***Ключевые слова:*** *кредит, международное кредитование, международные финансово-кредитные организации, иностранные инвестиции*

***Key words:*** *credit, international lending, international financal and credit organizations, foreign investment*

Ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ-nin dağılması nəticəsində Azərbaycan müstəqillik əldə etdi. Müstəqilliyin əldə olunması ilə əlaqədar olaraq, Azərbaycan yeni iqtisadi sistemə transformasiya olunmalı, yeni ölkələrlə əlaqələr yaratmaqla bazaryönümlü iqtisadi sistem yaratmalı və mütərəqqi inkişaf yoluna düşməli idi. Bu isə heç də asan məsələ deyildi. 70-il müddətində SSRİ daxilində yaranmış olan iqtisadi əlaqələr birdən-birə dayanmış, istehsal prosesləri pozulmuş, məşğulluğun səviyyəsi heç zaman görünməmiş səviyyəyə düşmuş, işsizlik artmış, inflyasiya hiper səviyyəyə çatmış, dövlət borcları artmış, hesablaşmalar demək olar ki, tam dayanmışdır. Belə bir vəziyyətdə dövlət büdcəsi boşalmış, maliyyə sistemi pozulmuşdur. Vəziyyətdən çıxmaq üçün külli miqdarda vəsait tələb olunurdu. Belə vəsaitləri isə Azərbaycana vermək istəyən yox idi. Yaranmış real şəraitdə ölkənin düşmüş olduğu acınacaqlı vəziyyətdən çıxarmaq üçün xarici investisiyalara və beynəlxalq maliyyə institutlarının kreditlərinə ehtiyac yaranmışdı.

Yeni iqtisadi şəraitdə qarşıda çox mühüm və çox çətin həll olunan vəzifələr dururdu. Bunlara dövlətlərarası iqtisadi münasibətlərin qurulması və tənzimlənməsi, beynəlxalq əlaqələrin istiqamətlərinin, prioritetlərinin müəyyənləşdirilməsi, xarici ticarətin bərpa edilməsi, ölkə daxilində iqtisadiyyatın müxtəlif sahələrinin, istehsal və xidmət sahələrinin bərpa edilməsi, sahələrarası proporsiyaların müəyyənləşməsi, yeni iş yerlərinin açılması, məşğulluq səviyyəsinin yüksəldilməsi, yoxsulluq səviyyəsinin aşağı salınması, büdcə və vergi tənzimlənməsini təmin etmək, pul-kredit siyasətini aparılan iqtisadi siyasətin tələblərinə uyğunlaşdırmaq, inflyasiyanın aşağı salınması və s. aid edilə bilər.

Belə irimiqyaslı tədbirlərin həyata keçirilməsi hökuməti təxirəsalınmaz qərarlar qəbul etməyə sövq edirdi. Vəsaitlərin çatışmazlığı isə müxtəlif variantlarda və müxtəlif mənbələrdən istifadə etmək üçün cəhdlərə yol açırdı. Beynəlxalq təcrübədən də məlum olduğu kimi, belə hallarda ölkələr ya xarici investisiyalardan, ya da ki, beynəlxalq təşkilatların, ayrı-ayrı dövlətlərin, şirkətlərin və s. kreditlərindən istifadə edirlər.

Azərbaycan 1992-ci ildən başlayaraq beynəlxalq təşkilatlara üzv olmağa başlamışdır. Bu təşkilatlara Beynəlxalq Valyuta Fondu (BVF), Dünya Bankı qrupuna daxil olan maliyyə təşkilatları, Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB), Asiya İnkişaf Bankı (AİB), İslam İnkişaf Bankı (İİB) və s. təşkilatlar aiddir.

Dünya Bankı Qrupuna daxil olan təşkilatlar isə aşağıdakılardır: (1, səh. 47)

1. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı;
2. Beynəlxalq İnkişaf Assosiasiyası;
3. Beynəlxalq Maliyyə Korporasiyası;
4. İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik;
5. İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz.

Adı çəkilən Dünya Bankı qrupu beynəlxalq münasibətlərin dəstəklənməsinə, onun inkişafına daha çox diqqət ayıran və vəsait verən qurumdur. 2015-ci ilin məlumatlarına əsasən bu təşkilat beynəlxalq münasibətlərdə istifadə edilən otuz milyard dollardan çox vəsait vermişdir. Təşkilat dün-

yanın inkişaf etməkdə olan yüzdən çox ölkəsində fəaliyyət göstərərək yoxsulluğun aradan qaldırılması üçün həyata keçirilən tədbirləri maliyyələşdirir (2, səh. 131).

Azərbaycan Respublikasına da kreditlər vermiş olan Dünya Bankı Qrupu dünyanın 200-ədək ölkəsində yaşayan vətəndaşların maraqları çərçivəsində fəaliyyət göstərən həmin ölkələrin, dövlətlərin müraciətlərini nəzərə alaraq onlara müxtəlif formalarda kredit verir. Həmin kredit formaları aşağıdakılardır: 1) strateji layihə kreditləri; 2) məqsədli proqram kreditləri; 3) müxtəlif məqsədli ölkə daxili pul kreditləri.

Tətbiq edilən hər bir kredit növünün özünəməxsus xüsusiyyətləri vardır. Ümumiyyətlə, Dünya Bankı Qrupunun kredit siyasəti layihə kreditləri üzərində formalaşır. Kreditin bu forması daha geniş inkişaf etmişdir.

Strateji layihə kreditləri dedikdə icrası dövlət tərəfindən nəzərdə tutulan, iqtisadiyyatın bu və ya digər sahəsində həlledici xarakterə malik olan, zəruri vəzifələri icra edə bilən layihələr üçün ayrılan kreditlər başa düşülməlidir. Proqram kreditləri dedikdə iqtisadiyyatın bu və ya digər sahəsində hər hansı bir konkret proqramın icrası üçün ayrılan kreditlər başa düşülür. Ölkədaxili pul kreditləri dedikdə iqtisadiyyatın müxtəlif sahələrində bu və ya digər istiqamətdə yerinə yetirilən işlərin, xidmətlərin və s. reallaşdırılması üçün verilən kreditlər başa düşülür.

Təcrübədən məlum olduğu kimi, Dünya Bankı dövlət qurumlarına və həmçinin sahibkarlara müxtəlif təyinatlı kreditlər verir. Özəl qurumlara kreditlər verilərkən həmin təşkilatın aid olduğu dövlətin, Mərkəzi Bankının və ya digər səlahiyyətli orqanın zəmanəti tələb olunur (3, s. 78).

Dünya Bankının fəaliyyətində ötən əsrin 70-ci illərində yeni istiqamət meydana gəldi. Bunlardan biri də proqram kreditlərinin tətbiq olunmağa başlaması idi. Digər bir istiqamət isə zəif inkişaf etmiş ölkələrdə kredit qoyuluşlarının həcminin artırılması idi.

Dünya Bankı tərəfindən reallaşdırılan layihəllər üçün tələb olunan vəsaitlərin çoxunu vəsait çatışmazlığı üzrə bəzi problemlər yaratdığından Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı layihələri Beynəlxalq İnkişaf Assosiasiyası və Beynəlxalq Maliyyə Korporasiyası ilə birgə həyata keçirməyə başlamışdılar.

Azərbaycan Respublikasında da təşkilatlar birgə maliyyələşmə apararaq bir neçə strateji layihələri və məqsədli proqramları kreditləşdirmişdilər.

Aparılan təhlillər göstərir ki, Azərbaycan İqtisadiyyatına 1994-2017-ci illər ərzində Beynəlxalq Maliyyə-kredit təşkilatları tərəfindən böyük miqdarda kreditlər qoyulmuşudur (Cədvəl 1).

Respublikamız Beynəlxalq Valyuta Fonduna üzv olandan sonra beynəlxalq maliyyə-kredit təşkilatları ölkəmizdə 57 layihə üzrə maliyyələşmə aparmışlar.

***Cədvəl 1. 1994-2017-ci illər ərzində beynəlxalq maliyyə-kredit təşkilatlarının Azərbaycan iqtisadiyyatına yönəltdikləri kreditlər (mln. dollarla)***

| № | Maliyyə kredit təşkilatları | Kreditin məbləği (mln dollarla) |
|---|---|---|
| 1 | Beynəlxalq Valyuta Fondu | 597 |
| 2 | Dünya Bankı | 3179 |
| 3 | Asiya İnkişaf Bankı | 1176 |
| 4 | Avropa Yenidənqurma və İnkişaf Bankı | 1397 |
| 5 | İslam İnkişaf Bankı | 830 |
| 6 | Türk Exim Bankı | 190 |
| 7 | Digər kommersiya bankları | 810 |
| | Cəmi | 8179 |

***Mənbə:*** *Cədvəl müəllif tərəfindən beynəlxalq maliyyə-kredit təşkilatlarının məlumatları əsasında hazırlanmışdır.*

Cədvəldən göründüyü kimi, bu təşkilatlar içərisində ölkəmizin iqtisadiyyatına daha çox kreditlər verən təşkilatlar aşağıdakılardır: 1) Dünya Bankı-3179 mln.dollar; 2) Avropa Yenidənqurma və İnkişaf Bankı-1397 mln.manat; 3) Asiya İnkişaf Bankı-1176 mln.dollar. Bu üç təşkilat tərəfindən verilən kreditlər ölkə iqtisadiyyatına ayrılmış kreditlərin 70,3%-ni təşkil etmişdir. Dünya Bankının ölkəmizdə həyata keçirilən islahatların sürətləndirilməsinə və dəstəklənməsinə, eyni zamanda müxtəlif investisiya layihələrinin maliyyələşdirilməsinə ayırmış olduğu kreditin həcmi 3500 milyon ABŞ dollarından çox olmuşdur. Yuxarıda qeyd edilən təşkilatlar tərəfindən verilən kreditlər güzəşt şərtlərinə görə bir-birindən fərqlənirlər (4, səh. 221).

Azərbaycan Dövləti tərəfindən beynəlxalq maliyyə-kredit təşkilatlarından alınan kreditlərin əksər hissəsi illik 0,75% olmaqla güzəştli kreditlərdən ibarətdir. Bu kreditlərin üstün, spesifik cəhətlərindən biri də ondan ibarətdir ki, onlar uzun müddətə 30-35 illiyinə verilmişdir. Belə kreditlər isə ölkənin ödəmə qabiliyyətinə xələl gətirmir. Əksinə uzunmüddətli, güzəştli şərtlərlə verilən kreditlər ÜDM-in artmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, inflyasiyanın hədəflənməsinə şərait yaradır. Beynəlxalq maliyyə-kredit təşkilatlarının ölkəmizdə həyata keçirdiyi layihələrin xarakterindən, onların məqsədlərindən asılı olaraq, onlar həm müddət, həm də istifadəyə görə illik faizlərinə görə fərqli kredit qoyuluşları həyata keçirirlər.

Təhlillər göstərir ki, Beynəlxalq Valyuta Fondu ilə Azərbaycan arasında 1995-ci ildə bağlanmış müqavilə əsasında illik faizi 0,5% olmaqla uzun müddətə 462,5 milyon ABŞ dolları kredit ayrılmışdır.

Digər bir müqavilə əsasında Azərbaycan Dövləti Beynəlxalq Valyuta Fondu və Dünya Bankının birgə maliyyələşdirdiyi layihələr üzrə 1996-2000-ci illərdə illik faizi 0,55% olmaqla uzun müddətə 356,6 milyon ABŞ dolları həcmində kredit almışdır (5, səh. 183).

Göründüyü kimi, beynəlxalq kreditləşmə Azərbaycanda beynəlxalq maliyyə-kredit təşkilatlarının fəaliyyətinin əsas istiqamətinə çevrilmişdir. Bu istiqamətdə həyata keçirilən ən maraqlı faktlardan biri də ondan ibarətdir ki, ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, struktur islahatlarının sürətləndirilməsi, bank sisteminin yeni standartlar əsasında qurulması, həm neft sektorunun, həm də aqrar sektorun inkişafına verilən texniki yardımların həyata keçirilməsi üçün lazım olan kreditlər çox əlverişli şərtlərlə verilmişdir. Həmin kreditlər uzun müddətə 35 illik müddətə illik faizi 0,75% olmaqla verilmişdir. Həmin kreditlər üzrə ən mühüm cəhətlərdən biri də ondan ibarətdir ki, onun qaytarılmasına 10 ildən sonra başlanmışdır.

Azərbaycan Respublikasının iqtisadiyyatına 2017-ci ilin sonuna qədər Beynəlxalq Maliyyə Təşkilatları tərəfindən iqtisadi islahatların dəstəklənməsi məqsədi ilə 6586,4 milyon ABŞ dolları həcmində kreditlər ayrılmışdır.

2017-ci ilin sonuna qədər ölkəmizin iqtisadiyyatına beynəlxalq maliyyə-kredit təşkilatları tərəfindən ayrılan kreditlərin 38%-i Dünya Bankının, 17%-i Avropa Yenidənqurma İnkişaf Bankının, 7,2%-i Beynəlxalq Valyuta Fondunun, 14,4%-i Asiya İnkişaf Bankının, 10,1%-i İslam İnkişaf Bankının, 2,3% Türk Exim Bankının, 11%-i isə digər kommersiya banklarının payına düşmüşdür.

Beynəlxalq Kreditləşmə beynəlxalq maliyyə-kredit təşkilatlarının əsas fəaliyyət istiqamətinə çevrilərək Azərbaycan iqtisadiyyatında özünün müsbət effektini yaratmışdır. Həmin təşkilatlar tərəfindən verilən kreditlərin 3886 milyon dolları ölkədəki iqtisadi islahatların dəstəklənməsinə, 2650,7 milyon dolları isə güzəştli şərtlərlə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir. Həmin kreditlərin 70%-ə qədərinin qaytarılma müddəti 10 ildən başlayaraq 40 ilə kimi müəyyən edilmişdir. Azərbaycan hökümətinin zəmanəti ilə cəlb edilmiş kreditlərin orta illik faiz dərəcələri 3,5% təşkil edir. Onların geri ödənmə müddəti isə 25 ildir. Bu parametrlər kreditlərin güzəştli şərtlərlə verildiyini təsdiq edir.

Beynəlxalq maliyyə-kredit təşkilatlarının kreditlərinin cəlb olunması ölkə iqtisadiyyatında aparılan iqtisadi siyasətinin prioritet istiqamətinə çevrilmişdir. Bundan sonra da ölkə iqtisadiyyatına xarici investisiyaların və kreditlərin cəlb edilməsi səmərəli mənbə kimi istifadə edilməlidir.

## ƏDƏBİYYAT

1. Шевчук В.А.Международные финансовые институты: политика в секторе экономической инфраструктуры. Москва: АНКИЛ - 2009, 364 стр.
2. Аникин О.Б. Международные валюто-финансовые отнощения. Флип Издат. 2017, 240 стр.
3. Черкасов В.Е. Международные инвестиции. - М. "Дело" 2009, 267 стр.
4. Гаджиев Ш.Г. Азербайджан на пути к мировому сообществу: стратегия внешноэкономического развития. Киев. Экспресс - Объява - 2017, 420 стр.
5. Sadıqov M.M. Dövlət borclarının idarə olunmasında maliyyə potensialının rolu. Monoqrafiya, Bakı: 2017, 240 səh.

## РЕЗЮМЕ

**Амира Исмаилова**

### МЕЖДУНАРОДНОЕ КРЕДИТОВАНИЕ КАК НАПРАВЛЕНИЕ ДЕЯТЕЛЬНОСТИ МЕЖДУНАРОДНЫХ ФИНАНСОВО-КРЕДИТНЫХ ОРГАНИЗАЦИЙ В АЗЕРБАЙДЖАНЕ

В статье объясняются финансовые трудности, с которыми Азербайджан столкнулся в результате обретения независимости в конце прошлого века, и необходимость выхода из них. В контексте трансформации новой экономической системы была раскрыта природа новых отношений собственности и международных отношений. Обоснована роль иностранных инвестиций и международных кредитов на фоне нехватки бюджетных средств.

Были проанализированы объем кредитов, предоставленных экономике Азербайджана международными финансово-кредитными организациями в течение 1994-2017 гг., их условия и др. параметры. Указаны направления и цели их использования, рассмотрены пути воздействия этих кредитов на экономику страны. Раскрыта роль реализации стратегических проектов и целевых программ, совместно финансируемых Международным валютным фондом и Всемирным банком, в экономике страны.

## SUMMARY

**Amira Ismailova**

### INTERNATİONAL LENDİNG AS A DİRECTİON OF ACTİVİTY OF THE İNTERNATİONAL FİNANCİAL AND CREDİT ORGANİZATİONS İN AZERBAİJAN

In the article, the financial difficulties that have arisen as a result of Azerbaijan's independence at the end of the last century and the necessity for ways out have been explained. In the context of the transformation of the new economic system, the nature of the new property relations and international relations have been interpreted. In the absence of budget funds, the role of foreign investment and international credits has been substantiated.

During 1994-2017 years, the volume of loans to the Azerbaijani economy by international financial institutions, their terms and other parameters have been analyzed. The directions and purposes of their use have been indicated, and the directions of impact of these loans on the country's economy have been considered. The role of the implementation of strategic projects and targeted programs co-financed by the International Monetary Fund and the World Bank in the country's economy has been explained.

**MAHİR ABBASZADƏ**
*AMEA İqtisadiyyat İnstitutu*

# AZƏRBAYCANDA İNNOVASİYA FƏALİYYƏTİNİN SƏMƏRƏLİ TƏŞKİLİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

***Açar sözlər:*** *innovasiya fəaliyyəti, dövlət tənzimlənməsi, funksiyalar, prinsiplər, meyarlar, vergi, kredit, sahibkarlıq, maliyyə, investisiya*

***Ключевые слова:*** *инновационная деятельность, государственное регулирование, функции, принципы, критерии, налог, кредит, предпринимательство, финансы, инвестиции*

***Key words:*** *innovative activity, government regulation, functions, principles, criteria, tax, credit, business, finance, investment*

Müasir bazar iqtisadiyyatı şəraitində innovasiya fəaliyyəti-özündə yeni biliyin, yeni məhsulların, xidmətlərin istehsalını, kadr hazırlığını birləşdirən mürəkkəb fəaliyyət növü hesab olunur. Nəzərə almaq lazımdır ki, innovasiya fəaliyyətinin ən vacib tipi innovasiya fəaliyyətinin tənzimlənməsidir. Bu proses innovasiya fəaliyyətinin müxtəlif növləri, elementləri, komponentləri arasında əlaqənin dəstəklənməsi və inkişafı üzrə fəaliyyətdir. Qeyd edək ki, müasir innovasiya fəaliyyətinin tənzimlənməsinin ali forması – innovasiya siyasətinin yaradılması və aparılması, innovasiya fəaliyyətinin idarə edilməsidir. İnnovasiya layihələrinin idarə olunması dedikdə gedişatında innovasiyaların yaranması və yayılması proseslərinin təşkilatı, iqtisadi, maliyyə, normativ-hüquqi tənzimlənməsi nəzərdə tutulur. İnnovasiya layihələrinin idarə olunmasına sistemli yanaşma innovasiya fəaliyyətinin müxtəlif tənzimlənmə növlərinin təbii uyğunluğunun, komplektliyinin və vahidliyinin zəruriliyi deməkdir (1, s.305).

İnkişaf etmiş ölkələrdə innovasiya fəaliyyətinin tənzimlənməsi müxtəlif səviyyələrdə həyata keçirilir: dövlət səviyyəsində, regional səviyyədə, ayrı-ayrı müəssisələr, təşkilatlar, idarələr səviyyəsində. İnnovasiyanın idarə olunmasına sistemli yanaşma bütün səviyyələrdə innovasiya fəaliyyətinin vahidliyini, bütün idarəetmə alətlərinin və həllərinin qarşılıqlı əlaqəsini və uyğunluğunu nəzərdə tutur.

Ölkə iqtisadiyyatnda innovasiya layihələrinin idarə olunmasının əsasını innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi təşkil edir. Dövlət innovasiya fəaliyyətinin bütün növ tənzimləmələrini həyata keçirir: təşkilati, iqtisadi, maliyyə, normativ-hüquqi. Bu tənzimləmə innovasiya proqnozları və strategiyaları bazasında həyata keçirilir (2, s.250).

Beynəlxalq təcrübə onu göstərir ki, ölkənin sosial-iqtisadi inkişafının proqnozunun tərkib hissəsi olan innovasiya proqnozunda innovasiya fəaliyyətinin (onun istiqamətlərinin, növlərinin, obyektlərinin, nəticələrinin və s.) əsas parametrlərinin proqnozlaşdırılması işlənib hazırlanır. İlk öncə innovasiya proqnozlarında bazis innovasiyalarının, yeni elmi məhsulların və texnologiyaların praktiki istifadəsinin sosial-iqtisadi nəticələrinin mənimsənilməsi və yayılması əsaslandırılır. Bundan başqa, innovasiya strategiyalarında innovasiya fəaliyyətinin prioritet istiqamətləri təyin olunur.

Əksər postsovet ölkələrində dövlət hakimiyyəti orqanlarının innovasiya sahəsi institutlarının iqtisadi maraqlarına məqsədəyönlü təsiri vasitəsilə həyata keçirilən innovasiya fəaliyyətinin dövlət tənzimlənməsi özünün effektivliyinin şərti kimi bu institutların dövlət təşkilatlarının hərəkətlərinə reaksiyalarının proqnozlaşdırılmasını nəzərdə tutur. Dövlət idarəetmə orqanı innovasiya fəaliyyəti obyektinə elə tənzimləyici təsir göstərir ki, nəzərdə tutulan nəticə əldə olunsun.

Son illər üzrə mövcud statistik göstəricilərə baxsaq görərik ki, Azərbaycanda ümumi sənaye sahəsi üzrə texnoloji innovasiyalara çəkilən ümumi xərclərin dinamikasında da ciddi dəyişiklik müşahidə olunmuşdur (5, s.255). Belə ki, əgər 2013-cü ildə ölkəmizdə sənaye innovasiyalarına çəkilən xərclər 1377,2 min manat olmuşdursa, 2015-ci ildə bu göstərici artaraq 35197,1 min manata çatmışdır (Şəkil 1).

**Şəkil 1.** ***Azərbaycanda ümumi sənaye sahəsi üzrə texnoloji innovasiyalara çəkilən xərclər, (min manatla)***




2016-ci illə müqayisədə 2017-ci ildə innovasiyalara çəkilən xərclər azalaraq 16135,7 min manat təşkil etmişdir. Təhlildən də göründüyü kimi, son beş il ərzində yalnız 2015-ci ildə ölkəmizdə sənaye sahəsi üzrə texnoloji innovasiyalara çəkilən xərclər ən yüksək həddə olsa da, sonrakı illər bu göstərici zəifləmişdir. Məhz buna görə də bu sahədə xərclərin artırılması, yeni innovativ iqtsadi sahələrin yaradılması, ixracyönümlü məhsul istehsalının həcminin artırılması zəruridir.

Əksər postsovet məkanı ölkələrində dövlət idarəetmə orqanı innovasiya məhsulunun yaranması prosesində və ya ümumilikdə innovasiya bazarında innovasiya təşkilatlarının iqtisadi davranışlarını dəyişən konkret təsir tədbirlərini seçirlər. Nəzərə alaq ki, dövlət tənzimlənməsi reallaşmanın imkanlarını genişləndirə, bu imkanları dəyişdirməyə və ya təşkilatların qarşısına qoyduqları məqsədə çatmağı çətinləşdirə bilər. Digər tərəfdən təşkilat görülən tədbirlərdən sonra öz davranışını dəyişməyə də bilər. Yaxud fəaliyyət metodu və sahəsini dəyişərək, yaxud mövcud maneələri aşa bilər.

İnnovasiya təşkilatlarının dövlət tənzimlənməsinin müsbət tədbirlərinə reaksiyaları aşağıdakı kimi ola bilər (3, s.201):

- daxili bazarların mənimsənilməsi;
- digər təşkilatlarla kooperasiyalar;
- mövcud məhsulun keyfiyyətinin yüksəldilməsi.

Measir bazar iqtisadiyyatı şəraitində innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün imkanlar məhdudlaşdırıldıqda təşkilatların reaksiyaları aşağıdakı kimi olur:

- resurs potensialının ixtisarı;
- fəaliyyətin məhdudlaşdırılması;
- risklik səviyyəsinin azaldılması;
- aşağı effektivli sifarişlərdən imtina edilməsi;
- investisiyanın məhdudlaşdırılması;
- müflislik və ya ozünü ləğv etmə.

İnkişaf etmiş ölkələrdə dövlət bazar tənzimlənməsinə əlavə olaraq, müxtəlif formalarda innovasiya fəaliyyətini tənzimləyir. Bu da məhsul istehsalçıları arasında rəqabət mübarizəsinə səbəb olur. Məhsul istehsalçılarının rəqabət mübarizəsi, adətən, qısamüddətli maliyyə effektinə bağlıdır. Ümumiyyətlə, bazar özünütənzimləməsi yüksək risk dərəcəsi ilə və qeyri-müəyyənliklə, böyük xərclərlə bağlı olan perspektiv tədqiqatların və istehsalın həyata keçirilməsini təmin edə bilmir. Bundan başqa, sosial və iqtisadi probremlər də bu proseslərə böyük təsir göstərə bilər.

Milli innovasiya layihəsinin kommersiya uğurunun yüksək qeyri-müəyyənliyi şəraitində maliyyə resurslarının xərcləri böyükdür. Eyni zamanda özəl sektor perspektivə deyil, tələb və təklifin mövcud nibətinə istiqamətlənir. Müvafiq şəraitdə dövlətin vəzifəsi innovasiya təminatını, kadr hazırlığını, marketinq tədqiqatlarını özündə birləşdirən kiçik innovasiya biznesinə dəstək sisteminin formalaşdırılması olur (4, s. 605).

Azərbaycanın sosial-iqtisadi inkişafında əhəmiyyətli nəticələrin əldə olunması ilə yanaşı, regionlarda bu sahədə böyük infrastruktur layihələri həyata keçirilməkdədir. Aparılmış təhlil onu

göstərir ki, milli iqtisadiyyatın innovasiya yolu ilə inkişafı, innovasiyaların təşviqi probleminin həlli, innovativ sahibkarlığın formalaşdırılması və inkişafı, bu sahədə kadr çatışmazlığının aradan qaldırılması və müasir tələblərə cavab verən peşəkar menecerlərin yetişdirilməsi, bu istiqamətdə qanunvericilik bazasının formalaşdırılması vacibdir. Bütün dünyada elmin kommersiyalaşdırılması məsələsinə daha çox diqqət verirlər.

Aparılmış təhlildən də göründüyü kimi, ölkəmizdə regionlar üzrə müasir innovasiya fəaliyyətinin təşkilində müxtəlif istiqamətli sənaye parklarının təşkili vacibdir. Ümumiyyətlə, iqtisadi sahələr üzrə müasir innovasiya fəaliyyətinin səmərəli təşkilində aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- regionlar üzrə innovativ və yüksək texnologiyalar əsasında fəaliyyət göstərən müasir istehsal və xidmət sahələrinin inkişaf dairəsinin genişləndirilməsi;
- iqtisadi sahələr üzrə yüksək innovativ və texnologiyalar sahəsində çalışan kiçik və orta sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və onlara maliyyə yardımlarının edilməsi, eləcə də onlara əlveirşli vergi güzəştlərinin tətbiqinin stimullaşdırılması;
- regionlarda müasir innovasiyalı sənaye şirkətlərinin məhsullarının beynəlxalq bazarlara çıxışında dövlət dəstəyinin artırılması və s.

## ƏDƏBİYYAT


1. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, İqtisad Universiteti, 2011, 365 s.
2. Abdullayev K.N. Bazar iqtisadiyyatı şəraitində texnoparkların yaradılmasının əsas üstünlükləri // "Sənayenin müasir vəziyyəti və inkişaf problemləri: texnoparkların və sənaye məhəllərinin ölkənin iqtisadi inkişafına təsiri" (Respublika elmi-praktik konfransının materialları), AMİU (30.04.2020), Bakı, "MSV" nəşr., 2019, 250 s.
3. Кузьмин Д.В. Национальная конкурентоспособность, глобальная нестабильность и макроэкономическое равновесие , Москва , Наука, 2018, 245 с.
4. Мировая экономика (под редакцией Булатова А.С.). Москва: Юрист, 2018, 734 с.
5. www.stat.gov.az/ sənaye_pdf/Azərbaycanın statistik göstəriciləri -2019, 545 s.


## РЕЗЮМЕ

**Махир Аббасзаде**

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ЭФФЕКТИВНОЙ ОРГАНИЗАЦИИ ИННОВАЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ В АЗЕРБАЙДЖАНЕ

В статье инновационная деятельность рассматривается как многогранная деятельность, объединяющая в себе новые научные знания, производство новой продукции и услуг, а также подготовку кадров. В ней указано, что основу управления инновационных проектов составляет государственное регулирование инновационной деятельности. Для этих целей в статье определены основные функции и принципы государственного регулирования инновационных организаций.

## SUMMARY

**Mahir Abbaszade**

## MAIN DIRECTIONS OF EFFECTIVE ORGANIZATION OF INNOVATION ACTIVITY IN AZERBAIJAN

In this article, innovation is seen as a multi-faceted activity that combines new scientific knowledge, the production of new products and services as well as training. It stated that the basis for the management of innovation projects is state regulation of innovation. For these purposes, this article regulates the basic functions and principles of innovative organizations.

**ЭЛЛАДА ХАНКИШИЕВА**
*Научный сотрудник Института Экономики НАНА*
*ellada10@gmail.com*

# РОЛЬ ИННОВАЦИЙ В ЗОЛОТОДОБЫВАЮЩЕЙ ПРОМЫШЛЕННОСТИ АЗЕРБАЙДЖАНА

***Açar sözlər:*** *qızıl hasilatı sənayesi, qızıl ehtiyatları, qızıl yataqları, qızıl mədən proqramı*
***Ключевые слова:*** *золотодобывающая промышленность, золотой запас, месторождения золота, программа добычи золота*
***Key words:*** *gold-mining industry, gold reserves, gold deposit, methods of the mining of gold*

Золотодобывающая промышленность год за годом развивается, меняются стандарты работ, улучшаются оборудования и появляются новые месторождения. В настоящее время золотодобывающая промышленность Азербайджана применяет новую систему производственных, финансовых и коммерческих связей, внедряет инновационные программы модернизации основного капитала в отрасли на базе современных технологий, что предполагает активное привлечение государственных и частных инвестиций.

Азербайджан на сегодня располагает крупной разрабатываемой и резервной подготовленной сырьевой базой золота, значительными прогнозными ресурсами для расширенного воспроизводства запасов. Однако, для поддержания золотодобычи в регионе, в период развития новых отраслей и сфер деятельности, необходим комплекс технико-технологических, институциональных и организационных инновационных мер, основными из которых являются перечисленные ниже.

**Технологические инновации**, направленные на освоение новых типов месторождений, например, большеобъемных. Добыча золота подземным способом на Гедабекском золоторудном месторождении велась еще в 19 веке. После семи лет с начала современного периода промышленной добычи золота на этом месторождении (2009 год), продолжение эксплуатации месторождения подземным способом стало убыточно в связи с невысокими концентрациями золота в руде. На месторождении легкодоступные близповерхностные (окисленные) золотосодержащие руды уже отработаны, а оставшиеся на глубине стали низкорентабельными, в связи с чем для их разработки нужна новая технология добычи. Кроме того, повышение коэффициента вскрыши и снижение качества добываемой руды обуславливают необходимость в перемещении значительно большего количества материала для получения того же выхода. Одно только увеличение продуктивности не позволит поддерживать нужный уровень добычи: для этого требуется повышение и эксплуатационной готовности, и коэффициента использования буровых станков.

Компания Anglo Asian Mining, осуществляющая добычу на этом месторождении, проводила переоценку запасов, а в 2018 году увеличила объем буровых работ на месторождении "Гедабек". Таким образом, переоценка месторождения как большеобъемного и новая модель его развития, требующая принципиально новой технологической схемы отработки, возникли на этапе старости отрасли. Запасы месторождения после доразведки его глубоких горизонтов и флангов будут переоценены для новых условий разработки. Условие эффективности освоения таких месторождений – изменение технологии добычи – отказ от выборочной отработки обогащенных участков и переход на полную их отработку, что является технологической инновацией для данного месторождения. Отработка технологических и технических инноваций на таком месторождении разрешит вовлечь в отработку и другие месторождения [1, с. 24].

**Инновации, повышающие полноту извлечения золота**. Современные оценки уровня технологических потерь на типичных по крупности металла месторождениях определены большинством исследователей в 20–30%, а для месторождений с преобладанием мелкого

золота-в 50% и более. Изучение подобных месторождений, особенно возникших в прошедших столетиях, показало, что они вполне рентабельны для повторной переработки. Потери, особенно в первый период золотодобычи происходили вследствие примитивной техники и технологии добычи, не способных улавливать мелкие и тонкие фракции золота. Средняя крупность техногенного золота обусловлена относительно высоким содержанием весьма мелких фракций (0,25–0,5 мм) гравитационно улавливаемого металла, составляющего основную долю технологических потерь. Из этого можно сделать вывод, что разработка и опытная апробация различных вариантов инновационных технологий для отработки месторождений с мелким и «тонким» золотом (а также для обогащения), является в настоящее время актуальной обсуждаемой инновацией для поддержания золотодобывающей отрасли [1, с. 25].

**К технологическим инновациям, направленным на полноту извлечения золота**, следует отнести и технологии добычи золота из сульфидных материалов. Выполненные экспериментальные расчеты предлагаемых технологий извлечения золота из сульфидов показали эффективность их применения как на первичных золотоносных месторождениях, не рентабельных без извлечения золота из сульфидов, так и при вторичной переработке техногенных отложений. Полученные результаты являются основанием для дальнейших исследований в данном направлении в целях переоценки и ранее нерентабельных коренных месторождений и первичных россыпей, а также техногенных россыпей, содержащих сульфиды. Кроме того, извлечение золота из сульфидов имеет и дополнительную экономическую выгоду, так как при добыче сульфидов будет выделяться золото не только, связанное с сульфидами, но и свободное (в виде сростков с кварцем, чешуйчатое, мелкое и т. д.), потерянное в процессе их обогащения на промывочных установках [1, с. 26].

Технологические инновации, направленные на комплексное извлечение полезных компонентов. Один из способов поддержания золотодобычи в старопромышленных регионах – повышение рентабельности месторождений с низкими содержаниями золота путем комплексного извлечения всех полезных компонентов, что позволит ввести в отработку комплексные золото-редкометальные месторождения.

**Инновации, направленные на повышение эффективности извлечения золота**. К технологическим инновациям следует отнести технологию кучного выщелачивания, применение которой способствует удешевлению процесса извлечения золота и которая используется, как правило, для переработки низкосортных бедных руд. Основные преимущества способа кучного выщелачивания: отсутствие процесса измельчения руд и необходимости строительства обогатительных фабрик; меньшая (по сравнению с традиционными способами) энергоемкость производства и численность занятых; возможность быстрого ввода производства в строй и небольшой срок окупаемости капитальных вложений [1, с. 28].

Кучное выщелачивание – наиболее простая технология переработки руд, благодаря чему она нашла широкое применение как на зарубежных, так и на отечественных золотоизвлекающих предприятиях.

Многие разумные руководители предприятий переориентировались с затратных, традиционно ими испытанных методов производства и россыпного, и рудного золота, на новые технологии. Простые, может быть не столь эффективные по степени извлечения металла, но зато дешевые. Например, кучное выщелачивание, при котором себестоимость золота составляет порядка $5 - 6 за грамм. Имея на таких производствах рентабельность 30 - 35%, предприятие в состоянии развиваться дальше. Благодаря вот этому изменению психологии и отношения к металлу производство будет расти и дальше [1, с. 30].

Но то не менее ищутся пути еще более эффективного извлечения золота. Например, в 2012 году руководство компании Anglo Asian Mining plc приняло решение о строительстве завода по чановому выщелачиванию на золотомедном месторождении «Гедабек». Строительство этого завода на золотомедном месторождении «Гедабек» стало ответной реакцией на рост ожидаемых запасов, и реализовался с целью повышения уровня извлечения и объема производства

золота на месторождении. Предварительная оценка проекта завода была проведена в январе 2012 года, и уже во второй половине 2013 года был сдан в эксплуатацию [2].

Завод построен с целью обрабатывать богатую руду и запасы, непригодные для кучного выщелачивания - метода получения золота из руды, который до того использовался на месторождении. Технология чанового выщелачивания позволяет извлекать более 90 процентов золота, содержащегося в руде, тогда как при кучном выщелачивании этот показатель составляет около 70 процентов. Завод рассчитан на обработку 100 тонн руды в час.

Если содержание золота в одной тонне руды меньше двух-трех граммов, тогда дешевле и выгоднее использовать кучное выщелачивание, которое позволяет извлекать максимум 70 процентов, а в реальности 50-60 процентов золота. Практика и оценки показали, что содержание золота на месторождении «Гедабек» составляет около семи граммов на тонну. 30-процентные потери в таком случае составляют 2-3 грамма золота на тонну, что даже больше содержания золота в некоторых месторождениях. Поэтому целесообразнее было строить завод по закрытому выщелачиванию и извлекать больше золота, чем использовать предыдущую технологию. Благодаря запуску завода производственные расходы сократились до 500 долларов на одну унцию золота, что очень выгодно.[2]

Таким образом, запуск завода, во-первых, позволил повысить объемы производства. Во-вторых, значительно снизить операционные расходы компании, сократить использование различных веществ, которые необходимы при кучном выщелачивании и избавиться от погодной зависимости. При хороших погодных условиях можно продолжать использовать кучное выщелачивание, однако зимой возникают сложности: неприветливый климат в Гедабеке создает трудности и эффективность работы снижается.

В августе 2013 года компания произвела 7600 унций золота, что является наилучшим месячным показателем с начала добычи в 2009 году. Таким образом, компания Anglo-Asian Mining plc установила рекорд месячного производства, что связано с переходом на новый метод получения золота из руды, а именно - на чановое выщелачивание.

В 2018 году на месторождении «Човдар», где работы ведутся компанией AzerGold, в результате оптимизационных работ часовая производственная мощность участка по дроблению и измельчению руд была повышена с 100-150 тонн до 200-250 тонн. В то же время, в результате применения современных технологий и оптимизационных работ, использование химических реагентов снизилось на 20-30 процентов, в то время как добыча по сравнению с прндыдущим годом увеличилась на 33 процента. С целью адаптации лабораторных анализов к мировым стандартам началось использование современной технологии PAL 1000.[3]

В свою очередь, Научный инновационный центр (НИЦ) НАНА подготовил бизнес-проект по добыче драгоценных металлов с использованием инновационных технологий. Проект подготовлен на основе научно-технических исследований института геологии и геофизики НАНА. Новый метод предусматривает добычу драгоценных металлов с применением новых подземных технологических способов. Речь идет о разработанной учеными мобильной установке, позволяющей использовать безопасные растворы для извлечения металлов из руд. Академия наук в настоящее время занимается совершенствованием данной технологии. Если изначально применение нового инновационного метода было рассчитано на извлечение из руды драгоценных металлов (золота), то технологические усовершенствования позволят использовать ее для переработки руды других видов металлов (алюминий, свинец, медь и др.). Технология прошла тестирование на некоторых золоторудных месторождениях Большого и Малого Кавказа. Инновационная технология была впервые апробирована в селе Тюлаллар Гейгельского района для добычи драгоценных металлов. Было получено положительное заключение по проекту от ряда госструктур, в силу того, что новая технология добычи драгоценных металлов минимизировала загрязнение окружающей среды. [4, с.74]

Как видим, очевиден тот вывод, что в целом условия добычи заметно усложнятся по сравнению с сегодняшним днем. Кроме того, будут действовать все более ужесточающиеся

требования по охране окружающей среды и безопасности. Это означает, что весь процесс добычи, от поисков и разведки до освоения, добычи и, в конечном итоге, восстановления земель, должен будет стать намного более совершенным.

К **институциональным инновациям**, способствующим поддержанию золотодобывающей отрасли следует отнести механизм частно-государственного партнерства, используемый для сооружения инфраструктуры в удаленных малоосвоенных районах области; дифференцированное в зависимости от качества месторождений налогообложение.

Комплексной перспективной инновацией является формирование горнопромышленного кластера (сначала как золото-серебряного, затем модифицированного в комплексный за счет добычи цветных металлов), для чего имеются необходимые предпосылки: ресурсный потенциал, резерв дешевой электроэнергии, существующие и строящиеся объекты инфраструктуры, система подготовки квалифицированных кадров. Именно кластер, благодаря консолидации финансовых, интеллектуальных и административных ресурсов региона будет способствовать реализации технико-технологических и институциональных инноваций и послужит ядром реструктуризации минерально-сырьевого комплекса [1, с.30].

Для развития научно-технического потенциала золотодобывающие компании, в частности ЗАО AzerGold должны тесно сотрудничать с Национальной Академией наук Азербайджана и на основе меморандума должен быть создан Центр геологических исследований Азербайджана. Создание Центра геологических исследований позволит создать инфраструктуру мирового уровня в Азербайджане, научно-исследовательские лаборатории. Это, в свою очередь, приведет к существенному сокращению финансовых затрат и времени на обработку геологических материалов за счет проведения анализов внутри страны. В Азербайджане в геологической отрасли следует создавать условия не только для транснациональных компаний, но и для юниорских (малых) компаний. Сегодня рынок геологоразведочных услуг в Азербайджане узок, то есть относительное малое количество компаний присутствуют на этом рынке. Существует потребность сделать акцент на создание благоприятных условий для развития малого и среднего бизнеса в геологической отрасли. В странах с развитой системой геологоразведочных услуг наряду с транснациональными или крупными национальными вертикально-интегрированными компаниями существует большое количество малых (юниорских) компаний, которые почти полностью закрывают услуги по поисковым работам.

Все это предполагает использование механизмов целевых программ развития предприятий золотодобывающей промышленности, которые позволят освоить основные рудные месторождения в сжатые сроки в регионах традиционной золотодобычи; освоить месторождения-спутники на инфраструктуре существующих или отработанных месторождений; отработать техногенные месторождения и упорные руды с применением современных технологий добычи и переработки золота [4, с.75].

## ЛИТЕРАТУРА


1. Ковалев В. М. Технология структуризации и описания организации – шаг за шагом // Консультант директора, 2004, № 8, с. 24-30
2. Официальный сайт компании Anglo Asian Mining PLC, Reports and accounts http://www.angloasianmining.com
3. Официальный сайт компании ЗАО AzerGold https://azergold.az/
4. Ханкишиева Э.М. Совершенствование методов добычи золота связано с эволюцией человеческого общества// The International Scientific Association of Economists “Consilium” International scientific periodical journal for economists and jurists “The genesis of genius”. Geneve, Switzerland, 1 December 2014 #3 c.73-76

**XÜLASƏ**

**Ellada Xankişiyeva**

**AZƏRBAYCANIN QIZIL MƏDƏN SƏNAYESİNDƏ İNNOVASİYANIN ROLU**

Məqalə qızıl mədən sənayesi müəssisələrində qızıl hasilatı təcrübəsinin və hazırkı vəziyyətinin öyrənilməsinə həsr olunmuşdur, xüsusən də Azərbaycanın qızıl mədən şirkəti tərəfindən onun istehsalında istifadə olunan əsas metodların nümunəsi verilmişdir. Dünyanın qızıl istehsalında çil təşviqatı və yığınların yuyulması üsulu kimi metodların rolu qeyd edilmişdir.

Xüsusilə qızıl hasilatının inkişafındakı Azərbaycanın üstünlüklərini təhlil edən məqalədə qeyd olunur ki, iqtisadiyyatın bu gənc sektorunun perspektivli gələcəyi var və respublikanın dünya bazarında ən böyük qızıl tədarükçüləri arasında öz layiqli yerini almaq hüququ var.

**SUMMARY**

**Ellada Khankishiyeva**

**THE ROLE OF INNOVATION IN THE GOLD MINING INDUSTRY OF AZERBAIJAN**

Article is about the experiences and the current state of the gold mining industry, is an example of the basic techniques used in its production gold mining company in Azerbaijan. Noticed, the role such production methods of world production of gold like method of tubes, agitation and heap leaching.

In particular, analyzing the benefits Azerbaijan has got from development of gold mining, the author argues that the gold mining in Azerbaijan, as a growing industry, has a promising future and not far off the day when the country will take its place among the largest suppliers of gold to the world market.

**NAMİQ ABBASOV**
*AMEA-nın İqtisadiyyat İnstitutu*
*namig.abbasov@gmail.com*

# İNNOVASİYANIN İQTİSADİ ARTIMA TƏSİRİ

***Açar sözlər:*** *innovasiya, iqtisadi artım, təhsil, elmi-tədqiqat işləri*
***Ключевые слова:*** *экономический рост, инновации, образование, НИОКР*
***Key words:*** *economic growth, innovation, education, R&D*

## 1. Giriş

Qloballaşmanın dərinləşməsi, informasiya kommunikasiya texnologiyalarının inkişafı iqtisadi artımın sürətlənməsinə və firmaların maliyyə vəziyyətlərinin yaxşılaşmasına müsbət təsir göstərir. Qeyd etmək lazımdır ki, innovasiyalar, yüksək texnologiyalar, həmçinin elmi-tədqiqat işlərinə çəkilən xərclərin artması, rəqabət qabiliyyətinin yüksəldilməsi və iqtisadi tərəqqinin təmin edilməsi üçün əsas şərtidir ki, bununla da davamlı iqtisadi artım təmin edilir. Bununla yanaşı, işçilərin təhsilinin davamlılıq səviyyəsi, investorların kapital bazarına çevik şəkildə daxil olması özəl və dövlət bölməsinin inkişafına müsbət təsir edir və nəticədə əhalinin həyat səviyyəsi yüksəlir. Ölkənin innovasiya potensialına həm makroiqtisadi, həm də mikroiqtisadi amillər təsir göstərir. Bunlara misal olaraq, ÜDM, adam başına düşən ÜDM, elmi-tədqiqat və təcrübi konstruktor (ETTK) işlərinə çəkilən xərclər, beynəlxalq ticarət, texnoloji boşluqlar, ölkədə xarici şirkətlər tərəfindən qeydə alınan mənfəət səviyyəsini və s. göstərmək olar. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) istinadən (5), innovasiya və ETTK xərclərinin artmasına aşağıdakı amillər təsir göstərir:

- Bazar rəqabətinə uyğun innovasiyaları və xarici investisiyaları stimullaşdıran adekvat normativ-hüquqi bazanın formalaşması;
- Texnologiyaların və informasiyanın inkişafını dəstəkləyən investorlar üçün real faiz dərəcələrinin aşağı səviyyədə müəyyən edilməsi və innovasiya fəaliyyətini təşviq edən sabit iqtisadi mühitin mövcud olması;
- Daxili və xarici maliyyələşmə mənbələrinin mövcud olması;
- Özəl sektorda elmi tədqiqat işlərinə əlavə dəstək verən və adekvat insan resursları tələb edən dövlət elmi-tədqiqat işlərinin genişləndirilməsi;
- Əsas fəaliyyəti elmi-tədqiqat işləri həyata keçirmək olan firmalar üçün vergi güzəştləri;
- Yüksək səviyyəli məhsuldarlıq üçün aparılan elmi-tədqiqat işlərinə xarici investisiyaların cəlb edilməsi.

Bununla yanaşı, Şumpeterin istinad etdiyi "yaradıcı-məhv" konsepsiyasına nəzər salarkən görürük ki, innovasiyalar köhnə məhsul və texnologiyaları yeniləri ilə əvəz edir ki, bu da öz növbəsində dövri təkamülə müsbət təsir göstərir. Rəqabət nəticəsində bazara yeni innovasiyaların daxil olması və köhnə texnologiyaların xaric edilməsi, iqtisadi artımın güclənməsinə gətirib çıxarır (2). Kameron öz kitabında innovasiyalardan irəli gələn xarici təsirləri aşağıdakı kimi işıqlandırmışdır (4):

- Texnologiyaların yayılma təsiri;
- Firmaların innovasiyalardan irəli gələn sosial faydaları əldə edə bilməməsi;
- Əvəzetmə təsiri, yəni innovasiyaların tətbiq edilməsi nəticəsində mövcud texnologiyanın köhnəlmiş hesab edilməsi və onların yeniləri ilə dəyişdirilməsi.

Bu məqalənin məqsədi Azərbaycanda innovasiya ilə iqtisadi artım arasında mövcud olan əlaqələri nəzərdən keçirməkdir. Məqalədə innovasiyanı kəmiyyətlə ifadə etmək üçün müxtəlif göstəricilərdən istifadə edilmişdir.

Qeyd etmək lazımdır ki, innovasiya və iqtisadi artım arasında mövcud olan əlaqələr tədqiqatçılar üçün böyük maraq doğurur və bunun nəticəsi olaraq bu mövzu iqtisadi ədəbiyyatlarda geniş müzakirə edilməyə başlanıb. Bu konsepsiya öz başlanğıcını Solo tərəfindən həyata keçirilən iqtisadi tədqiqatdan götürür. O, öz tədqiqatında innovasiya ilə iqtisadi artım arasında uzun müddət davam edən əlaqələrin mövcudluğunu qeyd etmişdir (7). Şumpeter isə öz əsərlərində iqtisadi artımla iqtisadi inkişafı fərqləndirmişdir (6). Onun fikrinə görə, iqtisadi artım, iqtisadi sistemin ekzogenli amillərinin təsiri nəticəsində

yavaş və mütərəqqi dəyişməsidir, digər tərəfdən isə iqtisadi inkişaf iqtisadi innovasiyaların təsiri nəticəsində iqtisadi sistemdən irəli gələn fasiləli daxili dəyişikliklərdən yaranır. Şumpeter tərəfindən hazırlanan iqtisadi artım modelində, iqtisadi artımın təmin edilməsində innovasiyalar vasitəsi ilə rəqabətin önəmi ilə yanaşı, təhsilin əhəmiyyəti də vurğulanır və bu iddialar emprik tədqiqatlarla dəstəklənir (1).

İqtisadçı alim Westmore İƏİT üzv olan 19 ölkənin timsalında elmi-tədqiqat xərcləri və patent üzrə determinantları, həmçinin innovasiya ilə iqtisadi artım arasında əlaqəni panel modelindən istifadə edərək tədqiq etmişdir (8). Alınan emprik nəticələr əsasında, vergi güzəştlərinin, elmi-tədqiqat işlərinə göstərilən dövlət dəstəyinin və patent hüquqlarının özəl sektorda innovasiya fəaliyyətini təşviq etməsi təsdiq edilmişdir. Bundan əlavə, alınan nəticələr bu siyasətlərin məcmu məhsuldarlığın artmasına birbaşa təsirini müəyyən etməmişdir. Həmçinin, rəqabəti dəstəkləyən iqtisadi siyasətlər həm daxili, həm də xarici mənbələrdən biliklərin əldə edilməsi üçün əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, innovasiya prosesləri üçün vençur kapitalının böyük əhəmiyyəti var və bu fakt özünü İƏİT-nın emprik dəlillərində də göstərir və qeyd edilir ki, vençur kapitalı ancaq yüksək innovasiya səviyyəsi və düzgün normativ-hüquqi bazası olan iqtisadiyyatda tərəqqini təmin edir. İnkişaf etmiş ölkələrdə, həmçinin ABŞ-da, Avropada da vençur kapitalı qoyuluşları institusional investorlar və banklar tərəfindən həyata keçirilir. Kapital bazarının inkişaf etməsi və bu sahəyə dövlət sifarişlərinin yönləndirilməsi üçün ilkin şərt kimi vençur kapital qoyuluşları çıxış edir.

**2. Statistik göstəricilər və hesablama metodologiyası**

Bu məqalənin əsas məqsədi innovasiya ilə iqtisadi artım arasında əlaqələri müəyyən etməkdən ibarətdir, bunun üçün 2014-2018-ci illər üzrə (2019-cu il üzrə bəzi statistik məlumatların olmaması səbəbindən, qeyd edilən il təhlildə nəzərə alınmamışdır) Azərbaycan Dövlət Statistika Komitəsinin (ADSK), Birləşmiş Millətlər Təşkilatının (BMT) və Dünya Bankının (DB) statistik göstəricilərinə müraciət edilmişdir.

***Cədvəl 1. İnnovasiya və iqtisadi artım arasında əlaqələrin müəyyən edilməsində istifadə edilən statistik göstəricilər***

| **İllər** / **Göstəricilər** | 2014 | 2015 | 2016 | 2017 | 2018 |
|---|---|---|---|---|---|
| ÜDM, (mln ABŞ dolları) | 75234.7 | 52996.8 | 37862.8 | 40867.9 | 46939.6 |
| ÜDM artımı (faizlə) | 2.797 | 1.05 | -3.064 | -0.282 | 1.412 |
| Adam başına düşən ÜDM, (ABŞ dolları) | 7891.31 | 5500.32 | 3880.73 | 4147.08 | 4721.17 |
| İnsanın İnkişaf İndeksi (İİİ) | 0.746 | 0.749 | 0.749 | 0.752 | 0.754 |
| İşsizlik səviyyəsi, (%-lə) | 4.9 | 5 | 5 | 5 | 5.2 |
| Təhsilin ÜDM payı, ( %-lə) | 3.3% | 3.6% | 3.2% | 2.9% | 2.5% |
| ETTKİ-nə çəkilən xərclərin ÜDM-da payı, (faizlə) | 0.21% | 0.22% | 0.21% | 0.19% | 0.2% |
| Xarici investisiyaların ÜDM-də payı, (faizlə) | 5.88 | 7.62 | 11.88 | 7.01 | 2.98 |
| 1 milyon əhali üzrə ETTK və işləmələrlə məşğul olan tədqiqatçıların sayı, (nəfər) | 2446.649 | 2393.22 | 2308.611 | 2088.484 | 2029.603 |
| Patent ərizələrinin sayı | 168 | 184 | 163 | 226 | 171 |
| Ticarət nişanlarının sayı | 5301 | 4952 | 4702 | 4924 | 4993 |
| Yüksək texnologiya ixracının istehsal sənaye üzrə ixracında payı (%-lə) | 8.14 | 4.20 | 2.71 | 3.05 | 4.03 |

***Mənbə:*** *ADSK, BMT, DB*

Qeyd etmək lazımdır ki, ETTK işlərinə dövlət tərəfindən investisiya qoyuluşu, yeni bilik yaratma fəaliyyəti və ya mövcud olan bilik səviyyəsinin yüksəldilməsi kimi səciyyələnir. ETTK işləri üzrə fəaliyyət innovasiyanın əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Buna görə də, ETTK işlərinə investisiya qoyuluşunun innovasiyaya necə təsir etməsi, bu sahənin təhlil olunmasını tələb edir. Bu məqalədə istifadə edilən göstəricilər cədvəl 1-də verilmişdir.

Məqalədə verilən göstəricilər arasında korrelyasiya əmsalını müəyyən etmək üçün aşağıdakı düsturdan istifadə edilmişdir (3, s.513). Burada göstəricilərin təhlili zamanı ÜDM-də faizlə verilməyən digər göstəricilər üçün loqarifmik xüsusiyyətlər tətbiq edilmişdir. Məqsəd bu göstəricilər arasında korrelyasiya əlaqəsini müəyyən etmək olmuşdur.

$$r = \frac{\sum (x-\bar{x})*(y-\bar{y})}{n*s_x*s_y} \quad (1)$$

Burada, x - faktor göstəricisinin (asılı olmayan dəyişənin) qiyməti; y - əlamət göstəricisinin (asılı dəyişənin) qiyməti; $s_x$ - faktor göstəricisinin standart kənarlaşması; $s_y$ - nəticə göstəricisinin standart kənarlaşması; n - müşahidə vahidlərinin sayıdır.

Verilən hər bir statistik göstərici üzrə qeyd edilən düsturu tətbiq edərək alınan nəticələr əsasında korrelyasiya matriksi qurulmuşdur (bax cədvəl 2-yə).

***Cədvəl. 2. Korrelyasiya Matriksi***

| | *1* | *2* | *3* | *4* | *5* | *6* | *7* | *8* | *9* | *10* | *11* |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1. ÜDM | --- | | | | | | | | | | |
| 2. ÜDM artımı | **0.86** | --- | | | | | | | | | |
| 3. Adam başına düşən ÜDM, ABŞ dolları | **0.99** | **0.84** | --- | | | | | | | | |
| 4. İnsanın İnkişaf İndeksi (İİİ) | -0.62 | -0.15 | -0.65 | --- | | | | | | | |
| 5. İşsizlik səviyyəsi | -0.44 | -0.04 | -0.47 | **0.89** | --- | | | | | | |
| 6. Təhsilin ÜDM payı | 0.36 | -0.003 | 0.39 | -0.81 | -0.76 | --- | | | | | |
| 7. ETTKİ-nə çəkilən xərclərın ÜDM-də payı | 0.40 | 0.096 | 0.426 | -0.64 | -0.32 | **0.78** | --- | | | | |
| 8. Xarici investisiyaların ÜDM-də payı | -0.44 | -0.81 | -0.40 | -0.43 | -0.49 | 0.55 | 0.32 | --- | | | |
| 9. Bir milyon əhali üzrə ETTK və işləmələrlə məşğul olan tədqiqatçıların sayı | 0.58 | 0.13 | 0.61 | -0.96 | -0.79 | **0.91** | **0.82** | 0.45 | --- | | |
| 10. Patent ərizələrinin sayı | -0.29 | -0.012 | -0.29 | 0.37 | -0.07 | -0.12 | -0.61 | -0.11 | -0.42 | --- | |
| 11. Ticarət nişanlarının sayı | **0.93** | **0.93** | **0.92** | -0.37 | -0.29 | 0.06 | 0.05 | -0.66 | 0.28 | -0.06 | --- |
| 12. Yüksək texnologiya ixracı, istehsal sənaye üzrə ixracında payı | **0.97** | **0.79** | **0.97** | -0.64 | -0.47 | 0.26 | 0.29 | -0.39 | 0.55 | -0.33 | **0.93** |

***Mənbə:*** *Müəllif hesablaması*

**Cədvəl 3.** ***Korrelyasiya əmsallarının xarakteristikası***

| Korrelyasiya əmsalı | | Əlaqənin xarakteri |
|---|---|---|
| Düz əlaqə | Tərs əlaqə | |
| 0 - 0.1 | (-0.1)-0 | Əlaqə mövcud deyil, yaxud xətti tənliyə uyğun gəlmir |
| 0.1 - 0.3 | (-0.1)-(-0.3) | Əlaqə zəifdir |
| 0.3 - 0.65 | (-0.3)-(-0.65) | Əlaqənin sıxlığı ortadır |
| 0.65 - 0.8 | (-0.65)-(-0.8) | Əlaqə sıxdır (güclüdür) |
| 0.8 - 0.95 | (-0.8)-(-0.95) | Əlaqə çox sıxdır, nəticə əlamətinin dəyişməsi faktor əlamətinin (səbəb) dəyişməsi ilə təyin olunur |
| 0.95 - 1.0 | (-0.95)-(-1) | Əlaqə funksionaldır, yəni nəticə göstəricisi ($y$) birbaşa faktor dəyişənlərinə ($x_i$) mütənasib olaraq dəyişir |

Cədvəl 2-dən qeyd edilən nəticələr cədvəl 3-də verilən xarakteristikaya görə şərh edilir. İnnovasiya və iqtisadi artım arasında əlaqələri işıqlandırmaq üçün məqalədə reqressiya modeldən də

istifadə edilmişdir, bu modellərdə asılı dəyişən (Y) kimi ÜDM götürülmüşdür, digər göstəricilər isə asılı olmayan dəyişənlər ($X_{i=1,2,3,...,11}$) kimi götürülmüşdür. Hesablama zamanı reqresiya model qurmaq üçün aşağıdakı düstürdan istifadə edilmişdir.

$$Y_{(ÜDM)}= \beta_0+ \beta_1 X_{(təhsilin\ ÜDM\text{-}da\ payı)}+ \beta_2 X_{(Tədqiqatçıların\ sayı)} + \beta_3 X_{(Patent\ ərizələrinin\ sayı)}+ \beta_4 X_{(İİİ)} + \beta_5 X_{(İşsizlik\ səviyyəsi)} + \beta_3 X_{(Xİ)}+\mathcal{E} \quad (1)$$

Burada, $\beta_0$, $\beta_1$, $\beta_2$, ......$\beta_p$ - parametrlərdir, Ɛ- isə xətanı ifadə edir və verilən göstəricilərə uyğun ən yaxşı xətti tapmaq üçün, $\min\sum( y_i-\bar{y}_i)^2$ düsturundan istifadə edilir. Burada, $\bar{y}_i$- aslı dəyişənin hesabi qiyməti, $y_i$ - asılı dəyişənin faktiki qiymətidir və $y_i= \beta_0+ \beta_1X_1+ \beta_2X_2 +......+ \beta pXp+ \mathcal{E}$ düsturu ilə, $\bar{y}_i$ isə, $\bar{y}_i=b_0+ b_1X_1+ b_2X_2 +......+ b_pX_p$ düsturu ilə hesablanır.

Qeyd edilən düstura əsasən reqressiya modelini qurduqda, aşağıdakı nəticələr alınır (bax cədvəl 4-ə). Reqressiya modeli qurarkən P dəyəri 0.05-dən yuxarı olan göstəricilər modeldən kənarlaşdırıldı. P dəyəri 0.05≤ olduqda statistik əhəmiyyət kəsb edir, P dəyəri 0.5-dən böyük olduqda statistik əhəmiyyəti olmur.

***Cədvəl 4. Reqressiya Modeli***

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| SUMMARY OUTPUT | | | | | | | | |
| *Regression Statistics* | | | | | | | | |
| Multiple R | 0.997994 | | | | | | | |
| R Square | 0.995991 | | | | | | | |
| Adjusted R Square | 0.991982 | | | | | | | |
| Standard Error | 0.010497 | | | | | | | |
| Observations | 5 | | | | | | | |
| ANOVA | | | | | | | | |
| | *df* | *SS* | *MS* | *F* | *Significance F* | | | |
| Regression | 2 | 0.05475 | 0.0273 | 248.44 | 0.004009 | | | |
| Residual | 2 | 0.00022 | 0.0001 | | | | | |
| Total | 4 | 0.05497 | | | | | | |
| | *Coefficients* | *Standard Error* | *t Stat* | *P-value* | *Lower 95%* | *Upper 95%* | *Lower 95.0%* | *Upper 95.0%* |
| Intercept | 7.47174 | 0.14995 | 49.828 | 0.0004 | 6.82656 | 8.1169 | 6.826 | 8.1169 |
| Ticarət nişanlarının sayı | 0.0005 | 2.45E-05 | 20.389 | 0.00239 | 0.00039 | 0.0006 | 0.0004 | 0.0006 |
| ETTKİ-nə çəkilən xərclərın ÜDM-da payı, faizlə | 357.249 | 46.1174 | 7.7464 | 0.01626 | 158.821 | 555.676 | 158.82 | 555.67 |

***Mənbə:*** *Müəllif hesablaması*

Aparılan hesablamalar nəticəsində $b_0$=7.471742, $z_1$=0.0005, $b_2$=357.24 olmuşdur, bu göstəriciləri düsturda yerinə qoyaraq ($\bar{y}_i=b_0+ b_1X_1+......+ b_pX_p$) prediktiv asılı dəyişəni müəyyən etmək olar.

Ölkənin inkişaf səviyyəsi, innovasiyaları inkişaf etdirən mühərrik hesab edilir ki, burada ETTK işlərinin maliyyələşmə məsələləri öz həllini tapır. İnsanın inkişafı indeksi isə ölkədə innovasiyanın inkişafı üçün açar rolunu oynayır. Azərbaycanın indiki şəraitində innovasiya faktorlarının iqtisadi artıma təsiri aparılan təhillərdə özünü tam doğrultmadı, amma ölkənin böyük innovasiya potensialı var və bu potensialdan səmərəli istifadə edərək davamlı iqtisadi artımı gücləndirmək olar.

**3. Azərbaycan Respublikasında innovasiyaların iqtisadi artıma təsirinin artırılması yolları.**

Azərbaycanda innovasiyanın inkişafı üçün səmərəli işlərin həyata keçirilməsi sistemli, koordinasiyalı və kompleks yanaşma tələb edir. Bu sahədə aktual problemlərdən biri də innovasiyalı iqtisadi inkişaf konsepsiyasının işlənilib həyata keçirilməsidir. Bu baxımdan, hesab edirəm ki, innovasiyalı iqtisadi inkişaf konsepsiyasının inkişaf istiqamətləri aşağıdakı kimi olmalıdır: Azərbaycanda düzgün innovasiya strategiyası və siyasətinin həyata keçirilməsi; Milli İnnovasiya Sisteminin formalaşması və təkmilləşdirilməsi; İnnovasiya fəaliyyətini tənzimləmək üçün normativ-hüquqi bazanın formalaşması; İnnovasiya sahəsində maliyyə təminatı məsələlərinin həll edilməsi; Milli iqtisadiyyatın innovasiyalı inkişafı üçün xarici texnika, texnologiya və təcrübələrin cəlb edilməsi məqsədi ilə Xüsusi İqtisadi Zonaların yaradılması; Azərbaycanın regionlarında innovasiyanın inkişaf etdirilməsi üçün əməli tədbirlərin həyata keçirilməsi; Ölkəmizdə startapların və innovasiya sahibkarlığının dəstəklən-

məsi və inkişaf etdirilməsinin təmin edilməsi; Ölkəmizdə müxtəlif sahələr üzrə innovasiya mərkəzlərinin yaradılması; Təhsil sahəsinin, kadr hazırlığının və insan kapitalının keyfiyyətinin və səviyyəsinin yüksəldilməsi; Ölkədə innovasiya infrastrukturunun formalaşdırılması və inkişafı üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi.

**Nəticə.** Bu məqalənin əsas məqsədi Azərbaycan Respublikasının iqtisadi reallıqları şəraitində innovasiya ilə iqtisadi artım arasında mövcud əlaqələri müəyyən etmək olmuşdur. Bu baxımdan innovasiya və iqtisadi artım, onların əsas determinantları təhlil olundu. Təhlil nəticəsində innovasiya ilə iqtisadi artım arasında əlaqələrin çox zəif olduğu müəyyən edildi. Amma mövcud olan iqtisadi və innovasiya potensialı ölkədə innovasiyaların inkişaf etdirilməsi imkanlarının çox olmasını göstərir ki, bununla da davamlı iqtisadi artımı gücləndirmək olar.

## ƏDƏBİYYAT


1. Aghion, P., Bloom, N., Blundell, R., Griffith, R., Howitt, P. (2005). Competion and innovation: an inverted U relationship, Oxford Journals
2. Aghion, P., Harmgart, H., Weisshaar, N. (2010). Fostering growth in CEE countries: a country-tailored approach to growth policy, European
3. Bruce E. Hansen (2020) Econometrics, (912 page), University of Wisconsin
4. Cameron, G. (1998) „Innovation and growth: a survey of the empirical evidence”, Nuffield College, Oxford, pp. 1-34
5. OECD / “Innovations and growth: Rational for an innovation strategy”, pp. 3-29
6. Schumpeter, JA (1939). Business Cycles: A Theoretical, Historical and Statistical Analysis of the Capitalist Process”, Vol.1, McGraw-Hill, New York.
7. Solow, R. (1956). A Contribution to the Theory of Economic Growth, The Quarterly Journal of Economics, Vol. 70, No. 1, pp.65-94
8. Westmore, B. (2013). R&D, Pateting and Growth: The Role of Public Policy, OECD Economics Department Working Papers, no. 1047, OECD, Publishing, pp. 2-48


## РЕЗЮМЕ

**Намик Аббасов**

### ВЛИЯНИЕ ИННОВАЦИЙ НА ЭКОНОМИЧЕСКИЙ РОСТ

Инновации, расходы на НИОКР и инвестиции в технологии являются предпосылками для обеспечения конкурентоспособности и прогресса, а через них и устойчивого экономического роста. Устойчивый уровень образования рабочей силы, увеличение инвестиций в области исследований, создание новых продуктов и легкий доступ инвесторов к фондовым рынкам, во-первых, обеспечат развитие частного и государственного секторов, а во-вторых, улучшат условия жизни населения. Целью данного исследования является анализ влияния инновационного потенциала экономики на экономический рост..

## SUMMARY

**Namik Abbasov**

### THE EFFECT OF INNOVATION ON ECONOMIC GROWTH

R&D expenditures, level of innovations, and the investments in technology are premises for ensuring competitiveness and progress, and through them a sustainable economic growth. A sustained level of education of the workforce, increasing investments in research area, the creation of the new products and the facile access of investors to stock markets, firstly, will ensure the development of the private and public sectors, and secondly, will improve the living conditions of the population. The purpose of this study is to analyse if the long term economic growth is influenced by the innovation potential of an economy.

**SAHİL MURTUZAYEV**
*Azərbyacan Dövlət İqtisad Univeristeti*

# BANK SEKTORUNUN İNKİŞAF ETDİRİLMƏSİNDƏ İNNOVASİYALARIN ROLU

***Açar sözlər:*** *banklarda innovasiya, ATM, PC bankçılıq, telefon bankçılıq, internet bankçılıq, məlumat mərkəzi*

***Ключевые слова:*** *банковские инновации, банкомат, компьютерный банкинг, телефонный банкинг, интернет-банкинг, дата-центр*

***Key words:*** *banking innovation, ATM, PC banking, phone banking, internet banking, data*

Müəssisə və firmalar rəqabət mübarizəsində üstünlük qazanmaq, səmərəli və mənfəətli iqtisadi fəaliyyət göstərə bilmək üçün daima texnika və texnologiyanın üstünlüklərindən, yəni innovasiyalardan istifadə edirlər. İqtisadi fəaliyyətlərinin davamlı olmasını hədəfləyən müəssisələr bazar şəraiti, rəqabət ilə yanaşı, texnoloji inkişafın tempinə də ayaq uydurmalıdırlar.

İnformasiya texnikaların inkişafı özlüyündə sosial-mədəni mühitə öz faydalarını verməklə yanaşı, əsas istehsal amillərindən olan əməyin texnoloji cəhətdən inkişaf etdirilməsinə öz müsbət təsirini göstərir. [1] Bütün sektorlarda olduğu kimi, bankçılıq da yüksək texnoloji yeniliklərdən öz payını almaqda və öz fəaliyyətinin strukturlaşdırılmasında innovasiyalardan kütləvi istifadə edir. Bankçılıq fəaliyyətində rəqabət cəhətdən güclənmək üçün banklar sektora aid texnoloji yeniliklərdən vaxtında xəbərdar olmaqla yanaşı,onun effektiv tətbiqini də bacarmalıdır.

Texnoloji yeniliklər içərisində əsas yeri alan informasiya texnologiyalarıdır. Bu sektorda tətbiq edilən innovativ yeniliklər iki əsas başlıq altında bankların fəaliyyətinə təsir edə bilir [1]:

a) Avtomatik əməliyyatlar hesabına əmək və vaxt sərfiyyatı tələb edən bir çox əməliyyatın müddət və xərcinin azalmasına fayda vermək;

b) İstehlakçıların-müştərilərin bank xidmətləri və məhsulunun əlçatan olması avtomatik kanal və alternativ bank kanalları vasitəsilə daha da təkmilləşir.

Ümumi olaraq banklar texnoloji inkişaf üzərində ciddi bir dəyişiklik edə bilməsələr də yeni texnologiyaların tətbiqi və onların yaratdığı innovativ yenilikləri daha qabaqcıl formada zənginləşdirərək rəqabət mübarizəsində bir çox üstünlüklər qazana bilirlər. Belə ki:

- Elektron bankçılıq, başqa sözlə, yüksək texnoloji yeniliklərin (innovasiyaların) tətbiqi sahəsində banklar icra etdikləri əməliyytalarda (dolayısı ilə gördüyü işlərdə) önəmli dərəcədə xərclərdə tədarükə imkan yaradırlar. Buna misal olaraq, şöbələrdə əməliyyatların icrası əvəzinə telefon və ya online bank xidməti ilə daha tez və sürətli əqdlərin icrasını göstərə bilərik;
- Bazarda öz payını artırmaq üçün müasir texnologiyalar banklara dünya miqyasında bazarlarda iqtisadi manevrlər etməyə, o cümlədən əməliyyatlar aparmağa imkan verir;
- Müştərilərin daha çox tələb etdiyi, alışdığı, xüsusilə ehtiyaclarının hansı istiqamətdə olacağını asanlıqla informasiyaya çevirəcək vasitələrin mövcudluğu;
- Yeni iş imkanlarının banklar üçün mümkün olması, yəni elektron ticarət və digər maliyyə xidmətlərinin icrasının mümkünlüyü.

Elektron xidmətlərin bank sektoruna axımı bankların daha çox kütləyə fiziki olaraq deyil də, virtual olaraq müraciət edə bilmə imkanı yaratmasıyla yanaşı, müştərilərə bankların təklif etdiyi xidmətlərin müqayisəsi üçün asan və əlçatan bir baza yaratmağına imkan verir.

EHM-nin imkanlarının 1980-ci illərdən başlayaraq bankçılıq xidmətinə tətbiqi ənənəvi bankçılıqda yeni bir cığır açmışdır. Ancaq bu inkişaf tendensiyası getdikcə daha da dərinləşdiyi üçün "Bankçılıq inqilabı" adlanan fərdi bankçılıq məhz innovasiyanın bank sisteminə tətbiqinin ən öncül nümunəsidir.

Bank sektoruna texnologiyanın tətbiqi ilə ənənəvi bank məhsulları və xidmətləri dəyişdirildi.Texnoloji infrastruktur məhsul və xidmət istifadəsi əməliyyatının gəlirini də artırır. Bankçılıqda texnoloji infrastruktur ilə təqdim olunan xidmətlərdə müştərilərə istədiyi zaman, hər yerdə və səhv

etmədən bank əməliyyatlarının təklif edilməsi anlayışı böyük rol oynayır [5]. Bank sektorunda informasiya texnologiyalarının tətbiqi yeni bank xidməti ünsürlərini - Bankomat, PC bankçılıq, POS terminal, İnternet və Mobil Bankçılıq kimi anlayışları ortaya çıxardı. Bunlar isə öz növbəsində insan lara 7\24 rejimi ilə xidmət göstərməyə və bu xidmətin təmin edilməsinin minimum məsrəfli formasını yaratdı.

Elektron bankçılıqda ilk diqqətimizi çəkən yenilik beynəlxalq aləmdə ***ATM (automated teller machines)*** adlanan bankomatlar banklarda xəzinə funksiyalarının müştərilərə daha əlçatan formasını təqdim etməyə başladı. Dünyada ilk bankomat 1939-cu ildə Lüter George Simjian tərəfindən icad edilmişdir. Müasir işləyən ATM 1968-ci ildə Don Wetzel tərəfindən hazırlanmışdır. Bu bankomat ilk dəfə 1969-cu ildə New York Kimya Bankı tərəfindən istifadə edilmişdir. ATM ilk dəfə 1984-cü ildə Fransada və 1988-ci ildə İngiltərədə istifadə edildi. Qonşu ölkəmiz Türkiyədə isə ATM ilk dəfə 1987-ci ildə xidmətə girmişdir [6].

Bank sektorunda ümumi ATM tətbiqi bir çox cəhətdən üstünlüklər təklif edir. Bunları aşağıdakı kimi sadalamaq olar:

- Mövcud filial olmayan bankomatları "paylaşma" vəziyyətində başqa yerlərə köçürmək mümkündür;
- Bankomatlardakı paylaşımların emissiyalardakı pul həcminin azaldığı müşahidə edildi. Müştərilərin pul götürmələri artdıqca, cibində az pul, bankında daha çox pul olmağı üstün tutur;
- Geniş xidmət şəbəkələri olan banklar əlavə komissiya gəlirləri əldə edə bilərlər;
- Bankların öz filialları olmayan yerlərdə digər bankların bankomatlarından istifadə edərək kartları və məhsulları bazara çıxara bilərlər [7].

***"PC bankçılığ"***ın inkişafı İT texnologiyalarından kütləvi istifadə və ucuzlaşmasının bankçılıq sektoruna tətbiqi ilə bankların artıq müştərinin özünə-evinə və ya iş yerinə fərdi hesabı vasitəsi ilə əlçatanlılığını ifadə edir. Bu xidmətə sadəcə bank və müştəri arasında elektron əlaqənin olması və hər hansısa bir "interface" olması kifayət edir. Bunun vasitəsilə müştəri öz şəxsi hesabındankı hər növ məlumatı əldə edə bilir, hesablar arsında transfer edə bilir, hətta öz bankına müxtəlif təlimatlar verə bilir.

Müştərilərin bankın şöbə və filiallarına getmək məcburiyyətindən xilas edən PC bankçılıq xidmətlərinə banklar iki əsas səbəbdən önəm verirlər:

- Bu xidməti təmin etmək yeni şöbə açmaq yolu ilə coğrafi olaraq genişlənmə siyasətinə nisbətdə daha ucuz bir genişlənmə yoludur;
- Ev və iş yerlərində istifadə edilən elektron alət və xidmətlərin geniş miqyasda yayılması banklara daha asan və geniş bir şəkildə təklif etməyə imkan verir.

Xüsusi ilə biznes mühitində "PC bankçılıq" önəmli yer tutmaqla yanaşı maliyyə menecerlerinə asanlıqla nağd vəsaitlərin axımını, ödəmə əməliyyatlarının vaxta və məbləğə görə tənzimlənməsi məsələlərində ciddi və dəyərli üstünlüklər qazandırırlar.

Günümüzdə telefonların kütləvi istifadəsi bank sektorunda da bu alətin kütləvi istifadəsinə müştəri ilə bank arasında telefonun vasitə kimi istifadəsinə imkan yaradır. Bankların telefon vasitəsi ilə müştəri xidməti göstərməsi və hər hansısa bir informasiya bazasından məlumat öyrənməsi prosesində 3 idarəetmə forması mövcuddur [1]:

- Müştərilər banklara zəng edərək hər hansısa bir insanın köməyi olmadan məlumat əldə edə bilirlər. Kompüterdəki səs yazıları zəng edən şəxsləri avtomatik cavablandırır.
- Bəzi bank sistemləri şəxslərin səslərini ayıra bilirlər və beləcə verilən təlimatlara görə müvafiq şəkildə cavablandırır; (bu texnologiyanın xəta halları çox müşahidə olunur. Bu da, adətən, telefon xidmətlərinə "back-up" etmək üçün istifadə edilir.)
- Telofon knopkaları bank təlimatları ilə porqramlana bilər, eləcə də telefon knopkalarını istifadə edərək istədiyi xidməti seçə bilər.

***Məlumat mərkəzləri-"Call centres"*** hava limanı, xəstaxana, sığorta kimi bir sıra sektorlarda daha çox yayılsa da, ən geniş tətbiqini bank sektorunda göstərir. Texnologiyanın tətbiqi məlumat mərkəzlərini daha da fərqliləşdirməklə səslə müştərilərin tanınıb daha dərin və fərqli xidmətlərin göstərilməsini həyata keçirir. Məlumat mərkəzləri pulçəkmə əməliyyatından başqa demək olar ki,

bütün əməliyyatları idarə etmək funksiyalarını icra etməyə kömək edir. Məlumat mərkəzi "vizual şöbə" kimi də adlandırılaraq fiziki bir şöbədən daha az maliyyə xərc edilərək (təxmini-75% daha az) yaradılır və xidmət göstərə bilir [1]. O cümlədən xidmət və satış kanalı funksiyası icra edən məlumat mərkəzləri müştəriləri uzun növbəli gözləmədən xilas etməklə yanaşı, onların bir şöbədə alabiləcəkləri bütün xidmətlərin əksəriyyətini heç bir maddi ödəmə etmədən göstərə bilirlər. Həmçinin bu sistem müştərilərin nömrələrini qeydə alaraq onlara "geridönüş"(müştəriyə sonradan zəng etmə) etməyə və yeni məhsulları tanıtmağa imkan yaradır.

***İnternet bankçılıq*** – günümüzdə fiziki şöbələrdə edilən bütün əməliyyatları icra etməyi internet üzərindən etməyə imkan verir. İnternet bankçılığın ilkin mərhələdə nağd pul əldə etmə funksiyasını icra etməsə də, bunun "smart card" sistemi ilə reallaşdırılması mümkündür. İnternetin var olunduğu gündən bank sisteminə tətbiqi günlük birja məlumatları, real-time iqtisadi məlumatlar, valyuta, səhm, portfel idarəedilməsinə dəstək olacaq proqramlarla zənginləşmişdir. İnternet bankçılığın gətirdiyi bazar avantajı, hər müştəriyə xüsusiləşmiş xidmət təmin edir. Bazara yeni bir məhsulun girməsi, xidmətlərin növləşdirilməsi, bankların müştəriyə çatmağı üçün internet bankçılıq ən asan vasitədir. İnternet bankçılıq vasitəsi ilə bankların xidmətlərin maliyyətlərində (xərclərdə) ciddi fərq gözə çarpır. Belə ki, aparılmış araşdırmaya əsasən ənənəvi bankçılıq və innovativ yeniliklərin tətbiq edildiyi yeni nəsil bankçılıq xidmətlərinin ümumi bir məhsula-xidmətə görə xərci aşağıdakı kimidir [1]:

- Şöbə üzrə xidmət-1.07$
- Telefon xidməti ilə - 0.54 $
- ATM ilə xidmət-0.27 $
- PC üzərindən xidmət- 0.015$
- İnternet bankçılıq xidməti-0.010$

İnnovativ yeniliklər banklara yeni pul qazanmaq yolları və müştərilərini əldə saxlmaq üçün onların dəyərli olduğunu göstərəcək müxtəlif üsullar və xidmətlər təşkil edə bilmək imkanı verir. Bunları ümumi sıralasaq, aşağıdakı formada başlıqlar altında toplaya bilərik [10]:

**1-Məlumatın pula çevrilməsi**: Banklar, məlumatların analitiklər üçün bazarda yeni imkanlar yarada biləcəyini başa düşürlər. Məsələn, Cənubi Afrikadakı "NedBank" treyderlərə bazarla əlaqəli məlumat verən xidmətləri ilə daha dərin məlumatlar təqdim edir və müştərilər bu xidmət üçün pul ödəyirlər. Bu cür xidmətləri təklif edən banklar müştərilər tərəfindən daha çox etimad qazanır və müştərilər onları daha çox seçirlər.

**2- Sosial Dəyər Zənciri**: Bankların yeniliklər haqqında heç də həmişə özləri düşünmür, bu işin bir hissəsini sifarişçilərə yönəldirlər. Müştərilərin də bu prosesə can atdıqlarını da görürük. Bir çox bank müştərilərinin fikirlərini bu şəkildə toplayır (krodsourcing). İtalyan bankı olan –"Widiba" müştərilərindən yeni nəsil bankçılıq xüsusiyyətlərinin nədən ibarət olduğunu soruşdu və deyilənləri tətbiq edərək daha da müştəri etimadını qazandı.

**3- Robot Gücü:** Xüsusilə Yaponiyada kassa işçilərini əvəz edən robotlar görünməyə başlamışdır, lakin bütün iş bununla bitmir. UBS, Watson platforması ilə IBM-in yüksək qiymətləndirilən müştərilərinə real vaxt portfel analitik xidmətləri təqdim etməkdədir. DBS eyni formada xidmət göstərir.

**4- Obyektlərin bank işi (BoT):** Şübhəsiz ki, internetin əlçatarlılığı bütün dünyada yüksək həddə çatmağa və onun kütləvi istifadəsini asanlaşdırır. Bundan ilhamlanan banklar bzi ev əşyalarını bank xidmətinin bir parçasına çevirməkdədir. Belə ki, ABŞ Bankı hesabınızda hərəkət olduqda evdə fənərlərə bir keçid təmin edir və onlar yanıb sönməyə başlayır. Brandesco bank hesabınızla avtomobiliniz arasında əlaqə yaradır. Digər tərəfdən Yeni Zelandiya ASB, uşaqlara pul anlayışını anlamağa imkan verən əyləncəli bir üsul-yeni bir oyun yaradaraq xidmətdən daha uzağa nüfuz edir.

**5- Hər şeyi əhatə etmək:** Banklar artıq hərtərəfli xidmətlər göstərməyə çalışırlar. Bunun bir neçə nümunəsi vardır. Xüsusilə proqnozlaşdırıcı analitik məlumatlardan istifadə hətta müştərilərin həyat yoldaşlarının doğum günü olduğu barədə xatırlatmalar edərək fərqli bir xidmət göstərir. Buradakı əsas fikir yalnız xüsusi günü xatırlatmaq deyil, həm də keçən il yoldaşınıza hədiyyə olaraq aldığınız şeyləri göstərmək və bu anda onun xoşuna gələ biləcək hədiyyələrin təkliflərini verməkdir. Rusiyanın Alfa Bankı, Avstraliyanın CBA, İspaniyanın Santander və Braziliyanın Caixa şirkətləri

bunu həyata keçirməkdədir.

**6- Fərqli ödəniş metodları**: İspan La Caixa'nın toxunmağa ehtiyac olmayan bilək bandı, Kanadanın RBC və İngiltərədən gələn HBOS biometrik izləmə məhsulu, Avstraliya Heritage Bankının geyilə bilən paltarları yeni trendlərdir. Bu günləri ödəmək üçün barmağınızı şık etmək kifayətdir.

**7-İnteraktiv hərəkətlər:** Darıxdırıcı əməliyyatlar, uzun sürən qeydiyyatlara müştəri olaraq daha çox alışmışıq. Hal-hazırda bir çox bank pul əməliyyatlarını daha canlı hala gətirərək tətbiqlərini digər plug-play xidmətləri ilə birləşdirməkdədirlər. Adətən, Google Maps, Facebook və Instagram kimi xidmətlər ilə inteqrasiyadan istifadə olunmaqdadır. Buna misal olaraq, Moven tətbiqi göstərmək olar. Bu proqramlar xərcləmə həddini aşdığınız zaman smartfonunuzun ekranını qırır. (əlbəttə ki, yalnız görüntünü simulasita edilir)

**8-Həmişə əlçatan**: Bankçılıq hazırda 24/7 fəaliyyət göstərir. Ancaq Cənubi Afrika Standard Bankı kimi bəzi banklar bundan kənara çıxır. Müştəri nümayəndələrini istifadə edə biləcəkləri tək bir interfeys ilə təmin edirlər və bu interfeys, müştərinin üstünlük verdiyi rabitə kanalından asılı olmayaraq, işlək ola bilər. Məsələn: Facebook Messenger, WhatsApp, Google Hangouts.

**10- Hər şey Fərdi**: Hər kəsə standart məhsul və xidmətlərin tətbiq olunduğu dövr bağlanır artıq. İndi tam işləyən bir rəqəmsal müştəri platformalar vardır. Polşanın İdea Bankı müştərilərinə təqdim etdiyi tam əhatəli maliyyə xidmətinə görə mükafata layiq bilinmiş və öz xidmətlərinə "bulut tərzli" internet bankçılqdan "uber" tərzli bankomatlara kimi fərqli xidmətlər təmin edir.

Qeyd etdiyimiz kimi, innovativ yeniliklər banklara rəqabətdə və müştərilərin qazanılması mövzusunda xüsusilə kömək edir, ancaq unutmamaq lazımdır ki, bu yeniliklərin mənfi tərəfləri başqa sözlə desək, banklar üçün dezavantajları da vardır. Bu mənfi cəhətlərdən biri ATM şöbələrinin quraşdırılması üçün banklar arasında reqabətin sürətlənməsi ilə daha çox ATM qoymaq üçün bankların daha çox məsrəf etməyə məcbur olmalarıdır. O cümlədən banklar nə bu vasitələrdən imtina edə bilir, nə də onları çoxaltmaq üçün çox xərcləmək niyyətindədirlər. Bu məsələnin həllinə müxtəlif üsullarda yanaşılsa da, Türkiyədə 6 böyük bank 3000 ATM-ni birləşdirərək "Altın nokta grupu" quraraq müxtəlif kartları eyni bankomatda istifadə etməklə yararlana biləcəkləri bir həll ortaya qoymuşdurlar [1].

Başqa bir problem internet bankçılığın müştəriləri daha tez qazanaraq bankların gəlir təmin etməsi qısa zamanda (an etibarı ilə) mümkün olmaması və daha çox stratejik xarakter daşıması ilə o qədər də qazanclı olmamasıdır. Digər bir tərəfdən isə 30 il ərzində ancaq qəbul edilmiş kredit kartlarının analoji olaraq insanların ənənəvi bank xidmətlərini əvəzlənməsi müddətinin heç də qısa olmaması məsələsini ortaya çıxarır. Həmçinin bir çox müştəri ənənəvi formada xidmətlərdən asanlıqla imtina etmirlər.

İT ünsürlərinin bank sisteminə tətbiqi ənənəvi bank soyğunları yerinə daha ağır və bir o qədər də qeyri-adi olan kiber cinayətləri, bank hesablarının oğurlanması, sistemlərinin xakerlər (hacker) tərəfindən dağıdılması problemini ortaya çıxarır. Digər bir tərəfdən isə innovasiyaların bank sistemində kütləvi tətbiqi məşğulluq məsələsini iki cəhətdən diqqət mərkəzinə gətirir. Birinci növbədə yükək texniki yeniliklər daha təkmil bacarıqlar olan kadrlar tələb etdiyi üçün bu bankların əməkhaqqı nisbətlərinə-əməyin ödənişi normalarına ciddi təsir edərək bankların xərc maddələrinin şişməsinə zəmin yaradır, digər yandan isə yeniliklərə cavab verməyən heyət işlərini itirir və ya yeni bir ideya ya da yüksək texnika bir neçə insanın icra etdiyi işi daha ucuz reallaşdıra bildiyi üçün işsizlik məsələsinə mənfi təsir göstərərək onun normalarının çətinləşməsinə və faiz olaraq böyüməsinə səbəb olur.

Bütün bunları nəzərə alaraq innovativ yeniliklərin tətbiqi bank sektorunu inkişafa nə qədər çox yönəldirsə də, onun daxili sisteminin təhlükəsizliyi və kommersial sirlərinin qorunması üçün daha çox diqqət etməyə və müdafiə sistemi qurmaq üçün xərc çəkməyə məcbur edir.

## ƏDƏBİYYAT


1. Modern Bankacılık & Teori ve Uygulama-EZGİ KİTABEVİ-Prof. Dr. M. İlker Parasız. Bursa: 2014
2. Toprak, M. ve Coşkun, M. (Edit.) Bankacılık ve Sigortacılığa Giriş, 1.Baskı, (E-kitap), T.C. Anadolu Üniversitesi Yayını No: 2478, Eskişehir: 2012
3. Türkcan, E. "Bir Teknoloji Tarihini Okumaya Hazırlık", Ünite 1, Teknoloji tarihi (Ekitap),

Baskı, T.C. Anadolu Üniversitesi Yayını No: 2404, Eskişehir: 2011
4. Orhan, A. ve Genç, S. Y. (2018), “Bilişim Teknolojisindeki Gelişmenin Sosyoekonomik Etkileri, Yönetim ve Ekonomi Araştırma Dergisi”, Cilt: 16, Eylül
5. Koçaşlı, İ. O. (2017), “Yeni Teknolojilerin Türk Bankacılık Sektörüne Ekonomik Etkileri”, Journal Of Current Researches On Social Sciences, Volume:7, Issue:3, 363-374.
6. Kaya, F. (2009), Türkiye Bankalar Birliği, Türkiye’de Kredi Kartı Uygulaması, İstanbul: TBB Yayın No: 263.
7. Arslan, G. & Yavuzaslan, K. (2019), Bankacılık Sektöründe İnovasyonun Yeri ve Önemi: Türkiye Örneği, BMIJ, (2019), 7(2): 946-968 doi: http://dx.doi.org/10.15295/bmij.v7i2.1131
8. Çakmak, A.Ç., Güneşer, M.T. ve Terzi, H. (2011), “Bankaların Müşterilerine Sunduğu İnternet Bankacılığı Hizmetinin Müşteriler Tarafından Değerlendirilmesi: Karabük Şehir Merkezinde Uygulama”, Karabük Üniversitesi, Sosyal Bilimler Enstitüsü Dergisi, Sayı: 31
9. Liébana-Cabanillas, F. Sánchez-Fernández, J. and Muñoz-Leiva, F. (2014), “Antecedents of the Adoption of the New Mobile Payment Systems: The Moderating Effect of Age”, Computers in Human Behavior 35 (2014) 464–478.
10. Liao, Z. and Cheung, M.T. (2001), “Internet-based e-banking and Consumer Attitudes: An Empirical Study”, Information and Management, 38 (5), 299–306
11. Moslehpour, M., Pham, V.K., Wong, W.-K. and Bilgiçli, İ. (2018), “E-Purchase Intention of Taiwanese Consumers: Sustainable Mediation of Perceived Usefulness and Perceived Ease of Use”, Sustainability, 10, 234
12. Pala, E. ve Kartal, B. (2010), “Banka Müşterilerinin İnternet Bankacılığı İle İlgili Tutumlarına Yönelik Bir Pilot Araştırma”, Yönetim ve Ekonomi: Celal Bayar Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi, 17(2), 43-61
13. Sakınç, S. Ö. ve Kakaç, B. (2018), “Banka Personellerinin Performans Değerlendirmesine Bakış Açıları: Çorum İli Örneği”, Selçuk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 116-129
14. Yıldız, Ç. (2017), “Yeni Teknolojilerin Bankacılık Sektörüne Olan Sosyoekonomik Etkileri: Türkiye Örneği”, Yayımlanmış Bitirme Projesi, Marmara üniversitesi Sosyal Bilimler Enstitüsü, İstanbul.

## РЕЗЮМЕ

**Сахил Муртузаев**

## РОЛЬ ИННОВАЦИЙ В РАЗВИТИИ БАНКОВСКОГО СЕКТОРА

Развитие информационных технологий, в свою очередь, оказало влияние на все отрасли экономики. В частности, внедрение новых инноваций в банковском секторе играет важную роль в конкурентоспособности банков и повышении показателей прибыльности. Однако инновации для банков создают основу для того, чтобы банки тратили дополнительные расходы на повышение безопасности и качества обслуживания, даже если они бесплатны.

## SUMMARY

**Sahil Murtuzayev**

## THE ROLE OF İNNOVATİON İN THE DEVELOPMENT OF THE BANKİNG SECTOR

The development of information technologies, in turn, has had an impact on all sectors of the economy. In particular, the introduction of new innovations in the banking sector plays an important role in the banks' competitiveness and increase in profitability rates. However, innovation for banks is setting the groundwork for banks to spend on extra costs to improve their safety and service quality, even though they are free of costs.

# MÜNDƏRİCAT

## PLENAR İCLAS

1. **Elbrus İsayev.** Müasir innovasiyalı inkişafın təmin edilməsi: elm-təhsil-iqtisadi fəaliyyət zənciri…...3
2. **Teymur Abbasov.** Azərbaycan Respublikasında innovasiya yönümlü iqtisadi inkişaf modelinə keçidin zəruriliyi və davamlı iqtisadi inkişafın təmin edilməsinin əsas prinsipləri……...7
3. **Təbriz Yadigarov**. Dəniz nəqliyyatının iqtisadi artıma təsirinin qiymətləndirilməsi……...11
4. **Mehriban İmanova.** Sənaye 4.0 və onun iqtisadi inkişafa təsiri……...16

### I BÖLMƏ
### İNNOVASİYA YÖNÜMLÜ İQTİSADİYYAT

5. **Zəhmət Şahverdiyev.** Müstəqilliyin ilk illərində Naxçıvan Muxtar Respublikasında sənaye və kənd təsərrüfatında innovativ prinsiplər……...20
6. **İsa Alıyev, Famil Rüstəmov.** Aqrar sahənin innovasiyalı inkişafının təmin olunması məsələləri haqqında……...24
7. **Nuriyyə İbrahimova.** Müasir innovasiyalı dövr: sürətli inkişaf və sosial-iqtisadi yüksəliş......28
8. **Həsən Məmmədov.** Davamlı inkişaf şəraitində infrastrukturların inkişafında innovasiyalar...32
9. **Kəmalə Təhməzbəyova.** Azərbaycanda innovasiya tətbiqinin istiqamətləri……...36
10. **Məhsəti Əsgərova.** Azərbaycan iqtisadiyyatının innovativ inkişafı və modernləşdirilməsi.....39
11. **Mayisə Abbasova.** Naxçıvan Muxtar Respublikasının innovasiyalı iqtisadiyyatının əsas şərtləri……...44
12. **Sahil Quliyev.** Müasir şəraitdə innovasiyalı iqtisadiyyatın inkişafının səciyyəvi xüsusiyyətləri. dövlətin investisiya-innovasiya siyasəti……...47
13. **Rəsul Ələkbərov.** Azərbaycan iqtisadiyyatında innovasiyanın və vergi stimullaşdırılmasının rolu……...51
14. **Ehtibar İmamverdiyev, Çinarə Nəsibova.** Aqrar sahədə sahibkarlığın innovasiyalı inkişafının zəruriliyi……...55
15. **Məhəmməd Süleymanov.** Azərbaycanda yeyinti sənayesi müəssisələrinin inkişafında innovasiyaların rolu……...58
16. **Eltun İbrahimov.** Sahibkarlıq fəaliyyətinin genişləndirilməsində innovasiyaların rolu……...62
17. **Təranə Məmmədova.** Aqrar sahənin rəqabət qabiliyyətli və innovasiyayönümlü dayaniqli inkişaf istiqamətləri……...65
18. **Emil Seyidov.** Qısamüddətli kreditləşmə müəssisənin pul dövriyyəsinin elementi kimi……...70
19. **İsmayıl Məmmədov.** Beynəlxalq kapitalın cəlb edilməsinə dair nəzəri yanaşmalar……...74
20. **Nicat Hüseynov.** Həyat sığortası ölkənin sığorta bazarında fəaliyyətin əsas istiqaməti kimi……...78
21. **Ramin Bayramov.** Kredit siyasətinin əsas funksiyaları……...82
22. **Vəfa Əzizova.** Banklarda kiçik və orta biznesin kreditləşdirilməsinin prioritet istiqamətləri……...86
23. **Orxan Bağırov.** İqtisadiyyatın diversifikasiyasının prioritet istiqamətləri……...90
24. **Ayaz Nemətli.** Postneft dövründə bankların antiböhran siyasətinin əsas istiqamətləri……...94

## II B Ö L M Ə
## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

25. **Ağarza Rüstəmov, Əbdülhüseyn Zamanov.** Naxçıvan Muxtar Respublikasının rəqabət qabiliyyətli və ixracyönümlü inkişafına keçidin innovativ istiqamətləri....98
26. **Mübariz Bağırov.** Banklarla real sektorun qarşılıqlı əlaqələrinin institusional amilləri....103
27. **Müslüm Cabbarzadə.** İnnovasiya potensialından səmərəli istifadənin nəzəri məsələləri....109
28. **Mehdi Bağırov.** Naxçıvan Muxtar Respublikasında aqrar təyinatlı eksperimental subyektlərin yaradılması: ənənələr və inkişaf istiqamətləri....114
29. **Bəhram Həsənov.** Ərzaq kompleksinin davamlı və dayanıqlı inkişafı....121
30. **Rüfət Əliyev.** Naxçıvan MR-də sosial sığorta münasibətləri: məcburi dövlət sosial sığortası və könüllü sığorta....125
31. **Samir Həziyev.** Sənaye subyektlərinin fəaliyyətinin mahiyyəti və təsnifləşdirilməsi....129
32. **Əbdül-Səməd Həsənov.** Bakının Ələt qəsəbəsində yaradılan azad ticarət zonasının respublika iqtisadiyyatının davamlı inkişafına təsiri....135
33. **İlqar Sadıqov.** Qeyri-neft sektorunun investisiya təminatının artırılması....139
34. **Novruzə Adilova.** Bazar iqtisadiyyatı şəraitində əhali məşğulluğunun tənzimlənməsi....143
35. **Nicat İsaqov.** Azərbaycanda pensiya təminatı sisteminə yeni yanaşma və inkişafı mexanizmləri....148
36. **Emil Mirzəyev.** Aqroemal sektorunda investiya fəaliyyətinin təhlili və təkmilləşdirilməsi məsələləri....159
37. **Yunis Sadıqov.** Emal sahəsinin mövcud durumu və inkişaf istiqamətləri....163
38. **Rəmzi Abdullayev.** İqtisadiyyatın davamlı inkişafında ərzaq təhlükəsizliyi məsələləri *(qlobal ərzaq təhlükəsizliyi indeksi əsasında)*....168
39. **Teymur Mehdiyev.** Müasir distribüter fəaliyyətinin əsasları və inkişaf xüsusiyyətləri....173
40. **Sədaqət Əhmədova, Ləman Aliyeva.** Sahibkarlıq fəaliyyətinin elmi mahiyyəti və ona müasir yanaşma....176
41. **Samirə Abasova, Sənan Yəhya.** Dövlət marketinq fəaliyyətinin inkişafında strateji yol xəritələrin perspektivləri....180
42. **Mübariz Təhməzov.** İnnovasiya fəaliyyəti korporativ idarəetmənin ən vacib istiqaməti kimi....185

## III B Ö L M Ə
## XARİCİ İQTİSADİ ƏLAQƏLƏR VƏ İNNOVASİYA

43. **Ceyhun Mahmudov.** İnnovasiya potensialının reallaşdırılması region iqtisadiyyatının tarazlı inkişafının zəruri şərti kimi....190
44. **Əşrəf Ələkbərov.** İnnovasiyalı inkişafda startapların rolu....197
45. **Dilsuz Qasımov.** Qloballaşma şəraitində qeyri-neft sektorunun inkişafında iqtisadiyyatın şaxələndirilməsi ınnovasıya amılı kımı....200
46. **Həvva Adıgözəlova.** Müasir şəraitdə ölkənin innovativ iqtisadi potensialının formalaşmasında təhsilin rolu....206
47. **Vaqif Mehdiyev.** Müəssisələrin inkişafında innovasiyaların rolu....210
48. **Hüseyn Bağırsoylu.** Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xarici iqtisadi əlaqələrin rolu....213
49. **Rəna Sultanova, Məhin Şahsuvarlı.** İntellektual kapitalın qiymətləndirilmə metodları....217
50. **Sevda Abbasova.** Müasir bazar iqtisadiyyatı şəraitində rəqəmsal turizm sahəsinin ölkənin iqtisadi inkişafında rolu....222

51. **Kamran Abdullayev.** Beynəlxalq reytinqlərdə Azərbaycanın nəqliyyat sektorunun mövqeyinin yüksəldilməsi məsələləri.......................................................................226
52. **Cəvahir Babanlı.** İnformasiya kommunikasiya texnologiyalarının iqtisadi inkişafda rolu...231
53. **Gülnarə Fətəliyeva.** İnformasiya-kommunikasiya texnologiyaları sektorunun inkişafında innovasiyaların rolu..........................................................................................234
54. **Aygün Əliyeva.** Azərbaycanda sənaye sahəsinin davamlı inkişafında müasir innovasiyaların rolu...............................................................................................................239
55. **Amirə İsmayılova.** Beynəlxalq kreditləşmə beynəlxalq maliyyə-kredit təşkilatlarının Azərbaycanda fəaliyyət istiqaməti kimi......................................................244
56. **Mahir Abbaszadə.** Azərbaycanda innovasiya fəaliyyətinin səmərəli təşkilinin əsas istiqamətləri....................................................................................................................248
57. **Эллада Ханкишиева.** Роль инноваций в золотодобывающей промышленности Азербайджана.......................................................................................251
58. **Namiq Abbasov.** İnnovasiyanın iqtisadi artıma təsiri.....................................................256
59. **Sahil Murtuzayev.** Bank sektorunun inkişaf etdirilməsində innovasiyaların rolu...............261